AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU

**ADİL ƏSƏDOV**

FƏLSƏFİ
PENTALOGİYA

Beşinci cild

# SİYASƏTİN FƏLSƏFƏSİ:

mahiyyətin gerçəkləşdirilməsinə yönələn insani iradə
və onun tarixi taleyi üzərində düşüncələr

(insan, cəmiyyət, hakimiyyət və siyasət
spiritualist aristokratizm fəlsəfəsi kontekstdə)

BAKI – Təknur – 2013

Ön sözün müəllifi –

akademik
**FİRUDİN KÖÇƏRLİ**

Elmi redaktor:
fəlsəfə elmləri doktoru, professor
**İlham MƏMMƏDZADƏ**

Əsərə rəy verənlər:

akademik
**Əfrand DAŞDƏMİROV**

fəlsəfə elmləri doktoru, professor
**Əlikram TAĞIYEV**

fəlsəfə elmləri doktoru
**Tahirə ALLAHYAROVA**

Adil Əsədov
Siyasətin fəlsəfəsi**:** mahiyyətin gerçəkləşdirilməsinə yönələn insani iradə və onun tarixi taleyi üzərində düşüncələr (insan, cəmiyyət, hakimiyyət və siyasət spiritualist aristokratizm fəlsəfəsi kontekstində). // Fəlsəfi pentalogiya: 5-ci cild. // Yenidən işlənmiş və genişləndirilmiş nəşri. Bakı: Təknur, 2013.
464s.

Adil Əsədovun oxucuların mühakiməsinə verdiyi *Siyasətin fəlsəfəsi* monoqrafiyası onun tərəfindən irəli sürülən və spiritualist aristokratizm adlandırılan fəlsəfi sistemin tərkib hissəsi kimi çıxış edir.

Monoqrafiyasında müəllif bəşər təfəkkürünün ən görkəmli ixtiralarından biri kimi səciyyələndirdiyi dövlət fenomeninin özünəməxsus fəlsəfi təqdimatını verir. Bu təqdimat siyasi təfəkkürün metafizik və substansial başlanğıclarının aşkarlanmasına əsaslanır və müəllif tərəfindən aristokratik, tiranik, kommunistik və demokratik adlandırılan siyasi doktrinaların tarixi inkişafda dominantlıq məkanını müəyyənləşdirir.

Adil Əsədovun təqdim etdiyi fəlsəfi sistemin şərh olunduğu üslub fəlsəfi pentalogiya janrının ilk nümunəsi kimi də qiymətləndirilə bilər.

Hazırkı nəşr "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası zəminində yenidən işlənmiş və genişləndirilmişdir.

Monoqrafiya fəlsəfi elmlər üzrə mütəxəssislər, siyasətçilər və siyasətşünaslar, ali məktəb tələbələri, həmçinin siyasət və fəlsəfə mövzuları ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulur.

© Adil Əsədov, 2013

Atamın,
boynumda dünya boyda haqqı olan insanın,
İSGƏNDƏR HİDAYƏT OĞLU ƏSƏDOVUN
(1929-2001)
əziz xatirəsinə ithaf edirəm

## BİRİNCİ NƏŞRƏ SÖZÖNÜ:
## Fəlsəfəmizdə yeni bir səhifə

Adil Əsədovun "*Siyasətin fəlsəfəsi*" adlandırdığı əsər bilavasitə olaraq sosial təşkilatlanmanın fəlsəfi mənalandırılması ilə, dolayısı yolla isə aristokratik siyasi təfəkkürün substansial əsaslarının aşkarlanması ilə bağlıdır.

Monoqrafiyanın ən səciyyəvi cəhəti ondadır ki, konkret fəlsəfi problem burada fəlsəfənin bütövlükdə təqdimatı zəminində verilir. Bu isə eyni zamanda həm də fəlsəfənin bir bütöv bilik tipi kimi sintetik əsasda qavranılmasına kömək edir.

Siyasətin fəlsəfi mənalandırılması ilə bağlı öz axtarışlarının çıxış nöqtəsini müəllif *həyat fəlsəfəsi*nin epistemoloji prinsiplərində görür, subyektin daxili həyat axını ilə bu axının xarici dünyadakı təsdiqi arasındakı ziddiyyəti hər cür təfəkkürün, o cümlədən siyasi təfəkkürün real zəmini kimi verir.

Belə bir epistemoloji müqəddimə Adil Əsədovda uyğun ontoloji prinsiplərlə bağlanır: substansial həyat ilə dünyada gerçəkləşmiş həyat arasındakı ziddiyyət subyektin dünya ilə yanaşı mövcudluq qaydasından asılı olaraq hər bir dövrdə konkret problem formasında qavranılır, həmin qavranılmanın elementi kimi isə bu və ya digər mütləq varlıq modeli çıxış edir. Belə ki, Adil Əsədovun fikrinə görə, insan təfəkkürü özünün hər bir inkişaf mərhələsində bu və ya digər mütləq varlıq modelini və onu ifadə edə bilən mütləq bilik modelini yaradır, qədim dövrdə Dünya Ruhu, Orta əsrlərdə Vahid Tanrı, Yeni dövrdə isə Materiya mütləq varlıq kimi qiymətləndirilmiş, qalan hər şeyin isə mütləq varlığın təzahür forması olduğu güman edilmişdir, bu modellər uyğun dövrlərin dünyagörüşünü doğurmuşdur.

Ontoloji prinsiplərin və ona uyğun gələn epistemoloji qaydaların – «metafizik müqəddimə»nin – Adil Əsədov tərəfindən təklif olunan təkamülünü düzgün anlamaq üçün «qədim dövr», «orta əsrlər» və «Yeni dövr» anlayışlarının onun tərəfindən yenidən mənalandırılması ilə bağlı semantikanı xatırlamaq lazım gəlir. «Metafizik müqəddimə»-dən siyasi fəlsəfəyə məntiqi keçid Adil Əsədovda bu semantika vasitəsilə həyata keçirilir. Burada Qədim dövr cəngavərliyin, Orta əsrlər icma mədəniyyətinin, Yeni dövr isə sivilizasiyanın – şəhər mədəniyyətinin üstünlüyü və aparıcı mövqeyi ilə səciyyələndirilir və dövrlərin təbii ardıcıllığının başqa bir sxemi təklif olunur.

Adil Əsədov Qədim dövrün başlanğıcını dövlətin yaranması ilə bağlayır və hər bir dövlətin aristokratizmin təşəkküründən tükənməsinə doğru istiqamətlənən tarixi yol keçdiyi ideyasını irəli sürür. Siyasi aristokratizmin qismən tükənməsi ilə şərtlənən demokratizm Yeni dövrün başlanğıcı, tam tükənməsi ilə şərtlənən kolonializm isə sonu kimi təqdim edilir. Kolonializmdə xalqın rəiyyətlik duyğusu korşalır, bəndəlik duyğusu isə son dərəcə inkişaf edir. İnsanlığın siyasi hakimiyyətdən üz döndərərək fövqəlbəşər aristokratizmə – ilahi qüdrətə – üz tutması və sığınması isə Orta əsrlərin mahiyyəti kimi şərh edilir.

Dövlətin mahiyyətini sinfi mübarizədə görən ənənəvi marksist nəzəriyyədən fərqli olaraq Adil Əsədov təsdiq edir ki, dövlətin mahiyyəti heç də onun zorakılıq aparatı olmasında deyildir, əksinə himayə sistemi olmasındadır, insanlar dövlətin varlığını yalnız zorakılıqdan, azğınlıqdan, zülmdən, ədalətsizlikdən və təcavüzdən mühafizə olunduqları halda hiss edirlər.

Siyasi mahiyyətin məhz belə bir anlaşılma modeli kimi Adil Əsədov aristokratik siyasi doktrinanı ön plana çıxarır və aristokratizmi siyasi təfəkkürün ilkin və əzəli forması kimi təqdim edir. Müəllif birmənalı olaraq təsdiq edir ki, dövlət yalnız aristokratik təfəkkür prinsipləri əsasında fəaliyyət göstərdikdə öz mahiyyəti və mövcudluğu arasında uyğunluğa nail olur. Tiranik, demokratik və kommunistik təfəkkür əsasında fəaliyyət göstərən dövlətin mahiyyəti və mövcudluğu arasındakı münasibətlər isə ziddiyyət kimi səciyyələndirir. Siyasi təfəkkür tiranizm, demokratizm və kommunizm xarakterini kəsb etməklə, özünün tarixi təhrif formalarını yaradır. Əgər cəmiyyəti hərəkətə gətirən siyasi instinktlər nəcib təbiətlidirsə, xilaskar təbiət-

lidirsə, ədalətli əxlaqa istinad edirsə, intellektual qüdrətdən doğursa və yenilməz iradə ilə gerçəkləşdirilirsə, dövlət öz həqiqi mahiyyətinə qovuşmuş olur, əks halda isə ədalətsizliyin dayağına çevrilərək eybəcərləşir.

Aristokratizm, demokratizm, kommunizm ideyalarının Adil Əsədov tərəfindən yenidən mənalandırılması son dərəcə orijinaldır. Aristokratizm və demokratizm arasında müəllif tərəfindən aparılan paralellər isə xüsusən maraqlıdır. Müəllifin özünün obrazlı ifadəsinə görə, aristokratizm haqqa və əxlaqın mütləqliyinə, demokratizm isə – rasional praqmatizmə, formal olaraq isə, - hüquqa və qanuna istinad edir, aristokratizm maskulin dəyərlərə, demokratizm isə feminin dəyərlərə söykənir.

Dövlətin öz təbii inkişafında gəlib keçdiyi təkamül mərhələlərinin hər birində müəyyən siyasi təfəkkür tipinin aparıcı mövqeyə malik olması və uyğun siyasi strukturların xüsusiyyətini müəyyənləşdirməsi barədə müəllif tərəfindən söylənilən fikirlər də maraqlıdır. Adil Əsədov əsas hesab etdiyi dörd siyasi doktrinanı - kommunistik, tiranik, demokratik və aristokratik doktrinaları -nəzərdən keçirir və belə bir mülahizə irəli sürür ki, bu siyasi doktrinalardan hər biri təfəkkür tiplərindən birinin əsasında qurulur və siyasi təkamülün uyğun mərhələsini nəzəri olaraq ideallaşdırır, dövlətin mahiyyətini və mənasını həmin mərhələdə görür. Müəllifin fikrinə görə, aristokratik siyasi doktrina dövlətin təşəkkül mərhələsini, tiranik siyasi doktrina siyasi hakimiyyətin formalaşma mərhələsini, demokratik siyasi doktrina vətəndaş cəmiyyətinə keçid mərhələsini, kommunistik siyasi doktrina isə – dövlətin bir siyasi hakimiyyət olaraq tənəzzül mərhələsini daha yaxşı ifadə edir.

Adil Əsədov ideal dövlət barədə hər bir siyasi doktrina üçün səciyyəvi olan təsəvvürlə uyğun etik ideyalar arasında maraqlı paralellər aparır. Onun siyasi fəlsəfəsində ideal dövlət kommunistik siyasi doktrinada əxlaq ideyasının, tiranik siyasi doktrinada mərdlik ideyasının, demokratik siyasi doktrinada qanun ideyasının, aristokratik siyasi doktrinada isə insanın təbii təyinatı ideyasının təcəssümü kimi təqdim olunur.

Dövlətin yaranması və mövcudluğu ilə ailənin yaranması və mövcudluğu arasında Adil Əsədov tərəfindən aparılmış paralellər də son dərəcə inandırıcı və maraqlıdır.

Müəllifin «dövlət sosial həyatda *maskulin* və *feminin* başlanğıcların vahid bir axına qoşulması ilə öz tarixini başlayır» tezisi yenidir və diqqətə layiqdir. Köçərilik prinsiplərinin mütləqləşdirilməsi üzərində qurulmuş cəngavər mədəniyyəti burada sosial həyatın *maskulin* başlanğıcı kimi, əkinçi həyat tərzi zəminində təşəkkül tapmış icma mədəniyyəti isə sosial həyatda *feminin* başlanğıcın mücəssəməsi kimi təqdim olunur.

Etnogenezin siyasi şərhi ilə bağlı müəllif mövqeyi də son dərəcə maraqlıdır. Müəllif xalqın formalaşmasını siyasi hadisə kimi verir və elə bu səbəbdən onu uyğun dövlətin meydana gəlməsi ilə bağlayır.

Əsərin mühüm əlamətlərindən biri burada ifadə olunan fikirlərin həyatiliyidir. Müəllif hansısa mövzunu araşdırmaqla kifayətlənmir, həyatın, daha doğrusu real insan həyatının doğurduğu həqiqi fəlsəfi problemlər üzərində düşünür.

Monoqrafiyada haqqında bəhs olunan bütün mövzular və altmövzular müəllifin təfəkkür süzgəcindən keçirilərək verilir. Adil Əsədov tərəfindən hadisələrə verilən səciyyələr onlara bu vaxta qədər verilən səciyyələrin heç birinə bənzəmir.



**Firudin KÖÇƏRLİ**,
akademik

## MÜƏLLİFDƏN ÖN SÖZ

Beşliyin sonuncu cildini möhtərəm oxucumun diqqətinə təqdim edirəm. Gözəllik fəlsəfəsinin əsasən estetik kontekstdə, Varlıq fəlsəfəsinin əsasən ontoloji kontekstdə, Təfəkkür fəlsəfəsinin əsasən məntiqi kontekstdə, Əxlaq fəlsəfəsinin isə əsasən etik kontekstdə şərh etdiyi ideyalar burada başlıca olaraq sosial-siyasi rakursda nəzərdən keçirilir və inkişaf etdirilir. Öz təcəssümünü artıq *gözəllik, varlıq, təfəkkür, əxlaq* mövzularında tapan həmin ideyalar beşliyin mövzusu baxımından bir-birindən kəskin surətdə fərqlənən bütün cildlərini, güman edirəm ki, daxilən birləşdirərək mahiyyətləri və ruhları etibarı ilə bir-birinə bağlamışdır.

Əgər Gözəlliyin fəlsəfəsi mahiyyəti ideal statusunda anlayırsa, əgər Varlığın fəlsəfəsi mahiyyətin substansiya olaraq anlamından çıxış edirsə, əgər Təfəkkürün fəlsəfəsi mahiyyəti məna anlamında qəbul edirsə, əgər Əxlaqın fəlsəfəsi mahiyyəti transsendent iradə olaraq tanıyırsa, Siyasi fəlsəfə mahiyyəti immanent iradə olaraq tanıyır.

Siyasi fəlsəfənin mənim anlamımda geniş təqdimatını verməzdən öncə isə nümunəsini artıq yaratdığımız fəlsəfi pentalogiya janrının tələblərinə uyğun olaraq ötən əsrlərdən qopub gələn sədalara diqqətlə qulaq kəsilək, bu dəfə mövzumuz təbii ki **fəlsəfə və siyasət** olacaqdır. Bu, həm də ümumiyyətlə siyasi fəlsəfənin ilkin təqdimatı kimi dəyərləndirilə bilər və onu həm də bir qədər əyaniləşdirməkdən ötrü zəruridir.

İndi isə, ötən əsrlərin mükaliməsi...

## ÖTƏN ƏSRLƏRDƏN QOPUB GƏLƏN SƏDALAR:
## *MÖVZU ƏTRAFINDA XƏYALİ MÜKALİMƏ*

### I
### (fəlsəfi müdriklik və siyasi qətiyyət)

**YASPERS:** Siyasət və siyasi nəticələr olmadan fəlsəfə yoxdur.

**PLATON:** Həqiqi və ideal dövlətdə siyasət fəlsəfədən doğmalı və bütün iqtidar filosoflara etibar edilməlidir. Filosof olan, həqiqi bilik sahibi olan hər kəs öz fəaliyyətində təsadüfi biliklərə, keçici təsəvvürlərə deyil, yalnız həqiqətə istinad edir.

**ORTEQA-İ-QASSET:** Mənsə bunun əksini düşünürəm. Filosofun hökmdarlıq, yaxud hökmdarın filosofluq etməsi haqqında böyük filosof Platonun təklifi, məncə, faciəvidir. Mənə elə gəlir ki, filosof yalnız filosof olaraq qalmalıdır. Onun fəaliyyət sferası nə siyasət, nə də son əsrlərdə olduğu kimi publisistika, maarif, elm və buna bənzər başqa şeylər olmamalıdır.

**HEGEL:** Xeyr, elə deyil. Əgər hər hansı bir predmet, o cümlədən dövlət öz ideyasına uyğun deyildirsə, bu o demək olardı ki, onun ruhu və cismi bir-birindən ayrılmışdır; birinci fikrin mücərrəd sferalarına çəkilmiş, ikinci isə ayrı-ayrı fərdlərə parçalanmışdır.

**ORTEQA-İ-QASSET:** Müəyyən dərəcədə razılaşmaq olar. Həqiqi fəlsəfənin yenidən hökmran olduğu gün insan bir daha kəşf edəcəkdir ki, o ali başlanğıcın axtarılmasına təyinatlıdır.

**FOMA AKVİNALI:** Təbii cisimlər zəkadan məhrum olsalar da, məqsədyönümlülüyə tabedirlər. Bu isə onların hərəkətlərinin həmişə və ya əksər hallarda ən yaxşı nəticəyə doğru istiqamətlənməsi deməkdir. Görünür ki, onlar məqsədlərinə təsadüfi olaraq deyil, şüurlu iradənin rəhbərliyi ilə çatırlar. Onların özləri düşüncədən məhrum olduqlarından məqsədyönümlülüyə zəkaya qabil olan

varlığın vasitəsilə nail olurlar. Deməli, təbiətdə baş verən hər bir hadisənin məqsədini müəyyənləşdirən zəkalı varlıq vardır və biz bu varlığı Tanrı adlandırırıq.

**KYERKEQOR:** İndiki zəmanədə isə hər şey siyasətdir. Dini əqidə zəmanədən yerlə göy qədər uzaqdır. Siyasətin son məqsədi də zəmanədən göy yerdən uzaq olduğu qədər uzaqdır. Siyasət yerdə başlayır ki, yerdə qalsın, ilahiyyat isə əsasını göydən aldığına görə dünyəviliyi üstələyib sonra da göyə merac etmək istəyir.

**KAMYU:** Təəssüf ki, indi bütöv xalqlar və cəmiyyətlər müqəddəslikdən ayrılmağa can atırlar. Biz dünyəviləşdirilmiş tarixi yaşayırıq.

**MAKİAVELLİ:** Siyasəti dünyanın ali başlanğıcı ilə, dini mahiyyətlə bağlamaq məncə isə ümumiyyətlə düzgün deyildir. Dövlət tanrı tərəfindən deyil, insan fəaliyyəti sayəsində yaranmışdır.

**DEMOKRİT:** Tamamilə belədir. Dövlət vətəndaşların ümumi mənafeyinin təcəssümü olmaqla heç bir kənar qüvvə tərəfindən deyil, insanların özləri tərəfindən yaradılmışdır. Siyasət yalnız adamların uzun sürən mübarizəsinin məhsuludur və yalnız insan səylərinin nəticəsidir.

**FOMA AKVİNALI:** Xeyr, belə deyildir. Dövlət hakimiyyəti insani vasitələrlə həyata keçirilsə də, ilahi mənşəlidir.

**BODEN:** Mənsə daha çox Demokritin mövqeyinə üstünlük verərdim. Monarxın hakimiyyəti Tanrıdan qaynaqlanmır, yerdə yaranır.

**MOJEVSKİ:** Çar hakimiyyəti hər halda ilahi hakimiyyət hesab edilir. Hökmdar Tanrının Yer üzərindəki surətidir. Tanrının özü də Kainatın hökmdarıdır.

**HEGEL:** Dövlət Yer üzərində mövcud olandan bəri ilahi ideyadır.

**HOBBS:** Yox, qətiyyən belə deyildir. Dövlət ilahi qurum deyildir, insani qurumdur, insanlar tərəfindən yaradılmış *süni* bir *əşya*dır.

**ƏN-NƏZZAM:** Dövlət işlərində elə buna görə də heç bir dini qanun tətbiq olunmamalıdır.

**ƏRDƏŞİR:** Razı deyiləm. Din və ölkədarlıq iki sirdaşdır, birinin tamamlığı digərindən asılıdır. Din bünövrədir, dövlət isə onun sütunları; bünövrə sütunsuz zay olduğu kimi, sütun da bünövrəsiz duruş gətirə bilməz.

**KAMPANELLA:** Əksinə, biz elə bir dövlət qurmalıyıq ki, ilahidən verilmiş bir quruluş olmasın, fəlsəfi mühakimələr nəticəsində kəşf

edilmiş olsun. Biz Minos, Likurq, Solon, Romul, Platon, Aristotel kimi dövlət qurucularının yol verdikləri nöqsanları aradan qaldıraraq, öz zəkamızın tələbləri əsasında yeni bir dövlət qurmalıyıq.

**SPİNOZA:** Məncə də. O dövlət daha qüdrətli və daha ədalətli olacaqdır ki, o, zəkaya istinad edir və onunla istiqamətlənir.

**RUSSO:** Ədalət isə Allahdandır. Amma bizim çoxumuz belə bir yüksəkliyə yüksələ bilmədiyimiz üçün qanunlar və hökumət lazımdır.

**MAKİAVELLİ:** Siyasət insan tərəfindən yaradılmış çoxsaylı sənətlərdən yalnız biridir. Onu nə dünyanın ali başlanğıcı ilə, Allahla, nə də əxlaqi mülahizələrlə bağlamaq lazımdır.

**DEMOKRİT:** Mənim fikrimcə də belədir. Siyasət sənətdir. Böyük sənət olsa da, yalnız sənətdir.

**ÇÖRÇİLL:** Siyasət bir sənət olaraq ustalıq tələb edir. Siyasi ustalıq odur ki, sabah, bir həftədən sonra, bir aydan sonra, gələn il nə olacaqsa, onları qabaqcadan xəbər verəsən, onları sonradan həmin hadisələr baş verdikdən sonra izah etməyəsən.

**RUSSO:** Gəlin Makiavellinin dediklərinə başqa rəng verməyək. Makiavelli siyasəti əxlaqdan qoparıb ayırmaq istəyir. Əslində isə, kim siyasəti və əxlaqı ayrı-ayrılıqda öyrənmək istəyirsə, onların heç birindən heç nə başa düşə bilməyəcəkdir.

**ŞELLİ:** Russonun fikri doğrudur. Dünyada bu vaxta qədər buraxılmış səhvlərin ən böyüyü məncə siyasi elmin əxlaqi elmdən ayrılmasıdır.

**MİLLS:** Görünür, əxlaqla siyasət arasındakı elə bu uçurumun nəticəsidir ki, adamların əksəriyyəti, xüsusən ordu zabitləri belə bir əqidədədirlər ki, siyasət – çirkin oyun, siyasətçilər isə şübhəli dünyada dolaşan ikinci dərəcəli adamlardırlar. Hərbçi çox zaman siyasi institutları işə maniyə hesab edir və belə düşünür ki, çoxlu intizamsız və çərənçi varlıqların çalışdığı bu təşkilatlarda yalan və iftira hökm sürür.

**MABLİ:** Yaxşı siyasət isə sağlam əxlaqdan fərqlənməməlidir.

**LENİN:** Elədir. Siyasətdə düzlük – gücün nəticəsidir, ikiüzlülük isə – zəifliyin nəticəsidir.

**RUSSO:** Əxlaqi olaraq şər olan hər bir şey elə siyasətdə də şərdir.

**HEGEL:** Bundan da daha çox deyilərsə, həqiqi dövlət əxlaqi ideyanın gerçəkliyidir, əxlaqi ruhdur, aşkar substansial iradədir.

**KANT:** İnsan nəslinin tarixi bütövlükdə götürüldükdə təbiətin gizli planının yerinə yetirilməsi kimi nəzərdən keçirilə bilər. Bu plan bəşəriyyətə verilən imkanları tam inkişaf etdirə bilən mükəmməl dövlət quruluşudur.

**FİXTE:** Amma mən düşünürəm ki, dövlətin daxilində olan həyat insanın mütləq məqsədlərinə aid deyildir, hətta bunu böyük bir insan təsdiq edirsə də. Bu, yalnız vasitədir.

**MUSSOLİNİ:** Xeyr, razı deyiləm. Dövlət fərd üçün vasitə deyildir, dövlət ümumiyyətlə fərd üçün deyildir, əksinə fərd dövlət üçündür. Hər şey dövlət üçün, dövlətdən başqa heç nə, dövlətin əleyhinə heç nə.

**ORTEQA-İ-QASSET:** Mussolininin mövqeyi faşizm mövqeyidir. Etatizm, göründüyü kimi, faşizmi törədir. Faşizm isə – kütləvi insanın tipik doktrinasıdır. Mussolini əla qurulmuş bir dövləti əldə etmişdi. Amma bu dövlət heç də onun tərəfindən qurulmamışdı. Belə olsaydı, Mussolini və onun ideya müəllimi olan Makiavelli dövlət üçün əxlaqi ideyanın necə və mühüm olduğunu dərk edərdi.

**MAKİAVELLİ:** İcazə verin, mən öz mövqeyimə bir qədər aydınlıq gətirim. Mənim dediyim yalnız ondan ibarətdir ki, siyasətdə nəcib bir məqsədin həyata keçirilməsindən ötrü vasitənin necə olmasının heç də həmişə fərqinə varılmamalıdır.

**MARKS:** Amma, düzgün olmayan vasitəni tələb edən məqsəd elə düzgün olmayan məqsəddir.

**HEGEL:** Bir də, vasitənin həqiqiliyi yalnız onun məqsədə adekvat olmasındadır. Ümumiyyətlə, bütövlükdə götürüldükdə, dövlət vasitə deyildir, məqsəddir, əxlaqi və üstəlik həm də ilahi məqsəddir. Tanrının dünya üzərində gərdişidir.

**BEKON:** Amma, əxlaqın vəzifələri siyasətin vəzifələrindən daha mürəkkəbdir. Əgər əxlaqın məqsədi ruhu daxili nizamla kökləməkdirsə, siyasətin məqsədi yalnız zahiri nizamdır.

**ROLLAN:** Bununla yanaşı, dövlət və cəmiyyət dəfələrlə məcbur olmuşlar ki, təmiz adamın fikri ilə razılaşsınlar, o adamın ki, onun əxlaqi qüdrətdən başqa bir silahı yoxdur.

**PERİKL:** Siyasət haqqında hamı mühakimə yürüdə bilər, lakin onu adamların yalnız bəziləri yarada bilir.

**NAPOLEON:** Siyasətlə əgər biz məşğul olmasaq, onda, o bizimlə məşğul olacaqdır.

**VAHABZADƏ:** Elə bu səbəbdən də, hər bir xalq özünü öz fəlsəfəsi əsasında dərk etməli, öz dövlətini yalnız öz fəlsəfəsi əsasında yaratmalıdır.

**ARİSTOTEL:** Digər tərəfdən, biz ümumiyyətlə insan təbiətinə ən yaxşı uyğun gələn siyasi təsisat formasını axtarıb tapa bilməliyik. Çünki insan ümumiyyətlə götürüldükdə – siyasi varlıqdır.

**KONSTAN:** Aristotelin tam əksinə olaraq mən təsdiq edirəm ki, insan siyasi varlıq olmaqdan daha çox, taciri varlıqdır və siyasətdən azad edilməlidir.

**PUFENDORF:** Aristotelin dediklərini sadəcə olaraq düzgün anlamaq gərəkdir. Aristotelin dedikləri yalnız bir məqama aiddir: insanın təbiəti elədir ki, heç bir kəs cəmiyyətdən kənarda yaşaya bilməz və yaşaya bilmir.

**PARSONS:** Mənə də elə gəlir ki, siyasət kollektiv məqsədlərin səmərəli şəkildə əldə olunmasını səciyyələndirən fəaliyyət forması olmaqla hətta taciri varlıq üçün də zəruridir.

**MOJEVSKİ:** Hər bir kəs öz mülkiyyətini qorumaq və saxlamaq imkanına malik olmalı, hər cür ədalətsizlikdən və qətldən mütləq təcrid edilməlidir. İnsanlar məhz bu məqsədlə şəhərlərdə və dövlətlərdə özlərinin müdafiəsini axtarırlar.

**MAKİAVELLİ:** Dövlətin məqsədi hər bir şəxsin təhlükəsizliyinə və eləcə də torpağından, mülkiyyətdən azad surətdə istifadə etməsinə nail olmaqdır.

**ANAR:** Bu müddəa ilə razılaşmaq olar. Bir torpağı ki istifadə etmədin, əkib-becərmədin, onu qorumağa dəyməz və əksinə, bir torpağı ki qorumadın, onu əkib-becərməmə dəyməz.

**MAKİAVELLİ:** Elədir. Dövlət insanların ümumi rifah tələbindən irəli gələn cəmiyyət hadisəsidir.

**VOLF:** Bununla mən də razıyam. Dövlətin vəzifəsi xalqın ümumi rifahına xidmət etməkdən ibarətdir.

**SİSERON:** Bir qədər ümumiləşdirilmiş şəkildə deyilərsə, dövlət həm vətəndaşların özlərinin, ...vətəndaşların mülkiyyətinin, həm də ümumi mülkiyyətin, dövlət mülkiyyətinin müdafiə olunması zərurətindən meydana gəlmişdir.

## II
## (dövlətin mənşəyi)

**LUKSETSİ KAR:** Dövlət qeyri-bərabər xüsusi mülkiyyətin meydana çıxması ilə bağlı yaranmışdır. Dövlət və hakimiyyət məhz bu bərabərsizliyi və ondan doğan hərc-mərcliyi aradan qaldırmaq məqsədi ilə və ictimai müqavilə əsasında yaradılmışdır.

**HOBBS:** Ümumi birliyin əldə olunması üçün gərək insanlar arasında elə bir razılaşma əldə edilsin ki, hər bir adam istənilən başqasına bu sözləri deyə bilsin: "Mən, bu məclisi və yaxud bu adamı səlahiyyətləndirirəm və ona məni idarə etmək hüququnu verirəm, lakin o şərtlə ki, sən də ona öz hüququnu verəsən və onun əməllərini sanksiyalaşdırasan". Əgər bu baş versə, belə bir qayda ilə birləşən insanlar çoxluğu dövlət adlandırıla bilər.

**ARİSTOTEL:** Əslində isə real olaraq heç bir dövlət adamlar arasında qabaqcadan nəzərdə tutulan razılıq əsasında meydana gəlməmişdir. Hər bir dövlət təbii yolla, tədricən təşəkkül tapmışdır.

**BODEN:** Hər ikisi ola bilər: dövlət ya bir qisim insanın öz azadlığını könüllü olaraq başqasının ixtiyarına verməsi yolu ilə, ya da güclülərin məcburiyyəti ilə təsis oluna bilər. Dövlət ya bilavasitə olaraq xalqın bir yerə toplaşması vasitəsilə təsis edilir, ya da başqa dövlətdən gələnlərin yaratdıqları koloniyalardan törəyir.

**MARKS:** Amma bir məqamı da unutmaq lazım deyildir: bir xalq başqa bir xalqı kölələşdirərkən eyni zamanda özünün də zəncirlərini hazırlayır.

**BİSMARK:** Bunlar yalnız sadəcə olaraq sözdür. Siz hər hansı bir torpağı işğal etməkdən ötrü mənə şərait yaradın. Mən sonra sizin üçün bu torpağın əsrlər boyu bizim doğma torpağımız olduğunu sübut edən yüzlərlə dəlil gətirim.

**QUMPLOVİÇ:** Bəşər cəmiyyətinin tarixi də təbiətin sarsılmaz qanunları əsasında idarə olunur və elə bir dəyişikliklərə uğramır. Cəmiyyətin inkişafında əsas rol etnosların mübarizəsinə aiddir. Bu mübarizə nəticəsində bəzi etnoslar yox olub getmiş, bəziləri isə hökmranlığa çatmışlar. Müharibələr və bir qisim zəif etnosların güclülər tərəfindən əsarət altına alınması təbiidir. Dövlət məhz

bu zorakılıq nəticəsində yaranmışdır. İstismar və müstəmləkəçilik təbiidir və tarixin əsas hərəkətverici qüvvəsidir.

**HERDER:** Burada bir məqamı mütləq nəzərə almaq gərəkdir: hansı xalq etiraz etmirsə, yalnız onu əsarət altına almaq olar.

**LİXTENBERQ:** Herderin son dərəcə gözəl ifadə etdiyi bu fikri tarixin aksiomu kimi qəbul etmək olar.

**QUMPLOVİÇ:** Elədir. Tarixdə əsas rol ayrı-ayrı şəxsiyyətlərə deyil, etnoslara və onların mübarizəsinə aiddir.

**ƏMİR TEYMUR:** Yox, elə deyil. Hər hansı məmləkətdə cəbr və zülm, fitnə və fəsad güclənib artarsa, ədaləti bərqərar etmək, fitnə-fəsadın, zülmün kökünü kəsmək üçün nəcabətli hökmdarların bu məmləkətlərə hücuma keçməsi gərəkdir.

**PEYN:** Amma bu bir həqiqətdir ki, suverenlik hüququ ayrı-ayrı şəxslərə deyil, ancaq xalqa məxsusdur.

**ƏMİR TEYMUR:** Yox. Dünyanın məskun hissəsi o qədər kiçikdir ki, orada hətta iki adamın hökmranlığına dəyməz.

**GERTSEN:** Bu məsələdə belə bir cəhət də nəzərə alınmalıdır ki, insanları zahiri həyatda azad etmək onların daxili azadlıqlarından daha çox ola bilməz. Nə qədər qəribə olsa da, xalqlar artıq azadlığa köləliyin məcburi məhkumluğuna nisbətən daha çətinliklə dözürlər.

**BERDYAYEV:** Azadlıq əzabı doğurur. Azadlıqdan imtina edərək əzabı azaltmaq olar. Azadlıq ağrıya razılaşmanı, ağrını yaşamaq qabiliyyətini nəzərdə tutur. İnsanların ən dahiləri həmişə istisnasız olaraq daxili səsə qulaq asaraq dünyaya münasibətdə konformizmdən imtina etmişlər. İmtina şəxsiyyətin köləlik əleyhinə mübarizəsidir.

**MAKİAVELLİ:** İmtina meyli insanların əksəriyyəti üçün səciyyəvi deyildir. İnsan öz təbiəti etibarı ilə eqoist olduğundan, şəxsi marağının ödənilməsinə can atdığından onun eqoizmini cilovlamaq və qayda-qanunu bərqərar etmək üçün insanlar üzərində zorakılıq etmək zərurəti yaranır. Bu zorakılıq funksiyasını da dövlət yerinə yetirir.

**HOBBS:** İnsanlar dövlətin yaranmasına qədər *hamının hamıya qarşı müharibəsi* vəziyyətində idilər. Bu, cəmiyyətin təbii vəziyyəti idi. Dövlət ümumi sülhün və təhlükəsizliyin bərqərar edilməsi üçün

insanlar arasında razılaşmanın nəticəsi olaraq yaradıldı. Təbii vəziyyətdə insanlar bərabər və azad olsalar da, təhlükə və qorxu içərisində idilər.

**SİSERON:** Xeyr, bu səciyyə bir o qədər də dəqiq deyildir. Dövlətin meydana gəlməsi hər şeydən öncə adamların ümumiyyətlə birləşməyə, ittifaqa meyilli olması ilə bağlıdır.

**ARİSTOTEL:** Ayrı-ayrı ailələrdən kəndlər, ayrı-ayrı kəndlərdən isə dövlət yaranır.

**BODEN:** Müəyyən mənada, elədir. Dövlət bir çox ailələrin bir mərkəzdən idarə olunmasıdır.

**VOLF:** Bir qədər dəqiqləşdirilsə, dövlət ailələrarası razılaşmanın məhsulu olaraq meydana gəlmişdir. Ayrılıqda götürülmüş hər bir ailə həyat üçün zəruri olan şeyləri ayrılıqda əldə edə bilmədiyi üçün dövlət yaratmaq barədə digər ailələrlə, hətta Aristotel bunu inkar etsə də, məhz müqavilə bağlamaq qərarına gəlmişdir.

**HOBBS:** Fiziki və zehni qabiliyyət baxımından adamlar təbiətən bərabər hüquqlu yaradıldıqlarından hər bir insan başqaları ilə eyni dərəcədə bütün hüquqlara malikdir. Bununla yanaşı olaraq insana doğrudan da dərin eqoizm, xəsislik, qorxu və şöhrətpərəstlik də xasdır. Hər bir insan öz paxıl soydaşları ilə, rəqibləri ilə, ona düşmən olan şəxslərlə əhatə olunmuşdur. İnsan, məhz elə buna görə də insanın canavarına çevrilir və bir qədər öncə xatırlatdığım *hamının hamıya qarşı müharibəsi* vəziyyətini yaradır. Bu labüd müharibədən yayınmaq üçün insan öz təbii hüquqlarının bir hissəsindən imtina etməli və bunları dövlətə həvalə etməlidir.

**BEKKARİA:** Daimi müharibələrdən və özbaşınalıqdan yorulan və əldən düşən insanlar özlərinə məxsus olan azadlığın bir hissəsini qurban verməklə birləşmək qənaətinə gəlmişlər. Belə birləşmədə insanların məqsədləri isə bundan ibarət olmuşdur ki, azadlıqlarının qalan hissəsindən sakit və təhlükəsiz şəraitdə zövq ala bilsinlər. Beləliklə ümumi xoşbəxtlik naminə adamların qurban verdikləri azadlığın məcmusu millətin ali hakimiyyətinin yaranmasına səbəb olur.

**MOR:** Xeyr. Dövlət xalqa zülm vermək üçün varlılar tərəfindən qurulmuş qəsddir.

**LENİN:** Başqa cür deyilərsə, dövlət bir sinfin digər sinif üzərində əsarəti üçün maşındır.

**ŞTİRNER:** Doğrudur. Dövlət insan üzərində əsarət maşınlarından biridir. Siyasi azadlıq deyir ki, dövlət azaddır, dini azadlıq deyir ki, din azaddır, vicdan azadlığı deyir ki, vicdan azaddır və beləcə bütün bunlar demir ki, *Mən* dövlətdən, dindən, vicdandan azadam, demir ki, *Mən* onlardan xilas olmuşam. Bütün bunlar *Mən*im azad olduğumu demir, *Mən*im üzərimdə hökmranlıq edən qüvvənin azad olduğunu deyir.

**KONSTAN:** Amma digər tərəfdən, xalqa da həddindən artıq azadlıq vermək hakimiyyət üçün təhlükəlidir, necə ki hakimiyyətin həddən artıq mərkəzləşməsi xalqa ziyan verir.

**MİLLS:** Burada hansısa orta hədd axtarılıb tapılmalıdır. Məsələn, amerikanlar belə bir fikirdən heç cür imtina etmək istəmirlər ki, dövlət özünəməxsus şəkildə qurulmuş elə bir avtomatdır ki, onun fəaliyyəti əks mənafelərin qarşılıqlı müvazinət prinsipi ilə tənzimlənir.

**HOBBS:** Dövlət ictimai müqavilə əsasında yaradılarkən, bu müqaviləyə görə, ayrıca götürülmüş hər bir fərd öz azadlığının və mülkiyyətinin bir hissəsini könüllü surətdə ümumiyyətlə dövlətə deyil, məhz hökmdara verməklə hökmdarın üzərinə onun təhlükəsizliyini təmin etmək öhdəliyini qoyur. Təhlükəsizliyin təminatı vətəndaşın təbii hüququnu yaradır. Sülh qayğısı – təbii hüququn əsasıdır. Hökmdarın hakimiyyəti elə buna görə də toxunulmazdır. Hökmdar hakimiyyətinin hər hansı bir formada məhdudlaşdırılması və ya bölünməsi – dövlətin məhvinə gətirib çıxara bilər.

**POLİBİ:** Bu fikir çox sərt ifadə olunub, amma ümumiyyətlə doğrudur. Ayrı-ayrılıqda öz acizliklərini hiss edən fərdlərin yekcins kütlədə birləşməsi təbii prosesdir. Bu zaman öz fiziki gücü, qorxmazlığı ilə başqalarından seçilən bir nəfər kütlənin rəhbərinə və hökmdarına çevrilir.

**ƏMİR TEYMUR:** Doğrudur. Mən məzlumları zalımların əlindən məhz öz ciddiliyim və zəhmimlə xilas etdim.

**LOKK:** Mən Teymurun hökmdarlıq fəlsəfəsi ilə deyil, daha çox Hobbsun ictimai müqavilə nəzəriyyəsi ilə razılaşardım. Hobbsun ictimai müqavilə nəzəriyyəsi ümumiyyətlə götürüldükdə doğrudur, la-

kin ictimai müqavilə vətəndaşların təbii hüquqlarını qorumalı olan bir təsisat kimi yalnız *hökumət hakimiyyəti*ni doğurur. Amma, bu hakimiyyətin özünü xalqın iradəsindən kənarda saxlayır. *Hökumət hakimiyyəti* mənbəyi xalqdan gələn qanunlara tabe etdirilməlidir. Bu zərurətdən isə başqa bir hakimiyyət, xalq nümayəndələrindən təşkil edilmiş *qanunverici hakimiyyət* doğulur. Dövlətin strukturunda bundan başqa məncə daha bir hakimiyyət də vardır. Bu, *federativ,* yəni xarici münasibətlər *hakimiyyət*idir, kraldan və nazirlərdən ibarətdir.

**MONTESKYÖ:** Mənə elə gəlir ki, *hakimiyyətin bölgüsü* məsələsində Lokkun təqdim etdiyi sxemə nisbətən Aristotelin təqdim etdiyi sxem həqiqətə daha çox yaxındır. Lokk hərbi hakimiyyətlə yanaşı, həm də *məhkəmə hakimiyyəti*ni də icra hakimiyyətinin tərkibinə daxil edir. Əslində isə məncə məhkəmə hakimiyyəti icra hakimiyyətindən azad olunmalıdır. Bir daha vurğulayıram ki, mən hakimiyyəti icra, məhkəmə və qanunverici hakimiyyətə bölən qədim mütəfəkkirin, Aristotelin mövqeyində dururam.

**RUSSO: C**əmiyyətin dövlətəqədərki təbii vəziyyəti haqqında Hobbsun söylədiyi fikrə qayıtmaq istərdim. Mən Hobbsdan fərqli olaraq belə düşünürəm ki, insanların dövlətin yaranmasından öncə azad və bərabər olduqları təbii vəziyyət bəşəriyyətin xoşbəxt uşaqlıq dövrü idi. Sonra insanlar öz əmək vasitələrini və üsullarını təkmilləşdirdilər və bununla da xüsusi mülkiyyətin və mülkiyyət bərabərsizliyinin yaranmasını şərtləndirdilər. Nəticədə dövlət və bir qədər sonra isə siyasi bərabərsizlik meydana çıxdı. Bununla da insanların azadlığına və bərabərliyinə son qoyuldu.

**İBN XƏLDUN:** Məncə də belədir. Güclü dövlət hakimiyyətinin yaranması ilə bəsitlik dövrünün bərabərsizliyi, azadlığı, bolluğu tədricən sivilizasiya dövrünün ağalığı, bərabərsizliyi və əsarəti ilə əvəz olundu.

**LENİN:** Bir qədər konkretləşdirilsə, dövlət o yerdə və o zaman meydana gəlir ki, orada və o zaman cəmiyyətin siniflərə bölünməsi, istismar edənlər və istismar olunanlar meydana gəlir və onlar arasında amansız mübarizə başlayır.

**HOBBS:** Bu yalnız müəyyən mənada, belədir. Dövlətin qurulması zamanı insanlar məhz hamının hamıya qarşı apardığı müharibənin

dəhşətli vəziyyətindən xilas olmaq istəyini əldə əsas tuturlar. Bu dəhşətli müharibə vəziyyəti isə insanları qorxu altında saxlayan aşkar bir hakimiyyətin olmadığı şəraitdə insanların təbii ehtiraslarının nəticəsi kimi meydana gəlir.

## III
## (müharibə)

**MİLLS:** Milli dövlətin meydana gəlməsinə qədər döyüşkən insanlar zora əl atmaq imkanına malik idilər və yerli miqyasda tez-tez də əl atırdılar. Ayrı-ayrı silahlı dəstələrin yerlərdə hökmranlıq etməsi milli dövlətlərin yaranma ərəfəsində adi bir hadisə idi. Lakin, bir zaman gəldi ki, yerlərdə zorakılıq və hökmranlıq edən bu insanlar milli ordunu formalaşdırdılar və milli orduda xidmət etməli oldular.

**ORTEQA-İ-QASSET:** Dövlət – hər şeydən əvvəl təhlükəsizliyin qarantıdır. Buna görə də, dövlət hər şeydən əvvəl ordudur.

**MİLLS:** Amma dövlətlərdə daxili sülh heç də həmişə peşəkar orduya istinad etməmişdir. Tarixdə sülhün digər əsasları da mövcud olmuşdur. Öz şərəf və qüdrətinin qılıncdan asılı olduğuna əmin olanların əleyhinə yönələn *Tanrı sülhü* və *Kral sülhü* də bizə məlumdur.

**MOR:** Bütün krallar isə öz vaxtlarını həvəslə hərb elminə sərf edir və təzə məmləkətlərin ələ keçirilməsi qayğısına qalırlar. Amma lazımdır ki, onlar öz vaxtlarını xoş məramlı işlərə sərf etsinlər və artıq əldə etdikləri məmləkətləri sülh şəraitində lazımınca idarə edə bilsinlər.

**MİLLS:** Belə olmuş olsaydı, yaxşı olardı. Amma sülh – qarşılıqlı qorxudur, silahlanmış rəqiblərin keçirdiyi qarşılıqlı qorxunun müvazinətidir. Belə bir məqama da diqqət yetirmək maraqlı olar: əgər hərbçi gücə malik deyildirsə və yaxud başqaları belə hesab edirlərsə, hərbçi mülki dairələrdə də yüksək vəziyyətə nail ola bilməz. Buraya belə bir faktın konstatasiyasını da əlavə edim ki, XIX əsrin sonlarında Birləşmiş Ştatların vətəndaş nəzarəti altında qalan hərbi idarəsində cəmləşən yüksək rütbəli zabitlər heç

bir vəcdlə Amerikanın elitasına aid edilə bilməzdi. Elita yalnız biznesmenlərdən və siyasətçilərdən ibarət idi.

**VEBLEN:** Döyüş şücaətinə qarşı yalnız o zaman ehtiram göstərilir ki, müharibə şərəfli iş hesab edilir.

**HOBBS:** Doğrudur, amma əldə qılınc olmadığı halda bağlanmış hər bir müqavilə də insana heç bir təhlükəsizlik təminatı verə bilməyən boş sözdür.

**SAİB:** Amma igidlik cövhəri olsa, əsa da qılınc kimi iş görər.

**ƏMİR TEYMUR:** Düşmən qoşununu məğlub etmək doğrudan da əsgərin çoxluğundan, düşmənə yenilmək isə onun sayının azlığından deyildir.

**BODEN:** Qətiyyətli insanlarla mübarizə aparıldıqda onların ruhu daha da inadcıl olur, onlar müqavimətlə qarşılaşmadıqda isə güzəşt edirlər.

**KLYUÇEVSKİ:** Cəsarətli və qorxaq arasındakı fərq ondan ibarətdir ki, birinci təhlükəni dərk edərək qorxu hissini keçirmir, ikinci isə təhlükəni dərk etməyərək qorxu hissini keçirir.

**DİDRO:** Qorxaq dərrakəsini itirdiyindən çox zaman heç də onun üçün nəzərdə tutulmamış uçuruma doğru gedir.

**ARİSTOTEL:** Amma müharibə isə sadəcə olaraq mülkiyyət əldə etməkdən ötrü təbii bir vasitə və qul ovudur.

**RATSEL:** Görünür elə bu səbəbdəndir ki, mədəni və qabaqcıl xalqların müharibələri xüsusən tufanı xatırladır.

**MİLLS:** Yer kürəsində çoxlu milli dövlətlərin mövcudluğu faktı müasir müharibələrin yaranmasının başlıca şərtidir. Eyni zamanda real və ya xəyali olub-olmamasından asılı olmayaraq hər bir ictimai iğtişaş zamanı cəmiyyətdə hərbi idarəetməyə qayıtma meyilləri müşahidə olunur.

**MABLİ:** Amma vətəndaş müharibəsini də heç də həmişə ədalətsiz hesab etmək vətəndaşları zora qarşı müqavimət göstərməməyə çağırmaq deməkdir. Bu doktrina əxlaqa və ictimai rifaha ziddir.

**HEGEL:** Müharibə ümumiyyətlə ona görə zəruridir ki, o xalqları əxlaqi düşkünlükdən qoruyur. Çünki insan dünyəvi olan hər bir şeyin fani, ötəri və keçici olduğunu praktik olaraq yalnız müharibədə dərk edir.

**ŞOPENHAUER:** Fərdlərin dava-dalaşı dövlət tərəfindən üzə çıxarılıb qarşısı alına bilməyəndə daxilə qayıdır və getdikcə artan borc kimi xalqlar müharibəsinə çevrilir, tez və böyük məbləğdə qanlı qurbanlar tələb edir.

**MİLLS:** Bu hal özünün konkret tarixi ifadəsini həm də o onda tapır ki, Avropada ümumi səfərbərlik bazasında yaradılan ilk ordular inqilabi ordular idi. Sülh – milli dövlət tərəfindən zor vasitələrinin mərkəzləşdirilməsinin və inhisarlaşdırılmasının nəticəsində yaranır.

**HİTLER:** Sülh cəmiyyətdə müvəqqəti keçid dövrü, müharibə isə onun normal vəziyyətidir.

**HERAKLİT:** Müharibə azad olmağa layiq olanları azadlığa çıxarır, kölə olmağa layiq olanları isə kölələşdirir. Müharibə hər şeyin atası, hər şeyin şahıdır.

**PİXT:** Müasir dil ilə deyilərsə, müharibə ictimai tərəqqinin amilidir, bütün yüksək mədəniyyətlər müharibədən törəmişlər.

**FULLER:** Məncə də elədir. Müharibə doğrudan da tarixin aparıcı amilidir.

**PLATON:** Amma yox, qətiyyən elə deyildir. Müharibənin günahı az adamın üzərinə düşür, bundan əziyyət çəkənlərin çoxu isə bizim dostlarımızdır.

**RATSEL:** Razı deyiləm. Xalqlar çəkiclə zindanı xatırladırlar. Qaliblər çəkic, məğlublar isə zindan rolunu oynayırlar.

**HEGEL:** Xalqlar müharibədən təkcə möhkəmlənərək çıxmırlar, həm də zahiri müharibələrin sayəsində millətin öz daxili antaqonizmləri də həll olunur, onlar daxili əmin-amanlıq əldə etmiş olurlar.

**PLATON:** Müharibə bütün hallarda siyasi sənətin ayrılmaz bir hissəsi olaraq qalır.

**KLAUZEVİTS:** Bir qədər dəqiqləşdirilsə, müharibə siyasətin başqa vasitələrlə davam etdirilməsidir.

**LENİN:** Bu mücərrəd fikir öz konkret mənasını marksizmdə tapır. Müharibə bu və ya digər *sinfin siyasətinin davamı*dır. Hər bir sinifli cəmiyyətdə hakim sinfin siyasətini davam edən müharibələr olduğu kimi, həmçinin məzlum sinfin də siyasətini davam edən müharibələr olmuşdur.

**ÇERNIŞEVSKİ:** O zaman ki, əməkçi sinif dövlətdə həlledici təsirə malik olacaq, bu zaman hər bir müharibə ehtimalı da yox olacaqdır.

**MİLLS:** Hərbçi isə bunun əksini düşünür. O, iqtisadi təsisatları çox zaman hərbi təchizat üçün bir vasitə hesab edir.

**BİSMARK:** Elə buna görə də, müharibə kimi ciddi işi qətiyyən hərbçilərə etibar etmək olmaz.

**ƏMİR TEYMUR:** Rəiyyətdən alınan mal və xərac o miqdarda olmalıdır ki, rəiyyətin vəziyyətinin pisləşməsinə səbəb olmasın. Çünki rəiyyətin vəziyyətinin pisliyi xəzinənin məhv olmasına bərabərdir. Xəzinənin sorulması isə hərbçilərin dağılıb getməsinə səbəb olacaqdır, hərbçilərin dağılışıb getməsi də öz növbəsində səltənətin qüdrətini məhvə aparacaqdır.

**MİLLS:** Gəlin bu hadisəni Avropa tarixinin faktları əsasında anlamağa çalışaq. XVIII əsrdə mülki elementlər hakimiyyətə gələrək təcavüzkar hərbi özlərinə tabe etdirə bildilər və **vətəndaş cəmiyyəti** qurdular. Hərb müəyyən çərçivəyə salınaraq və neytrallaşdırılaraq öz siyasi qüdrətini azaltdı. Hərbçilər qərarların icraçıları rolunda çıxış etdilər. XX əsr isə bu diqqətəlayiq hadisənin keçici və davamsız olduğunu aşkar etdi və bu hal bütün sənaye ölkələrində özünü göstərdi. Postnapoleon dövründən başlayan və birinci dünya müharibəsinə qədər davam edən sülh dövründən sonra isə dünya tarixinin əvvəlki gedişi yenə də bərpa olunmaqdadır. Hərb yenə də özünün əvvəlki nüfuzunu qaytarmaqdadır. Siyasi vakuum hərbi əyanlar tərəfindən doldurulmaqdadır.

## IV
## (vətəndaş cəmiyyəti)

**HEGEL:** Vətəndaş cəmiyyətinin inkişafı dövlətin inkişafından daha sonra başlayır. Vətəndaş cəmiyyətində hər bir kəs özü üçün məqsəddir, başqaları isə onun üçün heç nədir.

**STALİN:** Vətəndaş cəmiyyəti adı altında gizlənən burjua cəmiyyətinin mahiyyətini anlamaq gərəkdir. Burjua dünyasında dövlətin funksiyalarını unutmaq olmaz. Burada dövlətin funksiyalarına yalnız ölkənin müdafiəsinin və "nizam"ın mühafizəsinin təşkili və vergi-

lərin yığılması aiddir. Əksinə, burada dövlət kapitalist təsərrüfatının əlindədir.

**UELLS:** Mən bəlkə də siyasətin iqtisadi şərhinə Stalindən daha çox inanıram. İxtiraların və müasir elmin sayəsində indi insan kollektivinin daha yaxşı təşkilinə və daha yaxşı fəaliyyətinə, yəni sosializmə gətirən nəhəng qüvvələr hərəkətə gətirilmişdir. Fərdi əməllərin təşkili və tənzimlənməsi sosial nəzəriyyələrdən asılı olmayaraq mexaniki zərurətə çevrilmişdir.

**MARKS:** Mən Hegelin vətəndaş cəmiyyəti ilə bağlı fikirlərinə qayıtmaq istərdim. Hegeldən və onun siyasi nəzəriyyədə bir çox ardıcıllarından fərqli olaraq mən düşünürəm ki, cəmiyyət dövlətdən yaranmır, əksinə, dövlət cəmiyyətdən yaranır.

**ORTEQA-İ-QASSET**: Amma cəmiyyətin dövlətləşdirilməsi faciəvidir. Cəmiyyət dövləti əvvəlcə həyatı asanlaşdıran alət kimi yaradır. Sonra dövlət üstünlüyü ələ alır və cəmiyyət onun xətrinə yaşamağa məcbur edilir. Tezliklə dövləti saxlamaq üçün insani resurslar çatışmır və əcnəbilərin çağırılmasına ehtiyac yaranır. Gələnlər son nəticədə sahibə, aborigenlər isə bu yadellilərin köləsinə çevrilirlər.

**BERDYAYEV**: Köləliyin mənbəyi bundan daha dərinlərdədir. Cəmiyyətdə, özü də hər cür cəmiyyətdə köləedici nəsə vardır və o, dəf edilməlidir. Köləliyin mənbəyini şəxsiyyət və fərd arasındakı fərqdə axtarmaq lazımdır. Şəxsiyyət heç zaman cəmiyyətə qarışmır, həmişə ondan üstündür. Fərd isə cəmiyyətin bir hissəsidir və ona tabedir. Şəxsiyyət cəmiyyətin bir hissəsi deyildir, əksinə cəmiyyət şəxsiyyətin bir hissəsidir. Şəxsiyyətin cəmiyyətyaratma qüdrəti vardır, cəmiyyət şəxsiyyətin yaradıcılıq məhsuludur. İnsanın daxilindəki şəxsiyyət dünyanın öz-özlüyündə və öz-özü üçün kifayət olmadığını diktə edir. Dünya insan tərəfindən dəf edilməli və geridə saxlanılmalıdır. Şəxsiyyət dünyanın başqa obyektləri ilə yanaşı duran bir obyekt kimi, dünyanın bir hissəsi kimi dərk edilə bilməz. Antropoloji elmlər, biologiya, psixologiya, sosiologiya isə insanı məhz belə dərk etmək istəyirlər. Bu yolla insan yalnız qismən dərk olunur, insanın bir şəxsiyyət kimi sirri isə dərk olunmamış qalır. Şəxsiyyət obyekt kimi deyil, yalnız subyekt kimi, yəni, mövcudluğun sirrinin gizləndiyi sonsuz subyek-

tivlik kimi dərk oluna bilər. İnsanın daxilindəki şəxsiyyət sosial qrupun determinasiyası üzərində qələbədir. Şəxsiyyət aktivlikdir, müqavimətdir, dünyanın ağırlığı üzərində qələbədir, azadlığın dünyanın köləliyi üzərində təntənəsidir.

**ARİSTOTEL:** Məncə isə cəmiyyət və dövlət öz təbiətinə görə hər bir insandan daha öncədir. Əgər insan təcrid olunmuş bir vəziyyətə düşdükdə bu vəziyyət onu tam qane edirsə, başqa fərdlərlə ünsiyyətsiz keçinə bilirsə, o artıq insan deyildir, ya alçalaraq heyvana, ya da yüksələrək tanrıya çevrilmişdir.

**MOJEVSKİ:** Aristotel doğru deyirdi. İnsan cəmiyyətindən kənarda yaşaya bilən və heç kəsə ehtiyacı olmadan keçinə bilən kəs, doğrudan da ya tanrıdır, ya da heyvan. Bu həqiqəti Aristotel tamamilə dəqiq ifadə etmişdi.

**SPİNOZA:** Tənhalıq qorxusu hər bir insana xasdır, çünki tənhalıqda heç bir kəsin elə bir gücü olmur ki, onun özünümüdafiəsinə və zəruri həyat vasitələri ilə təmin olunmasına zəmanət versin. Elə buna görə də, insanlar təbiətləri etibarı ilə cəmiyyətə can atırlar və mümkün deyildir ki, insanlar haçansa ondan çıxa bilsinlər.

**TUSİ**: Cəmiyyətin meydana çıxması insanın özünü qoruyub saxlaması və nəslini mühafizə etməsi üçün öz növünün, yəni başqa insanların köməyinə ehtiyacının olması ilə əlaqədardır.

**ORTEQA-İ-QASSET:** Bununla belə, mən diqqətinizi bir daha fərd-cəmiyyət qarşıdurmasından dövlət-cəmiyyət qarşıdurmasına yönəltmək istərdim. Dövlət hər cür sosial özfəaliyyəti sona qədər boğur və heç bir yeni toxumlar yaratmır. Cəmiyyət kölələşdirilir, onun bütün qüvvələri dövlətə xidmətə sərf edilir. Cəmiyyət dövlət üçün, insan isə dövlət maşını üçün yaşamağa məcbur edilir. Dövlət yalnız maşın olduğu üçün, onun sazlığı və vəziyyəti mühitin canlı qüvvəsindən asılı olduğu üçün, son nəticədə cəmiyyətin bütün şirəsini soraraq gücdən düşür, laxlayır, və ölümlərin ən ölüsü ilə, mexanizmin paslı ölümü ilə ölür. Lakin, əgər vətəndaş cəmiyyəti güclüdürsə, dövlətin məhvedici müqavimətini asanlıqla qıra da bilir. Böyük Karlın hakimiyyəti XVI Lüdovikin hakimiyyətindən çox zəif idi, amma əvəzində Korolinqlər zamanı cəmiyyət qüdrətsiz idi. Cəmiyyət qüvvələrinin dövlət qüvvələri üzərində üstünlüyü isə inqilaba gətirib çıxartdı.

## V
## (inqilab)

**RUQE:** İnqilabi dövrdə dövlət artıq keçilməz, dumanlı, sirli və buna görə də yad bir vəziyyət olmaqdan qalaraq milli özünüdərkin prosesdə olan mövcudluğuna, özünümüəyyənləşdirən millətə çevrilir.

**MARKS:** İnqilablar – tarixin lokomotivləridir.

**LENİN:** İnqilablar – əzilən və istismar olunanların bayramıdır. Xalq kütləri yalnız inqilab zamanı möcüzələrə qabil olur, yeni ictimai qaydaların aktiv yaradıcısına çevrilir.

**KARLEYL:** İnqilabı əslində isə çoxluq deyil, azlıq törədir.

**STALİN:** Doğrudur, inqilab üçün aparıcı inqilabi azlıq gərəkdir. Lakin, bu azlıq milyonlarla insanın heç olmasa passiv dəstəyinə istinad etmədiyi halda nə qədər istedadlı, sadiq və enerjili olsa da, gücsüzdür.

**BODEN:** Hər bir siyasi çevrilişin əsasında isə əmlak bərabərsizliyi durur.

**Bill GEYTS:** Çox böyük var-dövlət əldən-ələ keçir, amma bunu böyük məsuliyyətlə, bu vasitələri cəmiyyətlə və onlara daha çox ehtiyacı olanlarla ən yaxşı bir qaydada bölüşmək öhdəliyi ilə etmək gərəkdir.

**Karlos SLİM HELU:** Məhsulu bölüşmək olar, amma bağı bölüşmək olmaz.

**LENİN:** Kapitalistlərin mövqeyi məlumdur. Məncə, Bodenin mövqeyi daha doğrudur, lakin, bu mövqe bir qədər yumşaq ifadə olunmuşdur. Sosial inqilabın əsasında milyonların təxminən belə bir inamı durur: aclıq zülmündən qıvrıla-qıvrıla yaşamaqdansa, inqilab uğrunda ölmək daha yaxşıdır.

**SPİNOZA:** Qiyamlar, müharibələr, qanunlara qarşı nifrət, onların şüurlu olaraq pozulması doğrudan da çox zaman təbəələrin zalımlığından daha çox, ali hakimiyyətin yarıtmaz fəaliyyətindən irəli gəlir.

**POLİBİ:** Qədimlərdə bir dəfə şah seçilən kəs qocalana qədər taxtda otururdu. Hakimiyyətdə olduğu müddətdə sədlər çəkdirmək, əlverişli məntəqələri möhkəmləndirmək, yeni torpaqlar tutmaq kimi qayğılarla məşğul olan hökmdarlar dedi-qoduya, həsədə

məruz qalmırdılar. Çünki istər geyimlərində, istər yeyib-içməklərində, istərsə də yaşayış tərzlərində xalqla onların arasında heç bir fərq olmurdu və həmişə də ünsiyyət saxlayırdılar. Onlar sonradan isə belə bir qərara gəldilər ki, öz təbəələri kimi geyinmək daha hökmdara yaraşmaz, ən gözəl güzəran, ən zəngin süfrələr ancaq onlarınkı olmalıdır, ədəb qaydaları isə yalnız sadə camaat üçün qoyulmuşdur. Əgər hökmdarların bu cür əməlləri adamlarda həsəd və narazılıq doğururdusa, onların kişi-qadın münasibətlərindəki qadağanlara etinasızlıq göstərməsi adamlarda qarşısını heç nəyin ala bilməyəcəyi qəzəb və nifrət selini coşdururdu. Nəticədə xalqın hakim dairələrə qarşı üsyanı başlayırdı.

**BODEN:** Xalqın monarxı öldürmək hüququ yoxdur, lakin tiranı öldürmək hüququ isə vardır.

**MARKS:** Hər cür həqiqi xalq inqilabının ilkin şərti isə belədir: bürokratik-hərbi maşın bu vaxta qədər olduğu kimi bir əldən başqa ələ verilməməlidir, sındırılmalıdır.

**LENİN:** İnqilabçı olmaq doğrudan da o deməkdir ki, zərərli olan, vaxtını keçirmiş olan hər şey aman verilmədən dağıdılmalıdır.

**CEFFERSON:** Xalqın hüquq və azadlıqları keşiyində lazımi səviyyədə dura bilməyən bir dövləti xalq nəinki devirməli, hətta onu devirmək xalqın bilavasitə vəzifəsi olmalıdır.

**ORTEQA-İ-QASSET**: Lakin inqilab quruluşa edilən qəsd deyildir, əvvəlkini gözdən salan yeni quruluşun tətbiqidir.

**RUSSO:** Əgər ali dövlət hakimiyyəti despotik hakimiyyətdirsə, burada qüdrətli və qadir despot qarşısında hamı hüquqsuzluqda bərabər olduğu üçün despotik dövlətdə bərabərsizlik özünün ən yüksək nöqtəsinə çatmış olur. Lakin, həmin bu hüquqsuz əksəriyyət son nəticədə despotik hakimiyyəti devirərək bərabərsizliyi ləğv edir və öz təbii hüquqlarını özünə qaytarır.

**ULPİAN:** Təbii hüquq təbiətin hətta bütün heyvanlara belə öyrətdiyi hüquqdur.

**KAMPANELLA:** Belə olduğu halda ən təbii hüquq odur ki, hər şey ümumidir. *Günəş şəhəri*ndə məhz belə olduğu üçün burada zülmün, yalanın, oğurluğun, qarətçiliyin kökü olan acgözlük məhv ediləcəkdir.

**BENTAM:** Təbii hüquq təlimi yalandır və saxtadır. Hər bir hakimiyyət hər bir qiyamı yatırmaq hüququnu özündə saxlayır.

**CEFFERSON:** Həyatda hər şey dəyişilə bilər, yalnız insanın təbii hüquqları dəyişilməz qalmalıdır, daha doğrusu insana zülm etməyə, onu istismara məruz qoymağa heç kimin haqqı yoxdur və onun təbii hüquqları toxunulmazdır.

**BİSMARK:** Bütün bunlarla yanaşı bir həqiqəti də unutmaq olmaz: İnqilabı dahilər düşünür, fanatiklər həyata keçirir və fırıldaqçılar isə ondan faydalanırlar.

**PESTEL:** Hökumət ümumi fəaliyyətə sərəncam vermək və dövlətdə hamıya və hər kəsə xoşbəxtlik vermək üçün ən yaxşı vasitələri seçmək vəzifəsinə malikdir. Dövlətin verməli olduğu xoşbəxtlik isə iki əsas predmetdən – əmin-amanlıqdan və firavanlıqdan – ibarətdir. Əmin-amanlıq hökumətin birinci məqsədi, firavanlıq isə ikinci məqsədidir. Bu məqsədləri həyata keçirməkdən ötrü onun xalqdan ona tabe olmağı tələb etməyə haqqı vardır. Xalqın vəzifəsi tabe olmaqdır. Amma, eyni zamanda onun hökumətdən tələb etmək hüququ vardır ki, hökumət daimi olaraq ümumi xoşbəxtliyə çalışsın və təkcə hökmranlıq etməsin, həm də xalqı həmin bu əmin-amanlıq və firavanlıq məqsədlərinə doğru aparsın. Bu tələb xalqın hakim dairələrə qarşı mübarizəsinə də çevrilə bilər.

**POLİBİ:** Xalqın hakim dairələrə qarşı mübarizəsinə isə pislər yox, ən nəcib, məğrur və qorxmaz vətəndaşlar başçılıq edirlər. Çünki məhz beləl期 başqalarının özbaşınalığına hamıdan az dözürlər. Elə ki, üsyançı dəstələr onları özlərinə rəhbər kimi qəbul edib, arxasında möhkəm dayanır, onda şah və mütləqiyyət üsulu ləğv edilir. Onu istibdadın pəncəsindən xilas etməsinə sanki minnətdarlıq əlaməti olaraq xalq dərhal çevrilişin sahibkarlarını hakimiyyəti ələ almağa çağırır və öz talelərini onların ixtiyarına verir.

**LENİN:** Hər bir inqilabın başlıca əsas məsələsi də əslində elə dövlət hakimiyyəti haqqında məsələdir. Hakimiyyət hansı sinfin əlinə keçməlidir? Bu, həqiqətən də əslində hər şeyi həll edir. Çünki inqilabi mübarizənin məqsədi hakimiyyətin ələ alınmasıdır.

## VI
## (hakimiyyət)

**LOKK:** Dövlət malikanə ağalığı, ailə, vahid təsərrüfat kimi kollektiv formalardan məhz siyasi hakimiyyətin mövcudluğu ilə fərqlənir.

**PARSONS:** İqtisadi sistemlərdə pulun oynadığı rola bənzər rolu siyasi sistemlərdə hakimiyyət oynayır. İqtisadiyyatın diqqət mərkəzində həmişə pul və pul münasibətləri durduğu kimi, siyasətin də diqqət mərkəzində həmişə hakimiyyət və hakimiyyət münasibətləri durur.

**VEBER:** Siyasətin özü bütövlükdə hakimiyyətin ələ alınmasını, əldə saxlanılmasını və istifadə olunmasını istiqamətləndirən fəaliyyətdir.

**PESTEL:** Bu fikri bir qədər incələmək lazım gəlir. İnsanların ən ümumi məqsədi bütün cəmiyyətin və ayrılıqda onun hər bir üzvünün xoşbəxtliyidir. Həmin məqsədi həyata keçirmək üçün isə, əlbəttə ki, müəyyən əməllər lazımdır. Bu əməlləri şəxsən mən ümumiyə və xüsusiyə bölərdim. Ümumi əməl bütün cəmiyyətə aiddir və bütün cəmiyyətin adından həyata keçirilir. Xüsusi əməl isə ayrılıqda hər bir üzvün məşğuliyyətindən ibarətdir. Bütün cəmiyyətin adından həyata keçirilən əməl sərəncam verənlərin vəzifəsini, ayrı-ayrı üzvlərin adından və ayrı-ayrı üzvlər tərəfindən həyata keçirilən əməllər isə tabe olanların vəzifəsini təşkil edir. Vətəndaş cəmiyyəti dövlət adını aldığı zaman sərəncam verənlər hakimiyyət adını, tabe olanlar isə xalq adını alırlar. Hakimiyyət və xalq hər bir dövlətin başlıca tərkib hissələridir.

**HOBBS:** Elədir. İnsanlar yalnız o halda öz əllərinin əməyi ilə əmin-amanlıq şəraitində yaşaya bilirlər ki, onları yadellilərdən və bir-birindən qoruya bilən ümumi hakimiyyət mövcud olur.

**ŞTİRNER:** Amma, bununla belə, dövlət əməyin kölələşdirilməsi üzərində qurulur və əmək bu köləlik zülmünü devirdikdən sonra dövlətin də sonu gələcəkdir.

**EYNZİDEL:** Doğrudan da, idarəetmənin ən yaxşı forması odur ki, burada az idarə edirlər. Ən mükəmməl forma isə odur ki, orada ümumiyyətlə idarə etmirlər.

**LAO-TSZI:** Hakimiyyət dinc olanda xalq da sadəlövh olur, hakimiyyət işgüzar olanda isə, xalq bədbəxt olur.

**ANTİSFEN:** Burada bir nüansı da nəzərə almaq lazımdır. Bir dəfə mənə "Siyasətlə necə rəftar etmək lazımdır"? – sualını verdilər. Mən bu zaman, – "Odla rəftar edən kimi", - cavabını verdim. "Nə o qədər yaxın durmaq lazım deyildir ki, səni yandırsın, nə də çox uzaq olmayasan ki, soyuqdan donasan".

**ŞTİRNER:** Dövlətin isə həmişə bir məqsədi var – fərdləri məhdudlaşdırmaq, əl-ayağını bağlamaq, hansısa bir ümumiyə tabe etmək. Dövlət açıq-aşkar məhdudiyyət ifadə edir, mənim məhdudiyyətimi, mənim köləliyimi.

**TOLSTOY:** Amma o da doğrudur ki, bir adamın başqası üzərində hakimiyyəti hər şeydən öncə hakimiyyət sürəni məhv edir.

**ARİSTOTEL:** Bununla yanaşı, belə bir məqamı da mütləq nəzərdə saxlamaq lazımdır ki, hakimiyyət və tabeolma cəmiyyət həyatı üçün son dərəcə zəruridir, özü də yalnız zəruri deyildir, bir çox insanlar üçün həm də eyni zamanda faydalıdır. Cəmiyyətdəki qeyri-bərabərlik ona daxilən xas olan bir hadisədir. Bu qeyri-bərabərlik cəmiyyətin öz içərisində təbii olaraq formalaşır. Birinin itaətdə, digərinin isə hakimiyyətdə olması insanların öz təbiətlərindən doğur. İnsanların bir qismi təbiətən kölə, başqa qismi isə – təbiətən azaddır.

**BERDYAYEV:** Yox, bu düşüncə - kölə düşüncəsidir, azad adamın düşüncəsi deyildir. Azad insan özlüyündə mövcuddur. Ağa və qul isə yanaşıdırlar, onlardan biri digəri olmadan mövcud ola bilməz. Əgər ağa başqasının özü üçün mövcudluğu şüurundan çıxış edirsə, kölənin şüuru başqası üçün mövcudluqdan ibarətdir. Köləlik həmişə özgələşmədir. Aristoteldən fərqli olaraq, Feyerbax, sonra isə Marks köləliyin bu mənbəyini görürdülər, lakin onu eyni zamanda insan köləliyini qanuniləşdirən materialist fəlsəfə ilə bağlayırlar. Digər tərəfdən, köləliyə son qoyulma ağalığın yaranması demək deyildir, ağalıq köləliyin əks tərəfidir. İnsan ağa olmalı deyil, azad olmalıdır. Mən buna görə də Aristotelin fikrini inkar edirəm. Platonun və sonrakı mütəfəkkirlərin isə o fikrini təsdiqləyirəm ki, despotun özü də kölədir. Başqasını kələləşdirmə özünü kələləşdirmədir. Prometey azaddır və azadlığa çıxa-

randır, despot isə kölədir və kölələşdirəndir. Nə ağa, nə də kölə şəxsiyyət deyildir. Ancaq azad olan insan şəxsiyyətdir. Azad insan heç kəs üzərində ağalıq etmək istəmir. Kölələşdirmə qatillikdir. İnsan ona görə kölədir ki, azadlıq çətindir, köləlik isə asan. Köləlik həmişə həqiqətin inkarıdır, həqiqət qarşısında qorxudur. Həqiqət sevgisi isə kölələşdirici qorxu üzərində qələbədir.

**CEFFERSON:** Azadlıq ağacı isə mütəmadi olaraq tiranların və vətənpərvərlərin qanı ilə suvarılmalıdır. Bu, həmin ağacın kübrəsidir.

**HEGEL:** Azad insana klassik nümunə olaraq Afina vətəndaşını göstərə bilərik. Afina vətəndaşı əsl azad insan idi, o, instinktiv olaraq nə etməli idisə, onu da edirdi.

**BERDYAYEV:** Mənə elə gəlir ki, Hegel əslində həqiqi azadlığı tanımır. Hegel azadlığı dərk olunmuş zərurət kimi dəyərləndirir. Gerçəklikdə isə zərurətin nəticəsi olan azadlıq əsl azadlıq deyildir.

**TOLSTOY:** Ən yazıq kölə – öz zəkasını köləliyə verən və öz zəkasının etiraf etmədiyi şeyi həqiqət kimi qəbul edən kəsdir.

**ZİNOVYEV:** Köləliyin əsl mənbəyi və sosial dayağı isə məncə məmur institutudur.

**LAO-TSZI:** Əksinə, dövlətin içində hərc-mərclik başlayanda sədaqətli nökərlər meydana çıxır.

**ZİNOVYEV:** Bu hal hərc-mərcliyin başladığı zaman deyil, hərc-mərclikdən dövlət hakimiyyətinin formalaşmasına doğru təmayül yer aldığı zaman baş verir. Dövlət hakimiyyəti formalaşarkən köləliyin daşıyıcısı olaraq məmur ordusu meydana çıxır.

**MİLLS:** Mən belə bir sərt ifadə işlətməzdim. Doğrudur, məmur özü-özlüyündə siyasəti yaratmır, yalnız siyasi qərarların müxtəlif variasiyalarına aid olan informasiyanı toplayır və rəsmi olaraq qəbul olunan variantı həyata keçirir. Bununla yanaşı, məmur intizamlı insandır, onun özünü necə aparacağını qabaqcadan asanlıqla bilmək olur, o ciddi olaraq öyrənib ki, özünün «şəxsi fikri»ni öz xidməti həyatından, xidməti vəzifələrindən ciddi olaraq kənarda saxlamalıdır. Öz həmkarları ilə münasibətdə məmur bir qayda olaraq rəsmi davranır və insanlar arasında onların rütbələrindən və ranqlarından irəli gələn sosial distansiyanı saxlayır. Görünür elə bu səbəbdən də bütün bürokratik təşkilatlarda iyerarxiyanın yuxarı pillələri aşağı və orta pillələrə nisbətən daha az bürokra-

tikdir. Bütün bunlarla yanaşı o da doğrudur ki, məmur öz funksiyasını yerinə yetirmək üçün istifadə etdiyi maddi əmlakın mülkiyyətçisi olmadığı kimi, məmurun özü də şəxsən hakimiyyət sahibi deyildir. Onun həyata keçirdiyi hakimiyyət onun özünə deyil, vəzifəsinə məxsusdur.

**PESTEL:** Bu hal lap başlanğıcdan dövlətə və hakimiyyətə xas olan bir cəhətdir. Gəlin, bu fikri bir qədər də xırdalayaq. Hansısa bir məqsədə nail olmaq üçün bir neçə adamın birləşməsi cəmiyyət adlanır. Məqsədə nail olmaq üçün vasitələri seçmə zamanı isə cəmiyyətin üzvləri arasında mübahisələr və fikir ayrılığı yaranır. Əgər üzvlər cəmiyyəti məhv etmək istəmirlərsə, onlardan hər biri öz rəyinin bir hissəsini güzəştə getməlidir ki, ümumi fəaliyyət üçün vasitələr seçilə bilsin. Bəs son fikri kim söyləyir, vasitələri kim seçir, üsulları kim müəyyənləşdirir, fəaliyyətə kim sərəncam verir? Bütün bu çətinliklər iki qaydada həll edilir. Birinci halda bir nəfərin və ya bir neçə üzvün əqli üstünlüyü bütün müxtəlif fikirləri razılaşdırır və digərlərini öz üstünlüyünün gücü ilə cəlb edir. Digər halda isə cəmiyyətin üzvləri bir və ya bir neçə nəfərin üzərinə vasitələri seçmək vəzifəsini qoyurlar və bununla da onlara ümumi fəaliyyətə rəhbərlik etmək hüququnu verirlər. Bu halların hər ikisində cəmiyyət üzvləri sərəncam verənlərə və tabe olanlara ayrılırlar.

**PLATON:** Bu hallardan ikincisi, yəni hakimiyyətin demokratik qaydada formalaşması ilə bağlı mən özümün belə bir narahatlığımı bildirməyə məcburam ki, hakimiyyətin demokratik qaydada formalaşması heç də bütün hallarda uğurlu deyildir. Hakimiyyət bu qayda ilə şərəfsiz insana da verilə bilər.

**PİFAQOR:** Hakimiyyəti şərəfsiz bir insana vermək isə ağılsızın əlinə qılınc vermək qədər təhlükəlidir.

**ANTİSFEN:** Yaramaza hakimiyyət vermək dəliyə qılınc verməkdən daha pisdir.

**PLUTARX:** Həqiqətən də, əlində hakimiyyət olan adamın kiçik günahları da böyük görünür.

**VEBER:** Əgər əlində hakimiyyət olan adamda daim günah axtarılacaqsa, o, şərəfsizlikdə, ağılsızlıqda, yaramazlıqda, dəlilikdə günahlandırılacaqsa, onun hakimiyyət sürməsi son dərəcə çətindir.

Çünki hökmranlıq hakimiyyətin reallığı faktı ilə məhdudlaşa bilməz. O mütləq bu hökmranlığın qanuni olduğu inamını formalaşdırmalıdır.

**PERİANDR:** Rahat yaşamaq istəyən hökmdar özünü nizələrlə deyil, xalqın məhəbbəti ilə mühafizə etməlidir.

**AXUNDOV:** İtaətin bünövrəsi ancaq o zaman möhkəm olur ki, o itaət məhəbbət və inamdan irəli gəlir.

**VEBER:** Hakimiyyət və hakimiyyətə olan inam məncə ən azı üç tipdə ola bilər. Birinci - rasional tipdir. Bu, hökmranlığın məntiqi əsaslandırılmasından doğulan inamdır. İkinci - ənənəvi tip – hökmranlığın milli mentalitetdən doğuluşudur. Üçüncü – harizmatik tip - hökmranlığın hökmran olan şəxsiyyət qarşısında heyranlıq hissindən doğulan inamdır. Harizmatik hökmranlıqda başçı böyük missiyanı yerinə yetirən peyğəmbər, nəhəng tarixi fiqur, yarımallah kimi qavranılır.

**LÖVİT:** Mənə elə gəlir ki, Veber özünün harizmatik hökmranlıq ideyası ilə totalitar rejimlərin meydana gəlməsinə dolayı olsa da nəzəri olaraq şərait yaratmışdır. Əvvəla, onun özü elə *harizmatik rəhbərizm*in nümayəndəsi idi və özünün şübhəli mühakimələrinə irrasional inam yaradırdı. İkinci, ona görə ki, onun siyasi etosunun son sözü *dəyərlərin qətiyyətli seçimi* idi. Bu dəyərlərdən hansının seçilməsi isə Veber üçün əhəmiyyətsiz idi.

**YASPERS:** Mən bunun əksini düşünürəm. Mənə elə gəlir ki, Veber özünün harizmatik nəzəriyyəsi ilə əksinə olaraq Avropada totalitar rejimlərin meydana çıxmasını qabaqcadan söyləmişdi və Avropaya bu barədə xəbərdarlıq etmişdi.

**PUBLİSİY SİR:** Özünü idarə etməyi bacarmadığı halda, başqalarını idarə etmək istəyən kəs ağılsızdır.

**SOLON:** Mən hakimiyyətə iddialı olan kəslərə belə bir məsləhət verərdim: Hakimiyyəti yalnız o zaman ələ al ki, özün tabe olmağı bacarasan.

**SENEKA:** Özünə hökm etmək doğrudan da böyük hakimiyyətdir.

**ARİSTOTEL:** Düşünürəm ki, özünə hökm etməyin iki növü bir-birindən fərqləndirilməlidir. Əgər ruh bədən üzərində despotik hökmranlıqla hakimiyyət sürürsə, zəka bütün meyillərimiz üzərində siyasi hakimiyyətə malikdir. Despotik hakimiyyəti, yəni ağanın qul

üzərində hökmranlığına bənzər hakimiyyəti və həmçinin eləcə də siyasi hakimiyyəti, yəni dövlət xadiminin vətəndaş üzərindəki nüfuzuna bənzər hakimiyyəti hər bir canlı varlıqda görmək olar.

**VEBER:** Amma terminlərə dəqiq yanaşılsa, hakimiyyət termini hökmranlıq terminindən fərqləndirilməlidir. Bunu bir daha vurğulayıram. Hakimiyyət institusional forma kəsb etmiş hökmranlıqdır. Hökmranlıq hakimiyyətdən daha əvvəl meydana gəlir və heç də həmişə hakimiyyət formasını almır.

**MARKS:** Mən bu müddəaya konkret bir nümunə göstərə bilərəm: siyasi hakimiyyət yalnız iqtisadi hökmranlığın törəməsidir.

**RUSSO:** Heç bir vətəndaş o qədər varlı olmamalıdır ki, başqalarını pulla ala bilsin və heç bir vətəndaş o qədər kasıb da olmamalıdır ki, özünü satmağa məcbur olsun.

**DİOGEN LAERTLİ:** Sokratın bitki kökləri yediyini görən birinin «Sən bizim hökmdara qulluq etsəydin, heç vaxt bu günə qalıb bitki kökü yeməzdin» sualına Sokrat «Sən də bitki kökləri ilə kifayətlənsəydin, heç vaxt özgəsinə qulluq etməzdin», - cavabını verir.

**LENİN:** İbrətamiz nümunədir. Öz köləliyini dərk etməyən, utancaq, şüursuz və sözsüz kölə vəziyyətində sürünən kəs sadəcə olaraq kölədir. Öz köləliyini dərk edən kəs isə artıq yarımkölədir. Özünün kölə vəziyyətini dərk edən və ona qarşı mübarizə aparan kəs əslində inqilabçıdır. Kölə həyatının cazibədarlığını, ağasının xeyirxahlığını və yaxşılıqlarını məmnunluqla təsvir edən və bu zaman ağzından su axan kəsə qaldıqda isə, o gədadır, həyasızdır.

**BERDYAYEV:** Bu məqamın çox dərin fəlsəfi kökləri vardır. İnsan həyatda bir çox hallarda rol oynayır, lakin bu rol özünün olmaya da bilər. Şəxsiyyətin ikiləşməsi ibtidai insanda və ruhi xəstədə daha aşkardır. Sivilizasiyalı insanda isə bu ikiləşmə gizlidir. Tam sosiallaşmış və sivilizasiyalaşmış insan özü də sezmədən tamamilə şəxsiyyətsiz, hətta kölə ola bilər. Xaricdən müəyyənləşən, obyektivliyin hakimiyyətinə əsaslanan heç nə şəxsi deyildir, insanda şəxssiz olandır. İnsan *Mən*ində determinasiya olunan hər şey keçicidir, şəxssizə çevrilmişdir. Şəxsiyyət isə gələcəyin təşəkkülüdür, yaradıcılıq aktlarıdır. Obyektivasiya şəxssizlikdir, insanın determinasiyalı dünyaya atılmasıdır. Şəxsiyyətin mövcudluğu isə azadlığı nəzərdə tutur. Azadlığın sirri - şəxsiyyətin sirridir. Ancaq

şəxsiyyət insan ləyaqəti hissinə malikdir. İnsanın ləyaqəti ondakı şəxsiyyətdir.

**RUSSO:** Azadlıqdan imtina etmək elə buna görə də öz insan ləyaqətindən imtina etmək deməkdir.

**MARKS:** İnsan bu və ya digər nemətdən imtina etmənin mənfi qüvvəsi ilə deyil, özünün həqiqi fərdiyyətini ifadə etmənin müsbət qüvvəsi ilə azaddır.

**LİXTENBERQ:** Bu fikirlə razılaşmaq olar. Kölə əməli – heç də həmişə kölənin əməli deyildir.

**HEGEL:** Kölə sözü bu mənanı ifadə etmək üçün çox kəskin səslənir. Həmin mənanı ifadə etmək üçün mən kölə sözünə deyil, pis adam sözünə üstünlük verərdim. Pis adam – həqiqi olmayan adamdır, yəni özünü öz anlayışına və təyinatına uyğun şəkildə aparmayan adamdır.

**RUSSO:** Azadlıq o deyildir ki, istədiyini edəsən, azadlıq odur ki, istəmədiyini etməyəsən.

**MONTESKYÖ:** Bir qədər dəqiqləşdirilsə, azadlıq odur ki, qanunla icazə verilən hər bir şeyi edə biləsən.

**DEMOKRİT:** Adamlar o halda azad ola bilirlər ki, bütün qanun və qaydalara dəqiq riayət edilir, bütün vətəndaşların bərabərliyi və yekdilliyi üçün şərait yaradılır.

**SİSERON:** Biz azad olmaq üçün qanunun köləsi olmalıyıq.

## VII
## (qanun)

**MONTESKYÖ:** Qanunlar sözün ən geniş və ən əhəmiyyətli mənasında şeylərin təbiətindən irəli gələn zəruri münasibətlərdir.

**RUSSO:** Bir qədər konkretləşdirilsə, hər bir hüquqi qanun ümumi iradənin bəyan olunmasından başqa bir şey deyildir.

**VOLTER:** Hamı qanun qarşısında bərabər olmalıdır və hər bir insanın hüquq və ləyaqəti cəmiyyətin hər bir üzvü tərəfindən etiraf olunmalıdır.

**MARKS**: Yox, bu mümkün deyildir. Cəmiyyət qanuna əsaslanmır. Bu, hüquqşünasların fantaziyasıdır. Əksinə, qanun cəmiyyətə əsaslanmalıdır.

**KELZEN:** Mənsə Marksın tamamilə əksini düşünürəm. Hüquq onun sosial-iqtisadi izahından azad edilməlidir. Hüququn izahı üçün Kantın irəli sürdüyü *mövcud* və *zəruri* əksliyi son dərəcə səciyyəvidir. Hüquq zəruri davranış qaydalarının sistemi olmaqla ictimai ətrafdan asılı deyildir. Qanun dövlətin iradəsi deyildir, əksinə, dövlət hüququn təcəssümüdür.

**QORQİY:** Elə bu səbəbdəndir ki, insanlar üçün qanunun özü insan təbiətinə zidd olan bir tirandır.

**SOLOVYOV:** Hüququn vəzifəsi heç də şər üstündə duran dünyanı *ilahi məmləkət*ə çevirmək deyildir, müəyyən vaxta qədər onun cəhənnəmə çevrilməsinin qarşısını almaqdır.

**ƏFƏNDİYEV:** Hüquq ədaləti tanımır, çünki gerçəklik səviyyəsində ədalət olmur, cəmiyyət səviyyəsində ədalət olmur, zaman, şərait, mühit səviyyəsində ədalət olmur, nisbi ədalət olmur, keçici, ötəri, sonlu, qeyri-kamil ədalət olmur, ağalıq-nökərlik səviyyəsində, təbəqələşmə, hamılaşma, özgələşmə səviyyəsində ədalət olmur, cəmiyyətçi ədalət olmur, şəriətçi, zamançı, mühitçi ədalət olmur.

**LENİN:** Qanun bir siyasi ölçüdür, siyasətdir.

**SÜLEYMAN PEYĞƏMBƏR:** Ölkə qanundan uzaqlaşdıqca, çoxlu rəislər meydana çıxır.

**LİXTENBERQ:** Ədalətli hərəkət etmək üçün çox şey bilmək lazım deyil, amma ədalətsizlik törətmək üçün hüquq elmlərini əməlli-başlı öyrənmək lazımdır.

**LAROŞFUKO:** Cinayət özünə daha asanlıqla himayədarlar tapa bilir, nəinki məsumluq.

**BEKKARİA:** Qanun isə odur ki, insanlar kasıb yaxud varlı, rəiyyət, yaxud zadəgan olmasından asılı olmayaraq törətdikləri eyni cinayətlərə görə eyni cəzaya da məhkum edilirlər.

**MARKS:** Dünyanı cəza ilə nə düzəltmək, nə də qorxutmaq heç zaman mümkün olmamışdır və deyildir.

**LAO-TSZI:** Qanunlar və qərarlar nə qədər çox nəşr olunursa, oğru və quldur da bir o qədər çox olur.

**MOJEVSKİ:** Bəlkə də bunun əksi doğrudur. Oğru və quldur nə qədər çox olursa, qanunlar və qərarlar da bir o qədər çox nəşr olunur. Əgər hər hansı bir dövlətdə vətəndaşlar nöqsansız tərbiyə alsaydılar və həyalılıqla, təmizliklə, vicdanlılıqla, fəzilətli əxlaqla seçil-

səydilər, onda hər bir cəza qanunu tamamilə yersiz olardı; zira qanunlar xeyirxah insanlar üçün yazılmır.

**MARKS:** Üstəlik, qanunlar çox zaman nəinki xeyirxah olmayan insanlar üçün, hətta xeyirxah olmayan insanlar tərəfindən yazılır, xüsusən, qəddarlıq yalnız qorxaqlığın diktə etdiyi qanunlar üçün səciyyəvidir.

**ORTEQA-İ-QASSET:** Kütlənin öz-özlüyündə eləyə biləcəyi yeganə iş qisasdır. Kütlə hökmranlığı zorakılığın hökmranlığına gətirir.

**MOJEVSKİ:** Qanunlar ümumiyyətlə götürüldükdə isə yaxşı adətlərin icrası və pis adətlərin qadağan olunması barədə yazılı sərəncamdır. Adətlər qanunların mənbələri və başlanğıclarıdır. Amma bununla belə qanunların özləri də hansısa bir məntiqi əsasa söykənməlidir.

**MONTESKYÖ:** Qanunlar, əvvəla, onu yaradan dövlətin təbiətinə və prinsiplərinə uyğun gəlməlidir. Qanunlar qanunvericinin məqsədləri ilə, mövcud nizam ilə şərtlənir, öz yaranma şəraiti ilə bilavasitə bağlıdır. İkinci tərəfdən, qanunlar ölkənin fiziki xassələrinə, iqliminə, torpağının keyfiyyətlərinə, vəziyyətinə, ölçülərinə uyğunlaşmalıdır. Ağılın xarakteri və ürəyin ehtirasları müxtəlif iqlimlərdə tamamilə müxtəlif olduğu üçün qanunlar da müxtəlif olmalıdır. Üçüncüsü, qanunlar bir-biri ilə bağlı olmalıdır. Və nəhayət, dördüncü və ən başlıcası, qanunlar hansı xalq üçün yaradılmışsa, o xalqın xarakteri ilə sıx bağlı olmalıdır. Qanun xalqın azadlıq səviyyəsindən, dinindən, meyillərindən, zənginliyindən, sayından, adətlərindən, həyat tərzindən asılı olaraq qəbul edilməlidir. Çox nadir hallarda mümkündür ki, bir xalq üçün yaradılmış qanunlar başqa xalq üçün də yararlı olmuş olsun.

**MOJEVSKİ:** Qanun adətdən fərqli olaraq mükafatlandırılma və cəzalandırılma ilə izlənir. Qanun öz arzusu ilə xeyirxah və ədalətli olmaq istəməyənləri mükafatlandırma və cəzalandırma yolu ilə öz vəzifələrini yerinə yetirməyə məcbur edir.

**SPİNOZA:** Yox, razı deyiləm. Xeyirxahlıqlarının əvəzində yalnız kölə olanlara mükafat verilir, azad olanlara yox.

**MARKS:** Qanunun paraqrafları ilə əxlaqi qüvvəni yaratmaq mümkün deyildir. Prinsiplərin arxasınca gedən qanunların əsasında prin-

sipsizlik – dövlətə qeyri-əxlaqi, kobud-əşyavi baxış durur. Qanun - çirkli vicdanın harayıdır.

**EYNZİDEL:** Qanun əsasən ölülərin səsindən başqa bir şey olmadığı üçün, canlıların iradəsindən daha çox gülməlidir.

**MARKS:** Əgər qanunvericilik mənəviyyatı dekretləşdirmək qabiliyyətində deyilsə, o mənəviyyatsızlığı da hüquq elan etmək üçün daha az qabildir.

**MONTESKYÖ:** Sonuncu mülahizələrə qəti etiraz edirəm. Məgər belə bir faktı unutmaq olarmı ki, qanunların mövcud olmadığı üsul-idarə tiraniyadır.

## VIII
## (tiraniya)

**MOJEVSKİ:** Tiraniyanın başlıca xüsusiyyəti ondadır ki, orada hər şey bir nəfərin şıltaqlığı ilə edilir.

**PİFAQOR:** Bu da təbiidir. Hökmdarın verdiyi əmrlər, sərəncamlar mütləq yerinə yetirilməli, qanunlarına mütləq riayət edilməlidir.

**MOJEVSKİ:** Xeyr, elə deyildir. Qanunlar tiraniya üçün deyil, çar hakimiyyəti üçün səciyyəvidir. Tiraniyadan fərqli olaraq çar hakimiyyəti ölkənin adətlərinə və qanunlarına tabedir.

**POLİBİ:** Çar hakimiyyəti o zaman yaranır ki, idarə olunanlar hakimiyyəti bir nəfərə könüllü olaraq güzəştə gedirlər, zor və qorxudan daha çox idraka tabe olurlar.

**MOSKA:** Zora meyil göstərən adamlar hər bir cəmiyyətdə vardır. Əgər bu adama dahilik payı verilərsə və əlverişli tarixi şərait yaranarsa, biz Napoleonu əldə etmiş olarıq, əgər onun qarşısında böyük bir ideal qoyularsa, biz Qaribaldini əldə etmiş olarıq, əgər ona xoş təsadüfdən başqa heç nə verilməzsə, biz Mussolinini əldə etmiş olarıq.

**BODEN:** Əgər biz desək ki, tiran yalnız qanunlara tabe olmayan kəs olduğu üçün mütləq hakimiyyətə malikdir, onda biz bütün dünyada elə bir suveren hökmdar tapa bilmərik. Zira, Yer üzünün bütün hökmdarları Tanrının və Təbiətin qanunlarına, həmçinin bütün xalqlar üçün ümumi olan insani qanunlara tabedirlər.

**LAO-TSZI:** Hökmdarlar hadisələrin təbii axarına müdaxilə etməməli, təbii qanunauyğunluqlara riayət etməlidirlər.

**ƏMİR TEYMUR:** Bəlkə də belədir. Dünya malına göz dikənlərə mal və əşya verəcəyimi vəd etdim, mənsəbə, rütbəyə göz dikən işbazları əlimin altındakı məmləkətlərə və vilayətlərə hakim təyin etdim. Onları yarıümid və yarıqorxu arasında saxladım. Zalımlardan məzlumların hayfını belə aldım.

**MƏHƏMMƏD PEYĞƏMBƏR:** Hamıya, məzluma da, azğına da kömək edin. Təəccüblənməyin. Gözlərinizdən “Azğına nəyə görə?” sualını oxuyuram. Azğına kömək edin ki, azğınlıqdan canını qurtarsın, məzluma kömək edin ki, məzlumluqdan qurtulsun.

**AXUNDOV:** Vilayət içində despot padşah tərəfindən elmsiz və hər şeydən xəbərsiz şahzadələr oturdulublar. Bunlar xalq ilə köləliyin ən alçaq və ən rəzil vəziyyətində rəftar edirlər. Hər bir məclisin yuxarı başında otururlar. Qalan camaat isə istər əmir olsun, istər adi adam, onların hüzuruna daxil olanda ikiqat olur, əl-əl üstə durur, gözləyir ki, şahzadənin ağzından nə çıxacaq. Danışmağa başladıqda hər tərəfdən “bəli, bəli” sədası yüksəlir. Bu şahzadələr küçələrdən keçəndə fərraşlar qabağa düşüb hər an xalqın üstünə çığırıb deyirlər: “Rədd olun,… keçin”. Əgər bir yazıq bilməyib yoldan kənara çəkilməsə, fərraşların kötəyinə, dəyənəyinə rast gələcək. Xalq bir xəyal edə bilmir ki, bunlar nə üçün gərək bu üstünlüklərə malik olsunlar? Bunlar bizim can və malımıza himayəçi olmuşlarmı? – Yox. Bunların himayəsi ilə biz məmləkətimizin daxilində quldurların zülmündən əmin-amanlıq tapmışıqmı? – Yox. Bunların vasitəsi ilə biz yoxsulluqdan nicat tapmışıqmı? – Yox. Bəs bunların vücudu nəyə lazımdır?

**LAO-TSZI:** O yerdə ki, hakimiyyət böyük müdriklərə mənsubdur, təbəələr onların mövcudluğunu hiss etmirlər. O yerdə ki, hakimiyyət o qədər də böyük olmayan müdriklərə mənsubdur, təbəələr onlara bağlı olur və onları tərifləyir. O yerdə ki, hakimiyyət kiçik müdriklərə mənsubdur, təbəələr onlardan qorxur. O yerdə ki, hakimiyyət daha kiçiklərə mənsubdur, təbəələr onlara nifrət edir.

**ORTEQA-İ-QASSET:** Buradan alına bilən başqa bir nəticə də ondan ibarətdir ki, adi adamın həyatı bütün zəmanələrin ən qüdrətli

hökmdarlarının həyatından daha asandır, daha bol və daha təhlükəsizdir.

**RASSEL:** Hakimiyyət istəyi ümumiyyətlə qorxudan doğur. Öz qonşularından qorxmayan kəs üçün onlar üzərində hakimiyyətdə olmaq zərurəti də yoxdur.

**MONTESKYÖ:** İstibdad üsul-idarəsinin hərəkətverici qüvvəsi qorxudur. Bu üsul-idarə üçün köləlik ruhu, özbaşınalıq və zorakılıq səciyyəvidir.

**POLİBİ:** İstibdad üsul-idarəsi monarxiyadan fərqlidir. Ali hakimiyyəti əlində saxlayıb ölkəni idarə edən şəxs öz xalqının iradəsi ilə razılaşırsa, hər kəsi, təbəələrinin fikrincə, əməllərinə görə qiymətləndirirsə, yəni fəzilət sahiblərini mükafatlandırıb, pis işlər görənləri cəzalandırırsa, onda xalq da qorxudan daha çox ağılın itaətində durur, qocalığına baxmayaraq yekdilliklə həmin başçını müdafiə edir, onu taxtdan salmaq istəyənlərə qarşı daima mübarizə aparır. Təxminən bu yolla idarə edilən cəmiyyət zor və cəsarətin ağalığını əvəz etdiyi gündən hökmdar da nəzərə çarpmadan şaha çevrilir. Xalq təkcə bu cür şahların özlərini deyil, onların nəvə-nəticələrini də hakimiyyətdə uzun müddət ona görə qəbul edir ki, ağılın və əsl-nəcabətin irsən keçməsinə inanır.

**BODEN:** Monarxiya tiraniyadan fərqli olaraq qanunidir, əvvəla ona görə ki, monarxın hakimiyyəti qanunlarla məhduddur, ikincisi, ona görə ki, xalqın və ya onun nümayəndələrinin razılığı olmadan monarx xalqın üzərində özbaşına olaraq vergi qoya bilməz.

**MONTESKYÖ:** Amma hakimiyyət heç zaman dövlət və xalq arasında tən yarı bölünə bilməz. Tarazlığı, müvazinəti saxlamaq qeyri-mümkündür. Hakimiyyət hökmən bir tərəfdən azalıb, o biri tərəfdən çoxalmalıdır və əsasən burada üstünlük həmişə dövlətin tərəfində olur, çünki ordu onun əlindədir. Lakin, istibdad üsul-idarəsi mötədil-mülayim idarə forması ilə əvəz edilməlidir. Belə idarə forması yalnız konstitusiyalı monarxiya və respublika şəraitində həyata keçirilə bilər. Digər tərəfdən, həqiqi monarxik dövlətin də varlığına bir o qədər inanmıram. Monarxik dövlət təmiz halda uzun müddət qala bilməz. Bu cür idarə üsulu tezliklə ya zorakılıq üstündə bərqərar olan despotizm ilə, ya da respublika ilə əvəz olunmalıdır.

## IX
## (respublika)

**RUSSO:** Qanunlarla idarə olunan hər bir dövləti mən respublika adlandırıram.

**MONTESKYÖ:** Belə bir yanaşma dəqiq deyildir. Üç tərzdə idarəetmə mümkündür: respublikaçı, monarxik və despotik. Respublikaçı idarəetmə odur ki, burada ali hakimiyyət bütün xalqın və yaxud onun müəyyən hissəsinin əlindədir; monarxik idarəetmə odur ki, burada ali hakimiyyət bir adamın əlindədir və həmin bu bir adam dövləti müəyyən dəyişməz qanunlar vasitəsilə idarə edir; despotik hakimiyyətdə isə bir adam hər hansı bir qanun və ya qayda gözləmədən öz iradəsi və istibdadı ilə idarə edir. Əgər despotik hakimiyyət üçün qorxu öncüldürsə, monarxiya üçün şərəf, respublika üçün fəzilət səciyyəvidir.

**BOESİ:** Dövlətin hansı formasının üstün olması fikrini mən indi araşdırmaq istəməzdim. Lakin, mənə bir şey aydındır: dövlət forması kimi monarxiyaya qəti ehtiyac yoxdur. Monarxiyanın digər dövlət formaları arasında hansı yeri tutduğunu aydınlaşdırmaqdan öncə mən bilmək istərdim ki, o ümumiyyətlə dövlət formaları arasında müəyyən yer tutmağa layiqdirmi?

**BODEN:** Məncə, monarxiya əleyhinə söylənilən bu kəskin mühakimələr doğru deyildir. Güclü, mərkəzləşdirilmiş dövlət zəruridir. Monarx suveren rolunda çıxış etməlidir, yəni hakimiyyətin yeganə mənbəyi olmalıdır. Onun iradəsi və onun iradəsini ifadə edən qanunlar dövlətin bütün ərazisində yerinə yetirilməlidir. Yerli əmirlərin özbaşınalığına son qoyulmalıdır. Yalnız hökmdar bütün hüquqlara malikdir və yalnız Tanrı ondan yüksəkdir.

**TUSİ:** Amma siyasəti həyata keçirmək üçün həmişə bir şəxsə ehtiyac vardır. Lakin, bu şəxsin hökmən şah və ya hökmdar olması məcburi deyildir.

**MONTESKYÖ:** Hakimiyyət formaları içərisində hansının daha yaxşı olması ölkənin yerləşdiyi iqlim zonasından asılıdır. İsti iqlim despotizmin, soyuq iqlim isə azadlığın qərarlaşması üçün zəmin verir. Məhsuldar torpaqları olan ölkələr üçün bir adamın hakimiyyəti səciyyəvidir. Asiyada elə buna görə də hakimiyyət həmişə

despotik olmuşdur. Məhsuldar olmayan torpaqlarda isə əsasən bir neçə şəxsin hakimiyyəti qərarlaşır.

**HEGEL:** Dövlətin ölçüləri böyüdükcə və əhalinin sayı artdıqca onun qanunları və quruluşu tamam başqa bir şeyə çevrilir. Hər bir dövlət quruluşu öz qüdrətliliyinin müəyyən ölçüsünə malikdir və bu ölçünü aşdıqda dövlət quruluşu dağılmağa başlayır. Bu elə bir quruluşdur ki, başqa bir böyüklükdə olan dövlətdə onun xoşbəxtliyini və gücünü təşkil edərdi.

**POLİBİ:** Öz-özlüyündə tam kamil olan bir dövlət forması yoxdur. Dövlət o zaman kamil olur ki, bütün dövlət formalarının ən müsbət cəhətlərini özündə cəmləşdirsin. İlk dəfə məhz bu üsulla Likurq Sparta dövlətini yaratmışdı.

**SİSERON:** Polibi tərəfindən söylənilən ideya tamamilə doğrudur. Heç bir dövlət forması idarəetmənin həmişə öz dəyərini saxlayan ideal tipi hesab edilə bilməz. Hər bir dövr özünün siyasi yaradıcılıq prosesində bu formaların qarışığından ibarət siyasi strukturları yaratmalıdır. Burada hökmdarın (monarxiya), Senatın (aristokratiya), yoxsa Xalq Yığıncağınınmı (demokratiya) daha əhəmiyyətli olması zamandan asılıdır.

**POLİBİ:** Təbiətin öz qanunlarına uyğun olaraq hakimiyyət formaları dəyişir, bir-birini əvəz edir və yenidən əvvəlki vəziyyətinə qayıdır.

**İBN XƏLDUN:** İnsanlar əvvəlcə vəhşi olurlar, sonra tədricən təbiət aləmindən ayrılır, sosial qrup halını alırlar. Əvvəlcə əkinçilik və maldarlıqla, sonra isə sənətkarlıq və ticarətlə məşğul olurlar, elm və incəsənət meydana gəlir.

**VİVEKANANDA:** Bu hal müxtəlif kastaların hakimiyyətdə bir-birlərini əvəzləməsi ilə bağlıdır. Belə ki, bütün zamanlarda və sivilizasiyalı cəmiyyətlərdə dörd kasta – brahmanlar, kşatrilər, vayşilər və şudralar mövcud olmuşlar və bu kastaların dünya üzərindəki hakimiyyəti növbə ilə bir-birini əvəz etmişdir. Bütün qədim millətlərdə tarixlərinin ilk dövrlərində hakimiyyət sükanı brahmanların, yəni kahinlərin əlində olmuşdur. İkinci mərhələdə hakimiyyətə kşatrilər, yəni döyüşçülər gəlirlər. Sonradan isə hakimiyyət ticarət vasitəsilə varlanan vayşilərin əlinə keçir. İngiltərə Hindistanı Həzrət İsa və ya Tövrat vasitəsilə fəth etmədi, İsanın

adının arxasında, möhtəşəm sarayların arxasında, yeri titrədən cəng arabalarının arxasında, süvari və piyada orduların arxasında, döyüş şeypurlarının və nəhəng təbil gurultularının arxasında, kraliça taxtının gözqamaşdırıcı dəbdəbəsi arxasında həqiqi İngiltərə gizlənirdi. O İngiltərə ki, döyüş bayrağı fabrik borusu idi, qoşunu ticarətçilər ordusu idi, döyüş meydanı isə dünyanın bütün bazar meydanları idi.

**FEN YU-LAN:** İnsanın dörd inkişaf mərhələsinə uyğun cəmiyyətin də dörd inkişaf mərhələsi göstərilə bilər. Birinci – məsum körpə mərhələsində insan uşağa və vəhşiyə bənzər olaraq təbii instinktlərə uyğun fəaliyyət göstərir. İkinci – utilitar mərhələdə insan dünyadan faydalanmağa səy göstərir. Üçüncü - əxlaqi mərhələsində insan özünü cəmiyyətin bir hissəsi kimi qavrayır. Dördüncü – transsendent mərhələsində isə insan özünü *Səmanın vətəndaşı* kimi dərk edir.

**POLİBİ:** Tarixi dövrləri bir daha siyasi rakursda nəzərdən keçirsək qeyd oluna bilər ki, hər şeydən öncə öz-özünə heç bir plan olmadan təkhakimiyyətlilik meydana gəlir. Sonra onun daxilində nizam-intizam yaratmaq, düzəlişlər etmək yolu ilə şahlıq yaranır. Öz növbəsində şah üsul-idarəsi öz təbiətinə yaxın olan eybəcərləşmiş formasına, yəni tiraniyaya keçəndə sonuncuların xarabalıqları üzərində aristokratiya yüksəlir. Daha sonra aristokratiya da təbiətin qanunu ilə oliqarxiyaya çevriləndə və qəzəblənmiş xalq hökmdara qarşı ayağa qalxanda demokratiya doğulur. Bəzilərini məhv, bəzilərini isə sürgün etdikdən sonra daha vətəndaşlar özlərinə şah seçməyə cürət etmirlər. Səbəb də budur ki, əvvəlki zalım şahlardan gözləri qorxub, eyni zamanda öz həyatlarını hətta yaxşı tanıdıqları bir neçə şəxsə də etibar etməkdən çəkinirlər. Çünki dünənki hökmdarlardan çəkdikləri hələ də gözləri önündən getmir. Artıq heç kəsə inamı qalmayan xalq yeganə çıxış yolunu özündə görür, beləliklə də oliqarxiyanı demokratiya ilə əvəz edir, dövlət və onun müdafiəsi qayğısını öz üzərinə götürür. Nə qədər ki, köhnə sistemin həyasızlıq və zorakılıqlarını öz gözləri ilə görənlər hələ sağdır, o vaxtacan yeni quruluş hamını qane edir, bərabərlik və azadlıq çox qiymətləndirilir. Ancaq elə ki, nəsil tamam dəyişir, qurbanlar bahasına qazanılan xalq haki-

miyyəti oğullardan nəvələrin əlinə keçir, onda demokratiya dövründə öz gözünü açmış, oliqarxiya haqqında yalnız ağızlardan eşidən bu adamlar bərabərlik və azadlıqlarının üstündə daha babaları tək əsmirlər, əksəriyyətdən seçilmək arzusu onların bütün hisslərinə hakim kəsilir. Bu meyil özünü xüsusilə varlılarda göstərir. Lakin, hakimiyyətə can atan həmin şəxslər öz qabiliyyət və şəxsi şücaətləri ilə istədiklərinə nail ola bilməyəndə nə yolla olursa-olsun camaatın qılığına girmək, onu şirnikləndirmək məqsədilə pul kisələrinin ağzını səxavətlə açırlar. Yalnız onların sərsəm şöhrətpərəstliyi ucbatından xalq ələ baxan edilir, demokratiya isə uçulub yerini qanunsuzluğun və zorun ağalığına verir. Xalq kütlələrinin ipə-sapa yatmaması, qanunlara qarşı etinasızlığı zaman keçdikcə oxlokratiyanın gəlişini labüd edir. Başqasının hesabına qarnını doydurmağa vərdiş edən kütlə qətllər, sürgünlər törədir, vəhşiliklər edir, başqa xalqları öz əsarəti altına alır.

**LENİN:** Sonuncu mərhələ müasir dillə ifadə olunsa, imperializmdir. İmperializm kapitalizmin elə mərhələsidir ki, burada monopoliyaların və maliyyə kapitalının inhisarı formalaşmışdır və kapitalın xaricə daşınması aparıcı əhəmiyyət kəsb etmişdir. Müxtəlif kapitalistlərdən bir, kollektiv kapitalist formalaşır.

**VİKO:** Tarixin inkişafı, məncə isə, üç mərhələdən ibarətdir. Birinci – *ilahi* mərhələdir. Bu mərhələdə hakimiyyət yoxdur, hüquqi normalar mövcud deyildir. İkinci – *qəhrəmanlıq* mərhələsidir. Burada aristokratik dövlət mövcuddur. Üçüncü – *insani* mərhələdir. Burada respublika tipli demokratik idarəetmə üsullu dövlət mövcuddur.

## X
## (demokratiya)

**POLİBİ:** Demokratiya nədir? Çoxları onu anarxiya kimi başa düşür. Yəni, kimin ürəyi nə istəsə edə bilər. Əslində o dövlət demokratik sayılmalıdır ki, onda tanrılara etiqad, valideynlərə hörmət, böyüklərə ehtiram, qanunlara isə itaət ululardan qalıb və bütün bunlarla yanaşı son həlledici söz xalqın əksəriyyətinə məxsusdur.

**LİNKOLN:** Demokratiya xalq naminə həyata keçirilən xalq hakimiyyətidir.

**LENİN:** Yox, demokratiya yalnız varlılar üçün cənnətdir, istismar olunanlar üçün, kasıblar üçün isə tələ və hiylədir.

**DEMOKRİT:** Yox, demokratiya şəraitində yoxsul olmaq, zülm şəraitində xoş həyatdan daha yaxşıdır.

**BERDYAYEV:** Leninin demokratiya ideyasına düşmən münasibəti təbiidir. Sosializm doğrudan da xalqın suveren iradəsini deyil, sinfin, Messiya sinfinin – proletariatın suveren iradəsini təsdiq edir. Ancaq proletariat istismarın ilkin günahından azaddır. Hətta Marksın özü də kommunizmin taleyini *burjua* quruluşunun ögey oğlu ilə, proletariatla bağlayır. Marks kapitalizmin bu ögey oğlunu messiya kimi qəbul edir. Bu, yəhudilərin özlərini Tanrının sevimli xalqı kimi, ali irq kimi, yeni həyatın yaradıcısı kimi dərk etmələrinə bənzəyir. Fəhlə sinfinin kapitalizm cəmiyyətindəki vəziyyəti acınacaqlıdır və insanda mərhəmət hissini oyadır. Amma bu sinifdə xüsusi bir yüksək cizgi yoxdur, onu ehtiyac alçaltmış, paxıllıq, acıq və intiqam hissi zəhərləmişdir. O, yaradıcılıq israfçılığından məhrumdur. Belə mənəvi meyillərdən yüksək insani tip və yüksək ictimai həyat tipi doğula bilərmi? Nəcib cizgilər, ruhani azadlıq cizgiləri ən sadə fəhlələrdə və kəndlilərdə də ola bilər. Bunun üçün isə onlarda qətiyyən heç bir "proletar şüuru" və ya "proletar psixologiyası" olmamalıdır. Marksizm yeni məmləkəti nəciblik üzərində deyil, köləlik üzərində qurmaq istəyir. "Proletariat" ateizmi və materializmi *burjua*dan öyrənmişdir, səthi maarifçilik ruhunu onun vasitəsilə mənimsəmişdir, bir çox günahları və nöqsanları *burjuaziya*dan irsi olaraq qəbul etmişdir. *Proletariat*da *burjuaziya*dan mənimsənilməyən, orijinal olan heç nə yoxdur. Proletar tipli sosializmdə nəciblik yoxdur, nəciblik aristokratik sosializmə xasdır. Nəciblik Reskinin iyerarxik sosializmində vardır. Demokratizm kimi marksist sosializmi də xalqın nəcibləşdirilməsinə xidmət etmir.

**HOBBS:** Demokratiya sözü özünün ilkin mənasında ümummilli problemlərin Xalq Yığıncağında müzakirə və həllini ifadə edir. Lakin, Xalq Yığıncaqları arasındakı zaman intervalı çoxaldıqca demokratiya da öz mənasını itirir.

**MİXELS:** "Həqiqi demokratiya", yəni bilavasitə demokratiya praktik olaraq həmişə mümkün olmadığı üçün nümayəndəli demokratiyaya doğru təkamül edir. Nümayəndəli demokratiya isə öz mahiyyəti etibarı ilə oliqarxik təbiətlidir, nümayəndənin nümayəndəsi olduğu xalq üzərində hakimiyyətidir. Demokratiya həmişə oliqarxiyaya çevrilir.

**ÇÖRÇİLL:** Demokratiyanın əlbəttə ki, nöqsanları çoxdur, amma bəşəriyyət bu vaxta qədər bundan daha mükəmməl olan bir quruluşu hələ ki fikirləşib tapmamışdır.

**ORTEQA-İ-QASSET:** Mükəmməl təşkil olunmuş hər bir cəmiyyətdə kütlə idarə olunur. Kütlə öz-özünə fəaliyyət göstərə bilmir və göstərmir. Kütlə ona görə mövcuddur ki, ona başçılıq etsinlər, ona öyüd versinlər və onun əvəzinə vəkillik etsinlər.

**RUSSO:** Xalq deputatları xalqın nümayəndəsi deyildirlər və ola da bilməzlər. Onlar xalq iradəsi adından heç bir qəti qərar qəbul edə bilməzlər. Xalqın ratifikasiya etmədiyi heç bir qərar qanun hesab edilə bilməz.

**QƏZZAFİ:** Parlamentdə xalqın nümayəndəliyi yalandır. Xalq adından nümayəndəlik yoxdur. Əhalini seçki dairələrinə bölməklə guya bir deputat seçicilərin sayına uyğun olaraq minlərlə, yüz minlərlə, hətta milyonlarla adamı təmsil edir. Hər bir deputat, başqa deputatlar kimi, xalqın nümayəndəsi sayılır. Əgər parlament seçkilərdə qalib gəlmiş bir partiya tərəfindən təşkil edilmişsə, bu halda o, xalq parlamenti deyil, partiya parlamenti olur və xalqın nümayəndəsi deyil, həmin partiyanın nümayəndəsi olur. Xalq kütlələri deputatlardan tamamilə ayrı düşür. Parlamentin təyin etdiyi icraedici hakimiyyət orqanları xalqın hakimiyyətini deyil, qalib gəlmiş partiyanın hakimiyyətini təmsil edir. Bundan əlavə, seçkili parlament sistemi səs yığmaq üçün təbliğata əsaslandığına görə sözün həqiqi mənasında demoqogiya sistemidir. Dünyaya məlum olan ən qəddar diktaturalar parlament rejimləri şəraitində hökm sürmüşlər. Birbaşa demokratiya kimi səciyyələndirilən referendum isə demokratiya adı ilə yalandır. *Hə* deyənlər də, *yox* deyənlər də, əslində öz iradələrini ifadə etmirlər, əksinə onlar müasir demokratiya məfhumunun hökmü ilə susdu-

rulmuşlar. Onlara *hə* və ya *yox* deməkdən başqa danışmağa icazə verilmir. Bu ən sərt amansız diktator rejimi formasıdır.

**ORTEQA-İ-QASSET:** Ümumi səs vermədə kütlə qərar qəbul etmir, azlığın bu və ya digər qərarına qoşulur. Azlıq *öz proqramı*nı təklif edir və kütləni bu qərar layihəsini bəyənməyə dəvət edir.

**BERDYAYEV:** Demokratiya xalqın iradəsini tanımır, ancaq müasir nəslin əhəmiyyətsiz yığımının iradələrinin mexaniki cəmlənməsini tanıyır. Məsələn rus xalqının iradəsini, müasir nəslin əhəmiyyətsiz yığımının iradələrinin mexaniki cəmlənməsində axtarmaq düzgün deyildir, bunun üçün Dostoyevskinin, Tolstoyun fikirlərini öyrənmək daha düzgün olardı.

**LİXTENBERQ:** Doğrudan da, seçkilər zamanı səsləri saymaqdansa, çəksəydilər daha yaxşı olardı.

**ARİSTOFAN:** Bir gün heyvanlar şurasının iclasında dovşan özünün gurultulu çıxışında hamının bərabərliyini bəyan edir. Aslan dovşana qulaq asır və təəccüblə soruşur: Əgər hamı bərabərdirsə, bəs sənin caynaqların haradadır?

**TOKVİL:** Demokratik eqalitarizmin üç mənfi aspekti qeyd edilə bilər. Əvvəla, feodal aristokratiyasının imtiyazlarını ləğv etmək və bununla da bərabərliyə nail olmaq uğrunda mübarizənin aləti kimi çıxış edən siyasi mərkəzləşmə cəmiyyətdə başlıca yer tutmağa başlayır və insan azadlıqlarını boğur. İkincisi demokratik bərabərlik fərdiyyətçiliyi doğuraraq insanları bir-birindən ayırır, onları xüsusi həyatın çərçivəsi daxilinə salır və bununla da despotizm üçün əsas hazırlayır. Üçüncüsü, *bərabərliyə olan eybəcər meyil* hamını kütlə səviyyəsinə endirmək meyilinə çevrilir, *köləlikdə bərabərliy*ə gətirib çıxarır.

**QƏZZAFİ:** İndiki şəraitdə demokratik yolla aparılan siyasi mübarizə fərdin, qrupun, partiyanın və ya sinfin qələbəsinə, xalqın isə məğlubiyyətinə gətirib çıxarır. Seçicilərin ümumi səsinin 51%-ini toplamış hər hansı bir namizədin qələbəsi ilə nəticələnən siyasi mübarizə diktaturanın qurulması ilə nəticələnir. Belə halda seçicilərin 49%-i özlərinin seçmədikləri və onlara zorla qəbul edilmiş idarəetmə alətinin hökmü altına düşürlər. Bu isə elə diktatura deməkdir.

**MİLLS:** Belə olmaya da bilər. Amerika hindularına qarşı duran Amerika köçmələri rəqib üzərində elə texniki və say üstünlüyünə malik idilər ki, ölkə peşəkar hərbi təbəqə və iri intizamlı zor aparatı olmadan keçinə bilirdi. O zamankı hərbi texnikada zor vasitələri təmərküzləşməmiş qalırdı. Bu, Amerika tarixinin ilk dövrlərində demokratik institutların təsdiqi üçün mühüm səbəb idi.

**HOBBS:** Demokratiya aristokratiya və monarxiya ilə müqayisədə daha çox nöqsanlıdır. Əvvəla ona görə ki, mühüm dövlət problemlərinin çoxadamlı yığıncaqlarda müzakirəsi onların azsaylı bilicilər tərəfindən müzakirəsinə nisbətən daha az effektlidir. Çünki, bir tərəfdən adamların əksəriyyəti bu problemlərin mahiyyətini başa düşmür. Digər tərəfdən, əksəriyyət siyasi problemləri ümumdövlət mənafeyindən çıxış edərək deyil, daha çox öz dar mənafeyindən çıxış edərək həll etməyə çalışır. Üçüncü bir tərəfdən, mühüm dövlət problemlərinin geniş miqyaslı müzakirəsi çox zaman fikir ayrılığına, nəticədə qiyamlara və vətəndaş müharibələrinə gətirib çıxarır. Məsələyə dördüncü tərəfdən baxıldıqda, etiraf etmək lazım gəlir ki, belə müzakirələr dövlət sirlərinin yayılmasına səbəb olur. Və nəhayət, dövlət problemlərinin çoxadamlı yığıncaqlarda müzakirəsi zamanı insanlar problemlərin həllindən daha çox, öz natiqlik məharətini nümayiş etdirmək və mühüm dövlət postlarına seçilmək üçün siyasi kapital toplamaq qayğısına qalırlar. Buraya onu da əlavə etmək lazım gəlir ki, mühüm dövlət postlarının layiq olmayan adamlar tərəfindən tutulması imkanları aristokratiyaya və monarxiyaya nisbətən demokratiyada daha çoxdur. Layiq olmayan adamların irəli çəkilməsində *monarx* və ya *optimatlar şurası* maraqlı deyillər. *Xalq Yığıncağı*nda isə əhalinin hər bir qrupu layiq olub-olmamasından asılı olmayaraq yüksək dövlət vəzifələrinə yalnız öz adamının irəli çəkilməsinə maraqlıdır. Bundan başqa, bir adamın hakimiyyəti zamanı insanların ədalətsiz cəzaya məruz qala bilməsi ehtimalı *Xalq Yığıncağı*nın hakimiyyəti zamanı olduğundan daha azdır. Unudulmamalıdır ki, Afinada nüfuzlu adamlar heç bir cinayət törətmədikləri halda sürgünə məruz qalırdılar.

**BERDYAYEV:** Demokratiya xeyrə və şərə biganədir. Demokratiya iradənin ifa olunmasının ancaq formal prinsipini tanıyır və qoruyur.

Demokratiya xalqın iradəsinin məzmununa və istiqamətinə biganədir. İradənin ifa olunmasının formal prinsipi isə heç də iradənin məzmununu əks etdirmir. Demokratiya həqiqətin itirildiyi dövrlərdə, skeptisizm dövrlərində, inamsızlıq şəraitində və zamanında meydana gəlir. Bu, o halda baş verir ki, xalqlar həqiqətin möhkəm meyarlarını artıq itirmiş olurlar. Demokratiya həqiqəti tanımadığı üçün, onu çoxluğun səsi ilə müəyyənləşdirmək istəyir. Cəmiyyət hakimiyyətinin qəbul olunması, ümumi səsvermə qarşısında səcdə ancaq həqiqətin məlum olmaması və həqiqətə inamsızlıq şəraitində mümkündür. Lakin, demokratiya güman edir ki, əksəriyyətin iradəsinin ifadəsi, səslərin mexaniki sayılması nəsə bir xeyirxah nəticələrə gətirməlidir. Demokratiyanın əsasında insanın təbii xeyirxahlığı inamına söykənən optimizm durur. Demokratiya unudur ki, çoxluq yalanı da müdafiə edə bilər, həqiqət isə azlıq tərəfində qalmış olar. Demokratiyada xalqın iradəsinin yaxşılığa doğru aparacağına heç bir təminat yoxdur. Fransız inqilabında inqilabi demokratiya öz işinə insan hüquqlarının və azadlığının bəyan olunmasından başladı, lakin, 1793-cü ilə qədər azadlığı son tikəsinə qədər məhv etdi. Demokratiya o zaman meydana çıxır ki, xalq iradəsinin üzvi vəhdəti parçalanmış olur və cəmiyyət atomlara bölünür. Xalq iradəsinin aliliyini etiraf və bəyan edən ideologiya o zaman yaranır ki, artıq vahid xalq iradəsi mövcud deyildir. Demokratiya öz qarşısına xalqın parçalanmış iradəsini bir yerə yığmaq məqsədini qoyur. Lakin, demokratiya hamının iradəsini yalnız mexaniki olaraq toplaya bilir, burada xalqın ümumi, üzvi iradəsi meydana çıxmır. Demokratiya xalqın ümumi iradəsinin həyata keçirilməsinin vacibliyini vurğulasa da, bu iradəni yüksək bir ideala, məqsədə tabe etdirmək istəmir.

**TRUMEN:** O ölkədə ki, insan hüquqlarına hörmət yoxdur, orada heç zaman təhlükəsizlik təmin olunmayacaqdır.

**RENAN:** Amma, bununla belə, yüksək idealların həyata keçirilməsi seçilmiş adamlara deyil, seçmə adamlara aiddir. Qalan kütlə isə seçmə adamların mövcudluğu üçün zəruri şərtdir. Əxlaqlı və ədalətli cəmiyyətin mövcudluğu ancaq o halda mümkündür ki, seçmə adamlar və kütlə yalnız öz vəzifələrini yerinə yetirirlər.

**ORTEQA-İ-QASSET:** Kütlə ali olana riayət etməlidir. Ali olan isə seçmə azlıqdan doğulur. Seçmə azlıq olmadan bəşəriyyət öz mövcudluğunun əsasını itirir.

**LEBON:** Demokratizm kütləvi cəmiyyətin əlamətlərindən biridir. Demokratiya şəraitində *kütlə erası* və onunla paralel sivilizasiyanın süqutu başlayır. Kütlə heç bir problemi həll edə bilmir. Fərdlər kütlə içərisində məsuliyyət hissini itirir, irrasional hisslərin hakimiyyəti altına düşürlər.

## XI
## (kütlə və elita)

**HERAKLİT:** İnsanlar çoxluğun iradəsinə deyil, azlığın iradəsinə tabe olmalıdırlar.

**EYNZİDEL:** Elə qanunlar həmişə əvvəlcə mədəni azlıqdan törəməlidir.

**ORTEQA-İ-QASSET:** Zəmanəmizin səciyyəvi əlaməti isə ondadır ki, adi ruh daşıyıcıları öz adiliklərini hamıya şamil etmək istəyirlər.

**BUDDA:** Böyük çayı keçməkdən, səndən güclü adamla düşmənçilikdən və qara camaatla mübahisədən qorx.

**MO-TSZI:** Yox, elə deyil. İnsanlar bərabərdir, dövlətin idarə olunmasında da bərabər hüquqla iştirak etməlidirlər. Siyasi fəaliyyət üçün yararlılıq meyarını heç də insanların hansı zümrəyə aid olmasında deyil, onların fərdi qabiliyyətlərində və xalqa xidmət etmək məramında axtarmaq lazımdır.

**ORTEQA-İ-QASSET:** Doğrudur. Seçmələr heç də o adamlar deyillər ki, özlərini təkəbbürlə yuxarıda tuturlar və fəaliyyətsizlik göstərirlər, əksinə seçmələr o adamlardırlar ki, özlərindən daha çox şey tələb edirlər.

**UNAMUNO:** Özünü nə özgəsindən artıq, nə özgəsindən əskik, nə özgəsinə bərabər bil. Axı biz insanıq, rəqəm deyilik. Bizim hər birimiz yeganə və əvəzedilməzik.

**DEMOKRİT:** Yox, burada söhbət tamamilə başqa bir şeydən gedir. Söhbət ondan gedir ki, dövlət orqanlarında nadanlar, kütbeyinlər deyil, mənşəyindən asılı olmayaraq, başqalarından zehni qabiliyyətləri, bilik və bacarıqları ilə seçilənlər yerləşdirilməlidirlər.

**PARETO:** İnsan davranışını manipulyasiya etmək, insanları idarə etmək qabiliyyəti doğrudan da, Veberin söylədiyi kimi, ilk növbədə harizmatik bir xüsusiyyətdir, anadangəlmə bir qabiliyyətdir. Elita yalnız həmin bu qabiliyyətin tükənməsinə qədər hakimiyyətdə qala bilər. Bu qabiliyyət zəiflədikcə elita cəmiyyətin aşağı təbəqələrindən özünə onu bərpa edə biləcək yeni üzvlər qəbul edir. Belə bir daimi bərpa həyata keçirilmirsə, elitanın tükənməsi baş verir və bu isə sosial inqilaba gətirib çıxarır. İnqilab elitanın yeniləşməsinə xidmət edir. Mən iki elita tipini – *tülkü* və *aslan* elitaları bir-birindən ayırıram. *Tülkülər* hiylə və yalan ilə, *aslanlar* isə güc tətbiq etməklə insan kütlələrini hərəkətə gətirirlər. Bu elitaların hər biri müəyyən idarəetmə tipini yaradır və həmin tiplər tarix boyu bir-birini əvəz edirlər.

**QOBİNO:** Mənsə düşünürəm ki, irqlərin qaynayıb-qarışması bəşərin faciəsidir. İrqlər qarışdıqca millətlər də ölüb gedəcək, bəşər sürüsü öz miskinliyindən qıc olmuş kimi bataqlıqda kövşəyə-kövşəyə ömrünü başa vuracaqdır. İnsanlar cırlaşıb heyvana dönəcək, sonra isə dünya bir müddət insansız yaşayacaqdır.

**VOLTMAN:** Mən də o fikirdəyəm ki, irqlərin və millətlərin qaynayıb-qarışması nəticəsində bəşəriyyət cılızlaşacaq və məhv olacaqdır. Bəşəriyyət həqiqətən də fəlakət qarşısındadır.

**ŞOPENHAUER:** Təbiət insanlar arasında zəka və mənəviyyatca nəhəng fərq qoyur, cəmiyyət isə rütbə və dərəcə yolu ilə həmişə bu fərqi yox etməyə çalışır.

**ORTEQA-İ-QASSET:** **C**əmiyyətin kütləyə və seçmə azlığa bölünməsi onun nə silklərə bölünməsinə, nə siniflərə bölünməsinə, nə də onların iyerarxiyasına uyğun deyildir.

**HEGEL:** Amma **c**əmiyyətin silklərə bölünməsi təbii bir haldır. Əgər dövlətdə müəyyən silklər və məşğuliyyətlər yoxdursa, əgər onda canlı orqanizmin hissiyyat, hərəkət, həzm funksiyalarını yerinə yetirən xüsusi orqanlara bənzər orqanlar yoxdursa, o dövlət mükəmməl deyildir.

**MOJEVSKİ:** Dövlət doğrudan da haradasa canlı bir varlığın bədəninə bənzəyir. Bu bədənin heç bir əzası yalnız özünə xidmət edə bilməz, gözlər də, əllər də, ayaqlar da, digər əzalar da müəyyən qədər özlərinin qayğısına qalsalar da, öz funksiyalarını elə yerinə

yetirirlər ki, bütün bədən üçün yaxşı olsun: bədən bütövlükdə özünü yaxşı hiss edəndə hər bir əza da özünü yaxşı hiss edir. Bədən bütövlükdə özünü pis hiss edəndə isə, bütün əzalar zərər görür.

**MOR:** Əgər dövlət doğrudan bir canlı varlığın bədəninə bənzəyirsə, onda burada özünü pis hiss edənlər heç də bütün əzalar deyildir. Mən o fikirdəyəm ki, dövlətdə çox böyük sayda zadəganlar mövcuddur və onlar başqalarının əməyi ilə tüfeyli həyat sürür, özlərini də çox yaxşı hiss edirlər.

**ORTEQA-İ-QASSET:** Həyat *plebey* üçün görünür həqiqətən də, bütün zəmanələrdə sıxıntı, biyar, asılılıq, qısası, zülm, daha qısası, əsarət olmuşdur.

**VİVEKANANDA:** Zəifin nə bu dünyada, nə də başqa dünyada yeri yoxdur. Zəiflik – ölümdür.

**LAO-TSZI:** Yox, elə deyil. İnsan doğulanda zərif və zəif, öləndən sonra isə bərk və möhkəm olur. Bərklik və möhkəmlik məhv olmanın, zəiflik və zəriflik isə həyatın başlanğıcıdır.

**ORTEQA-İ-QASSET:** Kütlə və elita mövzusuna qayıdaq. Özünü xüsusi bir ölçü kimi qəbul etməyən hər bir kəs kütlədir. Kütləni başa düşmək üçün heç də adamların yığnağı tələb olunmur. Bircə adam əsasında da müəyyənləşdirmək olar ki, bu kütlədir, yoxsa yox. O, özünün hamı ilə eyniləşdirilməsindən nəinki pərt olmur, əksinə bununla məmnun olur. Kütlə elə buna görə də, özünü adiliyin, istedadsızlığın və solğunluğun daşıyıcısı kimi hiss edir.

**YASPERS**: Üstəlik, kütlə inersiyasının ağır təzyiqi hər cür pərvazlanmanı iflic edə bilir. Kütlə hər cür yaradıcılığı boğmağa meyillidir.

**BERDYAYEV:** Azad yaradıcılıq isə şəxsiyyətliliyin mahiyyətidir. Həyatın tərəqqisi daimi yaradıcılıq zəminində mümkündür. Şəxsiyyətin bütləşdirilməsi isə durğunluğa və yaradıcılığın boğulmasına gətirib çıxarır. Peyğəmbərlərə və dahilərə abidələr ucaldılarkən, küçələr onların adı ilə adlandırılarkən soyuq, orta səviyyəli mədəniyyət yaradılır, bu isə təzə peyğəmbərliyə və təzə dahiliyə dözümsüzlük göstərir. Dahilik təbiilik və azadlıqdır, mədəniyyət isə təbiiliyin qandallanması və azadlığın məhdudlaşdırılmasıdır. Mədəniyyət dahini müstəqillikdən məhrum etməyə, onu *vəhşi heyvandan ev heyvanına çevirməyə* çalışır. Mədəniyyət insanı el-

min və sənətin normaları ilə kölələşdirir, akademizm isə bu kölələşdirmənin alətinə çevrilir.

**ORTEQA-İ-QASSET**: Amma cəmiyyətin inkişafı üçün yaradıcı azlıq da lazımdır, kütlə də. Cəmiyyət həmişə azlığın və kütlənin mütəhərrik vəhdəti olmuşdur. Əlbəttə ki, burada söhbət təkcə və qətiyyən «fəhlə kütləsi»ndən getmir. Kütlə – orta adamdır.

**SENEKA:** Mən qara kütlə cərgəsinə təkcə adi adamları deyil, tac sahiblərini də daxil edirəm. Mən adamların geyimlərinə qətiyyən baxmıram. Adamlara qiymət verəndə gözlə gördüklərimə qətiyyən əhəmiyyət vermirəm.

**ORTEQA-İ-QASSET:** Seçmələrdən fərqli olaraq kütləni daha çox özünün rifahı, daha az isə bu rifahın mənbələri maraqlandırır. Kütlə sivilizasiyanın nemətlərində nə incə mətləbləri, nə də onların gerçəkləşməsini görmür, orta adam bu nemətləri yalnız ələ keçirməyi özünə vəzifə bilir. Aclıq zamanlarında kütlə çox zaman çörək tələb edir, lakin bu tələbin gücləndirilməsi üçün adətən çörəkxanaları darmadağın edir.

**YASPERS:** Kütlə təbliğat və təlqin predmeti olub fəaliyyətdən məhrumdur, varlığın aşağı pilləsidir. Nə zaman ki, adamlar dəyişir, hökmə tabe olur, öz aləmlərindən məhrum olur, kütlə də elə onda əmələ gəlir.

**ORTEQA-İ-QASSET:** Kütlə axın ilə üzənlər və oriyentirlərdən məhrum olanlardır.

**LİBMAN:** Mühüm problemlərin həllini çoxluğa ona görə etibar etmək olmaz ki, orta səviyyəli adam öz həqiqi problemlərini görmək və həll etmək iqtidarında deyildir. Orta adamın mövqeyi çox zaman mətbuatın, kütləvi informasiya vasitələrinin fəaliyyəti nəticəsində yaradılır və həqiqi olmur.

**LOUELL:** Kütlə öz problemlərini görmək və həll etmək iqtidarında deyildir. Elə buna görə də çoxluğun rəyinin əsas kimi qəbul olunmasını mən düzgün hesab etmirəm.

**TARD:** İctimai rəy kütlə tərəfindən yaradılır. İctimai rəyin yaranması üçün əsası isə güruhun bir yerə toplaşması və onların ünsiyyəti verir.

**LOUELL:** Sosial gerçəklikdə də bir çox problemlər vardır ki, onları çoxluğun rəyi ilə, səsvermə yolu ilə həll etmək olmaz.

**RİŞELYE:** Xalq ağır yükə öyrəşmiş qatır kimidir, o işdən daha çox uzun sürən istirahətdən korlanır.

**ORTEQA-İ-QASSET:** Orta adam dünyanı son dərəcə gözəl qurulmuş və nizama salınmış görərək belə zənn edir ki, bu təbiətin öz işidir, lakin, onu isə başa düşmək qüdrətində deyildir ki, bütün bunlar qeyri-adi adamların səyi nəticəsində mümkün olmuşdur.

**VEYL:** Əgər müəyyən adamlar, on və ya on iki adam birdən ölsəydi müasir fizikanın möcüzəsi bəşəriyyət üçün həmişəlik itirilmiş olardı.

**ORTEQA-İ-QASSET:** Nəfəs aldığı hava üçün heç kəs heç kəsə minnətdarlıq etmir, çünki havanı təbii proseslərin nəticəsi kimi qəbul edir. Ərköyünləşdirilmiş kütlə də beləcə özünün maddi və sosial rahatlığını təbii proseslərin nəticəsi kimi qavrayır. İndi dünyanın və həyatın qapıları adi adamın üzünə taybatay açıldığı bir zaman onun ruhunun qapıları daha da kip bağlanmışdır.

**QRANT:** Amma o da doğrudur ki, insanlar özlərini *tarixin yaradıcısı* və ya *öz həyatının yaradıcısı* hesab etməməlidirlər. Təbiətdə insan zəkasının kəşf edəcəyi bir nizam vardır ki, insan iradəsi ona uyğun surətdə fəaliyyət göstərməlidir. Biz bu nizamı yaratmırıq, əksinə yaradılmışıq ki, ona uyğun surətdə yaşayaq.

## MÜQƏDDİMƏ

Ötən əsrlərdən qopub gələn, konkret zamanda doğulsa da, bir çox hallarda əbədiyyətlə çuğlaşan fikirləri diqqətlə, həyəcanla dinlədik, onlara nəfəs dərmədən qulaq kəsildik. Bu fikirlərdən bəziləri bizi sadəcə olaraq razı saldısa da, bəziləri öz möhtəşəmliyi ilə bizi heyran etdi, bəziləri də oldu ki, bizi hətta hiddətləndirə də bildi. Amma indi mənə elə gəlir ki, siyasi fəlsəfənin çoxsaylı fikirlər kontekstindən çıxış edilərək təqdim olunmasından vahid bir təfəkkür süzgəcindən keçirilərək təqdim olunmasına və siyasi fəlsəfənin bütövlükdə vahid bir əsasdan çıxış edilərək yenidən mənalandırılmasına keçid etmək məqamı artıq gəlib yetişmişdir.

Hər bir tamamlanmış fəlsəfə ideal duyğusundan başlayır, qətiyyət yaşantısının qərarlaşması ilə başa çatır. Başqa sözlə, hər bir fəlsəfə özünün təbii axınında Gözəllik fəlsəfəsi olaraq öz həyatını başlayır, Siyasətin fəlsəfəsi olaraq isə öz missiyasını başa çatdırmış olur. İdeal duyğusu fəlsəfənin başlanğıc məqamı, Gözəllik fəlsəfəsi onun ilk sözü, qətiyyət yaşantısının qərarlaşması onun mütləq məqsədi, Siyasətin fəlsəfəsi isə onun son sözüdür. İdeal duyğusundan məhrum olan kəs heç zaman filosof ola bilmədiyi kimi, eləcə də siyasəti öz diqqət dairəsindən kənarda saxlayan filosofun fəlsəfəsi sona çatdırılmamış, tamamlanmamış qalır.

Hər bir fəlsəfənin son sualı, həlli ilə hər bir fəlsəfəni tamamlayan məsələ məncə həyatın mənası ilə bağlı məsələdir. Bu məsələ özünün birbaşa həllini ən azı məhz ona görə *Siyasətin fəlsəfəsi*ndə tapır ki, biz yalnız həyatımıza məna tapdığımız zaman tam iradə müəyyənliyinə nail olmuş oluruq.

Mən vaxtilə ümumiyyətlə fəlsəfənin təbiəti ilə bağlı bir məqaləmdə yazmışdım ki, fəlsəfənin əsas məsələsinin şüurun materiyaya olan münasibətində axtarılması fəlsəfənin bayağılaşdırılmasıdır. Metafizika ümumiyyətlə fəlsəfənin başlıca məna daşıyıcısı deyil, yalnız çıxış nöqtələrindən biri olduğundan metafizikanın əsas məsələsi, yəni dünyanın mahiyyəti ilə bağlı məsələ sanıram ki, fəlsəfənin əsas məsələsi olaraq qəbul edilməməlidir. Bu məsələ fəlsəfənin əsas məsələsi olmaqdan daha çox onun qarşısında duran məsələlərdən yalnız *biridir*. Fəlsəfənin əsas məsələsi kimi isə yalnız həyatın mənası haqqında məsələnin çıxış edə biləcəyi fikrini bir daha vurğulayaraq, həmin mövqeyə qayıdıram ki, insan öz həyatını həsr edə biləcəyi məqsədlərini itirdikdə və eyni zamanda həyatın mənalılığı ilə bağlı təhtəlşüur inamı özündə daşıdıqda fəlsəfi ehtiyac duyur.

Həyatın mənası ilə bağlı məsələ əslində fəlsəfənin başlıca və əsas məsələsi kimi qiymətləndirildiyi halda əminliklə təsdiq edilə bilər ki, hər cür digər fəlsəfi problem – estetik təbiətli olanı da, ontoloji təbiətli olanı da, epistemoloji təbiətli olanı da, və nəhayət, etik təbiətli olanı da nəticə etibarı ilə məhz bu məsələnin - insan həyatının mənası məsələsinin həlli üçün zəmin hazırlayır.

Elə bu mülahizədən çıxış edərək istərdim ki, ümumiyyətlə monoqrafiyanın mövzusundan doğan məzmunun bilavasitə təqdimatına keçməzdən öncə bu məzmunun çıxış nöqtələrini təşkil edən estetik, ontoloji, epistemoloji və etik prinsiplər ətrafında öz düşüncələrimi bir xülasə şəklində olmuş olsa belə möhtərəm oxucumla bölüşəm.

Siyasətin monoqrafiyada mənim tərəfimdən irəli sürülən fəlsəfi doktrinasına

### ***estetik müqəddimə***

olaraq gözəlliyin aristokratizm prinsipi ilə daxili bağlılığı çıxış edə bilər. Aristokratizm siyasi hadisə olmaqla yanaşı, həm də əlbəttə ki, mənəvi hadisədir, üstəlik mühüm estetik aspektlərə də malikdir.

Zadəgan hər şeydən öncə himayəçidir və himayəçi statusunda da insanları onların öz daxili mahiyyətlərinə uyğun bir şəkildə yaşadandır. Daxili mahiyyətə uyğun həyat isə gözəlliyin həqiqi mənbəyidir.

Həyatın gözəlliyini insan öz təbii təyinatını gerçəkləşdirdikdə hiss edir. Zadəgan isə insanlar arasında o münasibətlərin qurucusudur ki, bu münasibətlər çərçivəsində onlar öz təbii təyinatlarının gerçəkləşdirilməsi ilə bağlı olan sosial status daşıyırlar. İnsanları himayə etmək - onlara onların həqiqi ideallarını tanıtmaq, yəni onların təbii təyinatını gerçəkləşdirmək yolunu onlara göstərmək və onlara məhz bu yolun yolçusu olmaqda yardım etmək deməkdir. İnsan özünün təbii təyinatını gerçəkləşdirdikdə gözəl olur.

Himayə edən insanla himayə altında olan insan arasındakı münasibətlər isə işıq və səth arasındakı münasibətləri xatırladır. Səthin gözəlliyi yalnız üzərinə işıq düşdükdə görünür. Üstəlik, işıq gözəlliyi yalnız göstərmir, həm də onu tamamlayır, predmetin üzərinə düşən işıq səthin işığa olan daxili ehtiyacını ödəməklə onu tamamlayır və bu səbəbdən də gözəlləşdirir. Zadəganla digər insan arasındakı münasibət də belədir. Zadəgan digər insana yaşamaq həvəsi, ilham verməklə onu mənən gözəlləşdirir və bu mənəvi gözəllik də onun simasına bir işıq saçır, onu gözəlləşdirir.

Aristokratik dünyagörüşün siyasi və estetik aspektləri arasında qarşılıqlı münasibətləri daha geniş kontekstdə anlamaq üçün tarixə qısa bir ekskurs edək. Aristokratik dünyagörüşün ilkin tarixi forması kimi gözəlliyi həmişə öz diqqət mərkəzində saxlayan mifologiya çıxış edir. Qədim xalqların dünyanı canlı olaraq qavrayan və təsvir edən mifologiyası isə bir çox filosofların - Şellinqin, Hegelin, Şopenhauerin və Humboltun fəlsəfələri ilə həmahəng səslənir. Qədim hindlilərin *Brahman və İşvara,* qədim çinlilərin *Tyan Sin və Li,* qədim yunanların isə *Demiurq* və *Kosmos* obrazları əslində Şellinqin *Dünya Ruhu* və *Ümumi Orqanizm,* Hegelin *Dünya Zəkası* və *Gerçəklik,* Şopenhauerin *Dünya İradəsi* və *Obyektivasiya,* Humboltun *Daxili Ruh* və *Kosmos* ideyaları ilə eyni təbiətlidir. Həyat fəlsəfəsi də, mifologiya

da əslində eyni mövqedən çıxış edirlər. Bu, qədim yunan miflərində daha aşkar şəkildə ifadə olunan kosmosentrizm mövqeyidir[1].

Miladdan öncə ikinci minilliyin sonlarına yaxın şimaldan Balkan yarımadasına axan köçəri cəngavər tayfaları özlərinin dünyagörüş yaradıcılığı işində məhz bu miflərə ontoloji zəmin olaraq istinad etmişlər. Öz ruhunu miflərin rasionallaşdırılması zəminində anlayan, qədim yunan şəhər-dövlətlərini yaradaraq və yaşadaraq yunan aristokratiyasına tarixi və təbii başlanğıc verən cəngavər tayfalar sonradan da özlərinin tarixi qüdrəti ilə, Makedoniyalı İsgəndər imperiyasını, nəhəng Bizans İmperiyasını yaratmaqla mifik Dünya Ruhu, Dünya Zəkası, Dünya İradəsi və Dünya Nizamı ideyalarının həqiqi olduğunu, qüdrətli olduğunu və bu ideyaları özündə daşıdıqlarını dəfələrlə təsdiq etdilər.

Gözəllik ümumiyyətlə aristokratizmin ifadəsidir, zadəganlıq əlamətidir. Bu mənanı bir ingilis sözü çox gözəl ifadə edir: *handsome* ingilis dilində həm gözəl kişi, həm də zadəgan mənalarını verir.

Zadəgan hətta sosial iyerarxiyanın yüksək pillələrində durmasa da, böyük mülkiyyət sahibi olmasa da nurlu sima sahibidir, əgər o əslində, həqiqətən, daxilən zadəgandırsa, yəni dünyanı onun həqiqi mahiyyətinə qaytararaq gözəlləşdirmək əzmi ilə çuğlaşmışsa. Onun gerçəkləşdirdiyi ideal öz başlanğıcını ictimai rəydən deyil, ürəyin həqiqi arzularından götürür, həmişə rasional olmasa da, həmişə həqiqidir. Rəiyyət isə sosial iyerarxiyanın ən yüksək pillələrində dursa da, qibtə doğuracaq mülkiyyət sahibi olsa da bədbəxtdir və bu səbəbdən də eybəcərdir. Çünki onun gerçəkləşdirdiyi niyyət öz başlanğıcını ürəyin həqiqi arzularından deyil, ictimai rəydən götürür, rasionaldır, həqiqi deyildir.

Zadəgan ictimai rəyin öz ürəyi üzərində təzyiqinə mətanətlə sinə gərdiyi üçün gözəldir. Rəiyyət öz niyyətlərini gerçəkləşdirmədiyi üçün, ürəyinin haqq səsinə naxələf çıxdığı üçün, ürəyinə etina-

[1] Xatırladaq ki, kosmosentrizm – dünyanın öz mahiyyətinə uyğun bir şəkildə qurulduqda həqiqiləşməsi və gözəlləşməsi prinsipidir.

sızlıq göstərdiyi və bununla da ürəyini çirkləndirdiyi üçün eybəcərdir.

Rəiyyət başqalarının sevincinə və xoşbəxtliyinə dözə bilməyən, lakin başqasının dərdinə və bədbəxtliyinə məmnuniyyətlə şərik olan, dərdi və bədbəxtliyi ilə ruh düşkünlüyü yaradan kəsdir. Zadəgan isə əksinə olaraq dərdə və bədbəxtliyə dözə bilməyən, lakin başqalarının sevincinə və xoşbəxtliyinə sevinən və xoşbəxt olan, dünyanı xoşbəxtliyə və sevincə çağıran və bürüyən kəsdir.

İnsan özünün həqiqi həyati təsdiqinə nail olmadıqda həqiqi fərəh hissini itirdiyi üçün həyatının fərəhlə doldurulmalı olan boşluğunu gülüşlə doldurmaq istəyir, ləyaqətsizliyə düçar olanların tək özündən ibarət olmadığına şadlanır, ləyaqətsizliyə düçar olanların içərisində özünü rahat hiss edir. Dövlət və cəmiyyət zəifləşdikcə, nəticədə ləyaqətsizləşdikcə, lətifəyə və gülüşə daha həssas olur. Poeziya insanı həyatın zirvələrinə doğru səslədiyi halda, lətifə insanı həyatın dibinə çəkir.

Həyata keçirə bilmədiyi, əmələ çevirə bilmədiyi hər bir istək kimi istəməyərək həyata keçirdiyi hər bir əməl də insanı alçaldır. İnsan ləyaqəti təkcə onun azadlığının boğulduğu halda deyil, həm də kölələşməyə məcbur edildiyi və məcbur olduğu halda tapdalanır. Alçalmaya və ləyaqətin tapdalanmasına razılıq verən, məcbur edilən və məcbur olan insan yazıqdır. İnsan yazıqlaşarkən eybəcərləşməyə bilməz. Eybəcərlik yazıqlığın ən aşkar ifadəçisi, yazıqlıq isə eybəcərliyin ən əsas sosial mənbəyidir.

Dövlətin təşəkkül tapmaqda və formalaşmaqda olduğu dövr cəmiyyətin poeziyaya və romantizmə xüsusi həssaslığı ilə müşayiət olunur. Sərt reallıqlarla üzləşən cəmiyyət isə həyati dramatizmi yaşayır və möhtəşəm dram əsərlərinin meydana çıxmasını şərtləndirir. Romantizmini itirən həyatı yaşayan cəmiyyət isə prozikləşir, prozaya üz tutur. Amma prozada təsvir olunan hadisə hüquqa keçid üçün astana rolunu oynayır, presedent statusunda. Hüquq *olmamalı olan hadisə*yə - **cinayət**ə – qarşı *olmalı olan hadisə*ni - **sanksiya**nı – qoyur.

Reallıqla barışma zərurətinin yaşanması həmişə prozaikdir, əxlaq yaşantısı həmişə dramatikdir, qətiyyət yaşantısı isə həmişə poetikdir.

Siyasi fəlsəfənin poetik və romantik təqdimatı utopiya, prozaik təqdimatı isə ideologiyadır. Siyasi fəlsəfənin dramatik təqdimatına qaldıqda isə, bu, sözün məxsusi mənasında siyasi fəlsəfədir, yəni gerçəkləşdirilməli olan, gerçəkləşdirilməsi nəzərdə tutulan ideyadır.

Siyasətin monoqrafiyada mənim tərəfimdən irəli sürülən fəlsəfi doktrinası

### ***ontoloji müqəddimə***

olaraq dünyanın öz mahiyyətinə yaxınlaşarkən həqiqiləşməsi ideyasına istinad edir. Bu ideya özünün ən yığcam ifadəsini *Dünya Nizamı* məfhumunda tapır. Mən Dünya Nizamı məfhumundan öz mahiyyətinə qovuşaraq həqiqiləşən dünyanı ifadə etmək üçün istifadə edirəm. Buradakı dünyanın mahiyyəti anlayışına isə, elə kontekstdən göründüyü kimi, mütləq ontoloji məna verirəm və həmin mənanı Dünya Ruhu məfhumu vasitəsilə konkretləşdirirəm. Əgər insan ruhu insanı hərəkətə gətirən və yüksəldən bir başlanğıcdırsa, Dünya Ruhu dünyanı hərəkətə gətirən və gözəlləşdirən başlanğıcdır. Əgər Dünya öz Ruhu ilə qovuşduqca son dərəcə ustalıqla yaradılmış əsərə, kosmosa çevrilirsə, Ruhundan ayrıldıqca eybəcərləşir, xaosa çevrilir.

**Dünya Ruhu**nun mütləq varlıq kimi qavranılması uyğun ***dünyaanlama üslubunu*** doğurur. Mən bu üslubu fransız filosoflarının uğurlu tapıntısı olan ***spiritualizm*** termini vasitəsilə ifadə edirəm və onu digər dünyaanlama üslublarına qarşı qoyuram. Digər dünyaanlama üslublarından da hər biri eynilə öz ontoloji bazisinə, dünyanın mahiyyəti ilə bağlı öz təsəvvürünə, öz intuisiyasına, mütləq varlıq haqqında öz anlayışına malik olduğundan hər bir dünyaanlama üslubu dünyanı özünəməxsus şəkildə anladığı, təsəvvür və təsvir etdiyi mütləq mahiyyətin hərəkət dinamikası fonunda qəbul etmiş, sonsuz predmet və hadisələri özündə birləşdirən dünyanı vahid bir

əsasdan çıxış edərək, vahid bir qayda əsasında qavraya bilmişdir. Hər bir dünyaanlama üslubu dünyanı mütləq varlığın təzahürü olaraq görür. Əgər ***spiritualizm*** **Dünya Ruhu**nun bir mütləq varlıq kimi qəbul edilməsinə istinadən formalaşırsa, **fövqəlqüdrət sahibi kimi tanınan şəxsiyyət**in, sözün məxsusi mənasında **Vahid Tanrı**nın mütləq varlıq kimi tanınması bir dünyaanlama üslubu tipi kimi ***personalizm***i, sözün məxsusi mənasında ***teizm***i, mütləq varlıq statusunda **Tale**nin çıxış etməsi ***fatalizm***i, **Materiya**ya mütləq varlıq statusunun verilməsi isə ***materializm***i törədir.

Dünyanı bu və ya digər şəkildə, bu və ya digər başlanğıcdan çıxış edərək izah edən ontoloji sxemlərdən hər biri dövləti və cəmiyyəti bu və ya digər şəkildə izah edən siyasi doktrinalarla üzvi olaraq bağlıdır. Hər bir **siyasi doktrina**ya qarşı uyğun dünyaanlama üslubu qoyula bilər. ***Kommunistik siyasi doktrina*** özünün ontoloji zəmini olaraq sözün geniş mənasında ***personalist*** dünyaanlama üslubuna söykəndiyi halda, ***tiranik siyasi doktrina*** özünün ontoloji zəmini olaraq fatalist dünyaanlama üslubuna söykəndiyi halda, ***demokratik siyasi doktrina*** özünün ontoloji zəmini olaraq materialist dünyaanlama üslubuna, ***aristokratik siyasi doktrina*** isə spiritualist dünyaanlama üslubuna söykənir.

Elə buna görə də, dünyaanlamanın tarixi tiplərindən hər biri öz dominant mövqeyini digərinə ötürdükcə aparıcı siyasi doktrinalar da bir-birlərini əvəz edirlər.

Lakin, dünyaanlama üslublarının bütün tarixi tiplərinin onurğa sütununu təşkil edən ontoloji sxemlərlə konkret siyasi doktrinaların bağlılığı bilavasitə deyil, uyğun əlaqələndirici həlqələr, o cümlədən, epistemoloji prinsiplər vasitəsilə baş verir.

Siyasi fəlsəfəyə mənim tərəfimdən verilmiş

### *epistemoloji müqəddimə*

müəyyən mənada "həyat fəlsəfəsi"nin idraki prinsipləri ilə eyniləşdirilə bilər: Subyektin daxili həyat axını ilə bu axının maddi dünya-

dakı təsdiqi arasındakı ziddiyyət hər cür təfəkkürün zəminini təşkil edir. Mən təfəkkürün özünü isə həmin ziddiyyətin nəzəri həlli kimi səciyyələndirirəm və belə bir epistemoloji başlanğıcı uyğun ontoloji prinsiplərlə bağlayıram: Substansial həyat ilə dünyada gerçəkləşmiş həyat arasındakı ziddiyyət subyektin dünya ilə yanaşı mövcudluq qaydasından asılı olaraq hər bir dövrdə konkret problem formasında qavranılır və hər bir mütləq varlıq modeli həmin qavranılmanın elementi kimi çıxış edir.

İnsan təfəkkürü özünün hər bir fəaliyyət məkanında və hər bir inkişaf mərhələsində mütləqliyi həmin məkan və zaman üçün qəbul edilmiş mahiyyətdən çıxış edir, fəaliyyətini həmin mahiyyətin hərəkət dinamikasına uyğun şəkildə qurur. Mən elə buna görə də hər bir dünyaanlama üslubuna qarşı uyğun ***təfəkkür tipi***ni qoyuram. **Spiritualist dünyaanlama üslubu** *funksional təfəkkür*ü, **personalist dünyaanlama üslubu** *avtoritar təfəkkür*ü, **fatalist dünyaanlama üslubu** *emosional təfəkkür*ü, **materialist dünyaanlama üslubu** isə *analitik təfəkkür*ü doğurur.

Hər bir mütləq varlıq modeli onu ifadə edə bilən və ifadə etməli olan ***mütləq bilik modeli***ni yaradır. Elə buna görə də dünyaanlamanın hər bir tipinə müvafiq mütləq bilik tipi uyğun gəlir. **Spiritualizm** mütləq bilik tipi kimi *intellektual lirika*nı, **personalizm** – sözün geniş mənasında *din*i, **fatalizm** – *mif*i, **materializm** isə *deterministik elm*i doğurur. *İntellektual lirika*nın birbaşa predmetini ***Mütləq İdeya***, *din*in birbaşa predmetini ***Tanrı İradəsi***, *mif*in birbaşa predmetini ***Dünya İradəsi***, *deterministik elm*in birbaşa predmetini isə ***Təbiət Qanunu*** təşkil edir.

Mütləq bilik tiplərindən hər biri ***idrakın başlıca vasitəsi*** ilə də bağlı özünəməxsus mövqeyə malikdir. Bu vasitəni *intellektual lirika* ***intuisiya***da, *din* – ***vəhy***də, *mif* – ***instinkt***də, *deterministik elm* isə ***müşahidə*** və ***eksperiment***də tapır.

Hər bir mütləq bilik tipi özünün məxsusi ***idraki prinsip***ini formalaşdırmışdır. *İntellektual lirika* üçün belə bir idraki prinsip rolunda ***intuitivizm***, *din* üçün ***doqmatizm***, *mif* üçün ***irrasionalizm***,

*deterministik elm* üçün isə, təbii ki ***determinizm***, eləcə də ***empirizm*** və ***sensualizm*** çıxış edir.

İdraki prinsiplərin hər birinə qarşı uyğun ***siyasi doktrina*** qoyula bilər. ***Kommunistik siyasi doktrina*** özünün uyğun idraki prinsipi olaraq **doqmatik kontekst**ə malik olduğu halda, ***tiranik siyasi doktrina*** **irrasionalist kontekst**ə, ***demokratik siyasi doktrina*** **deterministik kontekst**ə, ***aristokratik siyasi doktrina*** isə **intuitivist kontekst**ə malikdir.

Mənim Siyasi fəlsəfəyə verdiyim

***etik müqəddimə-***

yə qaldıqda isə, bu müqəddimə əxlaqın qadağalar sistemi kimi səciyyəsinə istinad edir. Qadağa icmanın yaranması üçündür. Müəyyən əməllərə ona görə qadağa qoyursan ki, başqaları bu əməllərə dözümsüzlük göstərir, bu əməl sahibi ilə bir yerdə olmağı istəmir. "Əxlaqın qızıl qaydası" da bir növ elə buna işarə vurur. Əgər əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyətində ***kömək istəyənə kömək etməmək***, yəni **zalımlıq** yasaq edilirsə, əgər cəngavər mədəniyyətində ***ürəyin haqq səsini eşitməmək***, yəni **qorxaqlıq** qadağan olunursa, əgər şəhər mədəniyyətində ***nəticəsi faydalı olan işi görməmək***, yaxud ***nəticəsi faydasız olan işlə məşğul olmaq***, yəni **ağılsızlıq** qadağan edilirsə, zadəgan mədəniyyətində ***insanın öz təbii təyinatına uyğun sosial məkandan kənarda qalması***, başqa sözlə **yazıqlıq** qadağan olunur. Əgər əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyətinin daşıyıcısı transsendental əxlaqın ilkinliyini qəbul edərək əxlaqın dünya üzərində üstünlüyündən çıxış edirsə, əgər cəngavər mədəniyyəti əxlaqı ürəyin haqq səsində duyursa, əgər şəhər mədəniyyəti əxlaqı utilitarizm prinsipinə tabe etdirməyə meyillidirsə, zadəgan mədəniyyəti əxlaqı insanın həqiqi həyati təyinatının gerçəkləşməsi ilə bağlayır. Əgər əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyətində xeyirxah insan idealdırsa, əgər cəngavər mədəniyyətində cəsarətli insan idealdırsa, əgər şəhər mədəniyyətində ağıllı insan – *şəhər mədəniyyəti*

*nöqteyi-nəzərindən, deməli ki, varlı insan* – idealdırsa, zadəgan mədəniyyətində ləyaqətli insan idealdır.

Düçar olduğu əzabların mənşəyini icmaçı(kəndli) günahlarında, cəngavər taledə, şəhərli səhvlərində, zadəgan isə dünyanın öz mahiyyətindən qopub ayrılmasında axtarır. Əgər kəndli xoşbəxtliyinin mənbəyini özünün savab əməllərində görürsə, əgər cəngavər sevincli və xoşbəxt çağlarının əsasını öz taleyində axtarırsa, əgər şəhərli üçün xoşbəxtliyin əsasında ağıllı, düşünülmüş əməllər dayanırsa, zadəgan xoşbəxtliyi dünyanın öz əzəli ruhuna qayıdışında görür. Əgər əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyəti Vahid Tanrını mütləqləşdirirsə, əgər cəngavər mədəniyyəti Taleni mütləqləşdirirsə, əgər şəhər mədəniyyəti dünyəvi predmetlər arasındakı birmənalı münasibətləri – təbiət qanunlarını – mütləqləşdirirsə, zadəgan mədəniyyəti Dünya Ruhunu mütləqləşdirir. Əgər Vahid Tanrı kultu xeyirxahlığa xidmət edirsə, əgər Tale kultu cəsarətliliyə xidmət edirsə, əgər Qanun kultu varlanmaya xidmət edirsə, Dünya Ruhuna, mütləq mənəvi mahiyyətə bağlılıq ləyaqətlənməyə və ləyaqətləndirməyə xidmət edir.

Hər bir mədəniyyət tipi sosial həyatın bu və ya fəaliyyət məkanında aparıcı olur. *Zadəgan*ın başlıca fəaliyyət məkanı **idarəetmə,** *icmaçı*nın başlıca fəaliyyət məkanı **əkinçilik,** *cəngavər*in başlıca fəaliyyət məkanı **müharibə,** *şəhərli*nin başlıca fəaliyyət məkanı isə **ticarət**dir.

*Zadəganlığın* cəmiyyətdə oynadığı rola bənzər rolu ailədə **ata,** *Kənd*in cəmiyyətdə oynadığı rola bənzər rolu ailədə **ana,** *cəngavərliyin* cəmiyyətdə oynadığı rola bənzər rolu ailədə **oğul,** *Şəhər*in cəmiyyətdə oynadığı rola bənzər rolu ailədə **qız** oynayır.

Əgər *zadəgan* başlıca olaraq **fleqmatik**dirsə, əkinçi – **melanxolik,** *cəngavər* **– xolerik**, - *şəhərli* isə – **sanqvinik**dir.

*Zadəgan* özünü **şəxsiyyət** kimi dərk edir və insan davranışının nəzəri əsaslandırılmasından ötrü ***personalist etika***nı yaradır. *İcmaçı* özünü **kütlə** kimi dərk edir və insan davranışının nəzəri əsaslandırılmasından ötrü eqalitarist prinsipə söykənən ***altruist etika***nı yaradır. C*əngavər* özünü **qəhrəman** kimi dərk edir və insan davra-

nışının əsaslandırılmasından ötrü ***deontoloji etika***nı yaradır. *Şəhərli* özünü **fərd** kimi dərk edir və insan davranışının əsaslandırılmasından ötrü praqmatizm və utilitarizm prinsiplərinə söykənən ***individualist etika***nı yaradır.

Mədəniyyət tiplərindən hər biri özünəməxsus bir ***rəhbər imici***nə malikdir. *Rəhbər cəngavər mədəniyyəti kontekstində* - gəncdir, qüvvəlidir, qürurlu, təkəbbürlüdür, özünüsaxlamaya deyil, özünütəsdiqə meyillidir, kompromisə deyil, mübarizəyə üstünlük verəndir, sülhə deyil, müharibəyə meyillidir, öz məxsusu iradəsini digər insanların iradəsindən və digər insanlardan və hətta dünyadan daha mühüm hesab edəndir, dünya və insanlarla ümumu dil tapmağa deyil, dünya və insanlar üzərində hökmran olmağa meyillidir. *Zadəgan mədəniyyəti çərçivəsində rəhbər* – mübarizə aparmaq üçün yetərli olacaq dərəcədə gəncdir, lakin himayəçi olacaq qədər yetkindir. *Şəhər mədəniyyəti çərçivəsində rəhbər* – ağıllıdır, əməllərinin nəticələrini görə biləcək qədər ağıllıdır, nəticəsi faydalı olan işə üstünlük verəcək qədər və nəticəsi faydasız olan işdən yayınmaq kifayət edəcək dərəcədə yetkindir. *Rəhbər əkinçi həyat tərzi* üzərində qərarlaşan icma mədəniyyəti *kontekstində* isə dünya görmüş qocadır, ağsaqqaldır.

Mədəniyyət tiplərinin ən səciyyəvi, fərqli cəhətləri bunlardır. Lakin, o məqamı da qeyd etməliyik ki, yuxarıda xatırlanan və səciyyələndirilən mədəniyyət tipləri bir-birinin əksi deyildir, onlar bir-birinə qarşı deyil, bir-biri ilə yanaşı mövcuddurlar. *Zadəgan* mədəniyyətinin əksliyi – despotizmdir. *İcma* mədəniyyətinin əksliyi – zülmkarlıqdır. C*əngavər* mədəniyyətinin əksliyi – quldurluqdur. *Şəhər* mədəniyyətinin əksliyi isə hiyləgərlikdir, daha doğrusu, dolandırıcılıqdır, adamaldatmaqdır, dələduzluqdur.

Siyasət və hüquq isə mədəniyyəti və əxlaqı möhkəmləndirmək üçündür, artıq sözün yaxşı mənasında süni vasitələrlə. Siyasət və hüquq mədəniyyət və əxlaq üzərində qurulduqda siyasi mədəniyyət və qanun formasını kəsb etmiş olurlar. Siyasətin və hüququn mədəniyyətdən və əxlaqdan qopub ayrılması isə siyasi deqradasiyadır.

Mədəniyyət tiplərindən hər biri uyğun ***siyasi doktrina***nın əxlaqi əsasını təşkil edir. İcma mədəniyyəti **kommunistik siyasi doktrina** ilə, *cəngavər mədəniyyəti* **tiranik siyasi doktrina** ilə, *şəhər mədəniyyəti* **demokratik siyasi doktrina** ilə, *zadəgan mədəniyyəti* isə təbii ki **aristokratik siyasi doktrina** ilə bağlıdır.

Hər bir dövrdə müəyyən mədəniyyət tipi aparıcı xarakter daşıdığından və müəyyənedici statusa malik olduğundan, hər bir dövrdə müəyyən siyasi doktrina da aparıcı xarakter daşıyır və müəyyənedici statusa malik olur. **Qədim** yunan tarixinin arxaik **dövr**ü, yeni Avropa xalqlarının tarixində son orta əsrlər deyilən dövr zadəgan mədəniyyətinin və aristokratik siyasi doktrinanın, Avropanın ilk **Orta əsrlər**i icma(kənd) mədəniyyətinin və mahiyyəti etibarı ilə kommunistik doktrina hesab edilə bilən dini ideologiyanın, qədim yunanların tarixində klassik dövr, yeni Avropa xalqlarının tarixində isə **Yeni dövr** şəhər mədəniyyətinin və demokratik siyasi doktrinanın üstünlüyü və aparıcı mövqeyi ilə səciyyələndirilə bilər.

Hesab edirəm ki, tarixi təkamülün adekvat anlaşılmasından ötrü *qədim dövr, orta əsrlər* və *Yeni dövr* anlayışları bir daha yenidən mənalandırılmalıdır. *Qədim dövr, orta əsrlər* və *Yeni dövr* ifadələrini yuxarıda qalın şriftlə verməyim də elə həmin yenidən mənalandırma ilə əlaqədardır. Vaxtilə Şpenqler dövrlərin yenidən mənalandırılma işini uğurla həyata keçirmiş və təqribən belə bir müddəa irəli sürmüşdü ki, bəşərin vahid tarixi yoxdur, elə buna görə də bəşəri inkişafın qədim dövründən, orta əsrlərindən və Yeni dövründən danışmaq sadəcə olaraq mənasızdır, bu dövrləri yalnız ayrı-ayrı xalqların tarixi inkişafında görmək və göstərmək olar. Mən Şpenqlerin mövqeyinə yaxın bir mövqedə dayanaraq dövrlərin təbii ardıcıllığının başqa bir sxemini və dövrlərin mənalandırılması ilə bağlı yeni bir semantikanı təklif edirəm, həmin semantikada da etik müqəddimədən siyasi fəlsəfəyə doğru atılmış ilk addımı görürəm,

***siyasi fəlsəfənin ilkin təqdimatı -***

nı və onun özül müddəalarını məhz bu semantika əsasında verirəm. Mən qədim dövrün başlanğıcını birmənalı olaraq dövlətin yaradıl-

ması ilə bağlayaraq (1) hər bir dövlətin aristokratizmin təşəkkülündən tükənməsinə doğru istiqamətlənən yol keçməsi barədə müddəadan çıxış edirəm. Hesab edirəm ki, (2) siyasi aristokratizmin qismən tükənməsi ilə şərtlənən demokratizm Yeni dövrün başlanğıcını, (3) tam tükənməsi ilə şərtlənən kolonializm isə sonunu təşkil edir. (4) Kolonializmdə xalqın rəiyyətlik duyğusu korşalır, bəndəlik duyğusu isə son dərəcə inkişaf edir. (5) İnsanlığın siyasi hakimiyyətdən üz döndərərək fövqəlbəşər aristokratizmə - ilahi qüdrətə üz tutması və sığınması isə hesab edirəm ki, Orta əsrlərin mahiyyətini təşkil edir.

Tarixi dövrlərdən hər biri müəyyən mədəniyyət tipinin aparıcı mövqeyi ilə səciyyələndirilə bildiyi kimi müəyyən ***siyasi fəlsəfə tipi***nin üstünlüyü ilə də xarakterizə oluna bilər. Mədəniyyətlərin hər bir tarixi tipi onun siyasi instinktlərini rasionallaşdıra bilən və qanuniləşdirə bilən siyasi doktrinaların meydana çıxmasını şərtləndirir. Əgər əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyətindən **kommunistik siyasi fəlsəfə** doğulursa, əgər cəngavər mədəniyyətindən **tiranik siyasi fəlsəfə** doğulursa, əgər şəhər mədəniyyətindən **demokratik siyasi fəlsəfə** doğulursa, zadəgan mədəniyyəti **aristokratik siyasi fəlsəfəni** törədir.

Siyasi fəlsəfənin hər bir tarixi formasının geniş elmi təqdimatını verməzdən öncə fəlsəfə və siyasətin qarşılıqlı münasibətləri ilə bağlı iki sualı və onlara verilmiş iki geniş cavabı möhtərəm oxucumun diqqətinə təqdim edirəm. Həmin suallar adi siyasi şüur və siyasi fəlsəfə arasındakı münasibətlərə aiddir. Siyasi fəlsəfənin hər bir tipinin geniş təhlilini isə bu suallara cavablardan sonra verəcəyik.

## ADİ ŞÜUR VƏ SİYASİ FƏLSƏFƏ:

## İKİ SUAL

Birinci,

**Adi şüurun siyasi fəlsəfəyə ünvanladığı sual:**

***Fəlsəfə hamının çirkin iş kimi tanıdığı siyasətlə əl-ələ verərkən öz gözəllik və mükəmməlliyini itirmirmi?***

Mənə elə gəlir ki, "*Siyasət çirkin işdir*" mülahizəsinin bütövlükdə aydınlaşdırılmasından daha əvvəl bu mülahizənin tərkib hissəsi olan *çirk* ifadəsinin özünə bir aydınlıq gətirilməlidir. Çirk nədir? Öncə xatırladım ki, *çirk hadisəsi* üzərində fəlsəfi refleksiyanın mümkünlüyünü hələ neçə əsr, neçə minillik bundan qabaq Platon söyləmişdi. Məncə, ən ümumi halda öz yerini tapmayan, öz yerində olmayan hər şey sözün ciddi mənasında çirkdir. Bir dahi şairimizin halına acıdığı bir çiçək kimi:

Gözəldir çiçək,
Bağçada-bağda,
Yerinə düşsə,
Çox gözəl olur
Qara da, ağ da,
Taxıl içində
Alaqdır çiçək.
O nəyə gərək?
Onun qədrini
Kim biləcəkdir?

O bir alaq kimi
Biçiləcəkdir (Bəxtiyar Vahabzadə).

Başqa bir şairimiz bu çiçək obrazının yerinə hətta insan obrazını qoyur:

Müsibət oluruq biz
Səhv düşəndə yerimiz (Qabil).

*Yeri səhv düşən*lərdən ibarət cəmiyyət çirkabın doğurduğu əhvali-ruhiyyəyə bənzər bir təəssürat yaradır. Belə bir əhvaliruhiyyəni siyasət də doğura bilər.

Əgər ümumdövlət problemlərini, ümummilli problemləri həll edə bilməyənlər, etmək istəməyənlər və etməyənlər bu problemləri həll etməli olanların yerini tuturlarsa, siyasət çirkindir. Əgər hakimiyyətə sahib olanlar ona layiq deyillərsə və hakimiyyətə layiq olanlar ona sahib deyillərsə, siyasət çirklidir. Əgər hakimiyyət xalqın problemlərini həll edə bilənlərdən qurulmayıbsa, xalqın problemlərini həll edə bilənlər sosial mövqelərdən kənardırlarsa, siyasət çirkindir. Əgər siyasi hakimiyyət bütövlükdə xalqın iradəsinin ifadəçisidirsə, onun siyasəti təmizdir. Əgər siyasi hakimiyyət ayrı-ayrı sosial qrupların iradəsinin ifadəçisidirsə, onun siyasəti çirklidir.

Oxşar mühakiməni eyni ilə elə fəlsəfə haqqında da söyləmək mümkündür. Əgər fəlsəfə insan həyatını və tarixi mənalandıra bilirsə, həyatı mənalı edərək gözəlləşdirə bilirsə, kamildir. Yox, əgər fəlsəfə insana mənalı həyat sürmə səadətini verə bilmirsə, naqisdir, gərəksiz, lazımsız söz yığımı təəssüratını yaradır..

Amma hər halda etiraf etməliyik ki, hakimiyyət bir sosial hadisə olaraq çirkab duyğusunu insana əksər hallarda yaşatdırır. Hakimiyyət fenomeni o halda yer alır ki, kimsə hər hansı bir işi özü görmək istəmir, onu başqa birisinə həvalə edir. Çünki bu işi görmək ona xoş gəlmir, buna görə də o, özünə xoş gəlməyən işi başqasına gördürmək istəyir. Hakimiyyət bir sosial hadisə olaraq əksər hallarda ona görə çirkab duyğusunu yaradır ki, bir nəfərə xoş gəlməyən iş əksər

hallarda başqasına da xoş gəlmir. İnsan özünə xoş gəlməyən işlə məşğul olduqda isə özünü çirkab içərisində hiss edir.

Hakimiyyət formaları içərisində yalnız aristokratik hakimiyyət çirkab duyğusunu insana yaşatdırmır. Çünki aristokratik hakimiyyət sahibi digərini öz iradəsinə deyil, digərinin özünün məxsusi iradəsinə istiqamətləndirir, yəni insanları tabe etdirmir, ilhamlandırır.

İndi isə ikinci,

**Siyasi fəlsəfənin adi şüura ünvanladığı sual:**

***Fəlsəfəyə etinasızlıq göstərən hakimiyyət, zəkaya etinasız olan iradə qüdrətli ola bilərmi?***

Məncə, dövlət də, millət də, ailə də hətta ayrıca götürülmüş insan da yalnız o zaman qüdrətli olur ki, öz qarşısında duran problemləri anlayır, həll edə bilir və həll edir. Öz problemlərini anlamaq qabiliyyətinə və həll etmək əzminə malik olan hər bir dövlət, hər bir millət, hər bir ailə, ayrıca götürülmüş hər bir insan qüdrətlənir, daha əzəmətli olur. İçərisində daşınan problemləri həll edə bilməyən insan isə əlbəttə ki, qüdrətlənə bilməz və öz ailəsini, millətini və dövlətini də qüdrətləndirə bilməz. Öz problemlərini həll edə bilməyən hər hansı bir insan yazıqdır. Əgər yazıq insan ailə başçısıdırsa ailəni, dövlət başçısıdırsa dövləti, milli liderdirsə milləti də yazıqlaşdırır. Daimi olaraq yaranan problemləri üçün daimi olaraq yeni ideyaları yaratmaq və onları gerçəkləşdirmək iqtidarına malik olmayan nə ailə, nə millət, nə də dövlət qüdrətli ola bilməz. Həllolunmaz problemlər burulğanında çırpınan və boğulan ailə, yoxsulluğun və səfalətin qucağında çapalayan xalq və ən nəhayət, xalqını ədalətsizliyin və azğınlığın caynağına vermiş dövlət yazıqdır.

Müasir dünyanın böyük, qüdrətli xalqlarına nəzər salın. Rusiya dedikdə, Amerika dedikdə, Çin dedikdə gözlərimiz önündə ilk növbədə əzəmətli bir fövqəldövlət və fövqəlmillət dayanır. Bu əzəmət digər, kiçik dövlətlərdə və digər millətlərdə və şübhəsiz ki, elə bizlərdə də əksər hallarda qısqanclıq qarışıq bir heyranlıq hissini yaradır. Lakin, əlbəttə ki, qısqanclıq və heyranlıq keçirməkdənsə, Qüd-

rətli ölkəyə bu əzəməti verən başlanğıcları və səbəbləri anlamaq və həmin anlamanın köməyi ilə də öz ölkəmizi anlamağımız və bu anlamadan doğulan ideyaları gerçəkləşdirərək öz ölkəmizin daha da qüdrətlənməsinə səy göstərməyimiz daha layiqli əməl olmuş olardı.

Fövqəldövlətlərin əzəmətliliyinin və qüdrətliliyinin sirri nədədir? Xalqlarının qəhrəmanlığındamı, hakimiyyət istəyindəmi, yoxsa qanunsevərliyində, himayədəolma və tabedəolma meyillərinin daha çox inkişaf etməsindədir? Biz bəlkə də bu qüdrətin əsasını siyasi elitanın ölkəni idarəetmə müdrikliyində, bəlkə də xalqın özünün dərrakəliliyində və təşəbbüskarlığında axtarmalıyıq? Yəqin ki, bunların hər biri mühümdür.

Lakin, mənə elə gəlir ki, hər hansı bir fövqəlmillətdə müşahidə olunan əzəmətliliyinin və qüdrətliliyinin *ən mühüm* mənbəyi onun milli fəlsəfəsidir. Dahi şairimiz Bəxtiyar Vahabzadə bir vaxt buna işarə vurmuşdu. Rusiya da, Amerika da, Çin də özünün tarixi təkamülündə rastlaşdığı problemləri demək olar ki həmişə öz fəlsəfələri əsasında həll etmişlər. Bu millətlərin siyasi mövcudluğundan doğan problemlər həmişə onların *öz* fəlsəfəsi əsasında mənalandırılmış və bununla da millət öz *həqiqi* məqsədlərini müəyyənləşdirə və gerçəkləşdirə bilmişdir.

Bəs, özünün müəyyən düşüncə tərzi, ideyayaratma və dünyaanlama üslubu, fəlsəfəsi olmayan xalq öz problemlərini həll edə bilərmi? Dərin fəlsəfəsi olmayan xalq qüdrətli ola bilərmi? Məncə, yox.

Hakimiyyət yalnız qüdrətli fəlsəfəni tamamladıqda qüdrətlənir. Dövrün iradəsi yalnız dövrün zəkasını gerçəkləşdirdikdə xalq özünün əzəmətli gerçəkliyini yaşayır. Makedoniyalı İsgəndər qüdrətinin sirri Aristotel vasitəsilə verilmiş Platon müdrikliyində idi. Siseronun ideal cəmiyyət haqqındakı ideallarını Yuli Sezar gerçəkləşdirdi. Oxşar tarixi paralellər əl-Fərabi və Toğrul bəy arasında, Nəsrəddin Tusi və Hülakü xan arasında, Rumi və Osman bəy arasında, Nəsimi və Əmir Teymur arasında, Frensis Bekon və I Yelizaveta arasında, Leybnits və XIV Lüdovik arasında, Hegel və Bismark arasında, və nəhayət, Berdyayev və Stalin arasında aparıla bilər. Bu əksliklər bir

qayda olaraq, qarşılıqlı kin və ziddiyyət zəminində olsa da, bir-birini tamamlamış, birinin əzəmətliliyi digərinin əzəmətliliyinə hopmuşdur.

Bu baxımdan Berdyayev və Stalin arasındakı münasibətlər daha səciyyəvidir. Berdyayev Stalində müşahidə etdiyi tiranizmə düşmən idi. Stalin isə öz növbəsində Berdyayevdə müşahidə etdiyi idealizmə qarşı daxili bir barışmazlıq duyurdu. Meşşanlığa, burjualığa və istismara nifrət isə onların hər ikisi üçün ümumi idi. Lakin, onların bu eybəcərliklərlə mübarizə üsulları müxtəlif idi. Stalin meşşanlığa, burjualığa və istismarçılığa qarşı tiranik mübarizə apararaq meşşanı, burjuanı və istismarçını məhv etmək əzmində idi, insanları meşşanlıqla, burjualıqla və istismarçılıqla çirkləndikləri üçün məhv edirdi. Berdyayev isə meşşanlığa, burjualığa və istismarçılığa qarşı mənəvi mübarizə apararaq meşşanı deyil, meşşanlığı, burjuanı deyil, burjualığı və istismarçını deyil, istismarı məhv etmək qətiyyətində idi. Berdyayev insanlığın meşşanlıqdan, burjualıqdan və istismarçılıqdan xilas olacağına inanırdı və öz qüdrətli zəkasını bu inamın həyati təsdiqinə yönəltmişdi. Stalin isə meşşana, burjuya və digər istismarçılara qarşı sinfi mübarizədə onların müqavimətini qıra biləcəyinə inanırdı və öz qüdrətli iradəsini bu inamın həyati təsdiqinə yönəltmişdi. Zülmə və əsarətə qarşı mübarizənin Stalin və Berdyayev tərəfindən müdafiə edilən və həyata keçirilən üsullardan birincisi zülmün və əsarətin həqiqi kommunist anlaşılmasına, ikincisi isə onların həqiqi zadəgan anlaşılmasına istinad edirdi. Lakin, Stalin Berdyayevsiz, Berdyayev isə Stalinsiz keçinə bilməzdi və keçinə bilmədi. Berdyayev 1922-ci ildə Sovet Rusiyasından sürgün edilsə də, ölkədə həyata keçirilən nəhəng sosial-dəyişdirici fəaliyyətin doğurduğu fəlsəfi problemlərlə yaşamış onları təhlil etmiş və özünəməxsus şəkildə həll etmişdir. Berdyayevin fəlsəfi ideyaları XX əsrin ən görkəmli siyasi hadisələrindən biri olan SSRİ-nin yaradılmasında və qüdrətləndirilməsində öz parlaq təcəssümünü tapsa da, Berdyayevin özü SSRİ-də qadağan olunmuşdu, onu SSRİ-də Stalindən başqa heç kəs oxumurdu. Heç də təsadüfi deyildir ki, Berdyayevin ölümünə (1948) kimi SSRİ-nin özündə həqiqi fəlsəfə demək olar ki,

olmamışdır. Stalin yalnız onun ölümü ərəfəsində ölkədə həqiqi fəlsəfənin dirçəldilməsi üçün ilk təşəbbüsləri həyata keçirmişdir. Qüdrətli zəka qüdrətli iradə olmadan keçinə bilmədiyi kimi, qüdrətli iradə də qüdrətli zəka olmadan keçinə bilmirdi. Lakin, qüdrətli fəlsəfə *hakimiyyətin təzyiqi ilə* formalaşdırıla bilməzdi və formalaşdırıla bilmədi. Qüdrətli fəlsəfənin itirilməsi isə dövlətin qüdrətlənmə əzminin tükənməsinə başlanğıc verdi. Stalinin özünün ölümündən sonra isə əcnəbi siyasi doktrinalar, xüsusən demokratik doktrina diqqəti daha çox cəlb etməyə başladı. Lakin əcnəbi ölkələr üçün ideal olan siyasi doktrinalar həmin ölkələrin gerçəkliyi ilə bağlıdır və həmin ölkə alimlərinin gərgin təfəkkür fəaliyyətinin nəticəsidir, həqiqi mənada azad olan və tərəqqi edən heç bir xalq öz siyasi nəzəriyyəsini əcnəbilərdən əxz etməmişdir. Öz təfəkkürünün qüdrətinə inanmayan, öz dövlətini öz zəkasının prinsipləri əsasında qurmaq istəməyən və qura bilməyən xalqın azadlığı isə yalandır və ötəridir. Azadlıq yalnız gərgin siyasi yaradıcılıqla yanaşı mövcuddur və mümkündür. Dövlət daimi yaradıcılıq prosesidir. Öz dövlətini özgə fəlsəfə, özgə ideya əsasında qurmaq istəyən hakimiyyət əslində öz ailəsini özgənin məsləhəti əsasında idarə edən ailə başçısına bənzəmirmi?

Beləliklə, hakimiyyəti və fəlsəfəni ümumiyyətlə bir-birinə yaxınlaşdıran və bağlayan daxili bağlar hansılardır? Bununla bağlı bəzi ümumiləşdirmələri aparmağın məqamı artıq gəlib yetişmişdir.

İlk öncə qeyd edim ki, fəlsəfə ümumcəmiyyət iradəsinin, sosial iradənin rasionallaşdırılma məkanı, hakimiyyət isə bu iradənin gerçəkləşdirilmə məkanı olduğu üçün hakimiyyətdə təmsil olunan filosof öz azad zəkasını, filosofluq edən hökmdar isə öz möhkəm iradəsini zəiflədir. Lakin, fəlsəfə və hakimiyyət sosial həyatın müxtəlif sferaları olsalar da, bir çox hallarda bir-birini şərtləndirirlər və şərtləndirməlidirlər.

Hakimiyyət güclü iradəlilərin fəaliyyət məkanı olsa da, biz bəzən güclü hakimiyyətin özünün da qeyri-müəyyənlik dumanlığına qərq olduğunu, qətiyyətsizlik əzabına düçar edildiyini müşahidə etmişik. Güclü hakimiyyətin bu məhkumiyyəti isə əksər hallarda iradə

zəifliyindən daha çox, ideya kasadlığından irəli gəlir. Hökmdar ideyanı gerçəkləşdirən kəsdir, onun yaradıcısı deyildir və ideyanın gerçəkləşdiricisi olaraq da ideya yaradıcısının, yəni filosofun işini başa çatdırandır. Filosof ideya verən, hökmdar isə qərar qəbul edəndir. Bu səbəbdən də, hökmdar ideya yaradıcısı olmasa da, gerçəklik yaradıcısıdır. Filosofun yaratdığı ideya zamandankənar və məkandankənar bir məzmuna malik olsa da, hökmdar ideyaya zaman və məkan daxilində gerçəklik qazandırır.

Hakimiyyət idarə etdiyi cəmiyyətin həqiqi iradəsini təsvir edə bilən nəzəriyyəyə – bu iradənin rasional və anlaşıqlı mənzərəsinə malik olmaqdan ötrü fəlsəfəyə ehtiyac duyur. Fəlsəfə də öz növbəsində milli ideyanı, yəni rasionallaşdırdığı milli iradəni gerçəkləşdirməkdən ötrü hakimiyyətə ehtiyaclı olur. Hakimiyyət öz iradəsinin qeyri-müəyyənliyi ucbatından korşaldıqda, hər bir qətiyyətli qərar qəbul etmək üçün mühüm müqəddəm şərt olan *ideyaya malik olma imkanı*nı – sözün ciddi və kəskin mənasında, müdrikliyini itirdikdə və fəlsəfə öz ideyasını artıq formalaşdıraraq sözün yenə də ciddi və kəskin mənasında, müdriklik statusunu kəsb edərək tamamlandıqda, onların hər ikisində yaxınlaşma meyilləri doğulur.

Müdriklik fəlsəfənin sonu, siyasətin isə başlanğıcıdır.

Filosof daxilən narahatdır, müdrik isə sakitdir. Filosof həyatın mənasını axtarır, müdrik isə mənalı həyat sürür. Filosof öz fəaliyyətini tabe etdirə biləcək mütləq varlığın və mütləq prinsiplərin sorağındadır. Müdrik isə həmin varlığı və həmin prinsipləri bütün qəlbi ilə sezir və görür. Müdriklik filosofluqdan doğur, filosofluq müdriklikdə başa çatır.

Müdriklik hər bir qətiyyətli addım üçün zəruri olan ideya sahibliyidir. Belə bir ideya sahibi olmayan kəs qətiyyətli ola bilməz, iradəli ola bilməz, sözün həqiqi mənasında hökmdar ola bilməz.

Müdrik olmayan hökmdarın hakimiyyəti elə buna görə də həmişə yarımçıqdır.

Müdriklik bütöv bir dünyagörüşə malik olmadır.

Müdrik bütöv dünyagörüşün sahibi, filosof isə onun axtarıcısı və yaradıcısıdır.

Filosof öz daxilindən gələn həyat axınını tam anlaşıqlı edən dünyagörüşün yaradılmasını əslində öz həyatının məramına çevirir. Bu həyat axınını ifadə etdirən dünyagörüşün yaradılması ilə fəlsəfi ehtiyac ödənilmiş olur və uyğun fəlsəfəyaratma prosesi başa çatır. Fəlsəfə yalnız bu halda müdriklik statusunu kəsb etməklə özünü inkar etmiş olur.

Tam dünyagörüşə malik olan kəs dünyada çoxlu şeyləri görmür, mütləq varlıq kimi qəbul etdiyi vahid bir mahiyyətin çoxlu təzahürlərini görür. Hər bir fəlsəfə özünün dünyagörüş yaradıcılığı prosesində sonsuz predmet və hadisələrlə zəngin dünyanı vahid bir başlanğıca şamil edir. Elə buna görə də, öncə, ontoloji müqəddimədə sadalanan hər bir dünyaanlama üslubu formalaşarkən fəlsəfənin başlıca işlərindən biri, Aristotel tərəfindən ilk fəlsəfə adlandırılan iş – dünyagörüş yaratma işinin metafizik əsaslarının yaradılması yerinə yetirilmiş olur.

Fəlsəfə ideal yaşantısı ilə doğulur, ontoloji problemin həlli ilə fəlsəfi üslub kimi yaşayır və son nəticədə bütöv bir dünyagörüşün yaradılması ilə öz ömrünü başa çatdırır. *Teist dünyaanlama* kresionalist fəlsəfi üslubu törədir və **əkinçi dünyagörüşü**nün yaradılması ilə özünü dərk etmiş olur. *Fatalist dünyaanlama* volyuntarist fəlsəfi üslubu törədir və **cəngavər dünyagörüşü**nün yaradılması ilə özünü dərk etmiş olur. *Materialist dünyaanlama* deterministik fəlsəfi üslubu törədir və **şəhərli dünyagörüşü**nün yaradılması ilə özünü dərk etmiş olur. Və ən nəhayət, *spiritualist dünyaanlama* idealist fəlsəfi üslubu törədir və **aristokratik dünyagörüşü**nün yaradılması ilə özünü dərk etmiş olur.

Dünyagörüş ümumiyyətlə fəlsəfi prosesin, daha dəqiq deyilərsə, dünyanı mənalandırma işinin nəticəsi olaraq formalaşır və siyasi prosesin, daha dəqiq deyilərsə, dünyanı təşkilatlandırma işinin nəticəsi olaraq isə gerçəkləşdirilir.

Siyasət öz mahiyyəti etibarı ilə dünyagörüşün gerçəkləşdirilmə məkanı olduğu üçün dünyagörüşün *bir fakt kimi* mövcud olmadığı şəraitdə mümkün deyildir.

Dünyanın hər hansı bir dünyagörüşə uyğunlaşdırılma zərurətinin irəli sürülməsi həmin dünyagörüşə **utopiya** xarakterini verir. Dünyanın dünyagörüşə uyğunlaşdırılması işinin başlanması ilə isə dünyagörüş **ideologiya** xarakterini kəsb etmiş olur. İdeologiya hakimiyyətin gerçəkləşdirdiyini iddia etdiyi dünyagörüşdür. Siyasi hakimiyyətin ideologiyasız yaşaya bilməməsi onun bütöv bir dünyagörüşə malik olmadan yaşaya bilməməsi deməkdir.

Əgər siyasi fəlsəfənin gerçəkləşmə zərurəti hələ ki, etiraf olunmamışsa, o, *tarixin fəlsəfəsi*dir.

Əgər siyasi fəlsəfə tamamlanmamışsa, o, *sosial fəlsəfə*dir. Sosial fəlsəfə cəmiyyət həyatının son söz deyilmədən mənalandırılmasıdır.

Bu nöqteyi-nəzərdən «tarixin fəlsəfəsi» də, «sosial fəlsəfə» də «Siyasətin fəlsəfəsi»nin tərkib hissəsi olaraq buraya, «Siyasətin fəlsəfəsi»nə aid edilə bilər.

Siyasi fəlsəfə bütövlükdə isə fəlsəfənin son sözüdür. O insan həyatının məqsədlərini müəyyənləşdirməklə insan həyatını mənalı etməlidir.

Tamamlanmış hər bir fəlsəfə təzə yaradılmış bütöv bir dünyagörüşdür.

Dünyanın dünyagörüşə uyğunlaşdırılması isə hər bir siyasətin başlanğıcıdır.

İndi isə adi şüur və siyasi fəlsəfə arasındakı münasibətlərə dair söylənilən fikirləri tamamlayaq.

Adi şüur siyasi fəlsəfədə siyasi gerçəkliyin fikir fundamentini deyil, ən yaxşı halda onun fəlsəfi mənalandırılmasını görür. Adi şüur yəqin ki, elə buna görə də Siyasi fəlsəfədə dövlətin substansial əsasını deyil, əksinə mövcud siyasi gerçəklikdə siyasi fəlsəfənin substansial əsasını axtarır. Siyasi fəlsəfənin substansial əsası kimi isə əslində *hələ bundan sonra yaradılmalı olan siyasi strukturlara ehtiyac* çıxış edir. Həqiqi siyasi fəlsəfə heç də "gerçəkliyi düzgün əks etdirən", mövcud dövlətin "inikas"ından ibarət olan nəzəriyyə deyildir. Həqiqi siyasi fəlsəfə o nəzəriyyədir ki, yeni siyasi strukturlara olan ehtiyacı düzgün ifadə etməklə hələ bundan sonra yaradılacaq dövlətin nəzəri modelini, əsaslandırılmış layihəsini verə bilsin. Yeni siyasi

strukturlara olan ehtiyac siyasi fəlsəfənin deməli həm də tarixi təyinatını ifadə edir.

Hər bir siyasi fəlsəfənin həqiqiliyi onun öz tarixi təyinatını nə dərəcədə gerçəkləşdirə bilməsi ilə müəyyənləşir. Güman edirəm ki, məhz elə buna görə də **dövlət siyasi fəlsəfənin** idraki obyekti olmaqdan daha çox, onun **mücəssəməsi kimi** çıxış edir.

İndi isə siyasi fəlsəfənin hər bir tipinə uyğun doktrinaların tarixinə qısa bir ekskurs edək.

# BAŞLICA SİYASİ DOKTRİNALAR VƏ ONLARIN TARİXİ MƏZMUNU

Siyasi fikrin təşəkkülü və inkişafı cəmiyyətin özünütəşkilatlandırma zərurətindən doğulur. Hər bir mükəmməl siyasi doktrina nəticə etibarı ilə cəmiyyətin bu və ya digər formada özünütəşkilatlandırmasının nəzəri əsasını verir. Sosial gerçəkliklə uyğun siyasi nəzəriyyə arasında zaman-zaman yaranan hər bir tarixi ziddiyyət siyasi fikrin inkişafında stimula çevrilir və hər dəfə tamamlanmış siyasi doktrinanın yaradılması ilə özünün növbəti tarixi həllini tapmış olur.

Siyasi doktrina yalnız o halda tamamlanmış hesab edilə bilər ki, cəmiyyət onun əsasında təşkilatlandırıla bilsin. Siyasi fəlsəfənin dörd başlıca tipinə uyğun olaraq məncə siyasi doktrinanın da dörd balaca tipi göstərilə bilər: kommunistik, tiranik, demokratik və aristokratik.

Hər bir ***siyasi doktrina***ya qarşı ***uyğun dünyagörüş*** də qoyula bilər. *İcmaçı dünyagörüş* öz siyasi ifadəsini **kommunistik doktrina**da tapdığı halda, *cəngavər dünyagörüşü* öz siyasi ifadəsini **tiranik doktrina**da tapdığı halda, *şəhərli dünyagörüşü* öz siyasi ifadəsini **demokratik doktrina**da tapdığı halda, *zadəgan dünyagörüşü* özünün siyasi ifadəçisi kimi **aristokratik siyasi doktrina**nı yaradır.

*Siyasətin məzmunu dünyanın dünyagörüşə uyğunlaşdırılma işindən ibarətdir*. Bu tezisdən çıxış edərək təsdiq edə bilərəm ki, əgər kommunistik siyasi doktrina dünyanı icmaçı (kəndli) ruhuna uyğunlaşdırmaq, yəni onu xeyirxahlaşdırmaq üçün yaradılırsa, əgər tiranik siyasi doktrina dünyanı cəngavər ruhuna uyğunlaşdırmaq, yəni onu ürəyin həqiqət instinktinə tabe etdirmək üçün yaradılırsa,

əgər demokratik siyasi doktrina dünyanı şəhərli ruhuna uyğunlaşdırmaq, yəni onu faydalı etmək üçün yaradılırsa, aristokratik siyasi doktrina dünyanı zadəgan ruhunun mücəssəməsinə çevirmək, yəni onu həqiqiləşdirmək və gözəlləşdirmək üçün yaradılır.

## *KOMMUNİSTİK SİYASİ DOKTRİNA*

*Kommunizm* məfhumu göründüyü kimi latın mənşəli *kommuna* və *izm* ifadələrinin birləşdirilməsindən yaranmışdır. Müasir Azərbaycan dilinə tərcümə olunduqda *kommuna* sözü icma mənasını, *izm* sözü isə *təlim* mənasını verir. *Kommunizm* həm sözün hərfi, həm də həqiqi mənasında icma mədəniyyətinin təsviri ilə bağlıdır.

İcma mədəniyyətinin başlıca əxlaqi dəyəri xeyirxahlıqdır. Onun digər əxlaqi keyfiyyətlərinə mərhəmətlilik, mehriban qonşuluq, həmrəylik, insan münasibətlərində qərəzsizlik, səmimilik və təmənnasızlıq, doğruluq, insanlar arasında qardaş münasibətləri, insanların mütləq və real bərabərliyi aiddir. Bu idealların həsrətlə anıldığı hər bir cəmiyyətdə kommunist təbiətli təlimlər təşəkkül tapır və inkişaf edir.

Həmin həsrətin ən ilkin ifadə formalarından biri kimi Edem bağı haqqında dini əfsanə göstərilə bilər.

Lakin ictimai fikrin sonrakı inkişaf prosesində kommunizm həsrəti təkcə dini əfsanələrin deyil, həm da siyasi doktrinaların məzmununu formalaşdırdı.

Hələ **Qədim Çin** filosofu ***Lao-tszı*** insan bərabərliyi ideyası üzərində qurulmuş sadə və təbii həyat tərzini özünün yaşca kiçik, lakin zəkaca bəlkə də daha görkəmli olan müasiri *Kun fu tszı*nın və ya avropalıların qəbul etdiyi kimi *Konfusi*nin ideallaşdırdığı silki həyat tərzinə qarşı qoymuşdu.

Qədim Çin fəlsəfəsi dünyanın başqa regionlarında, Qədim Hindistanda və Qədim Yunanıstanda yaranan fəlsəfə ilə eyni zamanda meydana gəlsə də onların hər ikisinin doğuluşundan fərqli olaraq dünyaya göz açdı. Əgər Qədim Hindistanda fəlsəfə cəngavər-zadəgan dünyaduyumunun məntiqi mənalandırma üslubu kimi doğul-

muşdusa, əgər Qədim Yunanıstanda fəlsəfə şəhərli dünyagörüşünün ifadə forması kimi meydana gəlmişdisə, Qədim Çində fəlsəfə öz həyatını kəndli dünyagörüşünün rasionallaşdırılmasından başladı. Əgər Qədim Hindistanda fəlsəfə mifoloji kosmosentrizmin dini transsendentalizm üzərində qələbə simvolu kimi formalaşmışdısa, Qədim Çində, əksinə olaraq, fəlsəfə məhz transsendentalizmin ifadəçisi kimi meydana gəldi və özünü mifik kosmosentrizmə qarşı qoydu. Əgər Qədim Yunanıstanda fəlsəfə şəhərli materializminin cəngavər volyuntarizminə qarşı, deterministik elmin fatalist mifologiyaya qarşı, praqmatik həyat tərzinin qəhrəman həyat tərzinə qarşı müxalifət forması kimi meydana gəlmişdisə, Qədim Çində fəlsəfə əkinçi dünyagörüşünün döyüşçü dünyagörüşünə qarşı, əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyətinin cəngavər mədəniyyətinə qarşı müxalifət forması kimi meydana gəldi. İlk Çin filosofu hesab edilə bilən Lao-tszı məhz əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyətinin siyasi idealına – kommunizmə meyilli idi. Lao-tszı bizə məlum olan kommunistlərin ən ilkini də hesab oluna bilərdi.

Lao-tszı tərəfindən yaradılan təlim *daosizm*, bu təlimin şərh olunduğu ən ilkin və ən nüfuzlu əsər isə *Dao de szin,* yəni "*Dao* və *de* haqqında kitab" adlanır. *Dao de szin*in adından göründüyü kimi Lao-tszı fəlsəfəsinin və daosizm təliminin ən mühüm ideyaları *dao və de* anlayışları vasitəsilə ifadə olunur. *Dao* Azərbaycan dilinə tərcümədə *yol* mənasını verir. Çin mənşəli *dao* sözünü bir qədər geniş anlamaqdan ötrü yaxşı olardı ki, o ərəb mənşəli *din* sözü ilə qarşılaşdırılsın. *Din* də *dao* kimi *yol* deməkdir. Maraqlıdır ki, *din* və *dao* sözlərinin hər ikisi öz mahiyyətləri etibarı ilə də təxminən eyni mənanı ifadə edirlər: dünyanın da, həyatın da, insanın da düzgün, mütləq və həqiqi yolu, yəni mövcudluq üslubu vardır, yalnız bu yolla gedən insan həqiqi insan ömrünü sürmüş olur, *yolundan çıxan kəs*in ömrü isə həqiqi insan həyatı deyildir, nadanlığın və cəhalətin ifadəsidir. *Daosizm* təliminin ikinci mühüm anlayışı olan *de* dilimizdə əsasən dini kontekstdə işlənən və yenə də ərəb mənşəli olan *halal* anlayışına son dərəcə yaxındır. *Dao* və *de* anlayışlarının qoşalığı heç də təsadü-

fi deyildir. Doğrudan da, *düz yolun sahibi olmaq* ifadəsi ən ümumi halda *halal işlər görmək,* xüsusi hallarda isə *halal çörək yemək* və *özgənin malında gözü olmamaq* mənalarını verir.

Daosizmin bütün ruhu ilkin islamın ruhuna yaxındır. İlkin xristianlıq prinsiplərinin də həmçinin daosizm prinsiplərinə son dərəcə uyğun olduğunu müşahidə etmək o qədər də çətin deyildir. Daosizmin ideallaşdırdığı dövlət əsasən icma xarakterlidir, burada insanlar arasındakı münasibətlər yuxarıda sadalanan icma prinsiplərinə söykənir.

Daosizmin halallıq idealı, altruizm şəhərlinin dünyaya və dünya malına sahib olmaq instinkti ilə daban-dabana ziddir. Var-dövlət aludəçiliyinə öz nifrətilə daosizm şəhərli ruhunu inkar edirdi.

Öz mahiyyəti etibarı ilə əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyətinin, kəndli dünyagörüşünün ifadəçisi olan daosizm eyni zamanda cəngavər mədəniyyətini, cəngavər dünyagörüşünü, cəngavər ruhunu da inkar edir, özünün müharibəyə və zora qarşı duyduğu nifrət və barışmazlığı qətiyyən gizlətmirdi. Cəngavər ruhunun ən mühüm ifadəçisi olan *Tale kultu* da ona yad idi, elə buna görə də, onun tərəfindən inkar edilirdi. Əgər Konfusi cəngavər-zadəgan ruhunun tarixi təcəssümünü görmək üçün keçmişə boylanırdısa, Lao-tszı keçmişdə icma prinsiplərinin mücəssəməsini görürdü.

İcma prinsipləri üzərində qurulmuş keçmişin həsrətlə anılması ilə **Qədim Yunanıstan**da da rastlaşmaq mümkündür. ***Evgemer***in və ***Yambul***un şəxsində biz əslində kommunizm təbiətli keçmişin ideallaşdırılmasını müşahidə edirik.

***Faley Xalkedonlu*** insanların sosial statusunu bərabərləşdirən utopiyanı irəli sürmüşdü.

İcma şüurunun ən görkəmli nümayəndələrindən biri olan ***Sokrat*** şəhərdə, özü də qədim dünyanın ən görkəmli, ən klassik şəhərlərindən biri olan Afinada ömür sürsə də, əslində əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyətinin siyasi idealı olan kommunizmin klassik modellərindən birini yaratmışdı.

Hesab edirəm ki, Platonun əsərləri siyahısında sadalanan "*Siyasətçi*", "*Dövlət*", "*Kritiy*" adını almış dialoqlarında və Sokratın bir mü-

sahib kimi iştirak etdiyi digər dialoqlarda Sokrat sadəcə olaraq personaj deyildir, Platonun fikirlərinin ifadəçisi deyildir, buradakı Sokrat Sokratın özüdür, söylənilən fikirlərin sahibi də elə Sokratdır. Platon isə burada olsa-olsa Sokratın, indiki dillə deyilərsə, redaktorudur. *Siyasətçi*də, *Dövlət*də və *Kritiy*də təsvir olunan kommunist təbiətli siyasi sistem yalnız icmaçı ruhdan, Sokrat ruhundan doğula bilərdi. Platon bütün mənşəyi və ruhu etibarı ilə zadəgan, Sokrat isə rəiyyət idi. Bir qədər birbaşa və bir qədər sərt deyilərsə, Platon zadəgan olaraq gözəl idi, Sokrat isə təbiətən və ruhən rəiyyət olaraq eybəcər idi. Dövlətin aristokratik konsepsiyası hökmdarı həmişə sərkərdə simasında, cəngavər qiyafəsində, fateh və xilaskar sifətində görür. *Siyasətçi*də, *Dövlət*də və *Kritiy*də isə hökmdar qılınc və qüdrət sahibi deyildir, hikmət və bilik sahibidir, cəngavər deyildir, ağsaqqaldır.

Sokratın sosial idealı heç bir hakimiyyətin mövcud olmadığı icma həyat tərzidir. Sokrat bu həyat tərzinin reallığını *Siyasətçi*də Kronun dövrü ilə bağlayır. Sokratın fikrincə, Kron erasını onun müasiri olan eradan, demokratiyanı cücərdən və inkişaf etdirən eradan qlobal təbii fəlakət ayırır. Bu fəlakətdən əvvəlki dövrün, Kron erasının insanları Tanrının özünün himayəsindədirlər və onun tərəfindən göndərilmiş mələklər tərəfindən idarə olunurlar. Elə buradan da görünür ki, Sokratın siyasi nəzəriyyəsi idarə etmək istəyənlərin nəzəriyyəsi deyildir, idarə olunmaq istəyənlərin nəzəriyyəsidir. Kron epoxasının insanları üçün cəngavər dəyərləri deyil, icma dəyərləri aparıcıdır. Burada nə müharibə, nə daxili çəkişmələr, nə dövlət, nə də hakimiyyət mövcud deyildir. Bütün mülkiyyət və məişət də ümumidir. Burada hətta ailə də yoxdur, bütün uşaqlar bütövlükdə icmaya məxsusdur. *Siyasətçi*də bir tarixi reallıq kimi təsvir edilən icma həyat tərzi *Dövlət*də və *Kritiy*də sosial ideal kimi təqdim edilir.

Qədim Yunanıstanda *Dövlət*in və deməli həm də *Kritiy*in kommunist utopiyasının həyata keçirilməsi üçün dəfələrlə cəhd göstərildi, həmçinin keçmişin bərabərliyə əsaslanan həyat tərzinin dirçəldilməsi üçün bir sıra addımlar atıldı, Spartada eyniləşdirmə islahatları keçirildi.

Sokrat öz dövrünün demokratik siyasi strukturlarından narazı idi. Bu strukturlar onun fikrincə, həqiqi biliyə və mütləq həqiqətə sahib olan müdriklər tərəfindən deyil, təsadüfi və ötəri təsəvvürlərə sahib olan kəslər tərəfindən yaradılmışdı. Həmin ötəri təsəvvürlər isə bu kəslərə sofistlər tərəfindən aşılanmışdı. Demokratik təsisatların özləri də əslində elə sofistlər tərəfindən idarə olunurdu. Sokrat əmin idi ki, dövlət strukturları yalnız həqiqi biliyi, ağıllı nəzəriyyəni, fəlsəfəni mənimsəmiş adamlar tərəfindən təkmilləşdirilə bilər, siyasi həyatı xaosdan xilas etmək və cəmiyyəti nizamla quraraq mükəmməlləşdirmək və kamilləşdirmək qüdrətinə yalnız həqiqi filosof malikdir: ya müdrikliyin həqiqi biliciləri olan filosoflar dövlətin idarə olunmasını öz üzərinə götürməli, ya hakimiyyətdə olan hökmdar həqiqi biliyi, həqiqi fəlsəfəni mənimsəməli və işdə onun prinsiplərini reallaşdırmalıdırlar. *Demokratik liderlər filosofların üzə çıxardıqları mütləq biliyə deyil, sofistlərin söylədikləri keçici, ötəri təsəvvürlərə istinad edirlər, buna görə də, təsadüfi və qeyri-stabil siyasi strukturları yaradırlar*, - platformasında dayanan Sokrat sofistin, siyasətçinin və filosofun sosial statuslarını müəyyənləşdirmək zərurətini qeyd edir və Sokratın irəli sürdüyü bu zərurət öz gerçəkliyini qismən də olsa *Sofist* və *Siyasətçi* dialoqlarında tapır. Həmin dialoqların adından göründüyü kimi *Sofist* sofistin, *Siyasətçi* isə siyasətçinin fəlsəfi obrazını təsvir edir. Lakin, *Siyasətçi* yarımçıq kəsilir, filosofun bütövlükdə fəlsəfi obrazı isə yalnız Sokratın öz ölümü ərəfəsində son dəfə etdiyi söhbətində yaradılır və *Fedon*da təsvir edilir. Sokrat ölüm ayağında etiraf və bəyan etdi ki, fəlsəfənin təyinatını hər şeydən əvvəl insanın özünü ölümə hazırlamasında görür. Transsendent dünyaduyumun daşıyıcısı olan Sokrat üçün bu heç də təsadüfi deyildi. Sokrat qədim yunan fəlsəfəsində transsendental istiqamətin ən mühüm həlqələrindən biri idi və Sokratın siyasi mülahizələri də elə transsendent dünyaduyumun üzərində köklənmişdi.

Əgər yunan fəlsəfəsinin deterministik istiqaməti hedonizmlə çulğaşaraq həzlərin əxlaq üzərində üstünlüyünü qəbul edirdisə, transsendental istiqamət əksinə olaraq hissləri əxlaqa tabe etdirdi. Əgər deterministik istiqamət materializmlə çuğlaşaraq hisslərlə

qavranılan dünyanın – maddi aləmin ilkinliyindən çıxış edirdisə, transsendental istiqamət əksinə olaraq hisslərlə qavranılan dünya haqqındakı təsəvvürlərimizi illüziya kimi səciyyələndirdi və elə bunun əsasında da həqiqi reallıq kimi *personal başlanğıc*ı qəbul etdi. Əxlaq *Vahid Tanrı*nın timsalında mütləqləşdirildi.

Sofistik etikadan fərqli olaraq, Sokratın etik doktrinasında relyativizm yox idi, əksinə absolyutizm vardı. O, qarşılıqlı fayda prinsipi üzərində qurulmuş davranış normalarını inkar edir və əxlaqın ilahi prinsiplər üzərində qurulması üçün səy göstərirdi. Sofistik etika obyektivist mənşəli olduğu üçün faktdan çıxış edirdi. Sokratik etika isə subyektivizmə meyilli olduğundan istinad etdiyi ilahi prinsiplərin *insanın içərisində* yatdığını yəqin edirdi və buna görə də özünüdərki nəzəri təfəkkürün başlıca problemi kimi qəbul edirdi. "Özünü dərk et" formulu görünür elə buna görə də, onun fəlsəfəsinin başlıca qayəsini təşkil edirdi.

Sokrat mütləq əxlaqi kodeksin və mütləq biliklərin *insanın iç dünyasında* yatdığını qəbul etdiyi üçün bu kodeksi və bu bilikləri *insanın iç dünyasından* çıxarmaq istəyir. Lakin, Sokrat özünün Tyetet ilə söhbətində onu da etiraf edirdi ki, onun *özünün iç dünyasında* çıxarılası və insanlara bəxş ediləsi belə bir bilik yoxdur və görünür elə buna görə də o, həqiqəti *başqa bir insanın iç dünyasından* çıxarmaq istəyirdi. Əlbəttə ki, həmin bu *başqa insan* onun çox zaman müsahibi olan sofistlərdən hansısa biri deyildi. Sokrat sofistlərə qarşı həmişə nifrət hissini keçirirdi və onların söylədiklərini həmişə təkzib edirdi. Bəs Sokrat tərəfindən iç dünyasında mütləq həqiqət axtarılan bu *başqa insan* kim idi? Maraqlı bir fakt: Həmin bu *insan* bir qayda olaraq *zadəgan mənşəli*lər içərisindən idi – bu, həmin o Tyetet idi, bu, Alkiviad idi, bu, Xarmid idi, bu, Qlavkon idi, bu, Adimant idi və nəhayət, bu, Platonun özü idi. Sokrat mütləq, ilahi həqiqəti məhz həmin bu *zadəgan mənşəli insanlar*ın iç dünyasından çıxarmaq istəyirdi. Bəs bu, bir təsadüf idimi? Zadəganın özünə qaldıqda, o, doğrudan da inanır ki, dünyanın ilahi mahiyyətini və ilahi həqiqəti öz iç dünyasında daşıyır, çünki ilahi mənşəlidir, tanrılardan törəmişdir.

Sokrat zadəgan ruhuna çökən mütləq əxlaqı və mütləq həqiqəti ona görə rasionallaşdırmaq istəyirdi ki, həmin bu mütləq əxlaqı və həmin bu mütləq həqiqəti digər, zadəgan ruhunu özündə daşımayan insanlara aşılaya bilsin. İdrakın əsas məqsədini *yaşamaq sənəti*nin mənimsənilməsində görən Sokrat "*Ədalətin nə olduğunu bilən kəs heç vaxt ədalətsizliyə yol verməz*", "*Vicdanın nə olduğunu bilən kəs heç vaxt vicdansız iş tuta bilməz*" müddəalarından çıxış etmişdir.

Sokrat ilk dəfə olaraq insan mənəviyyatını səciyyələndirə bilən anlayışlara – xeyirxahlıq, müdriklik, mərdlik, ədalət, fəzilət kimi anlayışlara dəqiq tərif vermə problemini, əxlaqi şüurun məntiqi təhlil zərurətini irəli sürdüyündən və bu zərurəti özünəməxsus şəkildə gerçəkləşdirdiyindən əslində *etika elmi*nin əsasını qoymuş və buna görə də *əxlaqın atası* adını qazanmışdır.

Sokrat bütün cəmiyyəti, bütün insanları və vahid və mütləq əxlaqa tabe etdirmək əzmində olduğundan öz dövrünün siyasi determinizmə əsaslanan demokratik hakimiyyət strukturlarının getdikcə kəskinləşməkdə olan dərin böhranını da insanların mütləq əxlaqi prinsiplərdən ayrı düşməsi ilə izah edirdi. İcma mədəniyyətinin siyasi prinsiplərini – kommunistik prinsipləri demokratizmə qarşı qoymaqla Sokrat demokratizmin bütün digər əleyhdarları ilə eyni cəbhədə idi. Bundan daha çox deyilərsə, Sokrat antidemokratik cəbhənin nəzəri cinahının komandanı idi. Sokratın ətrafına ən müxtəlif adamlar yığışmışdı. Burada təkcə icma ruhunun və icma mədəniyyətinin daşıyıcıları (Antisfen) deyil, həm də artıq söylənildiyi kimi Tyetet, Xarmid, Alkiviad, Qlavkon, Adimant və Platon kimi zadəganlar da vardı. Uill Dürant adlı bir amerikan filosofunun düzgün olaraq sezdiyi kimi, əgər Antisfen Sokratın qayğısız kasıblığından xoşlanırdısa və bu qayğısızlığı mənalandıraraq dinə çevirirdisə, Alkiviad və Platon öz zadəgan təbiətlərinə uyğun olaraq, Sokrat tərəfindən demokratiyaya verilən satirik təhlildən həzz alırdılar. Dürantın Aristipp haqqında dediyi bir sıra sözləri bu sözlərə daha adekvat olan Platona aid edərək təsdiq etmək olar ki, Platon elə bir

dünyaya can atırdı ki, burada heç bir ağa və qul, heç bir hakimiyyət mövcud olmasın, hamı Sokrat kimi azad olsun[1].

Platonun öz müəllimi Sokrata rəğbəti sonsuz idi. Lakin, Platon bir aristokrat olmaqla Sokratın icmaçı ruhunun varisi ola bilməzdi və olmadı. Platonun siyasi idealı aristokratik, Sokratın siyasi idealı isə kommunistik təbiətli idi. Sokrat və Platon ruhları arasındakı fərq təkcə siyasi idealların müxtəlifliyi ilə tamamlanmırdı, bundan daha fundamental idi və ümumiyyətlə dünyagörüş xarakteri daşıyırdı. Platonda Sokratdan fərqli olaraq dünya ilahi yaradıcılıq aktının təsadüfi nəticələrindən biri olaraq fani deyildir, gözəlliyin və nizamlılığın timsalı olan əbədi kosmosdur, dünyanı dünyadan ayrıla bilən personal başlanğıc deyil, dünyanın immanent mahiyyəti olan Dünya Ruhu idarə edir. Platonda Dünya Ruhu xarakterli olan Tanrı Sokratda transsendental təbiətlidir, dünyadan kənardır və dünyanın fövqündədir, istənilən dünyanı yarada bilən və məhvə düçar edə bilən personal başlanğıcdır.

Platon fəlsəfəsi aristokratik təbiətli olmaqla kosmosentrizmə söykənir və Sokratdan əxz etdiyi rasionalizm vasitəsilə mifik kosmosentrizmi məntiqiləşdirirdi.

Sokrat isə qədim mifik təfəkkürdən orta əsr dini təfəkkürünə keçidin mühüm mərhələsini təşkil edirdi. Başlanğıcı Eleya məktəbi tərəfindən qoyulan bu keçid Ksenofan-Parmenid-Sokrat zənciri boyunca öz təkamülünü yaşadı, ***Antisfen***in və onun yaratdığı kiniklər məktəbinin şəxsində isə özünün tarixi mövcudluğunu saxlamaqda davam etdi. Sokrat ruhunun həqiqi mənəvi varisi Platon olmadı, Antisfen oldu.

Yunan mifik kosmosentrizmindən dini kreasionalizmə keçid zəncirinin sonuncu həlqəsi isə ***Filon*** oldu.

Qədim yunan fəlsəfəsində monoteist ruhlu transsendental istiqamətin təşəkkülündə və ilkin inkişafında əcnəbi monoteizmin – iudaizmin təsiri yalnız güman oluna bilər. Filonda isə bu təsir bilava-

---

[1] Durant W. The Story of Philosophy. The Lives and Opinions of the Greater Philosophers. N.Y., 1933, p.8.

sitə tarixi fakta çevrilir. Filon yunan təhsilli yəhudi idi, bir tərəfdən yəhudiliyə, digər tərəfdən isə yunan fəlsəfəsinə bağlı idi. Görünür elə buna görə də dini və fəlsəfəni bir əsasda birləşdirmək üçün ilk dəfə ciddi cəhd məhz Filon tərəfindən göstərildi. O, yəhudiliyə sadiq qalaraq iddia etdi ki, bütün fəlsəfi müdrikliyin mənbəyi Tövratdır. Lakin, bu müdrikliyin anlaşılması üçün Müqəddəs Yazı məntiqi nöqteyi-nəzərdən şərh edilməlidir, - deyərkən isə, Filon ortodoksal iudaizmdən uzaqlaşırdı. *Əhdi-ətiq*in məntiqi əsaslandırılma zərurətini irəli sürərkən və həmin məntiqi yunan fəlsəfəsində axtararkən, Filonun özü qədim yunan filosofuna çevrilirdi. Bununla belə, Filon həm yəhudi mühitində, həm də qədim yunan fəlsəfəsi mühitində yad idi. Yəhudilər onu yunanlaşaraq manqurdlaşan bir insan kimi, yunanlar isə onu bir yəhudi kimi, bir yad kimi qəbul edirdilər.

Filon yunan dilində yazsa da, yunan fəlsəfi ənənələrinə bağlı olsa da, onun yunan filosofu olduğu bəzən deyil, əksər hallarda şübhə altına alınırdı. Bu, çətin ki, onun *milliyyətcə* yunan olmaması ilə əsaslandırıla bilər. Yunan filosoflarının bir çoxu, xüsusən determinist və transsendental istiqamətlərin nümayəndələri şimaldan Balkan yarımadasına axaraq Qədim Yunanıstanı yaradanların nəsillərindən deyildi, aborigen mənşəli nəsillərdən idi. Yunan fəlsəfəsində yalnız kosmosentrik istiqamətin nümayəndələri bir qayda olaraq cəngavər, köçəri mənşəli həqiqi yunanlardan idi.

Filonun qədim yunan filosofu kimi qəbul olunmamasına qaldıqda isə bu, çox yəqin ki, ondan irəli gəlirdi ki, Filonda qədim yunan fəlsəfəsi üçün səciyyəvi olan rasionalizmdən daha çox intuitivizm vardı. Filonda Tanrı rasional olaraq dərkedilməzdir, insan Tanrı haqqında onun yalnız mövcud olduğunu bilir, necə olduğunu isə bilmir: Tanrı mütləq mənada dünyadan ayrıdır və mütləq mənada həqiqi varlıqdır, hər cür mövcudluqdan yüksəkdir. Tanrının Filon tərəfindən təqdim edilmiş bu təsviri müəyyən mənada Ksenofanın Tanrıya verdiyi təsviri xatırladır. Lakin, Filonda Tanrı nəinki hər cür mövcudluqdan yüksəkdir, həm də hər cür mövcudluğun yaradıcısıdır.

Tanrının Filon tərəfindən irəli sürülmüş mütləq transsendentliyi ideyası qədim və orta əsrlərin dünyaduyumları arasındakı əsaslı fərqi çox gözəl ifadə edir. Tanrını Dünya Ruhu kimi başa düşən qədim spiritualist dünyaanlamadan fərqli olaraq orta əsrlərin dünyaduyumunda Tanrı mütləq mənada dünyanın fövqündədir və dünyadan kənardır.

Filonda intuitivizm mistisizmlə çuğlaşır. O, ekstaz yolu ilə Tanrıya qovuşmağı mümkün hesab edir. Bu halda o, həm yunan, həm də iudaist rasionalizmlərinin hər ikisinə meydan oxuyur.

Yunan mifik kosmosentrizmindən dini kreasionalizmə keçid tarixi olaraq ***xristianlığın qərarlaşması*** ilə tamamlandı. Xristianlıqda artıq dini kresionalizm fəlsəfi rasionalizmdən azad şəkildə təqdim edildi.

Xristianlıq transsendentalizmi təkcə Filon intuitivizmindən və mistisizmindən deyil, həm də yunan fəlsəfi rasionalizmindən də qoparıb ayırdı və onu doqmatikləşdirdi.

Antik fəlsəfənin transsendental istiqaməti mifdə ifadə olunan immanent mahiyyətin inkarı və mahiyyətin transsendentləşməsi ilə doğuldu, dinin formalaşma prosesi kimi yaşadı və artıq doqmatikləşdirilmiş din tərəfindən inkar edilməklə isə öz ömrünü əslində başa çatdırdı.

Lakin, transsendental yönümlü yunan fəlsəfəsi ***Kliment***in şəxsində özünü öz ehkamlaşdırılmış nəticəsinə qarşı qoymaqla öz ömrünün artıq bəlkə də gecikmiş son mərhələsinə qədəm qoydu, dini qətiyyən doqmatik əsasda deyil, yalnız rasional əsasda qəbul edə biləcəyini söylədi.

Əgər Filon antik fəlsəfənin təyinatını iudaizmin rasionallaşdırılmasında görürdüsə, Kliment inamın və zəkanın vəhdəti ideyasını irəli sürərkən xristianlığın rasional-fəlsəfi şərhini verməyə çalışırdı. Klimentin şagirdi ***Origen*** isə fəlsəfənin ümumiyyətlə xristianlıqda sona yetdiyini söyləyərək antik fəlsəfəni bir daha xristianlığa təslim etmək istədi. Lakin, xristianlıq fəlsəfənin bu təslimçisini qəbul etmədi və onu *bidətçi* adlandırdı. Öz növbəsində heç antik fəlsəfə də bütövlükdə xristianlığa təslim olmaq istəmədi və olmadı. Xristian-

lıqda sona yetən bütövlükdə antik fəlsəfə deyildi, onun yalnız bir qolu, transsendental istiqaməti idi. Origenin özü isə yunan fəlsəfəsində transsendental istiqamətin son nəfəsi oldu.

Xristianlıq tamamlanmış bir dünyagörüş idi və bu dünyagörüş üzərində qurulmuş siyasi doktrina ***ilkin xristian icması***nın timsalında öz gerçəkliyini tapdı. İlkin xristian icmasında əslində kommunist təbiətli icma prinsipləri hakim idi. İlkin xristian icmasının gündən-günə güclənməsi isə **Roma imperiyası**nın gündən-günə zülm imperiyasına çevrilməsi ilə paralel baş verirdi.

**Sasanilər dövləti**nin artıq zülm imperiyasına, ədalətsizliyin timsalına çevrilməsi dövründə isə kommunistik reaksiya olaraq ***məzdəkizm***i doğuldu. İnsanlar arasında bərabərliyin pozulmasını məzdəkizm zülmün və zülmətin xeyir və işıq üzərində əsarəti kimi izah etdi və bu əsarətin yoxsulluğu, paxıllığı, acgözlüyü, yalanı, qatilliyi, oğurluğu və müharibəni doğurduğunu irəli sürdü. Məzdəkilər həqiqi kommunist ideoloqları olmaqla, icma prinsiplərinin bərpası uğrunda mübarizəyə atıldılar.

Məzdəki mübarizədən doğulan rezonansın həlqələrindən biri isə **Ərəbistan**da meydana çıxan ***hənifilik*** oldu. *Hənif* sözü *Tanrının qoyduğu yolla gedən* mənasını almışdı.

Bu yolu ***islam*** gerçəkləşdirdi və ona mütləqlik xarakterini verdi. İnsanlar arasında qardaşlıq münasibətlərinin mütləqləşdirilməsi ilə bağlı hənifilikdə irəli sürülən ideallar *ilkin islam*da öz reallığını tapdı və müqəddəsləşdirildi. İslamın təşəkkülündə görkəmli rol oynamış hənifilik tərəfindən bütpərəstliyə qarşı təkallahlılığın təbliği bütün Ərəbistanın vahid bir icmada birləşməsinə, vahid düşüncə və davranış normalarının qərarlaşmasına yönəlmişdi. Bu yönüm təbii ki islama da siyarət etmişdi və islamın sonradan digər regionlara yayılması başqa xalqların da haqq yoluna qaytarılması kimi qavranıldı. *Quran*da, *Məhəmməd Peyğəmbər*in *hədis*lərində, *sünnə* adlandırılan müqəddəs rəvayətlərdə həmin yolun geniş təsviri və təqdimatı verildi. Xatırladaq ki, din sözünün özü də ərəb dilindən tərcümədə elə yol deməkdir.

Belə bir cəhətə də diqqət yetirmək lazım gəlir ki, islamın yaranmasına qədərki Ərəbistanda 360-dan artıq icma Tanrısının mövcudluğu məsələn qədim Yunanıstandakı çoxallahlılıqla heç nədə ümumilik təşkil etmir. Burada allahlar panteonu yox idi, *icma allahları* vardı. Burada od allahı, dəmirçilik allahı, əkinçilik allahı yox idi, qonşu icmanın allahı vardı. Allahların çoxluğu onların panteonunu yaratmırdı, icmaların çoxluğunu əks etdirirdi.

Məhəmməd Peyğəmbərin başçılığı altında Mədinədə mövcud olan müsəlman icması – *ümmət* – icma ideallarının ən klassik təcəssümlərindən biri və ilkin orta əsrçiliyin ən gözəl nümunəsi idi.

Müasir islam Qərbin güclü mənəvi təsirinə məruz qalsa da, islamın hələ orta əsrlərdə qərarlaşmış düşüncə ənənələri öz mövcudluğunu və qüdrətini saxlamaqdadır. Lakin, Orta əsrlər öz-özlüyündə yekcins olmamışdır. Həm Avropa ortaəsrçiliyində, həm də müsəlman ortaəsrçiliyində bir-birindən kifayət qədər real əlamətlərlə fərqləndirilə bilən dövrlər mövcuddur. İlkin orta əsrlərdə icma şüuru hakim idi. Bu dövrə Avropanın IV-VII əsrləri aid edilə bilər. Müsəlmanlığın cəngavər ruhuna uyğunlaşdırılması onu sünniləşdirdi, şəhərli ruhuna uyğunlaşdırılması isə – şiələşdirdi. Ömər, islamı cəngavər əxlaqına uyğunlaşdırmaqla sünniləşdirdi. Əli, islamı şəhərli ruhuna uyğunlaşdırmaqla şiələşdirdi. İslam ilahi iradəni zor gücü ilə insanlara qəbul etdirdiyi gündən sünniləşdi, ilahi qüdrətdən faydalanmaq meyillərində isə şiələşdi. Sünnilik də şiəlik kimi icma şüuruna ziddir, deməli, ilkin və həqiqi müsəlmanlığa da əslində ziddir. Eyni zamanda sünnilik də, şiəlik də həm həqiqi cəngavər, həm də həqiqi şəhərli dünyaduyumuna əksdir. Əmir Teymur həqiqi cəngavər idi, amma həqiqi müsəlman deyildi, Ömər Xəyyam həqiqi şəhərli idi, amma əslində müsəlman deyildi. Belə ki, həqiqi şəhərlilik determinizm prinsipinin mütləqləşdirilməsinə istinad etdiyindən, dünyəvi elmi, həqiqi cəngavərlik isə kosmosentrizm prinsipini mütləqləşdirdiyindən panteizmi öz həqiqi dünyaduyumu kimi qəbul edir. Sünnilik ilkin müsəlmanlıqla panteizm, şiəlik isə ilkin müsəlmanlıqla dünyəvi elm arasında mövqe tutur.

Bununla yanaşı, islam mədəniyyətinin bütün tarixi ərzində müsəlman əhalinin böyük əksəriyyəti icma şüurunu özündə daşımaqla ilkin müsəlmanlığa sadiq olmuşdur. Bu insanlar üçün icma davranış prinsipləri – xeyirxahlıq, mərhəmətlilik, ədalətlilik, mehriban qonşuluq, insan münasibətlərində qərəzsizlik, səmimilik və təmənnasızlıq, insanların mütləq və real bərabərliyi başlıca və müstəsna əhəmiyyətə malik idi. Onlar şəhərli fərdiyyətçiliyinə və praqmatizminə heç cür uyğunlaşa bilmədiklərindən şiələşmirdilər. Bu insanlar eyni zamanda köçəri sərtliyinə də heç cür uyğunlaşa bilmədiklərindən sünniləşmirdilər.

Şiəlik şəhərləşma prosesində, sünnilik isə cihad zamanı güclənir, öz əhəmiyyətini artırır. İcma prinsipləri hər iki halda sıxışdırılır. Kəlam fəlsəfəsi icma prinsiplərinə həsrətdən doğulur. Bu, islam fəlsəfəsinin birinci istiqaməti idi. Kəlam fəlsəfəsinin tərəfdarları – mütəkəllimlər əslində icma şüurunun ifadəçisi olan dini həqiqətlərin mütləqliyindən çıxış edir və bu əsasda da özlərini mötəzilə tərəfdarlarına qarşı qoyurdular.

Mötəzilə tərəfdarları dini həqiqətlərin mütləqliyini qəbul etməyib əksinə, zəkanın, ağlın qüdrətini etiraf edirdilər. Zəkanın qüdrətinə olan inam islam dünyasında digər iki fəlsəfi cərəyanın əslində şərikli başlanğıcını təşkil edir. Bu istiqamətlərdən biri cəngavər dünyaduyumunun və onun zəminində formalaşmış aristokratizmin rasionallaşdırılmasından ibarət olan sufizm və mahiyyəti etibarı ilə onun bir qolu olan işraqilik fəlsəfəsidir. Həmin istiqamət insan zəkasını fövqəlbəşər və fövqəltəbii zəkanın təzahürü kimi başa düşür, insan zəkasının kamilliyini ilahi zəkaya uyğunluq dərəcəsində görür. İnsan zəkasının qüdrətindən çıxış edən digər istiqamət praqmatik cərəyan idi. Zəka burada insanın dünyadan faydalanma vasitəsi idi və bu zəmində də qiymətləndirilirdi. Praqmatik zəminli zəka kultu əslində analitik təfəkkürün insan qarşısında duran bütün problemləri həll edə biləcəyinə olan inam idi.

İslam fəlsəfəsi yaranarkən əvvəlki fəlsəfi ənənələrdə özünə zəmin axtardı və qədim yunan fəlsəfəsinin timsalında belə bir zəmini tapdı. İslam fəlsəfəsində icma istiqaməti Sokrata və sokratizmə,

aristokratik cərəyan Platona və platonizmə, praqmatik istiqamət isə Aristotelə və aristotelizmə istinad edirdi. Praqmatik cərəyan – məşşailik Aristotelin elə güclü təsirinə məruz qalmışdı ki, bütövlükdə aristotelizmə çevrilmişdi.

İslam fəlsəfəsi göründüyü kimi yuxarıda qeyd olunan üç düşüncə axınının yataqları boyunca təkamül etmişdir. Kəlam fəlsəfəsi, öz mahiyyəti etibarı ilə ilkin müsəlmanlığın, sufizm sünniliyin, məşşailik isə şiəliyin ifadəçisi idi. Burada söhbət, formal müsəlmanlıqdan, formal sünnilikdən və formal şiəlikdən getməyib, həqiqi müsəlmanlıqdan, həqiqi sünnilikdən və həqiqi şiəlikdən gedir. Belə ki, həqiqi müsəlman öz iradəsini könüllü olaraq Tanrının iradəsinə tabe etdirir. Həqiqi sünni özünün və başqalarının iradəsini zorla ilahi iradəyə tabe etdirir. Həqiqi şiə isə ilahi iradədən öz problemlərinin həlli üçün istifadə etməyə çalışır.

Həm sünnizmdə, həm də şiizmdə müsəlman icmasının fundamental yaşayış prinsipləri təhrif olunur.

***Xürrəmlik*** islam dünyasının bu prinsiplərə həsrətindən yarandı.

***Nizami***nin kommunist utopiyası da real islamın islam ideallarından, həqiqi islamdan, icma prinsiplərindən ayrılması ilə bağlı idi.

İcma şüurunun oxşar qaydada iki istiqamətdə özgələşməsi Avropada da müşahidə olunmuşdur. Belə ki, cəngavərliyin xristianlaşdırılması öz ifadəsini xristianlığın katolikləşməsində tapdı. Xristianlığın burjualaşması[1] isə sonradan onu protestantizmə çevirdi.

Orta əsr **Avropa**sında ***taboritlər***in və ***anabaptistlər***in bərabərlik idealları kommunizmə yaxın idi.

***Münser*** tərəfindən xüsusi mülkiyyətin inkarı və mülkiyyətin ümumiliyi ideyası cəmiyyətdə geniş vüsət tapmışdı.

Avropanın icma şüurunun rasionallaşdırılması prosesinin gedişində ***Mor***un *Utopiya*sı və ***Kampanella***nın *Günəş şəhəri* yarandı.

---

[1]Burjualaşma əslində şəhərli kütləsinin siyasi hakimiyyətdən formal və eləcə də qeyri-formal olaraq müstəqilləşməsi kimi anlaşıla bilər.

Fransız gerçəkliyinin burjualaşması, bir tərəfdən bu burjualaşmanın sona çatdırılmasını, hakimiyyəti demokratikləşdirmə istəyini, digər tərəfdən isə, burjualaşmanı ləğv və məhv etmə istəyini doğurdu. Birinci istiqamətə Monteskyö – Volter – Didro – Helvetsi – Holbax – Kondorse – Kont – Tokvil, ikinciyə isə ***Melye – Russo – Morelli – Mabli – Baböf – Furye – Sen-Simon – Lamenne – Kabe*** aid idi. Maraqlıdır ki, həyatın burjualaşmasına qarşı Mestr - Bonald – Şatobrian – Renuvye – Ten – Hüqo zənciri üzrə təkamül edən aristokratik reaksiya da kommunizm ilə mənəvi bir yaxınlıq duyurdu. Özü də bu yaxınlıq təkcə ideya düşməninin ümumiliyindən, burjua əxlaqına, məntiqinə, instinktlərinə qarşı ümumi nifrətdən doğmurdu, Napoleonun hakimiyyəti illərində Furye və Sen-Simon kommunist ideallarının təkcə geniş nəzəri təsvirinə nail olmurdular, həm də onların gerçəkləşdirilməsi üçün iş görürdülər. Üstəlik, Sen-Simon Avropanın ən görkəmli və ən qədim zadəgan nəslindən idi. Lamennenin feodal sosializmi kapitalizmin haqsızlıqlarını ifşa etməklə yanaşı, kommunizmin də bir sıra haqlı cəhətlərini təsdiq edirdi.

İngilis ***Ouen*** kommunist cəmiyyətinin iqtisadi əsaslar üzərində qurulmasına səy göstərdi və buna müəyyən miqyasda və müəyyən mənada nail oldu.

***Marks*** kommunizmi siyasi mübarizənin idealına çevirdi.

Marksın bir şəxsiyyət kimi portretində ən səciyyəvi cizgilər mübarizlik, cəngavərlik və aristokratizmdir. Marks proletar sinfinin mənafeyini müdafiə etsə də, özündə heç zaman proletar şüurunu hiss etmədi. Materializmin ifadəçisi olsa da, özü heç zaman materialist olmadı. Əgər o, özündə proletar şüurunu hiss etsəydi, ruhən materialist olsaydı, maddi nemətlərə sahib olmaq motivləri ilə yaşayardı. Lakin, o, bunu etmədi. Özünün böyük zəkasını, qiymətli varlığını binəsiblərin, əzilənlərin, incidilənlərin, istismar olunanların müdafiəsinə yönəltdi, onların gələcəyini düşündü, onları xoşbəxtliyə qovuşdurmaq arzusu ilə yaşadı. Ruhən proletar deyil, aristokrat olduğunu sübut etdi.

Marksın portretində başqa bir mühüm cizgi yəhudilikdir. Marksın bir kommunist hərəkatının rəhbəri kimi yəhudi olmasının heç

də təsadüfi olmadığını görkəmli rus filosoflarından Bulqakov və Berdyayev də qeyd etmişlər və marksist kommunizmini yəhudi apokalipsisi, yəhudi xiliazmı kimi qiymətləndirmişlər. Marks başda olmaqla dünya kommunist hərəkatının əksər aparıcı xadimləri yəhudilər idilər. Bu da təsadüfi deyildi. Belə ki, yəhudilik ikili xarakter daşıyır. O, bir tərəfdən, kəndli dünyagörüşünün mühüm elementi olan icma şüurunu, digər tərəfdən isə şəhərli dünyagörüşünün mühüm elementi olan praqmatizmi özündə daşıyır. Yeni dövrün kommunizmi icma şüuru ilə praqmatizmin özünəməxsus, ziddiyyətli sintezindən ibarət olduğundan onun idealları ilkin olaraq yəhudi hərəkatı içərisində özünə kök salmışdı.

Lakin, Marks sadəcə olaraq bir yəhudi hadisəsi deyildi, ümumbəşəri bir hadisə idi.

Marksın möhtəşəm *Kapital*ının nəşrindən on il keçdikdən sonra ***Morqan***ın *Qədim cəmiyyət*i və iyirmi il keçdikdən sonra isə ***Tönnis***in *İcma və cəmiyyət*i çap olundu. *Qədim cəmiyyət* də, *İcma və cəmiyyət* də *Kapital*ın müəyyən mənada məntiqi davamı idi.

Elmi klassikanın bu üç şah əsərindən hər birində icma həyat tərzinin dəyərləri burjuaya və burjua dəyərlərinə qarşı qoyulurdu. Marksda burjua sosial təşkilatlanma kommunist sosial təşkilatlanmaya qarşı, Morqanda müasir fərdiyyətçilik qədim kollektivizmə qarşı, Tönnisdə cəmiyyət atomizmi icma vahidliyinə qarşı qoyulmuşdu. Bu qarşıqoyulma ümumi tarixi əsasa malik idi və təkcə XIX əsr Avropası üçün səciyyəvi deyildi.

İcmaçı nəzəriyyələr içərisində dünyada ən geniş yayılanı və inkişaf etdiriləni isə Marksın ideyalarına söykənən nəzəriyyə, ***marksizm*** oldu.

Marksizm bütövlükdə Karl Marksın şəxsiyyəti ilə eyniləşdirilə bilməz. Marksizmdə doqmatik ruh, Karl Marksda isə azad ruh hakimdir.

Marksizm üçün bir icma nəzəriyyəsi olaraq ən mühüm əlamətlərdən biri bərabərlik prinsipi olduğundan marksizm insanlar arasındakı münasibətlərdə hər cür hakimiyyəti pisləyir və onun məhv edilməsini özünün strateji məqsədlərindən biri kimi vurğulayır.

Marksizm ümumiyyətlə dövləti də siyasi hakimiyyətlə eyniləşdirir və bu əsasda da onu ən azı nəzəriyyə səviyyəsində inkar edir. Marksizm burada anarxist nəzəriyyə ilə eyni nöqteyi-nəzərdən çıxış etmiş olur. Anarxizm də marksizm kimi *dövlət* anlayışı altında *dövlət hakimiyyəti*ni başa düşür və onu köləliyin mənbəyi kimi rədd edir. Marksist kommunizmi dövlətin anlaşılmasında anarxizmə nisbətən bir addım da irəli gedərək dövlətdə köləliyin ikiqat mənbəyini görür. Siyasi hakimiyyətin köləlik mənbəyi olmasını marksizm onun təkcə öz təbiəti ilə deyil, həm də marksizmdə siyasi hakimiyyətin müqəddəm şərti kimi başa düşülən iqtisadi hakimiyyətlə – bir sinfin digər sinif üzərində mülkiyyət hakimiyyəti ilə izah edir.

Marksizmdə kommunist özünüidarə cəmiyyətin siyasi idarəolunmasına qarşı qoyulur. Lakin, marksizm unudur ki, *idarəetmənin özü* bütün hallarda *hakimiyyətin başqa üzü* olaraq qalır.

Düşünürəm ki, cəmiyyət yalnız o zaman hakimiyyətin doğurduğu köləlikdən azad ola bilər ki, hər bir insan cəmiyyətdə özünün təbii təyinatına uyğun yeri tuta bilsin. İnsanların cəmiyyətdə oynamalı olduğu rol kənardan təlqin olunacağı təqdirdə hakimiyyət və köləlik həmişə labüddür.

Köləlik əslində sosial özgələşmənin başqa adıdır, hətta bu özgələşmə könüllü və şüurlu edilsə də.

İctimai təşkilatların rolunun artmasının dövlətin ölüb-getməsi ilə nəticələnəcəyi barədə marksizmin söylədiyi fikir də həqiqətə uyğun deyildir. İctimai təşkilatların rolunun artması cəmiyyəti icmaya çevirmir, onu yalnız demokratikləşdirir.

Marksizm hüquqi dövlət ideyasını burjua ideyası kimi qiymətləndirir və belə hesab edir ki, hüquqi normalar kommunizmdə kommunist əxlaqının normaları ilə əvəz ediləcəkdir. İcma mədəniyyətinin prinsiplərindən ibarət olan bu normalar artıq yuxarıda sadalanmış və dəfələrlə xatırlanmışdı. Marksizm icma mədəniyyətinin bu əxlaqi sərvətlərinə səhv olaraq azadlığı da əlavə edir. Lakin, azadlıq icma mədəniyyətinin və eyni zamanda kommunist əxlaqının ruhuna ziddir. Kommunizm həmişə icmanın fərd üzərində üstünlü-

yündən çıxış edir və köləliyi elə buna görə də həmişə özündə ehtiva edir.

Kommunizm, özünü icmanın himayəsində rahat hiss edənlərin toplumu və nəzəriyyəsidir. Burada icmanın mənafeyi fərdin mənafeyindən, ictimai rəy fərdi rəydən, ictimai tapşırıq şəxsi təşəbbüskarlıqdan həmişə üstündür.

Həqiqi kommunist, kommunizm idealının həqiqi daşıyıcısı əslində qadın əxlaqının prinsipləri ilə fəaliyyət göstərir və buna görə də avtoritarizmə meyillidir.

İcma mədəniyyətində aşkar müşahidə olunan dinə olan meyillilik fərdin himayəyə sığınma, mütləq şəxsiyyətin himayəsinə sığınma istəyindən doğur. Marksist kommunizm Tanrını inkar etsə də, Marksın özünü ilahiləşdirir. Kommunizm, şəxsiyyət qarşısında heyranlıq və səcdə etmədən mövcud ola bilməz.

Marksın ayrı-ayrı ideyalarına istinad edən müxtəlif marksizmlər yarana bilərdi və yarandı. Bu marksizmlər içərisində isə ən nüfuzlusu sovet marksizmi, yəni marksizm-leninizm oldu. Marksizm-leninizmin banisi isə Marksdan daha çox ***Lenin*** və ***Stalin*** idi.

Real insan münasibətlərində bərabərliyin, həmrəyliyin, təmənnasız xeyirxahlığın və səmimiliyin itirildiyi, fərdiyyətçiliyin və eqoizmin isə ön plana çıxdığı hər bir şəraitdə icma dəyərlərinə həsrət yaranır və bu həsrət kommunizm xarakterli nəzəriyyələri yenidən dirçəldir və inkişaf etdirir.

İcma düşüncə ənənələrinin və həyat prinsiplərinin XX əsr **Azərbaycan**ında rasionallaşdırılması və gerçəkləşdirilməsi missiyası ***Nəriman Nərimanov***un çiyinlərinə düşdü. Qədim Çində Lao-tszının, Qədim Yunanıstanda Evgemerin, Yambulun, Faley Xalkedonlunun və Sokratın, Sasanilər imperiyasında Məzdəkin və məzdəkizmin, Ərəbistanda hənifiliyin və ilkin islamın, Səlcuqi imperiyasının son, zəifləmiş çağlarında Nizaminin, Avropanın son Orta əsrlərində və Yeni dövründə taboritlərin, anabaptistlərin, Münserin, Morun, Kampanellanın, Uinstenlinin, Melyenin, Russonun, Mablinin, Morellinin, Baböfün, Sen-Simonun, Furyenin, Ouenin, Lamennenin, Kabe-

nin, Marksın, Morrisin, Rusiyada Leninin gördüyü işi Azərbaycanda Nərimanov yerinə yetirdi.

Nərimanov gerçəklikdən çıxış edən real nəzəriyyələrdən daha çox, gerçəkliyə yeridilərək onu gözəlləşdirməli olan utopik nəzəriyyəyə daha çox bağlı olduğu üçün romantik idi. Kommunizm idealı Nərimanovun romantik ruhu ilə çuğlaşarkən öz cazibədarlığını daha da artırırdı: *Qafqaz dağlarının uca yüksəkliklərində Qırmızı bayraq qaldırıb, orada kommunizmin əsasını qurmaq vaxtı çatmışdır,* - sözlərində ifadə olunan məftunluq və vəcd Nərimanovun gerçəkliyi gözəlləşdirmək əzmindən doğurdu. Gerçəklikdən çıxış edən və gerçəklikdən faydalanmağa çalışan real müsavat nəzəriyyəsi Nərimanova qəlbən yad idi.

Yeri gəlmişkən qeyd edim ki, kommunizm idealı Azərbaycanda təkcə Nərimanovu deyil, saf qəlbli insanların bir çoxunu da ovsunlamışdı. Zadəgan partiyası olan *İttihad* kommunizmə qarşı həmişə daxili bir yaxınlıq duyurdu. Kommunizm nəcib qəlbli Vurğunun da ilham mənbəyi oldu:

Mən söhbət açsam da yüz qərinədən,
Bu gündən ayrıla bilməyəcəyəm.
Böyük kommunizmin sabahına mən
Sadə xatirə tək gəlməyəcəyəm.
Ellər uzadacaq şair ömrünü:
Görməmiş, yazmamış o böyük günü
Yüz il yaşasam da ölməyəcəyəm.

Lakin, bununla belə, akademik Cəmil Quliyevin obrazlı şəkildə söylədiyi *Nərimanov göylərin adamı deyildi, yerin adamı idi, yerdə gəzirdi* mühakiməsində də aşkar bir həqiqət vardır. Nərimanovun özü bu həqiqəti belə ifadə edirdi: *Bizə insanların xoşbəxtliyi, xalqın birliyi, qardaşlığı və yoldaşlığı lazımdır. Bu məhəbbəti, bu insanlığı, bu qardaşlığı və bu yoldaşlığı yalnız kommunizmin qoyduğu qanunlar verə bilər, bu qanunları isə yalnız Sovet hökuməti həyata keçirə və qoruya bilər.* Nərimanov sovet gerçəkliyindən və bir qədər də dəqiq-

ləşdirsək Qızıl Ordu reallığından sadəcə olaraq faydalanmaq, istifadə etmək istəmirdi, o, səmimi olaraq inanmaq istəyirdi ki, Qızıl Ordu doğrudan da xalqın müdafiəçisidir, məzlumu azğından, istismar olunanı istismarçıdan xilas edə biləcək qüdrətə və əzmə malikdir. Lakin real XI Ordu özünün ideal təyinatına uyğun idimi? Nərimanovda bu suala qəti və birmənalı cavab yox idi. O, bu sual qarşısında həmişə tərəddüd keçirirdi. Onun Qızıl Orduya və bütövlükdə sovet gerçəkliyinə ikili münasibəti həmin tərəddüd hissinə söykənirdi. Bir tərəfdən haqqın arxasında dura biləcək qüdrətə malik orduya və hakimiyyətə dövrün ehtiyacını Nərimanov bütün varlığı ilə duyurdu və bu ehtiyac onu Qızıl Orduya və sovet hakimiyyətinə möhkəm bağlayırdı. Digər tərəfdən isə müsəlman dünyasına yeridilən XI Ordunun reallığı Nərimanovun nəcib ruhunda daxili bir narahatlıq və həm də bir qədər nifrət də yaradırdı.

Sovet gerçəkliyinə münasibətdə oxşar ikili duyğunu biz *Sakit Don*un ölməz obrazı olan Georgi Melexovda da duyuruq. ***Şoloxov*** Georgi Melexovun sovet gerçəkliyinə münasibətdə keçirdiyi bu ikili duyğunu özü də dərindən yaşamış və oxucusunu da yaşatmışdır.

**Sovet İttifaqı** kommunizm ideallarının gerçəkləşdirilməsi üçün sınaq meydanı oldu. Kommunizm ideallarının üstünlükləri və nöqsanları bu məkanda bütün çılpaqlığı ilə özünü göstərdi. Burada kommunizm idealı gerçəkləşdirilərkən kommunizmi deyil, sosializmi törətdi. İcmaçının şəxsiyyət qarşısındakı heyranlığından real olaraq kommunizm deyil, sosializm törədi.

Əgər kommunizm *icma* qarşısında köləlikdən çıxış edirsə, sosializm *dövlət* qarşısında köləlikdən çıxış edir.

Sosializm əslində tiranizmin yeni adıdır. Stalin XIV Lüdovikə necə də bənzəyirdi?! *Dövlət mənəm* hökmü onların hər ikisinə də necə də yaraşırdı?!

Stalin sosializmi əsasən, ümumi cizgilərində məhz belə bir tiraniya idi.

Əgər Stalin sosializmi tiranizmə bənzəyirdisə, poststalin sosializmi Aristotelin hələ b.e.ə. IV əsrdə *politiya* adlandırdığı sosial quruma bənzəyirdi.

Mənə elə gəlir ki, siyasi təkamülün təbii yolu marksizmin iddia etdiyi kimi, kapitalizmdən sosializm vasitəsilə kommunizmə doğru deyildir, əksinə sosializmdən (tiranizmdən, və ya müasir qərb siyasi terminologiyasının dili ilə deyilərsə, totalitarizmdən) kapitalizmə doğrudur. *Baş Katib* (tiran) dövləti problemləri öz zəkasının qüdrəti ilə həll edə bilmədikdə "xalqla məsləhətləşməyə" ehtiyac duyur və Parlamenti yaradır. Sosializm (tiranizm) kapitalizmə və demokratizmə doğru təkamül edir.

Berdyayev düzgün olaraq qeyd edirdi ki, demokratiya və sosializm ideyaları əks ideyalardır. Karl Marksın özü, Berdyayevin dahiyanə olaraq sezdiyi kimi, heç vaxt demokrat olmamışdır, onun bütün pafosu mahiyyət etibarı ilə antidemokratik xarakterlidir. O, icmaçıdır, kommunistdir, qətiyyən demokrat deyildir. Kommunizm Avropa xalqlarının fikrinə və həyatına heç də demokratik təlim kimi daxil olmamışdır. Fransız inqilabına icma mədəniyyətinin reaksiyasını ifadə edən Baböf də, Furye də, Sen-Simon da antidemokratdırlar.

Sosializmin demokratikləşməsi sosializmin məhvini şərtləndirir. SSRİ-nin Xruşşov dövründə zəifləməsi və Qorbaçov dövründə məhv olması bunu bir daha təsdiq edir.

Digər tərəfdən, sosializm və demokratiya eyni əsasa da malikdirlər. Bu əsaslar determinizm prinsipindən irəli gəlir. Determinist ruhlu tezisi - "*hər kəsdən qabiliyyətinə görə, hər kəsə əməyinə görə*" tezisini biz sosializmin prinsipi kimi öyrənmişik. Bu, görünür doğrudan da belədir. Lakin, bu tezis ədalətin plebey izahının, – "*hər kəs əməyinin ölçüsünə uyğun şəkildə mükafatlandırılmalı, qəbahətinin ölçüsünə uyğun şəkildə cəzalandırılmalıdır*" izahının yalnız xüsusi ifadə formalarından biridir. Əslində burjua mənşəli olan və determinizm prinsipindən çıxış edən həmin izah sosializmin kapitalizmlə eyni qəbildən olmasını təsdiq edir. "*Hər kəsdən qabiliyyətinə görə, hər kəsə əməyinə görə*" tezisi əməyin mükafatlanma xatirinə edildiyini nəzərdə tutur və buna görə də insan təbiətinin özgələşdirilməsini və eyni zamanda kölələşdirilməsini qanuniləşdirir.

*"Hər kəsdən qabiliyyətinə görə, hər kəsə tələbatına görə"* tezisi isə heç də kommunist əməyi ideyasını deyil, daha çox burjua əməyi ideyasını ifadə edir. Determinizmə əsaslanan, mükafatlanma xatirinə yerinə yetirilən və mükafatlanmanı nəzərdə tutan əmək kommunist əməyi deyildir. Kommunist əməyinin əsasında mükafatlanma stimulu deyil, icma qarşısında borc hissi durur. Kommunist əməyi icmaya sədaqətliliyi, bir qədər əvvəl söylənilən daha kəskin ifadə ilə deyilərsə, icma qarşısında köləliyi nəzərdə tutur. Həqiqi kommunist əməyi determinizmi tanımır, determinizm sosializm və kapitalizm üçün səciyyəvidir.

Stalin bütün xalqı əslində nəhəng təbəə, daha doğrusu, icraçı kütləsinə çevirməklə, özünün göstəriş və qərarlarına yalnız icra reaksiyası ilə cavab verən total dövlət sistemini yaratmışdı. Təşəbbüskarlıq icraçılıqdan, aktiv determinizm passiv determinizmdən qəti olaraq ayrılmışdı. Bu dövrdə əgər passiv determinizmin daşıyıcısı olan, yəni dövlətə sədaqətlə xidmət edən insan ideallaşdırılmışdısa, aktiv determinizmin daşıyıcısı olan insan, yəni Stalinin özü ilahiləşdirilmişdi.

İcma qarşısında borc hissini nəzərdə tutan kommunist doktrina insanın təbii təyinatı ideyası ilə tamamlandıqda aristokratik doktrinaya doğru təkamül etmiş olur. Kommunizm ideyası sosializm ideyasından daha çox, aristokratizm ideyasına yaxındır.

Xilaskar ruhlu Marksın, nəcib ruhlu Nərimanovun, zadəgan ruhlu Səməd Vurğunun kommunizm ideyası qarşısındakı heyranlığı da görünür elə bununla bağlı idi.

Kommunizm idealları yalnız aristokratik instinktlə tamamlandıqda qüdrətli olur. Əks halda isə bu ideallar despotizmlə çuğlaşaraq sosializmi, və ya praqmatizmlə çuğlaşaraq kapitalizmi törədir.

## *TİRANİK SİYASİ DOKTRİNA*

Yunanların bütün dünyada məşhur olan *yeddi müdrik*indən biri, ***Periandr*** tiran idi. Qədim yunanlar haqsızlığa, ədalətsizliyə, insanların alçaldılmasına, sıxıntılara və əzaba məruz qoyulmasına dözmə-

yən, cəmiyyəti ədalətsizləşdirən hakimiyyəti məhv edən və cəmiyyəti ədalətliləşdirmə məsuliyyətini öz üzərinə götürən cəngavər qətiyyətli insanları bircə kəlmədə təsvir etmək üçün tiran sözünü yaratmışdılar.

Lakin, *tiran* sözünün bu ilkin məna çaları çoxdan unudulmuşdur. Siyasi elmin nəinki müasir nəzəriyyəçiləri, hətta antik nəzəriyyəçiləri də *tiran* sözünə bir qayda olaraq mənfi məna vermişlər. Əgər bu mənfi mənanın ən öldürücü təqdimatını Didro vermişdisə, onun ən klassik təqdimatını Aristotel vermişdi. Aristotel belə hesab edirdi ki, əgər hakimiyyət bir adamın əlindədirsə və həmin bu bir adam dövləti bütün cəmiyyətin *mənafe*yindən çıxış edərək idarə edirsə, o monarxdır, yox əgər hakimiyyət bir adamın əlindədirsə və həmin bu bir adam dövləti öz *mənafe*yindən çıxış edərək idarə edirsə, o tirandır.

Əlbəttə ki, hər bir kəs başqa birisinə qiymət verərkən bu qiyməti öz instinktlərindən və öz dünyaanlama üslubundan asılı olaraq verir. Aristotel təbəə mənşəli idi və elə bu səbəbdən də öz davranışında əlbəttə ki *mənafe*dən çıxış edirdi və başqalarını da *mənafe meyarı* baxımından dəyərləndirirdi. Lakin, *tiran* bir cəngavər olaraq əməllərini *mənafe*dən çıxış edərək deyil, *ürəyin səsi*ndən çıxış edərək qurur.

Hakimiyyəti ələ alaraq tiranlaşan cəngavərin bütün faciəsi də ondadır ki, o hakimiyyətə gəlməklə özünü təbəə əhatəsinə salır və ürəyin haqq səsinə kar olan təbəə kütləsinin içində tənha qalır. Burada ürəyin həqiqət səsini eşidən yalnız onun özü olur. Ürəyin çağırışını aydın olaraq yalnız onun özü eşidir və bu çağırışın haqq olduğuna yalnız onun özü inanır. Təbəə ruhlu insanlarla əhatə olunan *tiran* özünü ona görə yad bir mühitdə hiss edir ki, həmin insanlar ondan *rasional olaraq aydın* göstərişlər gözlədikləri halda onun ürəyində daşınan ideallar onun özü üçün *rasional olmadan aydın*dır. Ürəyin haqq səsində o *Talenin hökmü*nü, *Səmavi İradə*ni görür. Lakin, *tiran*ı əhatə edən təbəə kütləsi üçün isə *Tale* – keçmişin qalığı, mövhumat, xurafat, *Səmavi İradə* isə – əfsanədir, uydurmadır, mifdir.

*Səmavi İradə* doğrudan da miflə bağlıdır. Lakin, mif bir əfsanə və uydurmadırmı?

Miflər Qədim Yunanıstana Şimaldan Balkan yarımadasına axan köçəri tayfalar tərəfindən gətirilmişdi. Bu köçəri tayfaların yerli əhali üzərində hamilik münasibətlərinin qərarlaşması nəticəsində Makedoniya, Fessaliya, Epir, Beotiya, Attika, Arqolida, Axayya, Arkadiya, Elida, Messeniya, Lakoniya kimi dövlətlər formalaşır. Dürantın düzgün olaraq qeyd etdiyi kimi, bu dövlətləri dağlar və dənizlər kimi təbii sərhədlər bir-birindən ayırdığından, onlar arasındakı ünsiyyət olduqca çətin və təhlükəli idi, onların hər birində özünün spesifik siyasi strukturları, öz dialekti, öz dini və öz mədəniyyəti vardı.[1] Lakin, bu ərazilərin hamısında cəngavər həyat tərzi və onun istinad etdiyi vahid mifik dünyagörüş yüzilliklər ərzində aparıcı mövqeyə malik olmuşdu.

Yunan təfəkkürünün ilkin tarixi forması olan miflərdə dünya bir canlı kimi təsvir edilmiş, təbii yaranma və təbii məhvolma doğuluş və ölüm xarakterini almış, Yer canlı Kainatın anası, Səma isə atası kimi qavranılmışdır. Dünyanı hərəkətə gətirən həyat axını öz təcəssümünü *Tale*də tapmaqla cəngavər mədəniyyətinin mütləq dayağını və istinadgahını təşkil etmişdir. Mif Qədim Yunanıstana *Tale kultu*nun tarixi ifadə formalarından biri və birincisi kimi gəlmişdi.

*Tale ideyası* cəngavər instinktlərinin universal izahı olaraq meydana gəlir. Həqiqətin gerçəkləşdiricisi olaraq insanın oynamalı olduğu rol qabaqcadan müəyyənləşdiyindən, burada şərin və bədbəxtliyin xüsusi izahlarına ehtiyac qalmır.

Qədim yunan dövlətlərini yaradaraq zadəganlaşan və sonradan bu dövlətlərə tiraniya formasını verərək tiranlaşan insanlar köçəri mənşəli cəngavər tayfalarından idilər və özlərini də, dünyanı da mifik dünyagörüş zəminində dərk edirdilər.

Oxşar hadisə Qədim Çində də müşahidə olunur.

---

[1] Durant W. The Story of Philosophy. The Lives and Opinions of the Greater Philosophers. N.Y., 1933, p.7.

Qədim Çində qəhrəmanlıq mifologiyasının ilkin fəlsəfi rasionallaşdırılmasına nail olan filosof *Konfusi* idi.

Konfusi qəhrəmanlığı və cəsarəti zadəganın, qorxaqlığı və ehtiyatlılığı isə kütlənin səciyyəvi cəhəti hesab edir. Konfusi bununla da, Lao-tszının və bütün daosizmin inkar etdiyi mübarizlik əzmini də, cəngavərlik qətiyyətliliyini də, və onlarla birgə doğulan və həmişə yanaşı yaşayan *Tale kultu*nu da öz hüquqlarına bərpa edir.

Konfusi ideyalarının əks olunduğu *Lun Yuy («Söhbətlər və çıxışlar»)* adlı kitab Qədim Çində cəngavər dünyaduyumunu artıq mifik olaraq deyil, fəlsəfi olaraq təsvir və ifadə edən, mifin özünü rasionallaşdıraraq fəlsəfiləşdirən ilk mədəniyyət abidəsi idi. Konfusinin öz şagirdləri ilə etdiyi söhbətlərin və onun tərəfindən söylənilmiş mülahizələrin toplandığı bu kitab özündən əvvəl yaranan və əslində mifik təbiətli olan mədəniyyət abidələrinin[1] ruhuna əslində müxalif deyildi. Konfusinin özü qədim çin mifologiyasına bütün varlığı ilə bağlı idi, o, mifoloji kitabları yenidən nəzərdən keçirərək redaktə etmişdi. *Lun Yuy*da tez-tez bu mifik kitablara[2] iqtibas edilir. Konfusinin və konfusiçiliyin fəlsəfi olaraq mənalandırdığı hər bir anlayış öz ilkin ifadəsini bu və ya digər şəkildə həmin mifik təbiətli mədəniyyət abidələrində tapmışdı. Konfusiçilikdə fəlsəfi kateqoriya statusunu kəsb etmiş anlayışlar öz mənşəyi etibarı ilə mifoloji obrazlardan törəmişlər.

Konfusiçilik üçün və Konfusidənsonrakı Çin fəlsəfəsi üçün son dərəcə səciyyəvi və mühüm olan mifoloji obrazlar konfusidənsonrakı və hətta konfusiyəqədərki Çin gerçəkliyi üçün də son dərəcə səciyyəvi və mühüm olmuşdur. Çin fəlsəfəsi həmin obrazları özünün demək olar ki, bütün tarixi boyunca bu və ya digər şəkildə mənalandırmış və Çin praktik təfəkkürü də artıq öncə qeyd olunduğu kimi

---

[1] İ szin («Dəyişikliklər kitabı»), Şi szin («Nəğmələr kitabı»), Şu szin («Tarix kitabı»), Li szi («Adətlər haqqında qeydlər»), Çun-tsyu («Bahar və payız»).

[2] Xüsusən, Şi szinə və Şu szinə.

Çin gerçəkliyinin qarşılaşdığı problemləri həmin mənalandırma əsasında bu və ya digər şəkildə həll etmişdir.

Qədim Çinin bütün mifi üçün, Qədim Çin fəlsəfəsinin bütün zadəgan-cəngavər istiqaməti üçün, Qədim Çinin bütün siyasi tarixi üçün səciyyəvi olan mifik obrazlara ilk növbədə aşağıdakılar aid edilə bilər: ***Li*** və ***Tsi, Yan*** və ***İn, Tyan*** və ***Di, Şan*** və ***Sya.*** Qədim Çində qərarlaşmış cəngavər mədəniyyəti bu cüt anlayışlardan birinciləri ilə özünü dərk edir, ikinciləri ilə isə öz əksliyini mənalandırırdı. ***Li*** – *Dünya Nizamı*dır, Dünya ilə *Səmavi İradə* (*Tyan Sin*) arasında müvazinətdir. Cəngavər özündə *Səmavi İradə*nin təcəssümünü görərək özünü dünyanın mütləq və ilahi mahiyyətinin daşıyıcısı kimi, Dünyanı onun həqiqi mahiyyətinə, mənasına qaytararaq nizama salmalı olan bir qüvvə kimi qavrayır. Cəngavər *Səmavi İradə*nin təcəssümçüsü olmaqla Dünyanı onun ruhuna qaytararaq canlandırmalı və gözəlləşdirməlidir. ***Tsi*** – xaos, qarışıqlıq deməkdir. Cəngavər xaos girdabında boğulan Dünya ilə üz-üzədir, Dünyanı, ilk növbədə isə sosial dünyanı, cəmiyyəti nizama salmalıdır. Dövlətyaratma missiyası onun üzərinə düşür. İdeal dövlət – *Li*nin, *Dünya Nizamı*nın sosial mücəssəməsidir. Əgər **ideal dövlət** *Dünya Nizamı*nın, əgər belə demək mümkündürsə, nisbətən geniş miqyasda təcəssüm olunmasıdırsa, **ideal ailə** *Li*nin ən kiçik sosial məkan çərçivəsində qərarlaşmasıdır. *Li*nin bütün dünya miqyasında qərarlaşması isə *Tay Tszi*dir. *Tay Tszi* dilimizə tərcümədə *böyük hədd* deməkdir. *Tay Tszi* hərfi tərcümə baxımından deyil, həqiqi mahiyyəti baxımından qədim yunan təfəkkürünün *Kosmos* anlayışına bənzəyir. *Tay Tszi* də *Kosmos* kimi dünyanın nizama düşərək gözəlləşdiyi çağdır. ***Yan*** – qədim Çin dilində *kişi*, ***İn*** isə *qadın* mənalarını verir. Cəngavər özünü dünyanın maskulin başlanğıcının Yer üzərində mücəssəməsi kimi, kişiliyin timsalı və təcəssümü kimi qavrayır. Cəngavər femininliyin mücəssəməsi olan, ədalətsizliyə və zülmə məruz qalan dünyanı, və əlbəttə ki, ilk növbədə sosial dünyanı xilas etməlidir. *Yan* – dünyanın maskulin başlanğıcının ifadəsi olmaqla cəsarətliliyin, aktivliyin və sərtliyin təcəssümüdür. Çin təfəkkür ənənələri *Yan*da, dünyanın maskulin başlanğıcında eyni zamanda *nur*un, *səma*nın və nəhayət

*yüksəkliklər*in də ifadəsini görür. *Yan* qədim çin dilində elə buna görə də eyni zamanda həm *kişi,* həm də *aktiv, sərt, işıq, səma* və *yüksəkliklər* mənalarını verir. *İn* isə əksinə olaraq dünyanın feminin başlanğıcının timsalı kimi *zərifliyi, yumşaqlığı* və *passivliyi* ifadə edir. *İn*də, dünyanın feminin başlanğıcında həm də *Yer*in, *aşağılar*ın və *qaranlığ*ın da ifadəsini görməklə Çin təfəkkür ənənələri özünün *Yan-İn* doktrinasını məntiqi sonluğa çatdırır. *Yan* sözünün məcazi məna çalarları ***Tyan*** və ***Şan*** sözlərinin birbaşa mənalarında, *İn*in məcazi məna çalarları isə ***Di*** və ***Sya***nın birbaşa mənalarına uyğun gəlir. ***Tyan*** qədim çin dilində *Səma,* ***Di*** – isə *Yer,* ***Şan*** – *yuxarılar,* ***Sya*** – isə *aşağılar* deməkdir.

*Li, Yan, Tyan* və *Şan* obrazları *yuxarılar*dan, yəni *dağlar*dan enən, *Səma*nın timsalı olan, *aşağılar*ı, yəni düzənlik əhalisini zülmdən, əsarətdən, aclıqdan xilas edən, *aşağılar*da nizam yaradan, firavanlığı və əmin-amanlığı bərpa edən köçəri cəngavər tayfalarını, *Tsi, İn, Di* və *Sya* obrazları isə *aşağılar*ı, *Yer*in timsalı olan, *Səma*nın himayəsinə möhtac olan, zülmə və ədalətsizliyə müqavimət göstərmək qüdrətinə malik olmayan, buna görə də zülmə, ədalətsizliyə və əsarətə məruz qalan, xilaskara və himayəçiyə ehtiyac duyan oturaq, əkinçi kənd icmalarını ifadə edir. Çin dövlətləri bu iki başlanğıcın sintezi nəticəsində formalaşmışlar.

Düzənlik əhalisinin dağlar qarşısındakı yumşaq deyilərsə heyranlığını bizə artıq yaxşı məlum olan Lao-tszı belə təsvir edir: Mən ömrüm boyu elə nəhayətsiz bir düzənlikdə yaşamışam ki, kəndlinin ayaqlarına yapışan palçıqdan başqa nəmişliyi xatırladan heç nə olmayıb. Əvəzində hər tərəfindən şırıltı eşidilən, dirilik nəfəsi üzümə dəyən bu dağa səcdə qılmaq mənim üçün nə qədər xoşdur.

İndiki Çin ərazisində əsrlər boyu meydana gələn dövlətlər özlərini tarixi olaraq müxtəlif cür adlandırsalar da, bütün tarixi Çin dövlətlərinin ifadə olunması üçün ümumi bir ad da vardır. Bu ad *Tyan Sya*dır və bizim dilə tərcümə olunduqda *Səmaaltı* mənasını verir. Bu, Çin xalqının özünü *Səma*nın himayəsi altında olan bir toplum kimi hiss və dərk etməsi ilə bağlıdır. *Səma*nı öz himayəçisi kimi qəbul edən xalq özünü ilkin olaraq *altda olan,* yaxud *aşağılar* və ya

Çin dilində olduğu kimi *sya* kimi dərk edirdi. Çin xalqının ilkin adı elə *sya* idi. *Sıma Tsyan* adlı məşhur bir Çin tarixçisi *sya*nı ilk dövlətin və ilk hökmdar sülaləsinin adı kimi təqdim etsə də, əslində *sya* dövlətin və sülalənin deyil, xalqın və ölkənin ilk adı idi. Çin xalqının və ölkəsinin ikinci tarixi adı və özünüdərkinin ikinci tarixi forması isə *İn* idi. Bu xalqın əsasını Xuanxe çayı hövzəsində məskunlaşmış oturaq kənd icmaları təşkil edirdi. Lakin, mif torpağa bağlı olan və özünü *Yer*in timsalı kimi qavrayan bu kənd icmalarının dünyagörüşünü ifadə etmirdi, özünü *Səma*nın timsalı kimi qavrayan, Xuanxe çayının hövzəsinə *yuxarılar*dan, *dağlar*dan enən, bu hövzənin oturaq sakinlərini bəzən qarət edən, sıxıntılara məruz qoyan və bəzən də xilas edən, himayə edən, sonradan *hun* adlandırılan köçəri tayfaların dünyagörüşü idi. Bu tayfalar özlərinin kənd icmaları ilə birgə həyatını *li* kimi qavrayırdılar. Hər bir *li* özlüyündə *Dünya Nizamı*nın *Yer*də təcəssümü olan kiçik bir dövlət idi.

Hər bir *li*nin yaradılmasında iki mədəniyyət tipi, iki həyat tərzi, iki düşüncə üslubu iştirak etdiyindən, bu *li*lərin adlandırılması da ikili xarakter daşıyırdı, onların adlandırılmasına iki yanaşma üsulu vardı, bəzən Çin məmləkətləri iki adla adlandırılırdı. İlk böyük Çin məmləkətinin iki adla, *Şan* və *İn* adları ilə *Şan*-*İn* adlandırılması etnik özünüdərkin ikili xarakterindən xəbər verirdi. *Şan* bu məmləkətin cəngavər mədəniyyəti nöqteyi-nəzərindən, *İn* isə əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyəti nöqteyi-nəzərindən səciyyələndirilməsi idi. Daha dəqəq deyilərsə, *Şan* dövlətin, *İn* isə xalqın, ölkənin, vətənin və torpağın adı idi. *İn* torpağında, *İn* xalqı üzərində himayəçi olan sülalənin ilk nümayəndəsi *Şandi* idi. Hətta *Şandi* sözünün özünün də iki tərkib hissəsi vardır: *Şan – yüksəklik, Di* isə *Yer. Şandi Səma*nın *Yer* üzərində, dağların vadi üzərində və ən nəhayət, cəngavərin əkinçi üzərində himayəsinin təcəssümü idi. *İn* xalqının *Səma*ya inamı, *Səma* kultu *Şandi*yə və onun nəslinə olan etibar və inam idi. *Şandi* və onun nəsli *Səmavi İradə*nin *Yer* üzərindəki təcəssümü kimi, *Səma*nın *Yer*də canişini kimi, və ən nəhayət *Səma*nın oğlu kimi qavranılırdı. *Şandi* və onun nəsli *Səma*nın timsalı olaraq *Yer* üzərində haqqı və ədaləti gerçəkləşdirməli idi.

*Şandi* nəsli haqqı və ədaləti qoruyub saxlamaq qüdrətini itirdikcə hakimiyyətini də itirdi. Eyni taleni sonradan *Çjou* tayfası da yaşadı.

Konfusiçilik o dövrdə meydana gəldi ki, artıq *Çjou* özünün himayəçilik qüdrətini artıq çoxdan itirmişdi. Konfusi yaşadığı qeyri-müəyyən, ağır dövrün problemlərini həll etmək üçün miflərdə daşınan və qədimlərdə uğurda gerçəkləşdirilən cəngavər ruhunun intibahını, dirçəldilməsini lazım bilir.[1] Konfusi *qədimlər*i özünün redaktə etdiyi beşlikdə vəsf etdi və ehkamlaşdırdı. Konfusinin şagirdi və müasiri olan *Tszo Tsyu* həmin beşliyə daha iki əsəri[2] əlavə etdi.

Konfusi və konfusiçilər miflərə sarınmış keçmişi bir daha canlandıraraq və tarixi bir daha fəlsəfi olaraq mənalandıraraq təsdiq etdilər ki, cəngavərlik olmadan tarix də mümkün deyildir, keçmiş yalnız cəngavərlik ruhunu özünə hopdurduqda tarix olur.

Lakin, cəngavər yalnız o zaman tarixin həqiqi qurucusu olur ki, sadəcə olaraq tiran deyil, zadəgan olur, ürəyinin haqq səsini aydın eşidə bildiyi kimi, aydın da ifadə edə bilir, və bununla da içərisində duyduğu *Səmavi İradə*ni təhrif etmədən ifadə edir və təhrif etmədən gerçəkləşdirir, bununla da *Dünya Nizamı*nı bərqərar edir.

Tiran cəngavər olaraq yalnız ürəyinin səsini eşidir. Onun hakimiyyətinə məhdudiyyəti də yalnız onun ürəyi qoyur. Tiran ürəyin haqq səsinə bağlılığını saxladıqca cəngavər olaraq qalır. Ürəyin haqq səsinə bağlılığını itirən tiranın qeyri-məhdud hakimiyyəti isə onu *despot*a çevirir.

---

[1] Ümumiyyətlə, qeyd oluna bilər ki, Çin siyasətçisi öz müasir problemlərinin həllini ilk növbədə öz tarixində axtarır. Tarixə inam, keçmişə rəğbət, qədimlər qarşısında ehtiram (*qu*) ümumiyyətlə Çin siyasi təfəkkürü üçün səciyyəvidir. Konfusi və konfusiçilik isə konkret olaraq mübarizə aparan məmləkənlər dövründən əvvəlki tarixi, cəngavər-zadəgan ruhunun hökmran olduğu tarixi, bütün *Səmaaltı*nın *Səmavi İradə* əsasında, yəni mütləq ədalət zəminində qurulduğu dövrü, cəmiyyətin ədalətin mücəssəməsi olduğu eranı ideallaşdırdı.

[2] *Tszo çjuan* və *Qo yuy*.

Qeyri-məhdud hakimiyyət sahibi olmaq əlaməti əsasında tiranı despotla eyniləşdirmək meyili məncə qeyri-dəqiqdir. Tiranın fəaliyyəti və hakimiyyəti ürəyin diktəsindən çıxış etdiyi halda, despotun fəaliyyəti və hakimiyyəti *mənafe* prinsipinə söykənir. Tiranın fəaliyyəti və hakimiyyəti irrasional, despotun fəaliyyəti və hakimiyyəti isə rasionaldır. Tiran himayəçidir, despot isə ağa və sahibkardır.

Tiranizm cəngavərin siyasi instinktlərini ifadə etdiyi halda, despotizm təbəə kütləsinin siyasi instinktlərini ifadə edir. Despotizm deterministik materializmin ilkin siyasi ifadəçisidir. Qədim Çində biz despotizmin klassik nəzəriyyəsi ilə də rastlaşırıq. Bu nəzəriyyəni yaxından anlamaq üçün bəzi müqayisələri aparaq.

İlk yunan filosofu Fales yunan qəhrəmanlıq mifologiyasının ruhuna müxalif idi, düşmən idi. İlk Çin filosofu olan Lao-tszı da uyğun olaraq Çin mifologiyasının mahiyyətinə yad idi. Lakin, cəngavərlik mifologiyasına qarşı deterministik materializmi qoyan Falesdən fərqli olaraq Lao-tszı qəhrəmanlıq mifologiyasına qarşı dini transsendentalizmi qoymuşdu. Qədim Çində Lao-tszının dini transsendentalizmin banisi kimi oynadığı rolu Qədim Yunanıstanda Ksenofan oynayırdı. Falesin Qədim Yunanıstanda deterministik materializmin ilk nəzəriyyəçisi sifəti ilə yerinə yetirdiyi funksiyaya bənzər funksiya isə Qədim Çində ***Mo-tszı*** tərəfindən yerinə yetirildi. Mo-tszı despotik siyasi doktrinanın fəlsəfi əsasını vermişdi. Bəs, bu necə baş vermişdi?

Mo-tszı cəngavərliyi və zadəgan mədəniyyətini ifadə edən konfusiçiliyin ideya düşməni idi. Konfusidə *Tale*nin təcəssümü olan, cəngavərliyin dünyagörüş zəmini olan, cəngavərə güc verən, təpər verən, dünyanı nizamasalma fəaliyyətində zadəgana arxa olan, ədalətlilik kimi ilahi bir hissi ona bəxş edən *Səmavi İradə* Mo-tszıda determinizmin ontoloji dayağına çevrilir. Konfusi *Səmavi İradə*ni insanın daxilində görürdü, insan ürəyinin səsində eşidirdi, insana ürəyin qəhrəmanlıq çağırışına etibarı təlqin edirdi, ürəyin ədalət hissinə ehtiramı tərbiyə edirdi. Mo-tszı isə *Səmavi İradə*nin fövqəlbəşəriliyini bəyan edərək, onu insanın fövqündə axtarır, insanı dünyanın mütləq mahiyyətindən ayıraraq dəyərsizləşdirir. *Səmavi İradə*

Konfusidə insana qüdrət verən başlanğıc kimi, Mo-tszıda isə insana mükafat və cəza verən başlanğıc kimi qiymətləndirilir.

Mo-tszı *Səmavi İradə*nin deterministik təsvirini verməklə, əslində konfusiçilik tərəfindən arxa plana sıxışdırılmış icma mənşəli *Di kultu*nu bərpa edir və yenidən həyata qaytarır. *Di* artıq məlum olduğu kimi qədim Çin dilində *Yer* mənasını verir və cəngavər mədəniyyəti nöqteyi-nəzərindən *Yerin ruhu* kimi, Yerə canlılıq verən başlanğıc kimi qavranılır. Cəngavər mədəniyyəti baxımından Yerin immanent mahiyyəti kimi anlaşılan *Di,* əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyəti baxımından nəzərdən keçirildikdə isə transsendent xarakter alır, Yerdən kənar və Yerin fövqündə duran Tanrı mənasını kəsb edir. Cəngavər əmindir ki, *Səmavi İradə* kimi dərk etdiyi mahiyyətdən qüdrət alır, güc alır, təpər alır, rəiyyət və təbəə isə əmindirlər ki, Yerin hökmdarı kimi dərk etdikləri Tanrının himayəsinə sığınırlar. Zadəgan dünyanı ədalətliləşdirmək və gözəlləşdirmək üçün onu *Səmavi İradə*yə uyğun şəkildə qurur, dünyanı *Səmavi İradə*nin mücəssəməsinə çevirir, rəiyyət və ya təbəə isə *Tanrıdan faydalanmaq üçün,* onu mərhəmətə gətirməkdən ötrü ona səcdə edir, əgər belə demək mümkündürsə qılığına girir. Əgər Tanrı konfusiçilik üçün *Səmavi İradə* olmaqla dünyaya və insana ruh verən, qüdrət verən, dünyanı və insan həyatını həqiqiləşdirən bir başlanğıcdırsa, əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyəti nöqteyi-nəzərindən *Di* transsendent Tanrı olmaqla dünya və insan üzərində hökmranlıq edən bir başlanğıcdır.

Dünyanın mahiyyətində immanent *Səmavi İradə*ni görən dünyagörüş aristokratik siyasi doktrinanın, dünyanın mahiyyətində əksinə olaraq transsendent Tanrını, *Di*ni görən dünyagörüş isə despotik siyasi doktrinanın ontoloji əsasını verirdi. Zadəgan *Səmavi İradə*nin təcəssümüdür, dünyanı eybəcərliklərdən xilas etməyə, gözəlləşdirməyə, ədalətliləşdirməyə can atır. Despot isə transsendent Tanrının, *Di*nin mücəssəməsidir. O, bir tərəfdən, insanı cəza ilə hədələyərək qorxu altında saxlayırsa, digər tərəfdən, onu mükafatla şirnikləndirərək özünə baş əyməyə, kölələşməyə təhrik edir.

Qədim yunan filosofu Platon dahiyanə olaraq söyləmişdi ki, despotun özü də kölədir. İlk baxışda mücərrəd görünən bu tezisin son dərəcə aydın şərhi ilə qədim çinlilərin *Di* və *van*[1] arasındakı münasibətlərə verdikləri dini izahda rastlaşırıq: Təbəəyə münasibətində hökmdar olan *van Di*yə münasibətdə kölədir. O, *Di*nin müxtəlif tapşırıqlarını yerinə yetirir və bunun *əvəzində* də *Di*dən mükafat alır. *Van* özünü nəticə etibarı ilə kölə sifətində görür, o, sağ ikən *Di*yə vasitəli olaraq kölədir, öldükdən sonra isə *Di*nin bilavasitə köləsinə çevrilir. Belə ki, *Di*nin yaxın ətrafının funksiyalarını *van*ın artıq ölmüş əcdadları yerinə yetirirlər. *Di*nin yanında kölə olan bu əcdadlar öz sələflərinə – fəaliyyətdə olan *van*a münasibətdə despotdurlar. Din son dərəcə valehedici bir şəkildə despotizmin və köləliyin iyerarxiyasını təsvir edir və izah edir: *Van* öz əcdadlarını mərhəmətə gətirməkdən ötrü onlara da qurban verir, onların da *işinə yarayır*, qılığına girir, çünki əcdadlar bilavasitə olaraq *Di*nin qılığına girmək və *Di*ni mərhəmətə gətirmək imkanına malikdirlər.

Mo-tszının *Səma*ya olan inamı əslində transsendent Tanrıya olan inam idi. Mo-tszının *Səma*sı *Səmavi İradə* deyildir, əslində yeni adla adlandırılmış *Di*dir. Konfusi *Səmavi İradə*yə, Həqiqətə yaxın olan insanı – *zadəgan*ı *Səmavi İradə*dən, Həqiqətdən uzaq olan insana - rəiyyətə və ya təbəəyə qarşı qoyur. Mo-tszıda isə bütün insanlar eynidirlər, eyni hüquqludurlar və bərabərdirlər.

Mo-tszının fəlsəfi təlimi, moizm *Tale ideyası*nı inkar etməsi ilə və insan bərabərliyi prinsipini bir daha bəyan etməsi ilə *daosizm*ə bənzəyir. Bu görünür ondan irəli gəlir ki, *moizm*in ifadə etdiyi şəhər mədəniyyəti nəticə etibarı ilə *daosizm*in ifadə etdiyi kənd mədəniyyətindən – icma mədəniyyətindən törəmişdir, zadəgan mədəniyyətinin – icma mədəniyyətindən törəməsinə oxşar olaraq.

Əgər konfusiçilik şəxsində ədalətliliyin mücəssəməsini gördüyü zadəganı dəyərləndirirsə, moizm şəxsində praqmatizmin dayağını gördüyü hökmdarı dəyərləndirir. Mo-tszı Konfusini hökmdarın hüquqlarını məhdudlaşdırmaq meylinə görə tənqid edərək onun haq-

---

[1]Çin dilində, hökmdar, daha doğrusu, şah.

qında yazırdı: *Konfusi özünün bütün ağlını və biliklərini şərin yayılmasına, aşağıların yuxarılara qarşı üsyan qaldırmasına sərf etdi, zadəganları öyrətdi ki, hökmdarı necə öldürsünlər.* Konfusinin ölümündən sonra səslənən bu ittihamlara Konfusi əlbəttə ki, daha cavab verə bilməzdi. Bu ittihamlara cavab vermək Men-tszının qisməti oldu. Men-tszı zadəganın Konfusidən sonra daha bir möhtəşəm siyasi fəlsəfəsini yaratdı.

Mo-tszı ilə Men-tszı arasında isə ***Yan Çju*** və ***legizm*** dayanır. Yan Çju da, legizmin nümayəndələri də Mo-tszıya oxşar olaraq konfusiçiliyə və onun ifadə etdiyi zadəgan dünyaduyumuna düşmən idilər. Əgər legizm hökmdarın, despotun, vanın zadəgana qarşı düşməni münasibətini ifadə edirdisə, Yan Çju, Yeni dövr siyasi terminologiyasının dili ilə deyilərsə, burjuanın, yəni dövlətin nəzarətindən çıxmış və dövləti öz nəzarəti altına salmağa çalışan şəhərli kütləsinin aristokratizmə qarşı nifrətini ifadə edirdi. Yan Çju aristokratizmin ədalət idealına qarşı şəhərli hedonizmini qoyurdu. Yan Çju demokratik siyasi doktrinanın, legizm isə despotik siyasi doktrinanın əsaslarını yaradırdı. Bunların hər ikisi şəhərli praqmatizminin aristokratik ruha qarşı üsyanı idi.

Legizm Mo-tszının siyasi nəzəriyyəsini müəyyən mənada onun məntiqi sonuna çatdırdı. Moizm hökmdar hakimiyyətinin möhkəmləndirilməsini bir zərurət kimi əsaslandırdı, legizm isə hökmdar hakimiyyətinin möhkəmləndirilməsi üçün konkret bir vasitəni irəli sürdü. Despotizmin möhkəmləndirilməsi məqsədi ilə legizm tərəfindən irəli sürülmüş bu vasitə ilk baxışda nə qədər qəribə görünsə də *qanun ideyası* idi. Legizm güman edirdi ki, dövləti idarə etmək üçün heç də konfusiçilikdə olduğu kimi *ədalətli zadəgan* deyil, *mükəmməl qanunlar* lazımdır. Mükəmməl qanunlar olduqda hər bir insan dövləti idarə edə bilir.[1] *Qanun* anlayışı altında isə legizm ilk növbədə

---

[1]Legizmin bu müddəası Xruşşovun bir «məşhur», dillərdə əzbər olmuş ifadəsini xatırladır. Stalinin amansız iradəsi ilə möhkəmlənən Sovet dövləti haqqında Xruşşov demişdi: *У нас такое государство, что им каждый дурак может править*.

mükafat və cəza sistemini nəzərdə tutur. Legizm deterministik şəhərli instinktini ən ibtidai şəkildə siyasiləşdirərək hər bir insanın, əgər o, *hökmdar* statusunda deyildirsə, mütləq *təbəə* statusunda olmalı olduğunu vurğulayır və belə bir tövsiyə irəli sürür ki, hər bir təbəə hökmdarın iradəsini icra etdiyi istənilən halda istisnasız olaraq mükafatlandırılmalı, hökmdarın iradəsinin əksinə yönələn hər bir əməlinə görə isə istisnasız olaraq cəzalandırılmalıdır. Legizmin tərəfdarları əmindirlər ki, *mükafatlanma*nı həmişə *xidmət*lərin, *cəzalandırma*nı isə *özbaşınalığ*ın ölçüsündə aparma hökmdar hakimiyyətini birmənalı olaraq möhkəmləndirəcəkdir.

Legizm əslində bu ölçünün gözlənilməsini ədalət kimi qiymətləndirərək ədalət anlayışının özünü rəiyyət ruhuna uyğunlaşdıraraq eybəcərləşdirir. Cinayət və cəza, xidmət və mükafat arasındakı münasibətlərin legizm tərəfindən birmənalılaşdırılması heç də əməllərin ədalətliləşdirilməsi məqsədilə deyil, xalqın hökmdar iradəsinə tabe etdirilməsi məqsədilə aparılır. Legizm hökmdara *"Öz xalqını fəth et!"* məsləhətini verir.

Ənənə legizmin banisi kimi b.e.ə. VII əsrdə yaşamış və *Tsi çarlığı*nda mərkəzi hakimiyyətin möhkəmləndirilməsinə yönəlmiş bir sıra islahatların həyata keçirilməsinə nail olmuş dövlət xadimi ***Quan Çjun***u qeyd edir. Legizmin nəzəriyyəçiləri Quan Çjunu özlərinin müəllimi hesab edərək onu ***Quan-tszı*** adlandırmışlar. Legizm ideyalarının ifadə olunduğu ən nüfuzlu traktatlardan biri Quan Çjunun şərəfinə Quan-tszı adlandırılır. Lakin Quan-tszı traktatının qələmə alınması Quan Çjunun həyatından çox sonralar baş vermişdi.

Legizmin siyasi doktrinası özünün ən ilkin və ən parlaq ifadəsini isə *Şan vilayəti hökmdarının kitabı* adlı traktatda, hərbi doktrinası isə *Sun-tszı* traktatında tapmışdır. *Sun-tszı* traktatının müəllifi elə traktatın adından göründüyü kimi ***Sun-tszı***, *Şan vilayəti hökmdarının kitabı*nın müəllifi isə ***Şan Yan*** idi. Əgər Quan Çjun legizm praktikasının banisi olmuşdusa, əgər Sun-tszı legizmin hərbi nəzəriyyəsinin yaradıcısı idisə, Şan Yan daha çox legizmin siyasi nəzəriyyəsinin banisi oldu.

Şan Yanın bir siyasi mütəfəkkir kimi fəaliyyəti onun bir siyasi xadim kimi, dövlət xadimi kimi fəaliyyətinə nisbətən müqayisə olunmaz dərəcədə üstün və uğurlu idi. Çin çarlıqlarından birində hökmdarın baş müşaviri olan və dövləti legizm prinsiplərinə uyğun şəkildə yenidən qurmağa səy göstərən Şan Yan hökmdarın ölümündən sonra bütün ailəsi ilə birlikdə irsi aristokratiya tərəfindən edam edilsə də, Şan Yanın əslində aristokratiya və aristokratizm əleyhinə yönəlmiş legist nəzəriyyəsi ***Tsin Şixuan***ın şəxsində özünün qüdrətli icraçısını tapdı və Tsin Şixuan ilk mərkəzləşdirilmiş Çin imperiyasını məhz Şan Yanın nəzəriyyəsi əsasında qura bildi. Öz siyasi nəzəriyyəsini gerçəkləşdirməkdən ötrü Şan Yan tərəfindən göstərilən səy Şan Yanın özü üçün faciəvi sonluqla başa çatsa da, bu nəzəriyyənin reallaşdırılmasından ötrü Çinin ümumiyyətlə siyasi gerçəkliyi tərəfindən göstərilən səy faciəvi sonluqla tamamlanmadı. Çin tarixi bu nəzəriyyəni gerçəkləşdirərək əzəmətləşdi. Lakin, bu əzəmət köləliyin əzəməti oldu.

## *DEMOKRATİK SİYASİ DOKTRİNA*

Cəmiyyətin demokratik özünütəşkil strukturları real olaraq irsi aristokratiyanın nəzarətindən çıxaraq vətəndaş cəmiyyəti mühitini yaradan şəhərli kütləsi içərisində formalaşmış və seçkili hakimiyyətin meydana çıxması ilə ifadə olunmuşdur. Zadəgan həyat tərzinin və düşüncə üslubunun şəhərli həyat tərzi və düşüncə üslubu tərəfindən sıxışdırılma prosesində bu strukturlar cəmiyyətin siyasi həyatına bütövlükdə hakim kəsilmiş və demokratik idealı bu və ya digər dərəcədə gerçəkləşdirmişdir.

Seçkili hakimiyyət strukturlarının irsi aristokratiyada doğurduğu barışmazlıq və hiddət hissləri demokratiyanın ilkin tarixi xarakteristikasını formalaşdırmışdır. Demokratik siyasi təcrübəyə nifrət hissi ilə aşılanmış bu ilkin xarakteristika demokratiyanın mənfi xarakteristikası idi.

Demokratiyanın digər, müsbət xarakteristikası isə seçkili hakimiyyət tərəfdarlarının özünü müdafiə forması kimi meydana gəlmişdir.

Demokratiyanın bir-biri ilə əkslik təşkil edən iki - müsbət və mənfi - xarakteristikası arasında daimi bir intellektual mübarizə olmuş və bu mübarizə indiyə qədər davam etməkdədir. Müsbət xarakteristika mənfi xarakteristikadan sonra formalaşsa da, onu sıxışdırmış və hazırda aparıcı mövqeyə malik olmuşdur.

Müsbət xarakteristika qədim yunan dilindən alınmış *demos* və *kratos* sözlərinə «xalq» və «hakimiyyət» mənalarını verərək *demokratiya* sözünü «xalq hakimiyyəti» mənasında təqdim edir. Bu xarakteristikanın məzmunu ümumən məlumdur və təxminən belədir: demokratiya hakimiyyətin yeganə mənbəyi kimi xalqın tanınmasına əsaslanan dövlət formasıdır. Burada vətəndaşlar hakimiyyət orqanlarını seçmək və hakimiyyət orqanlarına seçilmək hüququna malikdirlər. Xalq öz iradəsini seçkili orqanlar və ilk növbədə Parlament vasitəsilə həyata keçirir. Burada hakimiyyət bölgüsü tam həyata keçirilir, parlamentin hökumət üzərində üstünlüyü və məhkəmə orqanlarının icra hakimiyyətindən asılı olmaması təmin edilir. Demokratik hakimiyyət çoxluğun iradəsini həyata keçirdiyindən diktaturanın əksliyini təşkil edir. Burada vətəndaşların hüquqları, azadlıqları və bərabərliyi Konstitusiya ilə təsbit edilir və onların toxunulmazlığı üçün dövlət tərəfindən təminat verilir. Qanunun aliliyi və vətəndaşların qanun qarşısında bərabərliyi bəyan edilir və təmin olunur. Demokratik hakimiyyətin qərarlaşması insanların təkcə siyasi münasibətlərinin deyil, həm də iqtisadi, sosial və mədəni münasibətlərinin humanistləşdirilməsini şərtləndirir. Demokratizm azad cəmiyyətin həyat tərzinə çevrilir.

Lakin, demokratiyanın bu tipli təsvir üsulu onun yalnız müsbət xarakteristikasına aiddir.

Demokratiyanın mənfi xarakteristikası, artıq qeyd olunduğu kimi, onun ilkin tarixi səciyyəsi olmuşdur. Bu səciyyə evpatridlər – Qədim Afinanın zadəgan mənşəli insanları tərəfindən verilmişdi. Evpatridlər qanunların səs çoxluğu ilə qəbul olunmasına və ali dövlət hakimiyyətinin ümumi kütlə içərisindən səsvermə yolu ilə

seçilməsinə əsaslanan dövlətə istehza edir və onu nifrətlə *demokratiya,* yəni *qara camaatın hakimiyyəti - gəda hakimiyyəti* – adlandırırdılar. Belə ki, *demos* sözü qədim yunan dilində heç də nə *xalq,* nə də *bütün əhali* mənalarını verməyib, *zadəgan olmayan* və ya *əsl nəcabəti olmayan kütlə* mənasını verirdi və əsl nəcabətli ataların övladlarını - evpatridləri - əhalinin qalan kütləsindən fərqləndirmək üçün istifadə olunurdu. Əsl nəcabəti olmayanların – demosun – ali hakimiyyətdə təmsil olunmasını qeyri-təbii hesab edən evpatridlər *demokratiya* sözünü meydana atdılar və *demos* sözündə daşınan gizli nifrət *demokratiya* sözündə bir qədər də dərinləşdi və aşkar hiddətə çevrildi. Maraqlıdır ki, Qədim Yunanıstanda təqribən eyni hadisə ilkin olaraq həm *demokratiya,* həm də *demoqogiya*, təqribən eyni insanlar həm *demokrat,* həm də *demoqoq* kimi adlandırılmışlar. Sonradan *demokratiya* və *demokrat* sözləri əks mənanı kəsb etsələr də, *demoqogiya* və *demoqoq* sözləri öz ilkin mənalarını saxlamışlar.

Evpatridlər demokratiyanı yaşama qabiliyyəti olmayan bir qurum kimi ifşa edir və təsdiq edirdilər ki, dövlət nə qədər çox demokratikləşirsə bir o qədər də absurdlaşır və eybəcərləşir. Bu fikri söyləməyə onların bir çox əsasları vardı. Burada demokratiya «o dərəcədə tam inkişaf etmişdi ki», dövlətin ali məhkəmə orqanının hakimləri bütün vətəndaşların siyahısı üzrə əlifba sırası ilə seçilirdi. Çünki «xalqın tələbi belə idi», «xalq» rüşvət almaq imkanını əldən vermək istəmirdi. Ən ədalətli insanlar ədalətsizliklərə mane ola bildikləri üçün heç bir cinayət törətmədikləri halda sürgün edilirdilər, qədim yunanların öz sözləri ilə deyilərsə ostrakizmə məruz qalırdılar və bəzən hətta ölümə də məhkum edilirdilər.

Demokratiyanın tərəfdarları və əleyhdarları arasındakı mübarizənin çıxış nöqtəsini insanların təbii olaraq bərabər olub-olmaması məsələsi təşkil edir. Demokratizmin tərəfdarları belə hesab edirlər ki. bütün insanlar öz təbiətləri etibarı ilə bərabərdirlər (eqalitarizm prinsipi), lakin azlıq tərəfindən ixtira edilmiş sosial qurumlar insanları qeyri-bərabər vəziyyətə salmışdır, insanları sosial (real) olaraq bərabər etmək üçün hakimiyyət çoxluğun ixtiyarına verilməlidir. Demokratizmin əleyhdarları isə belə hesab edirlər ki, insan-

lar təbiət tərəfindən qeyri-bərabər yaradıldıqları üçün hakimiyyət heç cür çoxluğun ixtiyarına verilə bilməz, hakimiyyət yalnız ləyaqətli azlığa mənsub olduqda dövlətin idarə olunmasında ədalət bərqərar olmuş olur (aristokratizm prinsipi)[1].

Lakin, aristokratizm prinsipinin sosial daşıyıcıları olan evpatridlərin siyasi qüdrəti zəiflədikcə və demokratiya özünün yaşama hüququnu təsdiq etdikcə demokratizmə qarşı nifrət və hiddət də getdikcə zəifləməyə başladı.

Platonda artıq *demokratiya* sözü nifrətdən daha çox, siyasi yanlışlığı ifadə edirdi. Maraqlıdır ki, ***Platon*** düzgün hesab etdiyi *monarxiya*ya və *aristokratiya*ya qarşı qoyduğu qeyri-düzgün dövlət formaları içərisində *demokratiya*nı *oliqarxiya*ya və *tiraniya*ya nisbətən daha az nöqsanlı hesab edirdi. ***Aristotel*** isə bir addım da irəli gedərək məntiqi olaraq əsaslandırmağa çalışırdı ki, ali dövlət hakimiyyəti nümayəndələrinin kütlə içərisindən seçilməsi heç də həmişə mənfi hallarla nəticələnmir. Əgər bu seçilmə uğursuz keçirilərsə, dövlət hakimiyyəti nümayəndələri doğrudan da öz dar mənafelərindən çıxış edərək fəaliyyət göstərir və dövlət bu halda eybəcər şəkil almış olur. Yox əgər, hakimiyyət nümayəndələrinin kütlə içərisindən seçilməsi uğurla həyata keçirilərsə, hakimiyyət bütövlükdə cəmiyyətin – antik mənada, «dövlət»in – mənafeyini ifadə etmiş olur. Aristotel hakimiyyətin əsl nəcabət prinsipinə istinad etməyən birinci formasını *demokratiya,* ikinci formasını isə *politiya* kimi təsvir etdi və axırıncını *monarxiya* və *aristokratiya* ilə bir sırada, düzgün dövlət formaları sırasında yerləşdirdi.

Aristokratizmin ən aşkar ifadəçilərindən olan Platon həyatın ideal forması kimi heç bir hakimiyyətin olmadığı və hər bir insanın

---

[1] Yeri gəlmişkən, qeyd oluna bilər ki, qədim Yunanıstanda demokratizmlə barışmazlıq təkcə şimaldan Balkan yarımadasına axaraq Qədim Yunanıstanı yaradan nəsillərdən törəyən irsi aristokratiya üçün deyil, həm də aborigen mənşəli nəsillərdən törəyən icma mədəniyyəti daşıyıcıları üçün səciyyəvi idi. Bu mədəniyyətin ən görkəmli nümayəndələrindən və ifadəçilərindən olan Sokratın demokratiyaya münasibəti yuxarıda təfsilatı ilə şərh olunmuşdu.

sosial orqanizmdə öz həqiqi yerinə tapa bildiyi cəmiyyəti qeyd edir. Bu cəmiyyətin reallaşdırılmasına cəhd Makedoniyalı İsgəndər tərəfindən göstərildi. Aristotel, ilk baxışdan nə qədər qeyri-tarixi görünsə də, yuxarıda qeyd olunduğu kimi, Platonla İsgəndər arasında əlaqələndirici həlqə idi. Aristokratik ruhlu müəllimindən, yəni Platondan və aristokratik ruhlu şagirdindən, yəni İsgəndərdən fərqli olaraq Aristotel demokratik ruhlu, demokratik meyilli idi.

Aristotelə qəribə tale nəsib olmuşdu. O, hökmdar nəslindən olmasa da, hökmdar instinktlərini özündə daşımasa da gələcəyin hökmdarını, Makedoniya çarı Filippin oğlu İsgəndəri tərbiyə etməli idi. Aristotel mənsub olduğu sosial zümrə baxımından da, təbii instinktləri baxımından da ideal təbəə idi, və üstəlik ideal təbəəliyin determinizmə əsaslanan məntiq və əxlaq nəzəriyyəsini yaratmışdı. Aristotelin təbəə təbiəti onun siyasi instinktlərində də öz əksini tapmışdı. Lakin, bu instinktlərin rasionallaşdırılmasından doğulan siyasi nəzəriyyə hökmdar oğlunu və gələcəyin hökmdarını qane edə bilməzdi və qane etmirdi. İsgəndər Aristotelin deyil, Platonun siyasi nəzəriyyəsinə daha çox meyil göstərirdi. Bu da təbii idi. Platon da İsgəndər kimi hökmdar nəslindən olduğu üçün, özündə hökmdar instinktlərini daşıdığı üçün və nəhayət hökmdar instinktlərini rasionallaşdıran siyasi nəzəriyyə yaratdığı üçün, İsgəndər öz siyasi instinktlərini Platonun siyasi fəlsəfəsinin dilində daha aydın dərk edə bilirdi. Aristotelin Platona olan münasibətində, görünür elə buna görə də, minnətdarlıq duyğusu ilə yanaşı gizli bir paxıllıq və qısqanclıq hissi də vardı. Aristoteldə müstəqil mütəfəkkir olmaq meyli vardı. Lakin, ona zorla qəbul edilmiş status, gələcəyin hökmdarının tərbiyəçisi statusu Aristoteli Platonun tədqiqatçısına və təqdimatçısına çevirirdi. Aristotel Platonun ideyalar haqqındakı təlimini mümkün olan hər yerdə tənqid etsə də, özünün siyasi fəlsəfəsində Platona istinad etməyə və Platondan çıxış etməyə məcbur idi.

Məlum olduğu kimi, Platon özünün *Qanunlar* adlı əsərində dövlətin beş formasını qeyd edirdi: monarxiya, aristokratiya, demokratiya, oliqarxiya və tiraniya. Aristotel özünün politoloji əsas əsəri

sayılan *Politika*da bu siyahıya yuxarıda xatırladığımız adı da, *politiya* adını da əlavə etdi.

Aristotelin *polisiya*sı təbəəliyin siyasi instinktlərinə ən çox uyğun gələn siyasi sistem idi. Aristotel *politiya* terminini və nəzəriyyəsini demokratiyanı zadəganların nifrət və hiddətindən xilas etmək istərkən yaratdı. Ali dövlət postlarına namizədlərin kütlə içərisindən seçilməsinə və səsvermə yolu ilə təyin olunmasına istinad edən hakimiyyəti zadəganlar nifrətlə «demokratiya», yəni *qara camaatın hakimiyyəti* adlandırsalar da, Aristotel belə bir dövlətə qarşı daxili bir simpatiya duyurdu. O, güman edirdi ki, *xalq*ı hakimiyyətin əsası kimi tanıyan və bu əsasdan çıxış edən dövlət zadəganların *gəda hakimiyyəti* kimi səciyyələndirdiyi formanı da ala bilər, mükəmməl və kamil də ola bilər. Görünür, Aristotel *politiya*nı məhz belə bir mükəmməl və kamil dövlət forması hesab edirdi.

Platon zadəgan olmaqla idealist idi, ideyanı gerçəklikdən daha qüdrətli, daha əzəli, daha ilkin və daha fundamental hesab edirdi. O, gerçəkliyi ideya səviyyəsinə yüksəldərək gözəlləşdirmək əzmində idi. Aristotel isə təbəə olmaqla, realist idi, ideyanın qüdrətinə inanmırdı, reallığı qüdrətli hesab edirdi. Platon üçün fikrin gücünə inam, Aristotel üçün isə fakt qarşısında pərəstiş və səcdə səciyyəvi idi. Aristotel Platonun dövlət nəzəriyyəsini də qeyri-real hesab etdiyi üçün inkar edirdi. Lakin, Makedoniyalı İsgəndər Aristotelin real nəzəriyyəsinin deyil, Platonun utopik nəzəriyyəsinin icraçısı oldu.

Dövlətin zadəgan modelini Aristotel qəlbən qəbul edə bilmirdi. Maraqlıdır ki, antik yunan *kommunizm*inin ən parlaq nümayəndəsi olan Faley Xalkedonlu tərəfindən irəli sürülən icma təbiətli siyasi model də onu qane etmirdi. Bu da təsadüfi deyildi.

Əgər kommunistik siyasi doktrinanın əsasında kreosionalist fəlsəfi üslub dayanırdısa, demokratik siyasi doktrina deterministik fəlsəfi üslub üzərində qurulmuşdu.

Aristotel deterministik fəlsəfi üslubun məntiqini yaratmışdı. Əgər demokratizmin antik konsepsiyası aktiv-determinst məntiq üzərində, və ya Aristotelin terminologiyası ilə deyilərsə, dialektika və sofistika üzərində qurulmuşdusa, Aristotelin siyasi nəzəriyyəsi passiv-determist məntiq üzərində və ya Aristotelin özünün termino-

logiyası ilə deyilərsə analitika üzərində qurulmuşdu. Əgər demokratizmin antik konsepsiyası, Yeni dövr siyasi terminologiyasından istifadə edilərsə *burjua nəzəriyyəsi* idisə, Aristotelin konsepsiyası *təbəə nəzəriyyəsi* idi. Demokratizmin siyasi idealı seçkili hakimiyyət, Aristotelin siyasi idealı isə mütləq monarxizm və ya marksizmin siyasi terminologiyasından istifadə edilərsə, sosializm idi.

Demokratiya dövləti hakimiyyətin bütövlükdə demosun, burjuanın nəzarəti altına salınmasını ifadə etdiyindən və burjuanın özü təbəə mənşəli olduğundan, Aristotelin siyasi nəzəriyyəsi də əslində burjua yönümlü, burjua təbiətli və burjua ruhlu idi.

Heç də təsadüfi deyildi ki, hakimiyyət bölgüsü haqqında burjua doktrinanın banisi də elə Aristotelin özüdür. Bu bir tarixi faktdır ki, Aristotel tərəfindən irəli sürülən və Monteskyö tərəfindən bütöv bir nəzəriyyəyə çevrilən ideya – hər bir dövlətin qanunverici, icra və məhkəmə hakimiyyətlərini özünə ehtiva etməsi ideyası burjuanın aristokratizmə qarşı mübarizəsində mühüm rol oynamış və burjua konstitusiyalarında öz ifadəsini tapmışdır.

Platon kimi Aristotel də bəşərin siyasi təfəkkürünün təkamülündə mühüm rol oynamışdır. Lakin, bu rol uyğun dövrün hakim mədəniyyət tipinin xarakterindən, düşüncə üslubunun xüsusiyyətlərindən, inkişafın özünün təbiətindən əhəmiyyətli dərəcədə asılı olmuşdur.

Aristoteldən sonrakı Yunanıstan *burjua* yolu ilə inkişaf etdi və bu inkişaf demokratiyanın həm nəzəri, həm də sosial əsaslarını möhkəmlətdi. Aristotel ön plana, Platon isə arxa plana keçdi.

Əgər Platonun dövlət təlimi bir qayda olaraq aristokratik ruhlu siyasi mütəfəkkirlər və siyasətçilər tərəfindən dirçəldilmişdisə, Aristotel əsasən *burjua* ruhlu siyasi nəzəriyyələrin və praqmatist hakimiyyət praktikasının inkişafına təkan vermişdir. Əgər bəşərin siyasi təfəkküründə Platonun saldığı yol aristokratik təfəkkürün daşıyıcıları olan *Yulian, Boesi, İbn Tüfeyl, İbn əl-Ərəbi, Cordano Bruno, Spinoza və Hegel* tərəfindən davam və inkişaf etdirilmişdisə, Aristotelin siyasi təfəkkürdə saldığı yol *burjua* ruhlu mütəfəkkirlər - ***Polibi, Siseron, İbn Rüşt, Foma Akvinalı, Dante, Boden, Makia-***

***velli, Erazm Rotterdamlı, Lokk, Monteskyö, Kondorse*** tərəfindən inkişaf və davam etdirilmişdir.

***Polibi*** Aristotelin politiya adlandırdığı hakimiyyət formasını demokratiya kimi təqdim etməklə *demokratiya* sözünü onda daşınan nifrətdən xilas etdi.

Maraqlıdır ki, demokratiyaya bəraət qazandıran, onu *monarxiya* və *aristokratiya* ilə eyni hüquqlu hesab edən Polibinin özü zadəgan nəslindən idi. Lakin, Polibinin dövründə yunan zadəganlığı xalqın himayəçisi olacaq qədər qüdrətə malik deyildi. Öz siyasi fəaliyyəti ilə əslində yunanların (özünüidarə hüququnu saxlamaq şərti ilə olsa da) Romanın himayəsinə verilməsinə xidmət göstərən Polibi girov kimi Romaya göndərilmiş və burada 16 il, ömrünün sonuna qədər yaşamışdır. Romanın nəhəng Aralıq dənizi ölkəsinə çevrilmə prosesinin təsvirinə həsr olunmuş *Ümumi tarix* adlı əsərini də orada yazmışdır. Həmin kitabda həmçinin bir çox ölkələrin dövlət quruluşu barədə qiymətli məlumatlar vardır. Lakin, burada diqqəti ən çox cəlb edən dövlətin siyasi təkamülü ilə bağlı mülahizələrdir. Bu əsərdə Polibi siyasi təkamül prosesində dövlət formalarının bir-birini əvəz etməsi, *monarxiya*nın *aristokratiya*ya, *aristokratiya*nın isə *demokratiya*ya təbii olaraq çevrilməsi ideyasını irəli sürmüş və bu ideyanın geniş tarixi izahını vermişdir.

Polibi belə hesab edirdi ki, dövlət hakimiyyətinin müxtəlif formaları daimi olaraq bir-birini əvəz edir və bu əvəzetmə qanunauyğun xarakter daşıyır. *Monarxiya, aristokratiya* və *demokratiya* kimi siyasi formaların tarixi ardıcıllığı dövlətin vahid təkamül prosesini yaradır. Bu mərhələlər arasında isə keçid elementləri kimi təhrif olunmuş dövlət formaları – *tiraniya, oliqarxiya* və *anarxiya* - çıxış edir. Belə ki, hər bir düzgün dövlət forması siyasi təkamül prosesində öz əksliyinə çevrilir, *monarxiya tiraniya* formasını alır, *aristokratiya oliqarxiya*ya, *demokratiya* isə *anarxiya*ya çevrilir. Sonradan *tiraniya, oliqarxiya* və *anarxiya* kimi qeyri-düzgün dövlət formalarından hər biri öz yerini düzgün dövlət formasına verir, *tiraniya*nı *aristokratiya, oliqarxiya*nı isə *demokratiya* əvəz edir. Beləliklə, dövlətin ümumi təkamülü Polibidə *monarxiya – tiraniya – aristokratiya – oliqarxiya –demokratiya – anarxiya* sxemi üzrə baş verir.

*Anarxiya*dan sonra bu proses bir daha təkrarlanır. Polibi bununla yanaşı qeyd edir ki, dövlətin düzgün və qeyri-düzgün formalarının saxlanılması şəxsiyyətin rolundan da əhəmiyyətli dərəcədə asılıdır.

*Monarxiya, aristokratiya* və *demokratiya* kimi ideal dövlət tipləri ilə real dövlətlərin məzmunu arasındakı ziddiyyətin tənzimlənməsini Polibi zəruri hesab edirdi. O qeyd edirdi ki, real dövlət quruluşunda *monarxiya, aristokratiya* və *demokratiya* elementləri düzgün siyasi fəhm əsasında birləşdirildikdə dövlətin özü güclənir. Romanın siyasi qüdrətinin əsasını Polibi məhz belə bir siyasi fəhmdə görürdü.

Polibinin ardınca Qədim Romanın görkəmli siyasi xadimi ***Siseron*** da qeyd edirdi ki, nə *monarxiya* nə *aristokratiya*, nə də *demokratiya* idarəetmənin həmişə öz dəyərini saxlayan ideal tipləri hesab edilə bilməz. Hər bir dövr özünün siyasi yaradıcılıq prosesində bu formaların qarışığından ibarət siyasi strukturları yaratmalıdır. Burada hökmdarınmı (*monarxiya),* Senatınmı (*aristokratiya)* yoxsa Xalq yığıncağınınmı (*demokratiya)* daha əhəmiyyətli olması zamandan asılıdır.

Qədim dövrdə olduğu kimi Yeni dövrün fikir axınında da demokratiyanın mütləqləşdirilməsi əsasən iki nöqteyi-nəzərdən təkzib olunmuşdur. Birinci nöqteyi-nəzər demokratiyaya zadəgan mədəniyyətinin, ikinci nöqteyi-nəzər isə – əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyətinin münasibətini ifadə edir. Bu mədəniyyət tiplərinin hər ikisində burjuaya və burjuaya xidmət edən siyasi strukturlara daxili bir nifrət vardır.

Demokratiyanın mütləqləşdirilməsinin aristokratizm mövqeyindən geniş təkzibi Yeni dövrdə öz başlanğıcını ***Hobbs***dan götürür. Hobbs Siseronun ideyalarını inkişaf etdirərək onun tərəfindən təsvir olunan dövlət formalarının hər birinin – *monarxiya*nın, *aristokratiya*nın və *demokratiya*nın yeni səciyyəsini vermiş və qeyd etmişdir ki, *demokratiya* bu formaların ən nöqsanlısıdır[1].

---

[1] Hobbsun demokratiya əleyhinə argumentləri **Ötən əsrlərin mükaliməsi**ndə göstərilmişdir.

Lakin, demokratiyanın Hobbs tərəfindən göstərilən nöqsanları daha çox birbaşa demokratiyaya aiddir. Bilavasitə demokratiyaya Hobbsun verdiyi klassik səciyyədə qeyd olunurdu ki, *Xalq Yığıncaqları* arasındakı zaman uzandıqca demokratiya deqradasiyaya uğrayır. Alman sosioloqu ***Mixels*** nümayəndəli demokratiyanı da demokratiya ideyasının özünün deqradasiyası kimi səciyyələndirmişdir.

Maraqlıdır ki, nümayəndəli demokratiya da daxil olmaqla, ümumiyyətlə demokratiyanın bir sıra mühüm nöqsanları demokratizmin əslində tərəfdarı və nəzəriyyəçisi olan fransız sosioloqu ***Tokvil*** tərəfindən aşkar edilmişdir.

İki başqa fransız - ***Renan*** və ***Lebon*** ümumiyyətlə demokratiyanı onun əsası olan eqalitarizm prinsipinin təkzibi baxımından tənqid etmişlər.

İtalyan sosioloqu ***Pareto*** cəmiyyəti elitaya və qeyri-elitaya bölməklə ancaq elita hakimiyyətinin qanuniliyini iddia etmişdir.

İcma mədəniyyətinin böyük bilicisi, bizim hamımıza kifayət qədər yaxşı məlum olan yəhudi mənşəli alman mütəfəkkiri ***Karl Marks*** hesab etmişdir ki, kapitalizmin demokratik respublikası *burjuanın hakimiyyət forması*dır, xalq hakimiyyəti, azadlıq, bərabərlik kimi ideallar burada məhdud və qeyri-real xarakter daşıyır.

Demokratiyanın aristokratizm mövqeyindən parlaq fəlsəfi mənzərəsi isə dahi rus filosofu ***Nikolay Berdyayev*** tərəfindən verilmişdir.

Berdyayevin demokratiyaya verdiyi xarakteristika təxminən belədir: demokratiya hakimiyyətin mənbəyi kimi xalqın iradəsini bəyan etsə də xalqın həqiqi iradəsini tanımır, özünün bayağı proqramları ilə xalqın iradəsini təhrif edir və boğur. Hakimiyyətin ələ keçirilməsi xalqa yaltaqlanma yolu ilə baş verir. Yaltaqlıq və demoqoqluq demokratiyanın həyat tərzinə çevrilir. Seçkili orqanlar və parlament xalqın həqiqi iradəsini başa düşmədikləri üçün, əksər hallarda isə başa düşmək marağında olmadıqları üçün *Xalqın İradəsi*ni həyata keçirə bilmirlər və keçirmirlər. Hökumət və bürokratiya idarəetməni parlamentə nisbətən daha yaxşı mənimsədiyi üçün, parlament heç zaman hökumətdən yüksəkdə dura bilmir. Məhkəmə hökumətdən maliyyələşir və həmişə ondan asılı olur. Demokratiya,

kütləvi çoxluğun seçmə azlıq üzərində üstünlüyünü bəyan etdiyindən və əksər hallarda hətta həyata keçirdiyindən diktaturaya nəinki ziddir, qeyri-aşkar və gizli formada olsa da hətta onun bəlkə də ən kobud formasıdır. Humanizm, azadlıq, insan hüquqlarının toxunulmazlığı ideallarına qaldıqda isə, əslində aristokratizm mənşəli olan bu ideallar demokratizmin mahiyyətinə və təbiətinə tamamilə yaddır. Demokratiya aristokratizmin dəyərləri ilə bəzənərək öz eybəcərliklərini örtür. Aristokratizm demokratiyanın bəzəyi deyil, mahiyyəti olmalıdır.

Müasir demokratiyanın icma mədəniyyəti baxımından təkzibi *Liviya*nın məşhur dövlət və siyasi xadimi ***Müəmmər Qəzzafi*** tərəfindən həyata keçirilmişdir.

Demokratiyanın mütləq, əbədi və dəyişməz bir şey olmadığını bəyan edən və onu məntiqi olaraq təkzib edən təlimlər burada xatırlananlardan əlbəttə ki daha çoxdur. Mən burada onların ən vacibləri üzərində dayandım. Demokratiya siyasi təkamülün müəyyən mərhələsində yaranır və dövlət tiplərinin tarixi dinamikasında yalnız bir dövrü təşkil edir. Bu dövrün düzgün qiymətini vermək üçün *dövlət fenomeni* və *dövlət tiplərinin tarixi dinamikası* bütövlükdə ən ümumi halda nəzərdən keçirilməlidir və keçiriləcəkdir.

Bununla belə onu da qeyd etməliyik ki, Azərbaycanda siyasi fikrin hazırkı mövcud durumu demokratiyanın yalnız müsbət xarakteristikasının yayılmasına xidmət edir. Burada demokratiya yenə də bütün yüksək insani keyfiyyətlərlə eyniləşdirilərək göylərə qaldırılır, azadlığın, insan hüquqlarının, humanizmin təcəssümü kimi şüurlara yeridilir. Eyni zamanda onu da düşünürəm ki, müasir demokratiyaya qarşı sovet nostalgiyasının qoyulması, kapitalizmə qarşı sosializmin qoyulması da faydasız və perspektivsizdir.

Demokratizmə qarşı yalnız aristokratizm qoyula bilər. Demokratik doktrinaya qarşı kommunistik doktrina deyil, yalnız aristokratik doktrina qoyulmalıdır. Sosializm də kapitalizm kimi plebey mənşəli olub, determinizmə əsaslanır. Fərq bircə ondadır ki, sosializm cəmiyyətinin ideal vətəndaşı, sədaqətli dövlət qulluqçusu olmaqla, öz təfəkkürünü və iradəsini deterministik əxlaqa və determi-

nistik məntiqə *passiv şəkildə tabe etdirdiyi halda,* kapitalizm cəmiyyətinin ideal vətəndaşı, azal sahibkar olmaqla deterministik əxlaqdan və deterministik məntiqdən *aktiv surətdə istifadə edir.* Ümumiyyətlə determinist ruhun böhran keçirdiyi indiki şəraitdə demokratizmin və kapitalizmin vəsf edilməsi, totalitarizmin və sosializmin göylərə qaldırılması qədər yersizdir.

Bir daha vurğulayıram ki, sosializm də, kapitalizm də, totalitarizm də, demokratizm də yalnız aristokratizmə qarşı qoyula bilər. Cəmiyyətin bu və ya digər struktur tipinin mütərəqqiliyi və mürtəceliyi onun formal prinsipləri ilə müəyyənləşə bilməz. Əgər cəmiyyəti hərəkətə gətirən instinktlər nəcib təbiətlidirsə, xilaskar təbiətlidirsə, ədalətli əxlaqa istinad edirsə, intellektual qüdrətdən doğursa və yenilməz iradə ilə gerçəkləşdirilirsə cəmiyyət (geniş mənada, dövlət) öz həqiqi mahiyyətinə qovuşmuş olur, əks halda isə ədalətsizliyin dayağına çevrilərək eybəcərləşir.

Amma demokratizm ən azı bir nöqteyi-nəzərdən mütləq mənada zəruridir: o, hakimiyyətin aristokratik resurslarla zənginləşdirilməsində əhəmiyyətli rol oynaya bilir.

## ***ARİSTOKRATİK SİYASİ DOKTRİNA***

Dövlətin və siyasi həyatın aristokratik ruhda təsviri əsasən zadəgan mənşəli olan, lakin aktiv siyasətdən kənarda qalan insanlar tərəfindən yaradılmışdır.

Aristokratik siyasi doktrina ictimai həyatın ideal formasını heç bir hakimiyyətin olmadığı və hər bir insanın sosial orqanizmdə öz həqiqi yerini tapa bildiyi cəmiyyətdə görür.

Əgər zadəgan siyasi instinktinin mahiyyətini ifadə edən bu müddəa özünün ən klassik və ən geniş təsvirini Qərbdə Platonun şəxsində tapdısa, onun ən ilkin və ən klassik Şərq təsviri ***konfusiçilik*** idi.

Kütlə ruhunun ifadəçisi olan daosizmdən fərqli olaraq konfusiçilik tarix meydanına zadəgan ruhunun ifadəçisi sifəti ilə çıxdı. Daosizmdə bütün insanlar bərabərdirlər və görünür, bəlkə də elə buna görə də daosizm konfusiçiliyin simasında özünün tarixi rəqi-

bini doğurdu. Daosizmdən fərqli olaraq konfusiçilikdə bərabərlik ideyasından əsər-əlamət yoxdur. Burada insanlar birmənalı olaraq yüksək mənəviyyatlılara, yəni zadəganlara və mənən yoxsul olanlara, yəni kütləyə bölünürlər.

Konfusiçiliyin qəti inamı belədir ki, əmir olmaq üçün doğulanlar əmir olmalı, kütlə olmaq üçün doğulanlar isə kütləni təşkil etməlidirlər.

Konfusiçilikdə zadəganlıq ideyası sosial təbiətli olmaqdan daha öncə mənəvi təbiətlidir, insanın haqqa və ədalətə bağlılığını ifadə edir. Zadəgan silkinə daxil olan, lakin zadəgan ruhunu özündə daşımayan, kütlə ruhuna sahib olan insanlar isə konfusiçilik nöqteyi-nəzərindən və görünür elə əslində də zadəgan deyildirlər, kütlədirlər, əksinə talenin hökmü ilə kütlə içərisinə düşən, sosial mənşəyə etibarı ilə kütlə, lakin ruhən zadəgan olan insanlar, konfusiçilik nöqteyi-nəzərindən də və sözün həqiqi mənasında da zadəgandırlar.

Cəmiyyətdə təbii nizamın bərqərar olunması üçün konfusiçilik zadəgan ruhunu özündə daşıyanların zadəgan təbəqəsinə yüksəldilməsini, kütlə ruhunun sahiblərini isə kütlə təbəqəsinə endirilməsini zəruri hesab edir. Konfusiçilik bununla bağlı *adların təshihi ideyası*nı irəli sürür. Adların təshihi ideyasının çıxış müddəası ondan ibarətdir ki, insanların cəmiyyətdə tutduqları yerin adı insanların həqiqi adına, onların həqiqi həyati təyinatını ifadə edən ada uyğun gəlməlidir, başqa sözlə, insanlar cəmiyyətdə öz təbii həyati təyinatlarına uyğun yeri və mövqeni tutmalıdırlar. Əgər cəmiyyətdə belə bir uyğunluq yoxdursa, təbii təyinatla sosial mövqe arasındakı uyğunsuzluq adların təshihi qaydası ilə aradan qaldırılmalıdır, yəni, zadəgan ruhunu özündə daşıyanlar *yüksəldilərək* ümummilli problemlərin həllinə yönəldilməli, kütlə ruhunu özündə daşıyanlar isə *alçaldılaraq* konkret rəiyyət işlərinə cəlb edilməlidir.

Konfusiçiliyin adların təshihi ideyasının insan şəxsiyyətini guya alçaltması barədə söhbət məncə real əsaslara malik deyildir. Konfusiçilik dövləti ailə ilə müqayisə edir və müəyyən mənada eyniləşdirir. Konfusiçilikdə hər bir dövlət ailədir, lakin, böyük ailədir, zadəgan bu ailədə ata, rəiyyət isə oğuldur. Ailədə atanın ata yeri, oğulun

isə oğul yeri vardır. Atanın yeri əlbəttə ki yuxarıda, oğulun yeri isə aşağıdadır. Həqiqi ailədə oğul atanın yerini tuta bilməz, ata ola bilməz, atalıq edə bilməz, ailənin başçısı, evin böyüyü ola bilməz və olmamalıdır. Həqiqi dövlətdə də belədir: rəiyyət heç zaman xalqın başçısı, dövlətin böyüyü ola bilməz və olmamalıdır. Konfusiçilik bezikmədən vurğulayır ki, ata ata olmalıdır, zadəgan zadəgan olmalıdır, oğul oğul olmalıdır, rəiyyət isə rəiyyət olmalıdır.

Konfusiçiliyin ideyaları bizim bir atalar sözünü xatırladır. Hamımıza yaxşı məlum olan və xalq içində geniş yayılan həmin atalar sözü belədir: *gədadan şah olmaz*. Lakin, konfusiçilik şahı deyil, hökmdarı deyil, zadəganı dəyərləndirir. Konfusiçiliyin təfəkkür ənənələri və terminologiyası *hökmdar* və *zadəgan* anlayışlarını bir-birindən kəskin surətdə fərqləndirir, onları bir çox hallarda qarşı-qarşıya qoyur. Zadəgan Çin dilində *tsyun tszı* kimi, hökmdar isə *van* kimi tələffüz edilir. Konfusiçilik zadəganı, yəni *tsyun tszı*nı, təkcə kütləyə, rəiyyətə, yəni *jen*ə qarşı deyil, həm də hökmdara, yəni *van*a qarşı qoyur. Konfusiçilik zadəganı hökmdarın hakimiyyət və səlahiyyətlərini məhdudlaşdırmağa, bu hakimiyyəti ümumiyyətlə aristokratik ədalət hissinin, konkret olaraq isə zadəganların nəzarəti altına almağa çağırır.

Belə bir fikir geniş yayılmışdır ki, konfusiçilik irsi aristokratiyanı müdafiə edir. Əslində isə konfusiçilik irsi aristokratiyanı deyil, həqiqi aristokratiyanı, həqiqi zadəganlığı müdafiə və tərənnüm edirdi. Bununla belə, zadəgan ruhunun irsi olaraq ötürülmə mexanizmlərini də, əlbəttə ki, inkar etmək olmaz.

Konfusiçilik belə hesab edir ki, zadəgan hökmdarın əməllərinin *Li*yə, yəni *Dünya Nizamı*na uyğunluğunu öz nəzarəti altında saxlamalıdır.

*Li* konfusiçiliyin dövlət nəzəriyyəsində əsas anlayışlardan biridir, bəlkə də ən birincisidir. Lakin, *li* – siyasi terminologiyanın elementi olmaqdan daha öncə kosmoloji terminologiyanın elementidir. Qədim Çin mifologiyasında və fəlsəfəsində *Dünya Nizamı* ideyasını ifadə edən *li* anlayışına konfusiçiliyin marağı ilk növbədə onunla bağlıdır ki, konfusiçilik zadəganı *li*nin, *Dünya Nizamı*nın

daşıyıcısı kimi qəbul edir. Konfusiçilik elə buna görə də belə hesab edir ki, zadəgan ləyaqətinə yalnız özündə *li*ni, *Dünya Nizamı*nı bərpa edən şəxs yüksələ bilir. Zadəganlaşmaqdan ötrü konfusiçilik «*Özünü dəf et və nizamı bərpa et*» məsləhətini verir: Zadəgan *li*ni, *Dünya* Nizamını özündə bərpa etdiyi üçün, öz işlərini *li*dən çıxış edərək yerinə yetirdiyi üçün «ədalətli olur», «aydın görür», «dəqiq eşidir» və «səmimi olur».

Zadəgan *li*ni, *Dünya Nizamı*nı əvvəlcə özündə, sonra isə cəmiyyətdə bərpa edir və buna görə də, əvvəlcə özü ədalətli olur, sonra isə ədalətli cəmiyyət qurur.

Zadəgan yüksək mənəviyyatlı olmaqla ədaləti, kütlə isə alçaq mənəviyyatlı olmaqla faydanı düşünür. Konfusiçilik birmənalı olaraq təsdiq edir ki, kütlə davranışının əsasında ədalət, insanpərvərlik və həqiqət hissləri deyil, əksinə olaraq mənafe və fayda motivləri durduğundan kütləyə ümummilli problemlərin həlli etibar edilə bilməz. Kütlə *öz işi* ilə, bir qədər konkretləşdirilsə – əkinçiliklə, sənətkarlıqla və ticarətlə məşğul olmalıdır. Kütləni məşğul etməli olan bu fəaliyyət formaları kütlənin öz həyati meyillərinə uyğundur. Kütlənin varlanmaya və dünyadan daha çox faydalanmaya olan meyli konfusiçilikdə rəiyyətin torpağa bağlılığı ilə, Yerə bağlılığı ilə, aşağılara bağlılığı ilə və konfusiçiliyin özünün daha kəskin və daha kobud şəkildə ifadə etdiyi kimi, alçalmaya meyilliliyi ilə izah edilir. Rəiyyət doğrudan da alçalmanın faydalı olduğu demək olar ki, bütün hallarda alçalmaya meyillidir. Lakin, bunun tam əksinə olaraq, yüksək mənəviyyat və ilahidən gələn ədalət hissi Yer işləri üçün heç də həmişə faydalı görünməsə də, zadəgan həmişə yüksəkliklərə can atır. Zadəgan sosial gerçəkliyi yüksəldərək ədalətliləşdirməyə, rəiyyət isə gerçəklik qarşısında alçalaraq bu alçalmadan faydalanmağa meyillidir.

Konfusiçilikdə zadəgan yüksək mənəviyyatın daşıyıcısı olmaqla, yüksəkliklərə meylin timsalı olmaqla həm də *Səmanın təcəssümü*dür. Konfusiçilik əmindir ki, Səma zadəgan vasitəsilə Yer işlərini ədalətliləşdirir, gözəlləşdirir və nizama salır. Konfusiçilik Səmanın ilahi qüdrətinə ənənəvi inamın tərəfdarıdır və bu inamı özünə-

məxsus şəkildə bərpa edir. Konfusiçilik qətiyyətlə təsdiq edir ki, Səmanın hökmünə yüksəlməyən insan zadəgan ola bilməz. «Ləyaqəti məndə Səma doğurmuşdur» – deyən ***Konfusi*** konfusiçilik təliminə təkcə öz adını verməmişdi, həm də öz düşüncə üslubunu, ruhunu vermişdi. «Mən yalnız əlli yaşında olarkən Səmanın İradəsini dərk etdim» – deyərkən Konfusi görünür nəzərdə tuturdu ki, insan öz içərisində mürgüləyən ədalət duyğusunu dərk etməyincə zadəgan deyildir. Konfusiçilik bundan da daha irəli gedərək vurğulayır ki, zadəgan Səmavi İradəni təkcə dərk edən deyil, həm də onu gerçəkləşdirəndir. Zadəgan dünyanı Səmavi İradəyə uyğun olaraq ədalətliləşdirmək əzmində olduğu üçün mübarizdir, cəngavərdir.

Konfusiçilik əslində şərqli üslubunda ifadə olunmuş elita nəzəriyyəsi idi.

Qədim Çində və ümumiyyətlə demək olar ki, elə bütün Şərqdə Konfusi ilə öz həyatını başlayan elita nəzəriyyəsi öz mövcudluğunu Qədim Yunanıstanda və ümumiyyətlə Qərbdə ***Biant***la başladı və ***Heraklit***də fəlsəfi olaraq əsaslandırılmış bir doktrinaya çevrildi.

Heraklitdə biz kosmosentrik fəlsəfənin deterministik və transsendental fəlsəfəyə ilk yunan etirazını görürük.

Böyük rus filosofu Losev deyirdi ki, qədim yunan fəlsəfəsi obrazlar üzərində qurulmuş mifologiyadan məntiq üzərində qurulmuş mifologiyaya doğru inkişaf edir. Əslində isə Losevin dedikləri bütövlükdə qədim yunan fəlsəfəsinə deyil, qədim yunan fəlsəfəsinin yalnız bir istiqamətinə - transsendental istiqamətə aid edilə bilər. Əgər yunan fəlsəfəsinin deterministik istiqaməti təfəkkürün mifologiyadan elmə doğru, transsendental istiqamət isə mifologiyadan dinə doğru təkamülünü ifadə edirsə, kosmosentrik istiqamət həqiqətən də obrazlar üzərində qurulmuş mifologiyadan məntiq üzərində qurulmuş mifologiyaya doğru inkişaf etmişdi və məhz Heraklit bu inkişafa başlanğıc vermişdi. Əgər deterministik istiqamət cəngavər dünyagörüşündən şəhərli dünyagörüşünə, transsendental istiqamət isə cəngavər dünyagörüşündən icmaçı, yəni kəndli dünyagörüşünə doğru təkamül edirsə, kosmosentrik istiqamət cəngavər dünyagörüşünün özünü rasionallaşdırır və onu zadəgan dünyagörüşü səviy-

yəsinə yüksəldir. Kosmosentrik istiqamət Heraklitdə başlayaraq əslində cəngavər obrazını determinizmin saldığı ləkələrdən təmizləyir və nəticə etibarı ilə zadəgan ruhunun fəlsəfəsini yaradır.

Heraklit deterministik ruha düşmən idi və onun hedonizminə və relyativizminə qarşı insan ləyaqəti hissini və aristokratik absolyutizmi qoyurdu, «*Xoşbəxtlik bədənin daha çox həzz almasında deyil, insanın həqiqəti anlaya bilməsində və həqiqətə söykənən ömür sürməsindədir*» - deyirdi. Heraklit determinizmə qarşı barışmaz olduğundan onun nümayəndələrini, ilk növbədə isə Hesiodu və Pifaqoru nifrət yağışına qərq edirdi, «*Onlar çox şey bilsələr də nadandırlar*» – deyirdi. Çünki Heraklit müdrikliyi çox şeyi bilməkdə deyil, çox şeyi özündə birləşdirən ümumini bilməkdə görürdü. *Pifaqor ittifaq*ında çox şeydən – dindən, etikadan, riyaziyyatdan, astronomiyadan, siyasətdən bəhs olunduğundan Heraklit pifaqorçuları fırıldaqçılar, Pifaqoru isə fırıldaqçıların başçısı adlandırırdı. Pifaqor determinizmin təkcə kortəbii ifadəçisi deyildi, həm də şüurlu nəzəriyyəçisi idi. Pifaqorun və pifaqorçuların əbədi təkrar ideyası əslində səbəb və nəticə arasındakı münasibətlərin birmənalılaşdırılması və mütləqləşdirilməsi idi. Heraklit isə heç bir şeyin heç vaxt olduğu kimi təkrar olunmadığını söyləyirdi.

Heraklit eyni zamanda artıq qeyd olunduğu kimi qədim yunan fəlsəfəsinin transsendental istiqamətinə qarşı da düşmən münasibətində dururdu. *Kainat heç bir Tanrı və heç bir insan tərəfindən yaradılmamışdır*, - deyərkən Heraklit özünü şüurlu olaraq transsendent dünyaduyumuna qarşı qoyurdu. Heraklitin qədim yunan fəlsəfəsində transsendental istiqamətin banisi Ksenofana nifrətini də elə bu nöqteyi-nəzərdən izah etmək mümkündür. Maraqlıdır ki, Heraklit Hesiodla, Pifaqorla və Ksenofanla yanaşı Homeri də qamçılayır. Maraqlıdır, ona görə ki, Heraklitin özü Homerdə vəsf olunan mədəniyyətin – cəngavər-zadəgan mədəniyyətinin daşıyıcısı idi, zadəgan mənşəli idi, daha dəqiq desək, Efes hökmdarları nəslindən idi. Necə olmuşdu ki, cəngavərliyin tərənnümçüsü olan Homer cəngavər ruhunun daşıyıcısı olan Heraklitin nifrətinə tuş gəlmişdi? Məncə, bu, müəyyən dərəcədə Eynşteynin təfəkkür tərzinin tədqiqatçılarına

Eynşteynin özünün etirazına bənzəyirdi. Bəlkə də Homer cəngavərliyi Balzakın zadəganlağı təsvir etdiyi kimi təsvir edirdi. Heraklit görünür ki, nəzəriyyədə cəngavərliyin zahiri təsvirini deyil, cəngavər ruhunun özünü görmək istəyirdi. Heraklitin nifrət obyekti bəlkə də təkcə qeyri-cəngavər ruhun nəzəriyyələri deyildi, həm də cəngavər ruhun qeyri-cəngavər nəzəriyyəsi idi. Bu da bir faktdır ki, *İliada*da Homerin vəsf etdiyi axaylar öz məqsədlərinə heç də cəngavərlik yolu ilə deyil, əksinə olaraq məkr yolu ilə nail oldular, Troyanı açıq döyüşdə düşməni məğlub edərək deyil, hiyləgərliyin klassik ifadəsi olan *Troya at*ını işə salmaqla aldılar. Bütün qəlbi ilə həqiqətə bağlı olan Heraklit əlbəttə ki, yalana və hiyləyə nifrət etməyə bilməzdi.

Bütün bunlarla yanaşı onu da qeyd etmək lazım gəlir ki, Heraklitin nifrət dairəsi söylənilənlərdən də daha geniş idi. Heraklit qeyri-zadəgan mənşəli *əksəriyyət*ə nifrət edirdi, «Əksəriyyət özündə nadan ruhunu daşıdığı üçün nadandır», deyirdi.

Heraklitin yaşadığı zəmanədə adi şüurun yönümü deterministik təbiətli idi. Deterministik təfəkkür Heraklitə özünün cüzi təsirini göstərsə də, Heraklit üçün bütövlükdə dayazlığın və yalanın ifadəsi idi və bu səbəbdən də onun ruhuna yad idi. Heraklit adi şüura nifrət edir və adi şüurun daşıyıcılarına qarşı etinasızlıq göstərirdi. Adi şüur da öz daşıyıcılarının simasında Heraklitə qarşı saymamazlıq olmasa da, ən azı anlaşılmazlıq nümayiş etdirirdi.

Qərb fəlsəfəsində elita nəzəriyyəsinin banisi olan və antik dünyanın *yeddi müdrik*dən biri kimi tanıdığı *Biant* Heraklit tərəfindən adı rəğbətlə çəkilən yeganə insan idi.

Heraklitin əksəriyyətə verdiyi səciyyə Lebonun, Tardın, Orteqanın kütləyə verdiyi səciyyəyə necə də bənzəyir?! Heraklitin sələfləri ona necə də oxşayırdılar?!

Heraklit *kütlə* haqqında *"hər gün eşitdiyi ilahi səsi eşitmədiyi üçün kardır, hər gün gördüyü ilahi ruhu görmədiyi üçün kordur",* deyirdi. Heraklit özünün görə bildiyi və gördüyü bu ilahi ruhu, özünün eşidə bildiyi və eşitdiyi bu ilahi səsi ***loqos*** adlandırır.

Heraklit əmindir ki, onun tərəfindən həmişə nifrətlə damğalanan əksəriyyət loqos haqqında eşitsə də, eşitməsə də onu başa düşmək qabiliyyətinə malik deyildir.

Heraklit fəlsəfəsinin başlanğıcını təşkil edən *loqos* anlayışı müəyyən dərəcədə qədim çinlilərin *dao* anlayışına yaxındır. O da *dao* kimi obyektiv mövcud olsa da insanlar üçün anlaşılmazdır. Lakin, *daosizm*in rəiyyət mənşəli *dao*sundan fərqli olaraq Heraklitin zadəgan mənşəli olan *loqos*u, heç də hamı üçün deyil, *əksəriyyət* üçün anlaşılmazdır.

Yunan sözü olan *loqos* dilimizdə işlənən «söz», «fikir», «anlayış», «zəka» ifadələrinə çox yaxındır. Lakin, Heraklit loqosu təkcə insana aid etməyib, insandan kənarda da onun obyektiv mövcudluğunu qəbul edir. *Loqos* real mövcud olmaqla yanaşı bütün dünyanın əsasını təşkil edir. O, ən ümumidir, zəruridir və daimidir. Heraklitdə *loqos* bütün dünyanı saran *Dünya Zəkası*dır.

Antik təfəkkürün müasir səciyyələndirilməsi burada insan zəkasının kosmosa şamil edildiyini güman edir. Lakin, antik təfəkkürün özü isə bunun əksinin qəbul olunmasından çıxış edirdi. İnsan dərrakəsi antik təfəkkür baxımından öz-özlüyündə zəka deyildir, həqiqi zəka dünya zəkasıdır, kosmosun ruhudur. İnsan *Dünya Ruhu*nu yalnız öz içərisində duyduqda, *Dünya Zəkası*nı yalnız öz içərisində dərk etdikdə onun insani ağlı həqiqiləşir və hətta ilahiləşir və *zəka* olur. Əgər insanlar öz münasibətlərində nizam yaratmaq istəyirlərsə, onda *Dünya Nizamı*nı qərarlaşdıran zəkaya malik olmalıdırlar. Bütün insani qanunlar vahid ilahi qanunla nizamlanmalıdır.

Heraklit fəlsəfəsinin bu müddəası Hippokratın dünyagörüşü ilə müəyyən mənada üst-üstə düşür. Hippokrata görə, insani qanunlar və təbiət bir-birinə uyğun gəlmir. Çünki qanunları insanlar heç bir zəminə əsaslanmadıqları şəraitdə yaratdıqları halda bütün şeylərin məntiqi təbiəti tanrılar tərəfindən qərarlaşdırılmışdır. Hippokratın Tanrıya aid etdiyi qüdrəti Heraklit həm də zadəgana aid edir.

Heraklitin *loqos* anlayışı aristokratik dünyaduyumun fəlsəfi kateqoriyalarla rasionallaşdırılması yolunda ilk addımdır. Lakin, biz

Heraklitdə zadəgan dünyagörüşünün fəlsəfi kateqoriyalarla ifadəsindən daha çox, cəngavər ruhundan doğan pafosu görürük. Heraklitdə aristokratizmin fəlsəfi kateqoriyalar sistemi hələ ki yaradılmamışdır, bu sistem yalnız axtarılmaqdadır.

Heraklit aristokratik ruhu adi dil vasitəsilə ifadə etmək istədiyi üçün adi dilin özünü son dərəcə mürəkkəbləşdirmiş və adi oxucu üçün anlaşıqsız etmişdir. Adi oxucunun deterministik təfəkkürü baxımından Anaksimenin *Təbiət haqqında* adlandırdığı əsər nə qədər anlaşıqlı, aydın, ardıcıl və məntiqi idisə, Heraklitin *Təbiət haqqında* adlandırdığı əsər bir o qədər anlaşıqsız, dumanlı, tutqun və ziddiyyətli idi. Anaksimen intuitiv olaraq determinizmə söykəndiyi halda, Heraklit intuitiv olaraq subyektivizmə söykənirdi. Əgər Anaksimendə elmi təfəkkür öz təşəkkül mərhələlərindən birini tapmışdısa, Heraklitdə daha çox mifik təfəkkür ön plana çıxarılırdı. Burada aydın və birmənalı məntiqdən daha çox mifologemalar, metaforalar və obrazlar üstünlük təşkil edir, fəlsəfi terminologiyanın, xüsusi fəlsəfi kateqoriyaların yerində fəlsəfi obrazlar durur.

Fəlsəfi obraz bir çox hallarda fəlsəfi kateqoriyaların təşəkkül prosesində bir mərhələni təşkil edir. Əgər fəlsəfi ideya özünün tamamlanmış ifadəsini fəlsəfi kateqoriyada tapırsa, onun ilkin ifadəsi fəlsəfi obrazdır. Fales üçün su, Anaksimen üçün hava reallıqdan daha çox belə bir fəlsəfi obraz idi. Fəlsəfi obrazlardan Heraklit üçün ən mühümü *od obrazı*dır. Kainat Heraklitdə bəzən gurlaşıb alışan və bəzən də zəifləyib sönən əbədi və canlı odun fonunda təsvir olunur. Məhz həmin od Kainata *kosmos* xarakterini verir. Lakin, bu od öz izafiliyi ucbatından *kosmos*u məhv də edə bilir, bu halda dünya alışıb-yanan nəhəng bir tonqala çevrilir. Eyni zamanda, kosmik odun çatışmamazlığı ucbatından, onun kifayət qədər olmaması üzündən Dünya öz gözəlliyini və əzəmətini tədricən itirir. Kosmik odun qoynunda Dünyanın alışması və sonradan sönməsi prosesləri daimi olaraq bir-birini əvəz edirlər.

Heraklitin *Od* ideyası müasir zəmanənin hakim bilik stereotiplərini mənimsəmiş adi şüuru üçün nağıla bənzəyir. Lakin, bu şüur odlu qəlbin təmizliyə və həqiqətə bağlılığını da başa düşə bilmir və

başa düşmür. Əlbəttə ki, mifologiya adi şüur daşıyıcılarının gözündə nağıldır, müasir adi şüur hesab edir ki, insanlar təbiət qanunlarını bilmədikləri zamanlarda, elmlərin inkişaf etmədiyi ibtidai dövrdə, təbiət hadisələrinin səbəblərini başa düşmədikləri şəraitdə öz avamlıqları ucbatından mövhumata və xurafata qapılaraq təbiət qüvvələrini ilahiləşdirmişdir. Lakin, onu da xatırlatmaq yerinə düşərdi ki, müasir kosmologiyanın ən mühüm hipotezlərindən biri – *Böyük Partlayış İdeyası* – heç də Qalileyin astronomik mülahizələrini və ya Keplerin qanunlarını deyil, məhz Heraklitin ideyalarını yada salır. *Böyük partlayış ideyası* qətiyyən deterministik elmi paradiqma əsasında deyil, dünyanın mifik anlaşılma modeli əsasında təşəkkül tapmışdır. Bu ideya elə buna görə də müasir elmdən daha çox mifə bənzəyir. Lakin, bu mif kosmosentrizmin plebey ruhlu determinizm tərəfindən yaradılmış karikaturası deyildir, aristokratik rasionallaşdırılmasının bir ifadəsidir. Görünür ki, plebey mənşəli olan deterministik elmi paradiqma öz hakim mövqeyini getdikcə daha çox cəngavər-zadəgan mənşəli olan kosmosentrik elmi paradiqmaya verməkdədir.

Heraklitin odla bağlı düşüncələrinin qaynağında zərdüştçülüyün durduğunu güman etmək üçün də kifayət qədər əsas vardır. Yeri gəlmişkən qeyd edim ki, Zərdüşt ruhunun və atəşpərəstliyin hər dəfə təzədən dirçəldilməsi cəngavər-zadəgan ruhunun bu və ya digər tarixi intibahı ilə bağlı olmuşdur. Sührəvərdi tərəfindən yaradılan və müsəlman dünyasında geniş yayılan *işraqilik* təlimində, Nitşenin *Zərdüşt belə demiş* adlı əsərində və ən nəhayət, Asif Əfəndiyevin *mütləqə inam* təlimində zərdüştçülük motivləri cəngavər-zadəgan ruhunun məhz belə bir intibahıdır.

Bəxtiyar Vahabzadənin o məşhur dahiyanə sözləri də bu qəbildəndir:

Yaşamaq yanmaqdır,
yanasan gərək.
Həyatın mənası yalnız ondadır.
Şam əgər yanmırsa, yaşamır demək,
Onun da həyatı yanmağındadır.

Yenidən Heraklitə qayıdaq. Heraklitin od obrazını rasional olaraq necə şərh etmək olar? Odun fəlsəfi mənası nədədir?

Od nədir? Qaranlığın zindanından qurtaran işıqdırmı? Yer tərəfindən qandallanmış Səmanın özünün bu qandallarını qırmasıdırmı? Sükunətin inersiya bəndlərini dağıdan hərəkətmi? Materiyanın həbs edərək saxladığı enerjinin xilas olaraq yenidən sonsuzluğa yayılmasıdırmı? Ruhun onu alçaldan maddilikdən qurtularaq yüksəlməsidirmi? Azadlıq əzminin zərurət əsarətinə qarşı üsyanıdırmı? Xalisliyin dünyanın çirkablarından qopub ayrılmasıdırmı? Yalan dünyanın zülmündən həqiqətin qurtulmasıdırmı?

Odun təbiəti ilə bağlı suallara Heraklit bir sıra metaforik cavablar verir. Bu cavablar aşağıdakı dörd müddəaya gətirilə bilər. Heraklitdə Od əvvəla, Dünya Ruhudur, dünyaya canlılıq verən başlanğıcdır. Heraklit kosmosentrizmin tərəfdarı olmaqla hilozoistdir. İkincisi, Od Səmanın timsalıdır. Heraklitdə Yer Odun «aşağı enməsi» və «çatışmazlığı» nəticəsində yaranmışdır. Od Yerdə özünün «izafiliyi» ucbatından isə «yuxarı yüksəlir». Üçüncüsü, Od həm də ilahi təbiətli olmaqla Dünya Zəkasıdır, öncə xatırladılan loqosdur, loqosun bir qədər başqa cür adlandırılmasıdır. Dördüncüsü, dünyanı daimi hərəkətə təhrik edən Dünya İradəsidir. Heraklitin məşhur *Hər şey axır* ifadəsi Dünya İradəsinin və Talenin Dünya və İnsan üzərində diktəsini ifadə edir.

Heraklitdə Od Yer materiyası ilə birləşərkən Yer üzərində gizli harmoniya yaradır, Yer üzərindəki həyata, o cümlədən insan həyatına başlanğıc verir. Heraklit odu insan ruhunun təcəssümü olaraq təsəvvür edir. Lakin, maddi olaraq gerçəkləşmə prosesində od elə bil ki, maddiliklə, əgər belə demək mümkündürsə, çirklənir. Heraklitin təsəvvüründə insan ruhu çirklənərkən təkcə oddan ibarət deyil, həm də sudan ibarət olur. İnsan qəlbində od suyu üstələdikcə insan öz idealına yüksəlir. Quru, yəni odlu qəlb ən müdrik və ən yaxşı kimi səciyyələndirilir. Heraklit tərəfindən odlu qəlbin tərənnümü mübarizə və müharibə qarşısında heyranlıqla tamamlanır. Əgər «Müharibə hər şeyin atası, hər şeyin hökmdarıdır» deyərkən Heraklit müha-

ribədə cəmiyyətin hərəkətverici başlanğıcını görürdüsə, «*Müharibə hökmdar olmaq üçün doğulanları hökmdarlıq zirvəsinə yüksəldir, kölə olmaq üçün doğulanları isə kölə səviyyəsinə endirir*» deyərkən müharibədə dünyanı nizama salmalı olan və nizama salan bir başlanğıcı görürdü.

Lakin, Heraklitin bu döyüş əzmini, cəngavər ruhunu onun həmvətənləri başa düşmürdülər. Heraklitin kütləvi şüura təsiri yox dərəcəsində idi. Heraklit kütlədə ötən əsrlərin əhvali-ruhiyyəsini özündə saxlayan muzey eksponatı təəssüratı yaradırdı. Heraklit elə buna görə də insanlardan uzaqda, dağlarda, komada yaşayırdı, zahid həyatını keçirirdi. Sülh tərəfdarı olan və bütövlükdə öz maddi rifahının yaxşılaşdırılması ilə qayğılanan kütlənin müharibəni vəsf edən və zahid həyatını rahat və təhlükəsiz həyatdan daha üstün hesab edən müdrikə və onun mifik fəlsəfəsinə ehtiyacı yox idi.

Mifologiyaya və onda gizlənən qəhrəmanlıq əzminə ehtiyac o zaman yarandı ki, kütlənin rahat həyatına Əhəmənilər tərəfindən təcavüz olundu. Bu ehtiyac özünün bədii həllini ***Esxil***də, praktik həllini yunan-İran müharibələrində, fəlsəfi həllini isə ***Anaksaqor***da tapdı. Anaksaqor Heraklit tərəfindən əsası qoyulan aristokratik fəlsəfənin varisi oldu.

Anaksaqor mənşəyi etibarı ilə Kiçik Asiyanın Klazomen şəhərindəndir. Lakin, ömrünün otuz ilini Afinada keçirmişdir. Əgər qədim yunan fəlsəfəsini coğrafi nöqteyi-nəzərdən dövrlərə bölmək mümkündürsə, onda Anaksaqoru bu fəlsəfənin inkişafında üçüncü dövrün başlanğıcı kimi qiymətləndirmək lazım gəlir. Belə ki, antik fəlsəfə öz inkişafına qədim yunan fəlsəfəsinin şərqində – Kiçik Asiyada başlayır. Ksenofan və Pifaqor bu fəlsəfəni yunan dünyasının qərbinə – cənubi İtaliyaya gətirirlər. Anaksaqordan başlayaraq isə antik fəlsəfənin mərkəzi qədim yunan dünyasının mərkəzinə - Afinaya keçir. Amma ömrünün axırına yaxın cəmiyyətin yenidən

son dərəcə praqmatikləşməsi ilə bağlı Anaksaqor siyasi təqiblərə məruz qalır və Afinadan baş götürüb getməyə məcbur olur.[1]

Yunan-İran müharibələrində yunanların qələbəsindən bir müddət keçdikdən sonra cəmiyyəti yenidən öz ağuşuna alan sakit azğınlığa, ədalətsizliyə və haqsızlığa qarşı etiraz ***Platon***un simasında aristokratik ruhu yenidən dirçəltdi.

Platon artıq qeyd olunduğu kimi yüksək aristokratik ruhun daşıyıcısı idi. Platonun atası Ariston sonuncu Attika çarı *Kodr*ın, anası *Periktiona* isə qədim Yunanıstanda yeddi müdrikdən biri kimi tanınan *Solon*un nəslindəndir.

Platon haqqındakı çoxsaylı rəvayətlərin birində onun ilahi mənşəli olmasından danışılır. Platon haqqında başqa bir əfsanədə deyilir ki, o, anadan olanda anası Periktiona onu Apollonun dağlarda yerləşən məbədinə aparır. Oradan qayıdarkən Periktiona dodaqlarının və dilinin bal daddığını duyur. Əfsanəyə görə, Periktiona öz oğlu ilə danışanda ağzından bal kimi şirin sözlər süzülsün deyə Apollon qəsdən belə etmişdi.

Platonun genetik olaraq mənimsədiyi və fəlsəfi olaraq rasionallaşdırdığı aristokratik ideal onun yaşadığı dövrdə gerçəkləşdirilmədi. Lakin, Platonun aristokratik idealı ilə dövrün siyasi gerçəkliyi arasındakı ziddiyyət onun həyatında dərin iz buraxdı. Platon özünün məşhur Siciliya səfərlərində bu ziddiyyəti bütün çılpaqlığı ilə yaşadı. Dahi filosof ilk dəfə bu adaya səyahət edərkən oranın hökmdarı Böyük Dionisinin yaxın qohumlarından biri olan Dion ilə dostlaşır. Amma bu dostluq az qala faciəyə gətirib çıxarır. Sarayda baş verən hansısa çəkişmələrdənsə əsəbləşmiş Dionisi Platonu qul əvəzinə satmağı əmr edir. Platon doğrudan da Egina adasına gətirilir və burada qul bazarında satılır. Platonu bir qul kimi Annekerid adlı bir nəfər alır, lakin onun kim olduğunu bilərək azadlığa buraxır.

[1]Yeri gəlmişkən, onu da qeyd edim ki, Anaksaqor antik dünyanın təqiblərə məruz qalan son filosofu deyildi. Bu mənada onun taleyi Protaqorun, Sokratın, Aristotelin, Boetsinin taleləri ilə ümumilik təşkil edir.

Platonun dostları bundan xəbər tutur və Annekeridə onun Platonu «almaq» üçün verdiyi pulları qaytarmaq istəyirlər. Lakin Annekerid imtina edir. Platon bu pullarla Afina şəhəri yaxınlığında bir bağ alır və burada özünün fəlsəfi məktəbini yaradır. Eramızdan əvvəl 387-ci ildə yaradılmış fəlsəfi məktəb yerli qəhrəmanın, *Akadem*in şərəfinə Akademiya adlandırılır. Akademiya Pifaqor İttifaqından fərqli olaraq qeyri-dini və açıq xarakter daşıyırdı.

Böyük Dionisinin ölümündən sonra Dion Platona məktub yazaraq onu inandırmağa çalışır ki, yeni hökmdar – kiçik Dionisi – Platon fəlsəfəsinə son dərəcə məftundur və öz dövlətində onun yüksək ideallarını həyata keçirmək fikrindədir. Böyük filosof buna inanır. Altmış yaşlı Platon ikinci dəfə Siciliyaya gedir. Lakin, bu dəfə də münaqişələrlə, məhv olma təhlükəsi ilə qarşılaşaraq geriyə üz tutur.

Platonla pis davrandığı üçün bütün Yunanıstanın onu lənətləyəcəyindən qorxduğundan Dionisi Platona onun qayıtması üçün yalvarışlarla dolu məktublar göndərir. Nə qədər təəccüblü olsa da, Platon üçüncü dəfə Siciliyaya gəlir. Dionisi onu çox böyük hörmətlə qarşılayır, öz sarayında ona yer ayırır, qayğı və etimad göstərir. Lakin gözlənildiyi kimi onlar arasındakı münasibətlər bu dəfə də getdikcə soyuyur. Platonun yüksək ideallarını gerçəkləşdirmək üçün Dionisi özündə qüdrət tapa bilmir. Platon yenidən və birdəfəlik öz doğma Akademiyasına qayıdır. Zəkanın böyüklüyü ilə iradənin cılızlığı arasındakı ziddiyyət həll olunmamış qalır.

Platon utopiyasını artıq qeyd olunduğu kimi yalnız onun ölümündən sonra və müəyyən dərəcədə ***Makedoniyalı İsgəndər*** gerçəkləşdirdi.

Makedoniyalı İsgəndərin ölümündən sonrakı dövrdə aristokratizm həsrəti öz ifadəsini ***stoisizm***də tapdı. Lakin, stoisizmin aristokratik ruhunu yunanlar deyil, romalılar gerçəkləşdirdilər və yunanların özlərini də işğal etdilər.

Heraklit-Anaksaqor-Platon-stoisizm xətti üzrə inkişaf edən aristokratik yunan fəlsəfəsi ***neoplatonizm***də tamamlandı.

Əgər antik fəlsəfənin birinci, deterministik istiqaməti cahanşümul əhəmiyyətli bir hadisəni – dünyəvi elmi formalaşdırdısa, əgər

ikinci, transsendental istiqamət dünya dinlərindən birinin – xristianlığın təşəkkülünü şərtləndirirsə, üçüncü, kosmosentrik istiqamət dünya tarixinin ən əzəmətli və ən qüdrətli hadisələrindən birini – Bizans imperiyasını törətdi. Kosmosentrik yunan fəlsəfəsinin son həlqəsi olan neoplatonizm bu nəhəng imperiyanın yaradılması üçün fəlsəfi zəmin oldu. Yunan gerçəkliyi özünü öz aristokratik fəlsəfəsi əsasında yenidən qurdu və bununla da özünün alçaldılmış və əzilmiş vəziyyətinə qarşı üsyan qaldıraraq öz əvvəlki əzəmətini və qüdrətini bərpa etdi.

Lakin, əsrlər keçdikcə zadəgan ruhuna daha çox yadlaşan Bizans hakimiyyəti bu ruhun fəlsəfi nəzəriyyəsindən, neoplatonizmdən də uzaqlaşdı. Zadəgan ruhunu itirmiş xalq isə məhvə məhkumdur. Aristokratik ruhun hökmranlığına yenidən yaranan tarixi ehtiyac Osmanlılar tərəfindən ödənildi. Yunan Platona və neoplatonizmə layiq olmaq qüdrətini itirdi, Osmanlı ***Rumi***yə və ***sufizm***ə layiq olduğunu sübut etməli oldu.

Əgər aristokratik ruhun qədim yunan fəlsəfəsində Heraklit tərəfindən əsası qoyulan təsviri Platonun şəxsində öz qüdrətli davamçısını tapırsa, qədim Çin fəlsəfəsində Konfusinin belə bir qüdrətli davamçısı ***Men-tszı*** oldu.

Əgər legizm *Şan Yan*ın timsalında hökmdarın, vanın mövqeyini və dünyagörüşünü ifadə edirdisə, Men-tszı aristokratiyanın mövqeyinin və dünyagörüşünün ifadəçisi oldu. Men-tszı Konfusinin nəvəsinin yanında şagird olmuşdu. Onun ideya müəllimi isə Çin fəlsəfi ənənələrinin düzgün olaraq qəbul etdiyi kimi Konfusinin özü idi. Men-tszı Konfusi ideyalarının siyasi olaraq gerçəkləşdirilməsinə nail olmasa da, bu ideyalara *moizm* və *legizm* tərəfindən atılmış çirkabların onlardan ayrılmasına, *moizm*ə və *legizm*ə müxalifət mövqeyindən bu ideyaların inkişaf etdirilməsinə, cəmiyyət içərisinə yayılmasına, konfusiçiliyin orijinal bir məktəbinin yaradılmasına nail oldu.

Men-tszı ilk növbədə legistlərin *qanun qarşısında bərabərlik ideyasına müxalif* idi. Legizm qanun vasitəsilə zadəgan və rəiyyət arasındakı fərqi silmək istədiyindən Men-tszı tərəfindən qamçılanırdı. Zadəganlığı yüksək mənəviyyatlılığın timsalı kimi başa düşən

konfusiçi təfəkkür ənənələrinə sadiq olan Men-tszı əmin idi ki, legistlərin zadəgan və rəiyyət arasındakı fərqi silmək istəyi, qanun qarşısında bərabərlik prinsipinin bəyan edilməsi heç də hamının mənən yüksəldilərək zadəganlaşdırılmasına xidmət etməyib, hamının əksinə olaraq yüksək mənəviyyatdan məhrum edilərək rəiyyətləşdirilməsinə xidmət edir: Qanuna əsaslanan idarəetmədə insanlar cəzadan yan keçməyə çalışdıqları üçün və dövlətdən, dövlətin xəzinəsindən daha çox faydalanmaq istədikləri üçün hiyləgərlik edirlər, yaltaq olurlar, ikiüzlüləşirlər, bir sözlə, ləyaqət hissini itirirlər.

Men-tszı bir zadəgan olaraq hesab edirdi ki, insan öz təbiəti və mahiyyəti etibarı ilə nəcib və ləyaqətlidir. Legistlərin qanun ideyası və qanun qarşısında bərabərlik prinsipi isə insanın bu nəcabət və ləyaqət hisslərini boğur, insan təbiətini eybəcərləşdirir.

Men-tszının legizmə qarşı mübarizəsinin başlıca qayəsi və əsas müddəası ondan ibarət idi ki, insan özünün ləyaqətli təbiəti üzərində zorakılıq göstərən və qanunun formal tələbi ilə ifadə olunan eybəcər sosial təzyiqdən azad edilməlidir.

İndiki dövrün *qanunun aliliyi* tələbi işığında *qanun qarşısında bərabərlik prinsipi*nə və qanunun mütləqləşdirilməsinə qarşı Men-tszı müqavimətini anlamaq bəlkə də çətindir. Lakin, digər tərəfdən, qanun insanın azad ruhunu *doğrudan da* müəyyən mənada əzir: Əgər cinayət və cəza arasındakı birmənalı münasibətlər sistemi bütün əhaliyə şamil edilərək bütün əhalini qorxu altında saxlamaq məqsədilə yaradılırsa, xidmət və mükafat arasındakı birmənalı münasibətlər sistemi əhalinin bir hissəsini kölələşdirmək, kölə şüurunun daşıyıcısı olan məmur kütləsini formalaşdırmaq məqsədilə yaradılır. Bu səbəbdən, qanun bir tərəfdən şantajın bəraətləndirilmə formasına, digər tərəfdən isə leqallaşdırılmış – sanksiyalaşdırılmış – şirnikləndirməyə bənzəyir. Şantaja baş əyən və şirnikləndirilməyə uyan insan əlbəttə ki, mənən eybəcərləşməyə bilməz.

Men-tszı bir konfusiçi olaraq əmin idi ki, insan legizmin onun üçün qurduğu və qanunun formal tələbi ilə ifadə etdiyi köləlik tələsindən yalnız adların təshihi prinsipini həyata keçirməklə, yəni sosial mövqenin təbii təyinata uyğunlaşdırılması yolu ilə xilas edilə

bilər. Men-tszı bütün qəlbi ilə inanır ki, adların təshihi ideyasının gerçəkləşdirilməsi sosial nizamı bərqərar edəcək və insanlarda ləyaqət hissini meydana çıxaracaqdır.

Men-tszı konfusiçiliyin ideyalarını bir qədər aktuallaşdıraraq onları *moizm*in və *legizm*in əleyhinə yönəltdi. Başqa bir Çin filosofu, Men-tszının müasiri olan *Çjuan-tszı* isə *moizm*in və *legizm*in əleyhinə *daosizm*i qoydu. Maraqlıdır ki, *Lao-tszı*nın ideyalarını yenidən aktuallaşdıran Çjuan-tszı özünü həm də eyni zamanda konfusiçiliyə qarşı qoydu. Bu da təsadüfi deyildi. Rəiyyət ruhunu ifadə edən daosizm əlbəttə ki, zadəgan ruhunu ifadə edən konfusiçiliyə mənən yad idi.

Men-tszı adların təshihi ideyasını həyata keçirməklə cəmiyyətdə təbii nizamı bərqərar etmək əzmində idi. Lakin, aristokratik mənşəli olan bu ideya aristokratiyanın tənəzzülü şəraitində gerçəkləşdirilmədi və gerçəkləşmədi, sxolastika və spekulyasiya mənbəyinə çevirdi, nəzəri mübahisələr üçün mövzu oldu. Bu spekulyasiya əsasən ***mintsya məktəbi***ndə aparıldı. Mintsya məktəbində geniş müzakirə olunan fikirlər təxminən belə idi: dəyişilən şeylərin özləridir, onların haqqındakı həqiqi bilik isə, onların həqiqi adları isə dəyişməzdir, həqiqi varlıq hisslərlə qavranılan dünyada müşahidə etdiyimiz predmetlər olmayıb, onlardan asılı olmayan anlayışlardır, adlardır. Təəssüflə qeyd etmək lazım gəlir ki, mintsya məktəbində müzakirə olunan bu fikirlər yarımçıq fikirlər idi, hələ ki ideya səviyyəsinə gəlib çatmamış fikirlər idi. İdeya isə görünür ondan ibarət olmalı idi ki, dünya onun mahiyyətini təşkil edən adlara uyğunlaşdırılaraq həqiqiləşdirilməli, ədalətliləşdirilməli və gözəlləşdirilməlidir. Aristokratik zəka aristokratik iradə ilə tamamlanmalı idi. Lakin, mintsya məktəbi bu iradəni tanımırdı. Hətta mintsya məktəbinin ən nüfuzlu nümayəndəsi olan ***Qunsun Lun*** da özündə bu iradəni hiss etmədiyindən sxolastika torunu dağıdaraq spekulyasiya əsarətindən xilas ola bilmədi.

Adların təshihi ideyası konfusiçi siyasi doktrinadan ayrılaraq spekulyasiya mənbəyinə və sxolastika mövzusuna çevrildikcə konfusiçi siyasi doktrina da özünün aristokratik qaynaqlarını tədricən

itirməyə başlayır. Bu hadisənin ən parlaq ifadəsini *Syun-tszı*nın timsalında görmək olar. Həqiqi konfusiçi olan Men-tszı insanı öz təbiətinə görə ləyaqətli hesab edirdi və əmin idi ki, mahiyyəti etibarı ilə xeyirxah olan insan istər mükafatlanma xatirinə, istərsə də qorxu ucbatından özü üzərində zorakılıq etdikcə zalımlaşır və ləyaqət hissini itirir. Formal konfusiçi olan Syun-tszı isə insanı öz təbiətinə görə vəhşi hesab edirdi və onu dinləyənləri inandırmağa çalışırdı ki, mahiyyəti etibarı ilə zalım olan insan mükafatlandırılma və cəzalandırılma yolu ilə həyata keçirilən tərbiyə nəticəsində fəzilətli olur. Əgər Men-tszı fəlsəfəsi həqiqi konfusiçiliyin ifadəsi olmaqla zadəgan dünyaduyumunu rasionallaşdırırdısa, Syun-tszının fəlsəfəsi hökmdarın despotik fəaliyyəti üçün nəzəri bəraətləndirmə idi.

Syun-tszı formal olaraq konfusiçilik məktəbinə aid edilsə də, əslində legizm mövqeyində durdu, insanı və cəmiyyəti məhz bu mövqedən izah etdi. Heç də təsadüfi deyildir ki, legizmin sistemləşdirilməsi məhz onun şagirdi *Xan Fey-tszı* tərəfindən sona çatdırıldı. Konfusiçiliyin bütün ruhuna və ideyalarına düşmən olan və onlara qarşı mübarizə aparan Xan Fey-tszı siyasi nəzəriyyənin məqsədini hökmdar hakimiyyətinin möhkəmləndirilməsi yolu ilə mərkəzləşdirilmiş dövlətin yaradılmasına xidmətdə görürdü.

Lakin Xan Fey-tszı nə qədər nüfuzlu olsa da, əlbəttə ki, konfusiçilik üzərində qəti qələbə çala bilmədi. Konfusiçi və legist doktrinalar arasındakı mübarizə Xan Fey-tszı zamanında və ondan sonra da davam etdi. Xan Fey-tszı dövrünün ən böyük konfusiçisi Lyuy Bu-vey, Xan Fey-tszıdan sonrakı dövrün ən böyük konfusiçisi isə ***Dun Çjun-şu*** idi. Dun Çjun-şu «Xan dövrünün Konfusisi» adlandırıldı.

Konfusiçilik və legizm cərəyanları arasında Dun Çjun-şuya qədərki Çinin demək olar ki, bütün fəlsəfi inkişafı üçün səciyyəvi olan mübarizə Dun Çjun-şu tərəfindən müəyyən mənada başa çatdırıldı. Dun Çjun-şu öz fəlsəfəsinə legizmin də məzmununu daxil etdiyindən əslində legizmi bir ideya cərəyanı kimi məzmundan məhrum etdi və bununla da onun bir cərəyan olmaq etibarı ilə fəaliyyətinə

son qoydu. Lakin, legizm bir ideya kimi Çinin bütün tarixi boyunca öz mövcudluğunu saxladı.

Legist ideya «Xan dövrünün konfusiçiliyi»ndə, «Xan dövrünün Konfusisi» Dun Çjun-şunun konfusiçiliyində özünə rahat yuva qurmuşdu. Bu yuva Dun Çjun-şunun tarixi dövrləşmə probleminə verdiyi izahda xüsusən aydın şəkildə görünür. *Tarix*i üç mərhələdən ibarət tsiklik proses kimi şərh edən Dun Çjun-şu *birinci mərhələ*nin səciyyəvi xüsusiyyəti kimi *sədaqətliliy*i, onun simvolu kimi isə *qara rəng*i, *ikinci mərhələ*nin səciyyəvi xüsusiyyəti kimi *hörmət-ehtiramı*, onun simvolu kimi isə *ağ rəng*i, *üçüncü mərhələ*nin səciyyəvi xüsusiyyəti kimi *mədəniliy*i, onun simvolu kimi isə *qırmızı rəng*i göstərdi. Konfusiçiliyin və legizmin özünəməxsus sintezini ifadə edən bu ideya ikinci əsrdə *He Syu* tərəfindən legistləşdirildi. He Syu qeyd edirdi ki, Dun Çjun-şunun üç mərhələli tsikl ideyası düzgündür, lakin bu mərhələlərə onun tərəfindən verilmiş şərh düzgün deyildir: birinci dövrün əsl adı sakitlik, ikincinin – təqribi sakitlik, üçüncünün isə sükut və iğtişaşdır. He Syu bununla da Dun Çjun-şu təlimində məhz legist məzmunu ön plana çıxardı.

Çin tarixinin hər bir dövründə legist və konfusiçi ideyalardan ikisindən biri aparıcı mövqeyə malik olmuşdur. Əgər Çin tarixində cəngavərliyin yüksəliş dövrləri konfusiçiliyi ön plana çıxarmışdısa, şəhərlərin yüksəlişi legist ideyaları diqqət mərkəzinə gətirmişdir.

Ümumiyyətlə, qeyd oluna bilər ki, Qədim Çin zəminində təşəkkül etmiş və öz inkişafını tapmış ideyalar Çinin demək olar ki, bütün tarixi boyunca öz mövcudluqlarını saxlamışlar. Konfusiçilik və legizm haqqında tam hüquqla söylənilə bilən bu sözləri digər cərəyanlara da aid etmək olar. Əgər ənənə *Dun Çjun-şu*nu «Xan dövrünün Konfusisi» kimi səciyyələndirirsə, məncə *Van Çun* da «Xan dövrünün *Yan Çju*su» adlandırıla bilər. Yan Çju Konfusinin tənqidçisi olduğu kimi *Van Çun* da *Dun Çjun-şu*nun tənqidçisi idi.

*Van Çun*un *Dun Çjun-şu*ya qarşı həmləsi ilk növbədə *Xan sülaləsi*nin aristokratik ruhunun zəifləməsindən xəbər verirdi.

Hakimiyyət aristokratizminin zəifləməsi xalqın hakimiyyətə, hakimiyyətin himayəsinə olan inamını da tədricən zəiflətməyə baş-

lamışdı. Xalqın dövlət hakimiyyətindən daha güclü və daha ədalətli bir qüdrətə sığınma istəyi transsendental dini, Tanrını dünyanın fövqündə duran və onu öz iradəsinə tabe etdirən fövqəlbəşər şəxsiyyət kimi, ən başlıcası isə insanın mütləq himayəçisi kimi anlayan dünyagörüşü diqqət mərkəzinə gətirdi. Çinlinin bir rəiyyət kimi özünüdərki bir bəndə kimi özünüdərkə transformasiya etdi.

Transsendental din daosizm ənənələri üzərində cücərdi. Bu da təsadüfi deyildi. Daosizm lap başlanğıcdan icmaçı təbiətli olmaqla transsendental meyilli idi.

Xan sülaləsi öz hökmranlığının sonuna yaxınlaşdıqca daosizm *həm də* eyni zamanda *hakimiyyətin* dünyaduyumunu ifadə edərək onun dünyagörüşünə çevrilməyə başlayır. Hakimiyyət aristokratik konfusiçiliyə yadlaşaraq icmaçı daosizmlə doğmalaşır. Bu isə ondan irəli gəlirdi ki, hakimiyyət nəinki xalqı himayə etmək iqtidarını və istəyini itirmişdi, hətta özü də himayəyə sığınmaq istəyində idi.

Daosizm özünün transsendental dinə doğru inkişafını *buddizm*dən bir sıra ideyaları mənimsəməklə məntiqi sona çatdırdı. Daosizmin və buddizmin bir sıra ideyalarını özünəməxsus şəkildə sintez edən *Daoan*ın şagirdi *Huey-yuan* icmanı – «*sanqha*»nı – hökmdara və hakimiyyətə qarşı qoyaraq və transsendental kontekstdə anlaşılan, yəni dünyanın fövqündə duran şəxsiyyət kimi qəbul edilən Vahid Tanrı – *Amitabha* – kultunu yaratmaqla dini dünyagörüşün, daha dəqiq deyilərsə, transsendental dinin formalaşma prosesini sona çatdırdı. *Amidaizm* adlandırılan bu din cəmiyyətdə hakim mövqe tutduqca Çin tarixinin ortaəsrçilik dövrü başlayır.

Amidaizm Çində buddizmin ilk variasiyası kimi təşəkkül tapdı. Bu, icmaçı variasiya idi. VI əsrdə isə Çində buddizmin digər variasiyası – aristokratik variasiyası meydana gəlir. Buddizmin aristokratik variasiyası rəiyyət mənşəli cərəyanların müqavimətini qıra-qıra özünü təsdiq etdi. Əgər Mo-tszı, Yan Çju, Şan Yan, Syun-tszı, Xan Fey-tszı aristokratik konfusiçiliyin düşmənləri idilərsə, onların Orta əsrlərdə davamçısı olan *Fan Çjen* isə ***aristokratik buddizm***in düşməni oldu və elə bu səbəbdən də buddizmin Çinə nüfuz etməsinə müqavimət göstərdi.

Konfusiçilik cərəyanına daxil olanlar qeyri-aristokratik mənşəli legist ideyalarla barışdıqları üçün Çinin aristokratik ruhu özünü konfusiçiliyin dilində deyil, daha çox buddizmin dilində anlaya bildi və ifadə etdi. Aristokratik buddizm ***çan*** adlandırıldı və özünü icmaçı buddizmə – *amidaizm*ə qarşı qoydu. Əgər *amidaizm* bu dünyadakı əziyyətlərin əvəzində o dünyada rahat həyata, cənnətə nail olmaq istəyənlərin buddizmi idisə, *çan* dünyanı həqiqiləşdirərək cənnətə döndərmək əzmində olanların buddizmi oldu. Əgər *amidaizm* dünyaya, dünyəvi həzlərə bağlı olanların buddizmi idisə, *çan* həqiqətə bağlı olanların buddizmi oldu. Əgər *amidaizm*də *Amida*nın (*Amitabha*nın) mərhəmətinə inam təlqin edilirdisə, *çan*da ürəyin haqq səsinə inam təlqin edildi.

Çan-buddizmin banisi ***Bodhidharma***, sonuncu böyük nümayəndəsi isə ***Hueynen*** idi. *Hueynen*dən sonra buddizmin *çan* variasiyası zəifləyir, buddizm ümumiyyətlə *amidaizm*lə eyniləşdirilir.

Sonradan aristokratik nəzəriyyəyə olan tarixi ehtiyac ***Çjou Dunyi*** tərəfindən artıq yarıunudulmuş klassik konfusiçiliyin, *Dun Çjun şu*dan əvvəlki konfusiçiliyin, *Konfusi* və *Men-tszı* konfusiçiliyinin dirçəldilməsi yolu ilə ödənilir. *Çjou Dunyi* konfusiçiliyin öz aktuallığını artıq çoxdan itirərək arxiv materialına çevrilmiş anlayış və ideyalarını yenidən həyata qaytardı, bütöv və canlı dünyagörüş kimi ***neokonfusiçilik*** cərəyanını və bəlkə də təriqətini yaratdı.

*Çjou Dunyi*nin ən nüfuzlu ardıcıllarından olan ***Çju Si*** neokonfusiçiliyi artıq əsrlər boyu *amidaizm*lə eyniləşdirilən buddizmə qarşı qoydu. *Çji Si*nin müasiri, dostu və rəqibi olan ***Lu Syan-şan*** isə konfusiçiliyi *çan*la eyniləşdirdiyi buddizmlə tamamladı, bununla da neokonfusiçiliyin alternativ doktrinasını yaratdı və həmin doktrinanı öz dostu *Çju Si*nin əleyhinə yönəltdi. Lakin, nə dostu tərəfindən edilmiş ideya həmlələri, nə də nümayəndəsi olduğu hakimiyyət tərəfindən göstərilən siyasi repressiyalar *Çju Si*nin iradəsini qıra bilmədi və nüfuzunu sarsıda bilmədi.

Hakim din olan buddizmə qarşı duran *Çju Si* əlbəttə ki, hakimiyyət tərəfindən təqiblərə məruz qalmalı idi və qaldı da. Rəiyyət ruhlu hakimiyyət *Çju Si*nin cəngavər ruhlu nəzəriyyəsinə əlbəttə ki, dözə

bilməzdi. Hakimiyyət yalnız həqiqiləşərək cəngavər mənşəli olduqdan sonra *Çju Si*ni dinləyə bildi və qəbul etdi. Bu o zaman baş verdi ki, cəngavər mənşəli və cəngavər təbiətli monqollar Çin xalqını rəiyyət mənşəli və rəiyyət təbiətli hakimiyyətdən xilas etdilər. *Çju Si*nin təlimi dövlət ideologiyasına çevrildi.

Bütün bunlarla yanaşı qeyd edilməlidir ki, *Çju Si* aristokratik ruhun daşıyıcısı olmaqdan daha çox, onun təsvirçisi, tərənnümçüsü və şərhçisi idi. Onun zadəgan ruhu qarşısında keçirdiyi heyranlıq hissi müəyyən qədər bəndənin Tanrı qüdrəti qarşısındakı heyranlıq hissinə bənzəyir. Bəndənin Tanrı qüdrətinə olan inamı əslində həmişə bəndənin *öz qüdrətsizliyi*ni aşkar və ya qeyri-aşkar şəkildə etiraf etməsi ilə tamamlandığı kimi, *Çju Si*nin də zadəgan ruhunun qüdrətinə olan inamı onun özündə daşınan ruhun qeyri-zadəgan təbiətli olması etirafı ilə tamamlanırdı. Bu etiraf *Çju Si*nin özü üçün yəqin ki, təhtəlşüur xarakterli olsa da, danılmazdır: *Çju Si*nin demək olar ki, bütün əsərləri şərh xarakterli idi.

*Çju Si* özündə duymadığı aristokratik ruhun bütövlükdə Çin xalqında daşınmasına da əmin deyildi. O, buddizmi bir əcnəbi təlim kimi inkar edərək yalnız öz doğma konfusiçiliyinə bağlı olduğunu bəyan etsə də, əslində əcnəbi mənşəli aristokratizmə xidmət edirdi. Heç də təsadüfi deyildir ki, *Çju Si* tərəfindən fəlsəfi nəzəriyyəsi yaradılan aristokratik ideal qeyri-çinlilər – XIII əsrdə monqollar, XVII əsrdə isə mancurlar tərəfindən gerçəkləşdirildi. Mancurlar da monqollar kimi ***çjusizm***i dövlət ideologiyasına çevirdilər.

Çinin özünün aristokratik ruhu isə daha çox neokonfusiçiliyin *Lu Syan-şan* – ***Van Yan-min*** qolunda rasionallaşdırdı. *Lu Syan-şan* və *Van Yan-min*in hər ikisi *Çju Si*dən fərqli olaraq aristokratik ruhun təkcə təsvirçisi deyildilər, həm də daşıyıcıları idilər. Əgər *Çju Si* xalis Çin ideologiyası olan konfusiçilik əsasında əcnəbi aristokratik ruhun rasionallaşdırılmasına nail olurdusa, *Lu Syan-şan* və *Van Yan-min* əcnəbi ideya olan buddizm əsasında Çinin özünün aristokratik ruhunun rasionallaşdırılmasına və aydınlaşdırılmasına nail olurdular. Buddizm nə *Lu Syan-şan* üçün, nə də *Van Yan-min* üçün yad ideya deyildi. Çünki onlar dünyanın mütləq ilahi mahiyyətini öz içərilərin-

də, öz ruhlarında duyduqlarından əmin idilər və onu məhz bu ideya vasitəsilə ifadə edir və göstərə bilirdilər.

*Çju Si* müəyyən mənada icmaçı idi, öz xalqının dəyərlərinə bağlı idi. *Lu Syan-şan* və *Van Yan-min* isə bir zadəgan olmaqla xarici dünyaya, ənənələrə, ənənəvi dəyərlərə deyil, daha çox ürəyə, ürəyin haqq səsinə bağlı idilər. «*Kainat mənim ürəyimdir, mənim ürəyim isə Kainatdır*», - deyən *Lu Syan-şan* neokonfusiçiliyə subyektivist ruh verir və bununla da konfusiçiliyi özünəməxsus şəkildə onun subyektivist aristokratik qaynaqlarına qaytarırdı. *Van Yan-min* də insan ürəyində həqiqəti, Kainatın həqiqi həyatını, dünyanın ilahi mahiyyətini gördüyündən əslində insan ürəyini vahid Kainatın başlanğıcı hesab edirdi.

Aristokratik ruhun daşıyıcısı olmaqla *Van Yan-min* konfusiçiliyin ən aristokratik variasiyasına, *Men-tszı* konfusiçiliyinə rəğbət göstərirdi. Konfusiçilik onların hər ikisində *xalis* aristokratizmi ifadə edirdi. İnsan ürəyinə *Van Yan-min* etibarı *Men-tszı*nın insan təbiətinin xeyirxahlığına və ləyaqətliliyinə inamının tarixi davamı idi.

*Van Yan-min* insan ürəyinə etibar etməklə, bu etibarı başqalarına da təlqin edirdi.

İnsan yalnız ürəyi təmiz olduqda, çirkdən azad olduqda və elə buna görə də aydın olduqda öz ürəyinə inana bilir.

*Van Yan-min* təmiz olduğu üçün aydın olan ürəyi tərənnüm edirdi. *Van Yan-min* elə buna görə də *Dun Çjun şu*ya münasibətdə deyil, məhz *Men-tszı*ya münasibətdə doğmalıq hiss edirdi. *Dun Çjun şu* konfusiçiliyi ürəyini dünyadan faydalanmaq meyilləri ilə çirkləndirən və bununla da zadəgan ürəyini qismən itirən, lakin zadəgan mövqelərini tam saxlayanların dünyagörüşü idi.

*Dun Çjun şu*nun təlimi yenidən o zaman ön plana çəkildi ki, hakimiyyətin zadəganlıq potensialı artıq tükənməyə doğru istiqamətlənmişdi, zadəgan mövqelərini tutanlar artıq zadəgan ruhunu daşımırdılar, zadəgan ruhunun daşıyıcıları isə öz aparıcı mövqelərini itirmişdilər. Xalis zadəgan ruhunun daşıyıcıları arxa plana keçdikcə, sinkretik ruhun daşıyıcıları ön plana keçmişdilər.

Bizim eradan əvvəl ikinci əsrdə *Dun Çjun şu*nun ifadə etdiyi sinkretik ruh XVIII əsrdə ***Day Çjen*** tərəfindən ifadə edildi. *Dun Çjun şu* konfusiçiliyinə qayıdan *Day Çjen* əlbəttə ki, neokonfusiçiliyi inkar etməli idi və inkar etdi. *Lu Syan-şan* və *Van Yan-min* konfusiçiliyini təkzib edən *Day Çjen* ilk növbədə insan ürəyinə olan etimadı şübhə altına aldı. *Day Çjen* iddia etdi ki, insan ürəyində aydın və aşkar görünən həqiqət yoxdur, həqiqətin mənbəyi gerçəkliyin təcrübi tədqiqidir. Zadəgan subyektivizmini inkar edən və rəiyyət obyektivizmi mövqeyində dayanan *Day Çjen* konfusiçiliyi rəiyyətinkiləşdirdi.

XIX əsrin başlanğıcına doğru Çində aristokratik ruhun tükəndiyi bir şəraitdə **Avropa** aristokratizminin dirçəlişi müşahidə olunur. XIX əsr Çininin Avropa tərəfindən nəzarət altına alınmasının da ən mühüm əsası da görünür elə bu idi.

XIX əsr Qərb aristokratik ruhunun ən qüdrətli ifadəçisi ***Hegel*** oldu.

Dövlətin Hegel tərəfindən onun məşhur *Hüquq fəlsəfəsi*ndə irəli sürülən aristokratik konsepsiyası Platonun siyasi doktrinasını xatırladır. Bu da təbiidir. Dövləti dövlət hakimiyyəti ilə eyniləşdirən və onu vətəndaş cəmiyyətinə qarşı qoyan Yeni dövr politologiyasından[1] fərqli olaraq, antik siyasi fəlsəfə "*dövlət hakimiyyəti – vətəndaş*

[1]"Politologiya" ifadəsi qədim yunan mənşəli sözlərdən (πολιτικά və λογος kimi yazılan iki sözdən) yaradılsa da, bu ifadəyə həmin sözlərin Qədim Yunanıstanda daşıdıqları mənaların məntiqi sintezindən yaranan məna verilməmişdir. Məlumdur ki, πολιτικά sözü Qədim Yunanıstanda "ümumdövləti", müasir qərb siyasi terminologiyası nöqteyi-nəzərindən "ümummilli" problemlər, "ictimai işlər" mənasını daşımışdır, λογος sözü isə ümumən məlum olduğu kimi söz, təlim, elm, hətta məntiq mənalarını daşımışdır. Deyilənlərdən belə ğörünür ki, əgər "politologiya" ifadəsinə onu bir düzəltmə söz kimi əmələ gətirən sözlərin ilkin, əzəli mənalarının, yəni Qədim Yunanıstanda daşıdıqları mənaların məntiqi sintezindən yaranan məna verilsəydi, onda bu ifadə "ümummilli problemlər haqqında təlim" mənasını, və ya "ictimai işlər haqqında təlim" mənasını vermiş olardı. Buradan isə politologiyanın əsas vəzifəsi "ümummilli problemlərin həllidir" deyə düşünmək olardı.

*cəmiyyəti*" qarşıqoyulmasını tanımır, dövləti bir bütöv sosial orqanizm kimi tanıyır. Bu da antik siyasi fəlsəfənin aristokratik mənşəli olduğundan irəli gəlirdi. Platon "polis"in, yəni qədim yunan şəhər-dövlətinin fərd üzərində ilkinliyindən çıxış edirdi. Dövlətin fərd üzərində üstünlüyü ideyasını Hegel də qəbul edir. Görünür elə buna görə də onların hər ikisi burjua liberalizmi tərəfindən tənqidə məruz qalaraq etatizmdə günahlandırılırlar. Platon, onun dövründə *demos*, Yeni dövrdə isə *burjua* adlandırılan kütlənin dünyaduyumuna nifrət edirdi və onu rədd edirdi. Lakin, Hegelin burjua dəyərlərinə münasibəti nigilist xarakterli deyildi. Fərdi hüquq və azadlıq ideyaları, hamının qanun qarşısında bərabərlik prinsipi Hegel tərəfindən heç də sadəcə olaraq rədd edilmir, yalnız özünəməxsus şəkildə şərh edilir: Hegelin nöqteyi-nəzərində, dövlət bütöv bir sistem olsa da, birmənalı münasibətləri və xassələri özündə daşıyan atomlaşmış fərdlərin aqreqatı deyildir, cansız mexanizm deyildir, iradə azadlığına və fəaliyyət formasını seçmə hüququna malik olan fərdlərin canlı orqanizmidir. Doğrudan da, fərd özünün həqiqi həyati təyinatına uyğun şəkildə fəaliyyət göstərdikcə, sosial

---

Amma "politologiya" ifadəsi Yeni dövr siyasi təfəkkürü nöqteyi-nəzərindən dəyərləndirildiyindən, onun əsas predmeti kimi siyasi hakimiyyət, onun yaradılması, ələ keçirilməsi, fəaliyyət xüsusiyyətləri və cəmiyyət içərisində yayılmasının forma və metodları qəbul edilir. Məhz bu mənanın daşıyıcısı olaraq politologiya müstəqil akademik fənn olaraq XIX əsrin sonlarında formalaşmışdır. Onun ilk kafedraları Qərbi Avropada və ABŞ-da meydana çışmışdır. Azərbaycanda ilk politologiya kafedraları Azərbaycanın müstəqilliyi ərəfəsində yaradılmışdır. Belə bir məqamı da qeyd etmək yerinə düşərdi ki, müasir Qərbdə çox zaman, "politologiya" ifadəsinin deyil, daha çox "siyasi elm" ifadəsinin işlədilməsinə üstünlük verilir. (Bu, müəyyən qədər ona bənzəyir ki, müasir Qərb elmi çox zaman, "biologiya" ifadəsinin deyil, daha çox "həyat haqqında elm" ifadəsinin işlədilməsinə üstünlük verir). 1949-cu ildə Siyasi Elmin Beynəlxalq Assosiasiyası yaradılmışdır. Yeri gəlmişkən qeyd edək ki, həmin Assosiasiyanın işində Azərbaycanın görkəmli hüquqşünas alimi Cahangir Kərimov da mühüm rol oynamışdır.

orqanizmdə özünün həqiqi mövqeyini tutmuş olur və sosial orqanizmin, əgər belə demək mümkündürsə, bir hüceyrəsinə çevrilir. Hegelin, eləcə Platonun da aristokratik konsepsiyası despotik konsepsiyadan əsasən elə bununla da fərqlənir. Eyni zamanda Hegelin *Hüquq fəlsəfəsi*ndə burjua nəzəriyyəsi üçün səciyyəvi olan *fərd-cəmiyyət, vətəndaş-dövlət* qarşıdurması da yoxdur. Burada nə etatizm üçün səciyyəvi olan azadlıq, yəni dövlətin, bütövün azadlığı, nə də liberalizm üçün səciyyəvi olan azadlıq, yəni fərdin azadlığı mütləqləşdirilmir. Hegel aristokratik siyasi doktrinanın təqdimatını fəlsəfi zəmində verdiyindən iddia edir ki, əgər azadlıq öz mənbəyini ilahi zəkadan götürürsə, dövlətin azadlığı fərdin azadlığı boğmur, onu tamamlayır.

"*Dövlətin mövcudluğu Tanrının dünyada addımlamasıdır*", - deyən Hegel, reallıqda özünü iradə kimi yerinə yetirən zəka qüvvəsinin təcəssümünü dövlətdə görür. Zəka isə məlum olduğu kimi Hegeldə dünyanın ilahi mahiyyətini təşkil edir.

Hegel bütün bəşər tarixini ilahi zəkanın mücəssəməsi kimi nəzərdən keçirir.

Vətəndaş cəmiyyəti ilahi zəkanın nəzarətindən çıxaraq insani dərrakəyə tabe olan toplum kimi Hegel tərəfindən pislənilir. Vətəndaş cəmiyyəti dövlətin nəzarətindən çıxarkən özünü nəinki bütöv sosial orqanizmdən ayırmış, hətta ona qarşı qoymuşdur. Dövlətin bir bütöv sosial orqanizm kimi meydana çıxmasını obyektiv ruhun tam həyata keçirilməsi kimi dəyərləndirən Hegel vətəndaş cəmiyyətinin formalaşmasını obyektiv ruhun özgələşməsi kimi səciyyələndirir.

Hegel vətəndaş cəmiyyətinin fabrikantlardan, tacirlərdən və sənətkarlardan ibarət kütlə tərəfindən yaradıldığını qeyd edir və bu kütləni bizə yaxşı məlum olan *burjuaziya* termini ilə adlandırır. Hegel, *burjuaziya* adlandırdığı insanlar toplumunu sosial orqanizmin bir orqanına çevirməyin zərurətini qeyd edir və bu orqanı ikinci silk kimi səciyyələndirir, onu birinci silk kimi qiymətləndirdiyi zadəganlara və üçüncü silk kimi qiymətləndirdiyi bürokratiyaya qarşı qoyur. Zadəganlıq Hegeldə təbii əxlaq silkidir, bürokratiya zadəganlıqda

daşınan ilahi əxlaqın icraçısı olmaqla cəmiyyətin ümumi maraqlarını təmin edir. Cəmiyyətin bu silklərdən kənarda qalan hissəsini Hegel *formasız kütlə* adlandırır və bu kütlədən törəyən əməllərin kortəbii, ağılsız, vəhşi və dəhşətli olduğunu vurğulayır.

Hegel dövlətin ilahi mahiyyət daşıdığı ideyasından çıxış edərək onun ilahi mənşəyə malik olduğunu qeyd edir və bu zəmində də *ictimai müqavilə nəzəriyyəsi*ni təkzib edir. Dövlətin mənşəyini müqavilə prinsipi əsasında şərh edən nəzəriyyə dövləti heç də ilahi bir qurum kimi deyil, əksinə olaraq, insani bir qurum kimi dəyərləndirir. Hegel bu nəzəriyyəni ideyadan məhrum olan abstraksiya kimi səciyyələndirir və inqilabi təsəvvürləri də bu nəzəriyyə ilə bağlayaraq onu dəhşətli və ürəksıxıcı hadisələrə gətirib çıxardığı üçün lənətləyir və rədd edir. Dövlət insani müqavilə əsasında deyil, "*sən mənə, mən sənə*" prinsipinə uyğun şəkildə deyil, ilahi fəhm əsasında qurulmalı və inkişaf etməlidir. Görünür elə buna görə də, Hegel cəmiyyətin inkişafında inqilablara deyil, zadəganlığın siyasi instinktlərindən doğmalı olan reformalara üstünlük verir. Zadəganlığın siyasi instinktləri isə Hegeldə öz başlanğıcını ilahi zəkadan götürür.

Hegel burjua mənşəli olan təkcə ictimai müqavilə ideyasını deyil, həmçinin burjua mənşəli olan pasifizmi də tənqidi təhlilə məruz qoyur. Hegel müharibənin əxlaqi əhəmiyyəti barəsində ideya irəli sürmüşdür. Müharibənin əhəmiyyətliliyini Hegel ilk növbədə belə bir tezislə ifadə etmişdi ki, xalqların əxlaqi sağlamlığı yalnız müharibə sayəsində saxlanılır, müharibə insan mənəviyyatını uzun sürən sülhdən, xüsusilə əbədi sülhdən törənə bilən çürümədən mühafizə edir. Amma, Hegelin müharibəni bəşər tarixinin təbii və nəcibləşdirici hadisəsi kimi qiymətləndirməsini, hüququ, o cümlədən, beynəlxalq hüququ insanlar arasında sadəcə olaraq şərtləşmə hesab etməsini, müharibəni beynəlxalq münasibətlərdə qəti hökm verə bilən və verməli olan hakim kimi qiymətləndirməsini, haqsızlığa və ədalətsizliyə qarşı Hegel tərəfindən ifadə olunmuş qəzəbi, Hegelin dünyanı öz həqiqi mahiyyətinə qaytarmaq əzmini və bu qayıdış yolunda eybəcərliyə qarşı amansızlığını "müharibə təbliğatı" kimi qiymətləndirmək məncə bayağı olardı.

***Karleyl*** də zadəganlığı onun cəngavər mənşəyi fonunda və cəmiyyətin aparıcı amili kimi təqdim etmiş, Hegel tərəfindən zəruriliyi inkar edilən inqilabı da cəngavər ruhunun ifadə formalarından biri kimi təsvir etmişdir.

Aristokratik siyasi doktrina ***Qobino***nun və ***Lapuj***un şəxsində *irqi-antropoloji məktəb*ə başlanğıc verdi, ***Nitşe***də, ***Lebon****da* və ***Tard***da kütləyə qarşı çevrildi, ***Moska***da və ***Pareto***da *elita nəzəriyyəsi*nə transformasiya etdi, ***Şpenqler***də burjua Qərbinin süqutu barədə nəticəyə gəldi, ***Mixels***də, ***Ostroqorski***də və ***Berdyayev***də isə demokratik siyasi nəzəriyyənin təkzibinə çevrildi.

Berdyayev demokratizm ideyasının əleyhinə *şəxsiyyət, azadlıq* və *azad yaradıcılıq* ideyalarını qoydu. Lakin onun sevimli vətəni, Rusiya demokratizm ideyasını qəbul etməsə də, heç *şəxsiyyət, azadlıq* və *azad yaradıcılıq* ideyalarını da qəbul etmədi.

Azadlığın tərənnümçüsü olan Berdyayev köləlik məkanına çevrilmiş vətənindən sürgün edildi.

Berdyayev Avropaya üz tutdu.

Avropadan başlayan dünya müharibələrinin hər ikisinin ərəfəsində demokratiyanın güclü böhran keçirdiyi şəraitdə *irqi-antropoloji məktəb*in təsiri güclənmiş və dünya müharibələrinin törədilməsini şərtləndirən amillərdən biri və bəlkə də ən güclüsü olmuşdu.

Avropada aristokratik ideya öz intibahını da yaşadı, tənəzzülünü də. Əgər aristokratik siyasi doktrina *Çemberlen*də və *Hitler*də eybəcərləşdirilərək nasizmlə çuğlaşdırıldısa, ***Orteqa-i-Qasset*** və ***Toynbi*** aristokratik doktrinanı faşizm çirkabından təmizlədilər, onun insani xislətini özünə qaytardılar.

Aristokratik ideya Rusiyada da dirçəldildi. Berdyayevin vətənindən sürgün olunmasında və ölümündən onilliklər keçdikdən sonra aristokratizm bir ideya olaraq onun vətənində də yenidən dirçəldildi. ***Lev Qumilyov*** aristokratizm zəminində bəşər tarixinin tamamilə yeni bir mənzərəsini verdi. Bəşər tarixinin bu yeni mənzərəsində Avropaya kiçik yer ayrıldı, Avropa Avrasiya içərisində əridildi.

İndi isə XIX əsrdən başlayaraq öz aristokratik ruhuna yadlaşdığı üçün və öz aristokratik ruhundan uzaqlaşdığı üçün Avropanın yarımmüstəmləkəsinə çevrilmiş Çinə bir daha qayıdaq. O, Çinə ki, onun bütün dünyada məşhur olan konfusiçiliyi artıq zadəgan ruhunu deyil, rəiyyət ruhunu ifadə edirdi.

XIX əsrin sonlarında və XX əsrin başlanğıcında rəiyyətləşmiş konfusiçiliyin tərəfdarı və nəzəriyyəçisi *Kan-Yu-vey* oldu. Çinin rəiyyət ruhunu ifadə etmək üçün həm də Qərbin rəiyyət mənşəli ideyalarını əxz edən *Kan-Yu-vey* hesab edirdi ki, bərabərlik, xeyirxahlıq və mülkiyyətin hamıya məxsus olması şəraitində dövlət ölüb gedəcək, insanlar xoşbəxt və icma şəklində yaşayacaqlar. Marksın bizim hamımıza yaxşı məlum olan ideyalarına son dərəcə bənzəyən bu ideyalar Marksın adından daha çox Çinin özünün təfəkkür ənənələri ilə bağladığı üçün kommunizm toxumları öz rişələrini Çin torpağında Azərbaycana nisbətən daha dərinlərə buraxdı.

*Kan-Yu-vey*in Çin gerçəkliyindəki mövqeyi və statusu müəyyən dərəcədə *Nəriman Nərimanov*un Azərbaycan gerçəkliyindəki mövqeyini və statusunu xatırladır. Azərbaycanın siyasi həyatında *Məmmədəmin Rəsulzadə*nin oynadığı rola bənzər rol isə Çində *Sun Yat-sen* tərəfindən son dərəcə uğurla oynanıldı.

*Sun Yat-sen* öz siyasi proqramının başlıca müddəaları kimi üç prinsipi irəli sürdü: Çinin milli müstəqilliyi tələbini ifadə edən *millət prinsipi*, respublika yaradılması tələbini ifadə edən *xalq hakimiyyəti prinsipi* və xalqın maddi vəziyyətinin yüksəldilməsi tələbini irəli sürən *xalq rifahı prinsipi.* 1911-ci il üsyanı nəticəsində Çində monarxiya devrildi, respublika elan edildi və *Sun Yat-sen* Respublikanın Prezidenti seçildi. *Sun Yat-sen* yalnız bundan sonra özünün demokratik nəzəriyyəsi ilə Çin gerçəkliyi arasında dərin bir uçurum olduğunu gördü. Çin xalqı demokratizmə deyil, daha çox kommunizmə meyilli idi və bu meyil nəticə etibarı ilə Çin Xalq Respublikasının yaradılmasına gətirib çıxardı. Oxşar hadisələr Azərbaycanda da baş verdi.

Əgər *Kan-Yu-vey* Çinin *Nərimanov Nərimanov*u idisə, əgər *Sun Yat-sen* Çinin *Məmmədəmin Rəsulzadə*si idisə, *Mao-tze-dun* Çinin *Mircəfər Bağırov*u oldu.

Lakin Çindən fərqli olaraq Azərbaycan XX əsri əsasən yarım-müstəqil yaşadı. Bu, həm də ondan irəli gəlirdi ki, əsrin əvvəllərində Çində ***Fen Yu-lan*** tərəfindən görülən işi görmək üçün Azərbaycanda bir kimsə tapılmadı.

*Fen Yu-lan* hər şeydən əvvəl Çin xalqının qüdrətli bir millətdə təşkilatlanmasının ideya mənbəyi idi. *Fen Yu-lan* Çin xalqının haqq və ədalət həsrətini öz zəkasının nuru ilə işıqlandırdı və bununla da xalqın haqq və ədalət həsrətini canlandırdı və gerçəkləşməsinə başlanğıc verdi, yaratdığı və *yeni konfusiçilik* adlandırdığı təlimi ilə iki əsrdən artıq bir müddətdə utilitarist rəiyyət ruhu tərəfindən zəncirlənmiş və qandallanmış zadəgan ruhunu zəncirlərdən və qandallardan xilas etdi və bununla da Çin həyatına bir aydınlıq gətirdi.

*Fen Yu-lan* Çinin fəlsəfə nəhənglərindən sonuncusu olmaqla yaşı üç min ili ötüb keçmiş qocaman Çin ruhunun daşıyıcısı və ifadəçisi idi, bu ruhu özündə yaşatmaqla Çin gerçəkliyini bir daha Çin Ruhuna qovuşdurdu və qüdrətləndirdi. XX əsrin Çin gerçəkliyi Çin fəlsəfəsi səmasında parlayan son ulduzdan, *Fen Yu-lan* zəkasından nur alaraq qüdrətlənə bildi.

***Əli bəy Hüseynzadə*** və ***Əhməd bəy Ağayev*** əsrin əvvəllərində Azərbaycanın *Fen Yu-lan*ı olmalı idilər, lakin təəssüf ki, ola bilmədilər və olmadılar. Əsrin ikinci yarısından bu möhtəşəm missiya ilk növbədə ***Bəxtiyar Vahabzadə***nin çiyinlərinə düşdü. Azərbaycan yazıçısı ***İsmayıl Şıxlı***nın ölməz *Dəli Kür*ü keçmişdə yaşanan aristokratizmin bədii təqdimatını verdi. ***İsa Hüseynov*** özünün ötən əsrin 80-cı illərində çap etdirdiyi *İdeal* və *Əbədiyyət* romanlarında aristokratik ruhun daşıyıcısı mənasında anlaşılan ari irqinin ("odər") Azərbaycanda yaşandığı ideyasını irəli sürdü və onun müfəssəl bədii təsvirini verdi. Əsrin sonunda millətin xilası baş verdi. Bu işin önündə gedənlər isə ***Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı*** və ***Sabir Rüstəmxanlı*** oldular. ***Asif Əfəndiyev*** millətin xilasolma işinin önün-

də gedə bilmədi, arxasında getdi, onun irəli sürdüyü *Türkel* idealı isə havadan asılı vəziyyətdə qaldı.

Marksizmə qaldıqda isə o Azərbaycanda çox asanlıqla məğlub oldu. Mənə elə gəlir ki, bu hal ilk növbədə ondan irəli gəlirdi ki, Azərbaycanda marksizm demək olar ki, əsasən *maarifçilik* səviyyəsində mövcud olmuşdu. Marksist *tədqiqatçılığı* isə Azərbaycanda son dərəcə zəif inkişaf etmişdi. Ümumiyyətlə XIX-XX əsr Azərbaycan siyasi-fəlsəfi fikrinə bir maarifçilik ruhu hakim kəsilmişdi.

*Maarifçilik* və *tədqiqatçılıq* deyərkən mən bu ifadələrə *Təfəkkürün fəlsəfəsi*ndə verdiyim mənanı verirəm, maarifçilikdə adamların bir qisminin düşüncə tərzini digər qisminin düşüncə tərzinə tabe etdirilmə vasitəsini görürəm. Maarifçiliyin özünün XX əsr Azərbaycanında fəlsəfi araşdırmaların ən sevimli mövzularından biri olması heç də təsadüfi olmamışdır.

Hələ XIX əsrin ikinci yarısından Mirzə Fətəli Axundovun şəxsində təfəkkürümüzü Yeni dövr Avropa düşüncə tərzinə tabe etdirmək istəyi və əzmi ilə öz tarixini başlayan maarifçilik ənənələrimiz özünün demək olar ki bütün tarixi ərzində təfəkkürümüzü əcnəbi ideyalara tabe etdirmək məqsədinə xidmət etmişdir, bununla da bəlkə də müəyyən mənada xalqın mənəvi əsarəti üçün zəmin hazırlamışdır. Öz həyatını Avropanın təqlidi ilə başlayan Azərbaycan maarifçiliyi kommunist hərəkatının Rusiyada siyasi qələbəsi ilə bağlı marksist xarakter kəsb etdi.

Lakin Karl Marksın nəhəng elmi irsi dünyanın başqa ölkələrindən olan bir çox marksistlərə həmin bu irs əsasında təqribən eyni adlı, lakin kifayət qədər müxtəlif məzmunlu bir çox təlimləri yaratmağa imkan verdiyi halda, Azərbaycan *öz* marksizmini bütöv bir sistem olaraq yarada bilmədi və yaratmadı. Bu sahədə Nəriman Nərimanov tərəfindən başlanılan iş yalnız son illərdə **Əfrand Daşdəmirov** tərəfindən dirçəldilməkdə və uğurla davam etdirilməkdədir. Bir çox əcnəbi marksizmlər isə təqribən eyni adla – marksizm adı ilə adlandırılsalar da onların hər birinin öz xüsusiyyəti və öz təfəkkür ənənələri olmuşdur. Azərbaycan öz marksizmini formalaşdırmadığından, marksizm Azərbaycanda çox asanlıqla məğlub oldu.

Azərbaycan kommunistləri sovet marksizminin, yəni *marksizm-leninizm*in təqdim etdiyi kommunizmdən fərqli bir kommunizmi tanımadıqları üçün bu, marksizm-leninizm marksizminin Rusiyada yaradıcılıq imkanlarının ümumiyyətlə tükənməsindən və kommunizmin siyasi məğlubiyyətindən sonra Azərbaycanda marksist maarifçiliyi öz aparıcı mövqeyini demokratik maarifçiliyə verdi. Azərbaycanda müstəqillik dövrü ərəfəsində və müstəqilliyin ilk illərində total marksist maarifçiliyinin yerini total avrosentrizm və demokratizmin imkanlarını və üstünlüklərini həddindən artıq şişirdən demokratik siyasi maarifçilik aldı.

Üstəlik onu da qeyd edim ki, Azərbaycanda demokratik siyasi maarifçilik uzun müddət ərzində demokratiyanın yalnız müsbət xarakteristikasının yayılmasına xidmət etdi. Burada demokratiya bütün yüksək insani keyfiyyətlərlə eyniləşdirilərək göylərə qaldırıldı. O, azadlığın, insan hüquqlarının, humanizmin təcəssümü kimi şüurlara yeridildi. Amma demokratizm qarşısındakı həmin heyrət və heyranlıq xalqın siyasi şüurunun mənəvi köləlikdən hələ də xilas olmadığından xəbər verdi. Hadisələrin sonrakı gedişi bunu təsdiq etdi.

Azərbaycan müstəqillik əldə etmə ərəfəsində və müstəqillik əldə etdikdən, dünya birliyinə suveren bir dövlət olaraq inteqrasiya etməyə başladıqdan sonra sosial həyatın demək olar ki bütün sahələrində əsaslı dəyişikliklər baş verdi. Ənənəvi ideologiya bir tarixi yanlışlıq hesab edilərək inkar edildi. Tarixi proses tərəfindən inkar edilən, arxa plana atılan dünyagörüş stereotipləri isə özlərindən sonra ideya vakuumu saxladılar. Bu vakuum gözlənildiyi kimi digər dəyər yönümlərinin məzmunu ilə doldurulmağa başladı. Kommunist dünyagörüşünün və ideologiyasının hökmran olduğu cəmiyyətdən düşüncə plyuralizminə yol verən cəmiyyətə döndükcə ən müxtəlif təfəkkür mexanizmlərinin dirçəldirildiyini müşahidə etdik. Dini təfəkkürün və həmçinin turanizm forması almış cəngavər düşüncə tərzinin intibahı diqqəti daha çox cəlb etdi. Qərbin həyat və düşüncə tərzinin təqlidi də cəmiyyətdə geniş yer tutmağa başladı.

Sosial həyatın əksər sahələrində - iqtisadiyyatda, idarəolunmada, mənəvi istehsalda, sosial qarşılıqlı təsirin bütün formalarında duyulan əsaslı dəyişikliklər müəyyən mənada düşüncə azadlığı ilə bağlı idi.

Amma maraqlıdır ki, siyasi fəlsəfədə belə bir düşüncə azadlığı demək olar ki, müşahidə olunmadı, kommunizm idealı qarşısında heyranlıq və köləlikdən, demokratik ideya qarşısında heyranlığa və köləliyə total bir sıçrayış müşahidə olundu. Bu sıçrayış nəticəsində cəmiyyətin özünüdərk meyarları başqalaşdı, onun tərəfindən bu günə, keçmişə və gələcəyə verilən səciyyələr köklü dəyişikliklərə uğradı. Artıq həll olunduğu qəbul edilən bir çox problemlər aktuallıq xarakteri kəsb etdi, aktual hesab edilən digər problemlər isə reallıq statusunu itirərək illüziya formasını aldı. Sosial və siyasi fəaliyyət motivləri demokratizmin mütləqləşdirilməsi zəminində yenidən mənalandırıldı.

Lakin öncə bütövlükdə həm cəmiyyət tərəfindən tam səmimiyyətlə, həm də dövlət hakimiyyəti tərəfindən rəsmən qəbul edilən, demokratizm pərdəsinə bürünən yeni sosial və siyasi fəaliyyət motivləri, cəmiyyət həyatına nə mənəvi rahatlıq, nə əmin-amanlıq, nə də firavanlıq gətirmədi. Əksinə cəmiyyət özünü ədalətsizlik, səfalət, aclıq, təhdidlər içərisində hiss etdi. Cəmiyyət bütöv, monolit bir millət olaraq möhkəmlənmədi, əksinə parçalanmağa doğru üz tutdu, zəiflədi və hətta müstəqilliyin itirilmə təhlükəsi də yarandı. Aşkar bir şəkildə hiss olunmağa başladı ki, demokratizmin üstünlüyünün etiraf və bəyan edilməsi nə qədər zəruri olsa da, kifayət deyildir. Cəmiyyətdə onu bu təhdidlərdən - ədalətsizlikdən, səfalətdən, aclıqdan, parçalanma və müstəqilliyin itirilmə təhlükəsindən xilas edə biləcək bir qüvvəyə ehtiyac yarandı, cəmiyyət bir ixtiyar sahibini, fövqəlqüdrət sahibi olan bir qüvvəni, bir şəxsiyyəti arzuladı. Bu arzu bir tərəfdən cəmiyyətdə dini hissləri gücləndirdi, digər tərəfdən isə cəmiyyəti ədalətsizlikdən, səfalətdən, aclıqdan, xilas edə biləcək bir şəxsiyyət olaraq diqqəti Heydər Əliyevə yönəltdi. Heydər Əliyev hakimiyyətə gəldi və cəmiyyəti əslində sözün həqiqi mənasında aclıqdan və səfalətdən xilas etdi, parçalanma və

müstəqilliyin itirilmə təhlükəsini aradan qaldırdı və bütün bunları O, həm də Azərbaycançılıq ideologiyasını irəli sürərək və gerçəkləşdirərək etdi. Azərbaycanın yeni siyasi fəlsəfəsinin əsası o zaman qoyuldu.

Azərbaycançılıq ideologiyasının indi aktuallığı ondan ibarətdir ki, o, türkçülük ideologiyası ilə bir-birini istisna etməmək şəraitində inkişafda olmalıdır, bir-birini şərtləndirmə, bir-birindən asılılıq, bir-birinə etimad göstərmə şəraitində inkişaf etməli və inkişaf etdirilməlidir. Azərbaycan xalqının bütöv və sarsılmaz millət olaraq mövcudluğu və inkişafı bundan əhəmiyyətli dərəcədə asılıdır.

Azərbaycanda siyasi fəlsəfənin maarifçilik səviyyəsindən alimlik səviyyəsinə, asılı şüur səviyyəsindən azad təfəkkür səviyyəsinə yüksəldilməsi üçün zaman artıq gəlib yetişmişdir. Akademik ***Ramiz Mehdiyev*** tərəfindən elita problematikasının ön plana çıxarılmasını, demokratiyanın məhz Azərbaycan siyasi elitası kontekstində mənalandırılmasını, xüsusən demokratik konsolidasiya ideyasını həm də bu nöqteyi-nəzərdən alqışlamaq lazım gəlir. Hörmətli akademik tərəfindən son illərdə yazılan bir çox məqalələr geniş ictimaiyyətin diqqətini cəlb etmiş və müxtəlif səviyyələrdə müzakirə mövzusu olmuşdur. Çox yaxşı haldır ki, bu müzakirələrdə bizim Milli Elmlər Akademiyası da, eləcə bizim Fəlsəfə İnstitutu da aktiv iştirak edir. Ramiz müəllimin "Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən: varislik və innovasiyalılıq" adlı məqaləsinin bizim institutda geniş müzakirəsi də mənim yaxşı yadımdadır. Akademikin "Azərbaycan yolu: stabilləşmədən modernləşməyə doğru" məqaləsi isə Azərbaycanın tutduğu yolun uğurlu olması ilə birgə, həm də digər ölkələr üçün hətta bir örnək, nümunə ola bilməsi faktını ön plana çıxarır.

Bütün bunlar göstərir ki, Azərbaycan üçün ideal ola biləcək siyasi nəzəriyyə heç cür əcnəbi ölkələrdən hazır şəkildə əxz oluna bilməz. Azərbaycan özünün siyasi fəlsəfəsinə və siyasi-fəlsəfi ənənələrinə malik olmalıdır.

# MAHİYYƏTİN GERÇƏKLƏŞDİRİLMƏSİNƏ YÖNƏLƏN İRADƏ ÖN PLANDA: ***SİYASİ ARİSTOKRATİZM***

Dünyanı, ilk növbədə isə sosial dünyanı, cəmiyyəti xaosdan, anarxiyadan xilas etməyi, ədalətli cəmiyyət qurmaqla Yer üzərində ilahi nizamı bərqərar etməyi və bununla da həyatı gözəlləşdirməyi özünə borc bilən insan zadəgandır.

Zadəgan əmindir ki, cəmiyyət məhz onun ruhunda daşınan ideal əsasında, məhz onun zəkasında öz təcəssümünü tapan aydın və aşkar həqiqət əsasında və məhz onun iradəsində ifadə olunan ideala və həqiqətə doğru əzmkarlıq əsasında xilas edilə bilər və ilahi nizamın Yer üzərində bərqərar olunmasına məhz onun özü nail ola bilər.

İlahi nizamın Yer üzərində bərqərar olunması isə sözün böyük mənasında ***həqiqi dövlət***dir. ***Həqiqi dövlət*** həqiqətən də *Dünya Ruhu*nun, *Dünya Zəkası*nın və *Dünya İradəsi*nin Yer üzərində sosial olaraq gerçəkləşməsi, *Dünya Nizamı*nın sosial mücəssəməsi və təcəssümüdür.

Əgər cəmiyyətdə hər bir kəsin fərdi həyatı ümumi substansial həyatın *üzvi tərkib hissəsi* olmaqla həm də sosial həyatın *üzvi tərkib hissəsi*dirsə, onda belə bir cəmiyyət *Dünya Ruhu*nun Yer üzərində sosial olaraq gerçəkləşməsidir, ***həqiqi dövlət***dir, insan münasibətlərinin həqiqiləşərək gözəlləşməsidir. Əgər cəmiyyətdə hər bir kəsin fərdi həyatı eyni zamanda ümumi substansial həyatın *üzvi tərkib hissəsi* olmaqla həm də sosial həyatın *üzvi tərkib hissəsi* deyildirsə, onda belə bir cəmiyyət dünyanın həqiqi mahiyyətindən və ruhun-

dan uzaqdır, insan münasibətlərinin yalanlaşmaqla eybəcərləşməsidir.

Əgər cəmiyyətdə hər bir kəsin sosial sistemin elementi olaraq aldığı ad onun həqiqi adı, təbii təyinatı ilə üst-üstə düşürsə, onda belə bir cəmiyyət *Dünya Zəkası*nın Yer üzərində sosial olaraq gerçəkləşməsidir, ***həqiqi dövlət***dir, insan münasibətlərinin əsl idrak süzgəcindən keçərək gözəlləşməsidir. Əgər cəmiyyət tərəfindən insanlara verilmiş ad, obraz, maska, onlara həvalə edilmiş fəaliyyət forması və sosial rol onun həqiqi adına, təbii təyinatına uyğun deyildirsə, onda belə bir cəmiyyət özünü dərk etməmişdir, eybəcərdir.

Əgər cəmiyyətdə hər bir kəs *öz* işini, ürəkdən sevdiyi işi, bütün varlığı ilə bağlı olduğu işi görürsə, mükafatlanma xatirinə özü üzərində zorakılıq etmirsə, onda belə bir cəmiyyət *Dünya İradəsi*nin Yer üzərində sosial olaraq gerçəkləşməsidir, ***həqiqi dövlət***dir, insan münasibətlərinin azad edilərək gözəlləşməsidir. Əgər cəmiyyətdə hər bir kəs öz işini, ürəkdən sevdiyi işi, bütün varlığı ilə bağlı olduğu işi görmürsə, faydalanmaq xatirinə özü üzərində zorakılıq edirsə, onda belə bir cəmiyyət insan münasibətlərinin kölələşdirilərək eybəcərləşməsidir.

Əgər cəmiyyətdə hər bir kəs *öz* yerini, özünün təbii təyinatına uyğun gələn yeri tutursa, onda belə bir cəmiyyət *Dünya Nizamı*nın Yer üzərində sosial mücəssəməsi və təcəssümüdür, ***həqiqi dövlət***dir, insan münasibətlərinin nizama salınaraq gözəlləşməsidir. Başçı olmaq üçün doğulan burada başçı, alim olmaq üçün doğulan alim, sənətkar olmaq üçün doğulan sənətkar, memar olmaq üçün doğulan memar, mühəndis olmaq üçün doğulan isə mühəndisdir. Əgər cəmiyyətdə insanlar öz yerlərini, onların təbii təyinatına uyğun gələn və layiq olduqları yeri tutmamışlarsa, onda belə bir cəmiyyət insan münasibətlərinin öz nizamını itirərək eybəcərləşməsidir.

Və nəhayət, əgər *Dünya Ruhu, Dünya Zəkası* və *Dünya İradəsi* sosial olaraq gerçəkləşmişsə, cəmiyyət *Dünya Nizamı*nın mücəssəməsinə və təcəssümünə çevrilmişsə, onda bu cəmiyyətin zadəgan silki öz ilahi qüdrətinin saxlamışdır. Əgər zadəgan silkinin ilahi qüdrəti tükənmişsə, cəmiyyət xaos və anarxiya vəziyyətindədir, yəni

eybəcərdir. Gözəl cəmiyyət aristokratizmin təcəssümüdür: özü də, təkcə cəmiyyət yox. Sosial olaraq aristokratizm adlanan hadisə estetik olaraq gözəllik adlanır.

Aristokratik təfəkkür şəhər mədəniyyəti tərəfindən arxa plana sıxışdırılmış mifologiyanın *Tale ideyası*nı yenidən həyata qaytarır.

*Tale kultu* mifologiyanın cəngavər mənşəli, döyüşçü təbiətli olduğunu bir daha xatırladır və təsdiq edir. Əgər şəhər mədəniyyəti *ağıl kultu* üzərində qurulursa, cəngavər mədəniyyəti *Tale kutlu*na istinad edir. Əgər *ağıl kultu* varlanmaya xidmət edirsə, *tale kultu* cəsarətliliyin dünyagörüş zəminini yaradır. Əgər *ağıl kultu,* müəyyən mənada tacir ruhu ilə uyuşursa, *Tale kultu* döyüşçü ruhu ilə uyuşur.

Cəngavərin bir qəhrəman olaraq sosial orqanizmdə oynadığı rol bioloji orqanizmdə *leykositlər*in, daha geniş mənada ürəyin oynadığı rola bənzəyir. Qəhrəman da leykosit kimi fərdi azadlığa malik olmayıb, mənsub olduğu sosial orqanizmin, cəmiyyətin iradəsini, arzu və ideallarını öz fərdi iradəsindən, fərdi arzularından və fərdi ideallarından imtina etməklə həyata keçirir.

Cəngavər sosial orqanizmi, cəmiyyəti daxildən hərəkətə gətirən bir başlanğıcdır. Bu baxımdan kəndli sosial orqanizmin mədəsi rolunu, şəhərli isə onun qan dövranı funksiyasının daşıyıcısı olan *eritrositlər*in oynadığı rolu oynayır. **Z**adəgana qaldıqda isə o, bütün sosial orqanizmi idarə edən başlanğıc olmaqla onun sanki beyni rolunda çıxış edir. Cəngavər müdafiə edən, zadəgan isə himayə edəndir. Bu səbəbdən də, zadəganlıq həmişə cəngavərlikdən törəyir, tarixi nöqteyi-nəzərdən də, genetik nöqteyi-nəzərdən də.

Deməli ki, dövlət həmişə qəhrəmanlıq psixologiyasının daşıyıcısı olam cəngavər mədəniyyəti üzərində qərar tutur. Qəhrəmanları olmayan xalqın həqiqi müstəqilliyi yoxdur, müstəqilliyi *de-yure* olduğu halda belə *de-fakto* deyildir, başqa sözlə, formaldır, həqiqi deyildir.

***Qəhrəman*** cəmiyyətin iradəsini gerçəklik faktına çevirməli olan orqanizmin bir hüceyrəsini təşkil edir. Əgər o öz iradəsini cəmiyyətin iradəsi ilə qovuşdura bilsəydi, ***şəxsiyyət*** olardı, lakin, özü-

nü bu iradəyə tabe etdirdiyi üçün qəhrəmandır. Məhz bu xüsusiyyət *qəhrəman* və *şəxsiyyət* obrazları arasındakı fərqi çox gözəl ifadə edir. Sözün böyük, həqiqi və mütləq mənasında ***cəngavər*** qəhrəmandır, ***zadəgan*** isə şəxsiyyətdir.

Zadəgan da cəngavər kimi özünü *Dünya Ruhu*nun, dünyanın mütləq mahiyyətinin daşıyıcısı kimi, dünyanı nizama salmalı və gözəlləşdirməli olan bir qüvvə kimi tanıyır və dərk edir. Lakin *Dünya Ruhu* zadəgan mədəniyyəti nöqteyi-nəzərindən dünyanın həm də zəkası, cəngavər mədəniyyəti nöqteyi-nəzərindən isə dünyanın iradəsidir. Cəngavər *Dünya İradəsi*ni öz içərisində daşıdığına inanır və onun qüdrətinə güvənir. Zadəgan isə özünü *Dünya Zəkası*nın daşıyıcısı kimi qavrayır və dünyanı onun diktəsinə uyğun şəkildə qurur.

Zadəgan ruhunda daşınan ilahi zəka özünün ilkin ifadəsini ləyaqət hissində tapır. Ləyaqət lap başlanğıcdan aristokratik hissdir. Ləyaqət özünün böyük və həqiqi mənasında insanın təbii təyinatı ideyasına istinad edir və cəmiyyətdə hər bir kəsin öz təbii təyinatına uyğun mövqeni tutması üçün əzmkarlığı ifadə edir. ***Həqiqi dövlət*** insanların təbii təyinatını gerçəkləşdirə bilən və gerçəkləşdirən dövlətdir. ***Həqiqi dövlət*** *Dünya Nizamı*nın sosial olaraq gerçəkləşməsidir.

Əgər icmaçı Tanrıdan ədalət umursa, zadəgan dünyanı ədalətli etməyi özünə borc bilir. Əgər icmaçı Tanrı tərəfindən yaradıldığını qəbul edirsə, zadəgan dünyanın ilahi mahiyyətindən törədiyinə, ilahi mənşəli olduğuna inanır. Əgər icmaçı özünü Tanrının bəndəsi kimi qavrayırsa, zadəgan özündə dünyanın ilahi mahiyyətinin gerçəkləşdiricisini görür.

Zadəgan *Dünya Ruhu*nu, dünyanın mütləq mahiyyətini özündə daşıdığına səmimi olaraq inandığı üçün dünyanın nizama salınması missiyasının məhz onun üzərinə düşdüyünə də inanır.

Zadəgan ilahi ruhun ona əcdadları vasitəsilə verildiyini qəbul etdiyindən əcdadlar qarşısında ehtiram və əcdad kultu zadəgan təfəkkürünün mühüm elementlərindən birini təşkil edir.

Zadəgan daxilindən gələn həyat selini onun həqiqi həyati təyinatına uyğun şəkildə dünyaya yaymaq, dünyanı daxilindən gə-

lən həyat selinə layiq bilməklə diriltmək, həyata təşnə olan dünyanı canlandırmaq, gözəlləşdirmək, dünyanı həqiqi mahiyyətinə qaytarmaqla *Dünya Nizamı*nı gerçəkləşdirmək əzmi ilə yaşayır. Onun dünyaya olan sevgisi heç də dünyaya uyğunlaşmaq və dünyadan faydalanmaq meylini ifadə etməyib, əksinə dünyanı dünyanın həqiqi mahiyyətinə uyğun nizamla qurmaq meylini ifadə edir.

Bu baxımdan dünyaya zadəgan münasibəti dünyaya məsələn darvinist münasibətə qarşı qoyula bilər. Darvin mühitə ən yaxşı uyğunlaşanların həyat uğrunda mübarizədə qalib çıxacaqlarını söyləyirdi. Əslində isə, insanın mühitə uyğunlaşması artıq onun mənəvi ölümünün tərkib hissəsidir. Həyat uğrunda mübarizədən insanın qalib çıxması - onun mühitə uyğunlaşması demək deyildir, əksinə mühitin insani ideallara uyğunlaşması deməkdir, mühiti ideala uyğun bir şəkildə qurmaq deməkdir, insanın öz ideallarını gerçəkləşdirməsi deməkdir.

Zadəgan *İdeal Dünya, İdeal İnsan* və əlbəttə ki, ***İdeal Dövlət*** obrazlarını öz ürəyinin haqq səsinə, öz ürəyinin həqiqət çağırışına sədaqəti ilə gerçəkləşdirir.

*Həqiqət çağırışı, Dünya Ruhu*nun*, Dünya Zəkası*nın və *Dünya İradəsi*nin bir parçası hər bir insanın qəlbində mürgüləyir. Zadəgan o kəsdir ki, öz ürəyinin haqq səsinə inanır, buna görə də öz ürəyində daşıdığı idealı və həqiqəti gerçəkləşdirə bilir və gerçəkləşdirir. Rəiyyət o kəsdir ki, ürəyinin haqq səsinə şübhə ilə baxır, özünün zaman-zaman qəlbində duyduğu kamillik və gözəllik idealının gerçəkləşdirilə biləcəyinə inanmır, gerçəklikdən daha çox faydalanmaq üçün ürəyinin haqq səsini boğur, özünün idealı gerçəkləşdirmək əzmini qırır, eybəcər gerçəkliyə uyğunlaşır və bununla da özünün həqiqi gözəllik idealından uzaqlaşır, ilahidən gələn gözəlləşmə imkanını itirir. Asif Əfəndiyev ən azı «eybəcər gerçəkliyə uyğunlaşsan eybəcərləşəcəksən» – sözlərinə görə dahidir.

Zadəgan o adam deyildir ki, sosial iyerarxiyanın yüksək pilləsindədir, daha böyük mülkiyyət sahibidir. Zadəgan o adamdır ki, ürəyinin haqq səsinə, ədalət çağırışına sədaqətlidir. Zadəgan xis-

lətinin ən aşkar ifadəsi nəcib və gözəl simadır. Rəiyyət o kəs deyildir ki, sosial iyerarxiyanın yüksək pilləsində deyildir, daha az mülkiyyət sahibidir. Rəiyyət o kəsdir ki, ürəyinin haqq səsinə biganədir, faydalanmaq xatirinə ürəyi üzərində zorakılıq edir. Rəiyyət xislətinin ən aşkar ifadəsi isə rəzil və eybəcər sifətdir.

Zadəgan *İdeal Dünya* obrazını gerçəkləşdirərək dünyanı, *İdeal İnsan* obrazını gerçəkləşdirərək insanı və əlbəttə ki, ***İdeal Dövlət*** obrazını gerçəkləşdirərək cəmiyyəti gözəlləşdirir. Rəiyyət dünyadan daha çox faydalanmağa çalışaraq dünyanı, özünü daha çox faydalılaşdırmağa çalışaraq özünü və nəhayət, cəmiyyətdən daha çox faydalanmağa çalışaraq cəmiyyəti eybəcərləşdirir.

Eybəcər cəmiyyət ədalətsizliyin, zülmün, azğınlığın caynağına verilmiş cəmiyyətdir.

# MAHİYYƏTİN GERÇƏKLƏŞDİRİLMƏSİNƏ YÖNƏLƏN İRADƏNİN İLKİN SİYASİ TƏCƏSSÜMÜ: *HİMAYƏ DÖVLƏTİ*

Dövlət nə hakimiyyətin, nə də hakimiyyət orqanlarının meydana gəlməsi ilə yaranmamışdır. Dövlət hakimiyyətdən və hakimiyyət orqanlarından daha görkəmli, daha əzəli və daha əzəmətli bir hadisədir. Dövlətin hakimiyyət və hakimiyyət orqanları formasını alması isə onun praqmatikləşməsinin məhsuludur. Xalis dövlət aristokratik təfəkkürün, hakimiyyət dövləti isə praqmatik təfəkkürün nailiyyətidir.

Aristokratik konsepsiya dövlətin himayə sistemi formasında, praqmatik konsepsiya isə hakimiyyət sistemi formasında meydana çıxmasını iddia edir. Marksizmin dövlət nəzəriyyəsi praqmatik konsepsiyanın ən bariz nümunələrindən biridir. Marksizm, ancaq hakimiyyət forması almış dövləti tanıdığından, dövlətin meydana çıxmasını marksizm nöqteyi-nəzərindən dövlət hakimiyyətindən daha öncə mövcud olan iqtisadi hakimiyyətlə, bir sinfin digər sinif üzərində mülkiyyət hakimiyyəti ilə bağlayır. Maraqlıdır ki, praqmatizmə ruhən yad olan anarxizm də, dövləti ümumiyyətlə hakimiyyətlə eyniləşdirdiyi üçün dövlətin ümumi təbiətinin anlaşılmasında praqmatik konsepsiya mövqeyində durur. Lakin, anarxizm dövlətin (anarxizm nöqteyi-nəzərindən, deməli həm də dövlət hakimiyyətin) meydana çıxmasını azadlığın boğulmasının başlanğıçı kimi qiymətləndirərək, dövləti inkar edir və onunla mübarizə aparır, onu köləliyin mənşəyi və sosial daşıyıcısı hesab edir. Klassik praqmatizm isə anarxizmdən fərqli olaraq, hakimiyyətin gətirdiyi köləliyi zəruri hesab edir və ondan faydalanmağa çalışır. Lakin,

marksizmin, anarxizmin və praqmatik konsepsiya tipli digər nəzəriyyələrin təqdim etdiyi səçiyyə ümumiyyətlə dövlətə deyil, eybəçərləşmiş, öz mahiyyətinə yadlaşmış dövlətlərə aiddir.

Dövlət marksizmin hesab etdiyi kimi, mülkiyyətə malik olan sinfin mülkiyyətdən məhrum olan sinif üzərində, kobud deyilərsə, varlının kasıb üzərində hökmranlıq aparatı kimi yaranmamışdır. Varlılıq və kasıblıq əslində bir tarixi fakt kimi yalnız dövlət yarandıqdan sonra meydana gəlmişdir. Varlanmanın vasitəsi kimi isə əslində məhz dövlət çıxış etmişdir. Çünki dövlətin vasitəçiliyi olmadan ayrı-ayrı fərdlərin varlanması praktik olaraq mümkün deyildir.

Dövlət eyni zamanda, anarxizmin də güman etdiyi kimi, hökmranlığın və köləliyin yaranması ilə meydana gəlməmişdir. Dövlət əslində köləlikdən yaranmır, köləliyi yaradır.

Dövlətin ilkin formasında heç bir hakimiyyət və heç bir hökmranlıq mövcud deyildir. Çünki burada iradə sahibləri və icraçılar – hökmdarlar və təbəələr yoxdur, heç kəs başqa birisinin iradəsinin həyata keçmə vasitəsi deyildir. İlkin dövlət himayə dövlətidir, hakimiyyət dövləti deyildir.

Dövlət insanların bir qisminin digər qismi üzərində hökmranlıq etməsinə deyil, insanların bir qismini digər qisminin təcavüzündən və zülmündən xilas etməyə təyinatlıdır.

Azğınlığın məhv edilməsi və xalqın zülmün pəncəsindən qurtulmaması ilə dövlət özünün ilkin formasında təşəkkül tapır.

Dövlət marksizmin güman etdiyi kimi, sadəcə olaraq var-dövlət sahibi olanları var-dövlət sahibi olmayanlardan, varlıları kasıblardan xilas etməyə təyinatlı deyildir. Dövlət haqlını haqsızın zülmündən və təzyiqindən xilas etməyə təyinatlıdır.

İlkin dövlət hakimiyyət orqanlarının yaradılması ilə deyil, əhalinin ədalətsizlikdən, zorakılıqdan, zülmdən, məhv olmadan və azğınlıqdan xilas edilməsi ilə yaranır. Dövlətin başlıca və əzəli əlaməti də elə bu xilaskarlıq aktıdır. Həmin xilaskarlıq aktının həyata keçdiyi hər bir halda dövlət artıq baş tutmuş hadisə olaraq mövcuddur.

İnsanlarda xüsusi bir *siyasi hiss* vardır. İnsan dövlətin mövcudluğunu da məhz bu hissin vasitəsilə duyur. Hər bir insan digərlə-

rinin təcavüzündən mühafizə olunursa, yalnız bu halda dövlətin mövcudluğu hiss edir.

Dövlətin mənşəyi probleminə tarixi nöqteyi-nəzərdən yanaşılsa, düşünürəm ki, ilkin dövlət cəngavər və icmaçı həyat tərzlərinin özünəməxsus sintezi kimi yaranır. Bu fenomen cəngavər həyat tərzinə ilkin olaraq xas olan insan birliyi formasının – köçəri tayfaların və icmaçı həyat tərzi üçün ilkin olaraq səciyyəvi olan insan birliyi formasının – kəndli icmasının artıq təşəkkül tapdığı və yanaşı mövcudluğu şəraitində meydana gəlmişdir.

Cəngavər həyat tərzi köçərilik prinsiplərinin mütləqləşdirilməsi üzərində qurulmuşdur. Bu, maskulin təbiətli həyat tərzidir. Cəngavər mədəniyyətinin başlıca əxlaqi keyfiyyəti cəsarətdir. Cəngavər mədəniyyətinin ən əyani təsvirlərindən biri isə bizim möhtəşəm «Kitabi-Dədə-Qorqud»da verilmişdir.

İnsanların «icma mədəniyyəti» strukturunda birləşməsi isə əkinçilik formasında təşəkkül tapmış istehsalla bağlı idi. Bu, feminin təbiətli həyat tərzidir[1]. İcmaçı həyat tərzinin başlıca əxlaqi sərvəti isə xeyirxahlıqdır. Cəngavər həyat tərzi və mədəniyyəti üçün səciyyəvi olan köçərilikdən, köçəri həyat tərzindən fərqli olaraq, icma mədəniyyəti üçün oturaq həyat xarakterik olmuşdur, icmaçı həyat tərzi bütövlükdə oturaq xarakterli olmuşdur.

İcma şüurunun xeyirxahlıq kultu fonunda cəngavər əxlaqının dəyərləri bir çox hallarda azğınlıq kimi mənalandırılır, cəsarət qüdrət kimi deyil, qəddarlıq kimi qavranılır. Sözün həqiqi mənasında mərdlik, cəsarətlilik və cəngavərlik icma həyat tərzinin ruhuna yaddır. Bu keyfiyyətlər lovğalıqdan doğulan azğınlıq kimi başa düşülür. İcmaçı həyat tərzi üçün dini hisslər həmişə doğma olmuşdur, onun idealları, həyat və düşüncə tərzi, dünyagörüşü dinin dilində öz gözəl ifadəsini tapmışdır.

---

[1]Əyanilik xatirinə bir qədər kobud terminlərdən istifadə etsək, əgər cəngavərlik sosial həyatın maskulin başlanğıcı olaraq heyvani təbiətlidirsə, sosial həyatın feminin başlanğıcı nəbati təbiətlidir. Heç də təsadüfi deyildir ki, icmaçı həyat tərzi əkinçilik zəminində təşəkkül tapmışdır.

Eyni zamanda cəngavər mədəniyyətinin özü də əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyətinin əxlaqi prinsiplərinə qarşı uzun müddət nifrət qarışıq bir etinasızlıq nümayiş etdirmiş, icma əxlaqi dəyərlərini cəsarətsizlikdən və gücsüzlükdən doğulan yazıqlığın ifadəçisi kimi, miskinlik nümunəsi kimi mənalandırmışdır. İcma mədəniyyətindən fərqli olaraq, cəngavər mədəniyyəti heç zaman dini hisslərlə doğmalaşa bilməmişdir, onun idealları, həyat və düşüncə tərzi, dünyagörüşü daha çox qəhrəmanlıq mifologiyasında ifadə olunmuşdur.

Dövlət isə bütün bu əksliklərə və barışmazlıqlara baxmayaraq, artıq qeyd olunduğu kimi, ilkin olaraq cəngavər və icmaçı həyat tərzlərinin özünəməxsus sintezi kimi yaranır.

Belə ki, cəngavər mənşəli köçəri tayfalarla oturaq kənd icmaları arasında qarşılıqlı münasibətlər prosesində meydana çıxa bilən fikir ayrılığı və onun nəticəsi kimi özünü göstərən toqquşmalar tarixən yüksək döyüş qabiliyyətinə malik olan köçəri tayfaların qələbəsi ilə başa çatmışdır. Kəndlilər, kənd içmaları köçərilər tərəfindən üzülərək məhv olma təhlükəsi altında ikən köçəri tayfalardan birinin himayəsinə sığınır və onun himayəsi altında digər köçəri tayfaların təcavüzündən xilas olur. Beləliklə köçəri tayfalar və kənd icmaları onların hər ikisi üçün üstsistem rolunu oynayan bütöv bir sosial struktura daxil olur və bu strukturun içərisində müxtəlif funksiyaları – təhlükəsizlik və maddi təminat funksiyalarını – yerinə yetirirlər. Bu struktur əslində dövlətin özüdür, daha doğrusu onun ilkin tarixi formasıdır.

Oturaq kənd icmalarının köçəri tayfaların himayəsinə alınması ilə dövlət özünün ilkin tarixi formasında meydana gəlir.

Dövlətin yaranması ilə köçəriliyin davranış normaları nizami ordu prinsiplərinə, icma davranış normaları isə rəiyyət həyat tərzinin əxlaqi prinsiplərinə transformasiya edir.

Cəngavər həyat tərzinin daşıyıcısı olan köçəri tayfalar dövlətin yaranmasına qədər də himayəçi xarakterli idilər. Çünki köçərilik heç də antilopların "zorla əsarət altına alınması" nəticəsində yaranmamışdır, zəif məxluqların qüdrətli insanların himayəsinə sığınması

nəticəsində yaranmışdır. Dövlətin yaranma prosesində bu qüdrətli insanların himayə məkanı bir qədər də genişlənir. Artıq bu məkanın sakinləri siyahısı digər "zəif məxluqlar"la – insanlarla – tamamlanır. Xilaskarlıq və himayəçilik köçəriliyin ən səciyyəvi mövcudluq formasıdır.

Kənd icması dövlətin yaranmasına qədər də himayəyə sığınmaq arzusunda idi, ancaq himayədə olduğunu duyduqda rahatlıq hissini yaşayırdı. Tanrının himayəsi onun üçün mütləq olduğundan bəndəlik onun ən səciyyəvi özünüdərki idi. Rəiyyətlik öz mahiyyəti etibarı ilə bəndəliklə eyni təbiətli olduğundan icmaçı çox asanlıqla rəiyyətləşə bildi.

Dövlətin yaranması ilə köçərilərin və icmaçıların vahid bir etnosa doğru təkamülü başlayır və bu təkamül vahid xalqın formalaşması ilə başa çatır.

Dillərin genetik qohumluğu xalqların genetik qohumluğundan xəbər vermir, xalqların haçansa vahid bir dövlətin ərazisində yaşadıqlarından xəbər verir.

Həqiqi dövlətin doğuluşu ***fateh***lik aktıdır. Fateh xalqın ədalət arzusunu gerçəkləşdirir.

Dövlətin təşəkkülü prosesində icma mədəniyyətinin təcəssümü olan və eyni zamanda ədalətin təşnəsi olan xalq, cəngavər mədəniyyətinin təcəssümü olan və nətiçə etibarı ilə ədalətin gerçəkləşdiricisi olan fatehə, fatehin himayəsinə sığınır. Həqiqi aristokratik ruhu özündə daşıyan fatehin himayə məkanı isə dövlətin sərhədləri ilə dövrələnən məkandan kiçik ola bilməz. Belə olmadıqda, dövlət, öz mahiyyətinə yadlaşır, marksizmin və ya anarxizmin dövlətə aid etdiyi formanı alır. Hökmdarın himayə məkanı dövlətin sərhədlərini aşdıqda, hökmdar xilaskara çevrilir.

Zadəgan xilaskarlıq aktının təcəssümçüsü sifəti ilə tarix meydanına çıxır, fateh statusunu kəsb etdikcə və öz fatehlik məkanını genişləndirdikcə zadəgan mədəniyyətinin də nüfuz dairəsini genişləndirir.

Bununla belə, bir məqamı da qeyd etmək yerinə düşərdi. Əgər fateh himayəsinə aldığı əhaliyə münasibətdə bütövlükdə rəğbət

hisslərini deyil, nifrət hisslərini yaşayırsa, o, artıq fateh deyildir, işğalçıdır. Çünki fatehliyin və bütövlükdə zadəganlığın təbiətində cəsarət də var, mərhəmətlilik də. Bu doğrudur ki, əgər rəiyyət əsasən kənd icmaları zəminində formalaşırsa, əsasən cəngavər həyat tərzi zəminində zadəganlıq təşəkkül tapır. Amma o da doğrudur ki, zadəgan həyat tərzi cəngavər və icmaçı həyat tərzlərinin sintezi zamanı və bu sintezin nəticəsində formalaşdığından, o, bir sıra icma dəyərlərinə də sahib durur. Eyni qaydada təsdiq etmək olar ki, fatehlik, bütövlükdə götürüldükdə zadəganlıq cəngavər mənşəli olmaqla bütövlükdə maskulin təbiətli olsa da, icmaçılıqla cəngavərliyin sintezinə nail olduğu üçün özündə müəyyən feminin elementləri də daşıyır.

Etnosda maskulin və feminin başlanğıclar kifayət qədər inkişaf etməmişsə, o nə özünün zadəgan zümrəsini, nə də öz azad dövlətini də qura bilmir. Etnos özünün azad dövlətini qura bilmək və yaşatmaq üçün, lazım gəldikdə, cəsarət, qətiyyət, cəngavərlik nümayiş etdirməli, son qələbəni qazanıncaya qədər mübarizə aparmalı, irəli getməlidir, zəruri olduqda isə, kompromisə getməyi də bacarmalı, ziddiyyətləri yumşaltmalı və qarşıdurmadan yayınmalıdır.

Əgər etnosda yalnız maskulin başlanğıc həddindən artıq inkişaf etmişsə, o, dövləti yalnız feminin təbiətli qonşu etnosları fəth etməklə qura bilir. Əgər etnosda yalnız feminin başlanğıc həddindən artıq inkişaf etmişsə, o qonşu maskulin etnosların daimi təcavüzünə məruz qaldığından güclü maskulin başlanğıcı özündə daşıyan qonşu fövqəldövlətlərdən birinin himayəsinə və mərhəmətinə sığınır. Ayrılıqda götürüldükdə isə, bu halların heç birində, nə yalnız maskulin başlanğıcın güclü inkişaf etdiyi etnoslarda, nə də yalnız feminin başlanğıcın güclü inkişaf etdiyi etnoslarda həqiqətən azad və həqiqətən müstəqil biretnoslu dövlətin mövcudluğu mümkün deyildir. Çünki onların heç birində həqiqi zadəganlığın formalaşması üçün təbii əsas yoxdur.

Deyilənlərin Azərbaycan Cümhuriyyətinin yaradılması hadisəsində necə təcəssüm olunduğuna diqqət yetirək. Bu halda biz, bir tərəfdən irəli sürülən konsepsiyanı əyani olaraq təqdim etmiş olu-

ruq, digər tərəfdən isə dövlətçilik ənənələrimizin fəlsəfi mənalandırılması işində daha bir addım atmış oluruq.

Azərbaycan Cümhuriyyətinin yaradılmasında icma mədəniyyətinin daşıyıcısı rolunu Qafqazın real məhvolma təhlükəsi altında olan müsəlman əhalisi və cəngavər mədəniyyəti rolunu isə Nuru Paşanın komandanlığı altında Qafqaz İslam Ordusu oynamışdır. Azərbaycan Cümhuriyyəti bu ordu tərəfindən əhalinin zülmdən və məhv olmadan qurtulduğu ərazidə yaranmışdır. Azərbaycan Cümhuriyyətinin həqiqi banisi də bu nöqteyi-nəzərdən əslində Məmməd Əmin Rəsulzadə deyildir, Nuru Paşadır. Çünki dövlət azğınlığın məhv edilməsi və xalqın zülmün pəncəsindən qurtulması ilə yaranır, real hərbi qüdrətə malik silahlı qüvvələr tərəfindən sanksiyalaşdırılmayan milli şuranın çıxardığı qərarla yox.

Bəzi tarixi faktları xatırlayaq:

28 may 1918-ci il - Tiflisdə dörd müsəlman partiyasının rəhbərlərinin və üzvlərinin iştirakı ilə içlas keçirilir. İçlas *Azərbaycan Milli Şurası*nın yaradılması haqqında qərar qəbul edir və Şuranın sədri vəzifəsinə M.Ə.Rəsulzadəni seçir. Milli Şura *İstiqlal bəyannaməsi*ni qəbul edir və bu bəyannamə ilə *Çənubi və Şərqi Zaqafqaziya*nı müstəqil Azərbaycan Xalq Cümhuriyyəti elan edir. Fətəli Xan Xoyskinin sədrliyi ilə Nazirlər Şurasının yaradıldığını elan edir.

Lakin, *İstiqlal bəyannaməsi*ndə elan olunan ərazidə nə Milli Şura, nə də Nazirlər Şurası heç bir real hakimiyyətə malik deyildi. Bu ərazidə əslində II Nikolayın istefasından sonra başlayan özbaşınalıq inkişaf etməkdə davam edirdi. Hamı tərəfindən qəbul olunmuş hakimiyyət həqiqətdə yox idi. Burada ancaq təsir dairəsinə və nüfuzuna görə bir-birindən bu və ya digər dərəcədə seçilən minihakimiyyətlər, minihökumətlər və miniordular - Azərbaycan Milli Şurasından daha əvvəl yaradılmış Müsəlman Milli Şurası və ona qismən tabe olan «дикая дивизия» və digər müsəlman silahlıları, Bakı Şəhər Duması və ona qismən tabe olan rus kazakları, Bakı Soveti və ona qismən tabe olan Qırmızı Qvardiya, Erməni Milli Şurası və ona qismən tabe olan daşnak və digər erməni silahlı

dəstələri və nəhayət, eserlər, menşeviklər və onların rus əsgərlərindən ibarət silahlıları vardı. Bu mikrohökumətlər öz aralarında təsir dairələrinin genişləndirilməsi uğrunda mübarizə aparır, biri digərinin ləğv olunması haqqında qərar çıxarır, təzələri yaranır, partiyalar və qruplaşmalar arasındakı fikir ayrılığı silahlı toqquşmalara gətirib çıxarırdı. Ümumiyyətlə bu siyasi oyunlarda iştirak etməyən dinc əhali isə zorakılığa, ədalətsizliyə və hətta məhvolmaya məruz qalırdı. Mikrohökumətlərdən hər biri öz-özlüyündə haqlı idi, amma onların ümumi fəaliyyətinin mənzərəsi haqsızlığın və vəhşiliyin kaleydoskopunu təşkil edirdi. Müstəqil Azərbaycan Xalq Cümhuriyyəti kimi elan olunmuş ərazi İstiqlal Bəyannaməsinin qəbul olunmasına qədər də, İstiqlal Bəyannaməsi qəbul olunduqdan sonra da, ingilis filosofu Tomas Hobbsun dili ilə deyilsə, «hamının hamıya qarşı müharibəsi vəziyyəti»ndə idi. Xalq ədalətsizlik və azğınlıq içərisində inləyirdi və inləməkdə davam edirdi. Dövlət elan olunmuşdu, amma yaradılmamışdı. Çünki dövlətin yaradılması xalqın zülmdən qurtulması demək olardı. Tiflisdə, bir qədər öncə Gürcüstan Respublikasının paytaxtı kimi elan edilən şəhərdə yaradılan Azərbaycan Milli Şurası müstəqil dövlət elan etdiyi ərazidə nəinki bütöv xalqın, heç özünün də təhlükəsizliyini təmin edə bilmirdi. Buna görə də, Azərbaycan Milli Şurası müstəqilliyini bəyan etdiyi Azərbaycan Xalq Cümhuriyyətindən kənarda qalmışdı.

03 iyun 1918-ci il - M.Ə.Rəsulzadə Batuma gəlir, Qafqazın müsəlman əhalisini möhnətdən xilas etmək üçün Osmanlı Ordusunun hissələrinə müraciət edir və onun bu müraciəti qəbul olunur.

Bu hadisə Kiyev Rus dövlətinin yaradılması prosesini, slavyanların Rürikə müraciətini, «bizdə hər cür nemət vardır, lakin nizam yoxdur, gəlin bizim torpaqlarımızda nizam yaradın» demələrini və Rürikin razılığını xatırladır. Əgər Rürik bu razılığı verməsəydi, Kiyev Rus Dövləti də çox yəqin ki yaranmayacaqdı. Eyni qayda ilə təsdiq etmək olar ki, Nuru Paşa Qafqazı xilas etmək məsuliyyətini öz üzərinə götürməsəydi, Azərbaycan Cümhuriyyəti bəlkə də olmayacaqdı. Azərbaycan Milli Şurası da, əvvəlki Milli Şuralara

və digər təşkilatlara oxşar olaraq ümumi küy içərisində eşidilməz dərəcədə, səssizcə yarandığı kimi, səssizcə də yox olacaqdı.

16 iyun 1918-ci il - Nuru Paşanın komandanlığı altında Qafqaz İslam Ordusu Gəncəni azad edir və bununla da may ayında elan edilmiş Azərbaycan hökuməti artıq sözün həqiqi mənasında hökumət statusunu kəsb edir və Ordunun müşayəti ilə Gəncəyə, Azərbaycan ərazisinə köçür. Bu, Dövlətin real olaraq yarandığı gündür. Amma bu real dövlətin başında real olaraq dayanan, Tiflisdən köçüb gələn Milli Şura və Nazirlər Şurası deyildi, Nuru Paşa idi. Gəncə bu gün Dövləti və Dövlətin əzəmətini bir daha gerçək olaraq duydu.

15 sentyabr 1918-ci il - Bakı Qafqaz İslam Ordusu tərəfindən azad edilir.

Bütün Azərbaycan ləyaqətliliyin və əsilliyin himayəsi altına alınır. Xalq Ədalətin arxasında duran Qüdrəti öz gözləri ilə görür, əsilliyin və ləyaqətin təntənəsini, rəzilliyin və azğınlığın isə məhvini bütün varlığı ilə duyur. Manaf Süleymanov o günlərin məftunluq, heyranlıq və fərəh dolu əhvali-ruhiyyəsini çox gözəl təsvir edir. Burada dövlət, sözün tam mənasında, ləyaqətliliyin təcəssümü idi. İnsanlar xeyirxahlaşır və mənən təmizlənirdilər.

17 noyabr 1918-ci il - Qafqaz İslam Ordusu Bakını tərk edir.

Nuru Paşanın ümumiyyətlə Azərbaycan ərazisində 5 ay və Bakıda isə daha az, cəmisi 2 ay davam edən hakimiyyəti bütün XX əsr Azərbaycan tarixində silinməz izlər buraxdı. Əgər bu dövr olmasaydı biz hətta sağ qalmış olsaydıq belə öz keçmişimizi bəlkə də heç Azərbaycan tarixi kimi xatırlamazdıq, «cənubi və şərqi Zaqafqaziyada» nə Azərbaycan Respublikası, nə də Azərbaycan xalqı olmazdı. Respublikanın və xalqın qorunub saxlanmasında, əlbəttə ki, M.Ə.Rəsulzadənin də, Nəriman Nərimanovun da, hətta Mircəfər Bağırovun da tarixi xidmətləri olmuşdur. Bu şəxsiyyətlərin rolu və xidmətləri, əlbəttə ki, təkzibedilməzdir. Lakin xalq özünün həqiqi yaradıcısını tanımalıdır. Azərbaycan xalqı öz yaradıcısından onun şəxsiyyətini irsən qəbul etmişdir.

«Azərbaycan Respublikasını Azərbaycan xalqı, azərbaycanlılar yaratmışlar, türklər isə bizə ançaq kömək göstərmişlər» fikri baş-

dan-başa yanılmadır və yalançı vətənpərvərlikdir. Əvvəla, 1918-ci ildə Nuru Paşa nə dərəcədə türk idisə, Qafqaz İslam Ordusu nə dərəcədə türklərdən ibarət idisə, biz də elə həmin o dərəcədə türk idik və türklərdən ibarət idik. Məmməd Ağa Şahtaxtinski hələ 1891-ci ildə «Kaspi» qəzetində çap etdirdiyi «Zaqafqaziya müsəlmanlarını neçə adlandırmalı?» məqaləsində bizi «aderbecanlı» (!) dilimizi isə «aderbecan (!) dili» adlandırmağı təklif etmişsə də, bu təklif sosial-siyasi zəminə malik olmadığı üçün həyata keçməmişdi. Ruslar bizi bu təklifdən sonra da, bu təklifdən əvvəl olduğu kimi «tatar», dilimizi isə «tatar dili» adlandırmış, biz isə özümüzü «türk» və ya «müsəlman», dilimizi isə «türk dili» və hətta «müsəlman dili» adlandırmaqda davam etmişik. Xırda və əhəmiyyətsiz istisnaları nəzərə almasaq, qətiyyətlə təsdiq edə bilərik ki, Azərbaycan Cümhuriyyətinin yaranmasına qədər biz özümüzü heç zaman azərbaycanlı adlandırmamışıq. İkincisi, Qafqaz İslam Ordusunun tərkibində bir çox Qafqaz mənşəli döyüşçülər vardı. Bu döyüşçülərin bir hissəsi Qafqazın Rusiya İmperiyasının tərkibinə daxil olması ilə bağlı Qafqazı tərk etmiş və Osmanlı Ordusunda xidmət etmişlər. Digərləri isə Qafqaz İslam Ordusunun tərkibinə bilavasitə CÜMHURİYYƏTİN DOĞULMASI prosesində daxil olmuşlar. Sözün ciddi mənasında, AZƏRBAYCAN XALQININ DOĞULUŞU Azərbaycan Cümhuriyyətinin doğuluşu ilə eyni vaxtda baş vermişdir. Xalqlar dövlətləri yaratmır, dövlətlər xalqları yaradır. Sovet tarixşünaslığında uzun müddət *Azərbaycan Cümhuriyyəti* ifadəsi dırnaq işarəsi içərisində yazılaraq istehza ilə xatırlanmış, Milli Şura və Nazirlər Şurası «türk müdaxiləçilərinin yaratdıqları oyuncaq hökumət» adlandırılmışdır. Formal nöqteyi-nəzərdən, xalis məntiq baxımından, bu xarakteristikada düzgün heç nə yoxdur. Amma burada o dövrün ruhu və gerçəkliyi aşkar olaraq duyulur. Həmin xarakterietikaya «türk müdaxiləçiləri»nin əzəməti və qüdrəti və «oyuncaq hökumət»in iqtidarsızlığı və qüdrətsizliyi hopmuşdur. Burada həmçinin «türk müdaxiləçiləri»nə qarşı daxili bir paxıllıq hissi, «oyuncaq hökumət»ə qarşı isə bir sayğısızlıq və nifrət hissi ifadə olunur. Yaxşı ki, «türk müdaxiləçiləri» vardı, yoxsa Azərbaycan Cümhuriyyəti doğrudan

da «oyuncaq hökumət» olardı. Amma Azərbaycan Cümhuriyyəti Nuru Paşanın iradəsi və qüdrəti ilə həqiqi dövlət oldu.

1918-1920-ci illərin marksizm nöqteyi-nəzərindən yazılmış tarixi, hələ ki, dəf edilməmişdir, sadəcə olaraq, rədd edilmişdir. Azərbaycan Cümhuriyyəti burjua Respublikası idimi? Burjuanın fəhlə sinfi üzərində, mülkədarın kəndli üzərində hökmranlıq aparatı idimi? Azərbaycan Cümhuriyyətini sinfi ziddiyyətlərin barışmazlığımı sona çatdırdı? Marksist tarixçilər Sovet dövründə bu suallara olduqca səthi cavab verdilər, hadisələri son dərəcə sadələşdirdilər və bayağılaşdırdılar, dövrün dramatizminə qətiyyən layiq olmayan izahlar verdilər, sonra isə bir çoxları yanıldıqlarını və aldanıldıqlarını etiraf etməyə hazır olduqlarını bildirdilər, hətta bəziləri öz marksist keçmişi üçün xəcalət çəkdiklərini bəyan etdilər. Lakin, onlar 17 noyabr 1918-ci il tarixindən sonrakı dövrün marksist tarixşünaslıq üçün son dərəcə zəngin material verdiyini sezə bilmədilər. Bu dövrdə, yəni 17 noyabr 1918-ci il tarixindən sonrakı dövrdə istismar da vardı, istismarçı siniflərin dövlət tərəfindən müdafiə olunması da real idi, haqqa göz yumulması, haqq qarşısındakı qorxu və hətta haqqın şüurlu olaraq boğulması da bir gerçəklik idi. Nuru Paşa dövrü heç çür marksist izaha yatmasa da, ondan sonrakı dövr marksist tarixçiliyinə son dərəcə qiymətli və faydalı materiallar verə bilərdi.

Bir məqamı da qeyd etmək istərdim. Azərbaycan Cümhuriyyəti heç də demokratik dövlət kimi yaranmamışdı. «Demokratik» sözünun sonradan zorla «Azərbaycan» və «Cümhuriyyət» sözləri arasına salınması CÜMHURİYYƏTİN YARANMASI kimi görkəmli bir hadisəni təhrif edir. Heç bir həqiqi dövlət demokratik respublika kimi yaranmamışdır. Həqiqi dövlət, yaranmasından çox sonra demokratikləşir, demokratik respublikaya çevrilir. Demokratik Respublika kimi yaranan dövlət həqiqi dövlət deyildir, siyasi oyuncaqdır. Azərbaycan Cümhuriyyəti isə həqiqi dövlət kimi yaranmışdı.

Öncə söylədiklərimi Azərbaycan Cümhuriyyətinə tətbiqən bir daha vurğulamaq istərdim ki, hər bir həqiqi dövlət aristokratizmin təşəkkülündən tükənməsinə doğru istiqamətlənən tarixi yol keçir.

Əgər dövlət aristokratizminin tam tükənməsi tiraniyadırsa, qismən tükənməsi demokratiyadır.

Nuru Paşa dövrü Azərbaycan üzərində həqiqi aristokratik ruhun hökmranlığı zamanıdır. Azərbaycan Cümhuriyyətinin demokratikləşməsi isə Qafqaz İslam Ordusunun Bakını tərk etməsi nəticəsində başladı və ingilis ordusunun himayəsi altında Parlamentin yaradılmasında öz ifadəsini tapdı. Nuru Paşa Bakıda aristokratizmi, Tomson isə demokratizmi möhkəmlətdi. İstiqlal bəyannaməsində öz əksini tapan və əsrin əvvəllərində «Azərbaycan Xalq Cümhuriyyəti», indi isə «Azərbaycan Demokratik Respublikası» kimi oxunan «Азербайджанская Демократическая Республика» ifadəsi Azərbaycan Cümhuriyyətinin doğuluşunun yaratdığı təlatümləri və qüdrətli çağlarını deyil, daha çox gücsüz, ədalətsiz və yazıq sonluğunu təsvir etmək üçün yararlıdır.

Dövlətin sonu, əksər hallarda, siyasi aristokratizmin tükənməsi ilə, başqa sözlə, hakimiyyətin haqqı müdafiə etmə və qoruyub saxlama qüdrətinin gücdən düşməsi ilə şərtlənir. Dövlət öz təbii ölümünə doğru irəlilədikcə özünün tərkib hissələrinə ayrılır, daha doğrusu parçalanır. Ordu yenidən köçəri tayfalara çevrilərək dünyaya yayılır, icmalar yenidən köməksizləşir, zorakılıqlara və ədalətsizliklərə məruz qalırlar.

1920-ci il əslində Azərbaycan tarixinin iki ən gərgin dövrləri arasında keçid mərhələsi idi. Bu, Cümhuriyyətin siyasi tükənmə tarixi məqamı idi və cəmiyyətin «Müstəqil Sovet Azərbaycanı» xülyasının şirin cazibəsinə uyduğu tarixi məqam idi. Bu, məyusluq əhvali–ruhiyyəsindən ümid əhvali-ruhiyyəsinə keçid məqamı idi. Bu məqamdan öncəki illər də gərgin keçmişdi, sonrakı illər də gərgin keçəcəkdi. Bu məqamın özündə isə gərginlik son dərəcə yumşalmışdı. Çünki əməlin olacağına ümid vardı.

Əməl oldu, «müstəqil Sovet Azərbaycanı» quruldu, amma bu, sözün tam mənasında müstəqil Azərbaycan olmadı, yarımmüstəqil Azərbaycan oldu. Sovetləşmə Azərbaycanın müstəqilliyini azaltdı, amma siyasi hakimiyyəti möhkəmlətdi. Sovetləşmə eyni zamanda Azərbaycanın aristokratik resurslarının geniş miqyasda məhv edil-

məsinə də səbəb oldu, aristokratik resursların bu vaxta qədər istifadəsiz qalmış hissəsinin yenidən üzə çıxarılmasına və diqqət mərkəzinə gətirilməsinə də.

Hər bir dövlət öz zadəgan zümrəsinin ölçüsünə uyğun ölçüdə qüdrətlidir. Həqiqi zadəgan ruhunu daşıyanlardan ibarət zümrənin ölçüləri artdıqca dövlət də qüdrətlənir. Zadəgan zümrəsinə daxil olanlar həqiqi zadəgan ruhunu itirdikcə isə dövlət də zəifləyir, ölgünləşir, öz nüfuzunu azaldır.

Qayıdaq aristokratizmin himayə dövləti ideyasının ümumsiyasi prinsiplərinin şərhinə.

Himayə dövləti dövlət ideyasının hər şeydən öncə məhz ona görə ilkin tarixi təcəssümü olur ki, burada cəngavər əkinçini onun üçün yad olan məşğuliyyətdən, ilk növbədə isə müharibə aparmaq məcburiyyətindən xilas edir və öz doğma və sevimli işi ilə, yəni əkin-biçinlə məşğul olmaq imkanını ona qaytarır.

Zadəgan insanlar üzərində hökmranlıq edən şəxs deyildir, onları himayə edən şəxsdir, yəni öz sevimli işi ilə məşğul olmaq imkanını insanlara verən və bir çox hallarda hətta bu imkanı yaradan şəxsdir.

Əgər ***fateh*** zadəganın ilkin tarixi tipidirsə, ***hakim*** onun ikinci tarixi tipi, ***əmir*** üçüncü, ***aristokrat*** isə dördüncü tarixi tipidir. Fateh xalqın xilaskarıdır, hakim onun daxili ziddiyyətlərini həll edəndir, əmir isə onun aparıcısıdır, lideridir, başçısıdır.

Əmir də fateh kimi hakimiyyət sahibi olmadığı üçün hökmdar deyildir. Hökmdar-təbəə münasibətləri tarixi olaraq əmir-sıravi münasibətlərindən doğulmur və onlardan köklü surətdə fərqlənir. Əmir və sıravi arasındakı münasibətlər hakimiyyət münasibətlərindən daha çox, əgər belə demək mümkündürsə, böyük və kiçik qardaş arasındakı doğma münasibətləri xatırladır. Çünki buradakı iyerarxiya forması rasional xarakterli hakimiyyət deyildir, deyilən sözün mütləqləşdirilməsinə əsaslanmır, bu iyerarxiya poetik dillə deyilərsə, ürəklərin birgə vurmasına əsaslanır. Ürəyin səsini daha yaxşı başa düşən və daha yaxşı ifadə edən kəs əmir, onu icra edən kəs isə sıravi olur. Hökmdar-təbəə münasibətlərində isə iyerarxiya

hakimiyyət xarakterlidir və bu hakimiyyət sözün müsbət olmayan mənasında rasionaldır, qeyri-səmimidir və ikitərəfli qaydada insan üzərində məcburiyyətə əsaslanır. Hökmdarın hakimiyyəti zora və zorakılığa, insan təbiətinin özgələşdirilməsinə istinad etdiyi halda, əmirin üstünlüyü avtoritetə və insan mahiyyətinin təsdiqinə yönəlir. Əmirin başçı statusu nə seçki yolu ilə, nə irsi yolla, nə inqilabi yolla, nə də vəzifə bölgüsü zamanı pay kimi verilmir. Əmir başçı statusunu hamının hiss etdiyi, hamının ürəklərində saxladığı ədalət hissini hamıdan yaxşı ifadə etməklə və gerçəkləşdirməklə qazanır. Əmir kütlələri ədaləti gerçəkləşdirmək əzmi ilə hərəkətə gətirir.

Lakin ədaləti gerçəkləşdirmək əlbəttə ki heç də hər əmirə və hər zaman nəsib olmur.

Bu, xüsusən o halda baş verir ki, hər bir əmirin ayrıca malik olduğu hərbi qüdrət əhalinin və ərazinin təhlükəsizliyini təmin etmək üçün kifayət etmir. Xarici təhlükənin dayanıqlı və sürəkli olduğu halda isə birgə müdafiə haqqında əmirlərarası razılaşmalara daha tez-tez zərurət yaranır və bu isə əmirlərin mütəmadi olaraq məsləhətləşməsini və birgə qərar qəbul etməsini şərtləndirir. Sonradan senat formasını kəsb edən *Əmirlər Şurası* həmin bu zərurətdən doğulur. Xarici təhlükə davam etdikcə və artdıqca *Əmirlər Şurası*nın da əhəmiyyəti artır və bu şura tədricən *suveren*[1] *statusu*nu kəsb edir.

Nəticədə, əmirlərin başçılıq etdikləri ayrı-ayrı minidövlətlərin[2] əraziləri tədricən vahid bir dövlətin ərazisinə transformasiya edir və əmirlərin başçılıq etdikləri minidövlətlərin vahid, əgər belə demək mümkündürsə, konfederasiyada sintezini şərtləndirir.

Dövlət beləliklə, Platonun, Aristotelin, Polibinin, Siseronun və Hobbsun başa düşdüyü mənada ***aristokratiya*** xarakterini alır. Bizim tarixşünaslıqda buna çox zaman **tayfa ittifaqı** da deyilir. Bu

[1]Suveren sözü burada özünün ilkin mənasında, yəni hakimiyyətin yeganə mənbəyi mənasında işlədilir.

[2]İndi mənim minidövlət adlandırdığım vahidləri işarə etmək üçün dilimizdə oba, oymaq, yurd, el kimi bir sıra xarakterik ifadələr də mövcuddur ki, onlardan ən azı biri, oymaq etimoloji olaraq nizama salmaq mənasını da verir.

dövlət, müasir politoloji terminologiya ilə ifadə edilsə, öncə xatırlandığı kimi, konfederasiyaya bənzəyir. Əmirlər Şurasının fəaliyyət üslubu müəyyən qədər indiki BMT Təhlükəsizlik Şurasının fəaliyyət üslubunun kiçikmiqyaslı modelini də da xatırladır.

Əmirlər Şurasının bir qurum olaraq tam müstəqil olduğu siyasi rejimin ilkin çağında, öz xalisliyini hələ ki itirməmiş dönəmində Şuranın hər bir üzvü hamisi olaraq qaldığı vilayətin suveren əmiri olaraq da qalır. Şura suveren olaraq qaldıqca, əmir də bu vilayət üzərində öz suveren statusunu saxlayır. Şuranın digər üzvləri onun razılığı olmadan bu vilayətlə bağlı heç bir qərar qəbul edə bilməzlər. Burada ümumdövlət əhəmiyyətli qərarlar heç də səsçoxluğu prinsipi əsasında deyil, yalnız yekdillik prinsipi əsasında qəbul edilə bilir. Şuranın hər bir üzvünün, müasir hüquqi terminologiya ilə deyilərsə, *veto hüququ* vardır.

Əmirlər Şurasının suveren statusunda olduğu siyasi rejim yalnız o qədər də böyük olmayan coğrafi məkanda mövcud ola bilir. Əmirlərin rəhbər olduqları minidövlətlər haradasa bir mahal ölçülərində, Əmirlər Şurasının suveren statusunda olduğu siyasi rejim isə bir qəza ölçüsündə olan ərazidədir[1].

Üstəlik, Əmirlər Şurasının suveren olduğu ölkədə əsasən kənd təsərrüfatı üstünlük təşkil edir. Aristokratik dövlətin başlıca vəzifəsi həmin bu kənd əhalisinin təhlükəsizliyinin təminatıdır. Burada ticarət, sənətkarlıq və sənaye son dərəcə məhduddur və zəif inkişaf etmişdir. Məmurluq institutu rüşeym halındadır, daha dəqiq deyilərsə, burada əslində Şuranın hər bir üzvünün əhatəsində müəyyən azsaylı insan kütləsi vardır. Amma bu kütlə hələ ki, sözün tam mənasında nə məmur kimi, nə də tacir, sənətkar və ya konkret xidməti öhdəliyi olan işçi kimi formalaşmamışdır. Bu insanları Şuranın deyil, onun ayrı-ayrı üzvlərinin məiyyəti hesab etmək olar. Doğru-

[1]Amma qəza, xüsusən də mahal ölçülərində bir məkanın təmsilçisi üçün **fateh, hakim, əmir, aristokrat** sözləri indi bəlkə də bir qədər şişirdilmiş görünə bilər. Lakin onlarla kəndi zülmdən və məhvolmadan xilas etmək və himayə altında saxlaya bilmək həqiqətən də bir hünərdir, bu səbəbdən də ən yüksək epitetlərə layiqdir.

dur, tamamilə mümkündür ki, bu məiyyət kütləsindən sonradan, siyasi təkamülün növbəti mərhələlərində məmur kütləsi formalaşsın. Amma hələ ki, bu insanlar yalnız məiyyət kütləsini təşkil edirlər, özü də dövlətin ali orqanı olan Əmirlər Şurasına aid olan məiyyət kütləsini deyil, Şuranın ayrı-ayrı üzvlərinə aid olan məiyyət kütləsini. Bu insanlar amorf, hələ ki, qəti olaraq diferensiasiyaya uğradılmamış topluma daxil olmaqla ayrı-ayrılıqda əmirin adamı olmaqdan qeyri başqa bir sosial statusa malik deyillər.

Lakin, bununla yanaşı belə bir məqamı da qeyd etmək lazım gəlir ki, məiyyət kütləsi əmirin məxsusi iradəsinin icraçısından daha çox, onun yaxın ətrafı olduğundan əmir bu halda da, Əmirlər Şurasının üzvü statusunda da özünü sözün tam mənasında hökmdar kimi hiss etmir.

Əmirlər Şurasının suveren olduğu dövlət Morqanın «hərbi demokratiya» adlandırdığı siyasi hadisədir.

Əmirlər Şurasının hər bir üzvü əmiri olduğu vilayətin himayəçisi olaraq qalmaqla yanaşı, həm də əmiri olduğu ordunun başçısı olaraq da qalır. Əmiri olduğu ordu ona tabedir, ona sədaqətlidir, bu ordu başqa bir sərkərdənin ixtiyarına verilə bilməz. Orduların birgə fəaliyyəti isə yalnız əmirlərin qarşılıqlı razılığı əsasında mümkündür. Ordu birləşmələrinə – legionlara ümumi rəhbərlik isə əmirlərin hər birinin razılığı ilə onlardan birinə həvalə edilir.

Amma ordu birləşmələrinə ümumi rəhbərliyin əmirlərdən hansısa birinə daha tez-tez həvalə edilməsi halı sürəkli olduqca və davamlı yer aldıqca həmin o rəhbər tədricən hökmdara çevrilməyə başlayır.

Beləliklə, himayə dövləti hakimiyyət dövlətinə, hökmdarın hakimiyyət maşınına çevrilir. Dövlət himayəsinin yerini getdikcə daha geniş miqyasda **dövlət hakimiyyəti** alır.

# MAHİYYƏTİN GERÇƏKLƏŞDİRİLMƏSİNƏ YÖNƏLƏN İRADƏNİN ARXA PLANA ATILMASI: *DÖVLƏT HAKİMİYYƏTİ*

Cəmiyyətin potestar[1] təşkilinin başlanğıc məqamını, dövlət himayəsindən dövlət hakimiyyətinə keçidi şərtləndirən amil olaraq suveren statusunun artıq Əmirlər Şurasına deyil, ordu birləşmələrinə ümumi rəhbərliyi ələ alan hökmdara məxsus olması faktı çıxış edir və bu halda konfederasiyadan federasiyaya doğru təkamülə bənzər siyasi hadisə baş verir.

Əmirlərdən biri tədricən hökmdara çevrildikcə, digər əmirlər onun vassalına çevrilməyə başlayırlar, daha çox onun lazım bildiyi döyüşlərdə iştirak etməli və ona vergi ödəməli olurlar. Əmirlər Şurasının hər bir üzvü öncə əmiri olduğu vilayətin indi artıq bir əyalət rəhbəri, yerli idarə başçısı statusunu kəsb etməyə başlayır, öncə əmiri olduğu orduya indi artıq ordu komandanlarından biri statusunda rəhbərlik edir və üstəlik öz üzərində hökmdarın ağırlığını və hakimiyyətini də hiss edir.

Bu halda Şuranın digər üzvləri - öncə öz vilayətləri və öz orduları üzərində suveren hüquqa malik olan əmirlər tədricən mütləq müstəqilliklərini itirir və artıq *əmirlərin suveren olmayan şurası*nın - *senat*ın üzvünə, ***hörmətli şəxslərdən biri***nə, ***aristokrat***a çevrilirlər.

Aristokrat tarixi olaraq *senat institutu*nun meydana çıxması ilə, daha dəqiq deyilərsə, Əmirlər Şurası institutunun Senat institutuna

---

[1]Potestas (lat.) - hakimiyyət.

çevrilməsi ilə paralel olaraq formalaşır. Belə ki, Senat tarixən Əmirlər Şurasının transformasiyası kimi yaranır və əmirlərin özlərinin razılığı ilə önə keçən hökmdardan asılı olmuş olur və bu hadisə həm də zadəgan himayəçiliyinin dövlət hakimiyyəti formasını kəsb etməsi hadisəsi ilə ümumu tarixi kontekstdə baş verir.

Əgər zadəganın birinci tarixi tipi olan fateh, əgər onun ikinci tarixi tipi olan hakim, əgər zadəganın üçüncü tarixi tipi olan əmir yalnız himayəçi olaraq qalırdılarsa, onun dördüncü tarixi tipi olan aristokrat fatehdən, hakimdən və əmirdən fərqli olaraq artıq həm hakimiyyət altındadır və həm də *müəyyən qədər* hakimiyyət sahibidir. Lakin, aristokratların hakimiyyəti *aristokratiya* sözünün dilimizə hərfi tərcüməsində olduğu kimi *ən yaxşıların hakimiyyəti*dir[1].

Aristokrat rəiyyətə münasibətdə yenə də himayəçi, onun xidmətində dayanan məiyyət kütləsinə münasibətdə isə himayəçi olmaqla yanaşı, həm də yarımhökmdar rolunu oynayır. Onun sosial statusu əmirin sosial statusu ilə hökmdarın sosial arasında sanki bir aralıq mövqe tutur. Bununla belə, aristokrat ruhu hökmdar ruhundan öz təbiətinə görə fərqləndiyindən, aristokrat heç vaxt qəti olaraq hökmdarlaşmır.

Amma bu da bir həqiqətdir ki, aristokrat sarayla bağlı olan, sarayın malik olduğu hakimiyyətdən faydalanan və üstəlik özü də saraydan himayə olunan və əvəzindəsə saraya xidmət göstərməli olan və göstərən zadəgan olaraq tarix meydanına çıxır.

Sarayın meydana çıxması özü-özlüyündə isə himayə dövlətinin dövlət hakimiyyətinə doğru təkamülünün davamı olur və əslində hökmdarın digər əmirlər üzərində üstünlüyünün simvollarından birinə çevrilir. Bu halda hökmdara öncə bir əmir olaraq məxsus olan məiyyət kütləsi indi artıq suverenə məxsus olan məiyyətə çevrildiyindən bu kütlənin də siyasi çəkisi əhəmiyyətli dərəcədə artır.

[1]Aristokratiya sözünə dövlət formalarından biri kimi verilən məna (Platon, Aristotel, Polibi, Siseron və Hobbs tərəfindən verilən məna) ilə ona ən yaxşıların hakimiyyəti kimi verilən mənadan əlbəttə ki fərqləndirilməlidir.

Hökmdar əslində digər əmirlərin müqavimətini ilk növbədə məhz bu kütlənin, özünün getdikcə güclənməkdə və genişlənməkdə olan məiyyətin aktiv dəstəyi ilə qırır.

Xatırladaq ki, suveren statusunda Əmirlər Şurasının çıxış etdiyi halda isə məiyyət kütləsi hələ ki suverenə deyil, ayrı-ayrı əmirlərə məxsus idi. Əmirlərdən birinin digər əmirlər üzərində üstünlük əldə edərək, suveren statusunu kəsb etməsi isə ona məxsus olan məiyyət kütləsini bilavasitə dövlət hakimiyyətinin obyekti edir. Üstünlük əldə edən, ön plana keçən həmin əmir öncə yalnız öz məiyyətinə münasibətdə lider idisə, indi o, həm də digər əmirlərə münasibətdə lider olur və tədricən dövlətin bütün əhalisinə münasibətdə liderə çevrilir. Hökmdar burada əhaliyə münasibətdə lider və himayəçi, məiyyətə münasibətdə isə onun üzərində həm də sanki bir mülkiyyətçi, bilavasitə olaraq sanki bir ağa[1] statusundadır.

Hökmdar tabe edən, məiyyət isə tabe olan və tabe olmağı ilə fəxr edən kəsdir.

Məiyyət ümumiyyətlə özgə iradəsinin icraçısı kimi meydana gəlir və meydana gəldiyi tarixi andan bəri öz fərdi iradəsini kütləşdirir.

Hökmdar-məiyyət münasibətləri ağa-qul münasibətləri ilə bəlkə də eyni təbiətlidir. ***Məiyyət*** öhdəliklərini tam olaraq öz üzərinə götürmüş insan ***artıq işləmir, xidmət edir***, daha doğrusu, ***qulluq edir***. *Qulluq* sözü öz ilkin mənasını son dərəcə dəqiqliklə qoruyub saxlamışdır. Məiyyət *öz işin*dən ayrılaraq daha çox fayda götürmək üçün *özgə işin*i görmək istəyənlərdən formalaşır.

Məiyyət özgə iradəsini yerinə yetirməli olan bir alət kimi meydana gəldiyindən, dövlət hakimiyyətinin yaranması *qul düşüncə tərzinin*, kölə psixologiyasının tarixi təşəkkülünə başlanğıc verir. Dövlət doğrudan da heç də marksizmin güman etdiyi kimi quldarlıqdan

---

[1]Hökmdarın və əmirin sosial statusları arasındakı münasibətlər ağanın və bəyin sosial statusları arasındakı münasibətlərə müəyyən qədər bənzəyir.

törəmir, əksinə, sözün həqiqi mənasında quldarlığı və köləliyi törədir.

Azadlıq və köləlik təkcə sosial stratifikasiyaya aid olmayıb, qeyri-aşkar formada cəmiyyət həyatının bütün sahələrində, xüsusən dövlət hakimiyyətində özünü göstərir. Köləlik ümumiyyətlə bir insanın öz iradə və zəkasını başqa bir insanın iradə və zəkasına tabe etdirməsidir. Kölə öz ürəyinin səsini eşitmək istəmir və onu boğur, öz instinktlərinin gerçəkliyinə inanmır və onlardan utanır. Azadlıqdan köləliyə keçid öz ürəyinin səsinin boğulması ilə, öz instinktlərinin korşalması ilə başlayır, özgə iradəsinin həqiqiliyinə və qüdrətinə, özgə zəkasının mütləqliyinə və kamilliyinə inamın qərarlaşması ilə başa çatır. *Öz işi*ni ataraq məiyyətləşən hər bir şəxs kölələşir.

Məiyyət kütləsi içərisində prinsipial olaraq iş bölgüsünün meydana çıxması, daha konkret deyilərsə, öncə ümumi məiyyət kütləsini təşkil edən insanların içərisindən bəzilərinin sənətkar və tacir kimi ixtisaslaşmaları və ümumi kütlədən ayrılmaları ilə isə tarix meydanına yeni bir fenomen – şəhər fenomeni daxil olur. Şəhər hökmdarın saraydankənar ətrafının yaranması ilə meydana gəlir.

Amma şəhər cəmiyyət həyatının inkişafında bir hadisə olaraq öz təşəkkülünü Əmirlər Şurasının suveren statusunda olduğu zamandan götürür və ilkin olaraq legionun düşərgəsində, əmirlərin birgə qərar qəbul etdikləri ştabda öz formalaşma dövrünün başlanğıcını yaşayır. Ştab həm rudimentar bir dövlət aparatına, həm də bir protoşəhərə çevrilir. Əgər Əmirlər Şurasının özü müəyyən qədər hərbi ştabı xatırladırsa, ilk məiyyət kütləsi ştab işçilərini, *kvartirmeyster isə* ilk dövlət məmurunu xatırladır. Belə ki, əmirlər öz təbiətləri etibarı ilə hərbçi olduqlarından o qədər də bələd olmadıqları və əslində heç rəğbət də bəsləmədikləri mülki işləri (təsərrüfat işlərini) idarə etmək məcburiyyətində qaldıqları zaman mülki işlərə rəhbərlik etmək üçün məiyyət kütləsi içərisindən ən bacarıqlı hesab etdikləri birisini seçirlər, ona mülki işlərə rəhbərlik etmək səlahiyyətini verirlər. Kvartirmeyster həmin bu şəxsdir. Beləliklə, bütün ştab işçiləri onun sərəncamına verilmiş olur və ona tabe olmaq onlara bir vəzifə olaraq tapşırılmış olur. Bununla da, idarəetmənin haki-

miyyətdən fərqlənməsinin və tədricən həm də qopub ayrılmasının əsası və başlanğıcı qoyulur, hakimiyyətin idarəetmədən ayrılması ilə isə dövlətə başçılıq edən şəxsin dövlətin bilavasitə gördüyü işlərdən ayrı düşməsinin ən ibtidai bir səviyyədə təməli qoyulmuş olur. Beləliklə, mülki işlərə rəhbərlik edən kvartirmeyster həm məiyyət kütləsi üzərində müəyyən hakimiyyətə malik olur, həm də dövlətin xəzinəsinə ödənilən vergilər nəticəsində meydana çıxan sərvət üzərində sərəncam vermək hüququna da müəyyən dərəcədə malik olur. Bununla da kvartirmeyster dövlətin rüşeym halında ilk məmuru olmuş olur və dövlətin təkamülünün sonrakı mərhələlərində əvvəlcə xəzinədar, sonra vəkil və sonra hətta nazir statuslarını kəsb etməklə onun əhəmiyyəti və siyasi çəkisi getdikcə artır.

Əmirlərdən birinin hökmdara çevrilməsində də onun mühüm rolu olur, ştabın tədricən əvvəlcə saray, sonra isə şəhər olmasında da.

Avropa dillərində *ştab* və *ştat* sözlərinin bir-birinə bənzəməsi isə onların eyni mənşəli olmasından xəbər verir. Dövləti siyasi hakimiyyətlə eyniləşdirən qərb siyasi təfəkkürü üçün **ştab** və **ştat sözləri**nin etimologiya nöqteyi-nəzərindən *ştab* və *ştat* mənalarından başqa, həm də *şəhər* və *dövlət mənaların*ı verməsi də bu baxımdan heç də təsadüfi deyildir[1].

Şəhərin meydana çıxması aristokratizmin olmasa da, aristokratik idarəetmə üsulunun aparıcı mövqeyinin sonunu şərtləndirir, aristokratik idarəetmə üsulu ən azı idarəetmənin üstün, aparıcı forması kimi öz əhəmiyyətini itirir. İdarəetmə artıq aristokratizm prinsipi əsasında deyil, daha çox determinizm prinsipi əsasında baş verir.

Aristokratik idarəetmənin böhranı özünü həm də onda göstərir ki, rəiyyət zadəgan işlərini görməyə başlayır, ən başlıcası isə müha-

[1]Alman dilində; *Stab* – ştab, *Staat* – ştat, *Stadt* – şəhər, *Staat* – dövlət: ingilis dilində; *Staff* - ştab, ştat, *State* – dövlət.

ribəyə cəlb edilir, zadəgan isə öz növbəsində rəiyyət işlərinə girişir, tacirlik edir.

Şəhərlinin düşüncə tərzi və əxlaqi prinsipləri zadəganın düşüncə tərzinə və əxlaqi prinsiplərinə yad olduğu üçün, şəhərli kütləsinin formalaşması özü-özlüyündə, artıq bir qədər digər aspektdə olsa da qeyd olunduğu kimi, cəngavər, icma və zadəgan mədəniyyətləri ilə yanaşı duran dördüncü bir mədəniyyət tipini – şəhər mədəniyyətini – formalaşdırır. Şəhərli kütləsi əsasən kəndli kütləsi əsasında formalaşsa da, şəhər mədəniyyəti yarandığı gündən bəri icma mədəniyyətindən fərqlənməyə başlayır və özünün tarixi inkişaf prosesində onun tam əksliyinə, fərdiyyətçi əxlaqın gerçəkliyinə çevrilir. İcma mədəniyyəti altruistik təbiətli olduğu halda, şəhər mədəniyyəti lap başlanğıcdan bu və ya digər dərəcədə utilitar xarakter daşıyır. Şəhər mədəniyyətini daxilində müşahidə olunan xeyirxahlıq əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyətinin daxilində olduğu kimi təmənnasız deyildir, xeyirxahlıq burada həmişə öz əvəzini gözləyir, insanlara yaxşılıq etmək insanları asılı vəziyyətə salmaq, müəyyən mənada, onları kölələşdirmək məqsədinə xidmət edir. Özü də burada köləlik qarşılıqlı və könüllü xarakter kəsb edir. İstəmədiyin əməlləri edirsən ki, başqaları sənin istədiyini etsinlər. Elə buna görə də şəhərli əxlaqı daxilində məhz naşükürlük ən başlıca qəbahətə çevrilir. Burada müşahidə olunan cəsarətlilik və risk də cəngavər mədəniyyəti üçün səciyyəvi olan cəsarətlilikdən və qətiyyətdən fərqlənir. Risk və cəsarət burada həmişə müəyyən faydanı nəzərdə tutur. Əxlaq şəhər mədəniyyəti daxilində öz mütləqliyini itirir, adətlərin təcəssümü kimi qavranılır, zahiri xarakter kəsb edərək *etika,* daha dəqiq deyilərsə, *etiket* formasını alır.

Şəhərin formalaşması hakimiyyət dövlətinin formalaşması ilə paralel baş verir və hakimiyyət dövlətinin özünə də getdikcə daha çox artmaqda olan utilitar və determinist xarakter verir.

Dövlətin utilitar və determinist xarakter alması həm də o deməkdir ki, burada məiyyətin fəaliyyəti ümumən xalqın qarşısında duran problemlərdən deyil, daha çox hökmdarın rasional iradəsindən qaynaqlanmağa başlayır və məiyyət hökmdarın iradəsinə tabe

olduğu üçün əvəzində dövlət hökmdarın adından ona mükafat olaraq bu və ya digər şəkildə haqq verilir. Məiyyət hökmdar iradəsinin yerinə yetirilmə prosesinin özünə biganədir, bu proses onun ürəyindən deyildir, hökmdar iradəsinin yerinə yetirilməsi zamanı o, mükafat xatirinə özü üzərində zorakılıq edir. Hökmdar məiyyəti mükafatla həvəsləndirərək və eyni zamanda həm də cəza ilə qorxudaraq idarə edir. Məiyyət üçün fəaliyyətin özü yox, onun nəticəsi əhəmiyyətlidir.

Müqayisə üçün utilitar və determinist idarəetmə üslubu ilə əmirə xas olan idarəetmə üslubu arasında bir daha paralel aparaq. Əmirin hakimliyində utilitar və determinist idarəetmədən fərqli olaraq fəaliyyətin bilavasitə icraçısı olan sıravi üçün fəaliyyətin nəticəsi deyil, fəaliyyətin özü əhəmiyyətlidir. Çünki bu fəaliyyət *ürəkdən keçən* əməlləri, *ədaləti* ifadə edir. Əmir sıravinin ürəyindən keçəni sıravinin özündən daha yaxşı ifadə etdiyi üçün onu idarə edə bilir. Əmir burada ədalətin ifadəçisidir. O, bütün sıravi kütləsinin təbii, içəridən gələn fəaliyyətini tənzimləməklə ədalətin bərqərar edilməsinə, təntənəsinə nail olur. Əmir-sıravi sistemində «sərəncamverən-icraçı» münasibətləri hökmdar-məiyyət sistemində olduğu kimi kobud və qeyri-təbii deyildir. Əslində «sahibkar-kölə» xarakterli olan hökmdar-məiyyət sistemi insan ləyaqətini aşkar surətdə alçaldır. Əmir-sıravi sistemi ürəyin səsinə ehtiram və insan ləyaqətinə hörmət prinsipi üzərində, hökmdar-məiyyət sistemi isə faydalılıq prinsipi üzərində qurulmuşdur. Əmirin iradəsi insan daxilindən axıb gələn həqiqət selinin gerçəkləşməsinə yönəlmişdir. Əmirin gözündə sıravi *onun özü kimi* insandır. Məiyyət hökmdarın gözündə isə onun iradəsini yerinə yetirməli olan bir alətdir. Əmirin iradəsi emosional, hissi təbiətlidir, indidən qaynaqlanır və səmimidir, hökmdarın iradəsi isə rasional xarakterlidir, keçmişdən qaynaqlanır və əksər hallarda ürəyin səsi ilə uyuşmur. Əmir üçün söylədiyi söz deyil, ürəyinin səsi əhəmiyyətlidir. Hökmdar üçün isə əksinə olaraq ürəyin səsi az əhəmiyyətlidir, dediyi söz isə son dərəcə mühümdür. Son söz demək ancaq onun səlahiyyətidir. Onun sözündən çıxmaq, sözü-

nün üstündən söz demək, sözünü eşitməmək, sözünün qarşısında söz danışmaq qadağandır. Bu qadağanın pozulması cəzalanma ilə nəticələnir. Əmirin sözü ümumi iradəni ifadə edir və buna görə də hamının ürəyindən xəbər verir. Əmirin sözü ideyadır. Bu ideya inkişaf etdikcə özünün söz qabığını hər an dəyişə bilər. Hökmdarın sözü isə ideyanı ifadə etmir, təsadüfə əsaslanan şıltaqlığı ifadə edir. Əmir-sıravi sistemində sıravi əmirin söylədiyi ideyanı suya təşnə olan torpaq kimi udur. Əmirdən fərqli olaraq hökmdar ideya söyləmir, söz deyir, hökmdarın idarəetmə üslubu despotik, əmirin idarəetmə üslubu isə aristokratikdir. Əmir hərbçidir, hökmdar isə artıq yarıhərbçidir, həyatının əksər hissəsində mülki şəxslərlə ünsiyyətdə olduğundan və onlarla əhatə olunduğundan, mülki şəxsin mahiyyətini və təbiətini və bir çox əlamətlərini mənimsəmişdir. Başçı statusunun əmirdən mülki şəxslərin əhatəsində və təsir dairəsində olan hökmdara keçməsi hərbçi üzərində hökmranlığın mülki şəxsin ixtiyarına verilməsinin başlanğıcı kimi də dəyərləndirilə bilər.

Cəmiyyətin potestar təşkili eyni zamanda xüsusi mülkiyyətin formalaşması ilə paralel baş verir.

Hakimiyyət münasibətləri müəyyən qədər mülkiyyət münasibətlərini xatırladır. Hakimiyyətə malik olmaq əslində başqaları üzərində sahiblik hüququna malik olmaq deməkdir. Mülkiyyətə malik olmaq isə dünyanın müəyyən hissəsi üzərində hakimiyyətə malik olmaqdır. Hakimiyyət insanlar üzərində mülkiyyətdir. Mülkiyyət – dünya üzərində hakimiyyətdir, dünyanın insan iradəsinə tabe etdirilmiş hissəsidir.

Həqiqi dövlət zadəgan ruhunun təcəssümü, daha dəqiq deyilərsə, insanların öz təbii təyinatlarını gerçəkləşdirməsinə yardım etməyə yönələn personal başlanğıcın törəməsi olduğu halda, dövlətin hakimiyyət formasını alması və bu yönümdə təkamül etməsi onun zadəgan ruhundan və personal başlanğıcdan qoparaq, ayrılaraq özgələşməsi və bir qədər də eybəcərləşməsidir.

Dövlətin yaranması zadəganlığın yaranması ilə eyni zamanda baş verdiyi halda, dövlət hakimiyyətinin meydana gəlməsi zadəganlığın yaranmasından çox sonra baş verir və mahiyyəti etibarı ilə on-

dan daha miyanə və daha az fundamentaldır. Əgər mahiyyətin gerçəkləşdirilməsinə yönələn iradə zadəganlığın təşəkkülü məqamında və dövlətin yaranması prosesində ön planda olursa, dövlət hakimiyyətinin formalaşması mahiyyətin gerçəkləşdirilməsinə yönələn iradəni arxa plana atır.

Dövlət hakimiyyətinin öz hüdudlarını genişləndirərək siyasi hakimiyyət formasını alması isə tarixi olaraq **tiraniya**nın doğuluşu ilə eyni zamanda baş verir.

## ZƏBT EDİLƏN HAKİMİYYƏT: *TİRANİYA*

Tiraniya dövlət hakimiyyətinin zor tətbiq etməklə ələ keçirilməsi, zəbt edilməsi nəticəsində meydana çıxsa da, bir çox hallarda dövlətin öz həqiqi mənasına və mahiyyətinə yadlaşmasının ən aşkar ifadə formalarından birinə çevrilə bilsə də, tiranizmin doğuluşu siyasi hakimiyyətin doğuluşunu şərtləndir. Siyasi hakimiyyətin ən aşkar, ən xalis və yəqin ki, ən ilkin tarixi forması əslində elə tiraniyadır.

Əgər hakimiyyət ümumiyyətlə bir adamın öz iradəsini *başqa* bir *adam*a qəbul etdirməsidirsə, tiraniyada həmin bu *başqa adam* rolunda ölkənin bütün əhalisi, o cümlədən irsi aristokratiya çıxış edir.

Əgər tiraniyanın bir siyasi gerçəklik olaraq ilkin tarixi təzahürü mərkəzi dövlət hakimiyyətinin zəbt edilməsidirsə, onun ikinci tarixi təzahürü tiran tərəfindən aristokratik senatın ləğv edilməsidir. Tiraniya siyasi hakimiyyətin özülünün qurulmasını əslində elə bununla gerçəkləşdirir. Tiran siyasi hakimiyyətin yeganə subyekti statusunu davamlı olaraq saxlamaq və digər siyasi qüvvələri siyasətin real səhnəsindən silmək üçün aristokratik senatı keçmişin bir qalığı kimi ləğv edir, bununla da yerlərdə danılmaz hakimiyyətə malik olan irsi aristokratiyanı mərkəzi hakimiyyət payından məhrum edir, öncə irsi aristokratiyaya tabe olan və əslində həm də məxsus olan vilayətləri bilavasitə mərkəzin tabeliyində olan əyalətlərə çevirir, yerlərdə öncə danılmaz hakimiyyətə malik olan irsi aristokratiya təmsilçilərinin malik olduqları hakimiyyət və nüfuz dairələrinin belə bir qaydada kiçilməsi ilə razılaşmadıqları və buna müqavimət

göstərdikləri halda isə, onların müqavimətini qıraraq əyalətlərə rəhbərlik etməli olan yerli idarə başçılarını özü, onun özünə tabe olan qoşun hissələrinin komandanları içərisindən təyin edir.

Tiran bununla da özünün ölkə və əhali üzərində malik olduğu siyasi hakimiyyətin özülünü möhkəmlətmiş olur.

Dövlət hakimiyyətindən fərqli olaraq, siyasi hakimiyyətin nüfuz dairəsi, obyekti artıq yalnız məiyyət kütləsi deyildir, bütün ölkə əhalisidir. Tiran bütün ölkə əhalisi üzərində hakimiyyət sahibidir. Əgər bir hökmdar olaraq ona aid olan dövlət hakimiyyətinin obyekti onun zorla özünə təslim etdirdiyi və artıq onun sərəncamında olan məiyyət kütləsidirsə, onun yaratdığı siyasi hakimiyyətinin obyekti bütün əhali olur.

Tiran məiyyət üzərində artıq formalaşmış hakimiyyəti zorla istila edən və sonradan bütün əhalini öz hakimiyyətinin təsiri altına salaraq, ölkə əhalisini təbəəyə çevirən, təbəələşdirən şəxsdir. Tiran təbəə kütləsini yaradandır.

Təbəə kütləsi yalnız qismən məiyyət kütləsi əsasında formalaşır. Təbəəliyin başlıca mənbəyi isə kəndlidir. Təbəəliyin formalaşması dövründə kəndlilər dövlətə xidmət sferasına cəlb edilir və təbəəliyin başlıca sosial bazasını təşkil edirlər.

Tiran ilkin olaraq yalnız məiyyət üzərində hökmran olsa da, sonradan rəiyyətin – hökmdara və dövlətə xidmət sferasına cəlb edilməmiş əhalinin – əməllərinə qadağalar qoyur, məiyyətin nə etməli olduğunu müəyyənləşdirməklə yanaşı, həm də eyni zamanda rəiyyətin də nə etməməli olduğunu müəyyənləşdirir. Tiranın rəiyyət üzərində hökmranlığının qərarlaşması rəiyyətin verəcəyi vergi formasının və miqdarının rəiyyətin özünün razılığı olmadan dəyişdirdiyi andan başlayır, klassik təbəəliyin qərarlaşması ilə, bütün əhalinin aktiv siyasi hakimiyyət sferasına daxil edilməsi ilə isə başa çatır.

Tiran əhalini *özünün xalqı*, ölkəni isə *öz səltənəti* kimi qavrayır və edir. Xalq da, ölkə də, əslində, başlıca olaraq, elə məhz tiraniya şəraitində formalaşır.

Tiraniya xalqın bir nəfərin iradəsinə tabe olduğu halda mövcuddur. Lakin tiranın iradəsi son məqsədi hakimiyyət olan iradə de-

yildir, bu, çılpaq hakimiyyət istəyi deyildir. Tiranın iradəsi hər şeydən öncə ədalətin bərqərar olmasına yönələn iradədir, ədalət hissindən qaynaqlanan iradədir, ən azı onun özü buna səmimi olaraq inanır. Hakimiyyət isə burada özlüyündə məqsəd deyil, vasitədir.

Heç də təsadüfi deyildir ki, tiraniyanın bir çox tarixi nümunələrində xalq tiranı ədalətli hökmdar kimi tanıyır. Əgər tiraniyaya qədər hökmdar məiyyəti əsasən mükafatlandırma və qismən də cəzalandırma vasitəsi ilə idarə edirdisə, tiran məiyyəti və həm də xalqı başlıca olaraq xalqın sevgisini qazanaraq idarə edir.

İdarəetmənin mükafatlandırma və cəzalandırma vasitələri tiraniyada əlbəttə ki yer alır, amma həmin vasitələr burada ikinci dərəcəli əhəmiyyətə malikdir. İdarəetmənin başlıca olaraq cəzalandırma vasitələri üzərində qurulması isə, tiraniya deyildir, despotiyadır. Despot xalqı cəzalandıraraq, qorxu içərisində saxlayaraq idarə edən şəxsdir.

Doğrudur, siyasi hakimiyyətin bir nəfərin iradəsinə tabe edildiyi bütün hallarda despotiya əlaməti, yəni xalqı cəzalandırma yolu ilə, qorxu içərisində saxlayaraq idarə etmə əlaməti müəyyən dərəcədə mövcuddur. Amma despot və tiran arasında prinsipial fərq, əvvəla, hər şeydən öncə ondan ibarətdir ki, xalqı cəzalandırma yolu ilə, qorxu içərisində saxlamaqla idarə etmə əlaməti despot üçün birinci dərəcəli əhəmiyyətə malik olduğu halda, tiran üçün ikinci dərəcəli əhəmiyyətə malikdir. İkincisi, despotun iradəsi onun iç dünyasından deyil, onun xaricindən, onun ətrafından qaynaqlandığı halda, ədalətin gerçəkləşdirilməsinə deyil, əhalinin ayrı-ayrı təbəqələrinin mənafelərinin güdülməsinə yönəldiyi halda, tiranın iradəsi daxildən qaynaqlanır, daxili inam üzərində qurulur, hökmdarın özü iradəsinin ədalətin gerçəkləşdirilməsinə yönəmli olduğuna inanır. Despot haqq hissini itirmiş insanların bir qisminin digər qismi üzərində zorakılıq vasitəsi olduğu halda, tiran özünü daxilində duyduğu haqq hissinin gerçəkləşdiricisi kimi dərk edir. Üçüncüsü, despotiyada hakimiyyət özlüyündə məqsəd olduğu halda, tiraniyada hakimiyyət özlüyündə məqsəd deyil, vasitədir. Tiran hakimiyyətin vasitəsi ilə

ədaləti bərpa etdiyi əqidəsindədir, despot üçün isə insanlar üzərində hakimiyyət sürməyin özü bir məqsəddir.

Təbiəti etibarı ilə despot olan kəs hakimiyyətə dövlət çevrilişi yolu ilə də gətirilə bilər, irsi olaraq da, siyasi razılaşma yolu ilə də, hətta tarixdən məlum olduğu kimi seçki yolu ilə də hakimiyyətə gələ bilər. Hakimiyyətin seçki və ya qeyri-seçki yolu ilə qazanılıb-qazanılmamasından, dövlət çevrilişi və ya sülh yolu ilə əldə edilməsindən, hətta, irsi və ya qeyri-irsi olaraq mənimsənilməsindən asılı olmayaraq dövlət despotik və ya qeyri-despotik təbiətli ola bilər. Buradan görünür ki, despotun fəaliyyət prinsipləri heç də onun hakimiyyətə gəlmə üsulu ilə müəyyənləşmir.

Bu nöqteyi-nəzərdən, hakimiyyətin zor tətbiq etməklə qazanılmasının müəyyənləşdirilməsi hökmdarın tiranmı, yoxsa despotmu olub-olmamasını müəyyənləşdirmək üçün bəlkə də ən səciyyəvi əlamət deyildir. Səciyyəvi əlamət burada odur ki, *zor tətbiq etməklə hakimiyyətə gətirilən insan* ***despot***dur, *zor tətbiq etməklə hakimiyyəti ələ alan*, zəbt edən *insan* isə ***tiran***dır.

Dövlətin tiranik təbiəti buradan göründüyü kimi heç də bütün hallarda dövlət hakimiyyətinin zor tətbiq etməklə ələ keçirilməsi, zəbt edilməsi ilə müəyyənləşmir. Daha konkret desək, dövlətin tiranik xarakter alması heç də kiminsə zor tətbiq etməklə hakimiyyətə gətirilməsi deyildir, kiminsə hakimiyyətinin zor tətbiq etmə nəticəsində meydana çıxması əlaməti ilə müəyyənləşmir. Dövlətin tiranik təbiəti başlıca olaraq başqa bir əlamətlə, kiminsə zor tətbiq edərək hakimiyyəti ələ alması əlaməti ilə və bütün əhalini bu hakimiyyətin nüfuz dairəsinə daxil etməsi ilə müəyyənləşir. Tiranın hakimiyyətinin digər, heç də birincidən az əhəmiyyətli olmayan əlaməti isə bir qədər öncə qeyd olunduğu kimi ondadır ki, burada zor tətbiq etmə, zor göstərmə, zor işlətmə, zorakılıq ədalətsizliyə qarşı müqavimət və mübarizə forması kimi çıxış edir.

Tiraniya yalnız o halda özünü doğruldur ki, hökmdar dövlətin qarşısında duran bütün problemləri görür, təbəə kütləsini hərəkətə gətirməklə və onun hərəkətini tənzimləməklə bu problemləri həll edir. Hökmdarın dövlət qarşısında duran problemlərin həllinə yönə-

lən iradəsi bu problemlərin dəyişilməsindən asılı olaraq dəyişilir. Bu dəyişilmə hökmdar iradəsinin icraçısı olan məiyyət kütləsinin daimi olaraq fəaliyyətdə saxlanılmasında əks olunur. Dövlət qarşısında duran problemlərin həllinə yönələn bu fəaliyyət tiranı əgər belə demək mümkündürsə, dövlətin ruhuna çevirir.

Tiraniya bir qayda olaraq o halda tarix meydanına çıxır ki, irsi aristokratiya ölkənin iqtisadi inkişafı üzərində öz real nəzarətini artıq itirmişdir, özü də, bu, tiran tərəfindən aristokratik senatın keçmişin bir qalığı kimi ləğv etdiyi zamandan daha öncə baş vermişdi. Çünki tiraniyanın meydana çıxması, əsasən ticarətin, sənətkarlığın və sənayenin inkişaf etdiyi, demosun – «burjua»nın[1] – güclü olduğu rayonlarda baş verir.

Tiranizmin meydana gəlmə ərəfəsində mülki həyat irsi aristokratiyanın nəzarətindən çıxdığı üçün, müstəqilləşdiyi üçün, faydalılıq prinsipi ədalət prinsipindən azad şəkildə fəaliyyət göstərirdi, faydalılıq prinsipinin təcəssümçüsü olan şəhər kəndin istismarçısına çevrilmişdi. Əhalinin əksəriyyətini təşkil edən kəndli kütləsi öz üzərində dövlətin himayəsinə məhz bu halda daha çox ehtiyac duyurdu. Tiran mülki həyatı yenidən hərbçinin nəzarəti altına salmaqla həm də bu ehtiyacı ödəyir, əhalini, ilk növbədə isə əlbəttə ki, kəndli kütləsini istismar zülmündən qurtararaq xalqa çevirir.

Əgər aristokratiyada dövlətin maddi təminatçısı rolunda kənd çıxış edirdisə, tiraniyada artıq bu öhdəlik həm də şəhərin üzərinə düşür. Əgər ilk öncə kəndin təhlükəsizliyinin təminatçısı əmir idisə, tiran indi kəndi şəhərin istismarından xilas edir.

Aristokratiya və tiraniya elə buna görə də bir-birindən təkcə hakimiyyətin suvereni rolunda bir adamın, yoxsa bir neçə adamın çıxış etməsi ilə deyil, həm də onların himayə etdikləri sosial məkanın həcmi ilə fərqlənirlər.

Bununla yanaşı tiraniyanı və aristokratiyanı doğmalaşdıran əlamətlər də mövcuddur. Əgər aristokratiya cəngavər mədəniyyəti

[1] Burjua – hakimiyyətə iddialı olan və həmişə gizli və ya aşkar şəkildə hakimiyyət payına malik olan şəhərlidir.

üzərində cücərən zadəgan mədəniyyətinin siyasi təcəssümüdürsə, tiraniya cəngavər mədəniyyətinin özünün siyasi təcəssümüdür. Cəngavər və zadəgan mədəniyyətləri həm də subyektivist təbiətli olmaqla ümumi əsaslara malikdirlər və onların hər ikisi obyektivist təbiətli şəhər mədəniyyətinə yaddırlar.

Tiraniyada şəhərli bir tacir və sənətkar olaraq artıq möhkəmlənsə də, onun məiyyət durumunda qalan hissəsinin, tiraniyanın meydana çıxmasına qədər əhali üzərində müəyyən nüfuza, eyni zamanda həm də müəyyən mənada hakimiyyətə malik olan hissəsinin öncə malik olduğu status və müəyyənlik tiraniyanın meydana çıxması nəticəsində laxladılır, onun sözün həm yaxşı, də həm pis mənalarında məmur statusu və müəyyənliyi kəsb etməsinə doğru təkamülü dayandırılır. Bu təkamülün, yəni **məiyyət durumunda olan insanların məmur statusu və müəyyənliyi kəsb etməsi**nə doğru istiqamətlənən tarixi gedişin yenidən bir daha sosial gerçəklik amilinə çevrilməsi **tiraniyanın** bir dövlət forması olaraq **böhran keçirdiyi dövr**də baş tutur. Belə ki, məmur statusunun siyasi gerçəklikdə yenidən yer alması tiraniyanın bir siyasi sistem olaraq təbiətinə zidd olduğu üçün, bu statusun dirçəldilməsinin bir zərurət olaraq etiraf olunması ilə tiraniya da öz tarixi inkişafının sonuna doğru gedir, öz mövcudluğunun böhran mərhələsinə qədəm qoyur.

Bu məqamı anlamaq üçün bir qədər öncəyə, səbəblərə qayıdaq. Tiraniyanın böhranı o zaman başlayır ki, tiran dövlət başçısı olsa da, artıq dövlət qarşısında duran real problemləri görə bilmir, gördükdə belə, onların həll olunma mexanizmlərini tapa bilmir. Hökmdardan gəlməli olan hökmlərlə bu problemləri həll etməli olan təbəə kütləsinin, ilk növbədə isə məiyyətin icraçılıq instinktləri həmin hökmlərin yoxluğu şəraitində korşalmağa başlayır. Belə halda hökmdar onun iradəsini yerinə yetirməli olan məiyyət kütləsini öz iradəsinin qeyri-müəyyənliyi üzündən düzgün istiqamətdə, yəni dövlət qarşısında duran real problemlərin həllinə yönəmli olan istiqamətdə hərəkətə gətirə bilmir. Tiran idarə etmədən hökmranlıq etdiyi məqamdan başlayaraq onun hakimiyyəti bəzən hətta nominal

xarakter də daşımağa başlayır. Çünki indi onun hökm vermək səlahiyyəti varsa da, düzgün hökm vermək qabiliyyəti və qüdrəti artıq yoxdur. Çünki "hökm vermək" artıq "idarə etmək" mənasını vermir, yalnız "hakimiyyətdə olmaq" mənasını verir.

"Hakimiyyətdə olmaq" və "idarə etmək" sözlərində daşınan mənaların bu kontekstdə bir daha və bir qədər də aydınlaşdırılması məqsədi ilə linqvistik imkanlardan, xüsusən də rus dilinin linqvistik imkanlarından istifadə etmək faydalı olardı: rus dilində *hakimiyyətdə olmaq* mənasını verən *властвовать*, *господствовать* sözlərindən fərqli olaraq, *idarə etmək* mənasını verən *править* sözü daha yumşaq səslənir və mənşə etibarı ilə də çox yəqin ki, *düzgün şəklə salmaq, yoluna qoymaq* mənasından törəmişdir. Belə ki, rus dilində *idarə etmək* mənasını verən *править* sözünün hərfi tərcümədə *düzgün* mənasını verən *правый*, *правдивый* sözlərinə bənzəyişi görünür heç də təsadüfi deyildir. *Править* sözü yəqin ki yalnız forma etibarı ilə deyil, həm məna etibarı ilə, semantik olaraq, həm də mənşə etibarı ilə *правый*, *правдивый* sözlərinə yaxındır və son nəticədə *düzgün şəklə salmaq, idarə edərək yoluna qoymaq,* bir qədər qısa şəkildə ifadə olunsa və sadələşdirilsə, *düzgün idarə etmək* mənasını verir.

Hökmdar dövləti təkbaşına olaraq düzgün idarə etmək, yəni dövləti problemləri həll edə biləcək qərarlar qəbul etmək qüdrətini itirdikcə və eyni zamanda hakimiyyətin yeganə mənbəyi olaraq qaldıqca cəmiyyətdə mövcud siyasi nizam pozulur, siyasi reallıq ədalətin meyarlarından getdikcə daha çox uzaqlaşır.

Hökmdar burada öz qüdrəti ilə dövləti möhkəmləndirə bildiyi kimi, öz qüdrətsizliyi ilə onu zəiflədə də bilir.

Hökmdarın malik olduğu hüquqlar və imtiyazlar onların köməyi ilə yerinə yetirilməli olan vəzifələrdən, onların vasitəsi ilə həll edilməli olan problemlərdən ayrı düşdüyü üçün öz mənasını itirir, mənasızlaşır. Oynamalı olduğu, lakin oynaya bilmədiyi rol tiranın vəziyyətinə ikimənalı xarakter verir.

Hökmdar özünün bu ikimənalı vəziyyətindən xilas olmaq üçün öz keçmişini, öncə etdiklərini, tiraniyanın formalaşma dövrünü yad-

daşında bir daha canlandırır, indiki böhran durumunun təsiri altında olub-keçənləri artıq tənqidi olaraq nəzərdən keçirir, nəyin düzgün edildiyini, nəyin isə düzgün edilmədiyini aydınlaşdırmağa çalışır və bu aydınlaşdırma nəticəsində də öz fəaliyyət prinsiplərinə bəzi dəyişikliklər edir. Cəmiyyətin inkişafında öncə zərərli hesab etdiyi və buna görə də qarşısını aldığı bəzi meyilləri indi ağlabatan hesab edir və onlara yeni həyat verir. Bu özünü xüsusən onda göstərir ki, tiraniyanın böhran mərhələsində hakimiyyət sahibi olan hökmdar məiyyətin məmur statusu kəsb etməsinə doğru istiqamətlənən tarixi-siyasi prosesi bərpa edir, daha konkret deyilərsə, məiyyətin içərisindən seçdiyi bəzi şəxslərə müəyyən məsələləri onun hökmü olmadan müstəqil həll etmə hüququnu və məiyyətin digər hissəsi üzərində sərəncam vermə səlahiyyətini verir və bununla da yenidən məmur kütləsini formalaşdırır.

Məmur kütləsi yenə də məiyyətdən törəyir. Lakin məmur məiyyətdən fərqli olaraq, müəyyən qərar qəbul etmək hüququna malik olması və məiyyətin bir hissəsi üzərində sərəncam vermə səlahiyyəti əldə etməsi ilə yanaşı, həm də müəyyən bir fəaliyyət formasına bağlıdır. Məiyyətin fəaliyyət forması isə ümumiyyətlə qeyri-müəyyəndir. Amma buna baxmayaraq, məiyyət kütləsi içərisindən bəzi insanlara məmur statusunun verilməsi və onlara məiyyətin yerdə qalan digər hissəsini faktiki olaraq idarə etmək hüququnun verilməsi məiyyətin həmin o digər hissəsinin də *müəyyən xidməti* müstəqil olaraq yerinə yetirmə istiqamətində ixtisaslaşması ilə paralel baş verir.

Məiyyətin ixtisaslaşması əsasən iki istiqamətdə baş verir. Məiyyətin bir hissəsi hökmdarın mükafatvermə alətinə, ümumiləşdirilmiş şəkildə deyilərsə, xəzinədara, digər hissəsi isə hökmdarın cəzavermə alətinə, ümumiləşdirilmiş şəkildə deyilərsə, cəllada ayrılır. Ordunun özü də artıq bir xilaskar kimi deyil, daha çox cəzavermə aləti kimi çıxış edir. Əgər hökmdar cəlladın hökmdarı sifəti ilə xəzinədarı cəza qorxusu altında saxlayırsa, xəzinədarın hökmdarı sifəti ilə cəlladı mükafatla şirnikləndirir. Tiraniyanın bu son mərhələsində siyasi hakimiyyət tədricən, bir tərəfdən, xüsusi məcburiyyət

aparatını, digər tərəfdən isə xüsusi mükafatlandırma aparatını formalaşdırır, dövlət getdikcə genişlənməkdə olan institusional forma alır. Təbəənin əvəz idealı hökmdarın əlində idarəetmə aləti olur.

Əvəz ideyasına təbəənin özü isə əlbəttə ki, hökmdardan daha artıq siyasi əhəmiyyət verir və bu ideyanın vasitəsi ilə daha artıq siyasi əhəmiyyət əldə edir. Məiyyət ixtisaslaşma yönümündə təkamül etdikcə, məmur statusunun siyasi çəkisi getdikcə artır, çünki artıq ixtisaslaşmış konkret məmur və onun sərəncamında olan məiyyət dövlət üçün mühüm əhəmiyyət kəsb edən konkret işi digər insanlara nisbətən daha yaxşı görürlər, bu isə həm onların dəyərini və dövlət aparatında mövqeyini möhkəmlədir, həm də nəticədə dövlətin hərbi və mülki altsistemləri arasındakı nisbət də ciddi dəyişikliklərə uğradır. Tiraniya öz inkişafının böhran mərhələsinə daxil oluncaya qədər mülki əhalinin fəaliyyəti ikinci dərəcəli əhəmiyyətə malik idi. Əsas fəaliyyət sferası olaraq müharibə çıxış edirdi və ön planda da elə müharibə idi. Tiraniyanın böhranı zamanı o da aşkar oldu ki, mülki fəaliyyətin də əhəmiyyəti artmış, mülki həyat müharibə ilə eyni güclü olmuşdur.

Tiraniya cəngavər mədəniyyətinin siyasi təcəssümü olaraq tarix səhnəsinə çıxsa da, onun özünün tarixi inkişafının sonuncu, böhran mərhələsində hökmdar öz hakimiyyətini cəngavərlik instinktlərinə meydan verməklə deyil, daha çox məmur instinktlərinə meydan verməklə möhkəmlənir və bu dövrdə o, artıq şəhərli həyat tərzinin himayəçisi, cəngavər və qismən də zadəgan həyat tərzinin isə boğucusu, daha dəqiq deyilərsə, cəngavər və zadəgan instinktlərinin istismarçısı sifəti ilə fəaliyyət göstərir, şəhərli kütləsinə istinad edir, hərbçinin, ordunun gücündən isə sui-istifadə edir.

Hökmdar şəhərlə irsi zadəganlıq və həqiqi cəngavərlik arasındakı ziddiyyəti bu dövrdə artıq şəhərin xeyrinə həll edir.

Şəhər ilk öncə hökmdarın möhtəşəmliyini və onun hakimiyyətinin daha üstün olmasını nümayiş etdirmək, onun və onun ətrafının firavanlığını, rahatlığını təmin etmək üçün meydana çıxmışdısa, indi şəhər artıq sanki bir müstəqil siyasət subyektinə çevrilməyə başlayır və hökmdarın özünü də bu siyasətlə razılaşmağa təhrik edir. Bu

hal isə özünü həm də onda göstərir ki, şəhərin getdikcə artmaqda olan maliyyə ehtiyaclarının ödənilməsi üçün əyalətlərdən daxil olan vergilərin miqdarı getdikcə artırılır və əyalətlərdən alınan vergilər paytaxta daxil olan sərvətin başlıca mənbəyi olduğundan əyalətlərin sayının artırılması üçün hökmdar müntəzəm olaraq yeni işğalçılıq müharibələrinə təhrik edilir. Hərb xilaskarlıq vasitəsi deyil, işğalçılıq vasitəsi olur.

Lakin, bununla belə, bu mərhələdə hökmdar şəhərlə irsi zadəganlıq və həqiqi cəngavərlik arasındakı ziddiyyəti bütövlükdə şəhərin xeyrinə həll etsə də, həmin mərhələdə bir çox zadəganların da hökmdar tərəfindən müdafiə edilməsi faktları tarixə məlumdur. Amma bu faktlar tiraniyanın son, böhran mərhələsi üçün qanunauyğunluqdan daha çox, istisnaları ifadə edir. Hökmdar tarix meydanında artıq məhz şəhərli iradəsinin ilkin siyasi ifadəçisi sifəti ilə görünür və şəhəri yenidən kəndin istismarçısına çevirir. Tiraniya bütün bunlarla da öz tarixi inkişafının sonuncu mərhələsində özünün əksliyinə çevrilmiş olur.

Tiraniyanın sonda öz əksliyinə çevrilməsi öz ifadəsini həm də onda tapır ki, tiranın məiyyətə olan klassik münasibətindən fərqli olaraq, burada hökmdar artıq məmur kütləsinə münasibətdə məiyyət psixologiyasının əvəz prinsipini, «*hər kəs qəbahətlərinin müqabilində və ölçüsündə cəzalandırılmalı, xidmətlərinin müqabilində və ölçüsündə isə mükafatlandırılmalıdır*» prinsipini əsasən gerçəkləşdirir.

Tiraniyanın klassik mərhələsindən onun son, böhran mərhələsinə keçid ilk növbədə həmin bu məqamla, bir tərəfdən, cinayət və cəza arasında, digər tərəfdən isə, xidmət və mükafat arasında münasibətlərin birmənalılaşdırılması ilə səciyyələnir və şərtlənir. Məiyyətin və xüsusən formalaşmaqda olan məmur kütləsinin klassik mənada tirana olan nifrəti həm də onunla bağlı idi ki, tiran heç bir kəsə haqqı onun xidmətlərinin müqabilində və xidmətlərinin ölçüsünə müvafiq vermirdi, verdiyi cəzanın ağırlığı da qəbahətin ağırlığına müvafiq deyildi.

Tiraniyanın son mərhələsində hökmdarla məmur kütləsi arasında artıq formalaşan birmənalı xidmət-mükafatlanma münasibətləri son dərəcə mühüm bir siyasi hadisəni doğurur. Məmur bu münasibətlərdən müntəzəm olaraq faydalanmaq xatirinə onların həmişəlik saxlanılmasına çalışır və elə buna görə də məhz məmur **hakimiyyətin irsi olması**nı və bununla da **monarxiya**nın doğuluşunu şərtləndirir.

## İRSƏN VERİLƏN HAKİMİYYƏT: ***MONARXİYA***

Hökmdarla məmur kütləsi arasında tiraniyanın son mərhələsində formalaşan birmənalı xidmət-mükafatlanma münasibətləri ona görə hakimiyyətin irsi xarakter kəsb etməsinə, başqa sözlə, monarxiyanın bir siyasi sistem olaraq formalaşmasına səbəb olur ki, dövlətin xəzinəsindən müntəzəm olaraq öz payını alan məmur bu pay alma hüququnu gələcək üçün də qoruyub saxlamağı arzulayır, bundan ötrü isə hökmdarın hakimiyyətini daimi, irsi görmək istəyir və edir.

Hakimiyyətin irsi xarakter alması onun həm də hökmdarın özü üçün praqmatik qavranılması ilə, hakimiyyətin bir borc, vəzifə, xalqın taleyi üçün məsuliyyət kimi deyil, səlahiyyət, hüquq, hökmranlıq kimi qavranılması və qəbul edilməsi ilə bağlı idi. Elə buna görə də hakimiyyət öz inkişafının yalnız o məqamında irsi xarakter daşımağa başlayır ki, bu məqam tiraniyanın son mərhələsinin, tiraniyanın böhran keçirdiyi mərhələnin bir məntiqi nəticəsi olaraq yer alır. Çünki məhz bu mərhələdə hökmdar üçün mühüm olan ədalət və xalqın taleyi deyildir, hakimiyyətdir.

Monarxiya tiraniyadan daha bir cəhəti ilə də fərqlənir. Bu cəhət tiraniyanın klassik mərhələsindən fərqli olaraq monarxiyanın institusional xarakter daşımasıdır. Monarxiyada məiyyətin bir çox nümayəndəsi hökmdarın iradəsinə yalnız sadəcə olaraq bir şəxs olaraq deyil, həm də bir ***vəzifə daşıyıcısı*** olaraq, bir məmur olaraq tabedir. Monarxiyada hər bir məmur tiran məiyyətindən fərqli olaraq müəyyən vəzifə daşıyıcısı olduğu üçün məmurun yerinə yetirə-

cəyi xidmət monarxın canlı iradəsindən daha çox, vəzifənin özünün xarakterindən irəli gəlir.

Monarxiya məhz bu cəhəti ilə tiraniyadan həm fərqlidir, həm də üstündür. Lakin monarxiyanın elə bir cəhəti də vardır ki, monarxiya özünün bu cəhəti ilə nəinki tiraniyadan və ya despotiyadan, əslində hətta bəlkə respublikadan da üstündür. Monarxiyanın tiraniyadan, despotiyadan, əslində hətta respublikadan belə üstünlüyü isə ondan ibarətdir ki, monarx ölkəni və xalqı tiraniyada olduğu kimi amansızlıqla eksperiment obyektinə çevirmir, despotiyada olduğu kimi ölkəyə müvəqqəti olaraq işğal olunmuş və buna görə də talan edilməli olan bir ərazi kimi, xalqa isə təslim və kölə edilməli olan insan kütləsi kimi baxmır və ya respublika üsul-idarəsində olduğu kimi ölkəni və xalqı hətta heç ölkə və xalq ilə də siyasi sövdələşmə obyektinə çevirmir. Monarxiyanın tiraniyadan, despotiyadan, əslində hətta respublikadan belə mütləq üstünlüyü isə ondan ibarətdir ki, monarx ölkəni və xalqı özününkü hesab edir, özünə doğma bilir və doğma edir, özünün və nəslinin taleyinin ölkənin və xalqın taleyi ilə bağlı olduğu əqidəsindədir, buna görə də bütün gücü ilə ölkənin və xalqın inkişafının və yüksəlişinin qayğısına qalır.

Qayıdaq tiranın və monarxın müqayisəli təhlilinə.

Tiran yalnız öz ürəyinin hökmü ilə hərəkət edir, digərlərinin mövqeyi və mülahizələri, hətta ictimai rəy onun üçün əhəmiyyətə malik deyildir, onun özü ictimai rəyi yaradandır. Monarx üçün isə digərlərinin rəyi, mövqeyi, hətta məsləhəti belə əhəmiyyətlidir. Üstəlik monarxın xüsusi bir məsləhətverənə belə ehtiyacı vardır. Onun bu ehtiyacının ödənilməsi ilə isə siyasət meydanına yeni bir oyunçu çıxır və tarix həmin oyunçuya **vəzir** adını verir. Vəzir siyasət meydanına öncə hökmdarın məsləhətçisi, müşaviri statusunda bir məmur olaraq daxil olur və siyasət meydanına daxil olduğu zamandan hökmdarın ən yaxın ətrafında birincilər sırasında olur, hətta tezliklə onun yaxın ətrafının birincisi olur. Lakin vəzir hökmdar sarayının hökmdarın özündən sonra ən mühüm siyasi siması olsa da, buraya məmur statusunda daxil olanların tarixən heç də birincisi deyildir, üçüncüsüdür. Saraya bir məmur olaraq vəzirdən öncə daxil olanlar

və möhkəmlənənlər isə əlbəttə ki xəzinədar və cəllad statuslarını daşıyanlardır. Xəzinədar və cəllad statusları monarxiyaya tiraniyadan bir miras olaraq keçir, amma monarxiyada köklü dəyişikliklərə uğrayır. Bu hal xüsusən xəzinədarın statusu ilə bağlıdır. Xəzinədar bir sosial-siyasi sima olaraq tiraniyanın böhran mərhələsində meydana çıxmışdı və tiraniyanın klassik mərhələsinin kvartirmeysterin sosial-siyasi statusunu əxz etmişdi. Əgər xəzinədar tiraniyanın böhran mərhələsində kvartirmeysterin tam həcmdə hüquqi-siyasi varisi idisə, monarxiyanın doğuluşu prosesində o, bu statusun xeyli hissəsini artıq itirmişdi, qalan hissəsini isə indi vəzirlə bölüşmək məcburiyyətindədir. Monarxın xəzinədarı tiranın kvartirmeysterindən ona görə daha az sosial-siyasi statusa malikdir ki, monarx tirana nisbətən daha az dərəcədə hərbçidir, və buna görə də mülki işlər, xüsusən maliyyə işləri ona bir o qədər də yad deyildir. Bu da mülkiyyətin idarə edilməsində xəzinədarın rolunu xeyli azaldır. Vəzirin siyasət meydanına çıxması ilə isə mülkiyyətin idarə edilməsində xəzinədarın öncə malik olduğu rol və təsir vəzirlə demək olar ki, yarıbayarı bölünmüş olur. Sonradan dövlət başçısının bilavasitə nümayəndəsi statusunda maliyyə və iqtisadi işlərə başçılıq edən yüksək rütbəli şəxs olaraq **vəkil** vəzifəsinin təsis edilməsi ilə xəzinədar öncə malik olduğu siyasi əhəmiyyətini və ölkənin iqtisadi inkişafındakı rolunu və təsir gücünü demək olar ki büsbütün itirir. Oxşar siyasi təkamül cəllad statusu üçün də səciyyəvidir. Əgər tiraniyanın klassik mərhələsi cəza üsulu kimi yalnız ölüm cəzasını, fiziki işgəncəni, icbari əməyi (köləliyi) və əmlak müsadirəsi cəzasını tanıyırsa, tiraniyanın son, böhran mərhələsindən başlayaraq cəza növlərinin siyahısına həbs, azadlıqdan məhrum etmə, sürgün və cərimə cəzaları da əlavə edilir. Bununla əlaqədar olaraq daxili təyinatlı cəza ordusu yaradılır və cəllad öncə malik olduğu siyasi əhəmiyyətini demək olar ki itirir. İndi mühüm siyasi əhəmiyyət kəsb edən daha cəllad deyildir, **daxili təyinatlı cəza ordusunun başçısı**dır.

Monarx tirana nisbətən daha az dərəcədə hərbçi olduğundan, tiraniyadan monarxiyaya keçid mərhələsində müharibənin yerini getdikcə daha çox diplomatiya tutmağa başlayır.

Tiranın və monarxın müqayisəli təhlilin davamına qaldıqda isə qeyd etməliyik ki, tiran və monarx arasındakı fərq yuxarıda söylənilənlərdən savayı həm də ondan irəli gəlir ki, əgər tiran məiyyəti *bilavasitə* idarə edirsə, monarx məmuru həm də *qanun vasitəsilə* idarə edir.

Qanunlar və hüquq, sözün tam mənasında, siyasi təkamülün yalnız yuxarıda xatırlanan mərhələsində, tiraniyanın son, böhran mərhələsində formalaşır, elə bir mərhələdə ki, bunu monarxiyanın təşəkkül mərhələsi də adlandırmaq olar. Qanun yazılı hüquq olaraq o halda tarix meydanına çıxır ki, hökmdarın iradəsi rasional müstəvidə artıq tam həcmdə yerinə yetirilmir. Bu isə əvvəla ondan irəli gəlir ki, hökmdarın rasional iradəsi dövlətin bir bütöv orqanizm kimi üzvi iradəsi ilə üst-üstə düşmür, ondan fərqlənir. Həmin bu fərq artdıqca isə dövlətin bir bütöv orqanizm kimi üzvi iradəsi hətta hökmdarın özü üçün də getdikcə daha artıq dərəcədə qeyri-müəyyən olur, onun sözü bu qeyri-müəyyən iradənin təsadüfi ifadəçisi olduğundan, getdikcə azalmaqda olan entuziazmla qarşılanır, bununla da hakimiyyət öz təbiiliyini getdikcə daha çox itirir. İkincisi, bu mərhələdə hökmdarın iradəsi əslində həm də əxlaqi hissdən, ədalət duyğusundan uzaq düşdüyü üçün o təbəə tərəfindən bir o qədər də ürəklə yerinə yetirilmir. Təbəənin əxlaqi hissləri və ədalət duyğusu hökmdarın əxlaqi hisslərindən və ədalət duyğusundan kifayət dərəcədə fərqli olsa da, hökmdarın iradəsinin artıq əxlaq və ədalət prinsiplərindən uzaq düşdüyünü əslində hökmdar da, təbəə də ayrı-ayrılıqda özünəməxsus bir şəkildə olsa da hiss edirlər. Təbəə hökmdarın iradəsinə və siyasi instinktlərinə artıq bütün qəlbi ilə bağlı olmur və buna görə də hökmdarın göstərişlərini bəzən düzgün anlamır, bəzən unudur və bəzən də qəsdən təhrif edir. Bəzən hətta gizli və min hiylə ilə olmuş olsa da hökmdarın sözünə məhəl qoyulmur, onun sözü getdikcə artmaqda olan etinasızlıqla qarşılanır, bunun mümkün olduğu bütün hallarda onun göstərişlərinə əslində barmaqarası baxılır. Lakin bu halın səbəbi yalnız təbəədə, və ya yalnız hökmdarda deyildir, bunun səbəbi həm də obyektiv şəraitdədir, siyasi təkamülün özünün xüsusiyyətlərindədir. Belə ki,

tiraniyanın son, böhran mərhələsi ərəfəsində dövlətin ərazisi və əhalisi işğallar nəticəsində həddindən ziyadə artdığı üçün, daha çox adamı idarəetməyə cəlb etmək, daha çox adama göstəriş vermək, daha çox adamın göstərişləri necə icra etdiyi barədə hesabatlarını dinləmək, daha geniş miqyasda vəziyyəti analiz etmək, çoxsaylı insanların taleyi ilə bağlı olan problemləri həll etmək üçün düzgün qərarlar qəbul etmək və bu qərarların çoxsaylı insanlar tərəfindən icrasına nəzarət etmək lazım gəlir. Bu isə bir adamın edə biləcəyindən daha çoxdur, o adam nə qədər qüdrətli bir hökmdar olmuş olsa belə, hətta tiran belə olmuş olsa da. Çünki hökmdar idarəetməyə cəlb olunan bu çoxsaylı insanların artıq heç də hamısını tanımır və tanıya da bilməz, heç də hamısının adlarını bilmir, hansına hansı tapşırığı verdiyini də heç də həmişə xatırlamır. Hökmdardan gələn tapşırıqlar həm də bunun nəticəsində lazımınca yerinə yetirilə bilmir və yerinə yetirilmir. Belə halda hökmdar təbəə kütləsinin bir hissəsinin, ilk növbədə isə mürəkkəb iş görən hissəsinin ümumiyyətlə nə etməli olduğunu yazıya köçürtdürərək mütləqləşdirir və yazıya köçürülmüş öhdəliklərin müntəzəm olaraq yerinə yetirilməsini onlara bir vəzifə olaraq tapşırır və bununla da onları konkret məmur vəzifəsinə təyin etmiş olur. Hökmdarın iradəsi rasional olaraq müəyyənləşdirilərkən və sanksiyalaşdırılarkən isə onun sözü də öz əhəmiyyətini artırır, qanuniləşir. Qanun hər şeydən öncə konkret məmur vəzifəsinə təyin olunan kəsin, vəzifə sahibinin yerinə yetirməli olduğu xidməti öhdəliklərin təsvirini özündə ehtiva edir.

Qanunun meydana çıxması ilə hökmdarın hər bir təbəəyə ayrıca tapşırıq verməsinə, və deməli ki, təbəənin hər birini şəxsən tanımasına, onların şəxsi adlarını bilməsinə və bu səbəbdən də konkret tapşırığı onlardan hansı birisinə verdiyini təfərrüatları ilə xatırlamasına ehtiyac qalmır. Hökmdar artıq ayrıca şəxsə sadəcə olaraq bir ayrıca şəxs kimi tapşırıq vermir, ayrıca şəxsi vəzifəyə təyin etməklə ona tapşırıq vermiş olur. Hökmdar üçün indi icraçının adı onun yalnız şəxsi adı deyildir, həm də hökmdar tərəfindən ona verilən addır, yəni onun vəzifəsinin adıdır. Qanunun meydana çıxması ilə tapşırığı

hökmdar artıq heç də bütün hallarda konkret şəxsə, konkret şəxsi ad daşıyıcısına deyil, həm də konkret vəzifə daşıyıcısına verir.

Qanun isə hər şeydən öncə vəzifə sahibinin yerinə yetirməli olduğu öhdəlikləri fiksasiya edir. Qanun ümumi adlar vermək, yəni vəzifə təsis etmək əsasında təbəəyə ümumi tapşırığın verilməsi ehtiyacından yaranır və bu ehtiyacı ödəyir. Qanunun meydana çıxması ilə monarx artıq ümumi tapşırıqlar verərək idarəetmənin öhdəsindən daha asanlıqla gəlir.

Monarx tirandan fərqli olaraq, qanun vasitəsilə idarə etdiyindən, monarxın özü bütün hallarda ya bilavasitə qanunvericidir, ya da onun qanunvericiyə ehtiyacı vardır.

Monarxın qanunvericiyə ehtiyacını tarixən ilkin olaraq ödəyən isə onun yaratdığı və fəaliyyətini öz nəzarəti altında saxladığı **qanun-məşvərətçi orqan** olur.

Qanun-məşvərətçi orqanın hökmdardan sonra ən başlıca siması isə vəzirdir. Lakin vəzir, artıq öncə söylənilən fikirlərdən məlum olduğu kimi, siyasi arenaya heç də qanun-məşvərətçi orqanın təsis edilməsi ilə daxil olmamışdır, onun siyasi arenada görünməsi qanun-məşvərətçi orqanın təsis edilməsindən daha öncə baş vermişdi, çox yəqin ki əksinə, qanun-məşvərətçi orqan siyasi arenaya hökmdar tərəfindən məhz vəzirin təşəbbüsü ilə və vəzirin öz fəaliyyət dairəsini genişləndirməsi nəticəsində daxil edilmişdir. Belə ki, saraya bir məmur olaraq vəzirdən öncə daxil olanların və möhkəmlənənlərin, yəni xəzinədar və cəllad statuslarını daşıyanların tiran tərəfindən idarə olunmasının əsasında qanun deyil, hökmdarın avtoriteti dururdu. Xəzinədarın və cəlladın fəaliyyət sahələri bir o qədər də mürəkkəb olmadığından, bu sahələrin qanunla reqlamentasiya olunmasına da elə bir ehtiyac yox idi. Qanunla reqlamentasiya olunmalı olan sahələr vəzirin məsləhətçi, müşavir statusunda fəaliyyət göstərdiyi zaman aşkara çıxdı. Vəzir hökmdara hansı işlərin görülməsi barədə, eləcə də hansı işləri kimlərə, hansı təbiətdə olan insanlara həvalə etmək barədə məsləhətlər verməklə təkcə iş bölgüsündə deyil, həm də iş bölgüsü vasitəsilə həmçinin vəzifə bölgüsündə və hətta vəzifələrin təsis olunmasında da mühüm əhəmiy-

yət kəsb edir və bununla da həm də qanun yaradıcılığının bir ictimai-siyasi hadisə olaraq yer almasında əhəmiyyətli rol oynayır. Çünki qanun yaradıcılığı vəzifələrin təsis olunmasından sonra başlayır və onun məntiqi davamı olaraq çıxış edir.

Qanun-məşvərətçi orqanın təsis olunması da təbii ki vəzifələrin təsis olunmasından sonra baş verməlidir.

Bununla yanaşı, qanun-məşvərətçi orqanın meydana çıxması qanunverici hakimiyyətin hökmdar hakimiyyətindən bir qədər ayrılmasının başlanğıcı kimi də anlaşıla bilər.

Hökmdar hakimiyyətindən məhkəmə hakimiyyətinin ayrılması isə məmurun yeddinci tarixi tipi – **qazı -** meydana çıxdığı zaman baş verir.

Əgər **məmurun birinci, ikinci** və **üçüncü tarixi tiplərin**in – ***kvartirmeyster***in, ***xəzinədar***ın və ***cəllad***ın – hökmdar tərəfindən idarə olunmasının əsasında qanun deyil, hökmdarın avtoriteti dururdusa, onun **dördüncü tarixi tipi** – ***vəzir*** – qanun ideyasının müəllifi kimi çıxış edirdisə, **məmurun beşinci** və **altıncı tarixi tipləri -** ***vəkil*** və ***daxili təyinatlı cəza ordusunun başçısı*** –qanun qüvvəsinə malik ilk hüquqi akt hesab edilə bilən yazılı fərmanla vəzifəyə təyin edilirdilərsə, onun **yeddinci tarixi tipi** – ***qazı*** – yalnız qanunun determinizm üzərində qurulması və artıq ümumən qəbul olunmuş bir reallıq faktına çevrilməsi şəraitində fəaliyyət göstərə bilir və mövcud ola bilir.

Qazı siyasi-ictimai əhəmiyyət daşıyan bir sima olaraq siyasət meydanına daxil olduğu zamandan başlayaraq qanun məmur fəaliyyətinin zəruri əsasına çevrilir və bunsuz mümkün olmur.

Bütün bunlarla yanaşı belə bir məqamı da diqqətə çatdırmaq lazımdır ki, qanun ümumiyyətlə hökmdarın üzvi iradəsinin korşalması, başqa cür deyilərsə, dövlətin bütöv bir sosial orqanizm olaraq üzvi iradəsinin hökmdarın rasional iradəsindən fərqlənməsi və hökmdarın rasional iradəsi ilə əvəzlənməsi məqamında tarix meydanına çıxır və monarxın rasional iradəsinin ifadəçisi statusunu

kəsb edir, və sonradan, xüsusən də siyasi-ictimai əhəmiyyəti öncə xatırlanan və xüsusi olaraq vurğulanan qazı institutu ictimai həyatda mühüm əhəmiyyət daşıyan bir hadisə olaraq siyasət meydanına daxil olduğu zamandan sonra hətta təbəə iradəsinin ifadəçisinə də çevrilir. Belə ki, əgər qanun hökmdarın daxildən qaynaqlanan əxlaqi hissdən, təbii təyinat ideyasının emosional mücəssəməsi olan ədalət duyğusundan artıq fərqlənən, bəzən hətta uzaq düşən iradəsinin yerinə yetirilməsi bir zərurətə çevrildiyi zaman meydana gəlmişdisə, qazı fenomeninin siyasət meydanına çıxması ilə məiyyət mənşəli əvəz prinsipi qanun yaradıcılığının əsasına qoyulur. Qanun bu andan başlayaraq ədalət duyğusunun məiyyət baxımından ifadəçisi olan əvəz prinsipini demək olar ki bütün hallarda bu və ya digər şəkildə özündə ehtiva edir.

Bu məqamdan başlayaraq, qanunlar məiyyətin və bütövlükdə təbəənin təkcə nə etməli olduğunu deyil, həm də nə etməməli olduğunu da müəyyənləşdirməklə yanaşı həm də qadağan olunmuş əməllə cəza arasındakı münasibətlərə birmənalı xarakter verir.

Məmurun yeddinci tarixi tipi olan qazı qadağan olunmuş əməl ilə cəza arasındakı birmənalı münasibətlərin bilavasitə reallaşdırıcısı olaraq sosial-siyasi status qazanır və məhkəmə adlandırılan həmin o institusional hakimiyyət forması da bu statusdan doğulur. Məhkəmə hakimiyyəti sistemi ədalət hissinin daxildən, dərinliklərdən qaynaqlanan möhtəşəm bir yaşantı olaraq itirildiyi dövrlərdə, əxlaqın və əxlaqı özünə hopduran adətin qanun tərəfindən sıxışdırıldığı və qanunla əvəz edildiyi şəraitdə baş verir. Məhkəmə hakimiyyəti hökmdar hakimiyyəti ilə yanaşı duran bir hakimiyyət forması olaraq meydana çıxır və onun meydana çıxması ilə bağlı cəza üsulları da müxtəlifləşir, necə deyərlər daha rəngarəng olur.

Cəza vermək ümumiyyətlə götürüldükdə isə insana çəkdirilən əzabın bu əzabı ona çəkdirənlə bölüşdürülməsi kimi dəyərləndirilə bilər. Bu halda dövlətin sanksiyalaşdırdığı cəza qanunu həm də onunla izah oluna bilər ki, təbəələrə (sonradan vətəndaşlara) digər

təbəələr (digər vətəndaşlar) tərəfindən çəkdirilən əzab son nəticədə həm də dövlətə çəkdirilən əzabdır və dövlət bu əzabı ona əzab çəkdirənlə bölüşdürür. Amma bu məqam daha çox tiranın və qismən də zadəganın hüquqi instinktlərinə uyğun gəlir. Təbəənin hüquqi instinktləri isə bütövlükdə daha çox bir qədər öncə xatırlanan və təhlil olunan əvəz prinsipində öz dəqiq ifadəsini tapır.

Müqayisə üçün belə bir məlum faktı da konstatasiya edək ki, məiyyət üçün son dərəcə doğma və anlaşıqlı olan, ***qanun*** kimi qavranılan əvəz prinsipinə tiran özünün klassik tarixi simasında heç cür əməl etmirdi, əksinə «zərurət qanunu tanımır» prinsipi ilə fəaliyyət göstərirdi. Cinayət və cəza arasında münasibətlərə birmənalı qanun statusunun verilməsi yalnız tiraniyanın son, böhran mərhələsindən başlayaraq yer alır.

Bu mərhələ məmurun və ümumiyyətlə təbəənin determinizm üzərində qurulan əvəz prinsipinin mühüm siyasi əhəmiyyət kəsb etməyə başladığı bir dövr idi. Lakin əvəz prinsipi yalnız cinayət və cəza arasındakı münasibətlərə birmənalı qanun statusunun verilməsi ilə tamamlanmır. Cinayət və cəza arasındakı münasibətlərə birmənalı qanun statusunun verilməsi əvəz prinsipinin yalnız bir tərəfidir. Onun ikinci tərəfi isə birmənalı qanun statusunun xidmət və haqq arasındakı münasibətlərə verilməsi ilə bağlıdır.

Məmurun və ya ümumiyyətlə təbəənin statusunu və öhdəliklərini reqlamentasiya edən əksər qanunlarda xidmət və haqq arasındakı münasibətlər birmənalılaşdırılır, məmurun və ya təbəənin təkcə nə etməli olduğu deyil, həm də bunun əvəzində necə mükafatlandırılacağı da diqqətə çatdırılır, onun nə etməli olduğunun aşkar surətdə göstərilməsi bunun əvəzində nə alacağının göstərilməsi ilə tamamlanır, həmişə aşkar formada olmasa da, ən azı qeyri-aşkar formada.

Beləliklə, qanun bir qədər sadələşdirilmiş şəkildə deyilərsə, müəyyən mənada vəzifə təlimatı ilə ştat cədvəlinin özünəməxsus bir sintezi kimi təsəvvür edilə bilər. Əgər qanun vəzifə təlimatının bir

proobrazı olaraq vəzifə sahibləri tərəfindən yerinə yetirməli olan xidməti öhdəliklərin təsvirini özündə ehtiva edirsə, ştat cədvəlinin bir proobrazı olaraq hakimiyyət orqanının bir təsisat kimi strukturunun, vəzifələrin adlarının, sayının fiksasiyası ilə yanaşı həm də eyni zamanda əməkhaqqının miqdarının göstərilməsi ilə səciyyəvidir.

Daha anlaşıqlı olmaq üçün bir qədər kobud terminlərdən bir daha istifadə etsək, onda təsdiq edə bilərik ki, qanun o şəraitdə meydana gəlir ki, təbəə kütləsi *kölə sistemi* olmaqdan *nökər sistemi* olmağa doğru təkamül edir. Belə ki, kölə öz sahibinə təmənnasız xidmət edir, nökər isə xidmətinin əvəzində haqq alır. Kölə məhz kölə olduğu üçün xidmət edir, nökər isə xidmətini haqq aldıqdan ötrü göstərir. Qanun ilk növbədə əslində həmin bu nökər instinktinin sanksiyalaşdırılması ilə meydana çıxır. Təbəə kütləsinin *kölə sistemi* olmaqdan *nökər sistemi* olmağa doğru təkamülü isə tiraniyanın son, böhran mərhələsində baş verir.

Bu mərhələdə hökmdarın özünün siyasi və hüquqi instinktlərinə qaldıqda isə, bunlar, cəngavərin siyasi və hüquqi instinktləri ilə təbəənin siyasi və hüquqi instinktləri arasında aralıq mövqe tutur. Xatırladaq ki, təbəənin əvəz prinsipinin mütləqləşdirilməsində öz rasional ifadəsini tapan siyasi və hüquqi instinktlərindən fərqli olaraq, cəngavərin siyasi və hüquqi instinktləri öz rasional ifadəsini tale ideyasında tapır. Təbəə isə xidmət və mükafat arasında və həmçinin cinayət və cəza arasında birmənalı münasibətlər sistemini son dərəcə qiymətləndirdiyindən, dövlətin idarə olunmasının özülünü də hələ ki ***qanunun aliliyi prinsipi*** adlandırılmasa da[1], ***qanunun icrasının zəruriliyi prinsipi*** adlandırıla bilən prinsipdə görür.

Qanunun icrasının zəruriliyinin qarantı olaraq isə tarixən ilkin olaraq monarx çıxış edir. Belə ki, qanun-məşvərətçi orqan tərəfindən işlənilib hazırlanan və müzakirə edilərək təsdiq olunmaq üçün

[1]Qanunun aliliyi prinsipi təbəənin hələ ki yalnız təhtəlşüur səviyyədə hiss olunan idealı olaraq qalır. Bu idealın şüur səviyyədə dərk olacağı gələcəkdə, təbəənin vətəndaş olacağı zaman baş tutacaqdır.

monarxa təqdim edilən hər bir qanun layihəsi yalnız monarx tərəfindən təsdiq olunduqdan, yəni monarxın rasional iradəsinin ifadəçisinə çevrildikdən sonra hüquqi qüvvə kəsb edir və onun icrası yalnız bu halda ictimai-siyasi zərurətə çevrilir.

Hökmdar monarx statusunu kəsb edərkən demək olar ki eyni tarixi zamanda həm vəzifə, post, siyasi status təsisçisi, həm təyinatçısı, həm qanun yaradıcısı olur və həm də qanunverici hakimiyyətin də başçısı olmuş olur, bunlardan birinci, üçüncü və dördüncü hallarda əlbəttə ki vəzirin və ümumiyyətlə qanun-məşvərətçi orqanın aktiv fəaliyyəti və dəstəyi ilə.

Monarxın tirandan fərqi həm də bu baxımdan özünü göstərir. Əgər tiran məiyyətin sahibidirsə, monarx məmurun hər şeydən öncə ya bilavasitə, ya da bilvasitə qanunvericisidir.

Əgər *tiran* və *məiyyət* arasındakı münasibətlər *rəis* və *tabedə olan* arasındakı münasibətləri xatırladırsa, *monarx* və *məmur* arasındakı münasibətlər daha çox *dramaturq* və *aktyor* arasındakı münasibətləri xatırladır. Monarx qanun yaradıcısı olmaqla bir dram əsəri müəllifinə, vəzifə təyinatçısı olmaqla isə dram əsərini səhnəyə qoyan rejissora bənzəyir. Qanunun özü də sanki bir dram əsəridir ki, burada personajların yerini məmurlar tutur. Aktyor özünü yalnız əsərdə göstərilən qaydada aparmalı olduğu kimi, məmur da özünü yalnız qanunda göstərilən qaydada aparmalıdır. Aktyor əsərdə yer alan rollar içərisindən yalnız rejissor tərəfindən ona verilən rolu oynamalı olduğu kimi, məmur da qanunda yer alan vəzifələr içərisindən yalnız monarx tərəfindən təyin edildiyi vəzifəni icra etməlidir. Heç də təsadüfi deyildir ki, tiraniya dövrü cəmiyyət həyatının ümumən canlanması ilə yanaşı həm də poeziyanın gur inkişafı ilə səciyyəvi olduğu halda, monarxiya dövrü dövlətə xidmətin artıq yalnız canlı tabeçilik qaydasında deyil, eyni zamanda təsisatlar və təyinatlar qaydası ilə aparılması ilə yanaşı həm də cəmiyyətin ümumi həyatında dramaturgiyanın gur inkişafı ilə səciyyəvidir.

İndi isə mənə elə gəlir yaxşı olardı ki, monarxiyanın və tiraniyanın müqayisəli təhlilinə bir daha, sonuncu dəfə qayıdaq və bu təhlili artıq başa çatdıraq, siyasi təkamül prosesində hökmdarın tiran statusundan monarx statusuna keçid almasının təhlilini tamamlayaraq, diqqətimizi müstəsna olaraq monarx statusunun öz xalisliyində tarixi inkişafına yönəltməyin zamanı düşünürəm ki, artıq yetişmişdir.

Beləliklə, sonuncu müqayisə. Əgər tiraniyada dövlət canlı orqanizmi xatırladırsa, monarxiyada o, daha çox insan tərəfindən yaradılan süni mexanizmi, cansız maşını xatırladır. Əgər məiyyət tiranın canlı iradəsinin alətidirsə, məmur daha çox cansız dövlət maşınının alətidir.

Monarxiya yalnız o ölçüdə zəruridir ki, hökmdar dövlət qarşısında duran həqiqi problemləri görməklə və başlıca siyasi vəzifələri həm siyasi məqsəd olaraq, həm də siyasi status olaraq müəyyənləşdirməklə yanaşı, eyni zamanda, bir tərəfdən, bu problemlərin uğurlu həlli üçün, bu ümumsiyasi məqsədlərin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün, vəzifə təsisatlarının və təyinatlarının uğurla gerçəkləşdirilməsi üçün bir vasitə olaraq yaradılan cansız dövlət maşınının institusional inkişafını öz kreativ nəzarəti altında saxlayır, obrazlı deyilərsə, bu cansız dövlət maşınının canlı ixtiraçısı və səmərələşdiricisi olur, onun strukturunu və fəaliyyət prinsiplərini daimi olaraq inkişaf etdirir, dövləti problemlərin həlli üçün onu müntəzəm olaraq yararlı vəziyyətə gətirir və yararlı vəziyyətdə saxlayır, yəni hüquqi bazanın, qanunların yaradılmasına aktiv və real rəhbərlik etməkdə davam edir, bu bazanı yeniləmək və siyasi gerçəkliyi mütəmadi olaraq həmin bazaya uyğunlaşdırmaq yolu ilə islahatlar həyata keçirir, digər tərəfdən isə uğurlu kadr siyasəti aparır, yenə də obrazlı deyilərsə, bu cansız maşının başlıca istehlakçısı olmaqla lazım gəldikcə onun artıq yararsız hala düşmüş hissələrini müntəzəm olaraq təzələri ilə dəyişir.

Monarxik sistemin xüsusiyyətlərindən biri də ondadır ki, hökmdar kadr siyasətini həyata keçirərkən idarəetməyə müstəsna olaraq irsi aristokratiyanı cəlb etməklə kifayətlənə bilmir. Bəzən cansız dövlət maşınının yararsız hala düşmüş hissələri məhz zadəgan mənşəlilərin içərisindən irəli çəkilənlər olur və onları əvəz etməli olan yenilərinin isə bəzən rəiyyət içərisindən seçilməsi lazım gəlir və bu, bir sıra hallarda təsadüfdən daha çox, zərurətdir. Belə ki, hökmdarın özü zadəgan mənşəli olsa da, o, həm də təbəə işinin də xüsusiyyətlərini bilməlidir ki, bu işin idarə olunmasının uğurla yerinə yetirilməsi üçün, uyğun vəzifələrin təsis edilməsinə və onların hüquqi bazasının yaradılmasına rəhbərlik edə bilsin, müvafiq təyinatları həyata keçirə bilsin, təbəə işi ilə bağlı vəzifələrin icrasını təbəələrin ən uyğun gələnlərinə həvalə edə bilsin. Bunun zadəgan mənşəli insan üçün çətin olması, tam həcmdə isə ümumiyyətlə mümkün olmaması ucbatından dövlətin idarə olunmasına artıq yalnız zadəgan mənşəli insanlar deyil, həm də yarızadəgan-yarırəiyyət mənşəli, hətta rəiyyət mənşəli insanlar da cəlb edilməyə başlayır, idarəetmə işi yalnız irsi olaraq zadəgan olanlara deyil, bu işi daha yaxşı bacaranlara həvalə edilir, onların sosial mənşəyi isə artıq müəyyənedici amil olaraq qəbul edilməməyə başlayır.

Dövlətin idarə olunmasına irsi olaraq zadəgan olanlarla yanaşı cəlb edilən həmin insanlar isə sonradan, tədricən xalis zadəganları dövlətin idarə olunmasından hətta sığışdırmağa da üz tuturlar və buna bəzən nail də olurlar.

Dövlətin idarə olunmasına həmin insanların cəlb edilməsi irsi aristokratiyanın intellektual imkanlarının fərqli olması ilə və bu səbəbdən də real siyasi-tarixi situasiyaya tam həcmdə müvafiq gəlməməsi ilə bağlıdır. İdarəetməyə cəlb olunanların içərisində əksəriyyəti təşkil edənlər isə yarızadəgan-yarırəiyyət mənşəlilər olur.

Dövlətin idarə olunmasında səlahiyyət əldə etmiş yarızadəgan-yarırəiyyət mənşəli insanın vəziyyəti isə ikimənalıdır, o, ədalətliliklə faydalılıq arasında tərəddüd keçirir. Ədaləti faydalılığa qurban ver-

dikcə isə tədricən ürəyinin ilahi səsini korşaldır, faydalı olanın müdafiəsinə durduqca isə obrazlı deyilərsə içərisindəki iblisi canlandırır, zadəgan təbiətinə yadlaşır, haqqa və ədalətə həqarətlə baxır, sözün pis mənasında rasional iradənin daşıyıcısı olur, və yenə də sözün pis mənasında məiyyət olur. Ona görə sözün pis mənasında rasional iradənin daşıyıcısı olur ki, onun rasional iradəsi dövlətin bir sosial orqanizm olaraq üzvi iradəsi ilə üst-üstə düşmür və ona görə sözün pis mənasında məiyyət olur ki, onun fəaliyyət ahəngi xidmətində durduğu dövlətin fəaliyyət ahəngi ilə uyuşmur. Çünki o, əslində dövlətin xidmətində olmur, özünü dövlətə xidmət edən kimi göstərir və bundan faydalanır. Məiyyətin ümumiyyətlə dövlətə göstərdiyi xidmətin lazımi səviyyədə olmaması son nəticədə əlbəttə ki dövlətin özünü və özülünü zəiflədir və bu səbəbdən də dövlət xidmətə görə haqqı da lazımi səviyyədə verə bilmir və vermir. Məiyyətin bir hissəsi özünün mövcud durumu ilə razılaşaraq xidmətini sədaqətlə davam etdirir, ikinci hissəsi digər gəlir mənbələrini də axtarıb-tapmağa çalışır, üçüncü hissəsi isə digər gəlir mənbələrini axtarıb-tapır və xidməti tərk edir.

Beləliklə, dövlətin institusional inkişafı öz müəyyənliyini və birmənalılığını müəyyən dərəcədə itirmiş olur və monarx tərəfindən təyinatların verilməsi də mürəkkəbləşir.

Bu şəraitdə himayə prinsipi hakimiyyət prinsipi qarşısında getdikcə daha çox geri çəkilməyə başlayır, himayə öz prinsipial mövqeyini hakimiyyətə verir.

Amma indi himayə üçün digər bir sfera - şəhərin hakimiyyət tərəfindən artıq bir o qədər də gərəkli hesab edilməyən və buna görə də rəsmi hakimiyyət tərəfindən artıq bir o qədər himayə də olunmayan, rəsmi hakimiyyətlə özü arasındakı subordinasiya münasibətlərini rəsmən itirən rəiyyət kütləsi ilə rəsmi hakimiyyətin ayrı-ayrı nümayəndələri arasında qeyri-rəsmi himayə münasibətləri formalaşır, başqa sözlə, korrupsiyanın əsası qoyulur. Digər tərəfdən özü üzərində rəsmi hakimiyyətin himayəsini əslində itirən

həmin o şəhərli kütləsi ilə dövlət hakimiyyətindən kənarda qalan zadəgan mənşəli insanlar arasında yeni bir himayə münasibətləri meydana çıxır, və məhz bu sferada vətəndaş cəmiyyətinin ilk cücərtiləri formalaşır. Hakimiyyətdən qopub ayrılan şəhərli kütləsinin artıq vətəndaş cəmiyyəti olaraq formalaşması əsasən bu kütlənin təşkilatlanmağa başlaması ilə ifadə olunur və monarxiyanın bir siyasi sistem olaraq böhran vəziyyəti keçirdiyi dövrün yaxınlaşmasına doğru həmin təşkilatlanma siyasi xarakter daşımağa və nəticədə hakimiyyətə iddialı olan insanların siyasi partiya adlandırılan birliyi yaranır.

Beləliklə, şəhər mədəniyyətinin zadəgan mədəniyyəti ilə təması nəticəsində şəhər mədəniyyəti burjualaşmağa doğru üz qoyur. Bununla da zadəgan dünyagörüşü şəhərli dünyagörüşündən prinsipial əlamətlərlə fərqlənsə də, şəhərli kütləsinin tarixi təkamülündə zadəgan mənşəli insanlar da artıq müəyyən, bəlkə də mühüm rol oynamağa başlayırlar.

Digər tərəfdən, dövlət hakimiyyətindən kənarda qalan zadəgan mənşəli insanlar şəhərin himayəçisi olmağa başladıqları zamandan şəhər özlüyündə mühüm siyasi əhəmiyyət kəsb edir və bunun da nəticəsində şəhər əhalisinin getdikcə daha çox bir hissəsi monarxın real hakimiyyətindən kənarda qalır.

Belə olduqda **monarxiyanın bir siyasi sistem olaraq böhranı** başlayır, dövlət maşını laxlamağa doğru gedir və dövləti problemlərin həlli getdikcə daha çox ləngiyir. Əgər bu ləngimənin başlıca mənbələrindən biri hökmdar təfəkkürünün siyasi problemləri həll edə bilən düzgün qərarları vermək üçün zəruri informasiya ilə yüklənməməsidirsə, digər mənbə hökmdar təfəkkürünün izafi informasiya ilə, yəni mövcud siyasi problemlərin bilavasitə həllinə yönəlməyən informasiya ilə yüklənməməsidir. Hökmdar təfəkkürünün ümumdövlət problemlərinin deyil, xüsusi problemlərin, daha dəqiq deyilərsə, onu bir monarx kimi deyil, bir fərd kimi qayğılandıran

problemlərin həllinə yönəlməsi hökmdar təfəkkürünün deqradasiyasına gətirib çıxarır.

Dövlət maşınının laxlamağa doğru yönəlməsinin və dövləti problemlərin həllinin getdikcə daha çox ləngiməsinin ən başlıca mənbəyi isə hökmdar təfəkkürünün korşalmasıdır və bu səbəbdən də siyasi problemləri həll edə bilən düzgün qərarları verə bilməməsidir.

Monarx özünün təbəə üzərindəki real hakimiyyətini yuxarıda göstərilən səbəblər ucbatından getdikcə daha çox itirməsinin qarşısını almaq üçün, təbəə kütləsi üzərində öz nəzarətini möhkəmləndirmək və idarəetmənin keyfiyyətini artırmaq məqsədi ilə idarəetmənin həyata keçirilməsində ona yardımçı ola biləcək bir təsisat kimi üzvləri irsi aristokratiyanın seçmə nümayəndələrindən ibarət ***Dövlət Şurası***nı yaradır və özü ilə məmur kütləsi arasında əlaqələndirici həlqə kimi həmin bu Dövlət Şurasını yerləşdirir. Öncə mövcud olan qanun-məşvərətçi orqanın səlahiyyətləri də Dövlət Şurasına verilir.

Monarx Dövlət Şurasını irsi aristokratiyanın ona idarəetmə işində, xüsusən də qanun yaradıcılığı işində yardımçı olması üçün yaradır. Bununla da hökmdar idarəetmədə onun bilavasitə hökmü altında olan, onu əhatə edən, lakin gücünə və sədaqətinə artıq bir o qədər də etibar etmədiyi məiyyət kütləsindən müəyyən qədər üz döndərərək üzünü irsi aristokratiyaya doğru çevirir, özü ilə müəyyən mənada və müəyyən dərəcədə eynimənşəli, eyniköklü, həmkar hesab edilə bilən irsi aristokratiyaya doğru. Hökmdar bununla da öz hakimiyyətinin bir hissəsini də əslində irsi aristokratiyaya güzəştə getmiş olur.

Amma bu hal başlanğıc məqamında hökmdarın siyasi çəkisini və populyarlığını azaltmır, əksinə artırır. Siyasi çəkisi və populyarlığı bu halda azalan isə vəzir olur. Vəzirin müəyyənedici rol oynadığı qanun-məşvərətçi orqanın öz mövqeyini Dövlət Şurasına verməsi

ilə vəzirin idarəetmədə malik olduğu status itirilməsə də, kifayət dərəcədə zəifləyir.

Dövlət Şurası hökmdarın məsləhət almaq istəyindən yaranır və öncə məşvərətçi orqan kimi təsis edilir. Məmur kütləsinin davranış prinsiplərini özündə ehtiva edən qanunların hökmdar tərəfindən təsdiqindən öncə Dövlət Şurasında müzakirəsi nəzərdə tutulur. Qanunvericilik təşəbbüsü əvvəlcə hökmdara, sonra isə Dövlət Şurasının digər üzvlərinə məxsus olur.

Sonradan Dövlət Şurası tədricən məşvərətçi orqandan qanunverici orqana doğru təkamül edir.

Dövlət Şurasının əhəmiyyəti həddindən artıq artdığı halda isə hökmdar əslində hökmdar olmaqdan qalaraq, Dövlət Şurasının sadəcə olaraq üzvlərindən birinə çevrilir. Dövlət Şurası bu halda, Hobbsun dili ilə deyilərsə, suveren statusunu kəsb edir.

Belə olduqda, monarxiyanın *tək adamın hakimiyyəti* mənasında bir siyasi sistem olaraq yeni böhranı baş vermiş olur, daha doğrusu, monarxiyanın *tək adamın hakimiyyəti* mənasında böhranı özünün ikinci mərhələsinə qədəm qoyur. Monarxiya bu halda özünün əzəli mənasını, *tək adamın hakimiyyəti* mənasını ona görə itirmiş olur ki, onun adı monarxiya olaraq qalsa da, özü əslində monarxiya, yəni *tək adamın hakimiyyəti* olmur.

Burada o faktı da xatırlatmağa dəyər ki, Makiavelli tərəfindən irəli sürülən və bu günə qədər də təqdir olunan *təkhakimiyyətlilik-respublika* qarşıqoyulması dəqiq deyildir və heç cür mütləqləşdirilə bilməz. Nominal olaraq monarxiya adlandırılan bəzi dövlətlər əslində respublika xarakterli olduqları kimi, nominal olaraq respublika adlandırılan bəzi dövlətlər də əslində monarxik təbiətlidir.

Qayıdaq Dövlət Şurasının suveren statusunu kəsb etməsi ilə bağlı siyasi gedişatın təhlilinə.

Siyasi təkamülün sonrakı gedişatında hökmdar Dövlət Şurasının suveren statusunu təsdiq etməklə öz təkhakimiyyətliliyinin nominal xarakterini qanuniləşdirir. Bu hal hüquqi müstəvidə öz ifadə-

sini ***kooptasiya*** prinsipinin rəsmən tanınmasında, xüsusən də onun hökmdar tərəfindən rəsmən tanınmasında tapır. Əgər məşvərətçi statuslu Dövlət Şurasının üzvləri hökmdar tərəfindən təyin edilirlərsə, suveren statuslu Dövlət Şurası öz tərkibini ***kooptasiya*** yolu ilə, özünün qərarı ilə müəyyənləşdirir. Bu müəyyənləşdirmə öz məntiqi sonluğunu isə onda tapır ki, Dövlət Şurasının üzvləri əsasən əyalətlərin əmirlərindən ibarət olur, Dövlət Şurası müəyyən qədər aristokratik senatı bərpa edir.

Əgər suveren statuslu Dövlət Şurası dövlətin problemlərini həll edə biləcək qərarları vermə qüdrətinə malikdirsə, dövlət yenidən qədim yunanların başa düşdüyü mənada aristokratiya və ya müasir siyasi terminologiya nöqteyi-nəzərindən meritokratiya[1] xarakterini alır. Meritokratiya, və ya dövlət forması mənasında başa düşülən aristokratiya cəngavər mədəniyyəti əsasında formalaşır və ondan törəyir. Suveren statusunun monarxdan Dövlət Şurasına keçməsi ilə ifadə olunmuş tarixi akt uyğun cəngavər mədəniyyətini siyasiləşdirir və bununla da zadəgan mədəniyyətinin hüdudlarını genişləndirir.

Aristokratiyanın bir dövlət forması kimi siyasi gerçəklikdə yenidən yer almasının tarixi hədləri əhəmiyyətli dərəcədə uyğun cəngavər mədəniyyətinin intellektual imkanları ilə müəyyənləşir. Bu imkanlar xaricində aristokratiyanın özü də deqradasiyaya uğramağa başlayır. Dövlət Şurası belə halda öz siyasi əhəmiyyətini azaldır və suveren statusunu tədricən itirməyə doğru üz tutur. Dövlət Şurasının siyasi əhəmiyyətinin azalmasının və onun suveren statusunun tədricən itirilməyə doğru üz tutmasının səbəbi isə irsi aristokratiyanın intellektual imkanlarının tükənməsi ilə bağlıdır.

Aristokratiyanın yaradıcılıq imkanlarının tükənməsi zadəgan və şəhər mədəniyyətləri arasında bir daha yadlaşmaya, nəticədə

[1]Meritokratiya sözünün layiq olanların hakimiyyəti kimi başa düşüldüyü halda.

dövlətin bir daha praqmatikləşdirilməsinə, aristokratizmin isə bir daha sığışdırılmasına gətirib çıxarır.

Çünki irsi aristokratiyanın siyasi yaradıcılıq qüdrətinin təkamül tempi siyasi problemlərin təkamül tempindən geri qaldıqca, siyasi problemlərin Senat institutunun dirçəldilməsi vasitəsilə aristokratik zəmində tam həlli mümkün olmur. Əksinə olaraq aristokratik senatın dirçəldilməsi öz ifadəsini həm də hakimiyyətin irsi aristokratiya ilə bölüşdürülməsində tapır ki, bu da nəticədə ayrı-ayrı əyalət rəhbərlərinin müstəqilliyini artırır, separatizmi gücləndirir.

Əgər hökmdar tərəfindən şəhərin dəstəklənməsi, himayə olunması və deməli ki, həm də gücləndirilməsi şəhəri bütövlükdə hökmdarın hakimiyyəti üçün təhlükəyə çevirirdisə, irsi aristokratiyanın dəstəklənməsi hökmdar üçün ərazi bütövlüyünün pozulması təhlükəsini yaradır.

Belə bir şəraitdə dövlətin inkişafı ən azı üç istiqamətdə baş verə bilir. Birinci istiqamət - şəhərin iqtisadi və siyasi inkişafı üzərində nüfuz qazanmış zadəgan mənşəlilərin şəhəri üsyana qaldırmasıdır. İkinci istiqamət – ümumən dövlətdə kifayət qədər siyasi kapital toplamış əyalət əmirlərdən birinin hakimiyyəti dövlət çevrilişi vasitəsilə ələ keçirməsidir. Üçüncü istiqamət isə dövlət qarşısında duran problemlərin həllinin mürəkkəbləşməsi ilə bağlı dövlətin idarə olunmasının da mürəkkəbləşdirilməli olduğu əqidəsindən çıxış edilərək, monarx tərəfindən kardinal siyasi islahatların həyata keçirilməsidir, bu siyasi islahatlara əlbəttə ki, ilk növbədə Dövlət Şurasının əldə etdiyi suveren statusunun ləğv edilməsi aiddir.

Əgər şəhər iqtisadi və siyasi baxımdan kifayət qədər inkişaf etmişsə, dövlət düşdüyü böhranlı vəziyyətdən birinci istiqamətə üstünlük verərək çıxır. Belə olmadıqda, əgər monarx bir şəxsiyyət olaraq öz siyasi nüfuzunu itirmişsə dövlət ikinci istiqamət üzrə, əgər itirməmişsə üçüncü istiqamət üzrə inkişaf edəcəkdir.

Dövlətin ikinci və ya üçüncü istiqamət üzrə öz təbii inkişafını davam etdirdiyi halda isə, hökmdar həm öz siyasi çəkisini və qüd-

rətini getdikcə artırmaqda olan şəhər üzərində hakimiyyətini möhkəmlətmək üçün, həm əyalət rəhbərlərinin separatizminin qarşısını almaq üçün, həm də bir çox nümayəndələri dövlət aparatında əhəmiyyətli yer alan, populyarlığı, siyasi çəkisi və sayı kifayət dərəcədə artmış məmur kütləsini özünün real nəzarətində saxlaya bilmək üçün və onun bir bütöv olaraq daimi mütəhərrikliyinə və səmərəli fəaliyyətinə nail olmaq üçün bu kütləni ayrı-ayrı hissələrə bölür və həmin hissələr üzərində nəzarəti yeni siyasi təsisatların daşıyıcılarına - «**nazir**lər»ə və «**canişin**lər»ə - həvalə edir. Bununla da hökmdar öz üzərinə düşən hakimiyyət yükünü əhəmiyyətli dərəcədə azaldır, müəyyən mənada hakimiyyəti digər insanlarla bölüşdürmək yolu ilə olmuş olsa belə.

Lakin bu hakimiyyət qazanılmış hakimiyyət deyildir, pay verilmiş hakimiyyətdir. Pay verilmiş bu yeni hakimiyyət strukturlarının öncə mövcud olan hakimiyyət strukturları üzərində nəzarəti həyata keçirə bilmələri üçün isə onların yeni qüvvələrlə gücləndirilməsinə, deməli ki, daha çox adamın idarəetməyə cəlb edilməsinə ehtiyac yaranır və bu ehtiyacın ödənilməsi ilə, idarəetməyə cəlb edilən insanların sayının çoxalması ilə dövlətin ümumi xəzinəsindən pay alanların, bir qədər müasir, və buna görə də həm də bir qədər kobud deyilərsə, dövlətin büdcəsindən əmək haqqı alanların sayı da artır və bu say bütün əhalinin olmasa da, paytaxtın və canişin iqamətgahının yerləşdiyi şəhərlərin əhalisinin sayı ilə müqayisə oluna biləcək bir həddə çatdıqda dövlət tədricən **əksəriyyətin idarəetmədə təmsil olunduğu forma**nı, **əksəriyyətin müəyyən hakimiyyət payına malik olduğu forma**nı, **politiya** formasını alır.

## PAY VERİLƏN HAKİMİYYƏT:
## *POLİTİYA*

Politiya əksəriyyətin idarəetmədə təmsil olunduğu, əksəriyyətin müəyyən hakimiyyət payına malik olduğu dövlət forması olaraq öz başlanğıcını o tarixi məqamdan götürür ki, hökmdar burjualaşmağa doğru istiqamət götürən şəhər üzərində hakimiyyətini möhkəmlətmək üçün **nazir** institutunu, əyalət rəhbərlərinin separatizminin qarşısını almaq üçün isə **canişin** institutunu təsis edir, mövcud hakimiyyət strukturlarının fəaliyyətinə nəzarət etmək üçün nazirin və canişinin sərəncamında yeni hakimiyyət strukturlarını yaradır və hökmdar bununla da həm öz üzərinə düşən hakimiyyət yükünü əhəmiyyətli dərəcədə azaldır, həm də digər insanlara da hakimiyyət payı vermiş olur. Beləliklə, bir tərəfdən nazirlərin, digər tərəfdən isə canişinlərin hökmdardan bir pay olaraq aldıqları althakimiyyət strukturları yaranır.

Bu məqamın bir qədər təfərrüatlarına varsaq yuxarıda diqqətə çatdırılan həmin tezis özünün konkret ifadəsini həm də onda tapmış olur ki, hökmdar bir tərəfdən özünün xüsusi fərmanla təyin etdiyi və böyük səlahiyyətlər verdiyi ***nazir***ə müəyyən bir sahənin idarə olunmasını həvalə edir, onun sərəncamında yeni hakimiyyət strukturlarını yaratmaqla yanaşı, həm də eyni zamanda indi onun tabeçiliyinə verilən sahənin öncə idarə olunmasında iştirak edən məmurları onların bütün məiyyətləri ilə birgə «nazir»in nəzarətinə[1] və əslində həm də hakimiyyətinə verir[2] və bu hakimiyyətin real və effektiv olması üçün nazirin özünə də althakimiyyət strukturları

[1]*Nazir* sözü fars dilindən tərcümədə *nəzarət edən* mənasını verir.
[2]Azərbaycan dilində zərb-məsələ çevrilmiş *hazırına nazir* ifadəsi də öz mənasını görünür elə bu məqamdan götürür.

yaratmaq hüququnu verir. Nazirin statusu ənənənin vəzirə və vəkilə aid etdiyi statusların yaradıcı sintezi nəticəsində formalaşır. Lakin nazir statusu əlbəttə ki vəzirin də, vəkilin də statuslarından fərqlidir. Belə ki, nazir vəzirdən fərqli olaraq yalnız məsləhətçi, müşavir deyildir, o, həm də real və birbaşa hakimiyyət sahibidir. Amma bununla yanaşı vəzirin statusunda nazirin statusundan daha geniş olan bir məqam da vardır. Nazir hökmdarın yalnız ona həvalə etdiyi sahə üzrə məsləhətçisi ola bilir, vəzirin müşavirliyində isə belə bir sahə məhdudiyyəti yoxdur. Nazirin statusunun hüquqi varisi olduğu vəkilin statusundan, yəni öncə hökmdar sarayından kənarda dövlət başçısının bilavasitə nümayəndəsi olaraq maliyyə və iqtisadi işlərə başçılıq edən, rütbəsi və ənənəvi statusu o zaman üçün yüksək hesab edilən məmurun statusundan fərqliliyi isə ondadır ki, nazir dövlət başçısının yalnız sadəcə olaraq nümayəndəsi deyildir, o, həm də nəzarətində olan sahə üzrə müstəqil surətdə qərar qəbul edə bilən və təsisatlar yarada bilən, hətta hüquqi-normativ aktlar belə qəbul edə bilən hakimiyyət sahibidir.

Hökmdar digər tərəfdən, bir-birinin qonşuluğunda yerləşən bir sıra əyalətləri vahid bir canişinlikdə birləşdirir, bu canişinliyin idarə olunmasını özünün xüsusi fərmanla təyin etdiyi və böyük səlahiyyətlər verdiyi ***canişin***ə həvalə edir, onun sərəncamında yeni hakimiyyət strukturlarını yaratmaqla yanaşı, həm də eyni zamanda indi onun tabeçiliyinə verilən əyalətlərin öncə idarə olunmasında iştirak edən məmurları, bütün əyalət rəhbərlərini, yerli idarə başçılarını onların bütün məiyyətləri ilə birgə canişinin nəzarətinə və əslində həm də hakimiyyətinə verir. Əyalətlərin canişinliklərdə birləşdirilməsi, daha doğrusu onların canişinliyə daxil edilməsi, canişinin tabeçiliyinə verilməsi əyalətlərin siyasi statusunu azaldır, əvvəlki *əyalət*lər indi *qəza* inzibati-ərazi statusunu, əvvəlki əyalət rəhbərləri isə qəza rəisi statusunu alırlar. Hökmdar bununla da həm inzibati-ərazi vahidlərinin siyasi əhəmiyyətini, həm də əyalət rəhbərlərinin, yerli idarə başçılarının siyasi çəkisini azaldır və bu əsasda da inzibati-ərazi vahidlərinin daha effektiv, daha yaxından idarə olunmasına nail olur. Bununla razılaşmayan və buna hər hansı bir formada müqavimət göstərən yerli rəhbərlərin müqavimətini isə cani-

şin səlahiyyətinə verilmiş qoşun hissələrinin köməyi ilə çox asanlıqla qırır və onları özünün təyin etdiyi yeniləri ilə əvəzləyir.

Canişin də nazir kimi vəkil institutunun bir davamıdır, əgər vəkil hökmdarın hər hansı bir məsələ ilə bağlı saray xaricində səlahiyyətli nümayəndəsi kimi çıxış edirsə, nazir kimi elə canişin də hökmdarın hökmdar sarayı xaricində səlahiyyətli nümayəndəsi kimi çıxış edir, amma onların hər ikisinin vəkildən fərqi ondan ibarətdir ki, canişinin və nazirin özləri də hökmdar sarayı xaricində bir saray sahibləridirlər.

Sabir Rüstəmxanlının obrazlı şəkildə "balaca padşahlar" adlandırdığı **althökmdar**ların – *nazirlər*in və *canişinlər*in[1] vəziyyəti ikimənalıdır. Althökmdar, bir tərəfdən hakimiyyət sahibidir, iradəsini *öz* məmurlarına və məiyyətinə diktə etdirmək səlahiyyətinə malikdir. Amma, digər tərəfdən *nazir* də, *canişin* də althökmdar olmaqla yanaşı, həm də məmurdur, hökmdarın xidmətindədir və hökmdara qulluq edir. *Nazir* də, *canişin* də yarıhökmdar, yarıməmurdır.

Bu səbəbdən də, nə nazir, nə də canişin özünü heç zaman sözün tam mənasında rahat, azad hiss edə bilmir, əksinə özünü həmişə gərginlik altında hiss edir. Güclü hakimiyyətə malik olduqları üçün tabeliklərində olanları həmişə gərginlik altında saxlaya bilsələr də, onların özləri də öz başları üzərində onlardan qat-qat güclü olan hökmdarın durduğunu bütün ağırlığı ilə hiss edirlər, özlərini hökmdarın zəhmi altında hiss etdiklərindən, mənəvi rahatlıq, könül pərvazlanması, poeziya onlara əslində yaddır. Məiyyətlərinə göstəriş vermək hüquqları böyük olsa da, hökmdara hesabat vermək məsuliyyətləri daha böyükdür. Althökmdar hər bir hərəkətinin hökmdar tərəfindən necə qarşılanacağını daimi olaraq ölçüb-biçir, hər bir addımını hökmdar qarşısında hesabat vermə məqamını zehnində tutaraq atır, əməllərini bir çox hallarda bu əməllər barədə xəyalən hesabat hazırlaya-hazırlaya yerinə yetirir. Görünür elə bu səbəbdəndir ki, tiraniya dövrü həm də poeziyanın gur inkişafı ilə səciyyəvi olduğu halda, monarxiya dövrü isə həm də cəmiyyətin ümumi həyatında dramaturgiyanın gur inkişafı ilə səciyyəvi olduğu halda, poli-

[1]Heç də təsadüfi deyildir ki, canişin sözü fars dilindən tərcümədə həm də hökmdarı əvəz edən mənasını verir.

tiya dövrü dövlətə xidmətin dövlətdən hakimiyyət payı alınması ilə yanaşı həm də prozanın gur inkişafı ilə səciyyəvidir. Poeziya göstəriş verənin, dram göstərişin yerinə yetirilməsinə müqavimət göstərənin, proza isə göstərişin yerinə yetirilməsi barədə hesabat verənin üslubudur. Althökmdar tərəfindən göstərişlərin verilməsi dərinliklərdən gələn həqiqət yaşantısının ifadəçisi deyil, xidmətinin xüsusiyyətlərindən irəli gələn vəzifə borcunun ifadəçisi olduğundan bir elə ilhamla, vəcdlə, şövqlə müşayiət olunmadan baş verir. Althökmdar çox böyük səlahiyyətlərə, çox böyük hakimiyyətə malik olduğundan onun verdiyi göstərişlər də bir elə müqavimətlə rastlaşmadan yerinə yetirilir, deməli ki, dramatizm durumunu da doğurmur. Lakin politiyada althökmdarın özündən tutmuş onun ən kiçik əməkdaşına kimi, bütün bu məiyyət kütləsinə belə bir xüsusiyyət xasdır ki, onlardan hər biri rəhbərinə daha yaxşı görünmək, özünü onun qarşısında bəraətləndirmək, özünü və öz əməllərini rəhbəri qarşısında müsbət tərəfdən göstərmək, deməli ki, özünü daimi olaraq hesabata hazırlamaq meyilləri güclü inkişaf etmişdir. Buna görə də politiyada göstəriş verənin deyil, göstərişə müqavimət göstərənin də deyil, göstərişin yerinə yetirilməsi barədə hesabat verənin üslubu, yəni proza aparıcı mövqe tutur.

Rəhbərinə daha yaxşı görünmək, özünü onun qarşısında bəraətləndirmək və özünü daimi olaraq hesabata hazırlamaq meyillərinin məhz politiyada güclü inkişaf etməsi həm də onunla izah oluna bilir ki, althakimiyyət qazanılmış hakimiyyət olmadığı üçün, onun mənbəyi kimi əsasən təyin etmə, vəkalətləndirmə, vəkil etmə, səlahiyyətləndirmə, ixtiyar vermə çıxış etdiyi üçün, yuxarıda göstərilən müəyyən mənada pay olduğu üçün, pay verilən hakimiyyət olduğu üçün əksər hallarda *müvəqqəti istifadəyə verilən sərvət* mənasındadır. Bu sərvəti althökmdara və onun əməkdaşlarına verən rəhbər bunu onlardan geri ala da bilir.

Maraqlıdır ki, politiya şəraitində oxşar proza hissiyyatını hətta monarxın özü də müəyyən dərəcədə yaşayır. Çünki politiyanın siyasi təkamülü axınında dövlət aparatı iradə icraçısı olmaqdan iradənin subyektinə çevrilməyə başlayır və bu da hətta monarxın özünün statusunu da tədricən məmur statusuna yaxınlaşdırır və əslində bu-

nunla da monarxiyanın bir dövlət forması olaraq əsasları sarsılmış olur.

Təbii ki, belə bir sual yarana bilər ki, *dövlət aparatının iradə icraçısı olmaqdan iradə subyektinə çevrilməsi* nə deməkdir və bu necə baş verir? Yarana bilən bu sualın cavabı isə bir qədər mürəkkəb olduğundan diqqətin daha əhəmiyyətli dərəcədə ona yönəldilməsini tələb edir.

Belə ki, politiyanın tarixi təkamülü prosesində nazirlər və canişinlər özləri də artıq qeyd olunduğu kimi althakimiyyət strukturlarını yaratmaq hüququna malikdirlər və yaradırlar, hakimiyyətin icraçı ilə bölüşdürülmə prinsipi isə özü-özlüyündə politiyanın siyasi həyat normasına çevrilir, pay verilən hakimiyyətin obyektinə də bu paydan pay düşür. Politiyada hakimiyyət səviyyələri və hakimiyyətin iyerarxiyası yaranır, məmurluq bürokratiya xarakterini kəsb edir. Amma bu verilən pay hakimiyyətlər təbii ki hökmdarın hakimiyyətinin azalması hesabına baş verir, bu pay hakimiyyətlər təbii ki hökmdarın hakimiyyətindən verilən paylardır. Hökmdar malik olduğu hakimiyyəti payladıqdan sonra dövlət aparatının özü suveren rolunda çıxış etmiş olur. Dövlət aparatının iradə icraçısı olmaqdan iradə subyektinə çevrilməsi də elə budur. Monarx da bu halda əslində həmin bu suverenin məmuru olur, həmin bu iradə subyektinin icraçısı olur, öz fəaliyyətini də onun fəaliyyət ritmi əsasında qurmalı olur[1].

[1]Karl Marksın vaxtilə təhkimli kəndli və dəsgah arxasında dayanan fəhlə haqqında söylədiklərini müəyyən dərəcədə politiya dövrünün hökmdarına da aid etmək olar. Təhkimli kəndli məhsul istehsal edən təbii maşının – torpagın - bir əlavəsi olduğu kimi, dəsgah arxasında dayanan fəhlə dəsgahın bir mexanizm olaraq əlavəsi olduğu kimi, politiya dövrünün hökmdarı da dövlət maşınının bir əlavəsidir. Burada söhbət heç də insanın tutduğu sosial statusdan getmir, insanın onu məşğul edən mexanizmdə mexanizmin məntiqinə uyğun şəkildə fəaliyyət göstərməli olduğundan gedir. Sosial statusa qaldıqda isə vurğulamaq olar ki, elə kəndli də əslində təbii maşının idarəedəni statusundadır, fəhlə mexaniki maşının idarəedəni statusunda olduğu kimi, və politiya dövrünün hökmdarı dövlət maşınının idarəedəni statusunda olduğu kimi.

Politiyada monarx əsasən təsisatçı və direktivverən, nazir və canişin isə əsasən idarəedən, təşkilatçı və sərəncamverəndir.

Politiyanın sonrakı təbii inkişafında monarx lazımi təsisatları yaratmağa və öz nazirlərinə və canişinlərinə siyasi problemləri həll edə biləcək lazımı direktivləri verməyə çətinlik çəkdiyini hiss edir və elə buna görə də onlarla daha çox məsləhətləşməyə, elə bil onlardan göstəriş almağa ehtiyac duyur. Bu isə monarxın sosial statusu ilə onun real vəziyyəti arasındakı ziddiyyəti bir qədər də kəskinləşdirir və üstəlik həm onun daxili gərginliyini, həm də cəmiyyətdə sosial-siyasi gərginliyi bir qədər də artırır.

Dövlət aparatı iradənin icraçısı olmaqdan iradənin subyekti olmaq məcrasına düşdüyü məqamdan başlayaraq idarəolunma lingləri də tədricən itirilməyə başlayır.

Belə olduğu halda idarəetmənin öncə mövcud olan linglərinin bərpası meyilləri baş qaldırır.

Əgər politiyanın geriyə, monarxiyaya doğru qayıdışı öz ifadəsini hökmdarın althökmdarlara göstərdiyi təzyiqin yenidən güclənməsində tapırsa, politiyanın daha əvvələ, aristokratiyaya doğru qayıdışı artıq canişinlərin hökmdara göstərdiyi təzyiqin güclənməsi ilə ifadə olunur, monarxiyanın politiya məcrasında təbii təkamülü isə təbəə kütləsinin, ilk növbədə isə nazirlərin simasında dövlət aparatının hökmdara göstərdiyi təzyiqin güclənməsi ilə şərtlənir.

Politiya tarixən formal olaraq monarxiya kimi qiymətləndirilsə də, əslində *təkhakimiyyətlilik* mənasında başa düşülən monarxiya deyildir, bu mənada başa düşülən monarxiya ilə respublika arasında aralıq mövqe tutur. Bu isə həm də o deməkdir ki, althakimiyyət strukturlarının yaranması ilə monarxiya – təkhakimiyyətlilik öz mənasını bir qədər digər tarixi formada olsa da, yenidən itirməyə başlayır.

Siyasi problemlərin mürəkkəbləşmə dinamikası ilə hökmdarın bu problemləri həll edə bilmə imkanlarının təbii hədləri arasındakı ziddiyyət dərinləşdikcə althakimiyyət strukturlarının əhəmiyyəti və muxtariyyatı artır. Hökmdar althakimiyyət strukturlarının əslində şərikli idarə olunmasında öz üstünlüyünü tədricən itirməyə başlayır. Hakimiyyət yenə də tədricən idarəetmədən ayrılmağa doğru üz

qoyur. Hökmdar dövlət hakimiyyəti tərəfindən həll olunmalı olan problemlərə mahiyyət etibarı ilə yadlaşır.

Hökmdarın dövlət hakimiyyəti vasitəsi ilə həll etməli olduğu problemlərə yadlaşdığı şəraitdə hökmdarın iradəsinin yerinə yetirilməsi və ya yerinə yetirilməməsi onun avtoritetindən daha çox, tabeolmanın nə dərəcədə faydalı olub-olmamasından asılı olur. Nazir bu məqamda hökmdarın iradəsini özünə faydalı olduğu üçün və bəzən da özünə faydalı olduğu halda yerinə yetirdiyindən hökmdarın hətta onun özü üçün də tutqun olan iradəsi əksər hallarda yerinə yetirilməmiş qalır. Nazir hökmdara onun iradəsinin artıq yerinə yetirilməsi barədə deyil, digər nazirlərin «günahı ucbatından» yerinə yetirilməməsi barədə hesabat verir.

Öncə althakimiyyət strukturları idarəetmənin effektliliyinin artırılması üçün yaradılmışdı. İndi isə althakimiyyət strukturları sanki dövlət aparatının parçalanması üçün bir zəmin yaradır.

Dövlət aparatının vahid bir mexanizmə çevrilməsi məqsədi ilə nazirlərin müntəzəm olaraq üzləşdirilməsinə və birgə fəaliyyətinə ehtiyac yaranır. Bu ehtiyac nazirlərdən ibarət əvvəlcə məşvərətçi **nazirlər şurası**nın, sonra isə həlledici hüquqa malik ***nazirlər komitəsi***nin, yəni ***hökumət***in yaradılması ilə ödənilir.

Lakin hökmdar daha çox hərbçi olduğu üçün, cəngavər mənşəli olduğu üçün nazirlər tərəfindən həll olunmalı olan mülki işlərin təfərrüatına varmır, bu işləri öz ruhuna yad bilir və əməldə də getdikcə daha çox yadlaşdırır, həmin səbəbdən də mülki işlərə ümumi rəhbərlik fəaliyyətini həyata keçirməkdən ötrü ***hökumətin başçısı*** statusunda ***baş nazir*** institutunu təsis edir və mülki işləri bütövlükdə baş nazirə həvalə edir.

Baş nazir institutunu təsis etməklə, monarx özünün dövlət aparatı qarşısındakı məğlubiyyətini təhtəlşüur səviyyəsində artıq etiraf etmiş olur. Sonradan, *kontrasiqnatura* aktı ilə isə monarx bu məğlubiyyəti həm şüur səviyyəsində etiraf etmiş olur, həm də onu qanuniləşdirmiş olur.

Baş nazirin siyasi çəkisinin artması ilə isə hətta qoşun başçısı (sərkərdə, sərdar) statusu belə hərbi nazir, və ya müdafiə naziri statusu ilə əvəz edilir və baş nazir bununla da özünü hökmdarla ordu

arasına salmış olur və ordu üzərində nəzarət hüququnu əldə etmiş olur.

Hökumətin idarə edilməsini baş nazir statuslu başqa birisinə həvalə etmiş monarxın özü isə əslində hökmdarlıq səlahiyyətlərinin çox böyük hissəsini itirmiş olur. Baş nazirin özü bir qayda olaraq öz sosial mövqeyi etibarı ilə təbəə, bir qədər konkret deyilərsə məmur mənşəli olduğu üçün, təbəə-məmur instinktlərini daha yaxşı başa düşdüyü üçün dövləti də təbəəliyin siyasi instinktlərinə uyğun şəkildə yenidən qurur, təbəəni və ondan daha çox təbəəliyi himayə edir. Zadəganlığı başa düşmədiyi üçün zadəganlığa düşmən kəsilir, zadəganın azad ruhunu qıraraq onu hökmdarın himayəsinə sığınmalı olan təbəəyə çevirmək istəyir, zadəganın öz şərəf və ləyaqətini müstəqil olaraq qoruma əzmini başa düşmür[1], zadəganı əksinə olaraq dövlətdən sığınacaq ummağa, məhkəməyə müraciət etməyə çağırır və məcbur edir, feodal qəsrlərini darmadağın edir, zadəganlığın sirrini qanın nəcibliyində və əsl-nəcabətdə deyil, xidmət-mükafat münasibətlərində görür, zadəgan mənşəli yerli idarə rəhbərlərini təbəə mənşəlilərlə əvəz edir, ordunu onun cəngavər mənşəyindən ayırır, orduya muzdlu xarakter verir.

Baş nazirin siyasi instinktləri, idealları və həyat tərzi bir sıra siyasi traktatlarda özünün parlaq ifadəsini tapmışdır. Qədim Hindistanda *Arthaşastra*, Qədim Çində *Şan vilayətinin idarəolunma kitabı*, Səlcuqilər imperiyasında *Siyasətnamə*, İtaliyada *Hökmdar* və Fransada *Siyasi vəsiyyət*. Burada sadalanan traktatların demək olar ki, hamısı vaxtilə baş nazir kimi fəaliyyət göstərən insanlar tərəfindən yaradılmışlar. Bu insanlar həmin traktatlarda baş nazir fenomeninin rasionallaşdırılmasına, bu və ya digər şəkildə əsaslandırılmasına və bəraətləndirilməsinə səy göstərmişlər. Tarix *Arthaşastra*nın müəllifinin adını saxlamasa da, onun hansı əsrdə yaşadığını və hansı *imperatorun naziri* olduğu haqqında məlumatı saxlamışdır. *Şan vilayətinin idarəolunma kitabı*nın müəllifi ***Şan Yan*** baş nazir institutunun tipik nümayəndəsi idi. Onun tərəfindən irəli sürülən və qismən gerçəkləşdirilən ideyalar öz ifadəsini əslində onun həyata keçirdiyi

[1]Dueli bir «vəhşilik əlaməti» kimi bəlkə də bu nöqteyi-nəzərdən ləğv edir.

islahatlardan daha çox, onun qələmə aldığı kitabda tapmışdır. Bu kitab Qədim Çində baş nazir institutunun və bu institutla birgə doğulan və bəlkə də ondan daha mühüm olan bir hadisənin - mərkəzləşdirilmiş dövlətin inkişafına güclü təkan vermişdir. Səlcuqilər imperiyasında baş nazir və ya o vaxtın dili ilə deyilərsə, baş vəzir[1] olan ***Nizam-ül-mülk***ün *Siyasətnamə*si və Fransanı baş nazir institutunun bütün incəlikləri ilə üz-üzə qoyan ***Rişelye***nin *Siyasi vəsiyyət*i də öz mahiyyəti etibarı ilə *Şan vilayətinin idarəolunma kitabı* ilə eyni qəbildəndir. Şan Yanın Qədim Çində oynadığı rol Səlcuqilər imperiyasında Nizam-ül-mülkün və Fransada isə Rişelyenin oynadığı rola son dərəcə bənzəyir. Onların hər üçü mərkəzləşdirilmiş dövlət ideyasının həm bir siyasi doktrina kimi nəzəriyyəçisi və həm də müəyyən qədər gerçəkləşdiricisi idilər.

Bununla yanaşı, baş nazir fenomeninə və mərkəzləşdirilmiş dövlət ideyasına aristokratik reaksiya da son dərəcə maraqlıdır. Rişelyenin simasında baş nazir fenomeninə aristokratik reaksiya və nifrət isə öz parlaq ifadəsini dahi fransız yazıçıları Düma, Vinyi və Hüqo tərəfindən yaradılmış obrazlarda tapmışdır. Dümanın *Üç müşketyor*u Rişelyeni iblis qiyafətində, Vinyinin *Sen-Mar*ı – azad zadəgan ruhunun qatili qiyafətində və Hüqonun *Marion Delorm*u isə xalq əleyhinə olan despotik hakimiyyətin simvolu kimi təqdim edir.

Əsasən utilitarist təbəə ruhunun daşıyıcısı olan baş nazirlə əsasən personalist zadəgan ruhunun daşıyıcısı olan hökmdar arasındakı münasibətlər bir qayda olaraq həmişə gərgin və qeyri-müəyyəndir. Bu da görünür elə ondan irəli gəlir ki, baş nazir hökmdarın iradəsinin icraçısı olmalı halda, əslində hökmdar baş nazirin iradəsinin icraçısı olur. Baş nazirin hökmdara olan münasibətləri ikiüzlülük və hiylə üzərində qurulduğu halda, hökmdarın baş nazirə olan münasibətləri kütlük şüuru və təhqir olunmuş ləyaqət hissi üzərində qurulur. Baş nazir siyasi problemləri hökmdara elə izah etməlidir ki, onların həlli üçün özünün nəzərdə tutduğu ideyalar və qərarlar hökmdar tərəfindən söylənilmiş olsun. Hökmdar da öz

[1]Nizam-ül-mülk vəzifəyə baş nazir olaraq deyil, baş vəzir olaraq təyin olunmuşdu və bu adı da daşıyırdı. Amma o, əslində baş nazir səlahiyyətlərində və statusunda idi.

növbəsində özünü elə göstərməlidir ki, baş nazir guya onun ideyalarını həyata keçirir və guya onun iradəsini yerinə yetirir. Hökmdarın baş nazirə olan münasibəti həm də ona görə ziddiyyətlidir ki, hökmdar baş nazirin özü üzərindəki hakimiyyətini hiss edir və ondakı hökmdarlıq instinkti baş naziri kənarlaşdırmaq istəyini yaradır, lakin hökmdar hiss edir ki, baş nazirin məsləhətlərinə həyati ehtiyacı vardır, onun özü üzərində intellektual hakimiyyəti olmadan keçinə bilmir. Personalist zadəgan ruhunun daşıyıcısı olan hökmdar obyektivist təbəə ruhunun daşıyıcısı olan baş nazirin özü üzərində hökmranlıq zərurətindən xilas olmaq üçün yollar axtarır.

Qeyri-cəngavər ruhlu və qeyri-zadəgan mənşəli insanlara *xidmətindən asılı olaraq* zadəgan rütbələrinin verilməsi isə aristokratizmin daha dərindən deqradasiyasına gətirib çıxardı.

Aristokratizmə olan tarixi ehtiyacın irsi aristokratizmin imkanlarını üstələməsi yalançı aristokratiyanı törədir. Politiyada elə bu səbəbdən də aristokratiya ilə təbəə arasındakı kəskin sərhəd getdikcə əriməyə başlayır.

Politiyada hətta monarxın özü də tədricən yüksək imtiyazlara malik məmura çevrildiyindən, monarxın hüquqi vəziyyəti *dövlət vəzifəsi* statusunu kəsb edir və praqmatik əhəmiyyət daşıyır.

Politiyada dövləti xidmət sferaları və səviyyələri mürəkkəbləşdiyi üçün xidmətə uyğun mükafatlandırma sistemi də mürəkkəbləşir. Təbəəni xidmətinə müvafiq şəkildə mükafatlandırma işini uğurla həyata keçirmək üçün ***pul*** meydana çıxır.

Pulun meydana gəlməsi ilə bağlı əmtəə istehsalı da özünə geniş meydan tapır.

Bu vaxta qədər başlıca olaraq öncə hökmdar iqamətgahının yerləşdiyi məkan olan, sonra vətəndaş cəmiyyətinin daşıyıcısı mənasında şəhərlinin məskunlaşdığı məkan durumuna gələn şəhər, indi tədricən həm də obrazlı şəkildə deyilərsə *sənaye məhsullarını istehsal edən sosial maşın*a çevrilir.

Xammal təminatı və satış bazarının əldə edilməsi bu maşının fəaliyyətinin başlıca müqəddəm şərtləri olur. Şəhər öz hikkəsini dövlətə qəbul etdirdikcə dövlət bu müqəddəm şərtlərin təqdimatçısına çevrilir.

Dövlət tərəfindən həyata keçirilən istilalar həmin bu hikkənin coğrafi məkanını genişləndirir. İstila xilaskarlıq xarakterini deyil, daha çox işğal xarakterini alır. İşğal olunmuş ərazilər üzərində qoyulmuş canişinlər əslində bu hikkənin gerçəkləşdirilmə aləti rolunda çıxış edirlər.

İqtisadiyyatın siyasəti müəyyən etməsi barədə marksist müddəa siyasi inkişafın məhz politiya mərhələsində özünü müəyyən dərəcədə olsa da doğrultmağa başlayır. Görünür, siyasət zəiflədikcə iqtisadiyyatın şıltaqlığı ilə oynamağa başlayır.

Maraqlıdır ki, marksizmin Lenin və Stalin kimi görkəmli praktikləri iqtisadiyyatın siyasəti müəyyən etməsi barədə marksist müddəanın əksinə fəaliyyət göstərirdilər. Bu müddəa öz praktik təsdiqini əslində Stalinin ölümündən sonra tapdı.

Stalindən sonrakı sovet dövləti əslində politiya xarakterli idi. 1953-cü ildə Stalinin ölümündən sonra *birinci şəxs*in təşəbbüskarlıq qüdrəti zəiflədi. Xruşşovun «volyuntarizm»i şəxsi təşəbbüskarlıq deyildi, əcnəbi ideyaların zorla sovet gerçəkliyinə yeridilməsi idi. Sosializm özünün real mövcudluğundan, problemlərindən, öz inkişaf təmayüllərindən irəli gələn ideyalarla qüdrətlənə bilərdi, əcnəbi dövlətlərin problemlərinin həlli üçün yaradılan ideyalarla zəiflədi. Təşəbbüskarlıq və icraçılıq, aktiv və passiv determinizm arasındakı kəskin sərhəd əridi. Bu isə son nəticədə həyatın həm də məntiqi prinsiplərini dəyişdirdi. İcraçının qismən müstəqilləşməsi onun vəziyyətinə ikili məna verdi. Əslində Stalin tərəfindən total olaraq təbəəyə çevrilmiş kütlənin icraçılıq instinktləri tədricən korşalmağa başladı və bu kütlədə təşəbbüskarlıq meyilləri yarandı. Onun diqqət mərkəzində artıq vəzifəsindən irəli gələn öhdəliklərdən daha çox vəzifəsinin verdiyi səlahiyyətlər və sui-istifadə imkanları dayandı, sovet gerçəkliyinin belə bir ikimənalı vəziyyəti sovet adamının düşüncə tərzini dəyişdirdi və bu düşüncə tərzi öz nəzəri ifadəsini nə qədər qəribə görünsə də, dialektik məntiqdə tapdı. Eyni zamanda, məmur kütləsinin aktiv determinizmin daşıyıcısına çevrilməsi onu öz həqiqi təbiətinə yadlaşdırdı, sovet gerçəkliyi daxilində burjualaşma meyilləri cücərdi. Stalinin xalqda formalaşdırdığı kölə psixologiyası Xruşşovun hakimiyyəti illərində nökər psixologiyasına trans-

formasiya etdi. Burjua, öz sosial mənşəyi etibarı ilə nökər təbiətli olduğundan, Xruşşov dövrü sovet gerçəkliyinin burjualaşmasının başlanğıcı oldu. Heç də təsadüfi deyildir ki, bu dövrdə sovet gerçəkliyinə qərb – burjua dəyərlərinin güclü axını başladı. Demokratikləşmə, hakimiyyət bölgüsü, qanun qarşısında bərabərlik, hakimiyyət bölgüsü, parlamentarizm kimi prinsiplər sosializm prinsipi ilə uzlaşdırılarkən əslində bütün cəmiyyətdən ibarət olan dövlət aparatı total korrupsiyaya uğradı, sovet həyat və düşüncə tərzinin ikili xarakteri dərinləşdi, ikiüzlülük yaşayış normasına çevrildi. Stalinçi sovet adamının vəziyyəti birmənalı idi. O, dövlət sistemində onun üçün nəzərdə tutulmuş funksiyanın mütləq icraçısı idi. Dövlət sistemi isə total xarakterli idi, bütün cəmiyyəti sarmışdı. Bu sistemin təsviri üçün qərb politologiyasının yaratdığı *totalitarizm* sözü ən uğurlu ifadədir. Xruşşov dövründə isə dövlətə sədaqətlilik özünün aparıcı və müəyyənedici mövqeyini praqmatizmə verməyə başladı. Sovet adamı sədaqətlilik və praqmatizm arasında tərəddüd keçirdikcə onun vəziyyəti ikimənalılaşdı. Birmənalı düşüncə tərzinin nəzəri ifadəsi olan formal məntiq ikimənalı təfəkkür üsulunun nəzəri ifadəsi olan dialektik məntiq tərəfindən sıxışdırıldı. Heç də təsadüfi deyildi ki, dialektik məntiqin təbiəti ilə bağlı tədqiqatlar məhz Xruşşovun hakimiyyəti illərində genişləndirildi. Səciyyəvidir ki, insan təfəkkürünün ikimənalı və ziddiyyətli xarakteri ilə bağlı mülahizələrin nəzəri olaraq əsaslandırılmasına yönələn bu tədqiqatlarda Stalinə qarşı təkcə tənqidi münasibət və etinasızlıq göstərilmədi, həm də Leninə, hətta Xruşşova qarşı bir ehtiram və heyranlıq nümayiş etdirildi. Bu heç də yalnız siyasi aksentlərin dəyişilməsi ilə bağlı deyildi, siyasi aksentlərin dəyişilməsindən daha fundamental idi və bəlkə də onun əsasını təşkil edirdi. Stalinin təfəkkürü dialektik təbiətli deyildi, analitik təbiətli idi. Leninin və Xruşşovun düşüncə tərzi isə dialektik xarakterli idi, ikimənalı səciyyə daşıyırdı. Bu dövrdə bütün marksizmə, xüsusən onun yaradıcısına, Karl Marksa dialektik təfəkkürün şamil edilməsi meyli vardı[1]. Lakin,

[1]Bu dövrdə bütün marksizmə, onun yaradıcısı Karl Marksa dialektik təfəkkürün şamil edilməsi meyli həmyerlimiz Zahid Orucovun yazdığı Karl

sovet gerçəkliyinin ikiləşməsi, ikimənalılaşdırılması, dialektikləşdirilməsi prosesi sosialist gerçəkliyi tərəfindən dayandırılmalı idi və Xruşşovun hakimiyyətdən uzaqlaşdırılması ilə dayandırıldı. Çünki həqiqi sosialist təfəkkürü dialektik təbiətli deyildir, analitik təbiətlidir. Dialektik təfəkkürün yenidən dirçəldilməsi və ön plana çıxarılması ikimənalı təfəkkürü özündə daşıyan digər *baş katib*in – Qorbaçovun hakimiyyəti ilə bağlı həyata keçirildi. Qorbaçovun hakimiyyətinin sona çatması ilə dialektik məntiq də arxa plana atıldı. Dialektik məntiq yalnız ikimənalı dövrlərdə diqqət mərkəzində ola bilir. O, xalis sosializmə yad olduğu kimi xalis kapitalizmə də yaddır. Xruşşovun hakimiyyəti politiyanın ən bariz nümunələrindən biri olmaqla xalis sosializmlə xalis kapitalizm arasında aralıq mövqe tutur.

Politiya monarx statusunu saxladığına baxmayaraq həqiqi monarxiya olmadığı kimi, əksəriyyəti idarəetməyə cəlb etməsinə baxmayaraq həqiqi demokratiya da deyildir.

Xalq içərisindən çıxan adamların hakimiyyətə cəlb olunmasına əsaslanan politiyanın mümkünlüyü həmin cəlbolunma mexanizmlərinin imkanları ilə müəyyən olunur. Bu imkanlar xaricində politiyanın süqutu başlayır.

Politiyanın süqutu dövründə dövlətin başlıca siyasi problemləri həll edilməmiş qalır, yəni hakimiyyət bir tərəfdən öz ordusunu, daxili təyinatlı qoşun hissələrini və məmur kütləsini lazımi səviyyədə saxlamaq qüdrətinə malik olmur, digər tərəfdən isə xalqın təhlükəsizliyini lazımi səviyyədə təmin edə bilmir.

Nəticədə xalq özünün təhlükəsizliyi üçün, ordu, daxili təyinatlı qoşun hissələri və məmur kütləsi isə özünün maddi təminatı üçün digər yollar axtarmağa başlayır. Ordunun, daxili təyinatlı qoşun hissələrinin və məmur kütləsinin müstəqilləşməsi və bununla da öz ilkin mahiyyətinə yadlaşması isə politiyanın sonunu yaxınlaşdırır.

Xalq özünün bütövlükdə bir xalq olaraq təhlükəsizliyi üçün dövlətə, dövlətə məxsus silahlı dəstələrə tam səmimiyyətlə etibar etmədiyindən, sədaqətinə və gücünə inandığı insanlardan ibarət

Marks və dialektik məntiq (1964) adlı monoqrafiyada müəyyən mənada özünün məntiqi sonluğuna çatdı.

xüsusi mühafizə dəstələrini yaradır və öz təhlükəsizliyi daha çox onlara etibar edir.

Ordu, daxili təyinatlı qoşun hissələri öz maddi durumlarını lazımi vəziyyətə gətirmək üçün təbii ki, hər şeydən öncə zorakılıq metodlarına əl atırlar. Orduda və daxili təyinatlı qoşun hissələrində qarətçilik instinkti oyanır və bu instinkt bir tərəfdən hakimiyyəti işğalçılıq müharibələri aparmağa sövq edir, digər tərəfdən isə həm ordunu, həm də daxili təyinatlı qoşun hissələrini tədricən reket dəstələrinə çevirir.

Məmur özünün maddi təminatı üçün isə dövlət aparatında tutduğu vəzifədən daha əlverişli bir qaydada istifadə etməyə çalışır. Dövlət aparatında məmurlar tərəfindən tutulan vəzifələr xüsusi bir sərvət əhəmiyyətini kəsb edir, bir sərvət kimi də istifadə olunur və alınıb-satılır. Vəzifə sözü özünün ilkin və həqiqi mənasını itirməyə başlayır, sözün ilkin və həqiqi mənasında olduğu kimi vəzifə kimi deyil, əksinə hüquq, imtiyaz, hakimiyyət kimi qavranılır və bu qavrama getdikcə daha geniş miqyas alır. Hakimiyyət bütövlükdə cəmiyyətin deyil, ayrı-ayrı sosial qrupların iradəsinin ifadəçisi kimi çıxış edir. Dövləti xidmət sui-istifadə ilə çuğlaşır, məmurluq artıq sözün pis mənasında bürokratiya formasını alır. Qanunlar məmur üçün faydalı olduğu halda və faydalı olduğu qaydada yerinə yetirilir.

Bu, *məmurun öz vəzifə öhdəliklərini yerinə yetirməməsi* olaraq *korrupsiya*dır, amma korrupsiyanın nisbətən yumşaq tərəfidir. Korrupsiyanın sərt tərəfi isə dövlətdə xidməti vəzifələrin satılıb-alınmasıdır.

Korrupsiyanın burada xatırlanan hər iki tərəfi açıq rüşvətxorluq formasını ala da bilər, almaya da bilər. Məsələn, XVII-XVIII əsr Fransasında vəzifə və rütbə həm bir hakimiyyət ifadəsi olaraq qavranılırdı, həm də onlar, xüsusən vəzifə dövlət tərəfindən sanki bir mülkiyyət olaraq hətta açıq və rəsmi şəkildə satılırdı. Əgər öncə məmur vəzifəyə malik olduğu məxsusi qabiliyyətlər əsasında təyin olunurdusa və muzdlu işçi statusunda idisə, vəzifəni pulla alan adamın statusu mahiyyət etibarı ilə kapitalist (indiki dillə deyilərsə - investor) statusudur. Onun vəzifəyə təyin olunmaq üçün verdiyi

haqq kapital (investisiya) xarakterli, xəzinədən aldığı məvacib və yan gəlirlər mənfəət xarakterli olur.

Vəzifəni pulla alan kəsin məmurluq instinkti, yəni hökmdarın iradəsinin icraçısı kimi özünüdərki son dərəcə zəifdir. Burada hökmdar məmurlar üzərində öz hakimiyyətini tədricən itirir. Bundan başqa vəzifəsini pulla alan məmurların maraqları və bacarıqları bu vəzifədən irəli gələn öhdəliklərə heç də həmişə uyğun gəlmədiyindən vəzifələrin satılması monarxın real hakimiyyətini getdikcə daha çox zəiflədir.

Təbəə artıq özünü hökmdarın iradəsini yerinə yetirməli olan bir alət kimi deyil, müstəqil bir şəxs kimi qavramağa başlayır. Politiya şəraitində müstəqilləşmə öz başlanğıcını ticarətdən götürür, sənətkarlıqla davam edir, dövlət strukturlarının korrupsiyaya uğramasında isə başa çatır.

Politiyanın süqutu dövründə korrupsiya özünü başlıca olaraq iki formada göstərir: xəzinədən təyinat üzrə istifadə olunmaması yolu ilə xəzinədən oğurlama formasında və xəzinəyə daxil olmalı olan sərvətin xəzinəyə daxil olmadan mənimsənilməsi, yəni verginin rüşvətlə əvəzlənməsi formasında.

Politiyada **dövlət** *öz adına* daha çox uyğun olur, ***var-dövlət*** xarakterini kəsb edir. Dövlətdə təmsil olunmaq *var-dövlət* sahibi olmaq mənasını verməyə başlayır.

Mülkiyyət, ən əsası isə torpaq dövlətin nəzarətindən çıxır, xüsusiləşir, alqı-satqı obyektinə çevrilir. Bununla da, təkhakimiyyətliliyin iqtisadi əsasları sarsılır.

Politiyanın siyasi resursları tükəndikcə və politiya özünün siyasi sonuna doğru irəlilədikcə hakimiyyətin cəmiyyət və dövlət qarşısında borc kimi deyil, imtiyaz kimi anlaşılması daha da güclənir.

Hakimiyyətin faydalı bir şey kimi qavranılması cəmiyyətdə geniş miqyas aldıqca *xalq hakimiyyətə can atır.* Cəmiyyətdə **demokratiya** meyilləri cücərir.

## VƏDLƏ ALINAN HAKİMİYYƏT: *DEMOKRATİYA*

Əgər politiyada xalq yuxarıların etimadını qazanaraq hakimiyyət əldə edirsə, demokratiyada bunu o, vəd etməklə ələ aldığı aşağıların etimadını qazanaraq edir. Xalq politiyada dövlətin idarə olunmasına cəlb olunur, demokratiyada isə dövlətin idarə olunmasını ələ alır[1].

Bunun necə baş verdiyinə diqqət yetirək.

Hər şeydən öncə onu qeyd edək ki, demokratiya bir siyasi sistem olaraq şəhərin gur inkişafı ilə bağlı meydana gəlir. Demokratiya o şəraitdə formalaşır ki, hakimiyyət onun idarəetmə sferasından bütövlükdə kənarda qalan şəhərli kütləsi üzərində nəzarətini tədricən itirməyə başlayır. Mənşəyi etibarı ilə təbəəlikdən törəyən şəhərli kütləsi ilə ali hakimiyyət arasında subordinasiya münasibətləri itir və hakimiyyətdən qopub ayrılan kütlə özünü artıq müstəqil bir toplum olaraq, öz mövcudluğunu hakimiyyətdən müstəqil olaraq davam etdirə bilən bir vətəndaş cəmiyyəti olaraq dərk etməyə başlayır. Demokratiya da öz təşəkkülünü elə buradan götürür.

Şəhərli artıq təbəə statusunun hüquqi çərçivələrinə sığmır, özünün davranış prinsiplərinin özünə yad olan hakimiyyət tərəfindən müəyyənləşdirilməsi ilə qane olmur, öz davranış prinsiplərinin ona yadlaşan hakimiyyət tərəfindən müəyyənləşdirilməsinin zəruriliyini hər vəcdlə inkar etməyə başlayır, belə bir müəyyənləşdirilmə-

[1]Nitşenin kəskin ifadəsi ilə deyilərsə, təbəə hökmdarda kübarlığın çatmadığını görüncə hökmdarlıq həvəsinə düşür.

nin əhəmiyyətini hər vəcdlə azaltmağa çalışır, ona rişxənd edir və özünün davranış prinsiplərinin özü tərəfindən müəyyənləşdirilməsini arzulayır, qanunların yaradılmasında iştirak etmək istəyir. Demokratiya da elə bu arzunun, elə bu istəyin reallaşdırılması prosesində gerçəklik statusu qazanır, siyasi həyatda məhz bununla yer alır.

Demokratiya dövrü real həyatda siyasi aktivliyin, hüququn və qanun yaradıcılığının gur inkişafı ilə səciyyələndirilə bildiyi halda, incəsənətdə sarkazm yaradıcılığının gur inkişafı ilə səciyyələndirilə bilər. Tiraniya dövrü poeziyanın, monarxiya dramaturgiyanın, politiya dövrü prozanın gur inkişafı ilə səciyyəvi olduğu halda, demokratiya dövrü onların əksliklərinin, yəni satiranın, komediyanın və lətifənin gur inkişafı ilə səciyyəvidir, əlbəttə ki qanun yaradıcılığının gur inkişafı ilə paralel olaraq.

Qanun burada artıq əvəz prinsipinin ifadəçisindən dövlət üzərində üstünlük əldə etmə vasitəsinə çevrilir.

Qanun ideyası vətəndaşlıq ideyası ilə vəhdətdə şəhərli kütləsinin hakimiyyət üzərində hikkəsinin tarixi təzahür formalarından biri olur. Heç də təsadüfi deyildir ki, bir çox dillərdə *vətəndaş* sözü *şəhərli* mənasını verir: ingilis dilindəki *city* (şəhər) sözündən törəyən *citizen* (vətəndaş) ifadəsində və ya rus dilindəki *горожанин* (şəhərli) sözündən törəyən *гражданин* (vətəndaş) ifadəsində olduğu kimi.

Bu vaxta qədər başlıca olaraq hökmdar iqamətgahının yerləşdiyi məkan mənasını daşıyan şəhər (*town*), indi tədricən həm də vətəndaşın məskunlaşdığı məkan (*city*) mənasını kəsb edir[1].

---

[1]*Town* və *city* arasındakı fərq heç də şəhərin böyük və ya kiçik olmasından irəli gəlmir. London dünyanın ən böyük şəhərlərindən biri olsa da, bu vaxta qədər də **town** statusunu saxlamaqdadır. Londonlu bu günün özünə qədər özünü həm də təbəə olaraq da hiss etdiyindən, London da **hökmdar iqamətgahının yerləşdiyi şəhər** mənasını bu günə qədər bütövlükdə saxlamışdır. City mənası isə Londonun yalnız bir hissəsinə, "London-city"yə aid edilir. Çünki məhz bu hissə dövlət üzərində üstünlük əldə edən vətəndaşın məskunlaşdığı məkan (city)

Təbəəlikdən vətəndaşlığa doğru istiqamətlənən tarixi təkamül demokratizmin doğuluşunu və hətta qələbəsini mümkün edən mühüm müqəddəm şərtə çevrilir.

Bu tarixi təkamül prosesində *bir tərəfdən*, dövləti problemlər yalnız hökmdar hakimiyyətinin problemləri kimi deyil, həm də vətəndaş cəmiyyəti durumunda olan xalqın problemləri kimi məna kəsb edir və bu halda xalq əslində xalq olmaqdan qalaraq millətləşir, millət statusunu kəsb edir.

“Xalq” və “millət” arasındakı fərq, əgər əyanilik xatirinə bir qədər kobud şəkildə ifadə olunsa, “sürü” və “dəstə” arasındakı fərq kimidir. Sürü sürülür, dəstə üzvləri isə qərarın qəbul edilməsi prosesində iştirak edirlər.

Xalq və millət arasında başqa bir fərq isə ondan ibarətdir ki, əgər xalq kəndin əsasında formalaşırsa, millət şəhərin əsasında formalaşır. Lakin şəhərin özü əsasən kəndin insani resursları üzərində qurulduğundan, icma dəyərlərini müəyyən dərəcədə və müəyyən formada özündə ehtiva edir. Millət ideyasının özü də şəhər mədəniyyətinin icma mənşəli olduğunu bir daha xatırladır.

Əgər kənd və onun əsasında formalaşan xalq özü üzərində tiranik dövlətin himayəsinə etibar edirsə, şəhər demokratik dövlətin himayəsinə etibar edir.

Əgər tiraniyada dövlət hökmdarın qüdrəti ilə qüdrətlənir və möhkəmlənirdisə, hökmdarın qüdrətsizliyi isə onu zəiflədirdisə, demokratizm şəraitində dövlət artıq vətəndaşın, xalqın, millətin qüdrəti ilə qüdrətlənir, zəifliyi ilə isə zəifləyir.

Vətəndaşın fikri, mövqeyi siyasi əhəmiyyət kəsb etdikcə, başqa sözlə, təbəə vətəndaşa və bütövlükdə xalq millətə çevrildikcə vətəndaşın və xalqın öncə fikrinın və mövqeyinin, daha sonra isə hətta iradəsinin ifadəçisi olan mətbuat siyasi hakimiyyətə bir təzyiq vasitəsinə, və ya son onilliklər ərzində deyildiyi kimi, dördüncü haki-

mənasına uyğundur, həmin hissədir ki, burada məskunlaşan vətəndaş - varlı və nüfuzlu vətəndaşdır, dövlətə öz hikkəsini qəbul etdirə bilən vətəndaşdır.

miyyətə çevrilməyə başlayır. Mətbuat cəmiyyətdə, xüsusən də cəmiyyətin ayrı-ayrı sahələrində vəziyyətin necə olduğunu göstərməklə, dolayısı yolla həm də hakimiyyətin harada və nə etməli olduğunu göstərmiş olur. Mətbuat başlıca olaraq derektiv xarakterli olmasa da, faktual və bir çox hallarda isə əslində qeyri-şüuri hesabat xarakterli informasiyanın daşıyıcısı və mənbəyi olmaqla cəmiyyətin idarə olunmasında iştirak edir. Məhz mətbuatın, kütləvi-infirmasiya vasitələrinin inkişafı sayəsində cəmiyyət, xalq, millət dövləti necə idarə etmək barədə hakimiyyətə məsləhət verməyə daha çox ehtiyac duyur.

*Digər tərəfdən*, cəmiyyət, xalq, millət dövləti necə idarə etmək barədə hakimiyyətə məsləhət verməyə ehtiyac duyduğu bir zamanda hakimiyyət də dövləti idarə etmək üçün kənardan məsləhət almağa ehtiyac duyur və demokratikləşmənin təşəkkülü prosesində bu ehtiyacı ödəməyə başlayır.

Ümumxalq, daha doğrusu, ümummilli problemlər hakimiyyətin hüdudları daxilində həll edilə bilmədiyindən, bu hüdudları aşır, siyasi xarakter daşımağa başlayır.

Siyasətçi heç də həmişə hakimiyyətə malik olan adam olmadığı kimi, ali hakimiyyətə malik olan adam - hökmdar da heç də həmişə siyasətçi deyildir. Siyasətçi ali hakimiyyətə malik olan adamın - hökmdarın əməlləri haqqında mühakimə yürüdən kəsdir, bir qədər kəskin və birbaşa deyilərsə, hökmdarın qeybətçisidir. Siyasət o zaman başlayır ki, insanlar ali hakimiyyətin özünü necə aparması və aparmalı olması barədə mühakimə yürüdürlər, elə bil ali hakimiyyətə məsləhət vermək istəyirlər.

Sözün tam mənasında *siyasət*in özü də məhz o zaman meydana gəlir ki, hökmdar öz siyasi qüdrətinin məhdudiyyətini, çərçivələrini hiss etdikcə dövləti problemlərin həlli üçün *xalqla məsləhətləşmə*yə ehtiyac duyur[1].

---

[1] Xalq və millət arasında fərqlə bağlı yuxarıda aparılan təhlil nöqteyi-nəzərindən, hökmdarın *xalqla məsləhətləşmə*yə duyduğu ehtiyac əslində onun *millətlə məsləhətləşmək* ehtiyacı idi.

Dövlətin ***demokratikləşmə**si* ***yolunda birinci konkret tarixi addım*** isə ***Parlamentin təsis olunması**dır*. Parlament hökmdarın dövləti problemlərin həlli üçün «xalqla məsləhətləşmə» ehtiyacından yaranır və özünün tarix meydanına çıxarılması ilə dövlətin demokratiya məcrasında təkamülündə əslində başlanğıc tarixi məqam olur.

Dövlətin idarəolunma işi demokratikləşmənin elə ilk addımından başlayaraq siyasi xarakter alır. Çünki hökumət ona məsləhət verənlərin və onun üzərində nəzarət edənlərin sayının çoxalması ilə bağlı artıq yalnız idarə etməklə kifayətlənə bilmir, həm də müntəzəm olaraq öz fəaliyyətini bəraətləndirməli, əsaslandırmalı, qiymətləndirməli və rasionallaşdırmalı olur. Hökumət burada təkcə idarə etmir, həm də öz idarəetmə fəaliyyəti barədə müntəzəm olaraq *hesabat* verir.

Parlament özlüyündə isə vətəndaş cəmiyyəti ilə hakimiyyət arasında razılaşma və müvazinət aləti kimi meydana çıxır. Vətəndaş cəmiyyəti tabe olacağı qanunların və verəcəyi vergilərin hakimiyyətlə razılaşdırılması işini rəsmi olaraq məhz parlament vasitəsilə həyata keçirir. Bununla da məhz parlament vasitəsilə həm vətəndaş cəmiyyətinin hakimiyyətdən azad olması faktı rəsmən tanınır, qanuniləşdirilir, həm də vətəndaş cəmiyyətinin hakimiyyətlə birgəyaşayış prinsipləri razılaşdırılır.

İlkin halda parlament hələ ki hakimiyyətin bir qolu deyildir, hökmdar hakimiyyətinin bir davamıdır, parlament bu halda hökmdara tabe olur, yalnız məşvərətçi orqan kimi çıxış edir və silki xarakter daşıyır.

Demokratik təkamülün ilkin mərhələsi olan *silki monarxiya* ənənəvi tarixşünaslıqda qəbul olunduğu kimi *mütləq monarxiya* adlandırılan dövlət formasından əvvəl deyil, sonra yaranır. *Ənənəvi olaraq mütləq monarxiya adlandırılan siyasi sistem* isə əslində politiyadır və *silki monarxiya*dan daha öncə mövcud olur. Ənənənin *mütləq monarxiya* adı verdiyi dövlət formasında monarx hakimiyyətin mütləq subyekti kimi qələmə verilsə də, reallıqda bu siyasi sistem baş nazir tərəfindən idarə olunur və həmin bu siyasi sistem silki

əsaslar üzrə təşkilatlandırılan parlamenti öz tərkibinə daxil etməklə *silki monarxiya* statusunu kəsb edir və bununla da himayə etdiyi şəhərli kütləsinin dövlət üzərində hikkəsini qanuniləşdirir.

Lakin Parlamentin özünün yaranması ilə baş nazirin statusunda ciddi dəyişikliklər baş verir. Çünki Parlament hökmdarın verəcəyi qərarlara, təsisatlara və təyinatlara təsir göstərmək səlahiyyətinə və gücünə malik olduğundan, idarəetmədə baş nazirin və ümumiyyətlə nazirlərin müəyyən dərəcədə şəriki olmuş olur.

Hakimiyyətə iddialı olan insanların hələ monarxiyanın sonlarında formalaşan və *siyasi partiya* adlandırılan birliyi isə bu vaxtdan başlayaraq, yəni parlament institutunun hakimiyyət meydanına çıxması ilə xüsusi məna kəsb edir. Siyasi partiyalar yalnız Parlament tərkibinin seçilməsində deyil, həm də nazirlərin hökmdar tərəfindən seçimində də mühüm əhəmiyyətə malik olurlar. Lakin bununla yanaşı, belə bir faktı da qeyd etmək lazım gəlir ki, siyasi partiyalar layiq olan insanların irəli çəkilməsində əhəmiyyətli rol oynamaqla bərabər, eyni zamanda layiq olmayan insanların da irəli çəkilməsində əhəmiyyətli rol oynamışlar, bunun üçün isə şantajı, insanları düşünülmüş şəkildə çirkaba batırmanı, insanları yalana baş əyməyə məcbur etməni, iftiranı və ikiüzlülüyü mühüm siyasi vasitələrə çevirmişlər. *Siyasət çirkin işdir* kəlamı burada əsasən özünü doğruldur. *Siyasət* sözü *çirkin iş, hiylə işlətmək, aldatmaq* mənalarını məhz parlament institutunun hakimiyyət meydanına çıxması ilə daşımağa başlayır.

Lakin parlament üsul-idarəsində müşahidə olunan çirkab əlbəttə ki siyasətin hamısı deyildir, onun bir hissəsidir, bəlkə də cüzi bir hissəsidir. Unutmaq olmaz ki, parlament və bütövlükdə demokratikləşmə rəsmi dövlət hakimiyyətinin hüdudlarından kənarda qalan aristokratik resursların ümummilli problemlərin həllinə cəlb olunması üçün də mühüm vasitə ola bilir.

Parlamentə sonradan hökmdar tərəfindən qanunverici orqan statusunun verilməsi ilə demokratikləşmə özünün ***ikinci tarixi addım***ını atmış olur. Əgər hökmdar bu vaxta qədər malik olduğu hakimiyyətdən etibar etdiyi kəslərə müəyyən hakimiyyət payı

verirdisə, indi, Parlamentin məşvərətçi orqandan qanunverici orqana çevrilməsi ilə hökmdar, artıq malik olduğu hakimiyyəti qanunverici orqan statusunu verdiyi Parlamentlə bölüşür.

Parlament qanunverici orqan olaraq nazirlərin və digər dövlət məmurlarının siyasi statuslarının müəyyənləşdirilməsində mühüm rol oynayır, nazirlər və hətta baş nazir üzərində indi daha böyük nüfuza malik olmuş olur, öz siyasi inkişafında hökmdarla nazirlər arasına mühüm həlqə mövqeyini qazanmağa da nail olur.

Parlament özünün sonrakı tarixi təkamülündə nazirlər üzərində, xüsusən də baş nazir üzərində öz nüfuzunu o dərəcədə gücləndirir ki, *kontrasiqnatura prinsipi*ni və bəzən hətta onun siyasi daşıyıcısı olan *baş nazir institutu*nu ləğv edir, bununla da *baş nazir* statusunu və səlahiyyətlərini əslində öz üzərinə götürmüş olur. Bu halda *kontrasiqnatura prinsipi* öz hüquqi statusunu *ratifikasiya prinsipi*nə verir.

Parlament özündən yuxarıda qalan siyasi strukturların – hökmdarın və həmçinin də Dövlət Şurasının – fəaliyyətini tədricən məhdudlaşdırarkən isə demokratikləşmə özünün ***üçüncü tarixi addımı***nı atmış olur.

Monarxın və Dövlət Şurasının fəaliyyət azadlığının məhdudlaşdırılması prosesi özlüyündə isə indi artıq *qanunun aliliyi prinsipi*nin, eləcə də *hüquqi dövlət* və *konstitusiya* ideyalarının meydana çıxması və getdikcə daha çox əhəmiyyət kəsb etməsi ilə müşayiət olunur.

*Qanunun aliliyi prinsipi*nin ortaya çıxması ilə hakimiyyətin artıq faktiki olaraq itirilmiş mənbə və obyekt müəyyənliyi arxa plana atılır, bu itki leqallaşdırılır. Hökmdar və təbəə aşkar şəkildə olmasa da bəzən özlərinin *sərəncam verən* və *icraçı* statuslarını dəyişirlər. Obrazlı şəkildə deyilərsə, *sözə baxmalı* olan təbəə *qanunun aliliyi prinsipi*ni ortaya çıxarmaqla hökmdarı *söz verməyə* məcbur edən vətəndaşa çevrilməyə başlayır. Təbəə sanki hökmdarın *sözündən istifadə* edə bilmək üçün ondan *söz çəkir.* Bir çox hallarda hətta *sözün mənbəyi* də hökmdarda deyil, təbəədə daşınır. Təbəə hökmdardan *söz almağa* cəhd göstərir, onu *söz verməyə* və *sözünün üstündə durmağa* məcbur edir, başqa sözlə ondan *qanunun aliliyi prinsi-*

*pi*ni qəbul etməyi tələb edir. *Qanunun aliliyi prinsipi* əslində *Sözü nə qədər ki deməmisən, ağasısan, dedin qulusan* məsləhətinin hüquqi qüvvəyə mindirilməsidir.

*Hüquqi dövlət* və *konstitusiya* ideyaları isə özlüyündə *qanunun aliliyi* ideyasını müşayiət edirlər. Əgər *hüquqi dövlət* ideyası vətəndaş cəmiyyətini canlı hakimiyyətdən xilas edirsə, konstitusiya ictimai müqavilə mənasını kəsb edir.

*Konstitusiya* vətəndaş cəmiyyəti ilə hakimiyyət arasında özünəməxsus müqavilə kimi formalaşır. Konstitusiyanın mövcud olduğu bütün hallarda siyasi hakimiyyətlə xalq arasında müəyyən bir razılaşma mövcuddur. Ya xalq elə bir hakimiyyəti qurur ki, bu hakimiyyət ondan asılıdır. Ya da hakimiyyət xalqı elə dəyişdirir ki, xalq hakimiyyətlə razılaşmaq məcburiyyətində qalır.

Əgər *qanunun aliliyi, hüquqi dövlət* və *konstitusiya* ideyaları monarxın və Dövlət Şurasının fəaliyyətini məhdudlaşdırırsa, Monarxın və Dövlət Şurasının belə bir məhdud azadlıqla barışması bu ideyaları gerçəkləşdirir və dövlət bununla da, *konstitusiyalı monarxiya* formasını alır.

Monarxın hakimiyyətdən tamamilə kənarlaşdırılması və Dövlət Şurasının ləğv edilməsi ilə isə demokratikləşmə özünün ***dördüncü tarixi addım***ını atmış olur. Parlamentin suverenə çevrilməsi ilə dövlət respublika formasını, daha dəqiq deyilərsə, *parlamentli respublika* formasını alır.

Demokratiyada beləliklə bütövlükdə hərbçi mənşəli olmayan siyasi hakimiyyət formalaşır. Demokratikləşmə prosesində hərbçi ümumiyyətlə öz üzərindəki mülki hakimiyyətin getdikcə daha çox artmasını hiss edir və demokratikləşmə prosesi özünün dördüncü tarixi mərhələsində, Spenserin terminologiyası ilə deyilərsə, *hərbi cəmiyyət*i bütövlükdə *sənaye cəmiyyətin*ə çevirir.

Parlamentin *Xalq Yığıncağı*na doğru təkamülü isə demokratikləşmənin ***beşinci*** və ***sonuncu tarixi addım***ıdır. Suveren statusunun Xalq Yığıncağına məxsusluğu dövlətə klassik mənada *Demokratiya* xarakterini verir.

Parlamentin suveren olduğu siyasi rejimlə *Xalq Yığıncağı*nın suveren olduğu siyasi rejim arasında aralıq element kimi Polibinin *oxlokratiya*[1] adlandırdığı siyasi rejim çıxış edir, o siyasi rejim çıxış edir ki, onu Polibidən əvvəl Aristotel, Polibidən sonra isə Lebon oxlokratiya adlandırmasalar da, ustalıqla təsvir etmişdilər. Xalq Yığıncağının suveren olduğu siyasi rejimin özü qeyri-stabil olduğundan o, bir qayda olaraq oxlokratiya ilə çuğlaşır.

Demokratizmin meydana çıxması və dərinləşməsi hakimiyyətdə və göz qabağında olan aristokratiyanın siyasi qüdrətinin əhəmiyyətli dərəcədə tükənməsi ilə şərtlənir. Demokratikləşmə prosesinin gedişi zamanı bütövlükdə irsən və ruhən zadəgan olmayan, lakin zadəgan rütbələrini əldə edən silki aristokratiya ümumiyyətlə aristokratiya ilə eyniləşdirilir, buna görə də lənətlənir və nifrətlə damğalanır, bir çox hallarda sürgünə, hətta edama belə məruz qalırlar.

Lakin demokratikləşmədə və onunla paralel baş verən inqilabi sarsıntılarda daşınan tarixi zərurət heç də və qətiyyən hakimiyyətin «aristokratiya»dan «xalq»a ötürülməsində deyil, əksinə hakimiyyətin həqiqətən aristokratikləşməsindədir, hakimiyyətdə həqiqi aristokratiya boşluğunun həqiqi aristokratizmlə doldurulmasıdır. İnqilabın sosial təlatümləri təkcə göz qabağında və hakimiyyətdə olan zadəganlıqda həqiqi aristokratizmi üzə çıxarmaqla tamamlanmayıb, həm də gizli, xalqda daşınan və görünməyən, lakin həqiqi olan aristokratizmi aşkarlamaqdır. İnqilabı zəruri edən yeganə əsas məhz budur.

Yeni dövrün burjua inqilabları adlandırılan təlatümlərin əsasını təşkil edən sosial ziddiyyətlərin qütblərində ilkin olaraq heç də burjua və aristokratiya deyil, burjuanı öz himayəsinə almış həqiqi aristokratiya ilə burjuaya düşmən kəsilən və əslində burjua mənşəli

---

[1] *Oxlokratiya* ifadəsi yunan mənşəli *òchlos* və *ktátos* sözlərinin birləşdirilməsindən əmələ gəlib, Azərbaycan dilinə həm hərfi, həm də semantik tərcümədə *güruhun hakimiyyəti* mənasını verir. Belə ki, *òchlos* sözü yunan dilindən tərcümədə *güruh* mənasına, *ktátos* sözü isə *hakimiyyət* mənasına uyğun gəlir.

olan yalançı aristokratiya dururdu. Lakin inqilab onu da sübut etdi ki, aristokratiyanın həqiqiliyinin əsl meyarı heç də ədalətin onun tərəfindən sadəcə olaraq müdafiə edilməsində deyil, həm də ədalətin real olaraq gerçəkləşdirilməsindədir. Bu gerçəkləşdirilməni mümkün edə bilən həqiqi aristokratizm inqilabın əzabları içərisindən doğulmalıdır. Bu doğuluşun baş verib-verməməsindən asılı olaraq, dövlət öz həqiqi mahiyyətinə qayıda da bilər, cəmiyyəti öz ağuşuna alan sosial ziddiyyətlər dərinləşə də bilər. İnqilabdan həqiqi aristokratizm doğulmadıqda, bir tərəfdə aclıq və səfalət, digər tərəfdə isə azğınlıq və ləyaqətsizlik hökm sürür. Xalq ədalətsizlik içərisində boğulur. Siyasi həyatda isə insanlar layiq olduqları mövqelərə yox, daha çox fayda götürə biləcəkləri mövqelərə can atdıqlarından cəmiyyətin təbii nizamı pozulmaqda davam edir.

Antisfen afinalılara eşşəyi at hesab etmələrini məsləhət görür. «Niyə təəccüblənirsiniz, siz səsvermə yolu ilə gədanı sərkərdə etməyə öyrəşməmisinizmi?» – deyərək öz təklifini əsaslandırır.

İnqilabi dövrün demokratik hökuməti son dərəcə qeyri-stabil, zəif və azğındır. Dövlətin stabilləşdirilməsi, gücləndiriləsi və həmçinin də azğınlıqdan müəyyən dərəcədə xilas edilməsi indi artıq iqtisadi cəhətdən ən qüdrətli olan iri sənaye və maliyyə maqnatları vasitəsilə həyata keçirilir, dövlət bu halda **oliqarxiya** formasını alır. Oliqarxiya isə lap başlanğıcdan haqqı ödənilməklə alınan hakimiyyət olsa da, dövlətin oliqarxiya formasını alaraq stabilləşməsi demokratikləşmənin dağıdıcı təmayülünün dayandırılmasını və bütövlükdə inqilabın sonunu şərtləndirir.

## HAQQI ÖDƏNİLMƏKLƏ ALINAN HAKİMİYYƏT: ***OLİQARXİYA***[1]

Oliqarxiya formalaşarkən burjuanı real olaraq öz nəzarətində saxlaya bilən, iqtisadi cəhətdən ən qüdrətli olan iri sənaye və maliyyə maqnatları ilə ordu hissələrini real olaraq öz nəzarətində saxlaya bilən güclü və nüfuzlu komandanlar arasında ilkin olaraq dövlətin yaranması zamanı cəngavər tayfa və kənd icması arasında əldə olunmuş razılaşmaya bənzər razılaşma əldə edilir. Belə bir razılaşma bir çox hallarda həm iri sənaye və maliyyə maqnatlarını, həm də silahlı dəstə başçılarını bir araya gətirə bilən fövqəladə nüfuz sahibinin vasitəçiliyi ilə də əldə edilə bilir. Bu razılaşmaya görə, təhlükəsizliyin təminatı funksiyasını ordu hissələrini öz real nəzarətində saxlaya bilən komandanlar, maddi təminat funksiyasını isə iri maqnatlar öz üzərinə götürür. Həmin razılaşmadan kənarda qalan həm silahlı dəstələrin, həm də maqnatların müqaviməti isə zor gücünə qırılır. Bu razılaşmadan kənarda qalan silahlılar ya döyüş meydanında məhv edilir, ya həbsə atılır, ya da, sadəcə olaraq silahı yerə qoymağa təhrik edilir. Bu razılaşmadan kənarda qalan maqnatlar isə ya iqtisadi sanksiyalara məruz qoyularaq müflisləşdirilir, ya da hüquqi sanksiyalara məruz qoyularaq neytrallaşdırılır,

---

[1] Oliqarxik dövlətin ümimi cizgilərdə təsviri qədim yunanlar – Platon, Aristotel və Polibi tərəfindən verilmişdir. Polibi oliqarxiyanı siyasi sistemin ümumi təkamülü kontekstində təqdim edir və doğru olaraq qeyd edir ki, oliqarxiya aristokratiyanın cırlaşması ilə bağlı meydana çıxır. Lakin, aristokratiyadan oliqarxiyaya keçid Polibidə olduğu kimi bilavasitə deyil, vasitəli şəkildə, politiya və demokratiya kimi aralıq elementləri vasitəsilə, *aristokratiya-politiya-demokratiya-oliqarxiya* zənciri üzrə baş vermişdir.

müsadirə yolu ilə əmlakdan məhrum edilməklə yanaşı, bir çox hallarda həm də həbsə və ya sürgünə, hətta edam olunmaya məhkum edilərək cəmiyyətdən kənarlaşdırılır. İri kapital sahibləri ilə ordu hissələrini öz real nəzarətində saxlaya bilən komandanlar arasında yuxarıda xatırlanan razılaşma mövqeyində duran maqnatlara və silahlı dəstələrə qaldıqda isə, birincilər bu razılaşmaya uyğun şəkildə yeni əsaslar üzərində təşkil edilən hökumətin himayəsi altına alınır, ikincilər, yəni həmin bu razılaşma mövqeyində duran silahlı dəstələr isə bu hökumətin nəzarəti altında olan vahid komandanlığa tabe etdirilir.

Amma ilkin olaraq dövlətin yaranması zamanı cəngavər tayfa və kənd icması arasında əldə olunmuş razılaşma nəticəsində qərarlaşmış birgəyaşayış sistemindən fərqli olaraq, burada üstünlük və suveren statusu təhlükəsizlik funksiyasını yerinə yetirənlərə deyil, əks qütbdə və üçüncü mövqedə dayananlara, yəni maddi təminat funksiyasını yerinə yetirənlərə və barışdırıcıya, bir qədər də konkretləşdirilsə, iri sənaye və maliyyə maqnatlarına və bu maqnatlarla silahlı dəstə başçılarını bir araya gətirə bilən fövqəladə nüfuz sahibinə məxsus olmuş olur.

Buraya belə bir məqamı da əlavə etmək istərdim ki, üstünlük və suveren statusu əldə edən həmin bu tərəflərdən birincilərin həm üstünlüyü və həm də suveren statusu başlanğıc məqamda bir qədər kölgədə qalsa da, əslində daimidir, ikincinin üstünlüyü və suveren statusu isə başlanğıc məqamda bir qədər parlaq görünsə də, müvəqqətidir. İri sənaye və maliyyə maqnatları üstünlük və suveren statusunun daimi daşıyıcıları olaraq həmişə olmasa da, artıq əksər hallarda siyasi hakimiyyətin də əsl faktiki subyekti statusunda çıxış etməyə başlayırlar və tədricən onun əsl subyektinə də çevrilirlər, siyasi hakimiyyətə getdikcə daha cox maqnatların siyasi hakimiyyəti, sözün birbaşa mənasında oliqarxik hakimiyyət xarakterini verirlər. İkincinin üstünlüyü və suveren statusu isə yalnız o halda daimi ola bilir ki, onun özü də bir maqnatın malik olduğu iqtisadi baza əldə etmiş olur, onun özü də bir maqnat qüdrətini kəsb etmiş olur. Bu halda o, maqnatlar içərisində ən parlağı və ən qüdrətlisi olur.

Aristokratik hakimiyyətin subyektləri tarixən aristokrat adlandırıldıqları kimi oliqarxik hakimiyyətin subyektləri də bir sıra hallarda oliqarxlar adlandırılırlar. Heç də təsadüfi deyildir ki, oliqarxik hakimiyyətdə əslində suveren rolunda çıxış edən sənaye və maliyyə maqnatlarının özləri də bəzən sənaye və ya maliyyə oliqarxları və ya sadəcə olaraq elə bir qədər öncə vurğulandığı kimi oliqarxlar adlandırılır.

Aristokratiyanın başlıca siması zadəgan, tiraniyanın başlıca siması tiran, monarxiyanın başlıca siması monarx, politiyanın başlıca siması məmur, demokratiyanın başlıca siması tacir olduğu kimi, oliqarxiyanın da başlıca siması iri sənaye və maliyyə oliqarxlarıdır.

Əgər **aristokratiya dövrü** insanların bir qisminin özlərini cəmiyyəti zorakılıqdan xilas etmək missiyasının daşıyıcıları kimi, insanların digər qisminin isə özlərini birincilərin qüdrəti sayəsində zorakılıqdan xilas edilmiş kimi hiss və dərk etmələri əsasında qurulan hakimiyyətin xilaskarlıq resursları tükənincəyə qədər, bu resursların zorakılıq reallıqlarını üstələməsi şəraitində və ölçüsündə cəmiyyətdə baş verən gur inkişaf ilə yanaşı, aristokratiya dövrü digər tərəfdən həm də sosial özünüdərkin məxsusi bədii ifadə formalarının, *cəngavər turnirləri*nin və *rəqs*in[1] gur inkişafı ilə də xarakterizə oluna bilirsə, əgər **tiraniya dövrü** vahid personal başlanğıcın

---

[1]Daha dəqiq deyilərsə, aristokratiya dövründə hakimiyyət sahibləri üçün, özlərini cəmiyyəti zorakılıqdan xilas etmək missiyasının daşıyıcıları kimi hiss və dərk edənlər üçün səciyyəvi olan özünüifadənin başlıca bədii forması kimi *cəngavər turnirləri* və birincilərin himayəsi altında özlərini zorakılıqdan xilas edilmiş kimi hiss edən ikincilərin sosial özünüdərkinin başlıca bədii ifadə forması kimi isə ən müxtəlif variasiyalarda *rəqs* çıxış edirdi. Əgər cəngavər turnirləri tarix meydanına insanın öz qüdrətini nümayiş etdirmək vasitəsi kimi çıxmışsa, rəqs tarixi olaraq insanın özünü bəyəndirmə vasitəsi, özünü sevdirmə, qarşısındakının rəğbətini qazanma vasitəsi kimi yaranmışdır, xüsusən himayə olunanın himayə edən qarşısında.

mütləqləşdirilməsi əsasında cəmiyyət həyatının ümumən canlanması, bütövlükdə cəmiyyətin vahid başlanğıcdan idarə olunan sanki bir sosial orqanizm məzmununu kəsb etməsi və personal başlanğıcın intelletual və iradi resursları tükənincəyə qədər cəmiyyətin bu zəmində gur funksinal inkişafı ilə yanaşı, digər tərəfdən həm də sosial özünüdərkin bədii ifadə formaları kimi *poeziyanın* və *musiqinin,* xüsusən də *melodiyanın* gur inkişafı ilə də xarakterizə oluna bilirsə, əgər **monarxiya dövrü** dövlətə xidmətin artıq yalnız canlı tabeçilik qaydasında deyil, eyni zamanda təsisatlar və təyinatlar qaydası ilə aparılması ilə yanaşı, digər tərəfdən həm də sosial özünüdərkin bədii ifadə forması kimi cəmiyyətin ümumi həyatında *dramın*, xüsusən də *faciənin* geniş yer alması və gur inkişafı ilə də xarakterizə oluna bilirsə, əgər **politiya dövrü** dövlətə xidmətin dövlətdən hakimiyyət payı alınması ilə yanaşı, digər tərəfdən həm də sosial özünüdərkin bədii ifadə forması kimi *prozanın və təsviri incəsənətin,* xüsusən də *portret* və *mənzərə janrlarının* gur inkişafı ilə də xarakterizə oluna bilirsə, əgər **demokratiya dövrü** insanlar üzərində siyasi hakimiyyət əldə etmənin hakimiyyətin zorakı yolla ələ alınması ilə deyil, hakimiyyətin irsən keçməsi yolu ilə deyil, eləcə də hakimiyyət sahibindən hakimiyyət payı alınması, yəni təyinat yolu ilə deyil, seçki yolu ilə baş tutması ilə yanaşı, digər tərəfdən həm də sosial özünüdərkin bədii ifadə formaları kimi əvvəlki siyasi rejimlərin ön plana çıxardıqları bədii formalarının əksliklərinin – *sirkin, klounadanın*, *buffonadanın*, *satiranın, komediyanın, lətifənin, karikaturanın*, daha konkret deyilərsə, cəngavər turnirlərinin və rəqsin əkslikləri kimi *sirkin* və *klounadanın*, melodiyanın əksliyi kimi *buffonadanın*, poeziyanın əksliyi kimi *satiranın,* dramın və faciənin əksliyi kimi *komediyanın,* prozanın əksliyi kimi *lətifənin,* idealın obrazını yaradan təsviri incəsənət formalarının - portret və mənzərə janrlarının əksliyi kimi *karikaturanın* və eləcə də onlarla paralel həm də siyasi aktivliyin, hüququn və qanun yaradıcılığının gur inkişafı ilə də xarakterizə oluna bilirsə, əgər **oliqarxiya dövrü** sənayenin gur inkişafı və maliyyə kütlələrinin sürətli axını ilə yanaşı, həm də bir tərəfdən, sosial özünüdərkin bədii ifadə

forması kimi *arxitekturanın və şəhərsalmanın* və digər tərəfdən, elmin və texnikanın *gur inkişafı ilə də xarakterizə oluna bilər.*

Texnikanın inkişafının oliqarxiya dövründə son dərəcə yüksək səviyyəyə gəlib yetişməsi görünür heç də təsadüfi deyildir. Çünki texnikanın özü əslində təbiətin insan iradəsinə, insan hökmünə tabe etdirilmiş hissəsidir. Oliqarx təkcə digər insanlar, digər vətəndaşlar üzərində deyil, həm də hətta təbiətin özü üzərində də müəyyən hakimiyyətə malik olur. Üstəlik oliqarx digər insanları həmin bu texnikanın əlavəsinə çevirərək onlar üzərində əlavə hakimiyyətə də malik olmuş olur.

Bu fikirlərin bir qədər geniş izahını verməyə çalışaq. Təbəəlikdən vətəndaşlığa doğru, sonradan isə vətəndaşlıq şüurunun dərinləşməsi istiqamətində baş verən tarixi prosesdə şəhərli özünün nəinki cəmiyyətdəki rolunu, hətta bir insan olaraq Kainatdakı rolunu belə yenidən mənalandırmağa başlayır. Oliqarxiyada vətəndaş özünün doğma əvəz prinsipinin tətbiqi üçün cəmiyyətdən və dövlətdən də daha geniş meydan axtarır və belə bir meydanı əslində bütün Kainatın timsalında tapır. Əvəz prinsipi Kainat miqyasına tətbiq edilərkən ümumiləşir, *determinizm prinsipi* formasını alır. Əgər şəhərli həyat tərzinin ən mühüm elementi olan əvəz prinsipi əvvəlcə adi insan münasibətlərinin əsasına qoyulursa və sonradan mühüm siyasi prinsipə, *qanunun aliliyi prinsipi*nə çevrilirsə, daha sonra bütün Kainatın ontoloji əsasına bağlanaraq qavranılır. Qanun kultu üzərində qurulmuş klassik – deterministik – elm şəhər mədəniyyətinin mütləq bilik tipi mənasını kəsb edir. Unutmaq olmaz ki, təbiət qanunlarını öyrənmək əslində bu qanunlardan istifadə edərək təbiətin özü üzərində hökmran olmaq məqsədinə də xidmət edir. Əgər hüquqi qanunlar həm də dövləti vətəndaşa tabe etdirmək vasitəsi kimi qavranılırsa, təbiət qanunları həm də təbiəti insana tabe etdirmək vasitəsi kimi qavranılır. Oliqarxlar isə təbiəti özlərinə tabe etdirmək istəyən insanların birinciləri sırasındadırlar. Təbiət insan iradəsinin vasitəsinə, daha doğrusu, süni vasitəsinə, yəni texnikaya çevrildikdən sonra, həmin texnikanın özü də oliqarxın cəmiyyət üzərində üstünlüyünün əlavə vasitəsinə çevrilir. Oliqarxiyada siyasi

hakimiyyətin subyektinin siyasi hakimiyyətin obyekti üzərindəki nəzarəti, üstünlüyü, artıq yalnız dövlət maşınının vasitəçiliyi ilə deyil, həm də mexaniki maşının vasitəçiliyi ilə həyata keçirilir.

Oliqarxiyada siyasi hakimiyyətin formal subyekti onun faktiki subyektindən fərqlidir, burada eləcə də siyasi hakimiyyətin formal obyekti də onun faktiki obyektindən fərqlənir, əvvəlcə bir qədər, sonra isə əsaslı surətdə.

Sözün geniş mənasında oliqarxiya sistemində siyasi hakimiyyətin faktiki subyekti olaraq iri sənaye və maliyyə maqnatları, faktiki obyekti olaraq isə, əsas etibarı ilə muzdlu işçi çıxış edir, özü də burada söhbət marksizmdə olduğu kumu yalnız kapitalistdən və muzdlu fəhlədən getmir, ümumiyyətlə iri sənaye və ya maliyyə maqnatından və ümumiyyətlə muzdlu işçidən gedir. Bununla belə, marksizmin bütövlükdə dövlətə aid etdiyi səciyyə, yəni dövlətin istismarçının istismar olunan üzərində hakimiyyət aparatı kimi səciyyəsi oliqarxiyaya münasibətdə özünü demək olar ki, tam şəkildə doğruldur və tam çılpaq bir şəkildə də özünü büruzə verir. Siyasətin iqtisadi baza üzərində üstqurum olması barədə marksist müddəa da oliqarxiyanın ruhuna son dərəcə uyğundur.

İri sənaye və maliyyə maqnatları arasındakı həm iqtisadi mübarizə, həm də onların öz aralarında əldə etdikləri razılaşmalar oliqarxik dövlətin bu və ya digər transformasiyasını şərtləndirir. Sərt siyasi rejimdən tutmuş yumşaq siyasi rejimə qədər, dövlətin ərazisinin genişləndirilməsindən tutmuş parçalanmasına qədər, özgə dövlətləri öz dövlətinin təsir dairəsinə salınmasından tutmuş öz dövlətini özgə dövlətlərin təsir dairəsinə salınmasına qədər, özgə dövlətlərdə dövlət çevrilişlərinə, separatizmə və milli-azadlıq hərəkatlarına təhrik etmədən tutmuş onların mövcud siyasi hakimiyyətlərinin möhkəmləndirilməsinə, separatizmin qarşısının alınmasına və milli-azadlıq hərəkatlarının boğulmasına dəstək göstərməyə qədər geniş diapazonlu siyasi gerçəkliklər öz əksini həmin bu transformasiyada tapır.

Digər tərəfdən, maqnatlar dövlət vergisinin çox hissəsini ödəyən kəslər olmaqla, dövlət hakimiyyətinin vergilər hesabına maliy-

yələşdirildiyi faktına söykənərək hakimiyyətin onların ödədikləri vergilər hesabına mövcud olması qənaətindədirlər, və bu əsasda da hətta dövlət hakimiyyətini özlərinin müəyyən dərəcədə xüsusi mülkiyyəti kimi, dövlət hakimiyyətinin nümayəndələrini isə özlərinin muzdlu işçiləri kimi belə təsəvvür edirlər, üstəlik bir sıra hallarda bunu yalnız təsəvvürdə deyil, həm də gerçəklikdə, əməldə də edirlər.

Hüquqi olaraq ümumiyyətlə vətəndaşın siyasi hakimiyyətinin obyekti statusunda[1] qalan dövlət aparatı oliqarxiyada artıq məhz bu transformasiyanın həyata keçirilməsi üçün iri sənaye və maliyyə maqnatlarının ixtiyarında bir alətə çevrilir, maqnatların əldə etdikləri iqtisadi status, yəni maqnatların maqnat olmayanlar üzərində iqtisadi hakimiyyəti, bir qədər də sadələşdirilmiş şəkildə deyilərsə, maqnat olmayanların ehtiyaclarının ödəmə vasitələrinin maqnat olanların əlində toplanması nəticəsində maqnatların həm dövlət hakimiyyəti orqanlarına seçkilərdə faktiki olaraq maqnatların mənafeyi mövqeyində dayanan namizədlərin seçki kompaniyasını sərəncamlarında olan maliyyə resurları ilə və inhisarlarında saxladıqları iri informasiya şəbəkələri vasitəsilə dəstəkləməklə bu namizədlərin dövlət hakimiyyəti orqanlarına seçilməsinə nail olmaq yolu ilə, həm də mövcud hakimiyyətdə təmsil olunan dövlət məmurlarının ələ alınması, korrupsiya yolu ilə maqnatların nail olduqları siyasi status, siyasi hakimiyyətinin faktiki subyekti statusu getdikcə artmaqda olan templə inkişaf edir. Maqnat olmayan vətəndaş isə siyasi hakimiyyətinin yalnız formal subyekti ola bilir.

Maqnat olmayan vətəndaş burada siyasi hakimiyyətin ona görə yalnız formal subyektidir ki, siyasi hakimiyyətin faktiki subyekti statusu oliqarx tərəfindən mənimsənilmişdir. Oliqarx olmayan vətəndaş bu dövr üçün siyasətdən daha mühüm olan sferada, iqtisadi sferada oliqarxın muzdlu işçisi olduğundan, siyasi olaraq da dolayısı

[1] Dövlət aparatının hüquqi olaraq vətəndaşın siyasi hakimiyyətinin obyekti mənasında anlaşılması oliqarxiyaya demokratiyadan bir miras olaraq keçir.

ilə onun iradəsinin icraçısı olmaq yönümündə köklənmiş olur. Burada dövlət aparatı hüquqi olaraq ümumiyyətlə vətəndaşın iradəsinin icraçısı olduğu halda, faktiki olaraq maqnatların iradəsinin icraçısı olur. Elə buradan da görünür ki, oliqarxiya üsul-idarəsində oliqarx olan kəs oliqarx olmayan kəsdən daha artıq dərəcədə vətəndaşdır və deməli ki, dövlət aparatı üzərində də daha çox hüquqa malikdir və eləcə də qanun yaradıcılığı təşəbbüsündə olmaq da daha artıq dərəcədə onun imtiyazlarına aiddir.

Maqnatlar qanun yaradıcılığı üzərində üstünlük əldə etməklə dövləti özlərinə leqal yolla tabe etdirə bilirlər və bunun üçün də öz imkanlarından məharətlə istifadə edərək parlamentin həm formalaşmasına, həm də fəaliyyətinə güclü təsir göstərirlər və öz təsir imkanlarını daimi olaraq genişləndirirlər. Onlar dövləti bilavasitə idarə etmək öhdəliyini öz üzərilərinə götürməsələr də, hər şeydən öncə parlament vasitəsilə siyasətə iqtisadi təsir mexanizmlərini həyata keçirirlər və bununla da bütövlükdə dövlət strukturlarının fəaliyyətini öz nəzarəti altına almaq imkanı əldə edə bilirlər və bu fəaliyyəti nəzarət altında saxlaya bilirlər. İri sənaye və maliyyə maqnatları malik olduqları maliyyə resursları vasitəsi ilə müəyyən siyasi partiyaları, siyasi institutları, siyasi rejimləri, siyasi kampaniyaları, siyasi aksiyaları, informasiya vasitələrini, deputat qruplarını maliyyələşdirə bilirlər və məhz bu yolla leqal bir şəkildə hakimiyyətin fəaliyyətini istiqamətləndirə bilirlər və istiqamətləndirirlər. Maqnatlar parlamentə və parlamentdə öz təsir imkanlarını genişləndirdikcə isə parlament əslində iri sənaye maqnatlarının iradəsinin getdikcə daha artıq dərəcədə ifadəçisi olur.

Üstəlik, hakimlərin əhali tərəfindən seçilməsi prinsipi iri sənaye və maliyyə maqnatlarına dövlətin yalnız idarəetmə funksiyası və qanunvericilik funksiyası üzərində deyil, həm də cəza funksiyası üzərində də güclü təsir imkanlarına malik olmaq üstünlüyünü verir. Nəticədə idarəetmə və qanunvericilik hakimiyyətləri ilə yanaşı, həm də məhkəmə hakimiyyətinin başlıca məzmununun, tərkibinin və istiqamətinin müəyyənləşdirilməsi hüququ formal olaraq ümumiyyətlə vətəndaşa, faktiki olaraq isə, müstəsna hüquqlu vətəndaşa, yə-

ni iri sənaye və maliyyə maqnatına mənsub olur, maqnatlar hakimiyyətin hər üç qolunun demək olar ki, tam hüquqlu subyekti kimi çıxış etmiş olurlar.

Əvəz prinsipini fəaliyyətinin başlıca aləti edən maqnat haqqını ödəməklə siyasi hakimiyyətin hamısını olmasa da, böyük bir hissəsini əslində almış olur. Oliqarxiya elə buna görə də, bir siyasi sistem olaraq mahiyyət etibarı ilə haqqı ödənilməklə alınan hakimiyyətdir.

Əvəz prinsipini fəaliyyətlərinin başlıca aləti olaraq tətbiq etməklə maqnatların bütövlükdə siyasi hakimiyyəti özlərinə tabe etdirmə üsullarından ən mühümləri isə əlbəttə ki, korrupsiya yolu ilə idarəetmə hakimiyyəti üzərində üstünlük əldə etmələri və seçkilərtin maliyyələşdirilməsində aktiv iştirak etməklə həm qanun yaradıcılığı üzərində, həm də məhkəmə hakimiyyətinin əsas tərkibinin müəyyənləşdirilməsində təşəbbüsü ələ almalarıdır.

Elə bu səbəblərdəndir ki, maqnatların siyasi hakimiyyət üzərində üstünlüyünün azaldılması da iki yolla – dövlətin effektiv antikorrupsiya fəaliyyəti ilə və davamlı antiinhisar siyasəti ilə - baş verir. Dövlətin antikorrupsiya fəaliyyəti və antiinhisar siyasəti oliqarxiyanın kəskinliyini azaldır, amma onun mənfiliklərini bütövlükdə aradan qaldırmır. Burada parlament bütövlükdə əlbəttə ki yalnız maqnatlarının iradəsini ifadə edənlərdən ibarət olmur, maqnatların iradəsini ifadə edənlərin burada üstünlük təşkil etdiyini desək, bu, daha doğru olar.

Qərb dövlətləri XIX əsrin ikinci yarısından başlayaraq mahiyyət etibarı ilə oliqarxik xarakter daşımışlar. Burada real hakimiyyətin mənbəyi rolunda Rokfellerlərin, Mellonların, Rotşildlərin, Morganların və digər iri maqnatların çıxış etməsi faktı heç vaxt ciddi olaraq şübhə altına alınmamışdır.

Lakin, müasir dünyada oliqarxik siyasi sistemin mənfilikləri təbii XIX əsrdə və ya XX əsrin başlanğıcında olduğu kimi kəskin deyildir. Görünür həm də bununla əlaqədardır ki, müasir oliqarxik siyasi sistem özünü heç də olduğu kimi, yəni oliqarxik sistem kimi tanıtmaq istəmir, özünü öz adı ilə, yəni oliqarxiya adı ilə, yaxud qədimlərdə işlənildiyi kimi, timoktatiya adı ilə adlandırmaq və bu

adla tanınmaq istəmir, özünü oliqarxiya adı ilə deyil, başqa adlarla, əsasən ***respublika***, və ya demokratik respublika adları ilə tanıdır, oliqarxik sistem kimi deyil, demokratik sistem kimi özünü səciyyələndirir.

Oliqarxiya respublika kimi səciyyələndirildiyi halda, onun təbii inkişafında yer alan iki mərhələ, yəni *parlamentli respublika* və *prezidentli respublika* mərhələləri çox maraqlı cizgilərlə bir-birindən fərqlənir. Ona görə maraqlı cizgilərlə ki, burada mətləb heç də ilk baxışda təsəvvür oluna biləcəyi kimi deyildir, və həmçinin ümumən qəbul olunmuş izah çərçivələri daxilində də deyildir, parlamentli respublika ilə prezidentli respublika arasındakı fərqin ümumən qəbul olunmuş izahının əsasən doğru olmasına baxmayaraq. Belə ki, həmin izahda parlamentli respublikanın prezidentli respublikadan fərqi heç də prezident institutunun bu mərhələlərin birində olmasında, digərində isə guya olmamasında axtarılmır, oliqarxiya bir siyasi sistem olaraq hətta prezident təsisatının siyasi gerçəklikdə yer aldığı halda da parlamentli respublika statusunda ola bilir və üstəlik prezidentli respublika heç də bütün hallarda prezident institutunun təsis edilməsi ilə başlamır, bəzən və bəlkə də bir çox hallarda prezident institutunun təsis edilməsindən fərqli bir zamanda başlayır. Parlamentli respublikanın prezidentli respublikadan fərqinin ümumən qəbul olunmuş izah çərçivələri daxilində öz tam ifadəsini tapa bilməməsinə qaldıqda isə, bununla bağlı belə bir məqamı vurğulamaq kifayətdir ki, parlamentli respublikada prezidentin səlahiyyətləri yalnız dövlət başçısı adını daşımaqla və yaradılacaq hökumətə başçılıq etmək üçün baş nazir postuna namizədin irəli sürülməsi ilə və hətta parlament etimadsızlıq votumu ifadə etməklə hökuməti istefaya göndərmək barədə qərar qəbul etdiyi halda hökumətin təklifi ilə parlamentin özünü buraxmaq və vaxtından əvvəl seçkilər elan etmək hüququ ilə tamamlanmır. Parlamentli respublikada prezidentin statusunu müəyyən edən səlahiyyətlər bütün bunlardan daha çoxdur, və burada sadalanmayan səlahiyyətlərdən biri isə burada sadalananların hamısından əslində daha mühümdür.

Həmin bu səlahiyyətin nədən ibarət olduğuna və nə üçün olduğuna diqqət yetirək.

Parlamentin suveren rolunda çıxış etdiyi istənilən dövlətdə təhlükəsizlik üçün həmişə hədə vardır. Çoxadamlı və çoxsəsli parlament suveren statusunda olduqda faktiki olaraq təhlükəsizliyin qarantı ola bilmir və ***prezident*** institutunu da əslində elə bu səbəbdən, təhlükəsizliyin etibarlı qarantı olaraq, bütün silahlı qüvvələr üzərində ali baş komandan səlahiyyətləri ilə təsis edir.

Prezident institutunu təsis etməklə oliqarxik sistem müəyyən mənada ənənəvi monarx statusunu bərpa etmiş olur. Lakin, monarxın ənənəvi olaraq, monarxiyada malik olduğu status prezidentin oliqarxiyada malik olduğu statusdan prinsipial olaraq fərqlənir. Monarxiyada monarxın malik olduğu hakimiyyət mütləq və müddətsiz, oliqarxiyada prezidentin malik olduğu hakimiyyət isə nisbi və müddətlidir. Bu meyarlar, yəni mütləqlik və müddət meyarları baxımından, monarxiyada monarxın malik olduğu status oliqarxiyada oliqarxların malik olduğu statusa yaxındır. Lakin dövlətdə birinci şəxs olmaq, üstəlik həm də bütün silahlı qüvvələrin komandanı olmaq meyarları baxımından, monarxın monarxiyada malik olduğu status prezidentin oliqarxiyada malik olduğu statusa həqiqətən də yaxındır.

Amma bu da bir həqiqətdir ki, oliqarxiyada iri maqnatlara mənsub olan hakimiyyət mütləq və müddətsiz, prezidentə mənsub olan hakimiyyət isə nisbi və müddətli olduğundan, maqnatların hakimiyyəti sülaləvi, prezidentin hakimiyyəti isə seçkili və müvəqqəti xarakter daşıyır.

Lakin, prezident institutunu formalaşdırmaqla oliqarxik sistem ümumiyyətlə dövlətin təhlükəsizliyini möhkəmlətsə də, dövləti daha dayanıqlı etsə də, özünün bir siyasi sistem olaraq sonunun başlanğıcını qoymuş olur. *Parlamentli respublikadan prezidentli respublikaya keçid* isə oliqarxik sistemin öz sonuna doğru irəliləyişində növbəti addım olur.

Belə ki, prezident tarix meydanına təhlükəsizliyin qarantı kimi çıxdığından, təhlükəsizliyin qarantı statusunda ölkənin bütün silahlı

qüvvələri üzərində ali baş komandan səlahiyyətlərinə malik olması son dərəcə ciddi bir amil olaraq ona əslində hökumətin də, elə parlamentin də fövqünə yüksəlmək imkanını verir. Onun hökumətin fövqünə yüksəlişi parlamentli respublikadan prezidentli respublikaya keçidin faktiki şərti, parlamentin fövqünə yüksəlişi isə bu keçidin hüquqi şərti olur. Prezident dövlətin mülki işlərinin idarə olunmasında başlıca sima olan baş nazir üzərində üstünlük əldə etdikdə dövlət *parlamentli respublika*dan *prezidentli respublika*ya əslində artıq transformasiya etmiş olur. Bu halda prezidentin siyasi statusu əhəmiyyətli dərəcədə artır. Onun parlamentin fövqünə yüksəlişi, yəni prezidentin parlament tərəfindən deyil, xalq tərəfindən, ümumxalq seçkiləri əsasında seçilməsi artıq baş vermiş bu transformasiyanı yalnız leqallaşdırır.

Dövlətin parlamentli respublikadan prezidentli respublikaya transformasiya etməsi ilə prezident politiyada hökmdar statusunu xatırladan hakimiyyət sahibliyindən, klassik monarxiyada monarx statusunu xatırladan hakimiyyət sahibliyinə yüksəlir. Əgər parlamentli respublikada prezidentin siyasi statusu ənənəvi olaraq mütləq monarxiya adlandırılan politiyada hökmdarın malik olduğu siyasi statusuna yaxındırsa, onun prezidentli respublikada siyasi statusu hökmdarın klassik monarxiyada malik olduğu siyasi statusa yaxındır.

Prezidentli respublika elə bu əsasda da hər an monarxiyaya dönüş edə bilir. Əgər bunu həyata keçirmək inamını və imkanını özündə yaşadan insan ölkənin təhlükəsizliyini və firavanlığını uzun illər ərzində təmin etmək üçün kifayət edəcək qədər aristokratik resursları da özündə bir genetik kod olaraq yaşadırsa, bu, birmənalı olaraq yaxşı haldır, yox əgər ölkənin və xalqın təhlükəsizliyini və firavanlığını təmin etmək üçün kifayət edəcək qədər aristokratik resurslara malik deyildirsə, bu, birmənalı olaraq qarşısı alınmalı olan bir haldır.

Amma bu da bir danılmaz həqiqətdir ki, prezidentli respublika klassik monarxiya ilə respublikanın klassik tipi, yəni parlamentli respublika arasında aralıq mövqe tutur.

Prezidentli respublika ideyası və gerçəkliyi özü-özlüyündə respublikanın klassik tipi olan parlamentli respublikanın xarakteristikasında son dərəcə səciyyəvi və mühüm yer tutan parlamentarizm prinsipinin üstündən inamla qələm çəkir. Parlamentarizm bir prinsip olaraq prezidentli respublikanın xarakteristikasında əslində yoxdur, hakimiyyət bölgüsünün həmin məşhur prinsipi burada öz qüvvəsini və mənasını əslində itirir.

Hakimiyyətin parlamentarizm prinsipi əsasında bölgüsü yalnız parlamentli respublikada tam həcmdə həyata keçirilə bilir, yəni parlamentin hökumət üzərində üstünlüyü və məhkəmə orqanlarının icra hakimiyyətindən asılı olmaması yalnız burada təmin edilə bilir. Baş nazirin rəhbərlik etdiyi bütün hökumət burada parlamentin nəzarəti altındadır, parlamentə hesabat verir, baş nazir hökumətin başçısı olmaqla və deməli ki, icra hakimiyyəti[1] təmsilçisi olmaqla qanunverici hakimiyyətdən (parlamentdən) tam şəkildə asılıdır. Burada hökumətə bilavasitə rəhbərlik edən baş nazirlə yanaşı həmçinin prezident də tamamilə əsaslandırılmış bir şəkildə icra hakimiyyətinə aid edilir, dövlətin bilavasitə idarə olunmasından əslində kənarda qalsa da, parlament qarşısında məsul olan və ona hesabat verən baş nazir kimi o da parlament tərəfindən təyin edilir, parlamentin nəzarəti altında olur və parlament qarşısında hesabat verir. Məhkəmə orqanları burada həm hökumətdən, həm də prezidentdən müstəqil olmaqla icra hakimiyyətindən asılı deyildir.

Prezidentli respublika üçün səciyyəvi olan hakimiyyət bölgüsü isə parlamentli respublika üçün xarakterik olan hakimiyyət bölgüsü kimi deyildir, hər şeydən öncə məhz o səbəbdən ki, prezidentli

---

[1] Ənənəvi olaraq, icra hakimiyyəti kimi səciyyələndirilən hakimiyyət formasının *icra hakimiyyəti* kimi deyil, *idarəetmə hakimiyyəti* kimi səciyyələndirilməsinə mən üstünlük verərdim. Belə ki, hakimiyyətin bu formasının fəaliyyət sferası yalnız qanunverici hakimiyyətin qəbul etdiyi qanunların və qərarların icra edilməsi ilə məhdudlaşmır, həm də həmin qanunlarda təsbit olunan qadağalar çərçivəsində müstəqil qərarlar qəbul etmək, dövləti və cəmiyyəti həm də özünün qəbul etdiyi bu qərarlar əsasında idarə etmək funksiyasını özündə ehtiva edir.

respublika parlamentarizm prinsipinin tələblərinə cavab vermir. Hər şeydən öncə ona görə ki, prezidentli respublikada prezident parlamentin nəzarəti altında deyildir. Əksinə, burada prezident sözün yalnız simvolik mənasında deyil, həm də həqiqi mənasında dövlət başçısı olmaqla, əslində bütün dövlətin başçısıdır, o cümlədən də onun qanunvericilik qolunun, parlamentin. Bu, ən azı iki səbəb ucbatından belədir. Birinci və başlıca səbəb odur ki, parlamenti təşkil edən hər bir deputat müəyyən regionun əhalisi tərəfindən seçilir və həmin region əhalisinin iradəsinin ifadəçisi olmalıdır, prezident isə bütün əhali, bütün xalq tərəfindən seçilir və buna görə də bütün əhalinin, bütün xalqın iradəsini ifadə etməyə təyinatlıdır. Demokratiyanın öz prinsipinə görə, bütün xalqın iradəsi əhalinin müəyyən hissəsinin iradəsi fövqündə durduğundan prezident ayrılıqda hər bir deputatın və deməli ki, bütövlükdə elə parlamentin də fövqündə durmalıdır. İkinci səbəb isə odur ki, prezident burada qanunvericilik təşəbbüsü hüququnun əslində başlıca subyekti olduğundan, qanunverici hakimiyyətin də əslində başlıca subyekti olmuş olur.

Prezidentli respublikada prezident ümumiyyətlə dövlətin başçısı olmaqla həm də məhkəmə hakimiyyətinin fövqündədir. Əvvəla, ona görə ki, burada hakimləri prezident təyin edir və prezident də onları vəzifəsindən kənarlaşdırır. İkincisi, ona görə ki, məhkəmə hakimiyyətinin maliyyələşdirilməsinin forma və miqdarının müəyyənləşdirilməsi faktiki olaraq prezidentin preroqativlərinə aiddir. Üçüncüsü, prezidentin bağışlama və amnistiya hüququ onun təkcə qanunverici hakimiyyətin fövqündə deyil, həm də, məhkəmə hakimiyyətinin fövqündə durduğuna daha inandırıcı bir işarədir.

Prezidentli respublikada elə buna görə də, prezidentin yalnız icra hakimiyyətinin başçısı hesab edilməsi qətiyyən düzgün deyildir. Prezident burada həm sözün simvolik mənasında, həm də həqiqi mənasında dövlət başçısıdır, deməli ki, bütün dövlətin başçısıdır, dövlət idarəetmə funksiyasının ifadəçisi olduqda da, qanunvericilik funksiyasının ifadəçisi olduqda da, cəzavermə funksiyasının ifadəçisi olduqda da onun başçısıdır.

Əgər parlamentli respublikanın son dərəcə mühüm dəyər verdiyi parlament tarixən vətəndaş cəmiyyətinin hakimiyyətlə ortaq məxrəcə gəlmə məkanı kimi yaranırsa, prezidentli respublikada prezident parlamentin fövqündə durmaqla həm də vətəndaş cəmiyyəti ilə hakimiyyətin vahid bir millət olaraq orqanik bir topluma çevrilməsində mühüm rol oynaya bilir.

Bir daha o məqamın üzərinə qayıtmaq istərdim ki, oliqarxiya bir siyasi sistem olaraq özünü əslində olduğu kimi, yəni oliqarxik sistem kimi deyil, demokratik sistem kimi səciyyələndirir. Bu halda demokratiyanın əsas prinsipi olaraq isə hakimiyyətin, ilk növbədə isə parlamentin seçkili olması şərti nəzərdə tutulur.

Parlamentin oliqarxik sistemdəki siyasi statusu onun demokratik sistemdəki siyasi statusunu doğrudan da xatırladır, amma bu xatırlatma daha çox imitasiya xarakterini daşıyır. Parlamentin oliqarxik sistemdəki siyasi statusu öz mahiyyəti etibarı ilə onun daha çox politiya sistemindəki siyasi statusuna yaxındır. Politiyada hökmdara məxsus olan rol isə oliqarxiyada əlbəttə ki, oliqarxlara məxsusdur.

Oliqarxiya bəzən təkcə demokratik hakimiyyət strukturlarını deyil, həmçinin həm də aristokratik hakimiyyət strukturlarını da imitasiya edir. **Senat**ın hakimiyyət strukturu olaraq yenidən meydana gəlməsi də aristokratik təsisatın bir imitasiyası olaraq qiymətləndirilə bilər, aristokratik təsisatın ona görə bir imitasiyası olaraq ki, senat indi varisi olduğu tarixi qurumun hüquqi səlahiyyətlərini demək olar ki bütövlükdə mənimsəsə də, onun aristokratik təsisat olması ən azı birmənalı deyildir.

Senatın yenidən meydana gəlməsi ilə parlamentin öncə malik olduğu hüquqi səlahiyyətlərin çox və daha mühüm hissəsi bir sıra digər səlahiyyətlər də əlavə edilməklə indi Senata aid edilir və Senat **parlamentin yuxarı palatası statusunu** kəsb edir. Parlamentin öncə malik olduğu səlahiyyətlərin qalan hissəsinin hüquqi subyekti olmaq üçün isə bu səlahiyyətlərin onun tərəfindən həyata keçirilməsinə bir sıra məhdudiyyətlər də qoyulmaqla **parlamentin aşağı palatası** təsis edilir və bu aşağı palata **nümayəndələr palatası** adı ilə adlandırılır.

Nümayəndələr palatası təsis olunarkən bu palatanı təşkil edəcək kəslərə ilkin olaraq **xalqın nümayəndəsi** mənası verilir, ən azı rəsmi səviyyədə. Bu bir faktdır, və mən bunu qətiyyən inkar etmək fikrində deyiləm. Amma mən buraya belə bir faktın da konstatasiyasını əlavə etməyi zəruri hesab edirəm ki, oliqarxiyanın tarix meydanına çıxması ilə xalq adından təkliflər vermək və ideyalar irəli sürmək imkanına real olaraq xalqın heç də sıravi nümayəndəsi deyil, böyük maliyyə resurslarına malik oliqarx tərəfindən dəstəklənən nümayəndəsi sahib ola bilir. Bu səbəbdən də oliqarxiyanın bir siyasi sistem olaraq təbii təkamülü prosesində xalqın nümayəndəsi tədricən əslində **oliqarxın nümayəndəsi** olur, xalqın qanun sifarişçisi hüquqi statusu, imtiyazları və səlahiyyətləri də əslində əsasən elə oliqarxa aid olur, qanun sifarişçisinin hüquqi statusu olmasa da, imtiyazları və səlahiyyətləri bütövlükdə oliqarxa məxsus olur.

Parlamentin yuxarı palatası, Senat təsis olunduğu ilk zamanlarda oliqarxlararası razılaşmaların əldə edilməsi üçün rəsmi məkan statusunda olmuşdur. Bu baxımdan Senatın təsis olunması oliqarxların qeyri-rəsmi toplantılarına rəsmi status verilməsi kimi də dəyərləndirilə bilər. Oliqarxlar burada kardinal məsələlər ətrafında rəsmi razılaşmalara nail olmuşlar.

Senat təsis olunduğu ilk zamanlarda bir çox hallarda oliqarxların özlərindən ibarət formalaşdığı halda, parlamentin aşağı palatasının əksər hissəsi bir qayda olaraq oliqarxların etibar etdikləri insanlardan, onları təmsil edə bilənlərdən, onların nümayəndəsi ola bilənlərdən formalaşmışdır. Aşağı palatanın məhz nümayəndələr palatası adlandırılması həmçinin elə bu kontekstdə də mənalandırıla bilər. Parlamentin aşağı palatasına məhz nümayəndələr palatası adının verilməsi bəlkə də oliqarxların nümayəndələrinin palatası kontekstinə malik olmuşdur və onun təsis olunmasının əsasında da bəlkə elə məhz bu məna, oliqarxların nümayəndələrinin palatası mənası dururdu, bu təhtəlşüur olaraq da baş verə bilərdi, elə şüurlu olaraq da.

Oliqarxik sistemdə parlamentin yuxarı palatasının aristokratik sistemin senatına bənzərliyi isə yuxarıda qeyd olunduğu kimi, əsa-

sən zahiri xarakter daşısa da, bununla belə, həqiqi aristokratik ruhlu iri maqnatların mümkünlüyü və siyasi həyatda aktiv iştirakı bir sıra hallarda, bəlkə də bir çox hallarda bu bənzərliyə həqiqi xarakter də verə bilir.

Oliqarxın ruhən aristokratik təbiətli olması ideal bir situasiyadır. Doğrudur, reallıqda bu ideal situasiya yaranmaya da bilir, amma yarana da bilir. Nəzərə alınmalıdır ki, burjuanın və irsi aristokratiyanın kəskinliklə qarşı-qarşıya durması yalnız Yeni dövrün başlanğıcı üçün səciyyəvi idi. Həm Yeni dövrün başlanğıcından öncə, həm də Yeni dövrün sonrakı, daha çox inkişaf etmiş mərhələlərində burjua ilə irsi aristokratiya arasında çox ciddi yaxınlaşma meyilləri müşahidə olunmuşdu. Əgər Yeni dövr ərəfəsində burjua aristokratik titulların mənimsənilməsinə meyilli idisə, Yeni dövrün sonrakı, daha çox inkişaf etmiş mərhələlərində irsi aristokratiyanın mənəvi deqradasiyadan xilas olan hissəsində xalis nəzəri fəaliyyət sferasına çəkilmə meyilləri ilə yanaşı, burjualaşma meyilləri də müşahidə olundu və irsi olaraq aristokratik mənşəli olan bu insanların burjualaşma istiqamətində inkişafı hətta kifayət qədər geniş miqyasda yer almışdı.

İrsi aristokratiyanın mənəvi deqradasiyadan xilas olaraq xalis nəzəri fəaliyyət sferasına çəkilən hissəsi bilik iqtisadiyyatının ön plana çıxması ilə səciyyəvi olan müasir dövrdə mühüm əhəmiyyət kəsb etməkdədir. İndiki postindustrial dövrdə iqtisadi fəaliyyət sferasının üstün mövqeyinin intellektual fəaliyyət sferasının üstün mövqeyi ilə əvəzlənməsi baş verir və bununla bağlı olaraq belə bir fakt da xüsusu əhəmiyyət kəsb edir ki, Amerika Birləşmiş Ştatları milyarderlərin sayına görə dünyada birinci yerdə olsa da, hal-hazırda Amerika Birləşmiş Ştatlarının nə Senatında, nə də nümayəndələr Palatasında bircə nəfər də milyarder yoxdur.

Elə bu səbəbdəndir ki, aristokratik resursların istifadəsi indi getdikcə daha çox intellektual fəaliyyət sferasında baş verdiyindən, Senat aristokratik resursların təmərküzləşmə məkanı kimi onların üzə çıxarılmasında və real siyasi problemlərin həllinə cəlb olunmasında əhəmiyyətli rol oynaya bilən bir qurum da ola bilir və aristokratik mənşəli bir təsisat kimi əslində elə olmalıdır da.

***

Dövlətin ümumiyyətlə təkamülünün nəzəri-fəlsəfi baxımdan təqdimatından Azərbaycanın siyasi reallığına bir dönüş etmək istərdim. Bu dönüş Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə hazırlanan və 29 dekabr 2012 tarixli Fərmanı ilə təsdiq edilən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası ilə bağlıdır və həmin Konsepsiyanın "*Qanunvericiliyin təkmilləşdirilməsi və institusional potensialın gücləndirilməsi*" adlı 8-ci bölümündə irəli sürülən vəzifələr kontekstində mənim təklif etdiyim bir doktrina ətrafında düşüncələrimi özündə ehtiva edir.

Bu kontekstdə təklif etdiyim həmin doktrina son dərəcə sadə konstruksiyalı bir mülahizənin təqdimatı və əsaslandırılması kimi də qiymətləndirilə bilər. Bu sadə mülahizə isə belədir: **Azərbaycanın qanunlarını Azərbaycanın alimləri yaratmalıdırlar.**

İrəli sürülən doktrinanın və onun çıxış nöqtəsini təşkil edən bu mülahizənin əsaslandırılması vasitəsi olaraq mənim istinad etdiyim başlıca arqument isə belədir:

Dövləti, əslində bütövlükdə həm də xalqı idarə etməli olan qanunların ən mükəmməllərini təbii ki o kəslər yarada bilərlər ki, onlar həmin bu xalqdandırlar, bu xalqdan olduqları üçün xalqda daşınan intellektual resursların, şüuru və qeyri-şüuru mental dəyərlərin daşıyıcılarıdırlar və üstəlik həmin bu intellektual resursları hərəkətə gətirə bilmişlər və eləcə də xalqda daşınan şüuru və qeyri-şüuru mental dəyərlərin özlərinə maksimum dərəcədə yaradıcı xarakter verə bilmişlər. Bu səbəbdən də xalqı bütövlükdə idarə etməli olan qanunların yaradılması da məhz onlara etibar edilməlidir. Düşünürəm ki, belə olduğu halda xalq öz mövcudluğundan, ideallarından və inkişafından doğan problemlərin ən optimal həllinə nail ola bilər.

Bəs, bunu necə etmək olar?

Düşünürəm ki, bunu etmək Azərbaycanın qanunverici hakimiyyətinin ikipalatalı sistem olaraq təsis olunması vasitəsilə mümkündür.

Azərbaycanın hazırkı birpalatalı qanunverici hakimiyyət orqanı olan Milli Məclis qanun yaradıcılığı prosesində Azərbaycan alimlərinin intellektual potensialından müəyyən dərəcədə istifadə edir. Azərbaycan alimləri Milli Məclisin qanun yaradıcılığı fəaliyyətində həm Milli Məclisin uyğun komissiyasına dəvət olunmuş ekspertlər qismində iştirak edirlər, həm Milli Məclisin aparatında müəyyən dərəcədə təmsil olunmuşlar, və həm də Milli Məclisin üzvlərin bir qismi alimlərdirlər.

Lakin, bu vəziyyət Azərbaycan qanunlarının yaradılmasında Azərbaycan alimlərinin intellektual potensialından yalnız qismən və sporadik bir şəkildə istifadə olunmasına imkan yaradır. Əvvəla, ona görə ki, Azərbaycan qanunlarının yaradılmasında iştirak edən Azərbaycan alimlərinin yalnız bir qismi - *Milli Məclisin üzvləri olanları* - qanunvericilik təşəbbüsü hüququna malikdirlər. Bundan fərqli olaraq, Azərbaycan qanunlarının yaradılmasında iştirak edən dıgər alimlər - *nə Milli Məclisin uyğun komissiyalarına ekspert qismində dəvət olunanlar, nə də Milli Məclisin aparatında təmsil olunanlar* - qanunvericilik təşəbbüsü hüququna malik deyillər. İkincisi, Azərbaycan qanunlarının yaradılmasında Azərbaycan alimlərinin iştirak mexanizmləri bir sistem halında olmadığından, onların seçim və təyinat mexanizmi sporatik xarakter daşımaqla heç də ən optimal deyildir.

Düşünürəm ki, Azərbaycanın qanunverici hakimiyyətinin yuxarıda qeyd olunduğu kimi ikipalatalı sistem olaraq təsis olunması Azərbaycan qanunlarının yaradılmasında Azərbaycan alimlərinin iştirakının permanent və daha optimal olması üçün mümkün vasitələrdən biri və hətta mən deyərdim ki, ən optimalı ola bilər. Bu palatalardan birinin ərazilər üzrə əhali tərəfindən seçilən nümayəndələrdən ibarət, digərinin isə sahələr üzrə mütəxəssislər tərəfindən seçilən alimlərdən ibarət təsis edilməsi təklif olunur.

Təklif etdiyimiz sxemdə Qanunverici hakimiyyətin palatalarının adlandırılmasının dünyada artıq formalaşan ənənələrə uyğun şəkildə aparılması nəzərdə tutulur: Qanunverici hakimiyyətin şərti olaraq aşağı palata kimi səciyyələndirilə bilən birinci palatasının **Nümayəndələr Palatası**, şərti olaraq yuxarı palata kimi səciyyələndirilə billən ikinci palatasının isə **Senat** adlandırılması təklif olunur. Nümayəndələr Palatasının üzvləri ***deputatlar***, Senatın üzvləri isə ***senatorlar*** adlandırılır. Qanunverici hakimiyyətinin özünün bütövlükdə isə əvvəlki adının, **Milli Məclis** adının saxlanılması məqsədəuyğun hesab edilir.

Nümayəndələr Palatasının üzvləri (deputatlar) inzibati-ərazi vahidləri üzrə, Senatın üzvləri (senatorlar) isə fəaliyyət sahələri üzrə seçilir.

Nümayəndələr Palatasının üzvlərini seçmək hüququna Azərbaycan Respublikasının inzibati-ərazi vahidlərinin birinin ərazisində yaşayan və orada daimi qeydiyyatı olan vətəndaşlar, həmin ərazidə yaşayan vətəndaşların nümayəndəsi (deputatı) olaraq seçilmək hüququna isə həmin ərazidə yaşayan və ali təhsilə malik olan Azərbaycan Respublikası vətəndaşları malikdirlər.

Senatın üzvlərini seçmək hüququna uyğun sahə üzrə bakalavr və ya magistr səviyyəsində ali təhsil almış və həmin sahədə çalışan, və ya həmin sahə üzrə elmi-tədqiqat işləri aparan Azərbaycan Respublikası vətəndaşları, Senatın üzvü olaraq seçilmək hüququna isə həmin sahə üzrə fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsinə malik olan və həmin sahədə çalışan Azərbaycan Respublikası vətəndaşları malikdirlər.

Nümayəndələr Palatasının üzvləri seçildikləri ərazi vahidinin əhalisinin nümayəndəsi hesab olunurlar və həmin əhalinin adından çıxış edirlər. Senatın üzvləri isə təmsil etdikləri sahənin yüksək ixtisasları ekspertləri olaraq fəaliyyət göstərirlər.

Nümayəndələr Palatasının üzvləri seçildikləri ərazi vahidinin əhalisinin maraqları və tələbləri əsasında həmin ərazi vahidinin məsul vəzifəli şəxslərinə deputat sorğusu göndərmək, qənaətbəxş cavab almadığı halda isə onların cəzalandırılması barədə yuxarı

təşkilatlar qarşısında, və buna zərurət olduğu halda Azərbaycan Respublikasının Prezidenti qarşısında vəsatət qaldırmaq hüququna malikdirlər. Eləcə də, Senatın üzvləri təmsil etdikləri sahənin inkişaf perspektivləri baxımından həmin sahənin məsul vəzifəli şəxslərinə sorğu göndərmək, onların cəzalandırılması barədə yuxarı təşkilatlar qarşısında, və buna zərurət aşkar olduğu halda Azərbaycan Respublikasının Prezidenti qarşısında vəsatət qaldırmaq hüququna malikdirlər.

Nümayəndələr Palatasının üzvləri olan deputatlar zonalar üzrə **regional deputat qrupları**nda, Senatın üzvləri olan alim-ekspertlər isə təmsil etdikləri **sahələr üzrə daimi komissiyalar**da birləşirlər.

Nümayəndələr Palatasının üzvləri Senatın daimi komissiyalarının işində və Senatın ümumi iclaslarında məşvərətçi səslə iştirak etmək hüququna malikdirlər. Eləcə də Senatın üzvləri Nümayəndələr Palatasının ümumi iclaslarında və redional deputat qruplarının işində məşvərətçi səslə iştirak edirlər.

Hər iki palatanın üzvləri, həm Nümayəndələr Palatasının üzvləri olan deputatlar, həm də Senatın üzvləri olan alim-ekspertlər qanunvericilik təşəbbüsü hüququna malikdirlər. Lakin, qanunvericilik təşəbbüsü hüququ təbii ki, yalnız onlara mənsub deyildir. Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikasının Ali Məhkəməsinin, Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşının, Azərbaycan Respublikası Prokurorluğunun və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin qanunvericilik təşəbbüsü hüququna malik olması barədə Azərbaycan Respublikasının Konstitutsyasında indi təsbit olunan məqam düşünürəm ki elə 2020-ci il üçün də mütləq dəyər kəsb edəcəkdir. Əgər Azərbaycan Respublikasının Prezidenti qanunvericilik təşəbbüsü hüququndan bütövlükdə Azərbaycan xalqının və Azərbaycan dövlətinin inkişafı və maraqlarının qorunması üçün istifadə edirsə, qanunvericilik təşəbbüsü hüququnun digər sahibləri, o cümlədən Nümayəndələr Palatasının və Senatın üzvləri qanunvericilik təşəbbüsü hüququndan Azərbaycan xalqının və Azərbaycan dövlətinin inkişafının və maraqlarının qorunmasının konkret aspektləri üzrə istifadə

edirlər. Nümayəndələr Palatasının üzvləri seçildikləri ərazinin vətəndaşlarının maraqları baxımından, Senatın üzvləri isə təmsil etdikləri sahənin inkişaf perspektivləri baxımından qanunvericilik təşəbbüsü ilə çıxış edirlər.

Nümayəndələr Palatasının üzvü olan deputat tərəfindən qanunvericilik təşəbbüsü ilə irəli sürülən qanun layihəsi ilkin olaraq həmin deputatun daxil olduğu regional deputat qrupunda müzakirə olunur, məqbul hesab edildiyi halda qanun layihəsi müzakirə zamanı söylənilən və münasib hesab edilən qeydlər əsasında düzəlişlər edilməklə ekspert qiymətləndirilməsi üçün Senatın uyğun daimi komissiyasına, və ya, qanun layihəsi iki və ya daha artıq daimi komissiyanın kompetensiyasına aid olduğu halda, qanun layihəsinin predmetinə uyğun sahələr üzrə daimi komissiyalara göndərilir. Qanun layihəsi Senatın uyğun daimi komissiyasında (və ya, komissiyalarında) müzakirə olunduqdan sonra müvafiq ekspert qeydləri ilə qanun layihəsinin müəllifinin daxil olduğu regional deputat qrupuna göndərilir və göstərilən ekspert qeydləri nəzərə alınmaqla həmin regional deputat qrupunda yenidən müzakirə edilir, məqbul hesab edildiyi halda burada müzakirə zamanı söylənilən və münasib hesab edilən qeydlər əsasında düzəlişlər edilməklə Nümayəndələr Palatasının ümumi müzakirəsinə verilir. Nümayəndələr Palatası qanun layihəsini müzakirə edir, məqbul hesab edildiyi halda onu burada müzakirə zamanı söylənilən və münasib hesab edilən qeydlər əsasında düzəlişlər edilməklə Senatın ümumi müzakirəsinə göndərir. Senat qanun layihəsini növbəlilik qaydasında müzakirə edir və onun qəbul edilməsi və ya, yenidən uyğun daimi komissiyaya və ya komissiyalara göndərilməsi, ya da həmin qanun layihəsi ilə bağlı müzakirələrin dayandırılması barədə qərar qəbul edir. Senat qanun layihəsini tamamlanmış və hazırkı gün üçün mükəmməl hesab etdiyi və bu səbəbdən də onun qəbul olunması barədə Qərar qəbul etdiyi halda Qanun layihəsi və onun Senat tərəfindən qəbul edilməsi barədə Qərar Azərbaycan Respublikasının Prezidentinə göndərilir. Azərbaycan Respublikasının Prezidenti qanun layihəsini ölkənin ümumi maraqları baxımından qiymətləndi-

rərək ya təsdiq edir, ya uyğun düzəlişlərin edilməsi üçün yenidən Senatın müzakirəsinə qaytarır, ya onun tətbiq sahəsinə müddətli və ya müddətsiz məhdudiyyətlər qoyur, ya da onun tətbiqinin ümumiyyətlə istisna olunması barədə qərar qəbul edir. Qanun layihəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edildiyi halda Qanun statusunu alır və Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin olunan zamandan etibarən qanuni qüvvəyə minir.

Nümayəndələr Palatası Senata göndərdiyi qanun layihəsi üzrə müzakirələrin dayandırılması barədə Senatın qəbul etdiyi qərardan Azərbaycan Respublikasının Prezidentinə protest verə bilər.

Senatın üzvü tərəfindən qanunvericilik təşəbbüsü ilə irəli sürülən qanun layihəsi də oxşar prosedurlara məruz qoyulur. Senatorun irəli sürdüyü qanun layihəsi ilkin olaraq onun daxil olduğu daimi komissiyanın iclasında müzakirə olunur, məqbul hesab edildiyi halda müzakirə zamanı söylənilən və münasib hesab edilən qeydlər əsasında düzəlişlər edilməklə Senatın ilkin ümumi müzakirəsinə çıxarılır və burada müzakirə olunduqdan sonra müzakirə zamanı söylənilən və münasib hesab edilən qeydlər əsasında düzəlişlər edilməklə onun birinci oxunuşda qəbul edilməsi və ya, yenidən uyğun komissiyaya və ya, komissiyalara göndərilməsi, ya da həmin qanun layihəsi ilə bağlı müzakirələrin dayandırılması barədə qərar qəbul edir. Senat qanun layihəsini birinci oxunuş mərhələsi üçün məqbul hesab etdiyi halda onu regionların maraqları baxımından müzakirə olunmaq üçün Nümayəndələr Palatasına göndərir. Nümayəndələr Palatasının üzvləri qanun layihəsini seçildikləri ərazinin əhalisinin maraqlarına uyğunluq baxımından müzakirə edirlər və qanun layihəsinə müvafiq dəyişiklikləri edərək onu yenidən Senatın müzakirəsinə göndərirlər. Senat qanun layihəsini növbəlilik qaydasında müzakirə edir və müzakirə zamanı söylənilən və münasib hesab edilən qeydlər əsasında düzəlişlər edilməklə onun ikinci oxunuşda qəbul edilməsi və ya, uyğun komissiyaya və ya komissiyalara göndərilməsi barədə qərar qəbul edir. Senat qanun layihəsini tamamlanmış və hazırkı gün üçün mükəmməl hesab etdiyi və bu səbəbdən də

onun ikinci oxunuşda qəbul olunması barədə Qərar qəbul etdiyi halda Qanun layihəsi və onun Senat tərəfindən qəbul edilməsi barədə Qərar Nümayəndələr Palatasının üzvü olan deputat tərəfindən qanunvericilik təşəbbüsü əsasında irəli sürülən qanun layihəsi halında olduğu kimi Azərbaycan Respublikasının Prezidentinə göndərilir. Qanun layihəsininin Azərbaycan Respublikasının Prezidenti tərəfindən ölkənin ümumi maraqları baxımından qiymətləndirilməsi və müvafiq qərar qəbul edilməsi analoji qaydada həyata keçirilir.

Analoji qayda həmçinin Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşı, Azərbaycan Respublikası Prokurorluğu və Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən qanunvericilik təşəbbüsü əsasında təqdim olunan qanun layihələrinə də tətbiq edilir.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü əsasında təqdim olunan qanun layihələri ilə bağlı prosedur qaydaları Azərbaycan Respublikasının Ali Məhkəməsi, Azərbaycan Respublikasının seçki hüququ olan 40 min vətəndaşı, Azərbaycan Respublikası Prokurorluğu, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi və eləcə də, Senatın və Nümayəndələr Palatasının üzvləri tərəfindən təqdim olunan qanun layihələri ilə bağlı prosedur qaydalarından başlıca olaraq onunla fərqlənir ki, Azərbaycan Respublikasının Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü əsasında təqdim olunan qanun layihələrinin müzakirəsinin dayandırılması barədə qərar qəbul edilə bilməz, onların tətbiq sahəsinə müddətli və ya müddətsiz məhdudiyyətlər qoyula bilməz, onların tətbiqinin istisna olunması barədə qərar qəbul edilə bilməz.

Mənim təklif etdiyim başlıca sxem budur. Bu sxemin bəzi konkretləşdirmələri tələb edən bir sıra əlavə təfərrüatları da vardır ki, bu təfərrüatlarla bağlı düşüncələrimi möhtərəm oxucumla və mənim konsepsiyam ətrafında müzakirələrə qatılan hörmətli həmkarlarımla bölüşmək istərdim. Amma dərhal qeyd edim ki, bu təfərrüatlar təklifin yuxarıda təqdim etdiyim başlıca məzmunu ilə müqa-

yisədə ikinci dərəcəli əhəmiyyətə malikdir və təklifin başlıca məzmununa **əlavə** kimi nəzərdən keçirilə bilər.

Bu **təfərrüatlar**ın bir qismi seçkilərdə iştirak edən *elektoratın təsnif edilmə (qruplaşdırılma) prinsipi* ilə, digər qismi *palataların formalaşdırılma qaydaları* ilə, üçüncü bir qismi isə *səslərin hesablanması prinsipləri* ilə bağlıdır.

Mən bu təfərrüatlarla bağlı mülahizələrimi möhtərəm oxucumun diqqətinə hər bir palata üzrə ayrıca təqdim edirəm:

Öncə ***Nümayəndələr Palatası***na seçkilərdə iştirak edən elektoratın təsnif edilmə (qruplaşdırılma) prinsipi, Palatanın özünün formalaşdırılma qaydaları və üzvlərinin səslərin hesablanması prinsipləri ilə bağlı.

Nümayəndələr Palatasına seçkilərdə iştirak edən elektoratın qruplaşdırılmasının ümumi prinsipini mən belə görürəm:

Nümayəndələr Palatasının üzvlərinin indiki kimi, 40 000 sayda əhalinin yaşadığı ərazi üzrə yaradılan seçki dairələri üzrə deyil, inzibati rayonlar üzrə seçilməsini təklif edərdim. Bir qədər də konkretləşdirilsə, ölkənin paytaxtının da rayonları daxil olmaqla hər rayondan bir deputat və paytaxt və rayon mərkəzi statusunda olan şəhərlər istisna olmaqla digər bütün Respublika tabeliyində olan şəhərlərin hər birindən bir deputat olmaqla seçilməsini məqsədəuyğun hesab edərdim.

Nümayəndələr Palatasının formalaşdırılma qaydalarından birincisi və ən mühümü artıq şərh edilmişdir: Nümayəndələr Palatasının üzvləri (deputatlar) **regional deputat qrupları**nda birləşirlər.

Mən həmin regional deputat qruplarının aşağıdakı kimi təşkil olunmasını məntiqi hesab edərdim.

***Bakı-Abşeron regional deputat qrupu***. Bu regional deputat qrupuna Böyük Bakı inzibati vahidinə daxil olan rayonlarının hər birindən, və eləcə də Böyük Bakı İnzibati vahidinə daxil olmayan Abşeron rayonunun seçki hüququna malik əhalisi tərəfindən seçilən bir deputat, Respublika tabeliyində olan Sumqayıt şəhərindən şəhərin seçki hüququna malik əhalisi tərəfindən seçilən bir deputat, regiona aid olan inzibati-ərazi vahidlərindən birinin ərazisində ya-

şayan və orada daimi qeydiyyatı olan vətəndaşlar sırasından Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilən bir deputat və regional qeyri-hökumət təşkilatları tərəfindən seçilən bir deputat daxildir (bütövlükdə, 16 deputat).

***Şimal regional deputat qrupu***. Bu regional deputat qrupuna Xaçmaz, Xızı, Quba, Qusar, Siyəzən, Şabran rayonlarının hər birindən həmin rayonlarının seçki hüququna malik əhalisi tərəfindən seçilən bir deputat, regiona aid olan inzibati-ərazi vahidlərindən birinin ərazisində yaşayan və orada daimi qeydiyyatı olan vətəndaşlar sırasından Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilən bir deputat və regional qeyri-hökumət təşkilatları tərəfindən seçilən bir deputat daxildir (bütövlükdə, 8 deputat).

***Şimal-Qərb regional deputat qrupu***. Bu regional deputat qrupuna Ağsu, Balakən, İsmayıllı, Qax, Qəbələ, Qobustan, Oğuz, Şamaxı, Şəki (Respublika tabeliyində olan Şəki şəhəri də daxil olmaqla), Zaqatala rayonlarının hər birindən həmin rayonlarının seçki hüququna malik əhalisi tərəfindən seçilən bir deputat, regiona aid olan inzibati-ərazi vahidlərindən birinin ərazisində yaşayan və orada daimi qeydiyyatı olan vətəndaşlar sırasından Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilən bir deputat və regional qeyri-hökumət təşkilatları tərəfindən seçilən bir deputat daxildir (bütövlükdə, 12 deputat).

***Cənub regional deputat qrupu***. Bu regional deputat qrupuna Astara, Lerik, Lənkəran (Respublika tabeliyində olan Lənkəran şəhəri də daxil olmaqla), Masallı, Yardımlı rayonlarının hər birindən həmin rayonlarının seçki hüququna malik əhalisi tərəfindən seçilən bir deputat, regiona aid olan inzibati-ərazi vahidlərindən birinin ərazisində yaşayan və orada daimi qeydiyyatı olan vətəndaşlar sırasından Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilən bir deputat və regional qeyri-hökumət təşkilatları tərəfindən seçilən bir deputat daxildir (bütövlükdə, 7 deputat).

***Aran regional deputat qrupu***. Bu regional deputat qrupuna Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Cəlilabad, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan,

Tərtər, Ucar, Yevlax (Respublika tabeliyində olan Yevlax şəhəri də daxil olmaqla), Zərdab rayonlarının hər birindən həmin rayonlarının seçki hüququna malik əhalisi tərəfindən seçilən bir deputat, Respublika tabeliyində olan Mingəçevir və Şirvan şəhərlərinin hər birindən seçki hüququna malik əhali tərəfindən seçilən bir deputat, regiona aid olan inzibati-ərazi vahidlərindən birinin ərazisində yaşayan və orada daimi qeydiyyatı olan vətəndaşlar sırasından Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilən bir deputat və regional qeyri-hökumət təşkilatları tərəfindən seçilən bir deputat daxildir (bütövlükdə, 22 deputat).

***Gəncə-Qazax regional deputat qrupu***. Bu regional deputat qrupuna Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz rayonlarının hər birindən həmin rayonlarının seçki hüququna malik əhalisi tərəfindən seçilən bir deputat, Respublika tabeliyində olan Gəncə və Naftalan şəhərlərinin hər birindən seçki hüququna malik əhali tərəfindən seçilən bir deputat, regiona aid olan inzibati-ərazi vahidlərindən birinin ərazisində yaşayan və orada daimi qeydiyyatı olan vətəndaşlar sırasından Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilən bir deputat və regional qeyri-hökumət təşkilatları tərəfindən seçilən bir deputat daxildir (bütövlükdə, 13 deputat).

***Qarabağ regional deputat qrupu***. Bu regional deputat qrupuna Ağdam, Cəbrayıl, Fizuli, Xocalı, Xocavənd, Kəlbəcər, Qubadlı, Laçın, Şuşa, Zəngilan rayonlarının hər birindən həmin rayonlarının seçki hüququna malik əhalisi tərəfindən seçilən bir deputat, Respublika tabeliyində olan Xankəndi şəhərindən şəhərin seçki hüququna malik əhalisi tərəfindən seçilən bir deputat, regiona aid olan inzibati-ərazi vahidlərindən birinin ərazisində vaxtilə yaşayan və orada daimi qeydiyyatı olan vətəndaşlar sırasından Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilən bir deputat və regional qeyri-hökumət təşkilatları tərəfindən seçilən bir deputat daxildir (bütövlükdə, 13 deputat).

***Naxçıvan regional deputat qrupu***. Bu regional deputat qrupuna Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur rayon-

larının hər birindən həmin rayonlarının seçki hüququna malik əhalisi tərəfindən seçilən bir deputat, Naxçıvan şəhərindən şəhərin seçki hüququna malik əhalisi tərəfindən seçilən bir deputat, Müxtar Respublikaya aid olan inzibati-ərazi vahidlərindən birinin ərazisində yaşayan və orada daimi qeydiyyatı olan vətəndaşlar sırasından Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilən bir deputat və regional qeyri-hökumət təşkilatları tərəfindən seçilən bir deputat daxildir (bütövlükdə, 10 deputat).

Beləliklə, Nümayəndələr Palatasının 8 regional deputat qrupunda birləşən 101 deputatdan ibarət formalaşdırılması təklif olunur.

Nəhayət, Nümayəndələr Palatası ilə bağlı sonuncu məqam - *səslərin hesablanması prinsipi* - ilə bağlı mülahizələrimi mənim konsepsiyam ətrafında müzakirələrə qatılacaq hörmətli həmkarlarımla bölüşürəm.

Nümayəndələr Palatasına seçilən hər bir deputat seçildiyi zaman qazandığı səslərin sayına münasib səsə malikdir. Çünki o Azərbaycan xalqının daha çox hissəsinin etibarını qazana bilmişdir və bu səbəbdən də belə hesab etmək üçün əsas vardır ki, o, xalqın daha çox hissəsinin iradəsini ifadə edir. 40 000 sayda əhalinin səsini qazanmış deputata əslində elə 40 000 sayda əhalinin adından çıxış etmək, 25 000 sayda əhalinin səsini qazanmış deputata isə elə 25 000 sayda əhalinin adından çıxış etmək səlahiyyəti vermişdir. Bu səbəbdən də, 40 000 sayda əhalinin səsini qazanmış deputat səsvermə zamanı 25 000 sayda əhalinin səsini qazanmış deputata nisbətən üstünlüyə malik olmalıdır. Bununla bağlı mənim konkret təklifim ondan ibarətdir ki, seçki hüququna malik olan 10 000 sayda əhalinin səsini qazanmış deputat Nümayəndələr Palatasında səsvermə zamanı 1 səsə malikdir. 1 səsə malik olma hüququ 10 000-dən 20 000-dək (20 000 daxil olmamaqla) sayda seçki hüququna malik olan əhalinin səsini qazanmış bütün deputatlara aiddir. Uyğun olaraq, 20 000-dən 30 000-dək (30 000 daxil olmamaqla) sayda seçki hüququna malik əhalinin səsini qazanmış deputat 2 səsə malikdir və bu, səslərin toplanması zamanı nəzərə alınır. Ümumi

şəkildə deyilərsə, hər bir deputat seçildiyi zaman qazandığı səslərin sayının on mində bir mislinə bərabər səsə malikdir. Nümayəndələr Palatasına seçildiyi zaman qazandığı səslərin sayı 10 000-dən az olan və seçki hüququna malik əhalisinin sayı 10 000-dən az olan inzibati-ərazi vahidlərindən (məsələn, Naftalan şəhəri) seçilən deputatlar həm regional deputat qruplarında, həm də Nümayəndələr Palatasının ümumi iclaslarında məşvərətçi səslə iştirak edirlər. Regional qeyri-hökumət təşkilatları tərəfindən seçilən deputat da həmçinin həmin regionun 10 000 vətəndaşının imzasını toplaya bilmədiyi halda, Nümayəndələr Palatasının ümumi iclaslarında məşvərətçi səslə iştirak edir. Regionun 10 000 və ya daha artıq vətəndaşının imzasını toplaya bilən regional qeyri-hökumət təşkilatı daxil olduğu regional deputat qrupunda və Nümayəndələr Palatasının ümumi iclaslarında 1 səsə malikdir. Regional deputat qrupunun iclaslarına sədrliyi Azərbaycan Respublikasının Prezidenti tərəfindən həmin regional deputat qrupuna təyin edilən deputat edir. Nümayəndələr Palatasının iclaslarına sədrliyi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilən deputatlardan biri edir.

İndi isə ***Senat***a seçkilərdə iştirak edən elektoratın təsnif edilmə (qruplaşdırılma) prinsipi, Palatanın özünün formalaşdırılma qaydaları və üzvlərinin səslərin hesablanması prinsipləri ilə bağlı mülahizələrimi bölüşmək istərdim.

Senata seçkilərdə iştirak edən elektorat sahələr üzrə qruplaşdırılır və şərti olaraq gildiyalar adlandırılan həmin qruplara konkret sahə üzrə bakalavr və ya magistr səviyyəsində ali təhsil almış və həmin sahədə çalışan, və ya həmin sahə üzrə elmi-tədqiqat işləri aparan Azərbaycan Respublikası vətəndaşları aid edilir. Gildiyalar dövlət təşkilatlarının, özəl təşkilatların və qeyri-hökumət təşkilatların bakalavr və ya magistr səviyyəsində ali təhsil almış mütəxəssisləri əsasında formalaşdırılır. Hər bir vətəndaş yalnız bir gildiyaya daxil olmaq hüququna malikdir.

Hər bir gildiya uyğun sahə üzrə fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsinə malik olan bir Azərbaycan Respublikası vətəndaşını Senatın üzvü (senator) olaraq seçir.

Gildiyalar tərəfindən seçilmiş həmin senatorlar seçildikləri sahəyə uyğun olaraq Senatın daimi komissiyalarından birinin tərkibinə daxil olurlar. Senatın hər bir daimi komissiyasına Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü və ya müxbir üzvü olan alimlər sırasından Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilən senator daxildir və həmin senator uyğun daimi komissiyanın sədri statusundadır.

Daimi komissiyaların aşağıdakı kimi təşkil olunması, mənə elə gəlir ki, məntiqi və məqsədəuyğun hesab edilə bilər.

Senatda səsvermə zamanı fəlsəfə doktorları bir səsə, elmlər doktorları iki səsə, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvləri üç səsə və Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvləri dörd səsə malikdirlər.

Beləliklə, əgər biz dövlətin qanunlarının dövlətin alimləri tərəfindən yaradılmalı olduğunu qəbul ediriksə, Senat alimlərdən ibarət ekspertlər palatası olaraq qanun yaradıcılığı üçün ən ideal məkan olmuş olardı. Nümayəndələr Palatası xalqın istəklərinin bir təmərküzləşmə məkanı olduğu kimi, Senat xalqın intellektual resurslarının bir təmərküzləşmə məkanı kimi çıxış edir. Əgər Nümayəndələr Palatası daha çox xalqın istəklərini ifadə etmək missiyasını yerinə yetirirsə, xalqın istəklərinin yerinə yetirilməsini təmin etməli olan qanunlarının yaradılması missiyası tərkibi xalqın intellektual potensialının bilavasitə daşıyıcılarından - alimlərdən - ibarət olan Senatın üzərinə düşür.

***Senat*** institutunun yaradılması ideyası aristokratik ideyanın Azərbaycanın siyasi gerçəkliyinə tətbiqi ilə bağlı da müəyyən məna kəsb edir. Belə bir siyasi institutun yaradılması cəmiyyətdə daşınan aristokratik resursların daha artıq dərəcədə təyinatı üzrə istifadə olunmasına və bununla əlaqədar eyni zamanda həm də xalqın intellektual resurslarının da səfərbər edilməsinə, aristokratik resursların bu vaxta qədər istifadəsiz qalmış hissəsinin yenidən üzə çıxarılmasına və diqqət mərkəzinə gətirilməsinə yardım etmiş olardı, qanunverici orqanın aristokratik resurslarla zənginləşdirilməsində, demokratiyanın inkişafında əhəmiyyətli rol oynaya bilərdi.

Unutmaq olmaz ki, parlament və bütövlükdə demokratikləşmə rəsmi dövlət hakimiyyətinin hüdudlarından kənarda qalan aristokratik resursların ümummilli problemlərin həllinə cəlb olunması üçün də mühüm vasitə ola bilir. ***Demokratikləşmə düşünürəm ki elə əslində*** cəmiyyətdə daşınan ***aristokratik resursları üzə çıxar-***

***maq və bu resursları cəmiyyətin idarə olunmasına cəlb etmək üçündür.***

Dövlətin oliqarxik məcrada deyil, aristokratik demokratizm məcrasında inkişaf etdirilməsi üçün həm korrupsiya aradan qaldırılmalıdır, həm də dövlət hakimiyyəti orqanlarına xüsusilə qanunverici hakimiyyətinə seçkilər dövlətin və millətin qarşısında duran həqiqi problemlərin həll etmək qüdrətində olan insanları hakimiyyətə gətirə bilən seçki sistemi qurulmalıdır.

Bu, ***düşünürəm ki*** xalqın və dövlətin daha da qüdrətlənməsinə yardımçı ola bilər.

***

İndi isə qayıdaq oliqarxiyanın aristokratik demokratizmdən kənar inkişafının təsvirinə və təhlilinə. Oliqarxiyanın aristokratik demokratizmdən kənar inkişafı bir çox hallarda ***parlamentli respublika-prezidentli respublika-diktatura*** sxemi üzrə baş verir. Bu sxem prezident institutunun son dərəcə mühüm siyasi və tarixi missiyası ilə də üzvi surətdə bağlıdır. Həmin səbəbdən də, siyasi inkişafın bu təmayülünü heç bir vəcdlə diqqətdən kənarda saxlamaq olmaz. Prezident təhlükəsizliyin qarantı olmaqla hər şeydən öncə hərbi təyinatlıdır. Prezidentin ali baş komandan statusu ona hakimiyyətinin seçkili və müvəqqəti xarakterini dəf etmək imkanını da verir. Prezident bu imkanından[1], istifadə edərkən isə hətta **diktator** da ola bilir sözün həm yaxşı, həm də pis mənalarında. *Sözün ona görə yaxşı mənasında* ki, cəmiyyətdə yer alan və bəzən hətta baş alıb gedən ədalətsizliyin və zorakılığın qarşısını almaq üçün hakimiyyətin öz gücünü, qüdrətini nümayiş etdirməsinin özü bəzən bir zərurətə çevrilir. Diktator olmaq əslində başqa hallarda da, xüsusən xaricdən real təhlükənin gözlənildiyi və yarandığı hallarda millətin

[1] Buna hüquqi dildə yumşaq terminlərlə *fövqəladə vəziyyət elan etmək hüququ* deyirlər.

səfərbər edilməsi üçün lazım gələ bilir[1]. *Və sözün ona görə pis mənasında* ki, diktator ədalətsizliyin dayağına çevrilərək də zorakılığa əl ata bilir.

Diktatura rejiminin meydana çıxması ilə isə həm oliqarxiya bir sosial-siyasi sistem olaraq, həm də prezidentli respublika üsul-idarəsi bir siyasi rejim olaraq əslində başa çatır. Oliqarxiya bu halda bir sosial-siyasi sistem olaraq ona görə başa çatır ki, dövlət burada artıq birmənalı olaraq oliqarxların mənafelərinin ifadəçisi deyildir, diktatura rejiminin meydana çıxması ilə prezidentli respublika üsul-idarəsi isə ona görə əslində başa çatır ki, dövlət başçısı statusu burada artıq seçkili deyil və müvəqqəti xarakter daşımır.

Buraya hətta onu da əlavə etmək olar ki, diktatura rejiminin meydana çıxması ilə nəinki prezidentli respublika üsul-idarəsi bir siyasi rejim olaraq əslində başa çatır, bir siyasi rejim olaraq ümumiyyətlə respublika üsul-idarəsi əslində başa çatır. Görünür elə bu səbəbdəndir ki, diktaturada parlament ya ləğv edilir, ya da onun siyasi çəkisi əhəmiyyətli dərəcədə azaldılır.

***Prezidentli respublika*** üsul-idarəsi tarix meydanına *oliqarxiyanın* bir sosial-siyasi sistem olaraq *müttəfiqi* kimi daxil olmuşdu və bunu *oliqarxiyanın xidmətində dayanan* ***parlamentli respublika*** üsul-idarəsinin tarixi yerini onun əlindən almaqla və bir qədər transformasiyaya uğratmaqla etmişdi. Diktatura üsul-idarəsi isə tarix meydanına oliqarxiyanın mənafelərinin ifadəçisi olmaqdan daha üstün siyasi sistem olmaq iddiası ilə daxil olur. Parlamentli respublika üsul-idarəsi sistemində prezident oliqarxların əslində köməkçisidir, prezidentli respublika üsul-idarəsi sistemində onların tərəfdaşıdır[2], diktatura üsul-idarəsi sistemində diktator isə oliqarxların yalnız himayəçisi ola bilir.

---

[1] Bu hallar isə hüquqi dildə *hərbi vəziyyət elan etmək hüququ* və *müharibə vəziyyəti elan etmək hüququ* terminlərləri ilə ifadə olunan səlahiyyətlərin həyata keçirilməsini zəruri edir.

[2] Belə bir məqama da diqqət yetirmək lazım gəlir ki, ***prezident*** sözü Azərbaycan dilinə tərcümədə *öndə, qabaqda oturan* mənasını verən

Bu nöqteyi-nəzərdən prezidentli respublika parlamentli respublika ilə diktatura arasında aralıq element kimi çıxış etmiş olur.

Diktatura rejiminin yaranışı həm yuxarıda qeyd olunduğu kimi, yəni prezidentin fövqəladə vəziyyət elan etmək barədə öz müstəsna hüququndan istifadə etməsi ilə baş verə bilər, həm də dövlət çevrilişi nəticəsində prezidentin ilk növbədə məhz bu hüququnun, məhz bu səlahiyyətinin onun əlindən alınması ilə.

Amma diktatura rejiminin yaranışı bu göstərilən iki haldan hansı ilə baş verməsindən asılı olmayaraq, diktatura prezidentli respublikadan və xüsusən də parlamentli respublikadan fərqli olaraq, bir sosial-siyasi sistem kimi artıq oliqarxiya deyildir.

Əgər oliqarxiyada hakimiyyət bilavasitə olaraq iqtisadi hökmranlığa söykənirsə, diktatorun hakimiyyəti bilavasitə olaraq fiziki hökmranlığı ifadə edir, fiziki zora və zorakılığa istinad edir.

Əgər oliqarxiyada hakimiyyət mülki mənşəli insanların əlindədirsə, əgər oliqarxiyada suveren rolunda mülki şəxslər olan iri maqnatlar çıxış edirlərsə, diktaturada bu öz əksliyinə çevrilir, diktaturada suveren statusu bir qayda olaraq hərbçiyə məxsus olur.

Əgər oliqarxiya sənaye maqnatları ilə komandanlar arasında əldə edilmiş *siyasi razılaşma*dan doğursa, diktatura halında komandan heç kəslə razılaşdırmadan hakimiyyətin mütləq sahibi olur.

Lakin əgər diktatura öz qarşısına varlıları bir sinif kimi ləğv etmək məqsədini qoymamışsa, onda iri sənaye maqnatları özlərinin bir suveren olaraq statuslarını itirsələr də, burada yenə də əsas

---

*latın mənşəli* ***praesidens*** sözündən yaradılsa da, prezident sözünü heç də nə *latın dilində danışan* qədim romalılar, nə də latın dilini özlərinə elmi dil kimi qəbul edən orta əsr avropalıları yaratmamışlar, bu sözü bir siyasi status ifadəçisi olaraq Yeni dövrün siyasi mütəfəkkirləri, daha konkret deyilərsə, müasir dünyanın ən qüdrətli oliqarxlarının özlərinə dayaq bildikləri, güvəndikləru dövlətin, Amerika Birləşmiş Ştatlarının qurucuları yaratmışlar. Prezident institutunun məhz prezident adi ilə dəfə məhz Amerika Birləşmiş Ştatlarının siyasi gerçəklikdə yer al alması da görünür heç də təsadüfi deyildir. Qədim Romada bu statusda vəzifə olaraq konsulun vəzifəsi göstərilə bilər.

siyasi fiqurlardan biri olaraq qalırlar, dövlətin büdcəsinə iri maliyyə kütlələrinin daxil olmasını təmin etmələri ilə. Diktatura maqnatları ən azı xəzinəyə daha çox vəsait daxil edilməsi məqsədi ilə himayə edir. Respublika kimi diktaturanın da iqtisadi əsasını başlıca olaraq iri sənaye və maliyyə inhisarları təşkil edirlər.

Diktatura rejiminin yaranmasında əslində maqnatların özlərinin də az günahı olmamışdır. İri sənaye və maliyyə maqnatları arasında mütəmadi olaraq yaranan rəqabət, iqtisadi ixtilaflar onlar arasında razılaşmalarla nəticələnmədikdə dövləti ümumi siyasi xaos vəziyyətinə, siyasi separatizmə, ölkənin parçalanmasına gətirib çıxarır, diktatura adətən məhz bu halda, məhz bu təmayülün qarşısının alınması üçün meydana çıxır. Maqnatlar arasında könüllü razılaşma əldə edilmədikdə, onlar arasında razılaşma hakimiyyətin aktiv müdaxiləsi ilə, onların zor gücünə ortaq məxrəcə gətirilməsi ilə əldə edilir və nəticədə maqnatların bəziləri məhv edilir, bəziləri ilə dövlətin ciddi nəzarəti altına alınır, və bununla da diktatura meydana çıxır.

Diktaturanın doğuluşu həm də dövlətdə korrupsiyanın dərin kök salmasının nəticəsidir. Korrupsiyaya uğramış dövlət məmuru təkcə qanunu deyil, həm də bütövlükdə ədaləti əydiyindən dövlətin əsaslarını sarsıdır. Respublika üsul-idarəsi diktator tərəfindən yuxarıdan və aşkaranə bir tərzdə ləğv edilməzdən öncə, onun məmurları tərəfindən aşağıdan və gizlicə artıq dağıdılmış olur.

Diktatura rejimi özü-özlüyündə isə zora, mübarizəyə, müharibəyə, hərbiyə meyilli olduğu üçün isə, öz təbii axınında imperialist xarakterini kəsb edir, iri sənaye maqnatlarının aparıcı siyasi fiqurlardan biri kimi qaldıqları halda isə, diktator rejimi həm də iqtisadi istismarın da dayağı olmaqla, sonradan həm də milli istismarın dayağına çevrilir.

## MİLLİ MƏNSUBİYYƏTİN VERDİYİ HAKİMİYYƏT: ***İMPERİYA***

İmperializm diktatura rejimindən törəyir və başlanğıc məqamda diktatura ilə eyni iqtisadi əsaslara söykənir.

Qədim Romanın siyasi-hüquqi inkişafının respublika sistemindən imperiya sisteminə keçid mərhələsində triumviratların diktaturası buna bir klassik nümunə olaraq göstərilə bilər.

İmperiya mahiyyət etibarı ilə diktaturanın milli sərhədləri aşmasını ifadə edir. İmperiya sisteminin qərarlaşması ilə dövlətin himayəsi altında olan maqnatlar indi fəaliyyət üçün daha geniş məkan əldə etmiş olurlar, bu da onlar arasındakı qarşıdurmanı zəiflədir, onları daha çox əməkdaşlığa sövq edir. İstismarın başlıca obyekti, başlıca məkanı kimi indi daha onların öz ölkələri deyil, koloniyalar olur. Bununla da dövlət özgə ölkələrin və özgə xalqların istismar vasitəsinə çevrilir.

İstismarçı xalq özünü istismar olunan xalqa nisbətən daha yaxşı sosial durumda görərək, müstəmləkəçi özünü müstəmləkə altında olana nisbətən daha üstün statusda görərək, özünü üstün xalq olaraq hiss etməyə başlayır, əldə etdiyi sosial statusun təsadüfi olmadığını sübut etmək istəyir və nəticədə özünü olduğundan daha yaxşı göstərmək, daha yaxşı təqdim etmək istəyir və edir, həm də incəsənətin gücü ilə.

Əgər oliqarxiya dövrü sənayenin və maliyyə kütlələri axınının gur inkişafı ilə yanaşı, həm də arxitekturanın və şəhərsalmanın gur inkişafı ilə səciyyəvi idisə, imperiya dövrü müstəmləkə zülmünün geniş vüsət alması ilə yanaşı həm də müstəmləkəçi xalqı ideallaşdıran təsviri incəsənətin gur inkişafı ilə səciyyəvidir.

İmperialist meyillərin məhz sənayenin güclü inkişaf etdiyi ölkələrdə formalaşması heç də təsadüfi deyildir. Əgər ticarətin güclü inkişaf etdiyi və ön planda olduğu ölkələrin xarici siyasəti üçün əsasən hər bir millətin öz müqəddəratını təyin etmə prinsipi səciyyəvidirsə, sənayenin güclü inkişaf etdiyi və ön planda olduğu ölkələr üçün əsasən imperialist xarici siyasət səciyyəvidir və ön plandadır. Əgər ölkədə sənaye güclü inkişaf etməkdədirsə, ölkənin xarici siyasəti getdikcə daha çox imperialist xarakter daşıyır. Yox, əgər ölkədə sənayenin inkişafı ölgünləşirsə, onun xarici siyasətində imperialist meyillər də zəifləyir.

Yeri gəlmişkən qeyd edim ki, dövlətin xarici siyasətinin onun daxili siyasəti ilə müəyyənləşməsi barədə məşhur fikir əsas etibarı ilə sənayenin güclü inkişaf etdiyi və inkişaf etməkdə olduğu böyük ölkəyə, fövqəldövlətə aiddir. Sənayenin güclü inkişaf etdiyi və inkişaf etməkdə olduğu böyük ölkənin, fövqəldövlətin sənayenin güclü inkişaf etmədiyi ölkələrə, kiçik dövlətlərə münasibəti çox zaman onun öz daxili inkişaf təmayüllərindən irəli gəlir. Kiçik dövlətlərin xarici və daxili siyasətləri arasındakı münasibət isə bir qədər bunun əksinədir. Kiçik dövlətlərin daxili siyasəti çox zaman fövqəldövlətin onlara olan münasibətindən irəli gəlir. Onların xarici siyasəti buna görə də, çox zaman fövqəldövlətin mənafeyini, daha dəqiq deyilərsə, əcnəbi maliyyə və sənaye inhisarlarının mənafeyini ifadə edir. Kiçik dövlətləri öz nəzarəti altında saxlayan xarici siyasət şəraiti, beynəlxalq vəziyyət bununla da onların daxili siyəsətinin xarakterinə əsaslı təsir göstərir. Böyük dövlət beynəlxalq vəziyyətin yaradıcısı, kiçik dövlət isə beynəlxalq vəziyyətə uyğunlaşandır.

Hətta mən deyərdim ki, ***qlobal problem ideyası***nın arxasında da müəyyən qədər vahid superdövlət istəyi durur.

Əgər böyük ölkənin aparıcı siyasi partiyaları milli üstünlük motivlərinə istinad edərək kiçik ölkələri *öz inhisarları*nın təsir dairəsi altına salma istiqamətində fəaliyyət göstərirlərsə, kiçik ölkələrin «demokratik partiyalar»ı öz ölkələrini əslində əcnəbi sənaye maqnatlarının təsiri altına salma istiqamətində fəaliyyət göstərirlər.

İmperiya sənaye cəhətdən inkişaf etmiş ölkənin sənaye cəhətdən inkişaf etməmiş ölkə ərazisində öz koloniyalarını salması ilə başlayır. Sənaye cəhətdən inkişaf etmiş ölkənin sənaye cəhətdən inkişaf etməmiş ölkədə saldığı bu koloniyalar hər şeydən öncə sənaye cəhətdən inkişaf etməmiş ölkənin təbii ehtiyatlarının sənaye ölkəsi tərəfindən istismarına təyinatlıdır.

Əgər sənaye ölkəsinin aqrar ölkə ərazisində saldığı koloniyalar öz işinə aqrar ölkənin təbii ehtiyatlarının yerli hakimiyyətlə birgə istismarından başlayırlarsa, bu koloniyalar sonradan yerli hakimiyyətin təbii ehtiyatlar üzərində mülkiyyət hüququnu tədricən azaldır və bir çox hallarda təbii ehtiyatların tam sahibinə çevrilməkdən ötrü yerli hakimiyyəti faktiki olaraq hətta tamamilə məhv edirlər.

Yerli əhalinin himayəçisi olan yerli hakimiyyət məhv edildikdən sonra isə yerli əhali himayədən məhrum olmuş olur, məhkum xalqa çevrilir.

İmperiya bununla da öz inkişafının məntiqi sonuna yetişir, milli mənsubiyyətin verdiyi hakimiyyət formasını alır.

İmperial hakimiyyət tiranik hakimiyyətdən fərqli olaraq, fərdi xarakter daşımır, milli xarakter daşıyır. Əgər tiraniya bir insanın başqaları üzərində hakimiyyəti idisə, imperiya bir xalqın başqa bir xalq üzərinə hakimiyyəti olur. Əgər tiranik hakimiyyətin qütblərində *hökmdar* və *təbəə* durursa, imperial hakimiyyətin qütblərində *hakim xalq* və *məhkum xalq* durur.

İmperiya öz həqiqi təyinatından ən çox uzaqlaşmış dövlət forması olmaqla qeyri-stabildir. Burada daimi olaraq respublikaya və monarxiyaya qayıdış meyilləri müşahidə olunur. Lakin imperiya həqiqi aristokratizmin tükənməsi ilə şərtləndiyindən bu meyillər əksər hallarda uğursuzluqla nəticələnir.

Əgər sənaye cəhətdən inkişaf etmiş ölkənin sənaye cəhətdən inkişaf etməmiş ölkə ərazisində saldığı koloniyalar öz fəaliyyətinə sənaye cəhətdən inkişaf etməmiş ölkənin təbii ehtiyatlarını istismar etmək işindən başlayırlarsa, sənaye cəhətdən inkişaf etməmiş ölkənin xalqını istismar etmək işində öz fəaliyyətini başa çatdırırlar.

Bununla belə imperiyanın bir dövlət forması olaraq xarakteristikasında həmçinin müsbət cəhətlərə də diqqət yetirməsək, bu ədalətdən uzaq olmuş olardı. Xeyirxahlıqları az olan, lakin firavanlığı və sivilizasiyaları çox olan xalqların yaratdıqları imperiyalar koloniyaların daha firavan və sivilizasiyalı olmasında müəyyən rol oynadığı kimi, sivilizasiyaları az olan, lakin cəsarətləri və hünərləri çox olan xalqların yaratdıqları imperiyalar koloniyaların cəsarətli və hünərli olmasında müəyyən rol oynayır. İmperiya bütövlükdə isə özünü yalnız o halda doğruldur ki, aristokratik resursları gərəkli olduğundan çox olan xalqın aristokratik resursları gərəkli olduğundan az olan xalq üzərində himayə sistemi olmuş olsun.

Bu isə nadir hallarda baş verir, hətta qismən belə. Bütövlükdə isə heç vaxt. Müstəmləkə zülmünə düçar olan kəsin vəziyyəti bəzən tiraniya zülmünə düçar olan kəsin vəziyyətindən daha acınacaqlı olur.

Kolonializm şəraitində xalq rəiyyət olaraq himayə olunmadığı üçün bəndə olaraq himayə olunmaq istəyir. Xalqın rəiyyətlik duyğusu korşalır, bəndəlik duyğusu isə son dərəcə inkişaf edir.

## MAHİYYƏTİN GERÇƏKLƏŞDİRİLMƏSİNƏ YÖNƏLƏN İRADƏNİN TRANSSENDENTLƏŞDİRİLMƏSİ: *TEOKRATİYA*

Öz insani mahiyyətini öz təxəyyülünün işığında görə bilməyən, özünün dünya ilə ziddiyyətlərinin həlli üçün öz zəkasından ideya ala bilməyən, dünyada özünü öz iradəsi ilə təsdiq edə bilməyən insanın özgə təxəyyülünə, özgə zəkasına, özgə iradəsinə güvənməkdən başqa bir çarəsi yoxdur.

Müstəmləkə əsarəti altında olan xalqın durumu da əsasən belədir. Öz təxəyyülünə, öz zəkasına, öz iradəsinə güvəndiyi halda, o, qiyam qaldırır, öz dövlətini özü qurur, özünün təxəyyülü, özünün zəkası, özünün iradəsi əsasında. Belə olmadıqda, onun müstəmləkəçisi olan xalqın mərhəmətinə bel bağlayır. Belə bir mərhəmətin olmadığı halda isə, Tanrıya bel bağlayır.

Din çox zaman görünür elə buna görə də məhz kölə xalqın içərisində formalaşır. Xatırladım ki, iudaizm Misir tərəfindən kölələşdirilmiş yəhudi xalqı içərisində, xristianlıq isə əslində Roma tərəfindən kölələşdirilmiş yunan xalqı içərisində təşəkkül tapmışdı, xristianlığın yəhudi xalqının nümayəndəsi tərəfindən yaradılmasına baxmayaraq[1]. İslama qaldıqda isə, o, özünün bütün digər özəllikləri

[1] Ən azı ***İncil***in orijinal mətninin yunan dilində olması bunu deməyə imkan verir. Elə ***incil*** sözünün özü də yunan mənşəlidir. *İncil* və ya orijinalda olduğu kimi, ***euangelion*** sözü yunan dilindən ***müjdə, xeyirxəbər*** deməkdir. Həmin müjdə, xeyirxəbər isə Yer üzərində ilahi padşahlığın, ilahi quruluşun, yəni müasir terminlərlə deyilərsə, teokratiyanın yaradılacağı barədə xəbərdir. Yeri gəlmişkən qeyd edim ki, yunan mənşəli olan, yunan dilində ***tanrı*** mənasını

ilə yanaşı, həm də Sasani İranının kölələşdirmə siyasətinə qarşı ərəblərin etirazının bir ifadəçisi oldu.

Əgər iudaizm və xristianlıq öz xalqını Tanrının himayəsi ilə özgə xalqın zülm və əsarətindən qurtarmaq istəyindən və niyyətindən doğulmuşdusa, islam həm öz xalqını, həm də və daha çox özgə xalqları zülm imperiyasına, ədalətsizliyin timsalına çevrilmiş Sasani dövlətinin zülmkarlığından xilas edərək Tanrının himayəsi altına vermək yolunu tutdu, ən azı yarandığı zamanlarda. İslamın formalaşması bir qədər spesifik şəraitdə baş versə də, əsarətdən xilas istəyi onun da özülünü təşkil etdi.

Əsarət altında olan xalqların və həmçinin də əhalinin milli əsarət altında olmasa da, əslində əsarət altında olan, yəni sosial əsarət altında olan hissəsinin dünyagörüş paradiqması kimi formalaşan din və məhkum insanın Tanrı himayəsinə sığınma həsrəti qədim imperiyaların çökməsi və dağılması prosesində bütövlükdə cəmiyyətdə hakim mövqe tutmağa başlayır.

Qədim imperiyaların çökməsi və sonradan dağılması isə ilk növbədə siyasi aristokratizmin tükənməsi ilə şərtlənir. İmperiyalar başlıca olaraq o səbəbdən çökür ki, siyasi hakimiyyət öz nəzarətində olan məmləkətlərə daha tam mənada sahiblik edə bilmir, üstəlik, bundan da daha vacib olanı odur ki, nəhəng insan kütlələrini daha himayə edə bilmir.

Bununla belə imperiyaların təbii tənəzzülü, süqutu və bunun nəticəsində də insanlığın insani aristokratizmdən və insani aristokratizmin bütün cəmiyyət miqyasında ifadəçisi olmağa təyinatlı olan siyasi hakimiyyətdən üz döndərərək əgər belə demək mümkündürsə, fövqəlbəşər aristokratizmə – ilahi qüdrətə üz tutması təkcə insani əsaslardan deyil, həm də əgər belə də demək mümkün-

---

verən ***theos*** sözü ilə ***hakimiyyət*** mənasını verən ***kratos*** sözünün birləşdirilməsindən əmələ gələn, bütövlükdə yunan dilindən tərcümədə, elə kontekstdən də göründüyü kimi, ***tanrının hakimiyyəti*** mənasını verən ***teokratiya*** sözü transsendentləşdirilmiş iradəni ifadə etmək üçün son dərəcə uğurlu termindir, xüsusən imperiyasonu və postimperial siyasi duruma tətbiqən.

dürsə, ekoloji əsaslardan doğur. Əgər imperiyaların süqutu və çökməsi, bir tərəfdən, siyasi hakimiyyətin aristokratik resurslarının tükənməsi ilə şərtlənirsə, digər tərəfdən, təbii resursların tükənməsi ilə şərtlənir[1]. Əgər aristokratik resursların tükənməsi imperiyanın siyasi dayaqlarını zəiflədir və məhv edirsə, təbii ehtiyatların tükənməsi onun iqtisadi dayaqlarını zəiflədir və məhv edir.

Dinin hökmranlığı yalnız insanın zülmündən deyil, eyni zamanda həm də təbiətin zülmündən xilas olmaq həsrətindən doğulmuşdu.

Digər tərəfdən, təbiət və cəmiyyət arasındakı münasibətlər sisteminin ziddiyyətləri siyasi hakimiyyətin vəzifələrini mürəkkəbləşdirdiyindən, cəmiyyətin idarə olunmasını və eyni zamanda siyasi hakimiyyətin durumunu da mürəkkəbləşdirir, həm maddi, həm də mənəvi durumunu. Nəticədə isə hakim xalqın siyasi hakimiyyət subyekti olaraq statusu zəifləyir, bu da onun sosial həyatın idarə olunmasından getdikcə daha çox uzaqlaşmasına və uzaqlaşdırılmasına, dolayısı yolla deməli ki, onun mənəvi iflasına gətirib çıxarır.

Dünyəvi hakimiyyətin çökməsi özlüyündə isə arasıkəsilməyən çəkişmələrin, talanların və epidemiyaların geniş vüsət alması ilə, təhsilin öz əvvəlki əhəmiyyətini itirməsi ilə, kütləvi savadsızlığın özünə kök salması ilə paralel olaraq baş verir. Şəhərlər dağılır, sənətkarlıq və ticarət iflasa uğrayır, əmtəə istehsalı öz yerini natural təsərrüfata verir. Dinin hökmranlığı məhz belə bir zəmində başlayır. İlahi iradə ictimai ədalətsizliyə, zorakılığa və tənəzzülə qarşı qoyulur[2].

---

[1] ***J.Dorst*** soyadlı bir fransız alimi Roma imperiyasının çökməsini də həmçinin ekoloji səbəblə bağlamışdır: antik dünyanın son sivilizasiyası Aralıq dənizi ətrafını səhraya döndərmiş, torpağın eroziyası keçmişin böyük imperiyasının dağılmasını qabaqcadan şərtləndirmişdir.

[2] Roma imperiyasının çökməsi dövründə belə bir qarşıqoyulma Avqustinin dili ilə ifadə olunur. Avqustin ***insanın hakimiyyəti***nə qarşı ***Tanrının hakimiyyəti***ni qoyur. İlahi iradənin ictimai ədalətsizliyə və zorakılığa qarşı qoyulmasından

Ədalətin mütləq mənbəyi və gerçəkləşdiricisi olaraq artıq hər hansı bir xalq, və ya hər hansı bir insan deyil, birmənalı olaraq yalnız Tanrı qəbul edilə bilir, insan bu halda yalnız Tanrının hakimiyyətini, ***teokratiya***nı qəbul edə bilir.

Teokratiya bir kütləvi-ictimai, müəyyən mənada kütləvi-siyasi şüur forması olaraq özünü təsdiq etdikcə, ədalətin Yer üzündə bərqərar edilməsi öhdəliyi və məsuliyyəti tədricən insanın üstündən götürülərək, Tanrının üstünə qoyulur. İnsan özünü yuxarıdan dəstəklənməyə, ədalətli rəftara, rəhmə və mərhəmətə möhtac olan fani bir məxluq kimi, əbədi Tanrının bir bəndəsi, bir qulu kimi qavradıqca, Tanrını ədalətin, mərhəmətin və rəhmin dayağı kimi, dünyanın ağası[1] kimi qavrayır.

Tanrı burada həm bəşəriyyəti öz himayəsi altında, həm də təbiəti öz hökmü altında saxlaya bilən qüdrətli və mütləq şəxsiyyət olaraq qəbul edilir. Bütün Kainatın fövqündə duran mütləq personal başlanğıc statusuna malik olmaq etibarı ilə Tanrı burada əslində dünyanın transsendent mahiyyəti, dünya isə onun təzahür forması olmaqla yanaşı, onun həm də müəyyən dərəcədə himayə məkanı olaraq anlaşılır.

---

çıxış edərək, Avqustin insan cəmiyyətinin inkişafını Tanrının tərəfdarları ilə əleyhdarlarının mübarizə tarixi kimi qiymətləndirir.

[1]İdeal himayəçinin malik olmalı olduğu xüsusiyyətlər Tanrının xarakteristikasında aşkar bir tərzdə sezilir. Tanrının keyfiyyətləri onun səciyyələndirilməsindəki çoxcəhətlilikdə əks olunur: Tanrı kamildir, qüsursuzdur, haqdır, həqiqiliyi şübhə alına bilmədiyi üçün, müqəddəsdir, vahiddir, fövqəltəbiidir, laməkamdır, əbədidir, yaradılması və məhvi mümkün deyildir, dərkedilməzdir, bütün biliklərə sahib olduğundan müdrikdir, rəhmlidir, şəfqətlidir, ədalətlidir, qadirdir, qüdrətlidir, dünyanın sahibidir. Tanrının keyfiyyətləri onun yalnız səciyyələndirilməsində müşahidə olunan çoxcəhətlilikdə deyil, onun həm də adlandırılmasında müşahidə olunan çoxcəhətlilikdə əks olunur: Tanrının çoxsaylı səciyyələri onun çoxsaylı adlarına uyğun gəlir. Bizim doğma islam təfəkkür ənənələrində də Tanrının bir çox adları vardır: səməd (əbədi), rəhman (rəhmli), haqq (ədalətli), rəbbüləlmin (dünyaların ağası) ... Bütün bu xarakteristikalar eyni zamanda himayəyə möhtac olan kəsin himayəçidə görmək istədiyi əlamətlərdir.

Dövlət himayəsinin yerini burada artıq Tanrının hidayəti tutur. Tanrının hidayəti - Tanrının bəndə üzərində himayəsidir, bəndəyə rəhbərliyidir, bəndəni doğru yola çağırmasıdır və doğru yolla irəliləməsinə dayaq durmasıdır.

*Zadəganın himayə məkanında* özünü **rəiyyət** kimi, *tiranın və monarxın himayə məkanında* özünü **təbəə** kimi, *demokratik dövlətin himayə məkanında* özünü **vətəndaş** kimi tanıyan və dərk edən insan *Tanrının himayə məkanında* özünü **bəndə** kimi, Tanrının qulu kimi tanıyır və dərk edir.

Tanrının özü gözlə görünən dünyadan kənarda, transsendent dünyada təsəvvür edildiyindən, Tanrının mütləq himayə məkanının da əslində transsendent dünyada olduğu qəbul edilir. Transsendent dünyaya aid edilən bu məkanın adı isə əlbəttə ki, cənnətdir.

Amma onu da unutmaq olmaz ki, dünyəvi problemlərin transsendental həlli ilk növbədə və əslində onların həll olunması üçün dünyəvi vasitələrin yoxluğu ilə şərtlənir. Cəmiyyətin olduğu vəziyyət olmalı olduğu vəziyyətə ***bu dünya***da, Yer üzərində yüksəldilə bilmədiyindən, onun olmalı olduğu vəziyyət cənnət adlandırılan ***başqa dünya***ya, transsendent dünyaya köçürülür. İnsan mahiyyəti hisslərlə qavranılan dünyada real olaraq gerçəkləşdirilə bilmədiyindən, transsendent dünyada xəyali olaraq gerçəkləşdirilir.

Amma insan öz insani mahiyyətinin yalnız xəyali olaraq gerçəkləşdiriləcəyi ilə, Tanrının mütləq himayə məkanının yalnız transsendent dünyada olması düşüncəsi ilə təbii ki kifayətlənə bilmir. O, eyni zamanda bu dünyanın da Tanrının himayə məkanı olmasını real olaraq görmək istəyir, Tanrının mütləq himayə məkanı olmasa da, ən azı nisbi himayə məkanı olmasını görmək və buna qəlbən inanmaq istəyir. Bəndə Tanrının himayəsinin həm də bu dünyada, Yer üzərində təcəssümünü axtarır, ilahi iradənin və onun ifadə etdiyi mütləq əxlaqın və ədalətin həm şəxsi həyatda, həm də siyasətdə mücəssəməsini arayır.

Bunun üçün isə o, ən azı iki yoldan istifadə edir.

Birincisi, Tanrının o dünya ilə yanaşı həm də bu dünyada himayəsinə nail olmaq üçün öz həyatını müqəddəs yazının tələbləri əsasında qurur[1], şüur səviyyəsində olmasa da, ən azı təhtəlşüur səviyyəsində Tanrıdan bunun əvəzini gözləyir.

İkincisi, teokratiyanı yalnız kütləvi-ictimai şüur forması olaraq deyil, həm də, siyasi gerçəklik forması olaraq qərarlaşdırmaq, ədalətin Yer üzərində bərqərar edilməsi öhdəliyini və məsuliyyətini yalnız və büsbütün Tanrının üzərinə deyil, həm də bir qədər öz üzərinə də götürmək qərarına gəlir.

Birinci yol Tanrının daha çox rəiyyət platformasından çıxış edilərək anlaşılması ilə bağlıdır, ikinci yol isə zadəgan platformasından çıxış edilərək.

Yuxarıda xatırlatdığımız nümunələrdə bu hallardan hər ikisi yer almışdı. **Yəhudilər** Musanın başçılığı altında iudaizm dinini bir ideologiya olaraq qəbul etdikdən sonra, Misirin zülmündən xilas olaraq öz teokratik Yəhudi padşahlığını yaratdılar. **Yunanlar** *İncil*də xəbər verilən, vəd olunan günü, İsa Peyğəmbərin qayıdacağı və Yer üzərində ilahi padşahlığı, ilahi quruluşu yaradacağı günü gözləməklə kifayətlənmədilər, bu günü yaxınlaşdırmağa səy etdilər və səylərinin nəticəsində də nəsə alındı. Yunanlar xristianlıq dinini bir ideologiya olaraq qəbul edərək Roma İmperiyasının parçalanmasının aktiv iştirakçısı oldular və onun iki yerə parçalanmış hissələrindən biri - *Şərqi Roma İmperiyası* – üzərində özlərinin teokratik *Bizans İmperiyası*nın yaradılmasına nail oldular. Onlar buna həm dünyagörüş və ideologiya olaraq qəbul etdikləri xristianlığın vasitəsilə,

[1] Bütövlükdə cəmiyyətin həyat tərzi müqəddəs yazılara keçirilərək kanonlaşdırılır. Belə həyat tərzinin fövqəltəbii şəkildə insanların səadət idealları ilə onların real dünyadakı vəziyyəti arasındakı fərqi aradan götürəcəyi qəbul olunur. İdeal gerçəklikdən ayrıldığından real dünya illüziyaya çevrilir. İnsanın həqiqi mahiyyəti onun hisslərlə qavranılan dünyadakı real mövcudluğuna qarşı qoyulur. Bununla əlaqədar Avropa orta əsr sxolastikasının əsas anlayışlarından biri olan «essentia» («mahiyyət») anlayışının «existentia» («mövcud olma») anlayışına əks kontekstdə nəzərdən keçirilməsinin heç də təsadüfi olmadığına əmin ola bilərik.

həm də Romanın siyasi hakimiyyətinin gücündən məharətlə istifadə etməklə nail oldular. **Ərəblər** islam dinini bir ideologiya olaraq qəbul edərək Sasani İranını bütövlükdə məğlub etdilər və onun xarabalıqları üzərində teokratik dövlətlərini - *Xilafət*i yaratdılar.

Ərəblər nəhəng Sasani İranını demək olar ki asanlıqla məğlub etdilər. Çünki ərəblər buraya qılıncla daxil oluncaya qədər islam buraya kitabla, *Quran*la daxil olmuşdu.

Dinin hökmranlığı bəzən xalqın özünü siyasi təslimə hazırlamasını da ifadə edir. Din bəndənin dünyaduyumunun ifadəçisi olmaqla yanaşı müəyyən dərəcədə həm də rəiyyət dünyaduyumunun ifadəçisi olur. Çünki rəiyyət də bəndə kimi özü üzərində himayəçi axtarandır. Dövrün dominant təfəkkürü statusu doqmatik təfəkkürə məxsus olduğu halda avtoritar təfəkkür də özünün geniş tətbiq sahəsini tapır.

Teokratik hakimiyyət avtoritar təfəkkürə istinad edir və başlıca olaraq aqrar ölkə üçün yararlıdır və mümkündür. Din lap başlanğıcdan əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyətinin dünyagörüşü kimi meydana çıxdığından, dinin hökmranlığı məhz icma mədəniyyətinin həmin bu ilkin formasını, əkinçi həyat tərzini ön plana çıxarır. Teokratik hakimiyyət dünyəvi hakimiyyəti sıxışdıraraq arxa plana atdıqca isə şəhər mədəniyyətinin inkişafı da artıq arxa plana atılmış olur. Şəhərin kənd üzərində hökmranlığına yenidən son qoyulur, indi əksinə kəndin şəhər üzərində hökmranlığı olmasa da, kəndli dünyagörüşünün şəhərli dünyagörüşü üzərində üstünlüyü qərarlaşmağa başlayır Hətta şəhər mədəniyyətinin fundamentini təşkil edən determinizm prinsipinin özü də dini inamın məntiqi olaraq əsaslandırılma formalarından birinə çevrilir[1].

---

[1] *Əgər hadisələr arasında səbəbiyyət əlaqəsi varsa, təbii olaraq ilk səbəbə də ehtiyac olmalıdır. Həmin ilk səbəb isə Tanrıdır.* Bu, Tanrının varlığını sübut etmək məqsədini öz qarşısına qoymuş məntiqi izahların ən geniş yayılanlarından biridir. Lakin dinin hökmranlığı dövrünün mütəfəkkirləri determinizm prinsipi əsasında təbiəti deyil, yalnız Tanrını, qimən də insan həyatını mənalandırırdılar. Dinin hökmranlığı dövrünün mütəfəkkirləri başlıca olaraq transsen-

Dinin hökmranlığı şəraitində təkcə şəhər mədəniyyəti deyil, zadəgan mədəniyyəti də öz prinsiplərini dinin fonunda yenidən mənalandırmalı olur[1].

Bu hal teokratiyanın bir real siyasi hakimiyyət olaraq mövcud olduğu şəraitində özünü daha qabarıq bir şəkildə göstərir.

Teokratik hakimiyyətin subyekti qütbündə dayananlar da, onun obyekti qütbündə dayananlar kimi vahid Tanrıya inananlardır, əks halda teokratik hakimiyyət sistemində onlara yer olmazdı. Lakin teokratik hakimiyyətin subyekti qütbündə dayananlar əsasən Tanrının zadəgan dünyagörüşü platformasından çıxış edilərək anlaşılması mövqeyində, onun obyekti qütbündə dayananlar isə Tanrının rəiyyət dünyagörüşü platformasından çıxış edilərək anlaşılması mövqeyindədirlər, əlbəttə ki əsasən.

Əgər zadəgan dünyagörüşü dünyanın mahiyyətində dünyanı daxildən nizama salmalı olan immanent təbiətli Dünya Zəkasının varlığını görürsə və Vahid Tanrını məhz bu mənada anlaşılan Dünya Zəkası ilə eyniləşdirirsə, rəiyyət Vahid Tanrının timsalında dünyaya onun xaricindən, daha doğrusu fövqündən hökm edən hökmdarı görür. Zadəgan dünyagörüşü Tanrının immanent anlaşılmasına me-

---

dent xarakter verdikləri günah və əzab, savab və bərəkət kimi əxlaqi sərvətlərlə bağlı problemləri həll etmək niyyətində olduqlarından, təbiət haqqında, maddi səbəblər haqqında fikirlər onların diqqət mərkəzindən kənarda qalırdı. Maddi dünya mənəvi dünyanın əzəməti qarşısında kiçilir, ölgünləşirdi.

[1] Əgər aristokratik dini təfəkkürdə dünyanı hərəkətə gətirən səbəb dünyanın özündən ayrıla bilməyən ruhudursa, rəiyyətin dini təfəkküründə belə bir səbəb mövcudata transsendent olan yaradıcı başlanğıcdır: Kainat da, insan ruhu da Tanrının bircə *ol* kəlməsi ilə yaranmışdır. Tanrını yaradıcı başlanğıc kimi səciyyələndirən fəlsəfə öz başlanğıcını Sokratdan götürür. Ənənəvi olaraq Platonun adı ilə bağlanan ideyalar real və dəyişməz olmaqla yanaşı hisslərlə qavranılan dünyada öz təcəssümünü tapmalıdırlar. İdeya həmişə nəyinsə haqqında olduğu üçün yoxluqdan varlığa keçidi müəyyənləşdirən yaradıcılıq aktı labüddür. «Fikir insan ruhundan qeyri bir yerdə yarana bilərmi?» sualına cavab verərkən Sokrat Tanrıya iqtibas edir: əgər hansısa öz-özlüyündə bilik mövcuddursa, o bizim biliklərimizdən çox mükəmməldir, Tanrıdan başqa heç kəs bu biliyə sahib ola bilməz. (Платон. Парменид. - Соч. т. M., 1970, c. 414.)

yilli olduğu halda, rəiyyət dünyagörüşü Tanrının transsendent anlamına meyillidir[1].

Əgər zadəgan Tanrını, onun qüdrətini öz qəlbində, öz ürəyində duyursa, Tanrının nizamlı və ədalətli dünya yaratmaq missiyasını müəyyən dərəcədə həm də öz missiyası bilirsə, rəiyyət Tanrının varlığının dünyanın və sözsüz ki rəiyyətin özünün də fövqündə olduğunu qəbul edir, Tanrının nizamlı və ədalətli dünya yaratmaq missiyasından özünü kənarda saxlayır, nizamı və ədaləti Tanrıdan yalnız umur, onun qüdrətindən yalnız faydalanmaq istəyir.

Bu səbəbdən də əslində zadəganın yaradıcılıq potensialının bir predmetləşmə forması olaraq meydana çıxan dövlət eyni zamanda həm də Tanrının nizamlı və ədalətli dünya qurmaq missiyasının Yerdə müəyyən dərəcədə mücəssəməsi hesab edilə bilər. Zadəgan bunu Tanrının dünyanı nizama salmaq və ədalətli dünya qurmaq missiyasını müəyyən dərəcədə həm də öz missiyası bilərək edir[2]. Zadəgan bununla da, eyni zamanda həm də rəiyyətin Tanrıdan umduğunu edir.

Zadəganın siyasi idealları və bu ideaların gerçəkləşdirilməsinə yönələn fəaliyyəti də rəiyyətin siyasi ideallarından və fəaliyyətindən təbii ki, fərqlidir. Zadəganın siyasi fəaliyyəti nizamlı və ədalətli cəmiyyət qurmaqla insanları xaosun və ədalətsizliyin pəncəsindən

---

[1] Zadəgan eləcə də təbiətdə müşahidə olunan məqsədyönümlülüyün immanent anlaşılmasına üstünlük verdiyi halda, rəiyyət bu halda da transsendent anlama üstünlük verir. İmmanent teleologiyadan transsendent teleologiyaya keçid Avropada Foma Akvinalı tərəfindən həyata keçirilir.

[2] Avqustin Avropa üçün məhz bu missiyanı həyata keçirdi. O, insan təbiətini dərindən öyrənməklə ruhun ənginliklərində yurd salmış həqiqəti aşkara çıxarmağı özünün intellektual ehtiyaclarının məqsədinə çevirdi və bununla da, mahiyyətin transsendentliyi ideyasından mahiyyətin immanentliyi ideyasına qayıtdı. İnsan, öz ilahi mahiyyətindən uzaqlaşdıqca nadanlaşır, bu mahiyyəti dərk etdikcə, ona yaxınlaşdıqca isə kamilləşir, haqq yoluna, Tanrı yoluna qayıdır. Görünür elə Avqustinin özü dünyanı həmin bu haqq yoluna, Tanrı yoluna qaytaran kəs olaraq artıq Qərbi Avropada, *Qərbi Roma İmperiyası*nın xarabalıqları üzərində teokratiyanın qurucusu oldu.

qurtarmağa istiqamətli olduğu halda, rəiyyətin siyasi fəaliyyəti dövlətə, xüsusən də onun təmsilçilərinə xidmət göstərməklə bundan faydalanmağa yöndəmlidir.

Ədalətin və nizamın zadəgan anlaşılması da onların rəiyyət anlaşılmasından təbii ki, fərqlənir. Özü də yalnız yuxarıda xatırlanan o əlamətlə yox ki, zadəgan ədalətin gerçəkləşdirilməsini özünün missiyası hesab etdiyi halda, rəiyyət bu missiyanı dünyanın transsendent mahiyyəti ilə bağlayır.

Əgər zadəgan, ədalətin real ifadəsini hər bir konkret insan tərəfindən tutulan sosial məkanın həmin insanın təbii təyinatına uyğunluğunda görürsə, rəiyyət ədalətin real ifadəsini *əvəz prinsipi*nin gözlənilməsində görür.

Əgər zadəgan dünyanın ədalətsizlik girdabında boğulmasını dünyanın öz ilahi mahiyyətindən qopub ayrılması ilə izah edirsə, rəiyyət insanların bu dünyada düçar olduqları əziyyəti, mənəvi və maddi yoxsulluğu onların günahlı həyatı ilə izah edir.

Əgər zadəgan Tanrını dünyanı gözəlləşdirməli və həqiqiləşdirməli olan bir mahiyyət olaraq anlayırsa, rəiyyət Tanrını insanlara yaxşı əməllərinə görə mükafat, pis əməllərinə görə isə cəza verən, bir qədər konkretləşdirilsə, möminlərə cənnət bəxş edən, haqq yolundan çıxanları isə cəhənnəm oduna yandıran, itaətkarları nemətləndirən, asiləri isə məhrumiyyətlərə düçar edən, son nəticədə deməli ki, saleh işlər görən kəslərə də, küfr etmiş kəslərə də «ədalət»lə *əvəz verən* bir qüvvə kimi qavrayır. Rəiyyət ədalətin gözlənilməsini məhz *əvəz prinsipi*nin dəqiq icrasında görür.

Əvəz prinsipinin hüquqi ifadəçisi olan qanunların özləri də teokratiya şəraitində transsendentləşdirilir. Dünyəvi hüququn və dünyəvi qanunların mənbəyi transsendent mənşəli *müqəddəs yazı* olur.

Bununla yanaşı belə bir məqamı da qeyd etmək istərdim ki, teokratiya şəraitində yalnız hüquqa deyil, əxlaqa da ilahi mənşə şamil edilir, mənəvi və əxlaqi dəyərlər özlərinin maddi substratından ayrılır, ona qarşı qoyulur, hüquqi normalarla yanaşı eləcə etik normalar da ilahi iradənin ifadə formasına çevrilir. Hüquqi normalar kimi elə mənəvi, əxlaqi normalar da burada ilahi iradənin ifadə for-

malarına aid edildikləri üçün ayrı-ayrı insanların baxış bucağından göründüyü kimi deyil, subyektiv məzmun olaraq deyil, real, obyektiv məzmun olaraq məna kəsb edir. Bu məqam çox yəqin ki, teokratik hakimiyyətin həm obyekti qütbündə dayananlar üçün, həm də onun subyekti qütbündə dayananlar üçün qəbul ediləndir. Fikir ayrılığı yalnız həmin mənəvi və əxlaqi dəyərlərin dünyanın ilahi mahiyyəti ilə bağlılıq tərzinin araşdırılması zamanı meydana çıxır. Teokratik hakimiyyətin obyekti qütbündə dayananlar üçün dəyərlər dünyanın ilahi mahiyyəti ilə o tərzdə bağlıdır ki, onları dünyanı yaradan və onun fövqündə duran Tanrı belə buyurmuşdur, transsendent ilahi iradənin hökmü belədir. Teokratik hakimiyyətin subyekti qütbündə dayananlar üçün isə mənəvi və əxlaqi dəyərlər dünyanın immanent ilahi mahiyyətinə daxilən xasdır, bu mahiyyətdən ayrılmazdır. Hər iki halda fərdi davranışın doğurmalı olduğu ictimai reaksiyanın normaları kimi, fərdi davranışın özünün prinsipləri də ilahi mənşəyə aid edilir və bu prinsiplər mütləq əxlaqi prinsiplər statusunu kəsb edir.

Mütləq əxlaqi prinsiplərin real dünyada gerçəkləşdirilmə məqamına qaldıqda isə onların onları öz daxilində duyan insanın mövqeyindən çıxış edilərək gerçəkləşdirilməsi ilə səlahiyyətləndirilmiş rəsmi dini strukturların mövqeyindən çıxış edilərək gerçəkləşdirilməsi arasında fərq böyükdür.

Cəmiyyətin siyasi həyatında dini strukturlarının rolunun artması başqa amillərlə yanaşı həm də problemlərin ilahi əxlaqı öz daxilində yaşadanlar tərəfindən həll olunma imkanlarının tükənməsi ilə şərtlənir.

Lakin, əgər *teokratiyanın* başlanğıc məqamında, yəni onun *yalnız kütləvi-siyasi şüur forması olaraq mövcudluq çağında* dini təfəkkürün ön plana çıxması aristokratik təfəkkürü arxa plana atdısa, aristokratik təfəkkürün öz təbii təyinatını bərpa etməyə və təsdiq etməyə başlaması ilə *teokratiya* özünü *bir siyasi reallıq olaraq* təsdiq etməyə başlayır, Tanrını dünyanın transsendent mahiyyəti kimi, daha doğrusu, mahiyyətdən məhrum olan dünyanın transsendent

başlanğıcı kimi anlayan rəiyyət təfəkkürü bu halda bütövlükdə cəmiyyətin siyasi şüurunda tutduğu hakim mövqeyini Tanrını dünyanın immanent mahiyyəti kimi anlayan aristokrat təfəkkürünə təslim edir.

Teokratiyanın başlanğıc məqamında aristokratik təfəkkür bir müddət arxa plana atılsa da, tarixi gedişatın özü təsdiq etdi ki, hətta teokratiyanın bir siyasi reallıq olaraq mövcudluğu yalnız aristokratizm əsasında mümkündür, bu dəfə dini şüur süzgəcindən keçirilmiş aristokratizm əsasında.

***

Beləliklə, dövlətin mənim anlamımda nə məna kəsb etdiyi və onun hansı tarixi mərhələlərdən gəlib keçdiyi barədə öz mülahizələrimi tarixi ardıcıllıq gözlənilməklə möhtərəm oxucumun diqqətinə çatdırdım. Əgər bu vaxta qədər söylənilənləri ümumi cizgilərdə bir cümlədə ifadə etmək lazım gəlsəydi, onda həmin cümlə təxminən belə olmuş olardı: Mən dövləti insani mahiyyətin gerçəkləşdirilməsinə yönələn iradənin sosial mücəssəməsi kimi qəbul edirəm və onun tarixi təkamülündə həmin bu insani mahiyyətin bu və ya digər dərəcədə gerçəkləşdirilmə məqamını görürəm. Bu cümlə isə özlüyündə spiritualist aristokratizm fəlsəfəsinin siyasi kontekstdə ən yığcam təqdimatı olmuş olardı.

İndi isə həmin bu yığcam təqdimatın bir qədər ətraflı, müfəssəl, geniş aşıqlanması hesab edilə bilən müddəaları, möhtərəm oxucumun münasibət bildirməsini istədiyim başlıca tezisləri onun hüzuruna təqdim edirəm.

## *MONOLOQUN SON NİDALARI*: MÜKALİMƏ ÖNCƏSİ TEZİSLƏR

### 1

Dünyanın Platon, Hobbs, Hegel, Kont, Spenser kimi bir çox məşhur filosofları cəmiyyəti, sözün geniş mənasında, dövləti canlı orqanizmə bənzətmişlər. Bu bənzətməni ən azı metaforik mənada qəbul etməmək isə mümkün deyildir. Elə həmin metaforik mənaya söykənərək belə bir fikir irəli sürülə bilər ki, əgər **siyasi fəlsəfə** bu sosial orqanizmin beyni rolunda çıxış edirsə, **siyasi hakimiyyət** onun ürəyi olaraq çıxış edir. Həmin mövqe platformasında dayanaraq təsdiq etmək olar ki, əgər siyasi fəlsəfə və onun təmsilçiləri sosial orqanizmin zəkasını təcəssüm etdirirlərsə, siyasi hakimiyyət və onun təmsilçiləri sosial orqanizmin iradəsini təcəssüm etdirirlər. Zəka və iradə arasındakı münasibətlər necədirsə, ideya və qətiyyət arasındakı münasibətlər necədirsə, siyasi fəlsəfə və siyasi hakimiyyət arasındakı münasibətlər də elədir. Güclü iradə dərin zəkanı tələb edir. Əgər iradə güclüdürsə, o, daimi olaraq zəkadan qidalanmanı, idraki təminatı, gerçəkləşdirilməli olan yeni ideyaların yaradılmasını, intellektual resursların aktuallaşdırılmasını, məfkurəvi bazanın zənginləşdirilməsini tələb edir. Və əksinə, əgər zəka daimi olaraq inkişafdadırsa, gerçəkləşdirilməsini, deməli ki, güclü iradəni tələb edir. Bu mülahizələri fərd müstəvisindən cəmiyyət müstəvisinə keçirsək, inamla təsdiq edə bilərik ki, əgər siyasi hakimiyyət sosial iradənin təcəssümü olaraq güclüdürsə, o, sosial zəkanın inkişafını, gerçəkləşdirilmək üçün yeni ideyaların yaradılmasını, yeni sosial məqsədlərin müəyyənləşdirilməsini və bunun əsasında da hüquqi və ideoloji bazanın daim yeniləşdirilərək möh-

kəmləndirilməsini, başqa sözlə, siyasi fəlsəfənin daimi inkişafda olmasını tələb edir. Bu məqamın əksinin də analogiyası mövcuddur. Əgər siyasi fəlsəfə məhz sosial zəkanın təcəssümü olaraq inkişaf edirsə, gerçəkləşdirilmə təyinatından qopub-ayrılmayıbsa, sosial iradənin təcəssümü olan güclü hakimiyyəti tələb edir.

**2**

Siyasi fəlsəfənin hər bir tarixi tipi sona qədər inkişaf etdirildikdə, uyğun **siyasi doktrina**nı törədir. Belə siyasi doktrinalara kommunistik siyasi doktrina, tiranik siyasi doktrina, aristokratik siyasi doktrina və demokratik siyasi doktrina aid edilə bilər.

**3**

**İdeal dövlət** kommunistik siyasi doktrinada əxlaq ideyasının, tiranik siyasi doktrinada mərdlik ideyasının, aristokratik siyasi doktrinada insanın təbii təyinatı ideyasının, demokratik siyasi doktrinada isə qanun ideyasının təcəssümüdür.

**4**

**Qanun** – siyasi fəlsəfənin konkret nəticələrinin hakimiyyət tərəfindən tanınması, sanksiyalaşdırılması və icraya qəbul edilməsidir, siyasi fəlsəfənin o konkret nəticələrinin qəbul edilməsidir ki, onların daimi bir prinsip olaraq gerçəkləşdirilməsi üçün məsuliyyəti hakimiyyət öz üzərinə götürür. Qanun bu nöqteyi-nəzərdən, sosial iradənin sosial zəka ilə ortaq məxrəcə gətirilməsidir. Qanunun bir siyasi alət olaraq meydana çıxması ilə siyasi hakimiyyət və siyasi fəlsəfə arasındakı münasibətlər sosial zəkanın və sosial iradənin artıq yalnız konkret canlı təmsilçiləri arasında ünsiyyət xarakterini daşımayıb, həm də siyasi hakimiyyətin canlı təmsilçiləri ilə siyasi fəlsəfənin artıq cansız, ehkamlaşdırılmış nəticələri arasındakı münasibətlərə transformasiya olunmuş şəkildə öz ifadəsini

tapmış olur. Amma qanun bütövlükdə siyasi fəlsəfənin siyasi hakimiyyət tərəfindən bir vaxt, vaxtilə tanınmış, sanksiyalaşdırılmış və icraya qəbul edilmiş cansız, ehkamlaşdırılmış nəticələri olaraq da qalmamalıdır. Sosial zəka dərinləşdikcə və eləcə də sosial iradənin təcəssümü olan siyasi hakimiyyət gücləndikcə, onların ortaq məxrəcə gətirilmə məqamı, yəni qanun da zənginləşdirilməli, inkişaf etdirilməlidir, əlbəttə ki xalqın özünün siyasi fəlsəfəsi əsasında, xaricdən zorla qəbul etdirilən prinsiplər əsasında yox. Görünür həm də elə bu səbəbdəndir ki, bəşər tarixində öz möhtəşəmliyi ilə seçilən ölkələrdə siyasi fəlsəfə bir canlı zəka olaraq həmişə yaşadılır.

**5**

Dövlət özlüyündə, özünün xalisliyində və ilkinliyində nə qanunun, nə də hakimiyyətin mücəssəməsi olmamışdır, nə qanunun müdafiəçisi kimi, nə də hakimiyyətin öz təsir dairəsini genişləndirməsi prosesinin nəticəsi kimi meydana gəlməmişdir, nə qanunun, nə hakimiyyətin, nə də hakimiyyət orqanlarının meydana çıxması ilə yaranmamışdır. Dövlət, qanundan və qanunvericilikdən, hakimiyyətdən və hakimiyyət orqanlarından daha görkəmli və daha əzəmətli bir hadisədir. Çünki **dövlətin mahiyyəti** əslində **onun** hakimiyyət sistemi deyil, **himayə sistemi olmasındadır**. Çünki o, özünün xalisliyində və ilkinliyində insanın zülmdən və zülmkardan himayə məkanıdır.

**6**

İnsanlar zülmə, təzyiqə və azğınlığa məruz qaldıqları zaman özləri üzərində siyasi və ya qeyri-siyasi diktaturanın varlığını, zülmdən, eləcə də azğınlıqdan və təcavüzdən mühafizə olunduqları halda isə özləri üzərində icmanın və ya dövlətin varlığını hiss edirlər. Ən azı elə bu səbəbdən də, sosial həyatın dövlət strukturunun

ixtirası insan zəkasının ən görkəmli nailiyyətləri sırasına aid edilməlidir.

**7**

Hakimiyyətin və siyasətin ən mükəmməli himayəni, ən eybəcəri zülmü xatırladır. Əgər insanın gördüyü iş onun təbii təyinatını gerçəkləşdirməyə istiqamətləndirilibsə, onun təbii təyinatını ifadə edirsə, onun özünütəsdiqinə yönəlibsə və onun bu işdən zorla qoparılıb ayrılmasına yol verilmirsə, bu insan himayə altındadır. Yox, əgər insanın məşğul olduğu iş onun ürəyincə deyildirsə, onun təbii təyinatının ifadəçisi deyildirsə, onda bu iş bütün hallarda insan üzərində zülm və zorakılıqdır, az və ya çox dərəcədə olub-olmamasından asılı olmayaraq. Zülm, zorakılıq – insanın sevmədiyi işi ona gördürmədir. İnsanları zorakılıqdan xilas etmə isə onlara onların həqiqi həyati ideallarını açıb göstərmədir, onlara öz həqiqi təbii təyinatlarını gerçəkləşdirmək, öz sevimli işləri ilə məşğul olmaq inamını və şüurunu vermədir.

**8**

Əgər cəmiyyətdə insanlar öz yerlərində deyillərsə, əgər insanlar öz təbii təyinatlarını gerçəkləşdirmirlərsə, bu cəmiyyət çirkin cəmiyyətdir, ədalətsiz cəmiyyətdir, eybəcər cəmiyyətdir. Bədən üçün xəstəlik adlandırılan eybəcərlik cəmiyyət üçün ədalətsizlik kimi özünü göstərir.

**9**

Dövlət, nə marksizmin güman etdiyi kimi, bir sinfin digər sinif üzərində hökmranlıq aparatı, nə anarxizmin güman etdiyi kimi, insan azadlığı üzərində zorakılıq sistemi kimi, nə də nasionalizmin güman etdiyi kimi, ari xalqının qeyri-ari xalq üzərində hakimiyyəti kimi yaranmamışdır. Həm marksizmin, həm anarxizmin, həm də

nasionalizmin təqdim etdiyi səciyyə ümumiyyətlə dövlətə deyil, öz mahiyyətinə yadlaşmış, eybəcərləşmiş dövlətə aiddir.

**10**

***Xalis dövlət*** aristokratik təfəkkürün, ***hakimiyyət dövləti*** isə praqmatik təfəkkürün təcəssümü və nəticəsidir. Dövlətin himayə sistemi formasında meydana çıxması ideyasına söykənən aristokratik siyasi təfəkkürdən fərqli olaraq mahiyyəti etibarı ilə praqmatik təfəkkür üzərində qurulan potestar konsepsiya dövlətin lap başlanğıcdan hakimiyyət sistemi formasında meydana çıxmasını iddia edir. Dövlətin hakimiyyət və hakimiyyət orqanları formasını alması əslindəsə onun praqmatikləşməsinin məhsuludur. Praqmatik təfəkkür üzərində formalaşan konsepsiyaya ən xarakterik nümunə olaraq Makiavellinin siyasi nəzəriyyəsi göstərilə bilər. Makiavellinin nəzəriyyəsi praqmatik xarakterli siyasi konsepsiyasının ən bariz və ən ilkin formalarından biridir. Üstəlik onu da diqqətə çatdırmaq lazım gəlir ki, Makiavelli dövləti vətəndaş cəmiyyətindən fərqləndirərkən və ona qarşı qoyarkən dövləti dövlət hakimiyyəti ilə eyniləşdirmiş və elə buna görə də dövlətin potestar konsepsiyasının əslində banisi olmuşdur. Marksizmin dövlət nəzəriyyəsi də potestar konsepsiyasının qəbul edilməsi üzərində qurulur. Marksizm ancaq hakimiyyət forması almış dövləti tanıyır və üstəlik dövlətin meydana çıxmasını ondan da daha mühüm hesab etdiyi və ondan daha əvvəl mövcud olduğunu qəbul etdiyi digər bir hakimiyyətlə, iqtisadi hakimiyyətlə, bir sinfin digər sinif üzərində mülkiyyət hakimiyyəti ilə bağlayır. Maraqlıdır ki, praqmatizmə ruhən yad olan anarxizm də dövləti əslində hakimiyyətlə ümumiləşdirdiyi üçün dövlətin təbiətinin ümumən anlaşılmasında potestar konsepsiya mövqeyindən çıxış edir. Lakin, anarxizm hakimiyyətin meydana çıxmasını azadlığın boğulmasının başlanğıcı kimi qiymətləndirərək, onu rədd edir və onunla mübarizə aparır, onu köləliyin mənşəyi və sosial daşıyıcısı hesab edir, potestar konsepsiya bütövlükdə praqmatik təfəkkür üzərində qurulduqda isə anar-

xizmdən fərqli olaraq, hakimiyyətin gətirdiyi köləliyi zəruri hesab edir və ondan faydalanmağa çalışır.

**11**

Həqiqi dövlət həqiqi aristokratizmlə eyni vaxtda doğulur.

**12**

Dövlətin yaranması, təkamülü və süqut etmə mexanizmləri ailənin yaranma, təkamül və süqut mexanizmlərini xatırladır. Ailənin yaranması zamanı kişi hər şeydən öncə qadının həyatı üçün, onun bir qadın olaraq təbii təyinatını gerçəkləşdirmək üçün məsuliyyəti öz üzərinə götürür və qadının öz təbii təyinatını gerçəkləşdirməsinin başlanğıcını qoyur. Qadın bununla da onda daşınan generativ resursların sui-istifadəyə məruz qoyulmaması üçün, yəni övladtörətmə təyinatı ilə istifadə olunması üçün, və eləcə də ümumiyyətlə qadına xas olan altruistik meyillərin də həmçinin təyinatı üzrə gerçəkləşdirilməsi, yəni bu meyillərin övlad böyüdüb boya-başa çatdırması yönümündə gerçəkləşdirilməsi üçün imkan əldə etmiş olur. Bu mənada ailənin yaranması ilə qadın kişinin himayə məkanına qaxil olmuş olur[1].

---

[1] Amma bu qətiyyən kişinin qadına nisbətən üstünlüyündən xəbər vermir. Əgər qadının özü kişinin yalnız nisbi, sosial himayə məkanına qatılmış olursa, bir qədər sadə şəkildə deyilərsə, onun sahib olduğu evdə məskunlaşırsa, amma kişinin bütün nəslinin gələcəyi, nəslin gələcək taleyi, həmçinin də onun öz valideynlərindən və valideynləri vasitəsilə əcdadlarından əxz etdiyi qan yaddaşı, onun məxsus olduğu nəslin demək olar ki, bütün həyat təcrübəsi, əbədiyyətin onun təhtəlşüuruna həkk olunmuş izləri əbədiyyətin qoynunda yaşadılmaq üçün hələ ki yalnız qadının bətnində, hələ ki yalnız qadının sahib olduğu mütləq himayə məkanında etibarlı sığınacaq tapa bilir. Kişinin, eləcə elə qadının da qan yaddaşı hələ ki yalnız qadında daşınan bu mütləq himayə məka-

Ailənin *maskulin* (Kişi) və *feminin* (Qadın) başlanğıcların fərdlər səviyyəsində, daha doğrusu əks cinslərdən olan fərdlər səviyyəsində bir sosial sintez forması olaraq meydana gəlməsinə bənzər bir hadisə dövlətin yaranması zamanı bütövlükdə cəmiyyət miqyasında baş verir. Dövlət sosial həyatda maskulin və feminin başlanğıcların vahid bir axına qoşulması ilə öz tarixini başlayır, amma maskulin və feminin başlanğıcların vahid bir axına qoşulması, sintezi bu halda fərdlər səviyyəsində, əks cinslərdən olan fərdlər səviyyəsində deyil, sosiumlar səviyyəsində, əks qütblü sosiumlar səviyyəsində baş verir. **Maskulin təbiətli cəngavər mədəniyyəti ilə feminin təbiətli icma mədəniyyətinin əks qütblü sosiumlar olaraq sintezi dövlətin əsasını qoyur**. Bu məqamın daha konkret, daha sadə ifadəsi isə belədir ki, təbiətləri etibarı ilə sülhsevər və zəhmətkeş olan kəndli icmaları təbiətləri etibarı ilə döyüşkən və mübariz olan köçərilər tərəfindən üzülərək məhv olma təhlükəsi altında ikən köçəri tayfalardan birinin himayəsinə sığınır, onun vasitəsilə digər köçəri tayfaların təcavüzündən mühafizə olunurlar. Kəndli himayəyə sığındığı andan rəiyyətləşir və vergi ödəyicisi olur. Cəngavər himayəçi olduğu andan zadəganlaşır və vergi hesabına mütəmadi təminat mənbəyinə malik olmuş olur. Rəiyyətin sosial statusu və dünyaduyumu, bir qədər kobud terminlərdən istifadə edilsə, kəbinli arvadın sosial statusunu və dünyaduyumunu xatırladır. Zadəganın sosial statusu və dünyaduyumu isə, indi bir qədər kobud deyil, bir qədər sadə terminlərdən istifadə edilsə, ailə qurmuş gəncin sosial statusunu və dünyaduyumunu xatırladır. İki insanın ailə adlı vahid bir sosial strukturda birləşməsindən yeni insanlar, yəni övladlar, – oğullar və qızlar meydana gəldiyi kimi, yuxarıda adları çəkilən iki mədəniyyətin - cəngavər və icma mədəniyyətlərinin - dövlət adlı vahid bir sosial strukturda birləşməsindən yeni mədəniyyətlər – zadəgan və şəhər mədəniyyətləri - meydana gəlir.

---

nına etibar edilə bilir. Texnika hələ ki qadının təbii təyinatını mükəmməlliklə yerinə yetirməkdən çox uzaqdır.

Ailənin təbii sonu valideynlərin övladtörətmə qabiliyyətlərinin, dünyaya yeni insan gətirmə qabiliyyətlərinin tükənməsi ilə şərtləndiyi kimi, dövlətin də təbii sonu, bir tərəfdən, *atanın təcəssümü* olan hakimiyyətin gücdən düşməsi ilə, iqtidarın haqqı gerçəkləşdirmə qüdrətinin üzülməsi ilə, siyasi aristokratizmin yaradıcılıq imkanlarının tükənməsi ilə, digər tərəfdən isə, *ananın təcəssümü* olan, əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyətinin təkamül imkanlarının tükənməsi ilə və analıq rəmzi olan torpağın və bütövlükdə təbii mühitin eroziyası ilə şərtlənir.

**13**

Dövlətin yaranması üçün iki ən mühüm müqəddəm şərtlərdən biri olan ***cəngavər mədəniyyəti*** köçərilik prinsiplərinin mütləqləşdirilməsi üzərində qurulmuşdur, sosial həyatın *maskulin* başlanğıcını özündə təcəssüm etdirməklə, kişi əxlaqının dəyərlərinə söykənir, onun başlıca əxlaqi keyfiyyətləri cəsarət və ürəklilikdir, ürəyin çağırışına inam və ürəyə sədaqətdir. Cəngavər ağlına deyil, ürəyinə daha çox inandığından, onun üçün əməlin nəticəsi deyil, əməlin özü dəyərlidir. Nəticənin qorxusundan ürəyin səsinin boğulması cəngavər üçün yolverilməz olduğundan, Tale kultu cəngavər davranışının nüvəsini təşkil edir. Burada rəiyyət yoxdur, burada vətəndaş yoxdur, burada igidlər vardır. Burada varlı yoxdur, kasıb yoxdur, burada yalnız mərd və onun əksliyi olan namərd vardır. Cəngavər dəyərləri çərçivəsində mərd olmayan kəs insan deyildir. Burada namərd insan kimi deyil, nəsə iyrənc bir əşya kimi qavranılır. Cəngavər mədəniyyətinin ən əyani təsvirlərindən biri ilə biz bizim doğma *Kitabi-Dədə-Qorqud*-da rastlaşırıq. *Kitabi-Dədə-Qorqud* bu mədəniyyəti son dərəcə gözəl təqdim edir.

**14**

Dövlətin yaranması üçün iki ən mühüm müqəddəm şərtdən ikincisi olan ***icma mədəniyyəti*** əkinçi həyat tərzi zəminində təşək-

kül tapmışdır, sosial həyatın feminin başlanğıcının mücəssəməsi olmaqla qadın əxlaqının dəyərlərinə söykənir, onun başlıca əxlaqi keyfiyyətləri *xeyirxahlıq* və *mərhəmət*dir. İcma mədəniyyətinin himayəyə sığınmaq istəyi də onun qadın təbiətli olmasından irəli gəlir. İcma mədəniyyəti üçün səciyyəvi olan dünyagörüş mahiyyət etibarı ilə dini xarakter daşıyır. Əkinçi həyat tərzi zəminində formalaşan xalis icma mədəniyyəti daxilində igid yoxdur, bəndə vardır. Burada varlı-kasıb qarşıdurması da yoxdur, mömin-kafir qarşıdurması vardır. İcma mədəniyyətinin əxlaqi dəyərləri fonunda bəndəlik həqiqi insanlıq, kafirlik isə insanlığın öz mahiyyətinə yadlaşmasıdır. Tanrının bəndə üzərində hidayəti icma şüurunun başlıca ehkamlarından birini, bəlkə də, ən başlıcasını təşkil edir. İcma şüurunun başlıca ehkamlarından ikincisi isə Axirət gününə inamdır. Axirət Tanrının bəndə üzərində mütləq himayəsi kimi qavranılır. Burada Tanrının bəndə üzərində hidayəti dövlətin rəiyyət üzərində himayəsindən daha mühümdür və dövlətin rəiyyət üzərində himayəsi bir çox hallarda Tanrının bəndə üzərində hidayətinin bir simvolu kimi qavranılır.

**15**

Dövlət oturaq əkinçi həyat tərzi üzərində qərarlaşan icma mədəniyyəti ilə köçəri həyat tərzi üzərində qərarlaşan cəngavər mədəniyyətinin sintezi nəticəsində özünün ilkin və əzəli formasında, himayə dövləti olaraq tarix meydanına çıxması anında mədəniyyətin üçüncü tipini - ***zadəgan mədəniyyəti***ni formalaşdırır, hətta *dövlətin bir himayə sistemi olaraq meydana çıxması zadəgan mədəniyyətinin formalaşması ilə əslində ifadə olunur* demək daha düzgün olar. Dövlətin yaranması ilə köçəriliyin başlıca əxlaqi sərvəti olan *cəsarət* icma əxlaqının başlıca dəyəri olan *xeyirxahlığ*ın təsiri altında yeni status kəsb edir və maskulin əxlaqın yeni kodeksini formalaşdırır. Zadəgan bu kodeksin daşıyıcısı olur. Sonradan aristokratizm adını alan bu davranış kodeksində cəsarət mərdlik səviyyəsinə, xeyirxahlıq isə ədalət səviyyəsinə yüksəlir. Za-

dəgan mədəniyyətinin başlıca əxlaqi dəyəri isə *ləyaqət*dir. Ləyaqət obrazlı şəkildə ifadə edilsə, mərdlik və ədalət adlandırılan ata-anadan törəmişdir. Zadəgan mədəniyyətinin başlıca əxlaqi dəyəri olan ləyaqət mübarizəni və cəmiyyət həyatına aktiv müdaxiləni nəzərdə tutduğundan, zadəgan mədəniyyəti maskulinlik prinsipləri üzərində qurulmuş mədəniyyətdir, daha doğrusu maskulinlik prinsipləri üzərində qurulmuş mədəniyyətin ikinci tarixi formasıdır.

**16**

Dövlət fenomeninin meydana gəlməsi şəhər adlı mühüm bir sosial strukturun və ***şəhər mədəniyyəti***nin meydana gəlməsinin də tarixi müqəddiməsi olur. Əgər mədəniyyətin üçüncü tipinin - zadəgan mədəniyyətinin - əsası dövlətin yaradılmasının başlanğıc məqamında qoyulursa, mədəniyyətin dördüncü tipinin - şəhər mədəniyyətinin - əsası zadəgan mədəniyyətinin doğuluşundan sonra, daha dəqiq deyilərsə, himayə dövlətinin hakimiyyət dövlətinə çevrilməsi prosesində qoyulur. Heç də təsadüfi deyildir ki, ilk şəhərlər ilk dövlətlərin mövcud olduğu ərazilərdə salınmışdır. Eramızdan əvvəl IV-III minilliklərdə Misirdə, Mesopotamiyada, Hindistanda və Çində böyük su hövzələrində tikilmiş hökmdar iqamətgahları sonradan salınmış şəhərlərin əsasına çevrilmişdir. Bu prosesdə hökmdarların yanında xidmətdə olan məiyyət kütləsinin rolu xüsusilə həlledici olmuşdur. Həmin o məiyyət şəhər mədəniyyətinin insani resurslarını təşkil etməklə, şəhərlinin ilkin tarixi tipi olmuşdu. Məiyyət kütləsi kənd təsərrüfatı ilə məşğul olmaq zərurətindən azad olunsa da, öz mövcudluğunu başqa qəbildən olan amillərdən asılı vəziyyətdə qoymuşdu. Bu kütlə özünü özgə ehtiyaclarının ödənilmə vasitəsinə çevirməklə bunun əvəzində verilmiş mükafatla yaşayan insanlardan ibarət formalaşdırılmışdı. Şəhərlinin ilk tarixi nümunəsi - hökmdarların yanında xidmətdə olan məiyyət olsa da, sonradan məiyyətin ixtisaslaşması baş verir, məiyyət kütləsi içərisindən əvvəlcə sənətkar, tacir və qasid tarixi tiplərinin, sonra isə məmur tarixi tipinin ayrılması baş verir. Məiyyət kütləsi özünün

tarix meydanına atılması ilə həm icma, cəngavər və zadəgan mədəniyyətləri ilə artıq yanaşı duran dördüncü mədəniyyət tipini – şəhər mədəniyyətini - formalaşdırır, həm bu mədəniyyətin konkret daşıyıcısının - şəhərlinin - tarix meydanına çıxmasını şərtləndirir, həm də sənətkar, tacir, qasid və məmur tarixi tiplərinin formalaşması üçün əsas olur. Şəhər mədəniyyətinin başlıca əxlaqi dəyəri isə ağıllılıqdır. *Ağıllılıq* bu mədəniyyət kontekstində *yalnız nəticəsi faydalı olan işlə məşğul olmaq, nəticəsi faydalı olmayan işdən isə çəkinmək* mənasına malikdir. Şəhərli üçün ürəyinin istədiyini deyil, faydalı olanı etmək mühümdür. Şəhər mədəniyyəti femininlik prinsipləri üzərində qurulmuş mədəniyyətin ikinci tarixi forması olur. Şəhər mədəniyyətinin yuxarıda xatırlanan başlıca əxlaqi sərvəti – *ağıllılıq* - və bütün digər dəyərləri feminin xarakterlidir, qadın davranış üslubunun sosial müstəvidə bir mücəssəmə formasıdır.

**17**

Mədəniyyətin dörd tipi ailənin dörd üzvünü xatırladır. Cəngavər mədəniyyəti ***ata***nın, əkinçi həyat tərzi zəminində formalaşan icma mədəniyyəti ***ana***nın, zadəgan mədəniyyəti ***oğul***un, şəhər mədəniyyəti isə ***qız***ın mücəssəməsidir. Hər bir ailə üzvünün statusu xalqın bədii təfəkküründə özünün yığcam və səlis təsvirini tapmışdır: Ata – düşmən çəpəri, ana doğma ocağın qoruyub saxlayanı, evin dayağı, oğul – evin tacı, qız isə – yaraşığıdır.

**18**

Mədəniyyətin hər bir konkret tipi öz siyasi idealını **hakimiyyət**in bu və ya digər **forması**nda tapır. İcma mədəniyyəti üçün daha çox ***avtoritet prinsipi üzərində qurulmuş hakimiyyət*** forması səciyyəvidir. Cəngavər mədəniyyəti ***tiranik hakimiyyət*** forması ilə, zadəgan mədəniyyəti ***aristokratik hakimiyyət*** forması ilə, şəhər mədəniyyəti isə ***demokratik hakimiyyət*** forması ilə daha

doğmadır. Tiranik hakimiyyətlə demokratik hakimiyyət arasında keçid formaları olaraq despotik hakimiyyət və monarxik hakimiyyət çıxış edir. Demokratik hakimiyyətlə aristokratik hakimiyyət arasında aralıq element olaraq isə liberal hakimiyyət dayanır.

**19**

***Avtoritet prinsipi üzərində qurulmuş hakimiyyət*** bir hakimiyyət forması olaraq özünün xalis görkəmində meydana çıxır. Bu halda icraçı təkcə iradəsini deyil, həm də zəkasını hakimiyyət sahibinə tabe etdirir. Özü də belə bir tabeolma könüllü və təmənnasız olaraq baş verir. Amma nə zor prinsipinə istinad edən hakimiyyətdə, nə də demokratik prinsipinə söykənən hakimiyyətdə tabeolma nə könüllü, nə də təmənnasızdır.

**20**

***Tiranik hakimiyyət*** yalnız iradə üzərində hakimiyyətdir. Burada yalnız hakimiyyət sürən öz ürəyinə, öz hisslərinə, öz zəkasına etibar edir. Tiranizm şəraitində hakimiyyətin obyektləri isə öz ürəklərinə, öz hisslərinə, öz zəkalarına əslində etibar etmirlər, onlar əslində heç hakimiyyət sürənə də bir o qədər, tam olaraq etibar etmirlər, ona yalnız müəyyən dərəcədə ümid bəsləyirlər və həm də ondan sadəcə olaraq qorxurlar. Tiranizm ümid və qorxu hisslərinə istinad edir. Tiran hakimiyyət altında olanların öncədən rəiyyət durumunda olanlarını da, zadəgan durumunda olanlarını da eyni statusa - təbəə statusuna salır. Rəiyyət özünü bütövlükdə himayəçinin ixtiyarına verən kəs olmaqla özünü hakimiyyətin ixtiyarına verən kəs statusunu, təbəə statusunu demək olar ki çox asanlıqla qəbul edir, zadəgan isə özü üzərində himayəçini və hakimiyyəti qəbul etməyə çətinliklə də olsa məcbur edilir. Tiran zadəgana da, rəiyyətə təbəə statusunu qəbul etdirməklə onları vahid bir toplum kimi formalaşdırır. Həmin bu toplum isə xalqdır.

## 21

***Despotik hakimiyyət*** tiranik hakimiyyətə oxşar olaraq yalnız iradə üzərində hakimiyyətdir. Lakin despotizm tiranizmdən fərqli olaraq, hakimiyyət sürənin emosional iradəsinə deyil, artıq rasionallaşdırılmış iradəsinə istinad edir. Despotizmin tiranizmdən ən mühüm fərqi isə ondan ibarətdir ki, despot özünü təbəənin yalnız bir hissəsinin himayəçisi edir, özünü təbəənin yalnız bir hissəsinin hamisi kimi hiss edir, hakimiyyət altında olan digər təbəələr üzərində isə özünü sözün pis mənasında hökmdar kimi, yəni bir ağa kimi dərk edir, bütövlükdə xalqı məzlum insanlar toplumuna, yazıq bəndələr yığnağına çevirir. Əgər tiranizm ümid və qorxu hissləri üzərində qurulursa, despotizm yalnız qorxu hissinə istinad edir. Üstəlik burada despot hakimiyyətin tək sahibi statusunda olsa da, əslində öz məxsusi iradəsindən, öz hisslərindən, öz zəkasından daha çox, himayə etdiyi və əslində mənafeyinə xidmət etdiyi azlığın dəstəyinə etibar edir və bundan daha pis olanı isə odur ki, xalqı himayə etdiyi azlığın caynağına da verir. Dövlət hakimiyyəti despotizm formasını əslində insanların bir qisminin digər qismi üzərində zorakılıq aparatına çevrildiyi zaman kəsb edir. Praktikada isə despot əksər hallarda və əslində xalqı bürokratiyanın pəncəsinə verən kəsdir.

## 22

***Monarxik hakimiyyət*** hakimiyyət sürənin hakimiyyət altında olanla həm də razılaşdırılmış iradəsinə istinad edir, psixoloji olaraq gözlənti qaydasında və təhtəlşüur səviyyəsində, hüquqi olaraq isə, təsisat və təyinat qaydasında razılaşdırılmış iradəsinə. Monarxiyada da həmçinin hökmdar xalqı öncə olduğu kimi bir təbəə kütləsi olaraq tanısa da, amma, burada təbəə onun ən aktiv və ən təşəbbüskar hissəsinin timsalında hakimiyyətə tam etibar etməsə də, hakimiyyətə xidmət göstərməyə və bu xidmətin əvəzində hakimiyyətdən faydalanmağa daha çox çalışır. Burada hakimiyyətin irsi

olmasını da əslində təbəənin məhz hakimiyyətdən mütəmadi olaraq faydalanan və hakimiyyətdən mütəmadi olaraq öz payını götürən hissəsi, yəni məmur statusunda olan hissəsi şərtləndirir.

**23**

***Aristokratik hakimiyyət*** hissiyyat, şüur və iradə üzərində hakimiyyətdir. Aristokratik lider sıravinin, necə deyərlər, «hakimiyyət altında olanın» ürəyini onun özündən də daha yaxşı duya bildiyi üçün, onun beynində daşınan həqiqəti ondan daha yaxşı dərk etdiyi üçün, onun həyati instinktlərini ondan daha yaxşı ifadə edə bildiyi üçün, ona ürəyin instinktlərinə etibar etməni təlqin edir. *Hakimiyyət altında olan* ifadəsini ona görə müəyyən qeyd-şərtlə verirəm ki, aristokratik lider insanları əslində aksidental iradənin deyil, həqiqətin sərəncamına verir və bununla da onları yaşadır, insanlara həqiqi həyatı bəxş edir. Aristokratik hakimiyyət ürəkdə daşınan həqiqətin hakimiyyətidir.

**24**

***Demokratik hakimiyyət*** hakimiyyət sürənin rasional və hakimiyyət altında olanla verbal olaraq razılaşdırılmış iradəsinə istinad edir. Demokratizm, despotizmdən fərqli olaraq, hakimiyyətin subyekti ilə hakimiyyətin obyekti arasında razılaşdırmanı artıq yalnız tərəflərdən birinin fiziki təzyiqi altında və təhtəlşüur qorxu hissiyyatı səviyyəsində deyil, həm də könüllülük qaydasında və daha pisinin hakimiyyət əldə etməsinin qarşısını almaq şüuru səviyyəsində həyata keçirir. Demokratizm onunla ən azı bir ümumi əlamətə, hakimiyyətin təsisat və təyinat qaydasında həyata keçirilməsi əlamətinə malik olan monarxizmdən fərqli olaraq isə, hakimiyyət sürənlərlə hakimiyyət altında olanlar arasındakı münasibətləri həm təsisat, həm də təyinat baxımından yalnız birtərəfli qaydada deyil, həm də qarşılıqlı və canlı razılaşdırma qaydasında həyata keçirir. Demokratizm hətta hakimiyyətin hakimiyyət altında

olanların iradəsini yerinə yetirdiyini də bəyan edir. Bu bəyan etmə siyasi reallıqda öz ifadəsini dövlətdə əsas vəzifə təsisatlarının referendum qaydasında konstitusiya qəbul edilməsi yolu ilə müəyyənləşdirilməsi və əsas vəzifə təyinatlarının seçki qaydasında həyata keçirilməsi faktlarında tapır.

**25**

Demokratik hakimiyyət kimi, ***liberal hakimiyyət*** də hakimiyyət sürənin hakimiyyət altında olanla şüur səviyyəsində razılaşdırılmış iradəsinə istinad edir. Lakin demokratik hakimiyyət ictimai şüura, daha doğrusu, ictimai rəyə, çoxluğun rəyinə söykəndiyi halda, hal-hazırda çoxluğun dayandığı mövqedə dayandığı halda, liberal lider çoxluğun deyil, hər bir kəsin də fərdi şüuruna və mövqeyinə əhəmiyyət verir. Demokratik hakimiyyət xalqı bir millət, onun hər üzvünü isə bir vətəndaş olaraq tanıyır. Liberal hakimiyyət isə xalqı nəsə sirli bir mahiyyət kimi, onun hər üzvünü isə sanki bir şəxsiyyət olaraq qəbul edir.

**26**

Demokratik lider əksər hallarda özünü xalqı himayə edəcək qədər güclü bilmir. Demokratik iqtidarın buna görə də həmişə ***müxalifət***ə ehtiyacı vardır. Demokratik rejimdə iqtidarın tükənməkdə olan hakimiyyət resursları müxalifətin qüvvələri ilə bərpa edilməlidir, əgər müxalifətin belə bir hakimiyyət resursları varsa.

**27**

Demokratizm şəraitində iqtidarda olanların öz etdiklərini birmənalı olaraq uğur kimi qiymətləndirmələri, ***müxalifətin*** isə ***iqtidarı***n hər bir addımını bir qayda olaraq pisləməsi, uğursuzluq kimi qiymətləndirməsi, iqtidarı ***ifşa etməyə çalışması*** ümumən məlum olan siyasi manera olmaqla yanaşı, həm də müəyyən dərəcədə bir

***psixoloji amildir***. İqtidarda təmsil olunan, ixtiyarında hakimiyyət olan, güc olan insan reallığa, dünyaya və cəmiyyətə ümumiyyətlə ideal nöqteyi-nəzərindən yanaşmağa, reallığı, dünyanı və cəmiyyəti idealın işığında qiymətləndirməyə, hadisələrə ideal baxımından nəzər salmağa, üstəlik, reallığı mümkün olduğu qədər ideala yüksəltməyə, reallıqda, dünyada və cəmiyyətdə daha çox ideala yüksəldilməsi mümkün olan şeyləri görməyə, ideala yüksəldilməsi mümkün olmayan şeyləri isə ümumiyyətlə görməməyə meyillidir, ideala yüksəldilməsi mümkün olmayan şeylər bir qayda olaraq əslində onun diqqətindən kənarda qalır. Müxalifət mövqeyində dayananlarda isə bunun əksi baş verir. Onlar dünyanın ideala yaxın olmasından deyil, idealdan uzaq olmasından şaddırlar, dünyanın idealdan uzaq olmasından ona görə şaddırlar ki, dünyanı ideala yüksəltmək qüdrətindən məhrumdurlar və özlərinin qüdrətsizliyindən və məhrumiyyətlər içərisində olmalarından utanmamaq üçün başqalarını da qüdrətsiz və məhrumiyyətlər içərisində görməyi arzu edirlər. Digər tərəfdən, iqtidarda, yoxsa müxalifətdə olmaq bəzən həm də ona görə siyasi məsələ olmaqdan daha çox, psixoloji məsələdir ki, bu, insanın təbiətən zadəgan ruhlu, zadəgan xislətli olmasından, yoxsa rəiyyət ruhlu, rəiyyət xislətli olmasından irəli gələn bir məsələdir. İdealla yaşamaq, ideala doğru can atmaq, dünyanı ideala yüksəltmək əzmi əgər konkret insanın təbiətinə ümumiyyətlə yaddırsa, o hətta iqtidarda təmsil olunsa belə həmişə küskündür, əzgindir və diqqətlə nəzər yetirilsə, həm də eybəcərdir, özünü müxalifətdən də daha pis vəziyyətdə hiss edir. İnsanda idealla yaşamaq, ideala doğru can atmaq, dünyanı ideala yüksəltmək əzmi olduqda isə, o iqtidarda təmsil olunmasa belə özünü müxalifətçi kimi küskün və əzgin hiss etmir, çünki iqtidarda olub-olmamasından asılı olmayaraq özünün həyati təyinatından irəli gələn məqsədlərini və həyatının əsas işini bilir, buna görə də, həyatını ideala yüksəltmək imkanları və vasitələri ona bir iqtidar payı olaraq verilmədikdə də, o, həyatını ideala yüksəltmək üçün bu imkanları və vasitələri özü əldə edir, özü yaradır və bununla da həyatını mənalı görür və mənalı edir.

## 28

***Demokratikləşmə*** cəmiyyətdə daşınan ***aristokratik resursları üzə çıxarmaq və bu resursları cəmiyyətin idarə olunmasına cəlb etmək üçündür*** və bu mənada da ***demokratikləşmə hadisəsinin qadının emansipasiyası hadisəsinə bir oxşayışı vardır.*** Dövlətin demokratikləşməsi hakimiyyətə daha layiq olanların hakimiyyətə cəlb olunması üçün olduğu kimi, qadının emansipasiyası da ona həyat yoldaşı olmaq üçün daha layiq olan kişini, idealda isə onu himayə etmək təyinatını özündə daşıyan kişini üzə çıxarmaq və qadını onun xanımı etmək üçündür.

## 29

Təəssüflə belə olmuş olsa da, qeyd etməliyik ki, kişi himayəsindən məhrum olan qadın qadına xas olan müsbət keyfiyyətləri - qadınlığı, zərifliyi, nəzakəti, incəliyi, yüksək mədəniyyətliliyi, qayğıkeşliyi və xeyirxahlığı tədricən itirir, qayğıkeşliyi və xeyirxahlığı bütün hallarda və bütövlükdə olmasa da, zərifliyi, nəzakəti, incəliyi, yüksək mədəniyyətliliyi kişi himayəsindən məhrum olduğu bütün hallarda mütləq və bütövlükdə itirir. Qadın kişinin himayə məkanından kənarda qaldıqda bir qadın olaraq təravətini və ülviyyətini mütləq azaldır. Amma digər tərəfdən, qadın kişinin mütləq hakimiyyəti altında olduqda da ruhu, heysiyyatı və hətta mənəviyyatı belə əzilir və zədələnir, elə bu da həmçinin onu bir qadın olaraq təravətdən salır, ülviyyətini azaldır. Bu isə həm də o deməkdir ki, qadının emansipasiyası ideyası hətta Şərq üçün də bir o qədər mənasız deyildir. Həmin səbəbdən də qadının emansipasiyası ideyasına birmənalı yanaşılmamalıdır, bu ideya nə birmənalı olaraq pis, nə də birmənalı olaraq yaxşı kimi qiymətləndirilə bilməz. Elçin Azərbaycan qadınının emansipasiya tarixinin ədəbiyyatda əks olunan mərhələlərini çox gözəl verir: *Almaz, Səriyyə* və *Təhminə*. Düşünürəm ki, bu qiymətli müddəa yalnız ədəbiyyatşünaslıq yönümündə deyil, həmçinin digər bir yönümdə, fəlsəfi yönümdə, və

eləcə də siyasi-fəlsəfi rakursda da davam etdirilə bilər. Cəfər Cabbarlının emansipasiyaya uğramış *Almaz*ı və *Sevil*i son dərəcə romantik və cazibəli görünür. İlyas Əfəndiyevin *Səriyyə*si emansipasiyalaşmada növbəti addımı atır. O, mübarizə aparır, amma mübarizləşdikcə, təəssüflər olsun ki, kişiləşir və bunun da nəticəsində eybəcərləşir. Eybəcər qadın bir çox hallarda məhz kişiyə bənzər qadındır. Və nəhayət, emansipasiyalaşmanın son mərhələsi kimi Anarın *Təhminə*sinin göstərilməsi son dərəcə səciyyəvidir. **Kişi himayəsi**ndən məhrum olmaq mənasında emansipasiyalaşmaya uğramış qadının sonu doğrudan da elə *Təhminə* olmalı idi. Zadəganlığın himayəsindən məhrum olan şəhərin demokratikləşməsi də təxminən eyni sxem üzrə baş verir. Zadəganlığın himayəsindən məhrum olan şəhərin demokratikləşməsi sözün pis mənasında qadının emansipasiyasına bənzəyir, bu qaydada demokratikləşmiş şəhər təhminələşir, *Min bir gecə* Bağdadına, *Dekameron* Florensiyasına çevrilir. Urbanik inkişafın doğurduğu problemlər həqiqi aristokratik təfəkkür zəminində həll oluna bilmədikdə qeyri-aristokratik təfəkkür zəminində həll olunur. Nəticədə, şəhər mədəniyyətinin inkişafı aristokratizmin sığışdırılmasına, dövlətin isə sözün pis mənasında praqmatikləşdirilməsinə və tənəzzülünə gətirib çıxarır.

**30**

Demokratizm xalqın hakimiyyəti olduğunu bəyan etsə də, əslində şəhərin mənafeyinin ifadəçisi kimi meydana çıxır, dövlət demokratiya və sonradan isə oliqarxiya formalarını alaraq şəhər mədəniyyətinin siyasi ifadəçisinə çevrilir.

**31**

Demokratizm bir çox hallarda iqtidarın xalqı himayə etmək məsuliyyətindən yayınması ilə, vəzifənin borc kimi deyil, imtiyaz kimi anlaşılması meyli ilə şərtlənir.

**32**

Aristokratik meyilli hakimiyyət sahibi xalqı himayə etmək məsuliyyətini hiss edir və bu himayəni gerçəkləşdirir, demokratik meyilli hakimiyyət sahibi isə əksinə olaraq xalqın himayəsinə sığınmaq istəyir və bu himayədən faydalanmaq hüququndan maksimum dərəcədə istifadə edir.

**33**

Məsuliyyət hissi əslində himayə etmək istəyini nəzərdə tutur, hüquq şüuru isə himayədə olmaq istəyini.

**34**

Aristokratizm maskulin dəyərlərə, demokratizm isə feminin dəyərlərə söykənir.

**35**

Aristokratizm ürəyin və ağılın, demokratizm isə yalnız ağılın hakimiyyətidir.

**36**

Aristokratizm haqq duyğusunun və əxlaqi hissin mütləqliyinə, demokratizm isə ictimai rəyə, rasional praqmatizmə, formal olaraq isə hüquqa və qanuna istinad edir.

**37**

İctimai rəy yalnız cəmiyyəti həqiqətə yüksəltmə resurslarının tükənməsi halında ön plana keçə bilir.

**38**

Aristokratik lider ictimai rəyə uyğunlaşmır, ictimai rəyi həqiqət səviyyəsinə yüksəldir.

**39**

Dövlət hakimiyyəti malik olduğu aristokratik resursları tükəndirdiyi halda onu təmsil edənlərin simasında xalqı ədalətsizlikdən, ən azı zorakılıqdan himayə etmək məsuliyyətinə və qüdrətinə malik olmur, ədalətə, əxlaqa və haqqa biganə olur və xalq bu şəraitdə *şəxsiyyətin hakimiyyəti*ndən, **avtokratizm**dən üz çevirərək *qanunun hakimiyyətinə,* **hüquqi dövlət**ə üz tutur. Siyasi təfəkkür əslində, bu halda ***demokratizm*** formasını alır.

**40**

Ümumi, aydın, dəqiq, mütləq, bütün mübahisələrdə tətbiq edilə bilən ideyaya ehtiyac yarandığı zaman qanun meydana çıxır.

**41**

Qanun sözün əzəli mənasında məmur kütləsinin konkret vəzifə təsisatı daşıyıcısı olaraq xidmət xüsusiyyətlərinin birmənalı olaraq müəyyənləşdirilməsi üçün və eləcə də, xidmətinə görə alacağı əvəzin forma və miqdarının konkretləşdirilməsi üçün yaradılır.

**42**

Dövlətin ümumiyyətlə hüquqla və qanunlarla bağlılığı ikinci dərəcəli və bəlkə də n-ci dərəcəli əhəmiyyətə malikdir. Dövlətin xalis himayə sistemi olaraq mövcud olduğu halda əməl və əvəz arasında, daha konkret deyilərsə, bir tərəfdən «xidmət və mükafat» arasında, digər tərəfdən isə «cinayət və cəza» arasında birmənalı münasibət-

lər olmadığı halda, dövlətin mövcud olmadığı ibtidai cəmiyyətdə əməl və əvəz arasında birmənalı münasibətlər mümkündür və olmuşdur. Talion, yəni cinayətkarın etdiyi cinayət əməlini cinayətkarın özünün üzərində eyni ilə təkrar edən cəza və onun xüsusi forması olan qan intiqamı əslində cinayət və cəza arasındakı münasibətləri birmənalılaşdıran adətdir, başqa cür deyilərsə, cəmiyyətin dövlətəqədərki vəziyyətində yazılmamış qanundur.

**43**

Cəza qanunu ideyasının əsasında qisas instinkti yatır. Vaxtilə Nitşe də buna bənzər bir mülahizə söyləmişdi. Dövlət hakimiyyəti formalaşarkən isə cəza qanunu özgənin əli ilə qisas almanın bir formasına çevrilir.

**44**

Hüquq prinsipi üzərində qurulmuş hakimiyyət və tabeolma özünəməxsus müqaviləyə istinad edərək könüllü olsa da, təmənnasız deyildir. Burada hakimiyyət də, tabeolma da mükafatlanma xatirinə həyata keçirilir. Dövlət hüquq prinsipi üzərində qurulduqda elə buna görə də özünün xalis və həqiqi formasından müəyyən dərəcədə uzaqlaşmış olur, tabeolma öz səmimiliyini itirir, müəyyən dərəcədə olmuş olsa belə.

**45**

Dövlət hüquqi prinsipləri arxa plana ataraq şəxsiyyətdə təcəssüm olunan əxlaqi prinsipləri ön plana çıxarırsa, bu halda siyasi təfəkkür icmaçı səciyyə daşımağa başlayır, sözün əzəli mənasında ***kommunistik*** xarakter alır. Əgər aristokratik hakimiyyət daxildən qaynaqlanan ədalət duyğusuna əsaslanırsa, əgər tiranik hakimiyyət zora əsaslanırsa, əgər demokratik hakimiyyət ictimai rəyə və hüquqa əsaslanırsa, *kommunistik özünüidarə* avtoritetə əsaslanır.

## 46

Dövlətlər kimi elə **ailələr** də, əsasında fəaliyyət göstərdikləri hakimiyyət tipindən asılı olaraq, **aristokratik, demokratik, tiranik və kommunistik təbiətli ola bilərlər**. Aristokratik ailə ideal ailədir. Burada ailə başçısı ailənin bütöv bir orqanizm kimi həyatı ilə yaşayır və ailə üzvlərinin hər birini onların həqiqi ideallarının gerçəkləşdirilməsinə doğru istiqamətləndirməklə bütövlükdə ailənin ideallarını gerçəkləşdirir. Aristokratik ailədə ailə başçısı hər bir ailə üzvünü onun özündən daha yaxşı tanıyır, buna görə də onun həyatına onun özündən daha düzgün istiqamət verə bilir. Görünür elə bu səbəbdəndir ki, aristokratik ailədə ailə başçısı hamı tərəfindən sevilir, bu isə o deməkdir ki, ailə başçısı ailə üzvlərinin təkcə iradəsi üzərində deyil, təkcə zəkası üzərində deyil, həm də hissiyyatı üzərində hakimiyyətə malikdir. Burada hakimiyyət səmimi və təbiidir. Demokratik ailədə isə ailə başçısına və eləcə də ailə üzvlərinə hamı tərəfindən yalnız hörmət olunur. Burada sevginin yerini hörmət tutur, ailə başçısı və ailə üzvləri ailənin bütöv bir orqanizm kimi idealları və həyatı ilə yaşamırlar, ən yaxşı halda onların hər birinin öz arzuları və öz idealları mövcuddur, onlardan hər biri digərlərinin öz arzularını gerçəkləşdirmək hüququnu tanıyırlar, qəbul edirlər, hətta bəzən bir-birinə kömək də edirlər. Bu bəzən edilən kömək də bir çox hallarda öz qarşılığını gözləyir. Lakin bütövlükdə onlar bir-birlərinin arzularına, ideallarına, məqsədlərinə və qərarlarına yalnız hörmətlə yanaşmaqla kifayətlənirlər. Bu ailədə vahid iradə və həqiqi birlik yoxdur, burada yalnız şərti razılaşma, necə deyərlər müqavilə vardır. Demokratik ailədə iradələrin qeyri-təbii uzlaşdırılması diqqəti cəlb edir, Hobbsun *ictimai müqavilə* adlandırdığı razılaşmaya bənzər bir qaydada. Demokratik ailə Qərb ailəsi üçün son dərəcə səciyyəvidir və nikahın müqavilə kimi anlaşılmasını bizim Qərbdən əxz etməyimiz heç də təsadüfi deyildir. Əgər aristokratik ailə orqanizm xarakterlidirsə, demokratik ailə insanları qarşılıqlı faydalı əməkdaşlığa meyilli olan cəmiyyət xarakterlidir. Ailə başçısı

isə burada yalnız demokratik liderdir. Onun sözünə yalnız o halda sözsüz əməl olunur ki, onun fikri *əksəriyyət*in fikri ilə üst-üstə düşür. Demokratik ailədə ailənin bir bütöv olaraq üzvi iradəsi yoxdur. Elə buna görə də demokratik ailə yalnız qarşılıqlı hörmət üzərində qurulmuş ailə olaraq heç də ən yaxşı və ən ideal ailə hesab edilə bilməz. Aristokratik və demokratik ailədən fərqli olaraq, tiranik ailə üçün isə nə səmimi sevgi, nə də səmimi hörmət hissləri səciyyəvi deyildir. Tiranik ailə üçün ümid qarışıq qorxu üzərində qurulan hakimiyyət səciyyəvidir. Burada hamı ailə başçısına təhtəlşüur səviyyədə müəyyən ümidlər bağlamaqla yanaşı əslində ondan sadəcə olaraq qorxur, heç kəs onun arzu və istəkləri ilə nəinki yaşamır, hətta bu arzu və istəklərin mövcudluq hüququnu da qəlbən qəbul etmir, üstəlik onun iradəsinə passiv şəkildə müqavimət də göstərir. Əgər aristokratik ailə orqanizm xarakterli, demokratik ailə qarşılıqlı faydalı əməkdaşlığa meyilli cəmiyyət xarakterlidirsə, tiranik ailə mexanizm xarakterlidir. Əgər aristokratik ailədə hakimiyyət ailə başçısına ehtiram hissi üzərində qurulursa, əgər demokratik ailədə hakimiyyət qarşılıqlı hörmət hissi üzərində qurulursa, əgər tiranik ailədə hakimiyyət ümid qarışığı olan qorxu hissi üzərində qurulursa, şərti olaraq "kommunistik ailə" və ya "icma tipli ailə" adlandırıla bilən ailədə hakimiyyət dözüm prinsipi üzərində qurulur. Əgər ailə üzvləri ailə başçısına ehtiram göstərmirlərsə, ona heç olmasa hörmət etmirlərsə, ən azı ondan qorxmurlarsa, hətta ona qarşı heç dözümlülük də nümayiş etdirmirlərsə, bu, qətiyyən ailə deyildir, insanların təsadüfi yığımına bənzər bir şeydir.

**47**

Hər hansı bir normal inkişafda olan dövlət kimi, normal inkişafda olan hər hansı bir ailə də özünün təbii təkamülündə hakimiyyət tiplərinin müəyyən, qanunauyğun ardıcıllığını yaşayır. Təzə qurulan ailə üçün aristokratik hakimiyyət səciyyəvidir. Uşaqlar doğulduqca isə vəziyyət dəyişir. Uşaqlar nə qədər ki, körpədirlər, hökm sahibləridirlər, obrazlı şəkildə deyilərsə, tirandırlar. Amma onlar bir

qədər böyüdükdən və anlaqlı olmağa başladıqdan sonra tiranik hakimiyyətin subyekti və obyekti arasında mövqe əvəzlənməsi baş verir. Ailə başçısı əvvəlcə uşaqlar üzərində, sonra isə bütün ailə üzərində tiranik hakimiyyət sahibi olmağa başlayır. Uşaqlar böyüyərək özlərinin bəzi problemlərini özləri müstəqil olaraq həll edə bildikləri zaman isə ailə başçısının hakimiyyəti tədricən demokratik xarakter daşımağa başlayır. Hər bir ailə üzvünün öz problemlərini artıq müstəqil olaraq həll edə bildiyi və etdiyi halda isə, ailə bütövlükdə icma xarakterini alır. Dövlətdə də belədir. İdeal dövlət odur ki, xalq dövlət başçısına səmimi olaraq sədaqətlidir və onu sevir. Ortabab dövlətdə xalq dövlət başçısına yalnız hörmətlə yanaşır. Xalqın dövlət başçısından qorxduğu dövlət isə pisdir. Xalqın hakimiyyətə münasibətdə özünü dözümlülüyə öyrətməsi ondan da pisdir. O dövlətdə ki, xalq dövlət başçısını nə sevir, nə ona hörmət edir, nə ondan qorxur, nə də ona qarşı dözümlülük göstərir, bu əslində heç dövlət də deyildir.

## 48

Hakimiyyətin müstəsna dərəcədə səlahiyyət kimi, imtiyaz kimi, bir hüquq kimi qəbul olunması onun yalnız görünən tərəfinin mütləqləşdirilməsi ilə bağlıdır. Bu anlam hakimiyyətin adi şüur səviyyəsində qavranılmasından doğulur. Adi şüur əlbəttə ki heç də yalanın ifadəçisi deyildir, amma tam həqiqətin də ifadəçisi deyildir, öz təbiəti etibarı ilə və gündəlik qayğıların təzyiqi altında məhduddur. Hakimiyyətin adi şüur səviyyəsində anlaşılmasının məhdudiyyətini aradan qaldırmaq üçün hakimiyyətin aristokratik anlamı diqqət mərkəzinə gətirilməlidir. Hakimiyyətin aristokratik anlamı isə hakimiyyətin müstəsna dərəcədə hüquq kimi deyil, digər insanların taleyi üçün məsuliyyət hissi kimi qavranılmasına söykənir. Hakimiyyətin aristokratik anlamı nöqteyi-nəzərindən, hakimiyyət hüquq, səlahiyyət, imtiyaz olmaqdan daha çox məsuliyyətdir, borcdur, zülmə məruz qalanları zülmdən xilas etmə, ədalətsizliyə düçar olanları ədalətsizlikdən qurtarma məsuliyyəti və istəyidir. Əgər bu

məsuliyyət hissi və bu istək xilaskarlıq bacarığı ilə tamamlanırsa, bu, artıq son dərəcə böyük nemətdir. Elə bir böyük nemətdir ki, dövlət yalnız onun sayəsində mövcud ola bilir. Dövlət o dərəcədə mövcuddur, o dərəcədə həqiqidir, o dərəcədə güclüdür və o ölçüdə müstəqildir ki, hakimiyyətin aristokratik resursları o dərəcədə və o ölçüdə inkişaf etmişdir və öz təbii təyinatını gerçəkləşdirməkdədir. Hakimiyyət yalnız bu resurslara sahib olan insanlara məxsus olduqda gerçəkdir. Əslində elə hakimiyyətdən kənarlaşdırılma da əksər hallarda bu resursların tükənməsi ilə əlaqədar olduqda özünü doğruldur. Bunu isə heç də konstitusiya maddəsi deyil, həyatın özü tənzimləyir. Azərbaycanın yaxın tarixindən bircə o faktı xatırlamaq kifayətdir ki, Ayaz Mütəllibov və Əbülfəz Elçibəy prezidentlik müddətlərinin başa çatmasına hələ çox qalmış bir zamanda hakimiyyətdən salınmışdılar. Bu, onların nə pis adam olmaqlarından, nə demokratik olmamalarından, nə də həddindən artıq demokratik olmalarından irəli gəlməmişdi. Bu, onlarda bir rəhbər kimi daşınan aristokratik resursların tükənməsindən irəli gəlmişdi. Çünki rəhbər yalnız özündə daşıdığı aristokratik resurslar tükənincəyə qədər sözün tam mənasında idarə edə bilir. Aristokratik resursların olub-olmaması isə insanların təbii təyinatının göstəricilərindən biridir. Böyüklük edə bilmək üçün, rəhbər ola bilmək üçün, əgər istəyirsinizsə, hökmdar ola bilmək üçün hökmdar təyinatlı olmaq gərəkdir. Hakimiyyətin əvəzlənməsi daha güclü aristokratik resurslara malik olan başqalarının meydanda olması halında təbiidir, hakimiyyətin təbii müddətini əslində aristokratik resursların ölçüsü müəyyənləşdirir. Əgər cəmiyyətdə tənəzzül müşahidə olunursa, bu, hakimiyyətdə daşınan aristokratik resursların artıq tükənməsindən xəbər verir. Yox, əgər cəmiyyətdə inkişaf müşahidə olunursa, bu, hakimiyyətdə daşınan aristokratik resursların hələ də mövcud olmasından və reallaşdırılmaqda olmasından xəbər verir. Əgər real inkişaf varsa, vəzifələr, məsuliyyətlər də genişləndirilməlidir, əslində elə hüquqlar, səlahiyyətlər, imkanlar, və müddətlər də.

## 49

Dövlət anlayışı ilə çox zaman assosiasiya olunan hakimiyyət məfhumu dövlətin mahiyyətini deyil, yalnız zahiri əlamətlərindən birini əks etdirir. Dövlət hakimiyyət olmadan mövcud ola bildiyi kimi, **hakimiyyət** də **dövlət olmadan mövcud ola bilər**. Özündə hakimiyyət resurslarını daşıyan hər kəs bu resursların istifadəsi üçün dövlətdən kənarda da tətbiq məkanı tapa bilir. Məsələn elə yuxarıda barəsində söhbət gedən ailə hakimiyyəti, və ya xidməti statusun verdiyi hakimiyyət. Bundan əlavə, hər bir əmr, hər bir göstəriş, hər bir təklif əslində hakimiyyətdir. Başqalarından nəyisə tələb etmək, başqalarını nəyəsə təhrik etmək səlahiyyətinə və imkanına malik olan hər bir kəs hakimiyyət sahibidir. İcazə verməyin, hətta icazə almağın özü də qismən hakimiyyətdir. İcazə vermək - icazə verənin icazə alan üzərində hakimiyyət sahibi olmasına, icazə alanın qabiliyyətləri və imkanları üzərində sərəncam vermək hüququna malik olmasına işarə vurur. İcazəli olmaq isə ona görə hakimiyyət sahibliyidir ki, insanı öz məxsusi qabiliyyətləri və imkanları üzərində hakimiyyət sahibi edir, ona öz zamanına malik olmaq hakimiyyətini verir. Buraya hətta onu da əlavə etmək olar ki, sual vermək səlahiyyəti də əslində bir hakimiyyətdir, başqalarını müəyyən informasiya verməyə təhrik etmədir, hesabat vermək hökmünü vermədir. Hətta yerində deyilmiş adi belə söz belə hakimiyyətdir. Hər bir eyham, yerində deyilmiş hər bir söz əslində hakimiyyətə malik olmanın göstəricisidir. «Sözümü eşitmədin»in mənası, «İradəmi yerinə yetirmədin»dir. «Söz demək» «hökm etmək»dir. Başqasını müəyyən əmələ təhrik etməyən söz, əslində *söz* deyildir, ən çoxu *anlayış*dır.

## 50

Hətta yalvarış, dua, xahiş, təvəqqe də hakimiyyətdir, lakin, gücsüzün güclü üzərində hakimiyyətidir.

**51**

Bir insan başqa bir insanın iradəsini öz iradəsinə tabe etdirdiyi və bir insan başqa bir insanın iradəsinə tabe olduğu bütün hallarda hakimiyyət və köləlik mövcuddur. **Hakimiyyət nə qədər yumşaldılsa da, köləliyin başqa üzü olaraq qalır**. İradə sahibinin icraçıya olan münasibəti hakimiyyət, icraçının iradə sahibinə olan münasibəti isə köləlikdir. Burada yalnız aristokratik hakimiyyət istisna təşkil edir, çünki aristokratik hakimiyyət əslində sözün tam mənasında hakimiyyət deyildir, himayənin sadəcə olaraq simvolik adıdır. Aristokratik hakimiyyət yalnız o halda yer alır ki, insan başqa bir insanın iradəsinə deyil, özünün daxildən gələn, həqiqi iradəsinə tabe etdirilir.

**52**

Hər bir dövlət aristokratizmin təşəkkülündən tükənməsinə doğru istiqamətlənən tarixi yol keçir. Demokratizm aristokratizmin qismən tükənməsi ilə meydana çıxır. Hakimiyyət aristokratizminin tam tükənməsi isə kolonializmdir.

**53**

Kolonializm şəraitində müstəmləkə zülmü altında qalan xalqın vətəndaşlıq və rəiyyətlik duyğusu arxa plana, bəndəlik duyğusu isə ön plana keçir, müstəmləkə zülmü altında qalan xalq üçün dövlət artıq öz inkişafını başa çatdırmış olur və onun həyatında dövlətin yerini din tutur.

**54**

Dövlət öz təbii ölümünə doğru irəlilədikcə özünün tərkib hissələrinə parçalanır. Ordu köçəri tayfalara çevrilərək dünyaya yayılır, icmalar yenidən köməksizləşir, zorakılıqlara və ədalətsizliklərə mə-

ruz qalırlar. Ədalətin və haqqın müdafiəsində dura biləcək qədər qüdrətə malik dövlətin yaradılması həsrətlə gözlənilir.

**55**

Siyasi hakimiyyət iqtidarın cəmiyyəti təşkilatlandırma qüdrətindən qüdrətsizliyədək, şəxsiyyətdə daşınan cəmiyyətqurma resurslarının, aristokratik resursların aşkar olunmasından, əgər belə demək mümkündürsə, kəşf olunmasından bu resurslarının tükənməsinə qədər təkamül yolu keçir.

**56**

Dövlətin öz təbii inkişafında gəlib keçdiyi təkamül mərhələlərinin hər birində müəyyən siyasi təfəkkür tipi aparıcı mövqeyə malik olur və həmin mərhələyə uyğun siyasi strukturların xüsusiyyətini müəyyənləşdirir. Dörd siyasi doktrinadan – *kommunistik, tiranik, demokratik və aristokratik doktrinalar* – hər biri bu təfəkkür tiplərindən birinin əsasında qurulur və uyğun mərhələni nəzəri olaraq ideallaşdırır, dövlətin mahiyyətini və mənasını həmin mərhələdə görür. Aristokratik siyasi doktrina dövlətin təşəkkül mərhələsini, tiranik siyasi doktrina siyasi hakimiyyətin formalaşma mərhələsini, demokratik siyasi doktrina vətəndaş cəmiyyətinə keçid mərhələsini və şəhər mədəniyyətinin ön planda olduğu dövrü, kommunistik siyasi doktrina isə – dövlətin tənəzzül mərhələsini daha yaxşı ifadə edir.

**57**

Dövlətin öz tarixi təkamülündə kəsb etdiyi siyasi formalardan hansının daha uzunmüddətli və etibarlı olması, *bir tərəfdən*, sosial həyatın maskulin başlanğıcının potensiyası ilə, yəni hakimiyyət aristokratizminin nə dərəcədə qüdrətli olması ilə, *digər tərəfdən*

isə, sosial həyatın feminin başlanğıcının potensiyası ilə, o cümlədən, coğrafi kontekstlə müəyyən olunur.

**58**

Əkinçilik üçün daha yaralı olan coğrafi mühit monarxiyanı, ticarət üçün daha yararlı olan coğrafi mühit klassik demokratiyanı və sənaye üçün daha yararlı olan coğrafi mühit isə oliqarxiyanı ön plana çıxarır və daha uzunmüddətli edir.

**59**

Normal inkişafda olan hər bir dövlət kimi və həmçinin də normal inkişafda olan hər bir ailə kimi ***bir fərd olaraq normal inkişafda olan hər bir insan*** da ***öz ömrünün təbii axarında hakimiyyət tiplərinin təbii ardıcıllığını yaşayır*** və üstəlik bu ardıcıllıq eyni zamanda həm də fəsillərin təbii ardıcıllığını xatırladır[1]. Siyasi təkamülün hər bir mərhələsi həm fərdi insan ömrünün təbii inkişaf mərhələlərini, həm də fəsillərin təbii ardıcıllığını yada salır. Fərdi insan ömrünün təbii inkişaf mərhələləri içərisində **aristokratik hakimiyyət**in himayəsi altında olma dövrünün ən uğurlu nümunəsi olaraq dölün ana bətnində həyatı göstərilə bilər. Döl burada, ana bətnində, öz mütləq himayə məkanında özünün bir fərd olaraq təbii inkişafını yaşamaqla bərabər, həm də insanın təşəkkülü kimi möhtəşəm bir

---

[1]Fərdi insan ömrünün təbii inkişaf mərhələləri ilə fəsillərin təbii ardıcıllığı arasındakı analogiyanın çox gözəl təsviri ilə biz bu vaxta qədər daha çox incəsənətdə rastlaşmışıq. Fərdi insan ömrünün mərhələləri ilə fəsillərin ardıcıllığı arasındakı uyğunluğun ən uğurlu bədii həllərindən birini dahi Azərbaycan heykəltəraşı Ömər Eldarov özünün «*Ömrün dörd çağı*» adlı əsərində vermişdir. Fərdi insan ömrünün təbii inkişaf mərhələlərini təqvimi kontekstdə verən bədii həll bu mərhələlərin həmçinin həm fəlsəfi, həm də siyasi-fəlsəfi kontekstdə mənalandırılmasına əslində bir işıq salır.

prosesi də yaşayır, bir insan olaraq yoxluqdan varlığa, yox olmadan var olmaya gəlib yetişir, özü də bütün həyatın və bütün bəşəriyyətin təşəkkül prosesini imitasiya etməklə. Üstəlik burada o, bütün həyatın və bütün bəşəriyyətin təşəkkül prosesini nəinki yalnız imitasiya edir, həm də gedişi insani təşəkkülün məzmunundan ibarət olan prosesin daşıyıcısı olmaqla öz genetik yaddaşında insan idealını da daşıyır və yaşadır, və hətta üstəlik həyatın və bəşəriyyətin bu vaxta qədər əldə etdiyi təcrübənin böyük bir hissəsinə qeyri-şüuri və təhtəlşüur səviyyələrdə sahib olur, təbii ki, onun mənsub olduğu nəsillərin həyatın yaranışından üzü bəri təhtəlşüur, qeyri-şüuri və şüur səviyyələrində mənimsəyə bildiyi və mənimsədiyi ölçüdə. Bütün həyatın və bütün bəşəriyyətin milyard illərlə gəlib keçdiyi təxəyyül və idrak yollarından döl bir bioloji varlıq olaraq və gedişi insani təşəkkülün məzmunundan ibarət olan prosesinin daşıyıcısı olaraq bir daha gəlib keçir, bu dəfə bütövlükdə müqayisə olunmaz dərəcədə daha etibarlı himayə altında və əvvəlki ilə müqayisə olunmaz dərəcədə daha asanlıqla. Yer üzərində həyatın milyard illərlə gəlib keçdiyi tarixi yolu fərd belə bir mütləq himayə altında doqquz ay ərzində gəlib keçir. Bu, ***ömrün bahar çağı***ndan, yəni mayalanma mərhələsindən başlayaraq doğuluşa qədər davam edir və tam hüquqla ***ömrün yay çağı***, daha doğrusu, ömrün yay çağının birinci, əsas mərhələsi adlandırıla bilər. Çünki ömrün yay çağı insanın sözün tam mənasında bir insan olaraq, yetkin bir insan olaraq yetişmə dövrü hesab edildikdə o, doğuluş məqamı ilə tamamlanmır. Ana bətnində yaşanan həyat prosesinin nəticəsində insan bir bioloji növ olaraq artıq yetişsə də, təşəkkül tapsa da, o, sözün tam mənasında yetkin bir insan olaraq əlbəttə ki, hələ yetişməmişdir, özünün tam təşəkkülünü hələ ki tapmamışdır. Görünür elə bununla bağlıdır ki, təzə doğulmuş körpəni insan adlandırmaq bir qədər gülməli də görünür, o, insan adlandırılarkən istər-istəməz dodaqlarda bir təbəssüm də yaradır. O, sözün tam mənasında insan olmaq üçün hələ bundan sonra da inkişaf etməlidir, özü də müstəqil olaraq yox, yenə də himayə altında, himayəyə onun bundan sonra da və bəlkə də daha çox ehtiyacı vardır. Amma əvvəlki mütləq himayə məkanından o,

təbiətin hökmü ilə artıq çölə atılmışdır, indi ana ona yalnız nisbi himayə məkanını təqdim edə bilir. İndi ana ona yalnız öz məxsusi varlığından kənarda, lakin öz məxsusi varlığının lap yaxınlığında, ana qoynunda, təbiətən elə onunla təmas üçün nəzərdə tutulmuş məkanda himayə təqdim edə bilir, ana bir himayə məkanı olaraq öz qoynunu ona açır. Ana qoynu himayə məkanı olaraq nə qədər əziz olsa da və nə qədər qiymətli olsa da, amma əlbəttə ki, əvvəlki qədər mütləq deyildir, və hətta əvvəlki qədər etibarlı da deyildir. Çünki indi ananın özünün də himayəyə ehtiyacı vardır. Ana yalnız özünün himayəyə ehtiyacı ödənildikdə öz körpəsini himayə edə bilir, ona sahiblik edə bilir. Buna görə də körpə həm anasının himayəsinə və üstəlik həm də anası ilə birgə digər yaxınlarının himayəsinə möhtac olmuş olur. İndi ona mütləq xarakterli bioloji himayədən fərqli bir himayə, nisbi xarakterli sosial himayə, anasının və digər yaxınların, və ümumiyyətlə digər insanların qayğısı təqdim oluna bilir. Belə bir himayənin olduğu halda o, bəslənilib böyüdülə bilir, yəni öz mövcudluğunu qoruyub-saxlaya bilir. Belə bir himayənin olmadığı halda isə onun mövcudluğuna hətta son da qoyula bilir. Lakin körpə özünün bu həssas durumundan büsbütün xəbərsiz olduğundan, ana qoynunu və yaxınların qayğısını sanki bir tiran olaraq tələb edir, özünün qışqırtısı, gur səsi ilə. Körpəsi olan ailə körpəni nə qədər sevsə də, özünü əslində sanki bir **tiranizm** şəraitində hiss edir[1]. *Uşaq dünyaya elə əslində bir tiran olaraq gəlir. Çağalıq dövrü insanın* genetik yaddaşında daşınan idealının gerçəkləşdirilməsi üçün *dünyaya hökm etdiyi dövrdür*, öz gur səsi ilə ətrafını buna məcbur etdiyi dövrdür, ona ətrafı üzərində tiran olmaq hüququnun verildiyi dövrdür. Çağalıq – insanın öz reallığını ideala yüksəltmək inamında və qətiyyətində olduğu dövrdür, bu inam və bu qətiyyət yalnız təhtəlşüurun dərinliklərində yer alsa da. Şüurun onda formalaşmağa doğru üz tutması, onun dil açmağa başlaması isə əvvəlcə, ilk mərhələdə ona dünya üzərində daha çox üstünlük və daha çox hakimiy-

[1] Tiranizm çox zaman insanın onu sevənlər əhatəsində olduğu zaman baş verir.

yət əldə etmək üçün əlavə imkanlar versə də, bu, gələcəkdə həm də və getdikcə daha çox, dünyanın onun üzərində üstünlük və hakimiyyət əldə etməsi üçün əlavə imkanlara malik olmasına gətirib çıxarır. İnsan dil açmağa başlamazdan, şüurun onda formalaşmasından öncə o, dünya üzərində hökmranlıq etmək qətiyyətində, öz təhtəlşüur məqsədlərini həyata keçirmək üçün dünyanı bir vasitəyə çevirmək əzmində idi, amma o, dil açdıqdan, onda şüurun formalaşmasından sonra, dünya da onun üzərində hökmranlıq etmək və onun özünü bir vasitəyə çevirmək imkanlarını əldə edir. Maraqlıdır ki, öz şüurlu həyatının uşaqlıq dövrünə təsadüf edən hissəsini yaşayan insan özü onda bir insan olaraq daşınan potensialı və daxili meyilləri ətraf dünyanın vasitəçiliyi ilə bu və ya digər dərəcədə uğurla gerçəkləşdirməklə və öz təhtəlşüurunda daşınan idealı bu və ya digər adekvatlıq dərəcəsində duruldaraq aydınlaşdırmaqla paralel olaraq, əslində həm də dünyanın işlərinə də bu və ya digər dərəcədə və getdikcə daha çox yarınmağa da başlayır, əvvəlcə həyatın bir zahiri imitasiyası olaraq, bir oyun olaraq, sonra isə özü də bir o qədər dərk etmədən həyatının bir işi olaraq, həm onun daxili meyillərindən qaynaqlanan həyatının, eləcə həm də zahirdən, ətraf dünyadan qaynaqlanan həyatının, özü də ətraf dünyanın onun üzərində hökmranlıq etmək və onu bir vasitəyə çevirmək imkanlardan yararlanmağa başlamasından daha öncə. Onun üzərində üstünlük və müəyyən mənada hökmranlıq əldə etmiş ətraf dünya isə əldə etdiyi bu imkanlardan bilərəkdən və şüurlu olaraq bir müddət sonra yararlanmağa başlayır və öz mövqeyindən yararlanma dairəsini bir çox hallarda sonradan hətta getdikcə genişləndirir də. Şüurlu həyatının uşaqlıq dövrünü yaşayan insan isə bununla da *bir tərəfdən*, həm onda genetik olaraq daşınan potensialın və daxili meyillərin, hətta onun təbii təyinatının belə bu və ya digər dərəcədə uğurla gerçəkləşdirilməsi üçün, həm də onun təhtəlşüurunda daşınan idealının getdikcə durularaq aydınlaşması üçün və *digər tərəfdən* isə, əksinə olaraq həm onun daxili meyillərinin boğulmaya məruz qoyulması üçün, həm də onun təhtəlşüurunda daşınan idealın təhrif olunmaya uğradılması üçün istifadə oluna bilən təsir imkanlarına malik dünya

ilə üz-üzə qalmış olur, elə bir dünya ilə üz-üzə qalmış olur ki, onu şüurlu olaraq müstəsna dərəcədə himayə də edə bilir, yəni onun hər hansı bir sui-istifadəsinə yol vermədən onu həm bəsləyib böyütməklə davam edir, həm də həyatda düzgün, öz təbii təyinatına uyğun oriyentasiya götürə bilməsi üçün ona tərbiyə və təhsil verir, və bu himayəni uşaqlıq dövrünün sonuna qədər davam etdirir, ya da onu belə bir himayədən məhrum edərək, fiziki və ya mənəvi məhvolmaya düçar edir və yaxud ən yaxşı halda vaxtından qabaq müstəqilləşməyə təhrik edir. Müstəqilləşmə - əslində bütün hallarda uşaqlıq dövrünün sonudur, gənclik dövrünün isə başlanğıcıdır. Müstəqil ola bilməyən kəs həyatının gənclik dövrünü əslində yaşamır, yaşa dolsa da əslində elə uşaq olaraq da qalır. Gəncliyin başlanğıcı müstəqil həyatın başlanğıcı, himayədə olma dövrünün isə sonudur. Gənc onun öz məxsusi təxəyyülü sayəsində artıq durularaq aydınlaşan idealını müstəqil olaraq, yəni kənardan göstəriş olmadan, öz ağlı və öz iradəsi ilə gerçəkləşdirmə əzmində olan kəsdir. Gənclik sözün tam və böyük mənasında əslində - idealın gerçəkliyidir, insan idealının gerçəkliyidir, insanın təhtəlşüurunda minilliklər boyunca yatan idealın durularaq aydınlaşması və gerçəkləşməsidir, insanın bir ilahi ideya olaraq gerçəkliyidir, əgər o, həqiqətən gənclikdirsə. Gənclik insanın sözün tam mənasında bir insan olaraq artıq yetişməsidir, yəni ömrün yay çağının son məqamıdır. Onun beynini daha çox məhəbbət macəralarının məşğul etməsi isə heç də və qətiyyən onun öz ömrünün bahar çağında olmasından xəbər vermir, onun ömrünün artıq payız çağının yaxınlaşmasından xəbər verir, ömrün payız çağının yaxınlaşmasına bir işarədir. İnsan bu işarənin göstərişi əsasında öz himayə məkanını, öz ailəsini qurmaqla isə öz ***ömrü***nü***n payız çağı***na artıq yetişmiş olur. Ömrün payız çağı əslində insanın öz fərdi varlığında daşınan ideala bağlılıqdan tədricən əl çəkərək, öz fərdi varlığından uzaqlaşdırdığı idealın xidmətində durması ilə səciyyələndirilə bilər[1]. Ömrün payız çağını yaşayan insan öz fərdi

[1] Ömrün payız çağını yaşayan insan sanki ağacdan qopub yerə düşən bir meyvəyə, bir məhsula bənzəyir ki, onun da yeganə həyati təyinatı

varlığında daşınan idealın gerçəkləşdirilməsinə birbaşa olaraq yönəmli olan həyat sürmədiyindən sözün birbaşa fəlsəfi mənasında artıq gənc deyildir, amma o, özünün fərdi varlığından uzaqlaşdırdığı idealın gerçəkləşdirilməsinə yönəmli olan həyat sürdüyündən qoca da deyildir. Çünki qocalıq müəyyən fəlsəfi kontekstdə anlaşıldıqda, daha konkret deyilərsə, mənim nöqteyi-nəzərimdən baxıldıqda, insanda idealı gerçəkləşdirmək əzminin qırılması mənasını daşıyır. Əgər gənclik dövrünün sonu olaraq insanın öz fərdi varlığında daşınan idealını gerçəkləşdirmək əzminin qırılması başa düşülsə, onda yetkin insan gənclikdən sonrakı dövrün təmsilçisi olmaqla, sözün birbaşa fəlsəfi mənasında gənc deyilsə də, sözün vasitəli fəlsəfi mənasında gəncdir. Çünki insan bu halda öz fərdi varlığında daşınan idealını gerçəkləşdirmək əzmini tükəndirsə də, ümumiyyətlə insani idealı gerçəkləşdirmək əzmi onda hələ ki tükənməmişdir, o, idealı öz fərdi varlığından ayırsa da, uzaqlaşdırsa da, onun gerçəkləşdirilməsi üçün real iş görür. Amma onun gördüyü real iş idealın gerçəkləşdirilməsinə bilavasitə deyil, bilvasitə aid olduğundan, daha konkret deyilərsə, onun başlıca fəaliyyət sferası idealın bilavasitə gerçəkləşdirilməsi prosesi deyil, idealın gerçəkləşdirilməsi üçün vasitələrin bilavasitə yaradılmasına yönələn proses deyil, bu vasitələrlə əvəzlənə bilən, dəyişdirilə bilən, mübadilə edilə bilən vəsaitlərin əldə olunmasına yönələn proses olduğundan, o, ideala bağlılıqdan getdikcə daha çox dünyaya bağlılığa üstünlük verir. Elə bu səbəbdəndir ki, insan həyatının payız çağı real dünya ilə insani ideal arasındakı mübarizədə insani idealın real dünyaya əslində təslim olmağa üz tutması ilə başlayır və faydalanma xatirinə dünya ilə sövdələşmə zəminində, **demokratizm** zəminində inkişaf edir. Bu dövr utilitarist meyillərin ölgünləşməsi ilə isə başa çatır. Dünyaya qarşı dözümlülüyün nümayiş etdirilməsi ilə səciyyələndirilə bilən qocalıq isə idealın dünyadan qoparılıb ayrılması ilə başlayır və onun *başqa*

---

daxilindəki tumları qidalandırmaq və onları dünyanın istisindən-soyuğundan qorumaqdır.

*dünya* üçün qorunub saxlanılması ilə başa çatır. Bu isə ***ömrün*** həqiqətən də soyuq ***qış çağı***dır.

**60**

Çox maraqlı bir faktdır ki, siyasi təfəkkürün tarixi dinamikası ilə bədii təfəkkürün tarixi dinamikası arasında diqqəti son dərəcə özünə cəlb edən müəyyən ümumiliklər mövcuddur. Siyasi sistemlərdən hər hansı birinin gur inkişaf dövründə olduğu zaman bədii yaradıcılığın konkret bir növünün də gur inkişafı müşahidə olunur. Dövlətin bir himayə sistemi olaraq meydana çıxması rəqsin, himayənin hakimiyyətlə əvəzlənməsi məqamı isə musiqinin doğuluşu ilə səciyyəvidir. Rəqs himayə olunanın himayə edənə, himayəçiyə nazlanmasını səhnələşdirə bildiyi kimi, musiqi də hakimiyyət altında olan insanın sıxıntılarını bir qədər yumşalda bilir, ürəyindən olmayan işi icra etməsini bir qədər asanlaşdıra bilir. Tiraniya dövrü poeziyanın, monarxiya dövrü dramaturgiyanın, politiya dövrü prozanın, demokratiya dövrü onların əks tərəflərinin – satiranın, komediyanın, lətifənin, oliqarxiya dövrü arxitekturanın və şəhərsalmanın, imperiya dövrü təsviri incəsənətin gur inkişafı ilə səciyyəvi olduğu halda, teokratiya peyğəmbərlər barədə rəvayətlərin gur inkişafı ilə səciyyəvidir.

**61**

Sirkə, tamaşaya, əyləncəyə ehtiyac bir qayda olaraq o zaman yaranır ki, əməlin olacağına ümid qırılmış olur, əməlsizlikdən doğulan gərginlik əməllə aradan qaldırıla bilmir, amma tamaşa ilə, əyləncə ilə, sirklə bir qədər yumşaldıla bilir. Sirkin, tamaşanın ön planda olduğu hallarda cəngavər mədəniyyətinin dəyərləri - cəsarət, qüvvət, iradə, çeviklik, dözüm, dəqiqlik - həyata tətbiq oluna bilmədiyi üçün, gerçək düşmənlə mübarizəyə, özünütəsdiqə tətbiq oluna bilmədiyi üçün, oyuna tətbiq olunur, özünütəsdiqə deyil, özünübəyəndirməyə xidmət edir. Həyati instinktlər həyatda nümayiş

etdirilə bilmədiyi üçün, oyunda nümayiş etdirilir, kütlə hadisə yarada bilmədiyi üçün hadisə görüntüsünün tamaşaçısı olur, millət ola bilmədiyi üçün publika olur. Kütlə xalq, millət ola bildikdə isə sirkə, tamaşaya, əyləncəyə, şouya ehtiyacı son dərəcə azalır, demək olar ki yox olur.

**62**

Dünyanın bütün xalqları, millətləri və eləcə də dövlətləri həqiqi cəngavər təbiətini və aristokratik ruhu özündə daşıyan və çox zaman genetik olaraq da bir-biri ilə bağlı olan insanlar tərəfindən yaradılmışdır. Bu insanların milli mənsubiyyətləri onların heç də genetik mənsubiyyətlərindən deyil, gerçəkləşdirdikləri məxsusi əməllərindən qaynaqlanmışdır, çünki onların özləri milli və siyasi mənsubiyyətin yaradıcılarıdırlar. Onlar qədim yunan dövlətlərinə başlanğıc verməklə kütləni yunanlaşdırmış və özləri də yunanlaşmışlar (Zevs başda olmaqla), Roma dövlətini yaradarkən kütləni romanlaşdırmış və özləri də romanlaşmışlar (Romul başda olmaqla), Frank dövlətini yaradarkən kütləni franklaşdırmış və özləri də franklaşmışlar (Merovey başda olmaqla), Rus dövlətini yaradarkən kütləni ruslaşdırmış və özləri də ruslaşmışlar (Rürik başda olmaqla), İtaliya dövlətini yaradarkən kütləni italyanlaşdırmış və özləri də italyanlaşmışlar (Lotar başda olmaqla), Fransanı yaradarkən kütləni fransızlaşdırmış və özləri də fransızlaşmışlar (Karl başda olmaqla), Almaniyanı yaradarkən kütləni almanlaşdırmış və özləri də almanlaşmışlar (Alman Lüdovik başda olmaqla), Amerika Birləşmiş Ştatlarını yaradarkən kütləni amerikanlaşdırmış və özləri də amerikanlaşmışlar (Vaşinqton başda olmaqla). Xalqlar dövlətləri yaratmır, dövlətlər xalqları yaradır.

**63**

Dövlət onun sərhədləri daxilində məskunlaşan əhalini vahid prinsiplərə uyğunlaşdırdığından əslində vahid bir xalqın formalaş-

masını şərtləndirir. Xalq hakimiyyətdə olan tayfanın dili əsasında olmasa da, güclü iradəsi əsasında formalaşır. Etnogenez ən azı elə bu səbəbdən də yalnız dövlət fenomeni kontekstində şərh olunduqda məna kəsb edir.

**64**

Həqiqi aristokratik ruhu özündə daşıyan hakimiyyətin himayə məkanı dövlətin sərhədləri ilə hüdudlanan məkandan kiçik ola bilməz. Hakimiyyətin himayə məkanı dövlətin sərhədləri ilə hüdudlanan məkandan kiçik olduqda, dövlət öz mahiyyətinə yadlaşır, quldur yuvasına çevrilir. Hakimiyyətin himayə məkanı dövlətin sərhədlərini aşdıqda isə dövlət xilaskar xarakterini kəsb edir.

**65**

Dövlət insan ləyaqətinin gerçəkləşməsidir, ədalətin təşnəsi olan xalqın mərd ədalətin sosial daşıyıcısı olan cəngavərə sığınmasıdır.

**66**

Hər bir xalqın qüdrətlilik və suverenlik ölçüsü onda daşınan aristokratik resursların ölçüləri ilə müəyyən olunur.

**67**

Aristokratik hakimiyyət resursları tükəndikcə siyasi həyat tədricən öz mahiyyətinə yadlaşır, tiranizm, despotizm, monarxizm, demokratizm, liberalizm və həmçinin də anarxizm formalarına transformasiya edir. Anarxizm onun bir siyasi nəzəriyyə olaraq yaradıcılarının nöqteyi-nəzərindən, hakimiyyətin yoxluğu olmaqla yanaşı, həm də siyasi hakimiyyətin əxlaqla əvəzlənməsini nəzərdə tutdu-

ğundan, bu kontekstdə anlaşıldıqda aristokratik paradiqmanın bir addımlığındadır. Əgər anarxist doktrinada sosial həyatın özülünə qoyulması nəzərdə tutulan əxlaq insanın xaricindən, transsendent dünyadan qaynaqlanmayıb, daxildən, immanent dünyadan qaynaqlanırsa, anarxizm hakimiyyətin yoxluğu kimi qiymətləndirilsə də, sadəcə olaraq hakimiyyət resurslarının tam tükənməsi demək deyildir, aristokratik hakimiyyət resurslarının hələ də mövcudluğuna əslində bir işarədir.

**68**

Dövlət yalnız aristokratik resurslar əsasında fəaliyyət göstərdikdə öz mahiyyəti və mövcudluğu arasında uyğunluğa nail olur. Tiranik, demokratik və kommunistik təfəkkür əsasında fəaliyyət göstərən dövlətin mahiyyəti və mövcudluğu arasındakı münasibət isə ziddiyyət xarakterlidir. Tiranizm, demokratizm və kommunizm xarakterini kəsb etməklə, siyasi təfəkkür özünün tarixi təhrif formalarını yaradır. Əgər cəmiyyəti hərəkətə gətirən siyasi instinktlər nəcib təbiətlidirsə, xilaskar təbiətlidirsə, ədalətli əxlaqa istinad edirsə, intellektual qüdrətdən doğursa və yenilməz iradə ilə gerçəkləşdirilirsə, dövlət öz həqiqi mahiyyətinə qovuşmuş olur, əks halda isə ədalətsizliyin dayağına çevrilərək eybəcərləşir. Zadəgan gücsüzün himayəçisi deyildir, ədalətin və haqqın himayəçisidir. Buna görə də, təkcə öz haqqını deyil, həm də digərlərinin də haqqını müdafiə etməyi bacarır və müdafiə edir. Zadəgan özünü bir himayəçi kimi, hakimiyyət altında olanları isə *özünün doğmaları* kimi dərk edir. *Doğma* o kəsdir ki, onun problemlərini öz problemlərin kimi, onun arzularını öz arzuların kimi yaşayırsan, yad isə o kəsdir ki, onun problemləri sənin üçün maraqlı deyildir, onun arzuları sənin üçün gülüncdür.

**69**

Aristokratik lider qorxutmur, sevdirir. Aristokratizm məhəbbət üzərində qərarlaşır. Zadəgan sevdirmə yolu ilə, tiran və despot qorxutma yolu ilə, monarx şirnikləndirmə yolu ilə, demokratik lider isə vəd və inandırma yolu ilə hakimiyyət sürür. Cəmiyyəti idarə etmək, onu nəzarətdə saxlamaq üçün zadəgan ilhamlandırır, tiran və despot hədələyir, monarx stimullaşdırır, demokratik lider isə inandırır.

**70**

Aristokratik prinsipin gerçəkləşdiyi cəmiyyət ən ideal cəmiyyətdir, ona görə ən ideal cəmiyyətdir ki, burada insanlar öz təbii təyinatlarını gerçəkləşdirdikləri üçün xoşbəxtdirlər, fəaliyyətləri xarici determinizm üzərində deyil, daxili həyat üzərində kökləndiyi üçün azaddırlar, üstəlik həyati ideallarını reallaşdırdıqları üçün gözəldirlər. Elə bu səbəbdən də hakimiyyətin ən ədalətlisi, əgər belə demək mümkündürsə, ən gözəli aristokratik hakimiyyətdir. Həm də o səbəbdən ki, aristokratik hakimiyyət insanlar üzərində zorakılığa deyil, insanların zorakılıqdan xilas edilməsinə yönəlmişdir. Aristokratizm elə buna görə də siyasi təfəkkürün ilkin və əzəli forması kimi çıxış edir.

**71**

İnsanların özünütəsdiqi üçün şərait yarada bilən siyasət dolğun, insani resursların sui-istifadəsinə, istismarına yol verməyən siyasət isə təmizdir. Gözəl siyasət dolğun və təmiz siyasətdir. Əgər siyasət həqiqətən də dolğun və təmizdirsə, onda bunun ən əyani və ən dəqiq göstəricisi o olacaqdır ki, onun nüfuz dairəsində olan cəmiyyət gözəl cəmiyyət olacaqdır, hər şeydən öncə o mənada gözəl cəmiyyət olacaqdır ki, bu, insanları gözəl olan cəmiyyət olacaqdır. Ən gözəl siyasət insanları sözün birbaşa mənasında gözəlləşdirən

siyasətdir. Çünki insan öz təbii təyinatını gerçəkləşdirdikdə gözəl olur.

**72**

Siyasət cəmiyyətdə iradənin təmərküzləşmə məkanıdır, təxəyyülün təmərküzləşmə məkanı incəsənət olduğu kimi, və təfəkkürün təmərküzləşmə məkanı elm olduğu kimi. Qüdrətli təxəyyül sahibi olmayan kəs əsl sənətkar ola bilmədiyi kimi, qüdrətli təfəkkür sahibi olmayan kəs əsl alim ola bilmədiyi kimi, qüdrətli iradə sahibi olmayan kəs də əsl hökmdar, əsl siyasətçi ola bilməz. Əsl sənətkar xalqın təxəyyülünün mücəssəməsi olduğu kimi, əsl alim xalqın təfəkkürünün mücəssəməsi olduğu kimi, əsl siyasətçi, əsl hökmdar xalqın iradəsinin mücəssəməsidir.

**73**

Əgər siyasət çirkindirsə, bu təkcə siyasətçilərin, hökmdarların günahı deyildir, bu həm də sənətkarların günahıdır ki, xalqın həqiqi ideallarını göstərə bilməyiblər, bu həm də alimlərin günahıdır ki, xalqın həqiqi problemlərinin həlli üçün düzgün ideya verə bilməyiblər.

**74**

Siyasətin fəlsəfəsi ən ümumi halda qətiyyət yaşantısını formalaşdırmalı olduğundan fəlsəfənin yerinə yetirdiyi əsas işdə, yəni dünyanı və insan həyatını mənaya yüksəltmə işində son sözü deyir. Dünya və cəmiyyət heç də bütün hallarda mənalı deyildir, çünki heç də bütün hallarda mahiyyətdən qaynaqlanmır. Mahiyyətdən qaynaqlanmayan dünya, mənaya köklənməyən cəmiyyət həqiqi deyildir və ədalətli deyildir. Dünyanın və cəmiyyətin mahiyyət üzərində köklənməsi və deməli, həm də, həqiqiləşdirilməsi işi dünyanı daxildən saran həyat axınının birbaşa istiqaməti və bilavasitə təyi-

natıdır. Adi şüurun Tale adlandırdığı, fəlsəfi şüurun isə Dünya İradəsi kimi səciyyələndirdiyi bu axın əlbəttə ki, ilahi mənşəlidir. Lakin dünyanın mahiyyətə qaytarılması işinin bir insani istiqaməti də, əlbəttə ki, mövcuddur. Bu, qaynaqlanan insan iradəsidir. İradə təxəyyülün başladığı və təfəkkürün davam etdirdiyi işi başa çatdırır. Təxəyyül idealı, təfəkkür ideyanı, iradə isə qətiyyəti formalaşdırır.

**75**

Qətiyyət bu və ya digər dərəcədə olsa da, məkanın və zamanın bu və ya digər ölçüləri ilə məhdudlaşsa da, əslində insanları təzədən, yeni bir qaydada cəm edir, yeni bir cəmiyyəti və müəyyən mənada yeni bir dünyanı yaradır. Əgər ideal özünün epistemoloji, nəzəri gerçəkliyini ideyada tapırsa, praktik gerçəkliyini cəmiyyətdə tapır. İdealın siyasi gerçəkliyi nizamla qurulmuş cəmiyyət, iradənin gerçəkliyi isə hadisədir. Hadisə yeni bir cəmiyyətin, insan münasibətlərinin yeni bir formasının başlanğıcıdır. Belə bir başlanğıc ola bilməyən sosial dəyişiklik hadisə deyildir.

**76**

Əgər indiki halda qətiyyətlisənsə, bu o deməkdir ki, edəcəyin əməlin məqsədi və mənası sənə aydındır, nəyə güvəndiyini bilirsən, bunu necə edəcəyin sənə aydındır, bunu etməmək üçün heç bir mənəvi əsasının olmadığını bilirsən və üstəlik, nəyin nəyin xatirinə etdiyin sənə aydındır. Siyasət fəlsəfəsi qətiyyət yaşantısını formalaşdıran bir amil olaraq insan həyatını yalnız o halda mənasına qaytara bilir ki, onun doğurduğu qətiyyət hissi fəlsəfi yaşantını tamamlamış olsun, Gözəllik fəlsəfəsindən doğulan ideal duyumunun, Varlıq fəlsəfəsindən doğulan inam hissinin, Təfəkkür fəlsəfəsindən doğulan həqiqət hissinin, Əxlaq fəlsəfəsindən doğulan təmizlik hissinin və nəhayət, Siyasət fəlsəfəsindən doğulan qətiyyət hissinin sintezindən bütöv bir müdriklik yaşantısı formalaşmış ol-

sun. Müdriklik və ya hikmət – əməl üçün əsas ola bilən bilikdir. Həqiqi xoşbəxtlik yalnız müdriklik xarakterini kəsb edən qətiyyətin gerçəkləşməsidir. Belə bir gerçəkləşmə olmadıqda, müdriklik bütöv bir duyğu olaraq malik olduğu məzmunu tədricən itirməyə başlayır. Bu məzmunun başlıca hissəsini təşkil edən bir əlamət – gerçəkləşdirilmə zərurəti itirildikdə, onun qalan hissəsi başqa bir yaşantını – ümid yaşantısını formalaşdırır.

**77**

Siyasət fəlsəfəsi qətiyyət hissi ilə tamamlanmayaraq, yalnız ümid yaşantısı ilə məhdudlaşmışsa, yalnız ona nail olur ki, bir vaxt, haçansa, qətiyyəti doğura biləcək bilikləri, yəni bu və ya digər siyasi doktrinanı törədir. Siyasi doktrina ümid yaşantısı ilə məhdudlaşan Siyasət fəlsəfəsinin özünüifadəsidir. Siyasi doktrina siyasət fəlsəfəsinin bir nəticəsi olaraq meydana gəlsə də, əslində politoloji problemin bir konkret həlli kimi mövcuddur.

**78**

***Siyasət fəlsəfəsi***nin **politologiya**dan fərqi, son nəticədə, ***qətiyyət*** yaşantısının **siyasi şüur**dan fərqi qədərdir. Siyasi şüur qətiyyət yaşantısından fərqli olaraq insanı öz doğma, immanent iradəsinə deyil, yad, transsendent iradəyə tabe etdirir**(1)**. Siyasətin fəlsəfəsi cəmiyyəti ideyada layihələndirdiyi halda, ***cəmiyyətqurmanın fəlsəfi əsası*** olduğu halda, politologiya **artıq qurulmuş cəmiyyətin qorunub saxlanılması üçün bir rasional nəzəriyyədir(2)**. Siyasətin fəlsəfəsi siyasətin ümumiyyətlə dünyanın və həyatın ***məna***sı ***kontekstində izah***ına yönəldiyi halda, onun mahiyyət baxımından mənalandırılmasından, dünyanın, həyatın və eləcə də, insanın və cəmiyyətin mahiyyətinin mənalandırılmasından çıxış edilərək anlaşıqlı edilməsinə xidmət etdiyi halda, politologiya siyasətin **mövcud cəmiyyətdən çıxış edilərək izah**ına yönəlmişdir, mövcud siyasətin anlaşıqlı edilməsinə xidmət edir**(3)**. Siya-

sət fəlsəfəsi, həm də, eyni zamanda, bu və ya digər ***siyasi doktrinanın təşəkkül prosesi*** olduğu halda, politologiya **onu tamamlanmış, başa çatmış bir rasional nəzəriyyə olaraq cəmiyyət və siyasi hakimiyyət qarşısında** irəli sürür, siyasi doktrina hakimiyyət tərəfindən tamamlanmış, başa çatmış bir rasional nəzəriyyə kimi rəsmən qəbul edildikdən sonra isə onu cəmiyyətə bir ideologiya kimi **təqdim edir**. Siyasi doktrina siyasət fəlsəfəsinin bir nəticəsi olaraq qətiyyət hissinin bütün çılpaqlığı ilə yaşadılması üçün, ideologiya isə ümid hissini bir məmnunluq duyğusu kimi yaşatmaq üçündür**(4)**. Yekunlaşdırılmış şəkildə deyilərsə, siyasət fəlsəfəsi siyasəti ümumiyyətlə dünyanın və həyatın mənası kontekstində, ümumən semantik kontekstdə izah edirsə, politologiya siyasəti mövcud siyasi empirika, mövcud siyasi gerçəklik əsasında izah edir, siyasət fəlsəfəsi cəmiyyət quruculuğunun yeni metodologiyasını yaratdığı halda, politologiya cəmiyyət quruculuğunun mövcud metodologiyasının təqdimatı ilə öz məzmununu praktik olaraq qapayır və bu qapama fərdi iradə ilə sosial iradə arasındakı uyğunsuzluğun miqdarı ölçüsündə tamamlanmamış fəlsəfi yaşantının məzmununu müəyyənləşdirir. Məhz bu məzmun siyasi hakimiyyəti zəruri edir.

**79**

Siyasətin fəlsəfəsi ilə politologiya arasında aralıq element olaraq siyasi sosiologiya dayanır. Əgər siyasətin fəlsəfəsi siyasi hakimiyyətlə xalqın iradəsi arasında uyğunluq yaratmaq təyinatını daşıyırsa, politologiya siyasi hakimiyyəti ümumən xalqa qarşı olmasa da, ümumən xalqla yanaşı mövcud olan siyasi hakimiyyətin özünün məxsusi xüsusiyyətlərini, onun xalqla yanaşı mövcudluq üslubunu öyrənir, siyasi sosiologiya isə siyasətin fəlsəfəsi ilə politologiya arasında aralıq mövqe tutaraq ümumən xalqı, ümumən cəmiyyəti səciyyələndirərkən bunu konkret empirik material əsasında həyata keçirir. Əgər siyasətin fəlsəfəsi siyasi hakimiyyəti xalqın iradəsinin, sosial iradənin ifadəçisi kimi təqdim edirsə, politologiya siyasi

hakimiyyətin məxsusi xüsusiyyətlərini onun mövcud olduğu cəmiyyət kontekstindən demək olar ki kənarda müəyyənləşdirir və həmin bu kontekst siyasətin fəlsəfəsi ilə yanaşı həm də siyasi sosiologiyada diqqət mərkəzində dayanır. Əgər siyasətin fəlsəfəsi insanın daxili təlatümlərini siyasi yaradıcılıq rakursunda mənalandırmaq üçündürsə, politologiya sosial reallığı siyasi hakimiyyət fonunda öyrənmək üçün, siyasi sosiologiya isə əksinə olaraq siyasi hakimiyyəti sosial reallıq fonunda öyrənmək üçün mühüm əhəmiyyət kəsb edə bilir **(2).** Əgər siyasətin fəlsəfəsi cəmiyyətin mahiyyət baxımından mənalandırılmasından, insanın və cəmiyyətin, eləcə də, dünyanın və həyatın mahiyyətinin mənalandırılmasından çıxış edərək əslində cəmiyyətqurma işini həyata keçirmək üçün və bundan ötrü isə hər şeydən öncə cəmiyyətqurma işinin ümumi məqsədini, məramını müəyyənləşdirmək üçündürsə, politologiya eyni zamanda həm də cəmiyyətqurma işini gerçəkləşdirməkdən ötrü dəyərli analitik material olaraq istifadə oluna bilən biliklərin, bu vaxta qədər artıq qurulmuş cəmiyyətlərin mühüm bir plastının - siyasi hakimiyyətin araşdırması nəticəsində əldə edilmiş biliklərin yaradılması üçün, siyasi sosiologiya isə bu qəbildən olan biliklərin ayrı-ayrı fərdlərin və kiçik sosial qrupların davranış normalarını və münasibətlərini xırda təfərrüatlara vararaq öyrənilməsi yolu ilə yaradılması üçündür**(2)**. Əgər siyasətin fəlsəfəsi siyasəti dünyanın və həyatın mənası kontekstində, ümumən semantik kontekstdə izah edirsə, politologiya siyasəti mövcud siyasi empirika əsasında, siyasi sosiologiya isə həm siyasəti, həm də siyasi hakimiyyəti cəmiyyət haqqında ümumi nəzəriyyə, ümumi sosiologiya kontekstdə izah edir**(3)**. Əgər Siyasətin fəlsəfəsi hər hansı bir situasiyada qərar qəbul etmənin ümumi mexanizmləri aşkarlamağa səy edirsə, siyasi sosiologiya qərar qəbul etmənin konkret, empirik mexanizmlərinə - konkret durumda məmurların psixoloji vəziyyətinə, qərar qəbul edən insanların əxlaqi prinsiplərinə diqqət yetirir, politologiya isə qərar qəbul etmənin artıq aşkarlanmış mexanizmlərini populyarlaşdırır**(4)**.

**80**

Əvvəlcə siyasətin fəlsəfəsi yaranır, sonra dövlət, necə ki, əvvəlcə gözəlliyin fəlsəfəsi yaranır, sonra incəsənət, əvvəlcə varlığın fəlsəfəsi yaranır, sonra din, əvvəlcə təfəkkürün fəlsəfəsi yaranır, sonra elm, əvvəlcə əxlaqın fəlsəfəsi yaranır, sonra etik normalar. Sənət idealın aydınlaşdırılması missiyasının bir ifadəçisi kimi gözəllik fəlsəfəsinin bir nəticəsi olduğu halda, elm ideyanın formalaşdırılma missiyasının bir ifadəçisi kimi təfəkkür fəlsəfəsinin bir nəticəsi olduğu halda, siyasət - iradənin ifadəçisi, siyasət fəlsəfəsi isə, son nəticədə, qətiyyətin qurucusudur.

**81**

İnsanın özü olması üçün, özünü həyatda təsdiq edə biləcək qədər qüdrətli olması gərəkdir, güclü iradə sahibi olması, qətiyyət sahibi olması gərəkdir. Qətiyyət hissi isə insanın öz ideyaları və imkanları ilə reallığı ideala yüksəldəcəyinə əminlik duyğusudur. Fəlsəfə məhz ona görə siyasətin fəlsəfəsi ilə tamamlanır ki, siyasət fəlsəfəsi insan həyatına qətiyyət hissi kimi həqiqətən də bir xoşbəxtlik yaşantısı gətirir.

***

Güman edirəm və ümid edirəm ki, möhtərəm oxucumda mənə veriləsi çoxlu suallar yaranmışdır. Yaranan sualları cavablandırmağa həmişə hazıram. Hələlik isə əsərin birinci nəşrinin çapa hazırlandığı vaxtdan, yəni 2000-ci ilin sentyabr ayından başlayaraq bu vaxta qədər verilən sualları və onlara verilən cavabları, on iki ildən bir qədər çox zamandır ki, müəyyən fasilələrlə davam edən mükaliməni möhtərəm oxucumun diqqətinə çatdırıram.

## ƏSRİMİZİN İLK ƏKS-SƏDALARI: *MƏZMUN ƏTRAFINDA CANLI MÜKALİMƏ*

**Bəxtiyar VAHABZADƏ:** Adil Əsədovun yazıları ilə elə ilk tanışlıqdan sezdim ki, bu tamamilə yeni və tamamilə başqa bir üslubdur.

**Yaşar QARAYEV:** Müəllifin orijinal təfəkkür üslubu ilə mən də kifayət qədər tanışam. Amma bu əsərin əlyazması mənə xüsusən möhtəşəm göründü. Sadəcə olaraq vərəqləyib üstündən keçə bilmədim.

**Həsən QULİYEV:** Adil müəllim, Sizin düşüncə və yazı üslubunuzun başlıca xüsusiyyətlərindən biri ondadır ki, istər-istəməz oxucunu mükaliməyə dəvət edir. Mən Sizin kitabın əlyazmasını maraqla oxudum və məndə çoxsaylı suallar meydana gəldi. Bu suallardan məntiqi olaraq birincisi belədir. Yəqin ki razılaşardınız ki, hər bir müəllifin öz auditoriyası, hər bir kitabın öz oxucusu vardır. Belə olduğu halda bəs Sizin auditoriyanız kimlərdən ibarətdir? Sizin oxucunuz kimdir? Siz kitabı kimə ünvanlamısınız?

**Adil ƏSƏDOV:** Bu ünvan annotasiyada göstərilmişdir: fəlsəfi elmlər üzrə mütəxəssislər, siyasətçilər və siyasətşünaslar, ali məktəb tələbələri, həmçinin siyasət və fəlsəfə mövzuları ilə maraqlanan geniş oxucu kütləsi.

**Həsən QULİYEV:** Mən bu sualı nəyə görə verirəm? Mənə elə gəlir ki, kitab üç müxtəlif janrda yazılmışdır: dialoq janrında, akademik janrda və esseistik janrda. Bu janrların hər birində verilən materialın öz uyğun auditoriyası vardır. Dialoq janrında verdiyiniz *Ötən əsrlərin mükaliməsi* əsasən tələbə auditoriyası üçün, esseistik janrda verdiyiniz *Müqəddimə* əsasən geniş oxucu kütləsi üçün, kitabın məzmununun akademik janrda verdiyiniz qalan hissəsi isə əsasən ziyalı auditoriyası üçün daha çox oxunaqlı və müvafiqdir.

**Adil ƏSƏDOV:** Mənə elə gəlir ki, bu janrların hər üçü həm tələbə auditoriyası, həm geniş oxucu kütləsi, həm də ziyalı auditoriyası

üçün faydalı ola bilər. Esseistik adlandırdığınız janrda verilən material həm tələbə auditoriyasını, həm də geniş oxucu kütləsini özünə cəlb etməklə onlarda daha dərin fəlsəfi təhlilə ehtiyac yaradacaq və bununla da akademik janra maraq oyadacaqdır. O ki, qaldı ziyalı auditoriyasına, esseistik və dialoq janrlarında verilmiş material onun üçün ağır akademik üslubla ünsiyyətdən öncə xoş bir istirahət olacaqdır. Digər tərəfdən, dialoq janrında verilmiş, *Ötən əsrlərin mükaliməsi* adlandırılan başlanğıc hissə oxucuda ümumiyyətlə problem situasiyasını yaradır. Akademik və esseistik janrlarda verilmiş material isə bu situasiyanın konkret həllərini verir.

**Həsən QULİYEV:** Burada Sizin verdiyiniz dialoq doğrudan da problem situasiyasını yaradır. Bu, həqiqətən də belədir. Lakin Sizin yaratdığınız həmin bu problem situasiyası daha çox ümumi xarakter daşıyır, Sizin öz ideyalarınızın təqdimatına başlanğıc verə biləcək konkret problem müəyyənliyi ilə az bağlıdır.

**Adil ƏSƏDOV:** *Ötən əsrlərin mükaliməsi*nin təyinatını da mən məhz belə bir ümumi problem situasiyasının yaradılmasında görürəm. Sizin indi söylədiyiniz həmin bu qeyddən sonra isə öz başlanğıc niyyətimi artıq həyata keçirdiyimi hesab edirəm. Siyasi klassikanın bu ilkin təqdimatını mən ona görə vermişəm ki, Azərbaycan oxucusunu Azərbaycanda bu gün artıq formalaşmış mövcud siyasi fikir kontekstindən qoparıb ayırım və siyasi təfəkkür azadlığını ona bir daha qaytarım. Mənim öz ideyalarımın təqdimatı isə *Müqəddimə*dən sonra başlayır.

**Qunnar SKİRBEKK:** Mən dünya fəlsəfəsinin yarandığı gündən bu günə qədər keçdiyi yolu əhatə edən iri həcmli fəlsəfə tarixinin müəlliflərindən biriyəm. Sizi əmin edim ki, Adil Əsədovun irəli sürdüyü üslubda yazılmış başqa bir əsərə bu vaxta qədər rast gəlməmişəm.

**Müşfiq ŞÜKÜROV:** Mən diqqəti *Ötən əsrlərin mükaliməsi*, xəyali dialoq ideyasına yönəltmək istərdim. Bu, özlüyündə pis ideya deyil. Siyasi fikir sahəsində mövcud yanaşmalar müəllifin doğma, canlı dilində ortaya qoyulur. Lakin bu dialoqda *ev yiyəsi*nin özünün iştirak etməməsi oxucuda müəyyən qədər pərtlik hissini yaradır.

Yaxşı ki, müəllif sonradan da olsa ötən əsrlərin siyasi ideyaları ilə bağlı öz mövqeyini oxucuya ümumi şəkildə olsa da çatdırır.

**Əlikram TAĞIYEV:** Dialoq müəllifin adi olmayan fikirlərini əsaslandırmaqdan ötrü tapdığı çox incə bir üsuldur. Bu, müəyyən mənada həm yeni, həm da artıq sınaqdan çıxmış bir üsuldur. Hər iki halda müəllifi ancaq alqışlamaq lazımdır. Müxtəlif alimlərin siyasətə verdikləri təriflərdə bir subyektivlik duyulur, necə deyərlər, hərə gözü öz tərəfinə çəkməyə çalışır. Platona görə, siyasət – birlikdə yaşamaq məharətidir. Platon görünür o zamanın kiçik şəhər-dövlətlərini – "polis"ləri - bir yerə toplamağa səy göstərirdi. Aristotel zamanında isə vəziyyət dəyişir. Filipp, sonra da, İsgəndər polisləri, həm də üstəlik Asiyanı da bir imperiyada birləşdirdi. Aristotel bu imperiyanın idarə olunmasının ideoloji əsaslarını verdi. Aristotelə görə, siyasət – idarə etmək sənətidir. Orta əsr islam dövlətlərində hər iki tərif öz qüvvəsini saxladı, çünki hər ikisi lazım idi. İntibah dövründə Makiavelli siyasəti ölkənin və millətin maraqları naminə əxlaqa nisbətən önə çəkdi və ona birinci dərəcəli əhəmiyyət verdi. XIX əsrdə siyasət – «gecə gözətçisi» idi. Marksizmdə siyasət – hakimiyyətlə bağlı fenomen kimi meydana çıxır. Müasir dünyanın ziddiyyətləri beynəlxalq aləmdə *siyasətin humanistləşdirilməsi* ideyasının ortaya atılması zərurətini yaratdı. Adil Əsədovun bu əsəri həmin zərurətin ən gözəl ifadə formalarından biridir.

**İlham MƏMMƏDZADƏ:** Əsərin əlyazmasında ciddi xassəli pozitiv olaraq bir momenti də xüsusi olaraq qeyd etmək istərdim. Siyasət haqqında bu vaxta qədər yazılan siyasiləşmiş kitablardan fərqli olaraq, burada siyasətin problemləri yalnız obyektiv elmi problem kimi təhlil olunurlar. Siyasət haqqında bu vaxta qədər yazılan bir çox kitablarda isə məhz belə bir yanaşma çatmırdı.

**Teymur VƏLİYEV:** Elm ideologiyadan, sinfi yanaşmadan, siyasətdən azad olmalıdır və bu əsərdə elə bunu da görürük.

**Əlikram TAĞIYEV:** İnsanı daim siyasiləşdirməyə çalışıblar, bu isə əslində insana yalnız zərər vurmuşdur. İnsanın azadlığı, sərbəstliyi əlindən alınıb, o kənardan ona yüklənən siyasi problemlərlə çulğaşdırılıb. Görürsünüz, kommunist ideologiyasının hökmranlığı illərində nə qədər fikir beşiyində boğulmuş, yeni ideyaların,

filosofların yaranmasının qarşısı alınmışdır. Adil müəllim, Sizin bu gün söylədiyiniz bu azad fikirləri o vaxtlar söyləmək mümkün deyildi. Amma indi Siz deyirsiniz, özü də necə cəsarətlə, necə inamla. Sizi alqışlamaqdan bezmirəm. Əslində fəlsəfə də, filosof da elə belə olmalıdır. Filosofluq azad mühakimə yürüdə bilmə simvoludur.

**Adil ƏSƏDOV:** Təşəkkür edirəm. Amma mən hər halda istərdim ki, tarixi praktikanın ortaya qoyduğu faktlara mənim söylədiyim fikirlərin uyğun gəldiyinə və ya nə dərəcədə uyğun gəldiyinə əmin olum. Ona görə də üzümü görkəmli tarixçimiz İqrar Əliyevə tutaraq soruşmaq istərdim. Hörmətli İqrar müəllim, Siz Midiya kimi nəhəng bir dövləti yaranışından ölümünə kimi bütün xırda detalları ilə öyrənmisiniz. İndicə nəzərinizə çatdırdığım konsepsiya həmin bu konkret tarixi faktlara uyğundurmu?

**İqrar ƏLİYEV:** Mən Azərbaycan ərazisində mövcud olan bir çox dövlətləri öyrənmişəm və öyrənməkdə davam edirəm. Lakin mən başlıca olaraq tarixi faktlarla məşğulam. Tarixin nəzəri məsələləri ilə professional olaraq daha çox Əfrand müəllim Daşdəmirov məşğul olmuşdur. Mənə o da məlumdur ki, siyasətin fəlsəfəsi ilə bağlı Sizdən daha öncə Əfrand müəllim öz konsepsiyasını irəli sürmüşdür. Əfrand müəllimin konsepsiyası Sizə tanışdırmı? Əgər tanışdırsa, Əfrand müəllimin fikirləri ilə Sizin fikirləriniz arasında bir ziddiyyət varmı?

**Adil ƏSƏDOV:** Əfrand müəllimin konsepsiyasını əlbəttə ki, mənə kifayət qədər yaxşı tanışdır. Lakin Əfrand müəllimin fikirləri ilə mənim fikirlərim arasında heç bir ziddiyyət yoxdur, əksinə, siyasi ifadələr və terminlər arasında olmasa da, siyasi instinktlər arasında ümumilik vardır. Xüsusən, siyasi gerçəkliyin doğurduğu intellektual ehtiyacları Əfrand müəllim də, mənə son dərəcə doğma və yaxın olan bir mövqedən ifadə edir.

**Nizami MƏMMƏDOV:** Siz siyasəti fəlsəfi olaraq mənalandırarkən ekoloji problemə praktik olaraq toxunmursunuz. Bu, nə dərəcədə doğrudur?

**Adil ƏSƏDOV:** Siyasi strukturların bu və ya digər tipinin formalaşmasında təbii mühitin rolu ilə bağlı öz mövqeyimi monoqrafiyada vermişəm. Əlavə edə bilərəm ki, həqiqi dövlət ümumiyyətlə bir

total himayəçi olaraq öz fəaliyyətini təkcə insanların bir qismini digər qismindən mühafizə etməklə məhdudlaşdırmayıb, həm da təbiəti insanlardan qoruya bilməlidir. Yaxşı ki, bu sualı verdiniz. Beləliklə, siyasət və ekologiya arasındakı münasibətlərin hər iki aspekti nəzərdən keçirilmiş oldu. İndi isə mən bir daha Həsən müəllimin qaldırdığı problem müəyyənliyi məsələsinə qayıtmaq istərdim. Həsən müəllim, belə bir müəyyənlik *Müqəddimə*də verilir.

**Əli ABASOV:** Adil müəllim, mən Sizin, demək olar ki, bütün əsərlərinizi oxumuşam. Bu əsərlərin əsasında ümumi konsepsiya aşkar olaraq görünür. İndi Sizin haqqında söhbət açdığınız *Müqəddimə*də isə həmin bu konsepsiya bir fəlsəfi sistemə çevrilməkdədir. Mən Sizin bu sistemə **konservativ fəlsəfə** adını verərdim. Sizin fikirləriniz maraqlı fikirlərdir. İndi təqdim etdiyiniz əsər da son dərəcə maraqla oxunur. Amma, mən bu fikirlərin bir çoxu ilə razı deyiləm. Konservatizm, bir qayda olaraq, dəyişiklikləri görmür, tərəqqiyə yaddır.

**Adil ƏSƏDOV:** Əli müəllim, mahiyyətdən qopub ayrılmanı həqiqi tərəqqi hesab etmirəm.

**Əlikram TAĞIYEV:** Adil müəllim, Sizin verdiyiniz *Müqəddimə*nin əvvəlləri təqdim etdiyiniz siyasət fəlsəfəsi ilə əlaqələndirilmir, söhbətin mövzusu öz istiqamətini dəyişir. Nə üçün? Girişdə siyasət fəlsəfəsi və onun tarixi inkişafı ilə əlaqədar kiçik bir tarixi ekskurs versəydiniz, yaxşı olmazdımı?

**Ağayar ŞÜKÜROV:** Doğrudan da, monoqrafiyanın kifayət qədər böyük olan başlanğıc hissəsi siyasi hakimiyyətin fəlsəfi mənalandırılması ilə bilavasitə bağlı deyildir. Burada Çin fəlsəfəsinin, qədim yunan fəlsəfəsinin son dərəcə orijinal səciyyələri verilir. Bu səciyyələrin hər biri ayrılıqda müstəqil və orijinal fəlsəfi əsər kimi də təqdim oluna bilər. Amma burada müqəddimə zəminində verilən materialların bir çoxu monoqrafiyanın bilavasitə mövzusuna aid deyildir.

**Adil ƏSƏDOV:** Tamamilə belədir**.** Bu ondan irəli gəlir ki, mən elmdə mövzudan məzmuna doğru deyil, əksinə məzmundan mövzuya doğru istiqamətlənən idrak yolunu daha düzgün hesab edirəm. Elə burada da, monoqrafiyanın əvvəlcə məzmunu formalaşmış və

sonradan bu məzmun mövzunu və strukturu müəyyənləşdirmişdir.

**Rəna ABDULLAYEVA:** Siyasi fəlsəfənin problemləri həm antik dünyada, həm də sonrakı bütün dövrlərdə mütəfəkkirlərin diqqət mərkəzində olmuşdur. İrəli sürülən postulatların dürüstlüyü, siyasi təfəkkür məntiqinin aydınlığı, siyasi qərarların gözəlliyi və əxlaqiliyi... və beləcə bütün bunlar siyasəti və fəlsəfəni qırılmaz əlaqədə təhlil edən əsər üçün, əlbəttə ki, zəruridir. Mən Adil müəllimin əsərinin yalnız müəllif tərəfindən iltifatla mənə təqdim olunmuş hissəsi ilə tanış ola bilmişəm. Həmin hissəni mən böyük məmnuniyyətlə oxudum. Bu, siyasi fəlsəfənin mənəvi-əxlaqi aspektlərinə həsr olunmuş hissədir. Burada verilən estetik və etik müqəddimədə mən siyasi fəlsəfənin zərif strukturunu gördüm.

**Ariz GÖZƏLOV:** Kitabın başlanğıc hissəsi həm də gözəl ensiklopediyadır. Buradan qədim yunanlarından tutmuş indiyə qədər yaşayan bütün görkəmli filosofların siyasi ideyaları ilə bağlı ən mühüm məlumatları almaq olar.

**Tahirə ALLAHYAROVA:** Cazibədar olduğu qədər də mücərrəd təzahürlü fəlsəfəni hər bir insan zəkasına anlamlı etmək üçün Adil Əsədov fəlsəfi ənənələrimizdə artıq çoxdan ehkama çevrilən, hələ də mütləq qəbul edilən, suala yer qoymayan müddəalara sırf mahiyyətə varmaqla zərbə endirmiş, nəzəri fəlsəfəni uzun illərin şablon, quru məzmunundan xilas etmiş, onu doğma ana dilimizin şirinliyində oxunaqlı etmişdir. Müəllif ana dilimizin leksikonunu *fəlsəfiləşdirmiş*, onu fəlsəfi idrak statusunda qüdrətli etmişdir. Başlanğıcda müəllif siyasi aksiomatika, yəni, dövlət, cəmiyyət və azadlıq, siyasi statika, yəni, üsuli-idarə, dövlət quruluşu və dinamikaya, yəni, elitaların bir-birini əvəz etməsi səbəblərinə dair politoloji klassika ilə oxucunu tanış edir. Problemin tarixinə dair lakonik ensiklopediya təsiri bağışlamaqla, bu hissə müəllifin siyasi fəlsəfəsinə daxil olmaqdan ötrü astana rolunu oynayır.

**Ağayar ŞÜKÜROV:** Adil müəllim, Siz *Siyasi fəlsəfə*ni fəlsəfənin *son söz*ü kimi qiymətləndirirsiniz. Nə üçün, son söz? Burada son söz nə deməkdir? Bəs, son sözdən sonra nə olacaq?

**Adil ƏSƏDOV**: Axırıncı sualınızı cavablandırmaqdan başlayım. Sualınızın cavabı belədir: son sözdən sonra əməl olacaq. Son söz odur ki, ondan sonra daha növbəti söz söylənilmir, artıq inamla zəruri addım atılır. Fəlsəfənin son sözü dedikdə mən həyatın mənası ilə bağlı məsələnin fəlsəfə tərəfindən verilmiş hər hansı yeni həllini nəzərdə tuturam. Həyatı mənalandıran hər hansı bir nəzəriyyəni verməklə fəlsəfə öz missiyasını növbəti dəfə yerinə yetirmiş olur və uyğun fəlsəfəyaratma prosesi başa çatır. Həyatının mənasını həmin bu fəlsəfə əsasında dərk edən insan isə artıq tərəddüd, çıxılmazlıq zülmündən xilas olur, həyatının zəruri addımını inamla atır. O ki, qaldı, məhz *siyasi fəlsəfə*ni fəlsəfənin *son söz*ü kimi qiymətləndirməyimə, *siyasi fəlsəfə* nəticə etibarı ilə cəmiyyətin ideal təşkilatlandırılması işinə xidmət edən iradəni formalaşdırır. Cəmiyyəti ideal təşkilatlandırma işi isə öz-özlüyündə həyatın mənası ilə bağlı məsələnin bir qədər rasional-sosioloji dildə ifadəsidir. Bir daha verdiyiniz axırıncı suala qayıdıram. Soruşursunuz ki, bəs son sözdən sonra nə olacaq? Son sözdən sonra – mənalı həyat, inamla atılmış addımlar olacaq.

**Ağayar ŞÜKÜROV:** Yalnız hakimiyyət cəmiyyətə öz siyasi fəlsəfəsini qəbul etdirə bilir.

**Adil ƏSƏDOV:** Hakimiyyət cəmiyyətə öz siyasi fəlsəfəsini deyil, öz siyasi doktrinasını qəbul etdirə bilir. Belə halda hakimiyyətin siyasi nəzəriyyəsi fəlsəfə deyil, ideologiya olur.

**Tamilla MƏMMƏDOVA:** Siz siyasi terminologiyanı bir qədər geniş miqyasda, fəlsəfi kontekstdə təqdim edirsiniz. Bu, əlbəttə ki, yaxşı haldır. Amma belə bir yanaşma ilə bağlı məndə bir sənətkar və sənətşünas olaraq konkret bir məsələdə konkret bir sual yaranır. Siz hər bir fərdin öz həyatında gəlib keçdiyi təbii mərhələlərin hər birində müəyyən hakimiyyət tipinin aparıcı olduğunu qeyd edirsiniz və bu mərhələlərlə ilin fəsilləri arasında paralellər aparırsınız. Amma Siz ömrün bahar çağı olaraq nədənsə dölün ana bətnindəki həyatını ön plana çəkirsiniz. İncəsənət isə bunun tamamilə əksinə olaraq ömrün bahar çağını birmənalı olaraq gənclikdə görür.

**Adil ƏSƏDOV:** Gənclik ömrün baharını duyur, lakin öz fərdi ömrünün baharını yox. O, bu zaman cinsi yetkinlik dövrünü yaşayaraq özü-

nün daxilində özündən ayrılmaq istəyən yeni ömrün baharını duyur. Bahar yeni həyatdır, yeni həyatın başlanğıcıdır, başlanğıcdır, var olmanın başlanğıcıdır, yoxluqdan varlığa keçiddir. Gəncin öz məxsusi fərdi həyatı isə heç də yeni həyat deyildir, o, nə qədər gənc olsa da, onun həyatı yeni həyat deyildir, çoxdan başlanan bir həyatdır. Gənc insan ona görə baharın ətrini duyur ki, gəlməkdə olan yeni həyatın onun daxilində yaratdığı təlatüm, coşqunluq, gurultu onun öz həyatına da bir yenilik, təravət, gurultu, təlatüm, və coşqunluq gətirir. Onun başlanğıc verəcəyi, yaradacağı həyat ondan yaradılmasını gözləyir və istəyir, buna görə də onun üzünə hələ ki gülür.

**Qara MUSTAFAYEV:** Adil müəllimin bu mülahizələri bioloji nöqteyi-nəzərdən də tamamilə məntiqidir. Baharla bağlı mülahizələri də, elə payızla bağlı mülahizələri də. Payız sözün həm də geniş mənasında məhsul vermə dövrüdür. Ana bətnində keçən həyatın ömrün yay çağı kimi qiymətləndirilməsi də düşünürəm ki ağlabatandır, çünki burada dölün həqiqətən də bir insan olaraq yetişməsi baş verir. Ana bətninin «aristokratik hakimiyyət»in ən xalis məkanı kimi qiymətləndirilməsi məsələsinə qaldıqda isə, bu, mənim bir bioloq olaraq kompetensiyamdan kənar bir məsələdir.

**Adil ƏSƏDOV:** Ana bətni aristokratik hakimiyyətin ona görə ən xalis məkanıdır ki, burada hakimiyyət və köləlik yoxdur, insanın dünya nizamı üzərində mütləq himayəsi vardır.

**Fuad QASIMZADƏ:** Siz hakimiyyətin əks qütbü kimi həmişə köləliyin çıxış etdiyini qeyd edirsiniz. Eyni zamanda, köləliyi ümumiyyətlə bir insanın öz iradə və zəkasını başqa bir insanın iradə və zəkasına tabe etdirməsi kimi qiymətləndirirsiniz. Bu mənanı ifadə etmək üçün Siz *köləlik* sözü əvəzinə *mütilik* sözünü işlətsəydiniz daha yaxşı olmazdımı?

**Adil ƏSƏDOV:** Ola bilər, mümkündür.

**İlham MƏMMƏDZADƏ:** Həsən müəllim söhbətin lap başlanğıcında müəllifin düşüncə və yazı üslubunun başlıca xüsusiyyətlərindən biri kimi onu qeyd etdi ki, bu üslub öz-özlüyündə oxucunu istər-istəməz mükaliməyə dəvət edir. Həcmcə kifayət qədər böyük olan bu əsəri oxuduqca məndə də müəllifə vermək istədiyim bir sıra suallar yarandı. Əsərin bəzi hissələrində onun metodologiya-

sı belə bir təəssürat yaradır ki, XX əsrin Paretodan, Merlo-Pontidən başlayan və Sartoriyə kimi davam edən siyasi fəlsəfəsi elə bil ki, heç olmamışdır. Hegel ruhu və Nitşe ideyaları öz-özlüyündə maraqlıdır, siyasi fəlsəfədə isə – yox. Bu günün siyasi fəlsəfəsi tamamilə konkretdir və sosiolojidir. «Millətin ruhu» hansısa mütləq mahiyyətlə əlaqələndirilməməlidir. Bu, Hegelin ideyasının ehkamlaşdırılması olardı. Siyasi anlayışlar diferensiasiya edilməli və müxtəlif səviyyələrdə əlaqələndirilməlidir, bu isə əlbəttə ki, elmin inkişafına gətirib çıxaracaqdır.

**Adil ƏSƏDOV:** Mənə elə gəlir ki, siyasi fəlsəfə sosioloji nəzəriyyəyə çevrilərkən artıq fəlsəfə olmaqdan qalır. Qərbin bugünkü sosiolojiləşmiş siyasi nəzəriyyəsi Qərbin öz siyasi fəlsəfəsindən törəmişdir. Bu, bizim üçün isə siyasətin tarixi modellərindən yalnız biri ola bilər, heç bir vəcdlə ideal siyasi nəzəriyyə kimi qəbul edilə bilməz. O ki, qaldı XX əsr siyasi fəlsəfəsinin adını çəkdiyiniz müəlliflərinə, Pareto bir siyasi mütəfəkkir olaraq əlbəttə ki, dahidir və onun müəyyən təsirini mən də öz üzərimdə də duyuram. Merlo-Ponti də şübhəsiz ki, tanınmış filosofdur. Lakin onun hansısa bir müstəqil ideyası qarşısında vəcdə gəldiyim hələ ki, yadıma düşmür. Sartoriyə qaldıqda isə mən onu orijinal bir siyasi nəzəriyyənin müəllifi kimi tanımıram, onun şəxsində yalnız siyasi eklektizmin bir nümunəsini görürəm.

**Fuad QASIMZADƏ:** Yeri gəlmişkən qeyd edim ki, monoqrafiyada həmçinin Azərbaycan filosoflarının əsərlərinə də az yer verilir.

**Adil ƏSƏDOV:** Əziz Fuad müəllim, Azərbaycan xalqının fəlsəfəsini haradasa keçmişdə axtarmaq bəlkə də lazımdır. Amma, düşünürəm ki, Azərbaycan xalqının fəlsəfəsini bu gün yaratmaq bundan da daha çox gərəkdir.

**Ağayar ŞÜKÜROV:** Dövlətin ümumiyyətlə təbiəti ilə bağlı Sizin bir sıra mülahizələriniz etiraz olmasa da, ən azı anlaşılmazlıq doğurur. Məsələn, dövlət zor aparatı deyildir, - mülahizəniz dövlət haqqındakı ümumən qəbul olunmuş bütün təsəvvürlərə ziddir. Dövlət köləliyi yaradır, sinfi xarakter daşımır, hökmləriniz də, eləcə.

**Adil ƏSƏDOV:** Mən yalnız siyasi aristokratizm üzərində qurulmuş dövlətin zor aparatı olmadığını təsdiq edirəm. Dövlət bu idealdan nə qədər çox uzaqlaşırsa, bir o qədər də çox zor aparatına çevrilə

bilir, köləliyi yaradır və sinfi xarakter kəsb etmiş olur. Ayrı-ayrı adamlar dövlətin dəstəyi olmadan varlana bilmədikləri kimi, dövlətin dəstəyi olmadan başqaları üzərində hakimiyyət hüququna da sahib ola bilmirlər.

**Ziyad SƏMƏDZADƏ:** Dövlətin dəstəyi olmadan ayrı-ayrı şəxslərin varlana bilməməsi ideyası əsasən doğrudur.

**Ağasəlim ƏLƏSGƏROV:** Mən də o fikirlə razıyam ki, dövləti status insana daha çox mülkiyyət əldə etmə imkanını doğrudan da yaradır.

**Ağayar ŞÜKÜROV:** Adil müəllim, bəs himayə dövləti nə deməkdir? Bu, elə tiraniya deyilmi?

**Adil ƏSƏDOV:** Himayə dövləti tiraniya deyildir, aristokratizmin ilkin təzahürüdür, burada himayə olunmaq istəyənlər üzərində zorakılıq yoxdur, əksinə zorakılıqdan xilasetmə vardır. Dövlət hakimiyyətin və siyasətin vasitəsi olmaqdan öncə himayənin və siyanətin vasitəsi idi. *Siyasət* sözü yarandığı ərəb dilindən tərcümədə *hakimiyyət* və sonradan həm də *hiylə, kələk, cəza, cəzalandırma* mənalarını verirsə, *siyanət* sözü elə həmin ərəb dilindən tərcümədə *mühafizə etmə, himayə etmə* mənalarını verir. O ki qaldı tiraniyaya, tiraniya sözü indiki anlamda deyil, onun meydana çıxdığı tarixi anlamda başa düşülsə, tiraniya – cəmiyyəti ədalətsizlikdən xilas etmə və ədalətliləşdirmə cəsarətini və qüdrətini özündə tapan bir adamın siyasi instinktləri üzərində qurulmuş sosial təşkilatlanmadır.

**Sabir RÜSTƏMXANLI:** Bəlkə, cəmiyyəti ədalətliləşdirmək istəyən şəxsiyyəti tiran deyil, demokratik lider adlandırsaq daha düzgün olar?

**Adil ƏSƏDOV:** Tiran ilə demokratik lider arasındakı fərqin çox gözəl bədii təqdimatı qədim yunan əsatirlərində verilir. Məncə, bu əsatirlərin titanları əslində tiran obrazının, Zevs – monarx obrazının, Afina isə demokratik lider obrazının ifadəçisi idi. Demokratik lider cəmiyyətin rasional iradəsini daha yaxşı ifadə edən, özünü ictimai rəyə tabe etdirən kəsdir. Demokratik lider hökmdar olmaqdan daha çox, bir məmurdur.

**Nizami MƏMMƏDOV:** Siz öz siyasi fəlsəfənizdə monarx obrazının özünəməxsus təqdimatını verirsiniz. Hətta bir yerdə qeyd də edir-

siniz ki, monarxiyanın elə bir cəhəti də vardır ki, monarxiya özünün bu cəhəti ilə nəinki tiraniyadan və ya despotiyadan, hətta respublikadan da üstündür. Monarxiyanın həmin bu siyasi sistemlərdən üstünlüyünü isə onda görürsünüz ki, monarx ölkəni və xalqı özününkü hesab edir, özünə doğma bilir və bu səbəbdən də bütün gücü ilə onun inkişafının və yüksəlişinin qayğısına qalır. Bu fikrinizlə mən də şərikəm.

**İlham MƏMMƏDZADƏ:** Adil müəllim, Siz vurğulayırsınız ki, demokratik lider hökmdar olmaqdan daha çox, bir məmurdur. Burada təəccüblü heç nə yoxdur. Hökmdarın özü də bir məmur olmalıdır.

**Adil ƏSƏDOV:** Məmur – iradə icraçısıdır. Hökmdarın olmadığı şəraitdə məmur statusu da öz mənasını itirir. Demokratik lider - ürəyinin səsini cəmiyyətdə artıq formalaşan hakim ictimai rəy fonunda kökləməyə çalışan və özünü ictimai rəyə uyğunlaşdırmağa çalışan kəsdir. Hökmdar məmurdan fərqli olaraq icraçı deyildir, demokratik liderdən fərqli olaraq isə ictimai rəyin öz ürəyi üzərində zorakılığına yol verən deyildir. Hökmdar, xüsusən də tiran, əksinə, hakim ictimai rəyi formalaşdıran və cəmiyyəti öz ürəyinin səsinə uyğun şəkildə quran kəsdir. Sabir müəllim, Siz özünüzün o möhtəşəm *Ömür kitab*ına redaktorun etirazını xatırlayırsınızmı? «Dediklərinizin əsaslandırılması üçün fakt yoxdur», - demişdi redaktor. Bəs, özünüzün bu etiraza cavabınızı necə, xatırlayırsınızmı? «Fakt mənim ürəyim və hisslərimdir», - demişdiniz.

**Sabir RÜSTƏMXANLI:** Hər ikisini çox yaxşı xatırlayıram. Buradan nə nəticə çıxarırsınız? Mən özüm də bir tiranammı?

**Adil ƏSƏDOV:** Müəyyən qədər, hə. Ola bilməz ki, insan şəxsiyyət olsun, amma tiran olmasın.

**Leyla NƏZİRZADƏ:** Hər bir ən sadə adam da şəxsiyyət ola bilər.

**Adil ƏSƏDOV:** Şəxsiyyət odur ki, dünyanı öz ürəyinin hökmü ilə qurur, fərd odur ki, dünyanın hökmünə baş əyir. İnsan fərd olaraq cəmiyyətin bir hissəsidir, şəxsiyyət olaraq isə cəmiyyətin qurucusudur. Xalqı formalaşdıran impulslar elə bu səbəbdən də, məhz tiranın daxilindən axıb gəlir.

**Firdovsiyyə ƏHMƏDOVA:** Siz bilirsinizmi, Sizin dediyiniz ideallar gerçəkləşərlərsə, bunun əzabını bir azad ruh sahibi kimi ilk növbədə elə Siz özünüz çəkəcəksiniz?!

**Adil ƏSƏDOV:** Üzeyir Hacıbəyovun tiranizm dövründəki yaradıcılığı mənəvi azadlıq dövründəki yaradıcılığına nisbətən daha qüdrətli idi. Səməd Vurğun tiranın mübarizəsindən deyil, tiranizmə qarşı mübarizədən sarsıldı…

**Firdovsiyyə ƏHMƏDOVA:** Mən bir məsələni birmənalı olaraq dəqiqləşdirmək istərdim: Siz tiranizminmi tərəfdarısınız?

**Adil ƏSƏDOV:** Xeyr, mən tiranizmdən aristokratizmə doğru yüksəlmənin tərəfdarıyam.

**Firudin KÖÇƏRLİ:** Adil müəllim öz fikirlərinin şərhi zamanı bir qədər ağır terminlərdən istifadə edir, lakin müəllif mövqeyi ümumiyyətlə doğrudur. Bu kontekstdə mən Üzeyir Hacıbəyovun bir dəyərli fikrini xatırlatmaq istərdim: Görkəmli şəxsiyyətlər milləti tanıdır və yaşadır.

**Adil ƏSƏDOV:** Üzeyir Hacıbəyovun mövqeyi doğrudur. Bununla bağlı olaraq bizim görkəmli musiqiçimiz Habil Əliyevin bir ağıllı fikrini diqqətinizə çatdırmaq istərdim: Millətdə nə qədər yaxşı cəhətlər varsa, onları onun görkəmli şəxsiyyətləri yaradıblar, təəssüf ki, insanlara verə bilmədiklərini isə özləri ilə qəbirə aparıblar.

**Sabir RÜSTƏMXANLI:** Üzeyir bəyin yuxarıda haqqında danışılan mövqeyi və bütün bunlar, əlbəttə ki, dəyərlidir. Lakin məncə xalqı formalaşdıran yuxarıda söylənildiyi kimi, tiran deyil, ideallardır.

**Adil ƏSƏDOV:** Bəs, bu idealların özləri şəxsiyyətin daxilindən axıb gəlmirsə, haradan gəlir?

**Sabir RÜSTƏMXANLI:** Tarixi milli şüurun dərinliklərindən. Məsələn, elə miflərdən.

**Adil ƏSƏDOV:** *Tarixi milli şüur* deyilən şey - cismi ölsə də, təfəkkürü və ruhu yaşayan şəxsiyyətlərin təcəssümüdür. Mif deyirsiniz, elə miflər hər zaman tiranları vəsf etmirlərmi?

**Sabir RÜSTƏMXANLI:** Yaxşı bəs, fikrinizcə, Azərbaycan xalqını formalaşdıran tiran kimdir?

**Adil ƏSƏDOV:** Fikir tiranları – Şahtaxtinski, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Nəriman Nərimanov, Səməd Vurğun, Bəxtiyar

Vahabzadə, Sabir Rüstəmxanlı, əməl tiranları – ilk növbədə, Nuru Paşa…

**Sabir RÜSTƏMXANLI:** Nədən, Nuru Paşa?

**Adil ƏSƏDOV:** Çünki, məhz Nuru Paşanın başçılıq etdiyi Qafqaz İslam Ordusu Qafqaz müsəlmanlarını azğınlıqdan, məhv olmadan, didərginlikdən xilas etdi və bununla da Azərbaycan Cümhuriyyətini və dolayısı yolla həm də Azərbaycan xalqını əslində o yaratdı.

**Şahbaz XUDUOĞLU**: Adil müəllim, Siz «Azərbaycan Cümhuriyyətinin həqiqi banisi Nuru Paşadır, M.Ə.Rəsulzadə deyildir», deyirsiniz. Şəxsən mən bu fikrin tam əleyhinəyəm. Əvvəla Nuru Paşa icraçıdır. Nuru Paşanı Azərbaycana gətirən milli təəssübkeşlik olmaya da bilərdi. Əlbəttə Nuru Paşanın Azərbaycan Demokratik Respublikasında fəaliyyətini pərdələmək, yaxud unutmaq olmaz. Amma onu M.Ə.Rəsulzadədən üstün tutmaq, ümumiyyətlə onları müqayisə etmək fikrimizcə doğru olmazdı.

**Adil ƏSƏDOV:** Əgər Nuru Paşa bir icraçı idisə, ürəyinin haqq çağırışının icraçısı idi. Zülmə və əsarətə dözmürdü və buna görə də zülmü və əsarəti məhv etdi, xalqı öz himayəsi altına alaraq xilas etdi.

**Mirabbas ASLANOV:** Mən istərdim ki, Üzeyir Hacıbəyovun bir qeydini xatırladım: Əgər *15 sentyabr* olmasaydı, *28 may* da olmayacaqdı.

**Tahir QAFFAROV:** Nədən danışırsınız?! *15 sentyabr* tarixi *28 may* tarixindən sonra olmuşdu.

**Adil ƏSƏDOV:** Tahir müəllim, burada söhbət simvolik mənalardan gedir. Yəni, əgər *15 sentyabr* olmasaydı, *28 may*da baş verənlər möhtəşəm bir tarixi hadisə olaraq xatırlanmayacaqdı.

**Sabir RÜSTƏMXANLI:** Nuru Paşa gəlməzdən çox öncə də Azərbaycanda türk əhali vardı və əksəriyyət təşkil edirdi, Firdovsinin o ölməz *Şahnamə*sində canlandırılan Turan elə Azərbaycandan başlayırdı.

**Adil ƏSƏDOV:** Bu əsasda mübahisə etmirəm. Çox yəqin ki, bu, doğrudan da, belədir. Amma xalqların dil qohumluğu əsasında onların həm də genetik olaraq da qohum olduğu mülahizəsini də irəli sürməyi düzgün hesab etmirəm. Sabir müəllim, mən Sizin türkçülüklə bağlı mövqeyinizi gözəl bilirəm və Sizin bu mövqeyinizə hörmətlə yanaşıram. Bu məsələdə mənim mövqeyim isə bir qə-

dər fərqlidir. Hesab edirəm ki, dillərin qohumluğu xalqların genetik qohumluğu ilə bağlı deyildir, siyasi tarixlərinin ümumilikləri ilə bağlıdır. Dil yalnız dinamik bir sistemdir. Cəmiyyətin siyasi təşkilatlanma prinsipləri dəyişdikcə, dil də dəyişir. Eyni bir ata-anadan törəyən övladların nəsilləri sonradan ən müxtəlif milli mənsubiyyət kəsb edirlər. Azərbaycan üçün yeganə düzgün ideologiya əlbəttə ki, Azərbaycançılıq ideologiyasıdır.

**Ramal HÜSEYNOV:** Azərbaycançılıq ideologiyası daha çox siyasi məzmuna malikdir. Amma canlı həyatda bir kimsənin azərbaycanlı olub-olmadığını necə müəyyənləşdirmək olar? Azərbaycanlının fərqli xüsusiyyətləri hansılardır? Tipik azərbaycanlı necə olur?

**Adil ƏSƏDOV:** Azərbaycanlılar dil nöqteyi-nəzərindən türkdilli xalqlara, antropoloji nöqteyi-nəzərdən əsasən Avropa irqinin Qafqaz yarımqrupuna, digər təsnifat göstəriciləri baxımından isə Qafqaz irqinə aiddirlər. İlk baxışda dil nöqteyi-nəzərindən qiymətləndirmək təbii ki mümkün deyildir. Amma antropoloji nöqteyi-nəzərdən müəyyənləşdirmək daha asandır. Qafqaz irqinə aid olan xalqların bütün xüsusiyyətləri tipik azərbaycanlıya da xasdır. Siz fikir verin. Cənubi italiyalılar necə də bizə bənzəyirlər!? Baxmayaraq ki, onların dilləri tamam fərqli, dinləri tamam fərqlidir. Özü də bu bənzərlik təkcə zahiri görkəmə aid deyildir. Onların beyin strukturları, eləcə də maneraları, hadisələrə reaksiyaları, ətrafı duyma və qiymətləndirmə xüsusiyyətləri, həyati instinktləri biz azərbaycanlıların malik olduğumuz xüsusiyyətlərə son dərəcə yaxındır. Cınubi italiyalılar avropalı olsalar da, Avropanın şimalının sakinlərinə deyil, bizə bənzəyirlər, Avropanın şimalının sakinləri kimi soyuq məntiqə deyil, daha çox qızğın hisslərə meyillidirlər, eləcə də bizim kimi qızğındırlar.

**Ramal HÜSEYNOV:** Biz qızğın xalqıq, bu doğrudur. Bəs bizim qızğınlığımız nədədir? Çılğınlıqdamı, qəzəbdəmi, yoxsa nədə?

**Adil ƏSƏDOV:** Qızğınlıq bizim ümumi cəhətimizdir, lakin hər birimizdə bunun müxtəlif çalarları var. Kimi çılğındır, kimi qəzəblidir, kimi də ədalətsizliyə qarşı üsyankar. Bizim Azərbaycan xalqı dil baxımından türkdilli xalqlara, antropoloji baxımdan Qafqaz irqinə aid olan xalqlara yaxınır. Bunların hər ikisi əhəmiyyətlidir.

**Firudin KÖÇƏRLİ:** Ancaq dil əsasında insanları bir-birinə qarşı qoymaq, doğrudan da, heç bir vəcdlə düzgün hesab edilə bilməz.

**Əlikram TAĞIYEV:** Adil müəllimin mövqeyi maraqlıdır və müəyyən qədər Qumilyovun nəzəriyyəsini xatırladır.

**Adil ƏSƏDOV:** Mən Qumilyovun o məşhur nəzəriyyəsini aristokratik siyasi konsepsiyanın tarixi formalarından biri kimi qiymətləndirmişəm. Genetik olaraq qohum olmayan bir çox xalqlar eyni dil ailəsinə daxil olan dillərə malik olduqları kimi, genetik olaraq qohum olan bir çox xalqlar da eyni dil ailəsinə daxil olmayan dillərə malikdirlər. Siz Qafqaz antropoloji tipinə yaxın olan xalqların – ispanların, italyanların, farsların, hindlilərin həyati instinktlərinin bizə nə qədər yaxın olduğuna fikir vermisinizmi?

**Sabir RÜSTƏMXANLI:** Bu, bəşəriyyəti vahid bir ailəyə birləşdirmək üçün tutarlı bir əsasdır. Xalqların bir çoxu ilə biz antropoloji olaraq yaxınıq, digərləri ilə dil, mədəniyyət və tarix ümumiliyinə malikik, üçüncülərlə bizi din ümumiliyi birləşdirir.

**Adil ƏSƏDOV:** Mən Qafqaz antropoloji tipinə yaxın olan bir sıra xalqların adlarını xatırladım. Adları xatırlananlar müstəqil xalqlardır. Amma elə həmin Qafqaz antropoloji tipinə yaxın olan bir sıra xalqlar da vardır ki, onlar hələ ki müstəqillik əldə etməyiblər. Müstəqillik üçün müəyyənedici amil görünür ki, heç də antropoloji amil, irqi əlamət deyildir. Müstəqillik üçün müəyyənedici olan heç dil amili də deyildir. Düşünürəm ki, xalqın müstəqil ola bilməsi, və ümumiyyətlə müstəqil olmaq istəməsi xalqda daşınan aristokratik resurslardan irəli gəlir. Aristokratik resursların bilavasitə daşıyıcıları isə xalqın görkəmli şəxsiyyətləridir. Xalq özünün görkəmli şəxsiyyətlərinin simasında öz həqiqi ideallarını görə bilir və onların rəhbərliyi altında özünün həqiqi iradəsini gerçəkləşdirə bilir. Mən qeyd etmişdim ki, Azərbaycan xalqını müstəqilliyə qovuşdurmaq missiyası ötən əsrin ikinci yarısından başlayaraq ilk növbədə Azərbaycan xalqının dahi şəxsiyyətlərindən olan Bəxtiyar Vahabzadənin çiyinlərinə düşdü. Əsrin sonunda millətin xilası baş verdi. Bu işin önündə gedənlər isə Bəxtiyar Vahabzadə, İsmayıl Şıxlı və əlbəttə ki, həm də Siz oldunuz. Siz xalqın imperiya buxovlarından xilas olma işinin fikir titanları və fikir tiranları sırasında oldunuz. Bununla belə, hal-

hazırda belə bir nüfuzlu mövqe də mövcuddur ki, Azərbaycan müstəqilliyi obyektiv proseslərin nəticəsi idi, SSRİ – mərkəzi dövlət dağıldığı üçün, təbii ki, Azərbaycan da müstəqil olmalı idi.

**Sabir RÜSTƏMXANLI:** Mən də bunun əksini düşünürəm. Azərbaycan ona görə müstəqil olmadı ki, SSRİ dağıldı. Əksinə, SSRİ ona görə dağıldı ki, Azərbaycan və digər xalqlar müstəqil oldular.

**Adil ƏSƏDOV:** Hər halda bu da bir qanunauyğun prosesdir ki, dövlət zəif şəxsiyyətə etibar edildikdə parçalanır və məhv olur. Bəxtiyar müəllim, bu barədə Siz necə düşünürsünüz?

**Bəxtiyar VAHABZADƏ:** Mən yalnız Azərbaycan dilini koma dustaqlığından xilas etməyə çalışmışam.

**Adil ƏSƏDOV:** Bilavasitə Azərbaycan dilini, dolayısı olaraq isə Azərbaycan xalqını.

**Sabir RÜSTƏMXANLI:** Adil müəllim, Siz xilaskarlıq missiyasını vəsf edir və bu missiyanın daşıyıcılarını bir çox hallarda tiran ilə eyniləşdirirsiniz. Belə olan halda, xilaskarlıq missiyasının ən mühüm tarixi forması olan peyğəmbərliyi necə qiymətləndirirsiniz?

**Adil ƏSƏDOV:** Peyğəmbər – cəmiyyəti Tanrının iradəsindən çıxış edərək quran kəsdir. Tiran isə – cəmiyyəti öz ürəyinin haqq səsindən çıxış edərək qurur. Peyğəmbər haqqın son sığınacağını öz ürəyində deyil, özündən kənarda, daha doğrusu, özünün fövqündə, özünə və dünyaya transsendent olan Tanrıda axtarır.

**Sabir RÜSTƏMXANLI:** Burada prinsipial bir fərq görmürəm. Tiran - Sizin dediyiniz o müsbət mənada anlaşılan tiran haqqın mənbəyini öz ürəyində görür, Peyğəmbər isə haqqın mənbəyini Tanrısında görür. Peyğəmbər öz ürəyində o Tanrı sevgisini gəzdirən kəs deyilmi? Ötən minilliyin başlanğıcında bütün Yer üzünün əhalisinin 96%-i Allaha inanan, 4%-i isə ateist idi. İndiki minilliyin başlanğıcında isə Yer üzünün əhalisinin 4%-i Allaha inanan, 96%-i isə ateistdir. Amma haqq istəyi ürəklərdə yenə saxlanılmaqdadır.

**Adil ƏSƏDOV:** Buradakı prinsipial fərq Tanrının transsendent, yoxsa immanent nöqteyi-nəzərdən anlaşılması arasındakı fərqdən doğur. Peyğəmbər Tanrının transsendent nöqteyi-nəzərdən anlaşılması mövqeyindədir. Tiran isə Tanrını immanent nöqteyi-nəzərdən anlayır. Tiranın əks tərəfində dayanan - təbəədir. Tanrıya qarşı isə İblis dayanır.

**Leyla NƏZİRZADƏ:** Adil müəllim, Siz bir çox təzadları son dərəcə kəskin şəkildə qoyursunuz: Tanrı və İblis, Tiran və Təbəə, Şəxsiyyət və Kütlə, Zadəgan və Rəiyyət, və ən nəhayət, Kişi və Qadın. Buradan elə bir nəticə çıxmırmı ki, Tanrıya yaxın olma həm də tiranlıq əlamətidir, şəxsiyyətlilik əlamətidir, zadəganlıq əlamətidir və nəhayət kişilik əlamətidir, digər tərəfdən, İblis yoluna uyma təbəə xislətidir, kütlə xislətidir, rəiyyətlik əlamətidir və nəhayət qadın xislətidir. Görürsünüzmü, İblis kişini - Adəmi haqq yolundan sapdıra bilmədi, amma qadını - Həvvanı sapdırdı. İblis Kişiyə yalnız Qadın vasitəsilə təsir göstərə bildi.

**Adil ƏSƏDOV:** Yox, mən Sizdən fərqli olaraq belə bir ümumiləşdirmə aparmazdım. Lakin Adəm və Həvva ilə bağlı rəvayətdə maskulin statusun daşıyıcısı Adəm deyil, Tanrıdır. Maskulin statusun daşıyıcısı himayə edəndir, feminin statusun daşıyıcısı himayə olunandır. Burada Adəm də, Həvva kimi himayə altındadır. Onların həyat tərzi və birgəyaşayış normaları kənardan təlqin olunur. Adəm burada tiran deyil, təbəədir.

**Əli ABASOV:** Adil müəllim, Siz bir qayda olaraq qadının ixtiyarını kişiyə verirsiniz. Qadını azad olmaq, müstəqil qərar qəbul etmək hüququndan məhrum edirsiniz.

**Adil ƏSƏDOV:** Doğrusu, hörmətə və ehtirama layiq olan qadınların heç birində Sizin o dediyiniz azad olmaq, müstəqil qərar qəbul etmək istəyini mən görməmişəm. Atasının özü üzərində kölgəsindən azad olmaq istəyən qızı, ərindən müstəqil olaraq qərar qəbul edən qadınımı Siz təqdir edirsiniz?

**Əli ABASOV:** Hər halda, kişi və qadın arasındakı fərqləri Siz həddindən artıq kəskin verirsiniz. Belə kəskinlik yalnız keçmiş dövrlərdə özünü doğrulda bilərdi. İndiki zəmanədə isə kişi və qadın arasındakı fərq həddən artıq azdır və azalmaqdadır.

**Adil ƏSƏDOV:** Kişi və qadını eyniləşdirmək tendensiyası, mənə elə gəlir ki, kişiləri qətiyyətlilikdən və əzmkarlıqdan məhrum edərək əslində bir kişi kimi mənən öldürmək və qadınları kişiləşdirərək eybəcərləşdirmək məqsədinə xidmət edir. Eybəcər qadın – kişiyə bənzər qadındır. Kişi öz kişi xarakterini qoruyub saxlamaq üçün yalnız kişi işi ilə, qadın isə öz qadın zərifliyini qoruyub saxlamaq üçün yalnız qadın işi ilə məşğul olmalıdır.

**Əli ABASOV:** İndi haradadır Sizin dediyiniz o xalis qadın işi, o xalis kişi işi. İndi artıq kompyuter əsridir. Kompyuterdə qadın da işləyə bilər, kişi də.

**Adil ƏSƏDOV:** İşləyə bilər, düz deyirsiniz. Amma artıq yaradılmış və sınanılmış yolla getmək, artıq müəyyənləşdirilmiş prosedurarı yerinə yetirmək, bir qayda olaraq qadın işidir. Yaradıcılıq isə - *kişi işi*dir. Kompyuter yaradıcılığı olmasaydı, kompyuter istifadəçiliyi mümkün olardımı?

**Əli ABASOV:** Patefonun kim tərəfindən yaradıldığını bilirsinizmi?

**Adil ƏSƏDOV:** Xeyr, bilmirəm. Amma bu, onun heç kəs tərəfindən yaradılmaması demək deyildir.

**Əli ABASOV:** Bəs, indi bizim gözlərimiz önündə baş verməkdə olan kütləvi feminizasiyaya nə deyirsiniz? Məktəbdə müəllimlərin əksəriyyəti – qadın, evdə uşaq qadınla birlikdə qalır, qadın tərbiyəsini görür, qadınlaşır.

**Adil ƏSƏDOV:** Yaradıcı olmayan müəllimlik, orta məktəb müəllimliyi elə qadın sənətidir. Evdə uşağın qadın tərbiyəsi almağına qaldıqda isə ilk növbədə onu deyə bilərəm ki, tərbiyəçilik elə qadın sənətidir, ana sənətidir. Oğlan uşağında kişi qürurunu elə ana nəvazişi ön plana çıxarır. Kişi özünüdərkinin güclənməsində qadın mühitinin rolu ilə bağlı bir məşhur əhvalatı xatırladım. Şeyx Şamil evinə gələrkən uzaqdan görür ki, onun xanımı kəndin digər qadınları ilə birgə oturub söhbət edir. Xanımı Şeyx Şamili uzaqdan görən kimi dərhal söhbəti kəsir, ayağa durur. Qadınlar içərisində bir psixoloji gərginlik yaranır. Söhbət artıq qırılıb, «arvad qeybəti» zamanı keçib, «arvad yığıncağı» əslində artıq dağılıb, indi artıq «kişi zəhmi»nin hakim olduğu zaman başlayıb, artıq «kişi hüzuru» mühiti bərqərar olub. Şeyx Şamilin xanımının ardınca bütün qadınlar ayağa qalxırlar.

**Əli ABASOV:** Siz tarixə bir qədər geniş nəzər salın. Əvvəlcə matriarxat mövcud idi. Sonradan o öz yerini patriarxata verdi. İndi isə bəşəriyyətin inkişafının üçüncü mərhələsi formalaşmaqdadır. Bu mərhələdə hər bir insan yalnız insandır, kişi da olsa, qadın da olsa.

**Adil ƏSƏDOV:** Düşünürəm ki, matriarxat və patriarxat tarixi dövrlərin səciyyəsi olmaqdan daha çox, müxtəlif mədəniyyətlərin səciy-

yəsidir. Əkinçilik zəminində formalaşan icma mədəniyyəti lap başlanğıcdan matriarxat təbiətli idi. Köçərilik zəminində formalaşan cəngavər mədəniyyəti isə patriarxal təbiəti ilə səciyyəvi idi. Tarixi dövr deyirsiniz. Tarixin bir sıra dövrləri maskulin dəyərlərin, bir sıra dövrləri isə feminin dəyərlərin üstünlüyü ilə səciyyəvi olmuşdur. Tarixçilərin neolit adlandırdıqları dövr icma dəyərlərin üstünlüyü ilə səciyyəvi idi, feminin xarakterli idi, bir qədər dəqiqləşdirilsə, matriarxat idi. Tarixçilərin tunc dövrü adlandırdıqları dövr isə cəngavər dəyərlərin üstünlüyü ilə səciyyəvi idi, eyni qayda ilə təsdiq edə bilərəm ki, maskulin dövr idi, bir qədər dəqiqləşdirilsə, patriarxat idi. Tarixçilərin Yeni dövr adlandırdıqları dövr isə şəhərli dəyərlərin üstünlüyü ilə səciyyəvidir. Şəhər mədəniyyəti isə əslində feminin xarakterlidir. Lakin bu dövr bütövlükdə feminin xarakterli olsa da, əslində matriarxat deyildir. Xatırladım ki, matriarxat hərfi olaraq «ananın hakimiyyəti» mənasını verir. Yeni dövrün demokratik hakimiyyəti isə «ananın hakimiyyəti» olmaqdan daha çox, «ərdə olan qızın ata üzərində hakimiyyəti»nə bənzər bir hakimiyyətdir. Və nəhayət buraya əlavə olaraq eyni qayda ilə təsdiq edə bilərəm ki, tarixçilərin diktatura adlandırdıqları dövr maskulin xarakterlidir, özü də məhz patriarxat mənasında, yəni «atanın hakimiyyəti» mənasında maskulin xarakterli. Əgər aristokratiya bir dövlət forması olaraq əsl-nəcabəti olanların hakimiyyəti, nəcabətli nəsillərin övladlarının hakimiyyəti, nəcabətlilərin **oğullarını**n **hakimiyyəti**, bir sözlə «oğul hakimiyyəti» ilə səciyyəvi idisə, diktatura ordunun hakimiyyəti olduğu üçün, patriarxatla, «atanın hakimiyyəti» ilə səciyyəvidir. Belə ki, dövlət adlandırılan nəhəng ailədə ata rolunu ordu, ana rolunu kənd, oğul rolunu aristokratiya, qız rolunu isə şəhər oynayır. Demokratiyada isə bir qədər öncə qeyd olunan mənada feminin dəyərlər üstünlük təşkil edir. Çoxluğun rəyini sanki mütləq bir həqiqət kimi qəbul etmə elə qadın psixologiyasının əlaməti deyilmi?

**İlyas BABAYEV**: Adil müəllim, mən bir tarixçi olaraq düşünürəm ki, Siz köçərilərin tarixdə oynadıqları siyasi rolu əslində olduğundan daha qabarıq verirsiniz. Amma bütün görkəmli dövlətləri köçə-

rilər deyil, oturaqlar yaradıblar. Köçərilərin dövlətləri nəsə başqa cür olur.

**Adil ƏSƏDOV:** İlyas müəllim, əgər biz dövlət anlayışı altında hakimiyyət orqanları sistemini başa düşsək, onda dövlət həqiqətən də oturaqlar tərəfindən yaradılmışdır. Yox əgər dövlət anlayışı altında hakimiyyət orqanları sistemini deyil, himayə sistemini başa düşsək, onda hətta o görkəmli dediyiniz bütün dövlətlər də öncə, ilkin mərhələdə köçərilər tərəfindən yaradılıblar. Oturaqlar isə onları inkişaf etdiriblər. Aristokratiya köçərilərin, demokratiya isə oturaqların ixtirasıdır. Aristokratiyanın bir siyasi sistem olaraq çatıqmamazlıqları demokratik resurslarla aradan qaldırıldığı kimi, demokratiyanın da bir siyasi sistem olaraq vaxtaşırı meydana çıxan çatıqmamazlıqları aristokratik resurslarla aradan qaldırılır.

**Əli ABASOV:** Bunlar çox mürəkkəb məsələlərdir. Demokratiyaya mənim də çoxlu iradlarım vardır. Lakin bəşəriyyətin demokratiyadan başqa bir yolu doğrudan da yoxdur. Sizin dediyiniz aristokratizm artıq qurtarıb, indiki aristokratiya burjua nəslidir. Aristokratiya bir sinif olaraq tarixin ötən qatlarında qalmışdır.

**Adil ƏSƏDOV:** O yerdə və o xalqda ki, aristokratizm artıq qurtarıb, o yerdə və o xalqda həqiqi azadlıq, həqiqi xoşbəxtlik və həqiqi gözəllik də artıq qurtarıb. Aristokratiya sinif deyil, hansısa bir silkin nümayəndəsi deyil, çoxsaylı adamlar toplumu deyildir. Zadəgan – personalist etikanın daşıyıcısıdır.

**Əli ABASOV:** Personalist etika ilə yanaşı bir patriarxal etika da mövcuddur. Adil müəllim, yəqin ki, razılaşardınız ki, Siz daha çox, patriarxal etikanın daşıyıcısınız. Patriarxal etika ilə aristokratizm arasında isə bir uçurum da vardır.

**Adil ƏSƏDOV:** Mən tamamilə əksinə olaraq belə düşünürəm ki, aristokratizm ümumiyyətlə patriarxal mənşəlidir. Zadəgan – ata olmanın təcəssümüdür.

**Əli ABASOV:** Yaxşı yadımdadır, sovet dövründə rayonların birində bir qadın katib vardı. Mən özüm də o rayonda işləyirdim, və bu qadının kişilərə necə ustalıqla böyüklük etdiyini öz gözlərimlə görürdüm.

**Adil ƏSƏDOV:** Kişilərə deyəndə yəqin ki Siz məmur vəzifələrində çalışan kişiləri nəzərdə tutursunuz. Məmur isə özündə həm də feminin elementləri kifayət qədər daşımırsa, hakimiyyətin iyerarxik pillələri ilə uğurla yüksələ bilməz. Əgər məmur *угадать и угодить* "istedad"ını lazımınca mənimsəməmişsə, onun xidməti karyerası asanlıqla qırıla bilər. Frensis Bekonu və onun xidməti karyerasını yada salın.

**Əli ABASOV:** Bekonun, «bilik – qüvvədir» kəlamının müəllifinin insanlara necə işgəncələr verdiyini eşitmisinizmi?

**Adil ƏSƏDOV:** İşgəncə məsələsini - xeyr, eşitməmişəm. Lakin, «bilik – qüvvədir» kəlamı Bekonun bir məmur olaraq qadın təbiətindən xəbər verir. Mənə elə gəlir ki, Siz Bekonun bu məşhur kəlamındakı «bilik» sözünə nəsə bir «savad», «tərbiyə», «mədəniyyət» mənalarını verirsiniz. Məncə, Bekonun özü isə bu sözə tamamilə başqa mənaları verirdi. Bekon belə hesab edirdi ki, müxtəlif təbiət predmetləri arasındakı, o cümlədən insanlar arasındakı münasibətləri ona görə bilmək lazımdır ki, öz məqsədlərini həyata keçirmək üçün təbiət predmetləri arasındakı bu münasibətlərdən və eləcə də insanlar arasındakı münasibətlərdən uğurla istifadə edə biləsən. Əgər özün gücsüzsənsə, məqsədlərinə başqa birisinin, güclünün əli ilə yetişə biləsən. Bekon eyni qayda ilə həm də təbiətin də üzərində hökm etmək istəyirdi. O təbiəti ona görə öyrənməyi məsləhət görmüşdü ki, təbiəti təbiətin özünün köməyi ilə insana tabe etdirə bilsin. Buna bizim dildə «ilanı Seyid Əhməd əli ilə tutmaq» deyirlər. Bekonun fəlsəfəsi qadın təbiətindəki təhrikçilik motivlərini anlamaq üçün son dərəcə faydalıdır.

**Əli ABASOV:** Mənə elə gəlir ki, Siz qadına yüksəkdən baxırsınız və onu alçaldırsınız.

**Adil ƏSƏDOV:** Nə danışırsınız?! Mən hesab edirəm ki, qadın olmasaydı, dünyanın yaraşığı yarıbayarı azalmazdı, bütövlükdə itərdi. Qadın zərifliyin, mədəniyyətliliyin, xeyirxahlığın, mərhəmətliliyin, sədaqətin, qayğıkeşliyin mücəssəməsidir. Zərifliyi olmayan, mədəniyyəti olmayan, xeyirxahlığı olmayan, mərhəməti olmayan, sədaqəti olmayan, qayğıkeşliyi olmayan dünyanın nə yaraşığı olardı? Ailəsi, isti ocağı olmayan kəsin həyatı məgər həyatdırmı? Ana nəvazişindən, bacı şəfqətindən məhrum olan ocaq məgər ocaq-

dırmı? Qızcığazın şıltaqlığı ilə təravətlənməyən sığınacaq məgər evdirmi?

**Əli ABASOV:** Qadın mövzusuna yaxşı yekundur.

**Rəna MİRZƏZADƏ:** Mən başa düşə bilmirəm, yekun sözünü nə üçün məhz kişi söyləməlidir?!

**Adil ƏSƏDOV:** Söylədiklərimə əlavə olaraq hətta onu da deyərdim ki, qadın kişidən daha çox, daha artıq dərəcədə insandır.

**Sənubər İSKƏNDƏRLİ**: Adil müəllim, Sizin sonuncu fikriniz, qadının kişidən daha çox, daha artıq dərəcədə insan olması barədə söylədiyiniz fikir mənə xüsusən maraqlı və orijinal göründü.

**Adil ƏSƏDOV:** Təşəkkür edirəm. İnsan gözəlliyi idealına yaxınlıq baxımından kişi obrazı qadın obrazı ilə heyvan obrazı arasında haradasa aralıq mövqe tutur.

**Saleh BAĞIROV**: Əstafürullah…

**Əli ABASOV:** Gəlin, qayıdaq tiranizm mövzusuna. Adil müəllim, Siz tiranizmi aşkar bir şəkildə bəraətləndirirsiniz. Siz bir fikir verin. Hitler dəfələrlə öz ideologiyasını dəyişdi, sirdaşlarını güdaza verdi.

**Adil ƏSƏDOV:** Düz deyirsiniz, mən tiran adına hörmətlə yanaşıram. Makedoniyalı İsgəndəri, Napoleonu, Atatürkü hörmətlə anmamaq olarmı? Lakin Hitlerə qarşı isə nifrət və ikrah hisslərini yaşayıram. Hitler tiran deyildi, əslində despot idi. Tiran dünyanı elə dünyanın öz idealına yüksəldən kəsdir, despot isə dünyanı, xüsusən də cəmiyyəti müəyyən qrup insanların rasional iradəsinə tabe etdirən kəsdir. O ki, qaldı, ideologiyasını dəyişmək, əvvəlki sirdaşlarından üz döndərmək məsələlərinə, bu cəhətlər elə tiranizmə də xasdır. Əvvəlki ideologiyasına və əvvəlki sirdaşlarına bağlılıq keçmiş qarşısında köləlikdir, dünyaya bağlılıqdır, obyektivizmdir. Siz ümumiyyətlə zorakılığın əleyhinəsiniz. Bəs, əgər dünya eybəcərdirsə, onu zor gücü ilə gözəlləşdirmək lazım deyilmi?

**Ağayar ŞÜKÜROV:** Siz əksəriyyətdən fərqli olaraq obyektivizmə saygısızlıqla yanaşırsınız. Sizin tirana verdiyiniz səciyyə də Sizin elə subyektiv qiymətiniz deyilmi?

**Adil ƏSƏDOV:** Tiranın dünyagörüşü ümumiyyətlə subyektivist xarakterli olduğu üçün tirana yalnız subyektivist qiymət vermək

mümkündür. Tiranik fəaliyyətə obyektivist qiymət vermək tiranik mahiyyəti təhrif etmək deməkdir. Tiran yalnız öz ürəyinin səsinə inanan kəsdir. Başqa adamların rəyi onun üçün tam əhəmiyyətsiz olmasa da, az əhəmiyyətlidir. Başqaları onun gözündə, yalnız təbəə olmasa belə, mütləq həqiqət daşıyıcısı deyildir. Obyektivizm isə öz ürəyinin səsinə deyil, başqa adamların, ətrafdakıların mövqeyinə inanmaq deməkdir.

**Ağayar ŞÜKÜROV:** Təbəəliyin başlıca mənbəyi kəndlidir, - deyirsiniz. Niyə?

**Adil ƏSƏDOV:** Çünki məhz kəndli öz ürəyinin səsinə etibar etmir, öz şəxsi rəyinə inanmır, bir sözlə, təbəələşməyə meyillidir.

**Ağayar ŞÜKÜROV:** Siz Tiranın cəngavər mənşəli olduğunu qeyd edirsiniz. Stalin – cəngavər idimi?

**Adil ƏSƏDOV:** Əslində, bəli, cəngavər idi.

**İlham MƏMMƏDZADƏ:** Mənə elə gəlir ki, müəllif konsepsiyasında liderlik (Stalin), sosializmin xüsusiyyətləri, marksizmin tənqidi məsələləri bir qədər sadələşdirilmiş görünür. Düşünürəm ki, müəllif eyni zamanda qərb neomarksizminə, sosializmin xüsusiyyətləri ilə bağlı problemlər üzrə Qərb, Rusiya və sovet müəlliflərinin əsərlərinə istinad etsəydi, bu, işə heç də mane olmazdı. Bu problemin historioqrafiyası isə xeyli genişləndirərdi.

**Adil ƏSƏDOV:** Qərb neomarksizmi ilə də, qərb sovetologiyası ilə də, kommunizmi özünəməxsus şəkildə mənalandıran sovet-Rusiya müəlliflərinin əsərləri ilə də kifayət qədər tanışam. Lakin, bu müəlliflərin içərisində Berdyayevdən və Zinovyevdən başqa bir əhəmiyyətlisini görmədim. O ki, qaldı mənim bu müəlliflərin əsərlərinə iqtibas etməməyim məsələsinə, Berdyayevə mən bütün qəlbimlə bağlıyam və əgər yaddaşım məni aldatmırsa, onun fikirlərinə dəfələrlə iqtibas etmişəm.

**Ağayar ŞÜKÜROV:** Siz, *sosializm də kapitalizm kimi plebey mənşəli olub determinizmə əsaslanır*, - kimi bir ifadə işlədirsiniz. Qədim Romada tüfeyli həyat sürən lümpen-proletariat plebey adlandırılırdı.

**Adil ƏSƏDOV:** Düşünmürəm ki, qədim Romanın lümpen-proletariatı ilə plebeylər arasında aparılan identifikasiya özünü doğrulda da bilər, doğrulmaya da bilər. Plebey lümpen-proletar da ola bilərdi, varlı bir tacir də ola bilərdi. Plebey yalnız patrisiyə qarşı qoyula-

raq səciyyələndirilə bilər. Plebey və patrisi arasındakı mahiyyət fərqini isə mən belə ifadə edərdim: Ürəyinin həqiqət duyğusundan çıxış edərək fəaliyyət göstərən kəs patrisi, fayda prinsipindən çıxış edərək fəaliyyət göstərən kəs isə plebeydir.

**Tahirə ALLAHYAROVA:** Bəs, Siz bərabərlik ideyasına necə baxırsınız?

**Adil ƏSƏDOV:** Bərabərlik ideyası, məncə, qeyri-təbiidir. Ona görə yox ki, insanların bəziləri digərlərinə nisbətən daha qiymətli, daha yüksək səviyyəlidirlər. Ona görə ki, insanlar öz təbii təyinatlarına görə müxtəlifdirlər. İnsanlar yüksək səviyyəlilərə və yüksək səviyyədə olmayanlara yalnız o əsasda ayrıla bilərlər ki, onların bəziləri öz həqiqi həyati ideallarına yaxın, bəziləri isə həqiqi ideallarından uzaqdırlar. İnsanların bəziləri öz təbii təyinatlarına uyğun həyatı yaşayır, digərləri isə öz daxilində daşıdıqları təbii təyinatlarını gerçəkləşdirmirlər, öz taleyini yaşamırlar, özlərini sui-istifadəyə məruz qoyurlar, özlərini istismara uğradırlar.

**Ağasəlim ƏLƏSGƏROV:** Təsvir etdiyiniz bu hadisə istismar deyildir, ona başqa bir ad qoymaq lazımdır: özü üzərində zorakılıq, özünəqəsd və sair buna bənzər bir şey.

**Teymur VƏLİYEV:** Sosializmdə istismar vardımı?

**Adil ƏSƏDOV:** Sosializmdə muzdlu əmək olduğu üçün istismar da vardı. Bu cəhət sosializmi kapitalizm ilə eyniləşdirir. Muzdlu əmək isə istismarla eyni qəbildən olan köləliyi törədir.

**Ağasəlim ƏLƏSGƏROV:** Burada mən Karl Marksın bir klassik kəlamını xatırlatmaq istərdim: Kapitalizmdə muzdlu işçi şahin kimi acdır və şahin kimi azaddır.

**Adil ƏSƏDOV:** Köləlik qeyri-aşkar şəkildə olsa da, muzdlu əməyin mahiyyətində gizlənir. Əgər mən muzdla bir adam üçün işləyirəmsə, bu o demək deyildirmi ki, mən onun iradəsini yerinə yetirirəm. Başqasının iradəsinin yerinə yetirildiyi bütün hallarda dolayı yolla həyata keçirilsə də, köləlik mövcuddur.

**Ağasəlim ƏLƏSGƏROV:** İnsanın heç nəyi olmayanda özünü bir qədər küskün hiss edir.

**Adil ƏSƏDOV:** Kölə kimi küskün, elə deyilmi?

**Ağasəlim ƏLƏSGƏROV:** Kölə tamam başqa bir şeydir. 1861-ci ildə təhkimçilik hüququ ləğv edilərkən, eyni zamanda köləlik də ləğv

edildi. Kapitalizmdə insan bir vətəndaş olaraq azaddır, köləlik yoxdur.

**Adil ƏSƏDOV:** Fəlsəfi olaraq, əgər bir insan öz iradəsini başqa birisinin iradəsinə tabe etdirirsə, kölədir. Hakimiyyət və köləlik arasındakı münasibətlər sahibkarlıq və mülkiyyət arasındakı münasibətlər kimidir. Bir kimsə mənim hökmümlə fəaliyyət göstərirsə, mənim mülkiyyətimdir.

**Ağasəlim ƏLƏSGƏROV:** Siyasət – iqtisadiyyatın məcmusudur, kristallaşmasıdır. Bu doğrudur. Lakin, mülkiyyət və hakimiyyət arasında apardığınız paralellər yalnız quldarlıq cəmiyyətində özünü doğrulda bilərdi. Kölə bu zaman doğrudan da quldarın mülkiyyəti idi.

**Adil ƏSƏDOV:** Quldarlıq cəmiyyətində insan insan üzərində hakimiyyətə, tam və aşkar mülkiyyət hüququna malik idi. Kapitalizmdə isə insanın insan üzərində hakimiyyəti və insanın insan üzərində mülkiyyət hüququ qismən və qeyri-aşkar xarakter daşıyır.

**Teymur VƏLİYEV:** Siz danışdıqca Sizin bir konfransda etdiyiniz çıxışı da xatırlayıram. Sizin təfəkkürünüz həqiqətən də qeyri-adi və orijinaldır.

**Ziba AĞAYEVA:** Adil müəllim, Siz bir qədər öncə doğru olaraq qeyd etdiniz ki, insanların bəzilərini digərlərinə nisbətən daha qiymətli, daha yüksək səviyyəli hesab etmək düzgün deyildir. Əgər belədirsə, Siz nə üçün şiəliyi sünniliyə nisbətən alçaldırsınız?

**Tahirə ALLAHYAROVA:** Niyə ki? Adil müəllim şiəliyi şəhər mədəniyyətinin ifadəçisi kimi təqdim edir. Məgər, şəhərli olma alçalmadırmı?

**Fuad QASIMZADƏ:** Adil müəllim, Siz ilkin və həqiqi islamı kəndli dünyagörüşü kimi təqdim edirsiniz. Bəs islam elə şəhərdə formalaşmamışdımı?

**Adil ƏSƏDOV:** Məhəmməd Peyğəmbər şəhərli praqmatizmini heç cür qəbul edə bilmirdi və peyğəmbər olmazdan öncə də şəhər utilitarizminin yaratdığı boğucu mənəvi atmosferdən xilas olmaq üçün tez-tez dağlara çəkilərdi. Peyğəmbərliyə də, vəhy yüksəkliklərinə də elə dağlarda çatmışdı. Peyğəmbərlik missiyasını həyata keçirərkən isə Məkkə şəhərinin heç də azlıq təşkil etməyən sakinləri onu görə daş-qalaq etmək və öldürmək niyyətinə düşmüş-

dülər. Məkkəlilər Məhəmməd Peyğəmbəri ona görə daş-qalaq etmək və öldürmək niyyətində idilər ki, Peyğəmbər şəhərli fərdiyyətçiliyinə qarşı əslində kəndli dünyagörüşü üzərində qurulan icma dəyərlərini, müsəlman ümmətçiliyini qoyurdu. Sonradan bu, həm də şəhərli hedonizminə qarşı ilahi əxlaqın qoyulmasına gətirib çıxardı.

**Zakir MƏMMƏDOV:** İslam fəlsəfəsinin əsas cərəyanlarından biri olan məşşailiyi Siz şiizmin fəlsəfəsi hesab edirsiniz. Sünnizmin fəlsəfəsi olaraq – sufizmi, ilkin müsəlmanlığın fəlsəfəsi olaraq isə kəlamı ön plana çəkirsiniz. Həmin cərəyanlar arasındakı prinsipial fərqi isə onda görürsünüz ki, bu cərəyanlar bir-birlərindən Allahı dərk etmə tərzləri ilə fərqlənirlər. Sizin nöqteyi-nəzərdən, məşşailik Allahı determinist anlamda, sufizm – panteist anlamda, kəlam isə transsendental anlamda dərk edir. Ola bilər. Ümumiyyətlə götürüldükdə, görünür, bu elə belədir. Lakin həmin cərəyanların konkret nümayəndələrinə müraciət etsək, onların Allahı dərk etmə tərzləri arasındakı fərqləri üzə çıxarmaq o qədər də asan deyildir.

**Ağayar ŞÜKÜROV:** Adil müəllim, Siz yazırsınız ki, müsəlmanlığın şəhərli ruhuna uyğunlaşdırılması onu şiələşdirdi, cəngavər ruhuna uyğunlaşdırılması isə sünniləşdirdi. Əslində isə, süni-şiə qarşıdurması sadəcə olaraq bir siyasi hadisə kimi yaranmışdı. O nə şəhərliliyə, nə cəngavərliyə aid edilə bilməz. İraqda da, İranda da şəhər də var, ordu da. Türkiyədə də, həmçinin. Nə üçün İraqın və İranın müsəlmanları şiədir, Türkiyənin müsəlmanları isə – sünni?!

**Adil ƏSƏDOV:** Çünki, İran və İraq hər şeydən öncə şəhərlilik ənənələrinin daha qədimdən inkişaf etdiyi ərazilərə aiddir. Üstəlik, islamda təfəkkür ənənələri ilə bağlı konsepsiyamda mən onu da qeyd etmişəm ki, burada söhbət formal müsəlmanlıqdan, formal sünnilikdən və formal şiəlikdən getməyib, həqiqi müsəlmanlıqdan, həqiqi sünnilikdən və həqiqi şiəlikdən gedir. Belə ki, həqiqi müsəlman öz iradəsini könüllü olaraq Tanrının iradəsinə tabe etdirir. Həqiqi sünni özünün və başqalarının iradəsini zorla ilahi iradəyə tabe etdirir. Həqiqi şiə isə ilahi iradədən öz problemlərinin həlli üçün istifadə etməyə çalışır.

**Ağayar ŞÜKÜROV**: Yaxşı səslənir, amma anlaşılması, xüsusən də qəbul edilməsi bir o qədər də asan deyildir. Bu kontekstdə Əmir Teymurun şəxsiyyəti ilə bağlı Sizin bir qeydiniz də ilk baxışda bir o qədər də anlaşıqlı görünmür. Siz qeyd edirsiniz ki, Əmir Teymur həqiqi cəngavər idi, amma həqiqi müsəlman deyildi. Niyə? Nə üçün?

**Şahin FƏRZƏLİBƏYLİ:** İslamda düşüncə təmayülləri ilə bağlı Adil müəllimin ideyası ilə tamamilə şərikəm. Amma, mənə elə gəlir ki, bu ideyanı Əmir Teymurun və ya Ömər Xəyyamın adı ilə bağlamamaq da olardı.

**Adil ƏSƏDOV:** Müsəlman olmaq ilk növbədə müsəlman icmasına bağlı olmaq deməkdir. Əmir Teymur bir dəfə İsfahanın məhz müsəlman əhalisinin qılıncdan keçirilməsinə sərəncam vermişdi. Çünki, dinə bağlı olmaqdan daha çox, Allaha bağlı idi və ilahi əzəməti öz içərisində duyurdu. İnsanın kamilləşdikcə ilahiləşməsi ideyasını tərənnüm edən Nəsimi həm də məhz Əmir Teymur ruhunun ifadəçisi idi. Dini dünyəvi əsaslardan çıxış edərək anlayan din xadimləri və kütlə Nəsimini məhz Əmir Teymurun vəfatından sonra məhv edə bildilər. Nəsimi cəngavər ruhunun tərənnümçüsü, Əmir Teymur isə onun gerçəkləşdiricisi idi. Onların hər ikisi Allaha bağlı idilər, lakin müsəlman ümmətinə, müsəlman icmasına bir o qədər də bağlı deyildilər, bu nöqteyi-nəzərdən də həqiqi müsəlman deyildilər. Buna görə də, Əmir Teymur həqiqi müsəlman olmadan daha çox, həqiqi sünni idi. Hörmətli Şahin müəllim tərəfindən xatırlanan Ömər Xəyyama qaldıqda isə, cəsarətlə təsdiq etmək olar ki, məsələyə mahiyyəti nöqteyi-nəzərindən baxıldıqda, əslində o da həqiqi müsəlman olmadan daha çox, həqiqi şiə idi.

**Ziba AĞAYEVA:** Adil müəllim, Siz sünnizmi cəngavər dünyagörüşünün ifadəçisi hesab etməklə yanaşı, həm də şiizmi şəhərli dünyagörüşünün ifadəçisi hesab edirsiniz. Bəs, Əli cəngavər deyildimi?

**Adil ƏSƏDOV:** Əli şiə idimi? Şiə – Əlinin tərəfdarı olmaq deməkdir. Əlinin özü isə şiizmdən daha yüksəkdə dururdu. Əli haqqında tam qəlb açıqlığı ilə söyləmək mümkündür ki, o, həqiqi müsəlman idi.

**Zakir QASIMOV:** Doğru deyirsiniz ki, Əli şiizmin banisi olsa da, onun özü şiə deyildi. Bu, ona bənzəyir ki, İsa Peyğəmbər xristianlığın

banisi idi, lakin xristian deyildi. Marks – marksizmin banisi idi, lakin marksist deyildi. Tamamilə doğru və orijinal mövqedir.

**Adil ƏSƏDOV:** Zakir müəllim yaxşı ki, bizi bir daha marksizm mövzusuna qaytardı. Marksizm, xüsusən sovet marksizmi – yəni marksizm-leninizm əslində Marksın nəzəriyyəsi deyildi, Leninin və ondan da daha çox Stalinin nəzəriyyəsi idi, daha doğrusu ideologiyası idi.

**İlham MƏMMƏDZADƏ:** Burada məsələ təkcə ideologiyada deyildir. Sosializm Sovet İttifaqında kütləvi şüurla, əhvali-ruhiyyənin xüsusiyyətləri ilə bağlı idi. Bu əhvali-ruhiyyə Azərbaycana da yayılmışdı, bunun da öz izahı vardır. Əgər anlayış səviyyəsində analiz edilsə, *hakimiyyət* və *dövlət, hakimiyyət* və *əxlaq, əxlaq* və *hüquq* və s. bu kimi anlayışlar şüurun heç bir səviyyəsində diferensiallaşdırılmırdı.

**Adil ƏSƏDOV:** Bir sözlə, totalitarizm. Totalitarizm ona görə pisdir ki, insanı nəhəng dövlət maşınının bir «vint»inə çevirir. Lakin, bu vint funksiyasını həvəslə yerinə yetirən kəs üçün, bu funksiyanın özündən zövq alan kəs üçün isə bu funksiya heç də pis deyildir. Elə buna görə də mən totalitarizmdən demokratizmə doğru enmənin deyil, daha çox totalitarizmdən aristokratizmə doğru yüksəlmənin tərəfdarıyam.

**Tahirə ALLAHYAROVA:** Belə olduğu halda, Sizin müsavata və Məmmədəmin Rəsulzadəyə verdiyiniz səciyyə doğrusu məndə də nəsə bir etiraz yaradır. Rəsulzadənin siyasi fəlsəfəsi Dünya Ruhunun, siyasi nizamın dünyaya və cəmiyyətə zorakılıqla müdaxiləsini deyil, onunla həmahəngliyi və həmrəyliyə nail olmanı nəzərdə tuturdu. Məmmədəmin Rəsulzadə özünün *Əsrimizin Siyavuşu* əsərində belə yazırdı: «Nizam cəbr və zorakılıqla deyil, barış və ittifaqladır. Dünyanın idarəsi nə çoxluğun ağalığından ibarət zorbalıq, nə də azlığın itaətsizliyindən ibarət səlahiyyətlə deyildir. Nə cəbr, nə səlahiyyət… Mərkəzlə dairə arasında müvazinət olarsa, çərxi-fələk aləmin arzusunca dönür, nizam olur. Çərxi-fələk hərbə-zorba ilə və ya əmrlə dönmədiyi kimi, millətlə dövlətin vəzifələri bir-birini əksildici deyil, bir-birini tamamlayıcıdır.» Rəsulzadənin siyasi fəlsəfəsini əks etdirən bu sözlərdən görünür ki,

bu doktrina aristokratizmin tələblərinə cavab verir. Mənə elə gəlir.

**Adil ƏSƏDOV:** Rəsulzadə həqiqətə deyil, gerçəkliyə uyğunlaşmaq istəyən və bu uyğunlaşmadan mümkün olacaq dərəcədə daha çox faydalanmağa çalışan bir siyasətçi idi. Onun siyasi instinktləri zadəgan instinktləri deyildi, burjua siyasi instinktləri idi. Bu siyasi instinktlər həm də onun Müsavat partiyasında daşınırdı. *Azərbaycan Cümhuriyyəti* adını alan siyasi nizam heç də zorakılıqsız barış və ittifaqla baş tutmamışdı. Nuru Paşanın və Qafqaz İslam Ordusunun cəbrə və zorakılığa qarşı zor işlətməsi nəticəsində baş tutmuşdu.

**Ağayar ŞÜKÜROV:** Siz yazırsınız ki, gerçəklikdən çıxış edən və gerçəklikdən faydalanmağa çalışan real müsavat nəzəriyyəsi Nərimanova qəlbən yad idi. Məncə, əksinə Nərimanov daha çox gerçəklikdən çıxış edirdi.

**Adil ƏSƏDOV:** Razı deyiləm. Nərimanov romantik ruhlu idi, idealdan çıxış edirdi. Gerçəkliyi ideal səviyyəsinə yüksəldərək ədalətliləşdirmək əzmində idi. Nərimanovun idealı ədalət idi, Rəsulzadənin idealı isə hakimiyyət.

**Firdovsiyyə ƏHMƏDOVA:** Siz ədaləti, xeyirxahlığı bəzən zadəgana, çox zaman isə icmaçıya aid edirsiniz.

**Adil ƏSƏDOV:** Xeyirxahlığı mən birmənalı olaraq icma mədəniyyətinin başlıca əxlaqi keyfiyyəti hesab edirəm. O ki qaldı ədalətə, onun zadəgan anlaşılması rəiyyət anlaşılmasından köklü surətdə fərqlənir. Ədalətin zadəgan anlaşılmasının mahiyyəti ondan ibarətdir ki, əgər cəmiyyətdə hər bir kəs öz layiq olduğu yeri, öz təbii təyinatı ilə müəyyənləşmiş yeri tutursa, bu ədalətli cəmiyyətdir. Ədalətin rəiyyət anlaşılmasının isə mahiyyəti ondadır ki, əgər hər bir kəs etdiyi yaxşı əməlinə görə müvafiq mükafatı alırsa, pis əməlinə görə isə lazımınca cəzalanırsa, bu mükafatı və cəzanı verən kəs ədalətlidir. Sosializm də, demokratizm də, ədalətin məhz rəiyyət anlaşılmasına istinad edir.

**Ağayar ŞÜKÜROV:** Siz birmənalı olaraq vurğulayırsınız ki, demokratizmə qarşı yalnız aristokratizm qoyula bilər. Məgər bütün əhali aristokratlardanmı ibarət olmalıdır?

**Adil ƏSƏDOV:** Qətiyyən. Bütün əhali aristokratlardan ibarət olmamalıdır və ola da bilməz. Aristokratizmin yeganə tələbi belədir: hər bir kəs öz təbii təyinatına uyğun fəaliyyətlə, *öz işi* ilə məşğul olmalıdır. Aristokrat insanlara yalnız onların təbii təyinatını tanıdan şəxsdir.

**Əlikram TAĞIYEV:** Hər kəs öz işi ilə məşğul olsa daha yaxşıdır. Bununla bağlı mən həm də Orteqa-i-Qassetin bir fikrinə də şərik çıxıram. Hökmdar filosofluq etsə, bəs dövləti kim idarə etməlidir? Bəs, filosof hökmdarlıq etsə, onun filosofluq etməyə vaxtı qalacaqmı?

**İlham MƏMMƏDZADƏ:** Aristokratiyanın və demokratiyanın müxalifliyi inandırıcı görünmür. Bu ideya sənayeyəqədərki dövr üçün (Platon, Aristotel), sonradan isə XIX əsrin sonunda XX əsrin başlanğıcı üçün aktual ola bilərdi. Amma indi həmin ideya Avropa şüuru tərəfindən artıq dəf edilmişdir. Demokratiya haqqında haçansa danışırdılar ki, bu – xalqın hakimiyyətidir, amma müasir qərb demokratiyası əslində elitizm (aristokratizm) və seçkililik prinsipi ideyalarının vəhdətidir. Azərbaycanda siyasi praktika və şüur belə bir vəhdətin əhəmiyyətini hələ ki, mənimsəməmişdir. Həmçinin bizim fəlsəfə də siyasi problemin bütün dünyada, beynəlxalq səviyyədə artıq qəbul olunmuş həllinə etinasız ola bilməz.

**Adil ƏSƏDOV:** Mənə elə gəlir ki, demokratizm, aristokratizmdən fərqli olaraq, bazar prinsipinə, «mən sənə – sən mənə» prinsipinə istinad edir. Hakimiyyətə sahib olmaq istəyən kəs öz *proqram*ını irəli sürür və bu proqramda *xalq* üçün nəsə edəcəyini vəd edir və *xalq* da bunun əvəzində ona hakimiyyət verir. Aristokratizm isə təbii təyinat ideyasını istinad edir. Burada əvəz prinsipi və müqavilə münasibətləri yoxdur. İlham müəllim, bir də onu qeyd edim ki, demokratizm dövlətin çoxsaylı izahlarından yalnız biridir. Mütləqləşdirdiyiniz Qərbdə bu belə qəbul olunur, sənayeyəqədərki dövrdə də belə qəbul olunurdu, XIX əsrin sonunda XX əsrin başlanğıcında da, indi də. Ən azı elə bu səbəbdən də, demokratiyanın, yaxud hər hansı bir siyasi doktrinanın heç bir əcnəbi nəzəriyyəsini biz bir ehkam kimi qəbul edə bilmərik.

Xalqın mentaliteti, tarixi, ümumi inkişaf səviyyəsi mütləq diqqət mərkəzində saxlanılmalıdır.

**Sabir RÜSTƏMXANLI:** Lakin demokratik maarifçilik də bizə gərəkdir. Bunu da biz inkar edə bilmərik.

**Adil ƏSƏDOV:** İndi Qərbdən bizə təkcə siyasi demokratiya gəlmir. Qərb demokratik dəyərlərinin ümumi axını içərisində həm də bir sıra eybəcərliklər, əxlaq düşkünlüyü də gəlir. Sabir müəllim, Siz necə, bütün bu eybəcərlikləri demokratiyanın tərkib hissəsi hesab etmirsinizmi?

**Sabir RÜSTƏMXANLI:** Qismən hesab edirəm. Lakin bu eybəcərliklər Azərbaycan gerçəkliyinə xalqın öz mənəviyyatındakı boşluqlar nəticəsində daxil ola bilmişdir.

**Adil ƏSƏDOV:** Bəs, xalqın mənəviyyatındakı zənginlikləri Azərbaycan gerçəkliyinə hopdurmadan, bizə yalnız Qərbdən daşınan dəyərlərlə cəmiyyəti gözəlləşdirə bilərikmi? Azərbaycanın dövləti Azərbaycan mənəviyyatının mücəssəməsi olmalıdır.

**Yusif RÜSTƏMOV**: Adil müəllimin mülahizələri ümumən qəbul olunmuş fikirlərə uyğun deyildir, amma, ümumən qəbul olunmuş fikirlərdən daha düzgündür. Xüsusən, indi müzakirə olunan mövzu ətrafında.

**Müşfiq ŞÜKÜROV:** Adil müəllim, Asif Ata ömrünün sonlarına yaxın çox din, din deyirdi. Bu məni qorxutdu. Elə buna görə də ondan uzaqlaşdım. İndi Siz də elə dövlət, dövlət, hökmdar, hökmdar deyirsiniz.

**Adil ƏSƏDOV:** Amma, ümid edirəm ömrümün sonuna hələ çox var.

**Müşfiq ŞÜKÜROV:** Doğrusu bir məsələ məni narahat edir. Adil müəllim, cəmiyyəti əsas qayğı obyekti götürən filosof üçün Mütləq Həqiqət əsas olaraq qala bilərmi? Mənə elə gəlir ki, bu halda filosof hakim təfəkkürü üstdə köklənir.

**Adil ƏSƏDOV:** Qoyduğunuz sualı müsbət cavablandırıram. Sonuncu cümləniz ilə isə tamamilə razıyam, amma ona Sizin verdiyiniz məna yox, mənim verəcəyim məna verilsə. Mən aristokratik dünyagörüşün bir ifadəçisi olaraq, bəlkə də, hakim təfəkkürünün nəzəriyyəçisiyəm. Bu, birmənalı olaraq belədir. Mənim təfəkkürüm əslində, öz təbiəti etibarı ilə hakim təfəkkürüdür. Yeri gəlmişkən mən ümumiyyətlə hakim təfəkkürünü müxalifətçi təfək-

küründən fərqləndirərdim. Bu fərq, düşünürəm ki, siyasi səciyyə daşımaqdan daha çox, psixoloji səciyyə daşıyır. Müxalifətçi təfəkkürünün daşıyıcısı hər zaman və hər yerdə, bir qayda olaraq, yalnız pis cəhətləri axtarır və həmin bu pis cəhətləri də mütləqləşdirir, onun diqqət mərkəzində dünyanın gözəlliklərindən daha çox, dünyanın eybəcərlikləri dayanır. Hakim təfəkkürünün daşıyıcısı isə bir qayda olaraq uğurları, müvəffəqiyyəti, gözəllikləri görməyə meyillidir, eybəcərlikləri isə mütləqləşdirməyə deyil, daha çox aradan qaldırmağa qərarlıdır.

**Müşfiq ŞÜKÜROV:** Hakim üçün kəmiyyət keyfiyyətdən önəmlidir. "*Cəmin xatirinə təkcəni qurban vermək olar*", düşünür hakim. Əsil Həqiqət «cəm həqiqəti», haradasa, statistik, inteqral həqiqət ilə əvəz olunur bu məntiqdə. Dostoyevski isə bəşərin xilası üçün bir körpənin göz yaşlarına da qıya bilmirdi…

**Adil ƏSƏDOV:** Cəmiyyətin himayə prinsipi üzərində təşkilatlanma zərurəti və bu zərurəti ifadə edən aristokratik siyasi doktrina elə körpənin, müdafiəyə möhtac olanın himayəsini nəzərdə tutur. Körpə yırtıcının pəncəsinə verilməsin deyə, aristokratizm lazımdır, aristokratizmin – insanları himayə etmə, qoruma instinktinin sosial mücəssəməsidir.

**Müşfiq ŞÜKÜROV:** Adil müəllim, Sizin ideal situasiya kimi təsvir etdiyiniz himayə, yalnız anonimlik şəraitində, məsələn, dövlət himayəsi şəraitində müəyyən qiymətə malikdir. Əksər təzahür formalarında himayəçi ilə himayə olunan münasibətləri qeyri-sağlam situasiyanın yaranması ilə nəticələnir. Valideyn – övlad, həkim – xəstə, müəllim – tələbə… münasibətləri heç də idillik münasibətlər deyil, ən nümunəvi halları götürdükdə belə. Zəruri, həyati münasibətlərdir, amma mütləq münasibətlər deyildir. Şərq mistikləri ayaq üstə qoya bildikləri tələbələrini özlərindən uzaqlaşdırırdılar. Himayənin ağır yük olduğunun fərqində idilər.

**Adil ƏSƏDOV:** İnsanları himayə etmək, onların həyatı və xoşbəxtliyi üçün məsuliyyəti öz üzərinə götürmək, əlbəttə ki, ağır yükdür. Lakin məsələnin başqa bir tərəfi də, əlbəttə ki, vardır: Müəlliminin birbaşa himayəsi, qayğısı, nəzarəti altında olan tələbəni müəllim heç zaman, sözün böyük mənasında, «ayaq üstə qoya» bilmir. Bir müəllimi onu özündən ayırsa da, o, özünə həmişə baş-

qa, təzə müəllimlər axtarır. O ki, qaldı dövlət himayəsinin anonimliyi ilə bağlı Sizin qeydinizə, dövləti anonim hesab etmək, məncə, naşükürlükdür. Dövlət – onsuz da, öz-özünə, insani müdaxilə olmadan da mövcud olan bir şey deyildir, gərgin siyasi yaradıcılığın məhsuludur.

**İsaxan VƏLİYEV:** Adil müəllim dövləti himayə sistemi kimi təqdim edir. Bu, çox maraqlı nəzəriyyə olmaqla yanaşı, həm də yeni nəzəriyyədir. Nə fəlsəfədə, nə də hüquqda belə bir nəzəriyyə hələ ki olmamışdır.

**Müşfiq ŞÜKÜROV:** Amma Adil müəllimin bütün fikirləri ilə də razılaşmaq olmaz. Adil müəllim qeyd edir ki, «*aristokratik lider sıravinin...ürəyini onun özündən daha yaxşı duyur*». Bu fikir çox məsuliyyətli mühakimədir. Teymur Nəsimini, Napoleon Tolstoyu onların özündən daha yaxşı duyur deməkdir. Mən tarixi liderləri misal götürürəm, çünki bəşəri praktika bunları «istehsal etmək» iqtidarındadır. Teymurlar Nəsimilərin mahiyyətindən xəbərsizdirlər. Onların nə beyinlərinin, nə də ürəklərinin parametr göstəriciləri kifayət eləmir ki, təfəkkür yiyələrini axıra qədər anlaya bilsinlər. Onlar nəsimiləri hakimiyyətlərinə yalnız təhlükə meyarı ilə qiymətləndirirlər. Bu yolla mütəfəkkiri dərk etmək isə onu tərəzidə çəkməklə dərk etmək qədər uğursuzdur. Hakimin həqiqəti hakimiyyətdir, o, başqa bir şeyə uymağa, onu dərk etməyə meyilli deyil. Dərk etmədə ümumiyyətlə aşırı iradə maneədir, Sizə elə gəlmirmi?

**Adil ƏSƏDOV:** Yox, mənə qətiyyən elə gəlmir. Əmir Teymur Nəsimini himayə edirdi. Bu, bir tarixi faktdır. Nəsiminin düşmənləri onu yalnız Teymurun ölümündən sonra edam edə bildilər. Dövlət ümumiyyətlə insanların bir qismini digər qisminin təcavüzündən himayə etməyə təyinatlıdır. Dövlətin belə bir səciyyəsi müəyyən dərəcədə marksizmdə də vardır. Marksizm belə güman edir ki, dövlət istehsal vasitələri üzərində mülkiyyət sahibi olanları istehsal vasitələri üzərində mülkiyyət sahibi olmayanlardan qoruyur, himayə edir. Lakin dövlət marksizmin güman etdiyi kimi, yalnız və sadəcə olaraq istehsal vasitələri üzərində mülkiyyət sahibi olanları, bir qədər sadələşdirilmiş şəkildə desək, var-dövlət sahiblərini var-dövlət sahibi olmayanlardan, varlıları kasıb-

lardan xilas etməyə təyinatlı deyildir. Dövlət ümumiyyətlə haqlını haqsızın təzyiqindən xilas etməyə, himayə etməyə təyinatlıdır. Buraya onu da əlavə etmək olar ki, dövlət bir çox hallarda həyatda uğur qazananları həyatda uğur qazanmayanların təzyiqindən, uğursuzluğa düçar olanların qəzəbindən də xilas etməli olur. İstedadlıları istedadsızlardan, Tanrı vergisinə sahib olanları Tanrı vergisinə sahib olmayanlardan himayə emək öhdəliyi də bir çox hallarda məhz dövlətin üzərinə düşür. Bu bir. İkincisi, nə Nəsimi, nə də Tolstoy sıravi deyildilər, əksinə, lider idilər. Onların hər biri zəkalar hökmdarı idi. Əlbəttə ki, Nəsiminin də, Tolstoyun öz sıraviləri də vardı: Nəsimi üçün – dərvişlər, Tolstoy üçün isə tolstoyçular. Özü də təkcə onlar yox. Nəsimi də, Tolstoy da milyonlarla insani zəka üzərində nüfuza və hakimiyyətə malikdirlər. Həmçinin elə Teymur və Napoleon da. Nəsimi və Tolstoy milyonlarla zəkalar üzərində hökmdar olduqları halda, Əmir Teymur və Napoleon milyonlarla iradə üzərində hökmdar idilər və bəlkə də, tarixin canlı bir nümunəsi kimi elə indi də hökmdar olaraq da qalırlar. «*Bəşəri praktika onları istehsal etmək iqtidarındadır*», deyirsiniz. Bu, yəqin ki, elə belədir, doğrudur. Qəhrəmanlar haqqında əfsanələr yeni qəhrəmanları doğurduğu kimi, hökmdarlar tarixi də yeni hökmdarları doğurur. Hökmdarlar tarixi möhtəşəm insan iradəsinin təsvirçisi olmaqla insani iradənin qüdrətinə olan insani inamı bəşərin şüurunda əbədi olaraq yaşatmaq üçündür.

**Müşfiq ŞÜKÜROV:** İradə daxildə uğultu yaradır, başqasını eşitməyə mane olur. Başqasını eşitmək üçün özünü dəf etməyi bacarasan gərək. Sizin fəlsəfənizin dili ilə deyilərsə – feminin olmağı da bacarasan gərək. Amma iradə yiyələri yalnız və yalnız maskulin olurlar, yəni özlərini eşidirlər, başqalarına qulaq asanda belə. Doğrudan da, çox qəribə «qulaq asma» üsuludur. Lider anlamağa başlayanda liderliyini itirir. Bu xarakterli məğlubiyyət onun üçün yolverilməzdir. Tarixi liderləri, hökmdarları, şahları məhdud adam hesab edirəm. Onların cəmiyyətə gətirdikləri nisbi xeyri danmasam da.

**Adil ƏSƏDOV:** Ötən söhbətlərimizin birində, *Gözəlliyin fəlsəfəsi*nin müzakirəsi zamanı Siz Taqoramı, yoxsa Tolstoyamı münasibətdə

*şah* sözünü necə ehtiramla tələffüz etdiyinizi yaxşı xatırlayıram. Siz deyəsən Tolstoyu və Taqoru şah «prozaiklər» adlandırmış və onları Şekspir və İbsen kimi şah «dramaturqlara» qarşı qoymuşdunuz. Siz tarixi liderlərin, hökmdarların, şahların, və ən nəhayət totalitarizmin nə qədər əleyhinə olsanız belə, *şah* sözünü necə də bir ehtiramla işlətdiyinizə diqqət yetirin?! Bu ehtiram Sizin *ürəyin*izin *səsi*ni, totalitarizmlə barışmazlıq isə Sizin real problemlərin həllindən yayınmağa meyilli olan, elə etiraflarınızdan göründüyü kimi feminin yönümlü *ağl*ınızın *səsi*ni ifadə edir. Ən azı, elə bu səbəbdən də, tarixi liderləri məhdud adam hesab etməyinizdə, açığını desəm, onlara qarşı yalnız bir həsəd hissinin ifadəsini görürəm. Sıravinin liderə olan münasibətində, kütlənin şəxsiyyətə olan münasibətində, və, ümumiyyətlə, özündə maskulin başlanğıcı daşımalı olduğu halda, feminin başlanğıc daşıyıcısı olanın maskulin başlanğıc daşıyıcısına olan münasibətində, təəssüf ki, həmişə heyranlıq hissləri ilə yanaşı, həsəd hissləri də yaşanmışdır. Deyirsiniz, feminin olmağı bacarasan gərək. Özü də bu mülahizəni mənim fəlsəfəmə iqtibas edərək söyləyirsiniz. Mənsə, bunun tamamilə əksini düşünürəm. Mən yalnız qadının feminin olma zərurətini vurğulamışam. Kişinin feminin xüsusiyyətlərin daşıyıcısı olması eybəcərlikdir. Qadın isə yalnız feminin başlanğıcın mücəssəməsi olduqda idealdır, gözəldir. İcazə verin, qadın təbiəti ilə bağlı mövqeyimi bir daha dəqiqləşdirim. Qadın - sözün tam mənasında Qadın olmalıdır, incə, zərif, məlahətli, şəfqətli, mülayim, mədəni bir xanım olmalıdır, mehribanlığın və xoş rəftarın qoruyucusu olmalıdır, əgər o, körpədirsə, kiçikdirsə, şıltaq, qılıqlı bir qızcığaz, əgər o öz uşaqlıq dövrünü artıq başa çatdırıbsa, ailə qurmaq üçün ismətli, həyalı, bir qədər də, nazlı, işvəli, yetkin bir qız, əgər o, bir ər oğulun artıq evinin dirəyidirsə, onun qan yaddaşına əbədiyyət bəxş etməyi bacarmalıdır, onun ocağını sönməyə qoymamalıdır, sədaqətli bir xanım olmalıdır, əgər o, artıq bir anadırsa, balasını qayğıya qərq edən, onun üzərində yarpaq tək əsən, ağrılarına dözən, əzablarına qatlaşan, ən kiçik uğuruna belə uşaq tək sevinən müqəddəs bir varlıq olmalıdır. Qadın – insani mahiyyətin hələ ki gerçəkləşməyən məzmununun itirilməməsi üçün onu qəbul etməyə, öz

bətnində, qoynunda, qayğı məkanında bəsləməyə təyinatlıdır. Qadın bir ana olaraq, unikaldır, təkrarolunmazdır. Analıq öhdəliklərini özünə yük bilən qadın isə adiləşir. Adiləşmə – öz unikallığını itirmədir, çoxsaylı insanlardan birinə çevrilmədir. Kişi və qadın psixologiyaları arasında mənim göstərdiyim bir fərqi isə düzgün anlamısınız: kişi daha çox ürəyinin səsini eşidir, qadın isə daha çox ətrafına diqqətlidir.

**Aytən QULİYEVA**: Mənim xəyalımda isə ideal qadın – Azərbaycan mentalitetinə uyğun olan bir qadındır. Azərbaycan mentalitetinə uyğun olan bir qadın dedikdə isə, ilk növbədə, gözlərim önündə ağbirçək bir ana canlanır. Onun hündür boyu, dolu, ağ vücudu, ağ saçları, boyasız və nura boyanmış siması vardır, başı örpəklidir, həyalıdır, abırlıdır, namusludur, ismətlidir, hər şeyin yerini biləndır.

**Adil ƏSƏDOV:** Bu xarakteristika nədir? Mənim ideal qadın obrazına verdiyim səciyyənin davamımı? İdeal qadının son yaş həddində təsvirimi, yoxsa, Azərbaycanın bir simvolumu?

**Aytən QULİYEVA**: Məncə, Sizin ideal qadın obrazına verdiyiniz səciyyənin davamı.

**Tural MƏHƏRRƏMOV**: Adil müəllim, mənim də Sizə bir sualım var. Siz qeyd edirsiniz ki, aristokratizm – maskulin təbiətlidir, demokratizm isə – feminin təbiətli. İndiki dövr də demokratizmin getdikcə daha çox inkişaf etdiyi dövrdür. Bütün bunlardan belə bir nəticə çıxmırmı ki, indiki dövrdə hökmdarlar daha çox qadın olmalıdırlar.

**Adil ƏSƏDOV:** Demokratik lider özündə bir qədər feminin başlanğıcı da daşıyır. Lakin elə əslində də, mahiyyəti etibarı ilə, demokratik olan və mahiyyəti etibarı ilə feminin olan hökmdar – təhlükəlidir.

**Ləman SƏMƏDOVA:** Qadının dövlətdə hökmdar olması, qadının evdə hökmran olmasına bənzəyir və bu da bir eybəcərlikdir.

**Mətanət ABDULLAYEVA**: Etiraz edirəm. Adil müəllim, mən Sizin öncə söylədiyiniz fikirlərə qayıtmaq istərdim. Kişi və qadın başlanğıcları, hər halda, hər bir kəsdə olmalıdır. Bunlardan hər biri – insani başlanğıcdır.

**Adil ƏSƏDOV:** Kişi və qadın başlanğıclarının hər ikisini özündə birləşdirən insanı cins psixologiyası qarışıq tip adlandırır. Nəzərinizə

çatdırım ki, psixologiya qarışıq tipdən başqa cinsiyyət baxımından daha üç tipi tanıyır: maskulin, feminin və qeyri-müəyyən tiplər. Qarışıq tip özündə həm kişi, həm də qadın xüsusiyyətlərini daşıdığı halda, maskulin tip yalnız kişi xüsusiyyətlərini, ilk növbədə, əlbəttə ki, mərdliyi, cəsarəti, qətiyyəti, feminin tip isə yalnız qadın xüsusiyyətlərini, ilk növbədə, əlbəttə ki, incəliyi, zərifliyi, xeyirxahlığı, mədəniyyətliliyi, nəzakəti, nəvazişi daşıyır. O ki, qaldı qeyri-müəyyən tipə, onda nə kişi xüsusiyyətləri, nə də qadın xüsusiyyətləri aşkar bir şəkildə görünmür, nə mərdlik nümayiş etdirə bilmir, nə də nəvaziş, xalis maskulin tipdən və xalis feminin tipdən fərqli olaraq.

**Mətanət ABDULLAYEVA**: Adil müəllim, Sizin *xalis maskulin tip* və *xalis feminin tip* adlandırdıqlarınız – yarımçıq, tamamlanmamış insanlardırlar.

**Adil ƏSƏDOV:** Xalis maskulin tip xalis feminin tipin yanaşılığı ilə tamamlanmalıdır. Azərbaycan dilində *yar* və *yarı* sözləri arasında oxşarlığa fikir verin. Ruslar bir kəsin xanımı haqqında danışanda *Ваша вторая половина* deyirlər. Və nəhayət, Platonun o məşhur *Ziyafət*ini yada salın: Dünyada hər bir kəsin öz yarısı var, həyatın mənası da, bəlkə, özünün ikinci yarısını tapmaqda və ona qovuşmaqdadır, Sizin dediyiniz yarımçılıqdan, tamamlanmamış vəziyyətdən qurtulmağın yolu, məncə, budur.

**Vidadi ƏHMƏDOV**: Adil müəllim, mən bir hüquqşünas olaraq konkret bir məsələdə Sizin mövqeyinizi bilmək istərdim: Ailə münaqişələrinə səbəb nədir? Kişi və qadın arasında ağıl fərqimi, yoxsa, kişinin hakimiyyətinə qadının bir etirazımı, kişi hakimiyyəti ilə barışmazlığımı? Məsələn, bu bir elmi faktdır ki, qadının beyni kişinin beynindən daha kiçikdir.

**Adil ƏSƏDOV:** Doğrusu, mən kişinin qadından daha ağıllı olduğunu söyləyə bilmərəm. Kişinin və qadının malik olduqları zehni qabiliyyətlər, sadəcə olaraq, bir-birindən fərqlidir. ***Kişinin ağlı*** daha çox daxili instinktlərdən qidalanır, Kanta və sonradan həm də Hegelə mənsub olan terminologiyadan istifadə edilsə, *zəka xarakterlidir*. ***Qadının ağlı*** isə daha çox xarici mənbələrdən – ictimai şüurdan, ictimai rəydən qidalanır, elə həmin terminologiyadan bir daha istifadə edilsə, *dərrakə xarakterlidir*. Ailədə kişi ağlının

da, qadın ağlının da öz yeri var. Qadın ağlı – ictimai praktikanın, cəmiyyətin əldə etdiyi təcrübənin ailə problemlərinin həlli üçün istifadə olunmasında son dərəcə əhəmiyyətlidir. Qərar qəbul etmə məsuliyyəti isə həmişə kişinindir, qərar üçün əsas ola bilən ideya kişinin özündən də gəlsə, qadından da gəlsə. İndi isə qadının kişi hakimiyyəti ilə barışmazlığı ilə bağlı Sizin söylədiyiniz mülahizəyə də bir münasibət bildirmək istərdim. Əgər ailə – gözəl ailədirsə, ideal ailədirsə, burada belə bir barışmazlıq, düşünürəm ki, yoxdur. İdeal ailədə qadın ərinin hörmətli olmasından, hakimiyyətli olmasından, bir qədər, zəhmli olmasından, hökmlü olmasından qürur duyur. Ərinin hörmətli olmasını, hakimiyyətli olmasını, bir qədər, zəhmli olmasını, hökmlü olmasını istəməyən qadın ideal həyat yoldaşı olmaqdan çox uzaqdır. Ərini hörmətsiz, hakimiyyətsiz görmək istəyən qadın idealın tam əksliyidir. İdeal ailə – məhəbbət üzərində qurulan ailədir. Məhəbbət isə eqoizmin tam inkarıdır, özünü unutma və özünü tam təslim etmə deməkdir, özünü tam könlü ilə başqasının ixtiyarına vermə deməkdir. Sevən adam – bütün qəlbi ilə etibar edən adamdır. Sevən adam sevdiyi kəsin təkcə rasional iradəsinin deyil, həm də təhtəlşüur iradəsinin gerçəkləşdiricisidir. Sevən adam sevdiyi kəsin təkcə dediyi, dilə gətirdiyi arzularının deyil, həm də, hələ demədiyi, dilə gətirmədiyi, bəlkə də, hələ ki sona qədər hələ anlamadığı arzularının yerinə yetirilməsinə müntəzirdir. Əgər xatırlayırsınızsa, belə bir ailəni mən aristokratik ailə adlandırmışam və onu demokratik və tiranik ailələrə qarşı qoymuşam. Aristokratik ailə – məhəbbət hissi üzərində bərqərar olduğu halda, tiranik ailə qorxu hissi üzərində, demokratik ailə isə hörmət hissi üzərində bərqərar olur. O ailədə ki, kişini nə sevirlər, nə ondan, necə deyərlər, qorxurlar, nə də ona hörmət bəsləyirlər, bu artıq ailə deyil. Ailə münaqişələri dediyiniz həmin o hadisə yalnız bu halda və bu məkanda baş verir.

**Ləman SƏMƏDOVA:** Adil müəllim, Sizin bütün bu fikirlərlə razılaşmamaq qətiyyən mümkün deyil.

**Vidadi ƏHMƏDOV**: Ən ideal ailə – qarşılıqlı hörmət hissi üzərində qurulmuş ailə deyilmi?

**Adil ƏSƏDOV:** Tolstoy özünün o məşhur *Anna Kareninas*ında Anna Kareninanın dilindən gözəl bir fikir irəli sürür: *hörmət* sözünü insanlar ona görə yaradıblar ki, *məhəbbət*lə dolmalı olan boşluğu ifadə edə bilsinlər. Anna Karenina bir insan olaraq idealdan çox uzaqdır, bəlkə də, hətta idealın antipodudur. Lakin, onun dilindən söylənilən bu sözlərdə dərin bir məna daşınır.

**Müşfiq ŞÜKÜROV:** Adil müəllim, Siz bir yerdə qeyd edirsiniz ki, adətən güclü kişilərin xanımları gözəl olurlar. Bunu necə başa düşmək olar? Yəqin ki, güclü olanlar – daha imkanlılardır. Buna görə də, bir qədər birbaşa və kobud deyilərsə, gözəl qızlar məhz onları seçirlər.

**Adil ƏSƏDOV:** Xeyr, mən bunu nəzərdə tutmuram. Kişi güclü olmadığı halda, hətta, ən gözəl bir qızla ailə qurduqda belə onu bədbəxt edir, və bununla da, onu əslində, eybəcərləşdirir.

**Ləman SƏMƏDOVA:** Elədir.

**Adil ƏSƏDOV:** Güclü kişi – problemlərini həll edə bilən və bununla da həm də öz xanımını və bütövlükdə öz ailəsini xoşbəxt edə bilən kəsdir. Kişi gücləndikcə onun xanımı və bütün ailəsi xoşbəxt olur və gözəl görünür. Kişi nə qədər güclüdürsə, onun xanımı bir o qədər də xoşbəxtdir və elə buna görə də, bunun nəticəsində də, gözəldir. Xanımın gözəlliyi – kişi gücünün bir ölçüsü və ifadəsidir.

**Bəkir NƏBİYEV**: Ola bilməz. Qadının gözəl olması ilə kişinin qüdrətli və qüdrətsiz olması arasında heç bir əlaqə yoxdur.

**Tofiq KÖÇƏRLİ**: Adil müəllimin fikirlərini bəşərin bütün təcrübəsi təkzib edir. Belə bir şey ola bilməz.

**Ləman SƏMƏDOVA:** Amma doğrusu, Adil müəllimin öncə dediyi sözlər mənim çox xoşuma gəldi, kişi güclü olanda ailədə hər bir şey yerində olur, xoşbəxtlik də, gözəllik də. Bu ailəni ideal və xoşbəxt saymaq olar.

**Müşfiq ŞÜKÜROV:** Adil müəllim, bir arqumentə də münasibətinizi bilmək maraqlıdır. Fəlsəfənizlə tanışlıqdan belə təəssürat yaranır ki, Sizə görə yalnız zadəgan psixologiyasının daşıyıcısı insan kimi özünü tam realizə edə bilər, sufilərin dili ilə desək, kamil insan ola bilər. Əgər belədirsə, bu, gerçəkliyin insan üzərindəki diktaturasını artırmağa, insanın isə daxili azadlığını azaltmağa xidmət

etmirmi? Psixologiyaya gəlincə isə... Lao tszı kəndli psixologiyasını, Sokrat şəhərli psixologiyasını, Kəbir sənətkar psixologiyasını bir paltar kimi daşıdı, «paltarla» eyniləşmədən.

**Adil ƏSƏDOV:** Zadəgan o kəsdir ki, həqiqi həyatı həm özü yaşayır, həm də özgələrinə yaşatdırır. Zadəgan – zadəgan kimi, şəhərli – şəhərli kimi, kəndli də – kəndli kimi özünü reallaşdırmalıdır. Laotszı, doğrudan da, kəndli psixologiyasını fəlsəfiləşdirdi. Kəbir də sənətkar psixologiyasını tərənnüm etdi. O ki, qaldı Sokrata, o heç zaman, sözün həqiqi mənasında, şəhərli olmadı, nə şəhərli paltarını geydi, nə də şəhərli psixologiyasına sahib durdu. Yeri gəlmişkən qeyd edim ki, şəhərlilik, kəndlilik və həmçinin də, zadəganlıq və cəngavərlik hadisələri təkcə sosial mənşəli hadisələr deyildir, daha ümumi səciyyə daşıyan hadisələrdir, mən hətta müəyyən mənada deyərdim ki, bütün Yer üzünə, bütün Kainata, zamanın müxtəlif məqamlarına xas olan hadisələrin təzahür formalarıdır, ən azı simvollarıdır. Zadəgan – səhərin simvolu, kəndli – gündüzün, şəhərli – axşamın, cəngavər isə – gecənin simvoludur. Görünür heç də təsadüfi deyildir ki, ingilislər *cəngavər* və *gecə* mənalarını verən *knight* və *night* sözlərini bir qədər müxtəlif cür yazsalar da, eyni cür tələffüz edirlər. *Knight (cəngavər)* və *night (gecə)* sözləri arasında oxşarlıq bir də o səbəbdəndir ki, gündüz kənardan işıq almaq mənasına malik olduğu halda, gecə kənardan işıq almamaq mənasına malikdir və cəngavər həm də işığı öz daxilindən alan kəsdir. Ən ümumi cizgilərdə götürülsə, gecə - ideyanın təbii təşəkkül prosesidir, səhər - ideyanın doğuluş çağı və qərar qəbul etmə məqamı olduğu halda, gündüz - qərarı gerçəkləşdirmək zamanı, axşam isə - görülən işi təhlil etmək, yekunlaşdırmaq, nəticə çıxarmaq çağıdır. Bir qədər geniş, və bir qədər də məcazi mənada fikir yürütsək, gecə ana bətnində baş verən formalaşma, yetişmə, təşəkkül prosesinin bir simvolu, səhər doğuluşun simvolu, gündüz yaşa dolmanın, axşam isə qocalığın və ölümün simvolu kimi mənalandırıla bilər. Başqa bir paralel: Gecə - dünyanın öz daxili işığına, mahiyyətinə qayıdışının, özünəqapanmasının, səhər dünyanın nura qərq olaraq gözəlləşmə çağının, gündüz - gur işığa bürünərək aydınlaşan dünyadan faydalanma çağının, axşam isə – dünyanın zahirdən gələn

gur işıqdan artıq yorulması və özünü ondan qoparıb ayırması çağının rəmzləridir. İstərdim ki, bu fikrin illüstrasiyası üçün yunan tarixinə bir ekskurs edək: Axey dövrü gecənin təcəssümü olaraq cəngavərlik dövrüdür, arxaik dövr sabahın təcəssümü olaraq zadəgan dövrüdür, klassik dövr gündüzün təcəssümü olaraq şəhərlinin, son əsrlər axşamın təcəssümü olaraq kəndlinin dövrüdür. Axey dövrü xalqın talanlara məruz qaldığı və buna görə də xoşbəxt ola bilmədiyi dövr idi, başqa cür, estetik terminologiyanın dili ilə deyilərsə, eybəcər dövr idi. Klassik dövr xalqın zahiri təmtəraqla bəzəndiyi, lakin, məruz qaldığı mənəvi sarsıntılar ucbatından xoşbəxt ola bilmədiyi dövr idi, mənəvi eybəcərlik dövrü idi. Son əsrlər xalqın transsendent dünyada özünə mənəvi bir dayaq tapdığı, lakin, real dünyada isə xoşbəxt ola bilmədiyi bir dövr idi, idealı transsendent dünyaya atılan reallığın eybəcərliyə düçar olduğu bir dövr idi. Dünya isə yalnız zadəgan ruhunun hökmü ilə qurulduqda gözəl olur.

**Müşfiq ŞÜKÜROV:** Fəlsəfə mütləq harmoniya axtarışındadır. Lakin Sizə elə gəlmirmi ki, Sizin mütləqləşdirdiyiniz aristokratik doktrina nisbi harmoniyaya xidmət edir. Zadəgan bir fövqəlinsan olaraq yaşayır, qalanları isə onun gözəl və mənalı həyatının təminatçısı «səadətinə» qovuşur. Heç yerdə qeyd olunmur ki, həyatının mənasını özgədən alanın həqiqi səadəti ola bilməz. Müstəqil olmayan yaşamır, əslində (A.Ata)! Problem budu! Və bu tənliyin mütləq həlli yoxdur. Nisbi, təxmini həllər ola bilər. Dünyanın öz imkansızlığına ilişir hər şey. Və bu sədd aşılmazdır.

**Adil ƏSƏDOV:** Dünyanın imkanları sonsuz və tükənməzdir. İnsanın imkanları isə, bir daha vurğulayıram ki, onun ağlının ölçüləri qədərdir. Zadəgan həm də ona görə lazımdır ki, insani ağılın imkanlarını insanların özlərinə açıb göstərsin və bununla da, nəticədə onların həm də real imkanlarını da bir qədər də genişləndirsin. Bu, bir. İkincisi, mən dəfələrlə eşitmişəm ki, məni Sizin Ata adlandırdığınız Asif Əfəndiyevlə müqayisə edirlər, mənimlə Asif müəllim arasında ümumi cəhətlər axtarırlar. Hətta, Sizin özünüz də bunu dəfələrlə etmisiniz. Bu səylər, doğrusu, məndə ziddiyyətli hisslər yaradır. Mən Asif müəllimə böyük ehtiramla yanaşıram, lakin, digər tərəfdən, onun taleyini də yaşamaq istəmirəm.

İndi Siz Asif müəllimin fikirlərini mənə qarşı qoyursunuz. Xahiş edirəm, öz sözlərinizlə danışın.

**Mətləb MAHMUDOV**: Adil müəllim, Siz Asif Əfəndiyevi nədən belə ehtiramla xatırlayırsınız?! Sizin ideyalarınız daha cəsarətli, daha orijinal, daha dərindir.

**Firudin KÖÇƏRLİ**: Asif Əfəndiyev istedadlı alim idi, orijinal təfəkkürə malik idi, amma onun qəribəlikləri, xüsusən də, yeni bir din yaratmaq iddiası bütün bunların üzərinə kölgə saldı.

**Telman ƏLİYEV:** Asif Əfəndiyevin qəribəlikləri, düşünürəm ki, onun istedadından daha çox idi. Nə isə, gəlin mövzuya qayıdaq.

**Zakir QASIMOV**: Adil müəllim, Siz demokratik doktrinanı nöqsanlı hesab edirsiniz. Belə olduğu halda təbii olaraq bir sual yaranır: Siz totalitarizminmi tərəfdarısınız?

**Adil ƏSƏDOV:** Mən totalitarizmin deyil, aristokratik prinsip üzərində qurulmuş dövlətin tərəfdarıyam.

**Telman ƏLİYEV:** Adil müəllim, aristokratik hakimiyyət nə vaxtsa olubmu?

**Adil ƏSƏDOV:** Mütləq mənada heç bir hakimiyyət tipi mövcud olmayıb. Aristokratik hakimiyyət də həmçinin bir idealdır. Amma aristokratik ideala yaxın olan cəmiyyətlər isə tarixdə kifayət dərəcədə olub. Cəmiyyət bu ideala nə qədər çox yaxındırsa, onun üzvləri bir o qədər də xoşbəxtdirlər. Məsələn, VII əsrdə Məhəmməd Peyğəmbərin başçılığı altında Mədinədə mövcud olan müsəlman icması əsasən belə bir ideal cəmiyyət olub. Əgər cəmiyyətdə insanlara onların təbii təyinatlarını ifadə edən işlə, öz sevimli işləri ilə məşğul olmaq imkanı yaradılıbsa, bu, aristokratik prinsip üzərində qurulmuş cəmiyyətdir. Cəmiyyət bundan nə qədər uzaqlaşırsa, bir o qədər də zülmə məruz qalır. İnsana zülm etmə ona istəmədiyi bir işi gördürmədir. Ola bilsin ki, bir adam sosial status daşıyıcısı olaraq kölədir, amma, əslində öz sevimli işi ilə məşğul olur. Bu, zülm deyildir. Zülm odur ki, insana istəmədiyi işi gördürürlər. Zadəgan insanı zülmdən xilas edən şəxsdir, ona onun təbii təyinatını ifadə edən işlə, öz sevimli işi ilə məşğul olmaq imkanını yaradan şəxsdir. Əslində hər bir adamın təbii təyinatı və bu təyinatı gerçəkləşdirmək üçün potensial imkanları var. Lakin əksəriyyət öz təbii təyinatını anlamaq üçün

zəruri olan idraki qabiliyyətə və onu gerçəkləşdirmək üçün zəruri olan qətiyyətə malik deyildir. İnsanlara onların təbii təyinatlarını göstərmək və bu təyinatı gerçəkləşdirməkdə onlara dəstək vermək gərəkdir. Hər bir adama onun qabiliyyətini və təbii təyinatını göstərilməlidir. Hər kəs cəmiyyətdə qabiliyyətinə və təbii təyinatına uyğun yer tutmalıdır. Bunu gerçəkləşdirmək isə zadəganın təbii təyinatıdır.

**Əli ABASOV:** Doğrusu, təbii təyinat və zadəgan ideyalarını mən də qəbul edə bilmirəm. Belə olduğu halda bir sıra xalqlar iddia ediblər və iddia etməkdə davam edirlər ki, onlar öz təbii təyinatlarına görə zadəgan xalqdırlar.

**Adil ƏSƏDOV:** Hər hansı bir xalqı bütövlükdə zadəgan xalq kimi qiymətləndirmək, əlbəttə ki, düzgün olmazdı. Xalqın yalnız zadəgan təbəqəsindən danışmaq mümkündür. Lakin bu təbəqə nə qədər qalındırsa və həqiqətən zadəgan ruhlulardan ibarətdirsə, xalq bir o qədər də güclüdür. Əgər elitanın qüdrəti xalqı himayə etmək üçün kifayətdirsə, bu xalq həqiqətən suverendir. Əgər elitanın qüdrəti xalqın himayəsi üçün lazım olandan daha çoxdursa, bu elita özgə xalqların da himayəçisinə çevrilə bilir, bəzən mədəniyyət sahəsində, bəzən iqtisadiyyat sahəsində, bəzən də elə siyasi sahədə. Səhv etmirəmsə, bir dəfə Siz özünüz də qeyd etdiniz ki, ölkələrin bəzisi kişi xarakterli, bəzisi isə qadın xarakterlidir. Yox, əgər elitanın qüdrəti xalqı himayə etmək üçün kifayət deyildirsə, bu xalqın suverenliyi həqiqi suverenlik deyildir, ölkə BMT-nin üzvü olsa da belə.

**Telman ƏLİYEV:** Adil müəllim, mümkündürsə, bəlkə «zadəgan»la «aristokrat»ın qarşılığını izah edəsiniz?

**Adil ƏSƏDOV:** «Zadəgan» sözü dilimizə çox yəqin ki, farslardan keçmişdir. Farsların özləri isə bu sözü ərəb dilindən götürdükləri "əsil" sözünə özlərinin "zadə" sonluğunu birləşdirərək yaratdıqları "əsilzadə" sözünün bir sinonimi olaraq işlədirlər. "Əsil" sözü ərəb dilində *əsilli, əsil-nəcibli, əsil-nəcabətli* mənasını verir. "Zadə" sözü isə fars dilindən tərcümədə *doğulmuş, törəmiş* mənasını verən "zad" sözünün bir qədər başqa cür yazılışı və deyilişi olmaqla yanaşı, həm də məlum olduğu kimi soyadlarının axırına gətirilən bir sonluq kimi də işlədilir. Bu sonluğu farslar da

işlədirlər, biz də işlədirik. Beləliklə, eyni semantik yük daşıyan «zadəgan» və "əsilzadə" sözləri fars və ərəb dillərindən tərcümədə *əsil-nəcabətli insanların övladı* mənasını verir. Yunan mənşəli «aristokrat» sözü isə etimologiya baxımından bu mənanı vermir. Bu mənanı, yəni *əsil-nəcabətli insanların övladı* mənasını yunan dilində daha çox *evpatrid* sözü verir. «Aristokrat» sözünün etimologiyası isə «aristokratiya» sözünün etimologiyasından irəli gəlir. «Aristokratiya» yunan dilindən tərcümədə hərfi olaraq «yaxşıların hakimiyyəti» deməkdir. «Aristokrat» sözü bu mənada «hakimiyyətin ləyaqətli sahibi» mənasını verir. «Aristokrat» sözünün bu anlamından irəli gələn belə bir paradoks da diqqəti cəlb edir: mən zadəganı, sözün geniş mənasında həm də «aristokrat»ı öncə də vurğuladığım kimi, hakimiyyət sahibi statusunda deyil, himayə sahibi statusunda səciyyələndirirəm. «Aristokrat» sözündə isə bir hakimiyyət mənası da daşınır. Lakin aristokratik hakimiyyət hakimiyyətin digər formalarından prinsipial bir əlamətlə fərqlənir. Hakimiyyətin digər formalarının əksəriyyətində bir-birini şərtləndirən iki tərəf vardır: hakimiyyətdə olan tərəf və hakimiyyət altında olan tərəf. Əgər bir adam başqasının iradəsini həyata keçirirsə, bunlardan birincisi hakimiyyət altında olan tərəf, yəni ağa, ikincisi isə hakimiyyətdə olan tərəf, yəni kölədir. Çünki əgər bir adam başqa birisinin iradəsinin icraçısıdırsa, köledir. Buna görə də hakimiyyətin digər formaları əksər hallarda köləliyin əks tərəfidir. Aristokratik hakimiyyət isə bir qədər başqa cürdür. Aristokrat özgəni özünün rasional iradəsinə tabe etdirmir. Özgəni özgənin özünün ürəyində daşınan yönümə tabe etdirir, ona onun öz həqiqi həyatını yaşatdırır. Bu səbəbdən də, aristokratik hakimiyyətdə köləlik yoxdur, himayə var.

**Telman ƏLİYEV:** Liberalizmimi nəzərdə tutursunuz?

**Adil ƏSƏDOV:** Liberalizm də bir qədər başqadır. Başqalığı isə ondan ibarətdir ki, liberalizm insana deyir: sən nə cür düzgün bilirsənsə, elə də yaşa. Ancaq insanların əksəriyyəti nəyin düzgün olduğunu, nəyin isə düzgün olmadığını bilmirlər. Qəlblərinin dərinliklərində olan hissləri, öz həqiqi həyati təyinatlarını aydınlaşdıra bilmirlər. Ona görə də insanların ürəyini onların özündən yaxşı oxuyub, onlara göstərmək lazımdır. Ən ideal hakimiyyət – aristo-

kratik hakimiyyətdir. Aristokratik hakimiyyət elə bir cəmiyyətə nail olur ki, bu cəmiyyətin içərisində olan hər bir kəs öz işi ilə məşğuldur. Alim olmaq üçün doğulan kəs alimdir, mühəndis olmaq üçün doğulan kəs mühəndisdir, hökmdar olmaq üçün doğulan kəs isə hökmdardır. Cəmiyyətdə hər bir kəs içərisində yaşatdığı idealı gerçəkləşdirirsə, bu cəmiyyəti idarə edən hakimiyyət aristokratik hakimiyyətdir. Aristokratik hakimiyyəti mən ən təmiz və bəlkə də, müəyyən mənada, ən gözəl hakimiyyət hesab edirəm.

**Müşfiq ŞÜKÜROV:** Adil müəllim, aristokratik hakimiyyətin gerçəkləşdirəcəyi cəmiyyətin gözəlliyindən bəhs edərkən, hərdən bilmək olmur, siz utopik fəlsəfə mövqeyindəsiniz, yoxsa reallığı da nəzərə alırsınız? Real praktika bu cür idealistik gerçəkləşməyə icazə verəcəkmi? Açığı mən bəşərin ictimai səviyyəsindən təzə qabiliyyət və mərifət gözləmirəm. Minilliklərin tarixi təcrübəsi Sizə təzyiq etmirmi?

**Firdovsiyyə ƏHMƏDOVA:** Adil müəllim, Sizin aristokratik siyasi ideya ilə yoğurulmuş bu əsərinizin, *Siyasətin fəlsəfəsi*nin birinci nəşrindən necə il keçdi. Bu müddət ərzində ideyalarınızın cəmiyyətə bir təsiri oldumu?

**Tofiq KÖÇƏRLİ**: O əsəri mən oxumuşam. Düşünürəm ki, *Siyasətin fəlsəfəsi* həqiqətən də qiymətli əsərdir.

**Adil ƏSƏDOV:** Tofiq müəllim, Sizin verdiyiniz qiymət mənim üçün çox dəyərlidir, təşəkkür edirəm.

**Ağamusa AXUNDOV:** *Siyasətin fəlsəfəsi*ni mən də oxudum. Çox yüksək səviyyədə yazılmış bir əsərdir.

**Adil ƏSƏDOV:** Mənim kitabım hörmətli ağsaqqal alimlərimizin diqqətini artıq cəlb etdiyi üçün özümü xoşbəxt hiss edirəm. Bununla belə, mən eyni zamanda Firdovsiyyə xanımın da sualını cavablamaq istərdim. Firdovsiyyə xanım! İdeya ilə onun tarixi gerçəkliyi, tətbiqi arasında müəyyən bir fasilə həmişə olub. Amma ən azı bir sevindirici məqam hər halda var. *Siyasətin fəlsəfəsi*nin 2001-ci ildə çapdan çıxan birinci nəşri siyasətin aristokratik ideya nöqteyi-nəzərindən fəlsəfi mənalandırılmasının müstəqil Azərbaycan Respublikasında ilk nümunəsi idi. İndi isə elita nəzəriyyəsi Azərbaycanda aparılan siyasi-fəlsəfi araşdırmalarda görkəmli yer tut-

maqdadır. Yəqin ki razlaşardınız ki, elita nəzəriyyəsinin özü də əslində siyasətin aristokratik ideya nöqteyi-nəzərindən mənalandırılması ilə sıx bağlıdır. Azərbaycanın filosofları içərisində ən yüksək siyasi statusa malik olan akademik Ramiz Mehdiyevin 2009-cu ildə çap olunan "Zaman haqqında düşünərkən və elitanı transformasiya edərkən" adlı böyük məqaləsini xatırlayın. Aristokratik ideyanın Azərbaycanın siyasi gerçəkliyinə tətbiqi ilə bağlı mənim hər hansı bir təklifimin olub-olmadığını soruşmaq istəyirsinizsə, onda mən konkret bir təklif olaraq aristokratizmin siyasi dayağı olan ***Senat*** institutunun yaradılması ideyasını irəli sürərdim. Belə bir siyasi institutun yaradılması cəmiyyətdə daşınan aristokratik resursların daha artıq dərəcədə təyinatı üzrə istifadə olunmasına və bununla əlaqədar eyni zamanda həm də xalqın intellektual resurslarının da səfərbər edilməsinə yardım etmiş olardı. Mən Senat institutunu *Parlamentin yuxarı palatası* olaraq üzvləri sahələr üzrə - indiki Milli Məclisin Daimi Komissiyalarının əhatə etdiyi sahələrə analoji olan sahələr üzrə - hər bir sahədən həmin sahə üzrə alimlik dərəcəsinə malik olan və həmin sahədə çalışan ali təhsilli mütəxəssislər tərəfindən seçilən **senatorlar**dan ibarət yaradılması, *Parlamentin aşığı palatası* kimi səciyyələndirilə bilən ***nümayəndələr palatası***nı isə üzvləri ərazi üzrə, hər bir inzibati bölgədən həmin bölgədə yaşayan və həmin bölgənin əhalisi tərəfindən seçilən bir nəfər olmaqla **deputatlar**dan ibarət yaradılmasını təklif edərdim. Dövlətin qanunları dövlətin əslində alimləri tərəfindən yaradılmalı olduğundan, alimlərdən ibarət Senat qanun yaradıcılığı üçün ən ideal məkan olmuş olardı.

**Habil QURBANOV:** Senat ideyası Azərbaycanda dəfələrlə irəli sürülüb, amma gerçəkləşdirilməyib.

**Adil ƏSƏDOV**: Senat ideyası Azərbaycanda irəli sürülüb, amma Senatın sahələr üzrə seçkilər əsasında və alimlərdən ibarət təsis olunması ideyası heç zaman irəli sürülməyib, indi bunu mən edirəm. O ki, qaldı ideyanın gerçəkləşdirilməsi məsələsinə, alimin işi ideyanı irəli sürməkdir, gerçəkləşdirmək deyildir. Mən Azərbaycanın bir alimi olaraq yalnız öz işimi görürəm.

**Emin ŞƏKİNSKİ**: Senat institutunun təsisi ideyasını nə üçün hüquqşünaslar deyil, filosoflar irəli sürür?

**Adil ƏSƏDOV**: Unutmaq olmaz ki, hüquqi təsisatlar barədə bir çox ideyaları məhz filosoflar irəli sürmüşlər. Hüquqi təsisatlar barədə qədim yunan filosofu Platonun "Dövlət" və "Qanunlar" əsərlərində, yunan filosofu Aristotelin "Siyasət" əsərində, fransız filosofu Monteskyönün "Qanunların ruhu haqqında" əsərində irəli sürülən ideyalar düşünürəm ki, sualınıza tutarlı cavablardır.

**Mirağa CƏFƏRQULİYEV:** Adil müəllimin ikipalatalı sistem barədə ideyası yaxşı ideyadır. Amma bu ideyanı gürçəkləşdirmək son dərəcə çətindir. Bunlar 100 il qabağa hesablanmış təkliflərdir.

**Tahirə ALLAHUAROVA**: Adil müəllim, Senat institutu ilə bağlı Sizin irəli sürdüyünüz ideya bir qədər öncə adlarını sadaladığınız filosofların irəli sürdükləri ideyalardan köklü surətdə fərqlidir. Senat institutunun məhz Sizin irəli sürdüyünüz qaydada təsis olunması hansısa ölkədə olubmu?

**Adil ƏSƏDOV**: Senat institutunun məhz mənim təklif etdiyim qaydada təsis olunması hələ ki heç bir ölkədə olmayıb. Amma düşünürəm ki, biz öz dövlətmizi inkişaf etdirdiyimiz zaman digər ölkələrin təcrübəsindən daha çox, öz zəkamıza güvənməliyik. O ki, qaldı mənim ideyamın adları sadalanan digər filosofların ideyalarından fərqli olmasına, qeyd edim ki, elə onların da hər birinin ideyaları da digərlərinin ideyalarından fərqlidir.

**Əlikram TAĞIYEV**: Mən də düzü düşünürəm ki, Adil müəllimin ideyası maraqlı ideyadır.

**Lətif HÜSEYNOV**: Senat ideyasının müzakirəsi nəzəri olaraq mümkündür.

**Mirağa CƏFƏRQULİYEV:** Senat institutunun Adil müəllimin təklif etdiyi qaydada təsis olunması üçün Azərbaycan bir sıra praktik əsaslar da mövcuddur. Məsələn hüquqşünasların hal-hazırda mövcud olan ictimai birlikləri hüquqşünaslar gildiyasının yaradılması üçün əsas ola bilər.

**Əbülhəsən ABBASOV**: Mənə elə gəlir ki, istər Senat olsun, istər nümayəndələr palatası, istər də Milli Məclis, qanunverici hakimiyyətə seçkilərdə ilk növbədə mənəvi keyfiyyətlərə diqqət yetirilməlidir.

**Adil ƏSƏDOV**: Əbülhəsən müəllim, mənim həm indi müzakirəyə çıxardığım *Siyasətin fəlsəfəsi*, həm də bütövlükdə fəlsəfi sistemim spiritualist aristokratizm fəlsəfəsidir. Spiritualist aristokratizm bir qədər sadə dillə ifadə edilərsə, elə mənəvi aristokratizmdir. Azərbaycan dilindəki *"mənəviyyat"* sözü məsələn ingilis dilindəki *"spirituality"* sözünün verdiyi mənaya son dərəcə yaxın mənanı verir. Yeri gəlmişkən onu da qeyd edim ki, mən ona görə "mənəvi aristokratizm" terminindən deyil, "spiritualist aristokratizm" terminindən istifadəyə üsrünlük verirəm ki, birinci termin ikincidən fərqli olaraq ümumfəlsəfi kontekstə deyil, başlıca olaraq əxlaqi kontekstə malikdir. Qayıdaq "mənəvi" termininin üzərinə. *"Mənəviyyat"* termini elə ingilis dilindəki *"spirituality"*, və ya rus dilindəki "*духовность*" terminləri kimi insanın özünü və başqalarını sözün tam mənasında insan olaraq, "ümumiyyətlə insan" olaraq, insani ruhun təcəssümü olaraq, insani mahiyyətin canlı mücəssiməsi olaraq başa düşməsi ilə bağlıdır və başqasına verilən əzabları "ümumiyyətlə insan"a verilən əzab kimi qavrama, başqasının çəkdiyi iztirabların ağrısını öz üzərində hiss etmək məqamlarını ifadə edir. Hər hansı konkret insanı, hər hansı halı və ya hər hansı hadisəni mənəvi nöqteyi-nəzərdən qiymətləndirmək onu "ümumiyyətlə insan"ın, daha doğrusu, "insan idealının canlı təcəssümü olan kəs"in nöqteyi-nəzərindən qiymətləndirmək deməkdir. Bu kəs o insandır ki, özünü sadəcə olaraq başqasının yerinə qoymur, başqasının çəkdiyi əzabları insana verilən əzab kimi öz üzərində hiss edir. Başqasının çəkdiyi əzabları ümumiyyətlə insana verilən əzab kimi qəbul etmək və insanı bu əzablardan xilas etmək yönümündə fəaliyyət göstərmək elə aristokratizmdir, mənəvi aristokratizm, və ya spiritualist aristokratizm.

**Tahirə ALLAHYAROVA:** Adil müəllim, aristokratik ideal tipdə Siz nə tama, nə də hissəyə üstünlük verməyərək dəqiq və sərrast model yaratmısınız. Bu ideal modeldə tam-hissə həmrəyliyi və vəhdəti özünün ən düzgün ifadəsini tapmışdır. Müxtəlif siyasi-fəlsəfi təlimlər qiymətləndirildiyi zaman isə, vəziyyət dəyişir. Xüsusən Platon və Aristotelin müqayisəli təhlili ilə bağlı. Platonun dövlət və cəmiyyəti statik, dəyişməz cəmiyyət idi. Aristotel isə siyasəti və dövləti dinamik anlamda şərh edirdi. Platon olanın, Aristotel

isə yaranışın, prosesin fəlsəfəsini formalaşdırdı. *Etika*nı və *Politika*nı praktiki elm hesab edən Aristotel «praktika» sözünü «davranış», «ünsiyyət» mənalarında işlədirdi. «Ən ali ünsiyyət siyasi ünsiyyətdir və bu ünsiyyət dövlət adlanır» - Aristotel belə deyirdi. Aristotel dövlətin statik, mütləq qərarlaşmış vəziyyətini deyil, orta həddin, nizam və vəhdətin fəlsəfəsini yaratmışdır. Siyasətdə orta həddin və ünsiyyətin vacibliyi bu gün Qərbdə adı Frankfurt məktəbi ilə, başlıca olaraq Habermasın adı ilə assosiasiya olunan *kommunikativ rasionallıq* kimi çox geniş siyasi fəlsəfənin əsasını təşkil edir. Ona görə də, düşünürəm ki, Sizin aristokratik modelinizə Platon deyil, Aristotel və onun dövlət nəzəriyyəsi daha çox uyğun gəlir.

**Ağayar ŞÜKÜROV:** Adil müəllim, mən də öz növbəmdə deyim ki, Sizin verdiyiniz Sokrat-Platon qarşıdurması mənə bir qədər ziddiyyətli görünür. Platonun zadəgan kimi, Sokratın isə təbəə kimi verilməsi məncə qanunauyğun deyildir. Sokrat Platonun müəllimi deyildimi? Biz Sokrat haqqında elə Platonun əsərlərindən öyrənmirikmi?

**Adil ƏSƏDOV:** Platonu Sokrata yaxınlaşdıran ən mühüm amil demokratizmə qarşı onların hər ikisi üçün ümumi olan barışmazlıq idi. Lakin bu heç də onların hər ikisinin ümumi bir dünyagörüşə malik olmasından xəbər vermir. Platonun dünyagörüşü aristokratik, Sokratın dünyagörüşü isə icmaçı xarakterli idi. Sokrat dünyanı ədalətliləşdirməyi transsendental Tanrıdan umurdu. Platon isə dünyanı ədalətliləşdirməyi *özünün* vəzifəsi bilirdi.

**Firdovsiyyə ƏHMƏDOVA:** Siz qeyd edirsiniz ki, Sokrat fəlsəfəsi qədim mifik təfəkkürdən orta əsr dini təfəkkürünə keçidin mühüm mərhələsini təşkil edirdi. Bəs, dövrlər ardıcıllığının əvvəlki - qədim, yeni, orta - mənalandırılmasını necə, unutdunuzmu? Burada bir ziddiyyət yoxdurmu?

**Adil ƏSƏDOV:** Mənə elə gəlir ki, yoxdur. Çünki Sokratın yaşadığı əsr yunan tarixinin klassik dövrü idi. Həmin bu klassik dövrün yunan tarixinin yeni dövrü olduğunu öncə qeyd etmişdim. Sokrat öz dövrünün praqmatik ruhuna müxalif idi və sonrakı dövrün, *orta əsrlər*in dünyagörüşünü yaradırdı. İndi isə Hörmətli Tahirə xanımın qoyduğu suallara qayıdaq. Hörmətli Tahirə xanım! De-

yirsiniz ki, Platon dövləti statik anlamda, Aristotel isə dinamik anlamda şərh edirdi. Mənsə düşünürəm ki, Platon dövlət idealını təqdim etdiyi halda, Aristotel real olaraq mövcud olan dövləti şərh edirdi. Platon olanın təsvirini deyil, olmalı olanın layihəsini verdiyi halda, Aristotel mövcud siyasi reallığın izahını verirdi. Mövcud siyasi reallıq isə hüququn siyasət və eləcə də əxlaq üzərində getdikcə artmaqda olan üstünlüyü ilə səciyyəvi idi. Aristotelin nəinki *Politika*sı, həmçinin *Metafizika*sı və *Orqanon*u da əslində elə bu siyasi reallıqdan qaynaqlanmışdı. Aristotelin ən sadə sillogizmi ilə məsələn məhkəmə hökmü arasında paralel aparın. Belə halda sillogizmin böyük müqəddiməsi olaraq qadağan olunmuş əməlin təsviri, kiçik müqəddiməsi olaraq qanunun təqdimatı, nəticəsi olaraq isə konkret cəzanın təsviri çıxış etmiş olur.

**Füzuli PƏNAHOV**: Aristotelin sillogizmi ilə məhkəmə hökmü arasında Adil müəllim tərəfindən aparılan bu paraleli mən də bir hüquqşünas olaraq və bir hakim olaraq təsdiq edərdim.

**Adil ƏSƏDOV**: Qanun hüquqi nöqteyi-nəzərdən ümumiyyətlə cinayət və cəza, xidmət və mükafat arasındakı sanksiyalaşdırılmış birmənalı münasibətləri ifadə edir.

**Hidayət BABAYEV**: Buraya bir əlavəm var. Hüququn vəzifəsi yalnız cinayət baş verdikdən sonra onu törədəni cəzalandırmaq deyil, həm də cinayət baş verməzdən öncə onun qarşısını almaqdır, profilaktikadır.

**Adil ƏSƏDOV**: Razıyam. Hüququn əlavə olaraq profilaktika vəzifəsi də var və bu yaxşı haldır. Amma yəqin ki, razılaşardınız ki, bu, hüququn əlavə funksiyasıdır. Cəza və mükafat yalnız o zaman qanun və hüquq çərçəvəsində olur ki, bir tərəfdən cinayət və cəza, digər tərəfdən isə xidmət və mükafat arasında sanksiyalaşdırılmış birmənalı münasibətlərdən çıxış etmiş olur. O ki, qaldı Aristotelin Tahirə xanım tərəfindən xatırladılan orta hədd konsepsiyasına, bu konsepsiyanın özü ideala qarşı inamsızlığın bir ifadə formasıdır. Aristotelin siyasi nəzəriyyəsi Platon nəzəriyyəsindən fərqli olaraq idealdan deyil, reallıqdan çıxış edirdi və elə buna görə də heç bir aristokratik modelə uyğun deyildi.

**Tahirə ALLAHYAROVA:** Hər halda, mənə elə gəlir ki, Sizin aristokratizmə verdiyiniz təriflə Platonu aristokrat adlandırmağınız ziddiyyətlidir. Platon dövründə və sonralar da yunan dilində *şəxsiyyət* sözü olmamışdır, ən azı antik fəlsəfənin mükəmməl bilicisi A.Losevin nöqteyi-nəzərindən. Buna görə onu heç nəzərə almağa da ehtiyac yox idi. Popper elə bu səbəbdən də Platonu *totalitarizmin mənəvi atası* adlandırır. Şəxsən mən Platonun *ideyalar aləmi*ni tam qəbul edirəm, onun dövlət konsepsiyası isə natamamdır və Sizin aristokratizmə verdiyiniz mükəmməl tərifə yerləşmir.

**Adil ƏSƏDOV:** Losev də, Popper də əlbəttə ki, böyük filosoflardırlar. Lakin onların söylədiklərini də həqiqətin sonuncu instansiyası kimi qəbul etmək olmaz. Şəxsiyyətin olmadığı şəraitdə liberalizm yəqin ki mümkündür, lakin totalitarizm mümkün deyildir. Platon dövründə və sonralar, elə əvvəllər də yunan dilində *şəxsiyyət* sözü əvəzinə *tiran* sözü vardı. Yunanlar əvvəllər *şəxsiyyət* olan insana çox böyük hörmət və ehtiramla yanaşırdılar və buna görə də *tiran* sözü əvvəllər müsbət məna kəsb edir və müsbət emosiyalar yaradırdı, Platon dövründə və sonralar isə *şəxsiyyət* olan insana qorxu və nifrətlə yanaşırdılar və buna görə də *tiran* sözü indi daha müsbət məna kəsb etmir və müsbət emosiyalar yaratmırdı. Platonda Sizin bəyəndiyiniz *ideyalar aləmi* də elə şəxsiyyətlilik ifadəsidir. Şəxsiyyət olmaq ideyaya malik olmaq və gerçəkliyi ideyaya uyğunlaşdırmaq deməkdir. Platon Sokratdan fərqli olaraq öz içərisində duyduğu ideyaları gerçəkləşdirmək və bununla da dünyanı və cəmiyyəti gözəlləşdirmək əzmində idi.

**Nurqələm MİKAYILOV**: Siz cəmiyyətin gözəlliyindən söhbət açırsınız. Gözəl cəmiyyət isə keçdi, qurtardı.

**Yusif RÜSTƏMOV**: Adil müəllim, Siz «*cəmiyyətin gözəlliyi – mahiyyətə insani qayıdışdır*», deyirsiniz. Hansı mahiyyətə?! Siz mahiyyəti özünəməxsus mühakimələrlə açmağa çalışırsınız. Maraqlı, həm də mübahisə doğuran fikirdir.

**Adil ƏSƏDOV:** Gözəl cəmiyyət – şəxsiyyət içərisində daşınan mahiyyətə uyğun şəkildə qurulmuş cəmiyyətdir.

**Zavər QAFAROV**: Mən əksini düşünürəm: şəxsiyyətin özünü obyektiv şərait formalaşdırır. Böyük Fransa İnqilabı olmasaydı Napoleon bir tarixi şəxsiyyətə çevrilməzdi, adi bir vətəndaş olardı. Onu

tarixi şərait yetişdirdi. Yeni bir dinin yaranmasına ehtiyac olmasaydı onda Məhəmməd Peyğəmbərin özü də bir şəxsiyyət olaraq yetişməzdi.

**Adil ƏSƏDOV:** Əgər Napoleon olmasaydı, bəlkə də heç müasir Fransa da olmayacaqdı. Əgər Məhəmməd Peyğəmbər olmasaydı, onda belə bir möhtəşəmlikdə müsəlman dünyası da çox yəqin ki, heç olmayacaqdı. Düşünürəm ki, şəxsiyyəti obyektiv dünya yaratmır, əksinə, şəxsiyyət obyektiv dünyanı yaradır.

**Aytən QULİYEVA**: Adil müəllim, mən Sizi təkzib etmək üçün Sizin öz həyatınızdan bir nümunə çəkmək istəyirəm. Yadınızdadırmı, Siz *Gözəlliyin fəlsəfəsi*ndən öncə *Varlığın fəlsəfəsi*ni yazmağı planlaşdırırdınız. Lakin Sizin təzə aldığınız ev, oradan Bakının gözəl görünüşü, öz sözlərinizlə deyilərsə, *Bakı gecələrinin romantikası* Sizi o qədər valeh etdi ki, Siz *Varlığın fəlsəfəsi*ni deyil, *Gözəlliyin fəlsəfəsi*ni yaratdınız. Məgər bütün bunlara Sizi bir şəxsiyyət olaraq şərait vadar etmədimi?

**Adil ƏSƏDOV:** *Gözəlliyin fəlsəfəsi*ni yazacağımı mən elə əvvəlcədən də planlaşdırmışdım. Şərait mənim işimi planlaşdırmadı, planlarıma yalnız bir qədər düzəliş verdi.

**Məhərrəm ƏHMƏDOV:** Bakının o uca nöqtəsində o qədər adam yaşayır ki… Heç birisi də *Gözəllik fəlsəfəsi*ni yaratmır.

**Ləman SƏMƏDOVA:** Amma *Gözəlliyin fəlsəfəsi*ni də görünür elə Adil Əsədov yaratmalı idi.

**Zavər QAFAROV**: Adil müəllim, şəxsiyyətin formalaşmasında obyektiv şəraitin rolunu Siz ümumiyyətlə inkarmı edirsiniz?

**Adil ƏSƏDOV:** Şəxsiyyətin formalaşmasında obyektiv şəraitin rolunun müəyyənedici olması ideyası ilə yalnız o mənada razılaşmaq olar ki, şəxsiyyətə ehtiyacın bütün dolğunluğu ilə hiss olunduğu dövr - obyektiv dünyanın aşkar bir şəkildə tənəzzül etdiyi dövrdür. Bir qədər öncə Sizin xatırlatdığınız dövrlər - Napoleona qədərki Fransa, Məhəmməd Peyğəmbərə qədərki Ərəbistan belə bir tənəzzül vəziyyətində idi. Şəxsiyyət tənəzzül dövrünü başa çatdırır, tərəqqi dövrünə başlanğıc verir.

**Tahirə ALLAHYAROVA**: Adil müəllim, Siz qeyd edirsiniz ki, şəxsiyyətlər cəmiyyəti gözəlləşdirir, amma, doğrusu, mənə isə bəzən elə

gəlir ki, şəxsiyyətlərin çoxluğu cəmiyyəti gözəlləşdirmir, əksinə, bəlkə də eybəcərləşdirir.

**Adil ƏSƏDOV:** Tahirə xanım! Mən şəxsiyyət anlayışına personalizm mövqeyindən yanaşıram. Personalizm, müəyyən mənada, aristokratik konsepsiyanın cəmiyyət həyatına tətbiqi ilə bağlı bir cərəyandır. Elə bu səbəbdən də istərdim ki, dünya elmində bir əsrdən artıq bir tarixi olsa da, Azərbaycan elmində təzəcə cücərməkdə olan bu cərəyana qısaca bir xarakteristika verim. Personalizm – şəxsiyyəti substansial bir başlanğıc hesab edən və dünyanı məhz bu başlanğıcdan çıxış edərək izah edən bir nəzəriyyədir. Bizdə, Azərbaycanda isə şəxsiyyətin anlaşılması, hələ ki, ənənəvi marksist sxemə istinad edir. Bu sxem özlüyündə obyektivist xarakterlidir. Əslində isə dünyada və cəmiyyətdə şəxsiyyətin həqiqi rolu, düşünürəm ki, obyektivizmin güman etdiyindən qat-qat yüksəkdir. Personalizm şəxsiyyətin həmin bu yüksəkliyindən çıxış edir. Şəxsiyyət fərddən hər şeydən öncə onunla fərqlənir ki, fərd özünü dünyanın bir hissəsi, cəmiyyətin bir üzvü kimi tanıyır, şəxsiyyət isə özünü çoxsaylı adamlardan biri kimi deyil, təkrarolunmaz, unikal bir mahiyyət olaraq qavrayır. Fərd ona verilmiş dünyada yaşayır, şəxsiyyət isə özü öz dünyasını qurur. Fərd zəmanəyə uyğunlaşır, zamanın nəbzini tutur, şəxsiyyət isə zamana məna verir, zamanın necə olacağını müəyyənləşdirir. Fərd – sosial məkanın sakini, şəxsiyyət isə sosial məkanın qurucusudur. Fərd dünyada insanlar üçün artıq yaradılmış yerlərdən birini tutmaq istəyir, şəxsiyyət isə bu yerləri yaradır və bölüşdürür. Bütün bunlar – personalist nəzəriyyənin ümumbəşəri prinsipləridir. Belə bir nəzəriyyənin Azərbaycanda da inkişaf etdirilməsi üçün isə artıq çoxdan həm tarixi bir zəmin, həm də tarixi bir ehtiyac yaranmışdır. Bu ehtiyacın varlığını ilk dəfə akademik Fuad Qasımzadə dilə gətirdi, təxminən on beş il bundan qabaq. Bu o vaxt idi ki, dağılmaqda olan etnik varlığımız yenidən qurulurdu, artıq aşkar olaraq şəxsiyyət zəmini üzərində, Heydər Əliyev şəxsiyyəti zəminində. Bu elə bir vaxt idi ki, «Azərbaycan xalqı» və «azərbaycanlı» anlayışları artıq gerçəklikdən uzaqlaşdırılaraq tarixin arxivi astanasında idilər. Heydər Əliyev Azərbaycan etnogenezinə Sovet dövlətinin verdiyi

töhfəni qoruyub saxladı. O, Azərbaycan xalqının heç bir xalqa yamaq olmadığını, özlüyündə bir xalq olduğunu, Azərbaycan dilinin heç bir dilə şivə olmadığını, müstəqil bir dil olduğunu birmənalı olaraq vurğuladı və gerçəklikdə də təsdiq etdi. Özünün onillik hakimiyyəti dövründə isə Azərbaycan xalqını Azərbaycan milləti etdi. Millət və xalq bir-birindən nə ilə və nə qədər fərqlənir? Burada marksist izahın bir daha təqdimatına elə bir ehtiyac görmürəm. Yalnız onu xatırlatmaqla kifayətlənirəm ki, marksist izah milləti xalqdan ancaq iqtisadi əlamət əsasında fərqləndirir. Müasir siyasi təfəkkürdə hakim olan bir anlam tərzi də vardır. Bu anlam çərçivəsində millət xalqdan və digər etnik birliklərdən iqtisadi və ya marksizmdə sadalanan digər əlamətlər əsasında deyil, siyasi əlamət əsasında fərqləndirilir. Bu halda *millət* və *dövlət* anlayışları əslində eyniləşdirilir. Hətta, dövlət mənasını ifadə etmək üçün *millət* sözü *dövlət* sözündən daha münasib hesab edilir. Fikir verin! Məsələn, amerikanlar öz dövlətlərinə *state* demirlər, *nation* deyirlər. Burada *nation* həm *millət,* həm də *dövlət* mənalarını verir. Mən hadisələrə amerikan baxışını, ümumiyyətlə Qərb anlamını, müasir anlamı mütləqləşdirməkdən nə qədər uzaq olsam da, millətin məhz müasir anlamda, müasir siyasi təfəkkür kontekstində anlaşılmasına üstünlük verirəm, lakin bir əlavə ilə: əgər dövlət öz xalqının iradəsinin ifadəçisidirsə, bu xalq – millətdir. Millət öz iradəsinin bir aləti olaraq dövlətə malikdir. Yox, əgər, əksinə, xalq dövlətin iradəsinin ifadəçisidirsə, bu, sadəcə olaraq, xalqdır. Heydər Əliyevin hakimiyyəti ərəfəsində Azərbaycanda elə bir dövlət yox idi ki, xalqı öz iradəsinin icraçısı edə bilsin. Bu, artıq elə bir dövlət də deyildi ki, xalq onda öz iradəsinin ifadəçisini görsün. SSRİ-nin dağılma ərəfəsində və SSRİ dağıldıqdan sonra da xalq, bir qayda olaraq, dövlətin əleyhinə çıxış edirdi, Heydər Əliyev hakimiyyətinə kimi. Çünki xalq dövləti özü üzərində yad bir qüvvə hesab edirdi. Başqa cür ola da bilməzdi. Çünki, dövlət hələ ki, xalqınkı deyildi. Heydər Əliyev hakimiyyətə gəldikdən sonra isə xalq bir qayda olaraq dövlətin lehinə və müdafiəsinə çıxış etməyə başladı. Çünki, dövləti getdikcə daha çox özününkü hesab edirdi. Heydər Əliyev dövləti xalqınkı etdi və bununla da Azərbaycan millətini,

əslində, O yaratdı. Xaos, anarxiya, azğınlıq, ədalətsizlik, aclıq içərisində inləyən və boğulan bir kütlədən nizamı olan, hakimiyyəti olan, iradəsi olan, dövləti olan, firavanlıq yolunda ilk kövrək addımlarını atmağa başlayan bir milləti törətdi. Elə bu səbəbdən də, düşünürəm ki, Heydər Əliyevi Azərbaycan millətinin sadəcə olaraq bir oğlu kimi deyil, Azərbaycan millətinin əslində atası kimi tanımaq daha doğru və daha düzgün olardı. Elə buna görədir ki, Heydər Əliyevin məzarı qarşısında baş əyən xalq ata itkisinin doğurduğu hissə bənzər bir yaşantını yaşadı. Heydər Əliyevlə vidalaşma mərasimi Azərbaycan millətinin etnogenezində son nöqtəni qoydu.

**Müşfiq ŞÜKÜROV:** Adil müəllim, mən Sizin zəkanıza əvvəlcədən bələd olsam da, hər bir çıxışınıza təzədən heyran oluram. Sizin bugünkü çıxışınız da həm ilhamlı, şövqlüdür, həm də, həqiqətən də, məntiqi, ardıcıl. Lakin Siz danışdıqca mənim içərimdə bir qorxu da baş qaldırır. Əgər millət bir tarixi şəxsiyyətin yaradıcılıq məhsuludursa, onda, bir zaman keçdikdən sonra, öz milli varlığını itirə də bilər.

**Adil ƏSƏDOV:** Təəssüf ki, belədir. Millət şəxsiyyətdən axıb gələn qüdrətlə qüdrətlənir, bu axının zəiflədiyi hallarda isə millət öz qüdrətini və əlbəttə ki, hətta müstəqilliyini, deməli, həm də, öz varlığını belə itirə bilir.

**Əlikram TAĞIYEV**: Məncə isə, millət müstəqil olmaya da bilər. Sizdə söhbət, əgər Əfrand müəllimin, Əfrand Daşdəmirovun terminindən istifadə edilsə, siyasi millətdən gedir.

**Adil ƏSƏDOV:** Əfrand müəllim, əlbəttə ki, görkəmli alimdir. Mən onun irəli sürdüyü konsepsiyaya da, təbii ki, hörmətlə yanaşıram. Amma… Siz ali məktəbi ingilis dili ixtisası üzrə bitirmisiniz. *United Nations* ifadəsinə diqqət yetirin. Dövləti olmayan xalq millət deyil. Digər bir nümunə: milliləşdirmə sözünə fikir verin: Milliləşdirmə sözü öz mənası və mahiyyəti etibarı ilə *dövlətinkiləşdirmə* demək deyilmi?

**Nizami MƏMMƏDOV**: Bəs millətin təşəkkülündə digər faktorların, deyək ki, təbiətin, təbii mühitin, təbii amillərin, ümumiyyətlə rolu yoxdumu?

**Adil ƏSƏDOV:** Millətin təşəkkülündə təbii amillərin və təbii şəraitin rolu, əlbəttə ki, vardır və çox böyükdür. Lakin, yeganə deyildir. Təbii mühitin xüsusiyyətləri və həmçinin də, əsasında millətin formalaşacağı kütlənin özünəməxsusluğu, tarixi, qan yaddaşı milli təşəkkül prosesində müəyyənedici olmasa da, müəyyən və mühüm rol oynayır, lakin bu prosesin passiv tərəfi olaraq. Təbii mühit və insani kütlə milli etnogenezin əslində feminin başlanğıcıdır. Millətin formalaşdırılmasının maskulin başlanğıcı isə şəxsiyyətdir. Mən bu şəxsiyyətin, Heydər Əliyevin öz sözlərini xatırlatmaq istərdim: «Mən şəxsiyyətə pərəstişin əleyhinəyəm, ancaq heç bir cəmiyyət şəxsiyyətsiz yaşaya bilməz». Heydər Əliyevə məxsus olan bu sözlər həm də şəxsiyyətlilik şüurundan doğulan qürur hissini də ifadə edir.

**Nizami MƏMMƏDOV**: Adil müəllim, Siz Heydər Əliyevin timsalında özünü bir şəxsiyyət olaraq qavramadan doğulan qürur hissindən söhbət açdınız. Bəs şəxsiyyət kütlənin gözündə kimdir?

**Adil ƏSƏDOV:** Şəxsiyyət odur ki, kütlə ondan *hadisə* gözləyir. Mən öz fikrimin illüstrasiyası üçün, yeri gəlmişkən, yenə də Heydər Əliyevlə bağlı bir nümunə də göstərmək istərdim. Heydər Əliyevin Sovet Azərbaycanına rəhbər təyin olunduğu 1969-cu ildə mən hələ məktəbli idim, təbii ki, nə alim idim, nə də filosof. Lakin kütlənin əhvali-ruhiyyəsini çox gözəl hiss edirdim. Heydər Əliyev haqqında ən müxtəlif əfsanələr yaradılırdı və yayılırdı. Xalqda belə bir duyğu var idi ki, bundan sonra heç nə daha əvvəlki tək olmayacaq, hər şey başqa cür olacaq, dəyişiləcək. Bəs başqa cür, necə? Bunu xalqın özü bilmirdi, amma, xalq hiss edirdi ki, hər şey Onun dediyindən, Onun nəzərdə tutduğundan asılı olacaq. Bütün nəzərlər Ona çevrilmişdi. Əksəriyyət bundan sonra nəyi və necə etməli olduğunu onun dilindən eşitmək istəyirdi. Şəxsiyyət fenomeninin illüstrasiyası üçün bizə, Fəlsəfə İnstitutunun kollektivənə yaxın olan bir nümunə: mərhum akademik Firudin Köçərlinin direktorluqdan kənarlaşdırıldıqdan çox illər keçdikdən sonra belə İnstitutun dəhlizlərinin birində görünməsi və aramla, həqiqətən ağsaqqalcasına yerişi burada hər şeyi dəyişir. Söhbət edənlər söhbətlərini kəsir, dəhlizdə hərəkət edənlər kənara çəkilir, hamı özünü Firudin müəllimə salam vermək,

onunla bir hal-əhval tutmaq üçün hazırlayır. Daha bir nümunə, bir daha Heydər Əliyevlə bağlı: 1990-cı ilin 20 yanvarından sonra Heydər Əliyev Moskvada Azərbaycanın daimi nümayəndəliyində göründü. Bu səhnəni televiziya vasitəsilə bütün Azərbaycan xalqı dəfələrlə izləyib, matəm qarışıq qürur hissi ilə. Nümayəndəliyin qarşısında çox adam vardı. Amma, Heydər Əliyev burada görünən kimi oraya yığışan kütlə, elə sonradan bu səhnəni izləyən tamaşaçı da aşkar bir şəkildə, birmənalı olaraq hiss etdi ki, Bu Şəxs heç bir rəsmi hakimiyyətə malik olmasa da, buraya yığışan çoxsaylı adamlardan biri deyil. Nümayəndəlik qarşısındakı kütlə iki yerə parçalandı, yol Ona verildi. Hamı bütün qəlbi ilə qəbul etmişdi ki, belə bir tarixi anda Azərbaycan xalqının sözünü yalnız O deyə bilər. Bu da Heydər Əliyevin kütlə tərəfindən bir şəxsiyyət kimi qavranılması ilə bağlı daha bir tarixi epizod. Yeri gəlmişkən, 20 yanvar ona görə törədi ki, xalq Qorbaçovdan hadisə gözləmirdi, çünki onu artıq bir şəxsiyyət hesab etmirdi, qəti addım atacağını gözləmirdi, yəqin ki, elə buna görə də, qəti addımı xalqın özü atmaq istəyirdi, hadisəni özü törətmək istəyirdi. Heydər Əliyev isə şəxsiyyət idi, lider olmaq üçün, başçı olmaq üçün, rəhbər olmaq üçün, sözün yaxşı mənasında hökmdar olmaq üçün doğulanlardan idi.

**Vidadi ƏHMƏDOV**: Bu fikirlə mən də tamamilə razıyam. Heydər Əliyev, həqiqətən də, hökmdar olmaq üçün doğulanlardandır.

**Firuzə ƏLİYEVA**: Adil müəllim, Heydər Əliyev, əlbəttə ki, böyük şəxsiyyətdir. Amma, Siz onu Azərbaycan millətinin yaradıcısı kimi təqdim etdiniz. Azərbaycan milləti əsrlər boyu mövcud olmayıbmı? Qobustandan, Mannadan, Midiyadan üzü bəri olan mədəniyyət bizimki deyilmi?

**Adil ƏSƏDOV:** Təbii ki, bizimdir. Lakin millət əsrlər boyu davam edən, necə deyərlər, obyektiv bir prosesin nəticəsi olmaqdan daha çox, konkret bir şəxsiyyətdə daşınan hakimiyyət resurslarının, cəmiyyəti bir daha yenidən təşkilatlandırma resurslarının gerçəkləşdirilməsinin bir nəticəsidir, siyasi yaradıcılıq resurslarının geniş sosial məkanda gerçəkləşdirilməsi ilə ifadə olunan konkret bir tarixi hadisənin nəticəsidir.

**Fikrət ORUCOV**: Adil müəllim, mən belə bir məqamı dəqiqləşdirmək istərdim. Ümumiyyətlə, tarixi hadisə dedikdə nəyi nəzərdə tutursunuz. Hansı əməli tarixi hadisə adlandırmaq olar?

**Adil ƏSƏDOV:** O əməli ki, o, cəmiyyətin vəziyyətini dəyişir. Müsbət tarixi hadisə odur ki, cəmiyyəti əvvəlcə olduğundan daha yaxşı edir, onu ideala yaxınlaşdırır. Mənfi tarixi hadisə isə odur ki, cəmiyyəti əvvəlkindən daha ədalətsiz, daha sıxıntılı, daha acınacaqlı edir, onu idealdan daha da uzaqlaşdırır.

**Əlikram TAĞIYEV:** Sizin aristokratik idealınız əslində vətəndaş cəmiyyətinin başqa adı deyilmi?

**Adil ƏSƏDOV:** Qətiyyən. Vətəndaş cəmiyyəti hakimiyyətin nəzarətindən çıxan və hakimiyyətə öz diktəsini qəbul etdirən kütlədir. Aristokratik idealda isə ümumiyyətlə hakimiyyət yoxdur.

**Tahirə ALLAHYAROVA:** Adil müəllim, bununla belə mən Sizin aristokratizmə verdiyiniz təriflə zadəganın cəmiyyətin himayəçisi olması haqqında fikriniz arasında bir qədər ziddiyyət duyuram. Aristokratik siyasi təfəkkür sahibi Dünya nizamının bərqərar edilməsini öz üzərinə götürərkən, onu himayə edir, ona müdaxilə edir. Dünya sanki Dünya ruhundan kənarda qalır, passivdir. Sanki cəmiyyət passivdir, onu bildiyin kimi idarə etmək olar. Lakin, nizam missiyası səlahiyyətini daşıdığı üçün *siyasi nizam* daşıyıcısı mənim fikrimcə, himayəçi deyil, həmrəy və təəssübkeş olmalıdır. Siyasi təfəkkürdən fərqli olaraq Dünya, kosmos, cəmiyyət kor*təbii* proseslə inkişaf edir və bu fakta siyasi təfəkkür biganə qala bilməz. Şübhə yoxdur ki, əl beynin işini görə bilməz, ancaq əlin də öz yeri və əvəzedilməz icraçı funksiyası vardır. Və yalnız həmrəylik, qarşılıqlı fəaliyyət cəmiyyəti nizama gətirə bilər. Elə bu birxəttlilik, bir amilə üstünlük verilməsi məndə yaranan bir çox sualların səbəbidir.

**Adil ƏSƏDOV**: Burada heç bir ziddiyyət yoxdur. Dünya Ruhu Dünyadan kənar olan bir mahiyyət deyildir, əksinə Dünyanın immanent mahiyyətidir, Dünyanı onun mahiyyətinə qaytaran başlanğıcdır. Aristokratik siyasi təfəkkür sahibi isə Dünya Ruhunu öz daxilində duyan və mahiyyətindən qopub ayrılmış cəmiyyəti mahiyyətinə qaytarılmasında onunla həmrəy və Sizin dediyiniz kimi təəssübkeş olan bir başlanğıcdır. Aristokratik siyasi təfəkkür sahibi o

kəslər üzərində himayəçidir ki, onlar Dünya Ruhunu öz daxilində duymurlar və öz təbii təyinatlarını görmürlər və gerçəkləşdirmirlər. Zadəgan insanlara onların təbii təyinatlarını göstərməkdə və bu təyinatı gerçəkləşdirməkdə onlara yardımçı olmaqda Dünya Ruhu ilə həmrəydir.

**Ağayar ŞÜKÜROV:** Siz qeyd edirsiniz ki, konfusiçilik tarix meydanına zadəgan ruhunun ifadəçisi kimi çıxdı. Əslində isə Konfusi qətiyyən zadəgan mənşəli deyildi, rəiyyət mənşəli idi.

**Adil ƏSƏDOV:** Aristokratizm müstəsna olaraq irsən verilən bir keyfiyyət deyildir. Konfusinin özü haqqında dediyi və mənim xüsusi olaraq vurğuladığım sözlərə diqqət yetirmisinizmi? *Konfusinin sözləri* təxminən belə idi: *Mən yalnız 50 yaşında olanda Dünya Nizamını özümdə dərk etdim.* Dünyanı ilahi nizama uyğun şəkildə qurmaq missiyasını özününkü hiss edən insan zadəgandır.

**Tahirə ALLAHYAROVA:** Mən çox arzu edərdim ki, ümumiyyətlə siyasi fəlsəfədə aristokratizm termini əvəzinə *meritokratizm* işlədilsin. Meritokratiya sözü *xidmət* və *ləyaqət* mənalarını verən *merit* sözündən yaranmışdır. Adil müəllim, aristokratiya sözünü müasir termin olan meritokratiya ilə əvəz etsəydiniz, daha yaxşı olmazdımı?

**Adil ƏSƏDOV:** Tahirə xanım! *Meritokratiya* sözünün açıqlanması zamanı Siz *xidmət* və *ləyaqət* terminlərini yanaşı işlədirsiniz, hətta onları demək olar ki, bir sinonim olaraq qiymətləndirirsiniz. Lakin əslində isə «xidmət və mükafat» münasibətləri sosializm üçün, ləyaqət prinsipi aristokratizm üçün səciyyəvidir. *Meritokratiya* sözünün *layiq olanların hakimiyyəti* kimi başa düşüldüyü halda isə Sizin qeyd etdiyiniz həmin hal - aristokratiya sözünü müasir termin olan meritokratiya ilə əvəz edilməsi əlbəttə ki mümkündür.

**Firdovsiyyə ƏHMƏDOVA:** Adil müəllim, siyasi aristokratizmi ön plana çıxaran düşüncə axarında dayanaraq, zadəgan ləyaqətini, mənəviyyatını hədsiz dəyərləndirir və intibah dövründən qaynaqlanan elmə, burjua mentalitetinə qarşı isə qapalı bir nifrətlə münasibət göstərirsiniz. Yardıma, bir parça çörəyə şükran olan xalqımızı xilas edəcək fəlsəfənin yaradıcısı missiyasını öz üzərinizə götürürsünüz. Sizin fəlsəfəniz xalqımıza nə verəcək?

**Adil ƏSƏDOV:** Düşünürəm ki, hər şeydən öncə, ruhun dərinliklərində mürgüləyən ləyaqət hissini görmək və tanımaq əzmini, özünütəsdiq qüdrətini.

**Firdovsiyyə ƏHMƏDOVA:** Zadəgan mənşəli Dionisi zadəgan mənşəli və zadəgan ruhlu Platonu dəyərləndirə bilmir, dəyərləndirdikdə belə, onun idealını gerçəkləşdirə bilmir. Deyirsiniz, *o qüdrəti özündə tapmadı.* Klassik nümunədə belə gerçəkləşdirilməyən idealı hədsiz qarışmış dəyərlər zamanında gerçəkləşdirmək mümkündürmü? Sizin idealınız da, kommunizm idealı qədər utopik və romantik deyilmi? Bir də ki, həqiqi kommunizm idealını da zadəgan dünyagörüşü zəminində görürsünüz.

**Tahirə ALLAHYAROVA:** Adil müəllim, mənə elə gəlir ki, Sizin istifadə etdiyiniz bir sıra ifadələr güman etməyə imkan verir ki, Siz aristokratizmi ilk növbədə intellektual imkanlarla əlaqələndirirsiniz. Elə buna görə də, Siz *aristokratizm* sözü əvəzinə *ziyalılıq* ifadəsini işlətsəydiniz daha yaxşı olmazdımı?

**Adil ƏSƏDOV:** Aristokratizm intellekt üzərində deyil, instinkt üzərində bərqərar olur. Aristokratizm prinsipini ən yığcam şəkildə belə ifadə etmək olar: İnsanın fəaliyyəti onun təbii təyinatına, ürəyinin haqq çağırışına uyğun olmalıdır, hər bir kəs ürəyin həqiqət çağırışına qulaq kəsilərək öz təbii təyinatından doğan işlə, *özünün* sevimli işi ilə məşğul olmalıdır.

**Cəmil ƏHMƏDLİ:** Hamının öz sevimli işi ilə məşğul olması yaxşı ideyadır. Lakin bu praktik olaraq mümkün deyildir. Bu yalnız ideal ola bilər. Bunu reallaşdırmaq isə qeyri-mümkündür.

**Adil ƏSƏDOV:** Əgər ideallar reallaşdırılmayacaqsa, onda heç yaşamağa dəyərmi? İdealın reallaşdırılmasından imtina etmək mənəvi ölümdür. Mənən ölü olmaq – idealından üz döndərmək deməkdir.

* * *

**Leyla NƏZİRZADƏ:** Adil müəllimin bu kitabı bizim görmədiyimiz, bizim üçün qeyri-adi bir üslubda yazılmışdır.

**Əlikram TAĞIYEV:** Etiraf etməliyik ki, bu üslub klassik filosofların yazı üslubudur, klassik üslubdur.

**Rəna ABDULLAYEVA:** Adil müəllimin *Siyasi fəlsəfə*si vaxtında meydana çıxan və vacib olan bir əsərdir. Siyasi sistemlərin dərinliklərində

yatan mexanizmlər müəllif tərəfindən cəsarətlə, səmimiyyətlə və aşkar müəllif mövqeyi ilə üzə çıxarılır. Belə bir əsərin meydana çıxması faktının özünü qeydsiz-şərtsiz fərəhli bir hal hesab edirəm. Mən hörmətli müəllifə belə bir məsləhət verməyə də cəsarət edirəm ki, bu əsərin yalnız nəşri ilə öz işini bitmiş hesab etməsin. İstərdim ki, Adil müəllimin etik baxışlarının cəmiyyət içərisində geniş yayılması üçün kütləvi informasiya vasitələrində geniş disputlar təşkil olunsun. Bu baxışlar dünyanın bütün Böyük Dinləri ilə, xüsusən İslamla son dərəcə həmahəngdir. Etik normalarla, əxlaqi dəyərlərlə bağlı müəllifin uğurla həll etdiyi bir çox məsələlər bizim müasir cəmiyyəti dərindən narahat edir və onun üçün son dərəcə zəruridir. Müəllifin əxlaqi mülahizələrinin geniş auditoriyaya çatdırılması xalqımıza yalnız fayda gətirə bilər.

**Mətləb MAHMUDOV:** Adil müəllimin Azərbaycan oxucusuna təqdim etdiyi bu kitab doğrudan da Azərbaycan fikir tarixində öz yeri ola biləcək, sözün əsl mənasında həqiqi fəlsəfi bir əsərdir.

**Həbib HÜSEYNOV:** *Siyasətin fəlsəfəsi*nin hələ 2001-ci ildə çap olunan birinci nəşri bu günə qədər də mənim stolüstü kitabımdır. Bu kitabı demək olar ki hər axşam yenidən nəzərdən keçirirəm və hər dəfə də burada yeni çalarlar tapıram. Çox maraqlıdlr ki, elə bununla da gərgin iş gününün bütün yorğunluğundan sanki xilas olmuş oluram.

**Məhərrəm QASIMLI:** Üstəlik onu da deyə bilərəm ki, burada verilən fikirlər ümumbəşəri xarakter daşıdığı üçün lokal miqyasla məhdudlaşdırılmamalıdır. Kitab mütləq əcnəbi dillərə tərcümə edilərək yayılmalıdır.

**Ağayar ŞÜKÜROV:** Məncə, bu söylənilənlər təkcə bu kitaba aid edilməməlidir. Müəllif özünün elə əvvəlki əsərlərində də özünü müstəqil fikir söyləmək qabiliyyətinə, orijinal təfəkkürə malik, öz dəstixətti olan bir alim kimi tanıda bilmişdi və nümayiş etdirə bilmişdi.

**Rasim MİRZƏYEV:** Adil müəllimin bütün əsərləri həqiqətən də orijinaldır.

**Əziz MİRƏHMƏDOV:** Mən Adil Əsədovun əvvəlki kitablarından birini, *Təfəkkürün fəlsəfəsi*ni diqqətlə nəzərdən keçirmişəm və onu həqiqətən də əsl elmi dəyərə malik olan bir əsər kimi tanımışam.

**Kamal TALIBZADƏ:** Mən *Təfəkkürün fəlsəfəsi*ni nəinki nəzərdən keçirmişəm, hətta diqqətlə oxumuşam da. Həqiqətən görkəmli əsərdir.

**Əziz MƏMMƏDOV:** Təfəkkürdən bəhz edən alimin təbii ki, güclü təfəkkürü olmalıdır. Şükürlər olsun ki, Adil müəllim belə bir güclü təfəkkür sahibidir.

**Oruc ABDULLAYEV:** Təfəkkürdən, idrak nəzəriyyəsindən, məntiq problemlərindən belə bir görkəmli əsər yazmaq doğrudan da heç də hər filosofa nəsib olmur. Bu, bir həqiqətdir.

**Tofiq KÖÇƏRLİ:** O əsəri mən də oxumuşam. Müəllif onu mənə öz avtoqrafı ilə bağışlayıb. Adil Əsədov burada öz intellektual imkanlarının genişliyini çox gözəl nümayiş etdirir. Bu imkanların getdikcə daha çox gerçəkləşdirildiyinə şadam.

**Asəf NADİROV:** Təəssüf ki, dediyiniz və həmişə təriflərə qərq etdiyiniz o kitabı müəllif hələ ki, mənə bağışlamayıb. Mənim Adil Əsədov barədə təəssüratım yalnız onun çıxışlarına və haqqında söylənilənlərə istinad edir. Lakin bu təəssürat kifayət qədər xoşdur.

**Emin ŞƏKİNSKİ:** Mən Adil müəllimin əsərləri içərisindən yalnız *Gözəlliyin fəlsəfəsi* ilə tanışam. Bircə bu əsərlə tanışlıqdan aydın bir şəkildə görünür ki, filosof Adil Əsədovun yazı üslubu son dərəcə orijinaldır. Elə mən də belə bir üslubda yazılan heç bir əsərlə bu vaxta qədər rastlaşmamışdım.

**Abdusalam QUSEYNOV:** Adil Əsədovun hadisələrə baxışı çox maraqlı və fəlsəfidir.

**Əlisa ƏHMƏDOV:** Mən Adil Əsədovun həm *Gözəllik fəlsəfəsi*, həm *Təfəkkür fəlsəfəsi*, həm də indiki *Siyasət fəlsəfəsi* hər biri ayrılıqda bir nəzəriyyədir. Etiraf etməliyik ki, Adil müəllim nəzəriyyələr müəllifidir.

**İsa HƏBİBBƏYLİ**: *Təfəkkürün fəlsəfəsi* ilə mən hələ ki tanış deyiləm. Amma *Gözəlliyin fəlsəfəsi* və *Siyasətin fəlsəfəsi* ilə yaxından tanışam. Adil Əsədovun yazı və təfəkkür üslubu həqiqətən də qeyri-adi və orijinaldır.

**Həsən ƏLİBƏYLİ**: Mən Adil müəllimlə eyni müəssisədə çalışıram. Amma, onun özü ilə deyil, əsərləri ilə daha çox rastlaşıram. Bu da çox sevindirici haldır.

**Cəlal MƏMMƏDOV:** Mən də Adil müəllimin simasını şəxsi həyatdan daha öncə onun kitablarında görmüşəm.

**Bəhram ZAHİDOV:** Adil müəllim həqiqətən də böyük alimdir.

**Tofiq HƏSƏNOV**: Mən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının bir nümayəndəsi olaraq qeyd edim ki, Azərbaycanda fəlsəfə ilə bağlı bir sıra qeyri-hökumət təşkilatları mövcuddur. Amma ilk öncə Adil müəllimin rəhbərlik etdiyi Fəlsəfi Maarifçilik Assosiasiyası yada düşür.

**Adil ƏSƏDOV:** Təşəkkür edirəm, Tofiq müəllim.

**Azər HÜSEYNOV:** Adil müəllim, eyni zamanda onu da etiraf etmək gərəkdir ki, Sizin fəlsəfi biliklərinizlə yanaşı, hüquqi bilikləriniz də kifayət qədər inkişaf etmişdir.

**Ərəstun MEHDİYEV:** Amma Adil müəllim ilk öncə filosofdur, onun yalnız elmi fəaliyyətində deyil, bütün fəaliyyətində, irəli sürdüyü layihələrin adlarında belə onun filosof olduğu aydın bir şəkildə sezilir.

**Fikrət ORUCOV:** Adil Əsədov alim olmaq üçün doğulanlardandır.

**Kamal ABDULLA:** Adil Əsədov bir alim olaraq istedadına mənim də inandığım insanlardandır.

**İzzət RÜSTƏMOV:** Siz Adil Əsədovun bir alim olaraq istedadından və üstünlüklərindən bəhz etdiniz. Dediklərinizlə tamamilə razıyam. Mən eyni zamanda onun bir müəllim olaraq da istedadını və üstünlüklərini qeyd etmək istərdim. Adil müəllim Azərbaycan Milli Akademiyasının alimi olmaqla yanaşı, həm də uzun illərdir ki, Bakı Dövlət Universitetində dərs verir. Belə bir məqamı diqqətinizə çatdırmaq istərdim ki, onun on dəqiqəlik söhbəti bir çox başqalarının saatlarla dediklərindən daha dəyərlidir. Çünki o, öz zəkasının gücü ilə dinləyicisini işıqlı bir ideyaya doğru yönəldə bilir.

**Adil ƏSƏDOV:** Fikirlərini mənim üzərimdə cəmlədikləri üçün və qiymətli vaxtlarını mənim nəzəri mövqelərimin mənalandırılmasına sərf etdikləri üçün möhtərəm alimlərimizə minnətdaram.

**Əfrand DAŞDƏMİROV:** Sizin ideyalarınız və mövqeyiniz, yəqin ki Sizi varlı etməyəcək, amma layiq olduğunuz hörmət və ehtiramı Sizə mütləq gətirəcəkdir.

**SÖZARDI ƏVƏZİNƏ:**
Kitab üzərində düşüncələr

«Mən belə hesab edirəm ki, siyasətdə gələcək nəsillər üçün də ədalətli və doğru ola biləcək ümumi həqiqətləri müəyyən etmək üçün bizim dünya hələ çox gəncdir. Bizim hələlik üç min ili əhatə edən təcrübəmiz yoxdur». Bu sözləri David Yum 1740-cı ildə, Makiavellidən üzü bəri 300 ilə yaxın siyasi təcrübənin nəticələrini yekunlaşdırarkən yazmışdı. Onun yaşadığı vaxtdan indiyə qədər bəşəriyyət bir neçə möhtəşəm siyasi və mənəvi çevrilişlərdən keçmişdir. İndi üçüncü minilliyin başlanğıcındayıq. Problemin aktuallığı da göz qabağındadır.

İnsanın təbiətində və siyasətdə olan danılmaz həqiqətləri ümumiləşdirmək üçün bizim kifayət qədər təcrübəmiz və elmi təhlil qabiliyyətimiz vardırmı?

Qədim yunanlar qırx yaşı elmi mühakimə və yaradıcılıq qabiliyyətlərinin zirvəsi hesab edir və ömrün bu çağını «akme» adlandırırdılar. Adil Əsədovun *Siyasətin fəlsəfəsi* adlandırdığı əsər hər cəhətdən - həm minilliklərin fəlsəfi yekunlaşdırılması baxımından, həm də qədim yunanların *akme* adlandırdıqları hadisə baxımından vaxtında ərsəyə gəlmişdir.

Hər bir elmin əsasını öyrənilən hadisə və proseslərin daha uğurlu təhlilini verməyə imkan yaradan ideal-tipik konstruksiyalar təşkil edir. Bəşəriyyətin siyasi inkişaf ənənələrinin hər bir ölkədə özünəməxsusluğunu şərtləndirən müxtəlifliklərin təhlili ideal-tipik konstruksiyalar olmadan mümkün deyildir. İdeal arxetiplər ciddi şəkildə ilk dəfə Maks Veber tərəfindən irəli sürülmüş və işlənilmişdir. *Vahid fikri obraz* təşkil etməklə bərabər «obyektiv mümkün» olan ideal-tipik konseptlərdən istifadə hər bir elmi təhlilin ən vacib xüsusiyyətidir. Poststrukturalist filosoflar Delez və Qvattari özlərinin «Fəlsəfə nədir?» adlı yeni kitabında yazırlar: Filosofun vəzifəsi fəlsəfi təfəkkür konseptlərini, paradiqmalarını kəşf etmək, yaratmaq və formalaşdırmaqdır». Bunun öhdəsindən gəlməyi isə Kant «özünün şəxsi mühakimə cəsarəti» adlandırırdı.

Adil Əsədov qarşısına qoyduğu vəzifənin öhdəsindən ləyaqətlə gəlmiş, yeni ideal-tipik modellər təqdim etməklə, fəlsəfənin möhtəşəm dünya-

sına, bir «damla» da əlavə etmişdir. Və mən Rikkertin Veber metodu haqqında dediklərini misal gətirərək, öz təəssüratımın bununla tam üst-üstə düşdüyünü bildirirəm. «Veberin dahiliyi ondadır ki, onun elmi nəzəriyyəsi heç bir adi metodoloji sxemə yerləşmədiyi halda, dərin bir sistemliliyə malikdir; lakin, məhz elə buna görə də yeni-yeni və xüsusi tədqiqatlara yol açır, onları istiqamətləndirir».

Son illərdə siyasi qütblərin və qovğaların sıxışdırdığı ölkəmizdə tarix və siyasət yalnız, necə deyərlər, qapı və pəncərəmizdən hər birimizin həyatına daxil olmuş, hər bir kəs onun iştirakçısına çevrilmişdir. Siyasət, futboldan sonra insanların ən çox bacardığı sahəyə çevrilmişdir. Burada ən təəssüf doğuran xüsusiyyətlərdən biri də odur ki, insanlar müvafiq dünyagörüş sistemi olmadan, Qərbi Avropa ölkələrindən fərqli olaraq, şüurlardakı inqilabı yaşamadan həyatın, siyasətin və tarixin inqilabları ilə üz-üzə qalmışlar. Ən çox səslənən sual isə «Nə etməməli?» sualıdır.

«Fəlsəfənin siyasətin fəlsəfəsində başa çatması» qənaəti çox məntiqidir. Metafizik anlayışların problematik müstəvisində təhlil aparan müəllif Materiya, Dünya Ruhu, Dünya İradəsi, Dünya Zəkası, həyat seli, substansiya, ekzistensiya, mütləq ideya kimi kateqoriyalara münasibətini bildirir. Mənim subyektiv fikrimə görə, müəllif dualist və ya plyuralist olmaqdan daha çox, monistdir və onun yanaşma metodu Hegelin panlogizminə yaxındır, bəlkə də eynidir. Digər tərəfdən, müasir elmin bəraət qazandırdığı «subyektiv başlanğıc» faktorunun həlledici hesab edilməsi elmiliklə bərabər, XX əsrdə qulaqları döyənək etmiş maddi-iqtisadi başlanğıcın birinciliyi fikrinə əksdir və ən azı məhz buna görə də, çox orijinal və yenidir.

Platon belə hesab edirdi ki, dövləti filosoflar idarə etməlidir. Leybnits isə belə hesab edirdi ki, dövləti akademiyalar idarə etməlidir. Təbii bir sual meydana çıxır: alim kimdir?, necə olmalıdır? Elmdə 20/80 nisbəti hər kəsə məlumdur. 20% dahi, ideyalar ixtiraçısı, 80% isə tədqiqatçı, sistemləşdirici və təsnifatçı kimi məlumdur. Problemin belə qoyuluşuna etiraz edənlərə demək istərdim ki, Platonun dahi ixtiraçı, ideyalar yaradıcısı, Aristotelin isə təsnifatçı, sistemləşdirici kimi səciyyəsi elmdə qəbul olunmuş fikirdir. Yaxud yunan elmi ixtiraçı, Şərq elmi isə təsnifatçı kimi xarakterizə edilir. Mübahisəli olsa da, mənim fikrimcə, hər iki sahə öz-özlüyündə dəyərlidir. Biri olmadan o biri mümkün deyildir. Elm hər ikisinin vəhdətindən ibarətdir. Birinci anlayırsa, ikinci izah edir və hermenevtik dairə tamamlanır. Bu məqamı Adil Əsədov xüsusi bir vurğu ilə qeyd edir.

Adil Əsədov Siyasətin fəlsəfəsini fəlsəfənin son sözü adlandırır. İlk əvvəl bu fikir şaşqınlıq yaradır. Lakin müəyyən tarixi paralellər aparılarsa, bu şaşqınlıq aradan qaldırıla bilər. Kibernetikanın və sinergetikanın banisi A.Boqdanov yazırdı: nizam elmi (tektologiya) olan yerdə fəlsəfəyə ehtiyac qalmayacaq; Yaxud Fukudzava liberalizmi bəşəriyyətin və tarixin ən ideal sonu, vəziyyəti, kəşfi adlandırırdı. Bu kontekstdə Adil Əsədovun məntiqi başa düşülür, burada liberalizm deyil, siyasi aristokratizm «tarixin sonudur». Mən belə başa düşürəm ki, müəllif Dünya Ruhunu insan, Dünya Nizamını gerçəklik, birincidən ikinciyə doğru yolu mümkün edən siyasi əməl fəlsəfəsini isə son söz adlandırır. Buna qarşı etiraz etmək isə qeyri-mümkündür.

*Siyasətin fəlsəfəsi*ndə Adil Əsədov siyasi aristokratizmin təşəkkül dinamikasını izləməklə, siyasi həyatın arxitektonikasını, inkişaf vektorunu, nizam parametrlərini aşkara çıxarmış, sosiumda, eləcə də Kosmosda Nizama nail olmaq elminin əsas müddəalarını təqdim etmişdir.

Nizam elmini alimlər, filosoflar təqdim edir, «centlmenlər» (L.Straus) həyata keçirir.

Adil Əsədovun aristokratizmə verdiyi tərif belədir: «Aristokratik siyasi doktrina ictimai həyatın ideal formasını heç bir hakimiyyətin olmadığı və hər bir insanın sosial orqanizmdə öz həqiqi yerini tapa bildiyi cəmiyyətdə görür». Aristokratizmin əsas prinsipləri kimi ədalətli əxlaq və mənəviyyat, intellektual qüdrət, yenilməz iradə və nəciblik hesab olunur. Necə deyərlər, XXI əsr siyasətinin arzu olunan modeli burada öz əksini tamamilə tapmışdır. Bu model dünyada baş verən sosial-mədəni transformasiyaların meyli ənənəsini də, əksmərkəzləşmə meyillərini, iki minilliyin sosial nəticəsi kimi formalaşmış «siyasi fəal insan» (A.Smolenski) faktorunu da əhatə edir.

Biz «uğur və fayda» sivilizasiyasında yaşayırıq. Bu, həqiqətdir. Yaponiyanı bugünkü səviyyəyə gətirib çıxaran milli uğur fəlsəfəsi (mey-dzi) və texnonasionalizmdir. Çıxış yolu axtarmaq üçün hökmən «fayda» fenomeni nəzərə alınmalıdır. «Ya fayda, ya ədalət» prinsipini bir qədər dəyişərək «elə etməlisən ki, əxlaqi və mənəvi ədalət faydalı olsun» prinsipi irəli sürülməlidir.

İnsanın bir varlıq kimi baza strukturu nəzərə alınmalıdır. Siyasi nizamın meyarı isə çox düzgün müəyyən edilmişdir: siyasi nizamın meyarı heç də fayda deyildir, əxlaq və mənəviyyatdır. Siyasi əməl və mənəviyyat birlikdə sözün böyük mənasında nizama aparır. Həyata ölümlə hədd qoyulursa, əmələ, siyasi əmələ mənəviyyatla hədd qoyulmamalıdır. Bu həddi

keçmək olmaz. Bəşəriyyətin bütün fəlakət və məşəqqətləri bu həddin pozulması üzündən baş vermişdir.

Adil Əsədovun ideal siyasi nizam fəlsəfəsi nizama nail olmanın ən düzgün və yeganə meyarını əks etdirdiyi üçün real siyasi fəaliyyətin əsası kimi qəbul edilə bilər. Mənəviyyat, vicdan bir vaxt Qədim Yunanıstanda «zəiflərin güclülərə qarşı hiyləsi» kimi qəbul edilsə də, mən heç şübhə etmirəm ki, sivilizasiyanın bütün fəlakətləri mənəvi və əxlaqi təfəkkürün parçalanması üzündən baş vermişdir. Məhz buna görə də, tarixi fürsət siyasi əxlaqla üst-üstə düşərsə, gələcəyin əzəməti və əbədiyyəti danılmazdır.

*Siyasi fəlsəfəsi*nin Adil Əsədov təqdimatı tarixi və siyasi psixologiya kimi elm sahələri ilə məşğul olanlar üçün də, *göydəndüşmə* əsərdir. Mən bu sahədə daim ədəbiyyat axtaran tədqiqatçılara rast gəldiyim üçün belə deyirəm. *Elita və psixologiya* az işlənmiş problem sahəsidir. Müəllifin ideal-tipik modelləri əsasında hər bir elitanın fəaliyyət motivlərini anlamaq və qiymətləndirmək mümkündür. Necə deyərlər, elita və onun siyasi fəlsəfəsi gözlərimiz önündə bütün aydınlığı ilə canlanır. Qərar qəbul edən şəxs hansı meyara əsaslanırsa, onun hansı elitaya aid olduğu aydın olur.

Sonda demək istərdim ki, bizim bəyənmədiyimiz Qərbdə elita 80 ildir ki, intellektual testlərdən keçir və burada siyasi fəlsəfəni alimlər dövlətə təqdim edir. Bizim sosializmdən əxz etdiyimiz vərdiş isə hələ qalmaqdadır, siyasi fəlsəfəni elmə dövlət təqdim edir. Və əgər hələlik Qərbə «fayda və uğur» fəlsəfəsi irad tutulursa, onda Qərbin buraxdığı səhvləri təkrar etməmək üçün Adil Əsədov siyasi nizam fəlsəfəsini təqdim edir: növbə elitanındır. Bu gün qanun islahatları konveyerinin aramsız işlədiyi bir vaxtda Otto fon Bismarkın sözləri yada düşür: pis qanunlarla və yaxşı məmurlarla bir təhər idarə etmək mümkündürsə, yaxşı qanunlarla və pis məmurlarla idarə etmək isə heç cür mümkün deyildir. Hazırda inkişaf demokratiya və Azərbaycan modeli haqqında tədqiqatlar baş alıb gedir. Siyasi fəlsəfə isə öz inamlı addımlarını hələ təzəcə atmaqdadır. Hər halda «dünyanın o başına səyahət birinci addımdan başlayır» (Lao-tszı).

**Tahirə ALLAHYAROVA,**
**Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzinin şöbə müdiri, fəlsəfə elmləri doktoru**

Zadəgan dövləti ideyasının ortaya atılması, doğrudan da, zadəganlıq əməlidi, xilaskarlıqdı. Zadəgan dövləti ideyası ölümdən qurtara bilər müasir dünyanı. Bir qədər bəxt də lazımdır ki, bu möhtəşəm ideyaya biganə qalmasınlar.

Siyasi fikir sahəsində son əsrlərdə yaranmış düşüncə yeknəsəkliyini məhz bu kitab pozmalıdır. Demokratiyadan elə yapışıblar ki, elə bil bəşərin yaradıcılıq imkanları tükənib. Onsuz da hamı hiss eləyir ki, demokratiya idealının azdan-çoxdan malik olduğu şirə artıq qurtarmaq üzrədir. Demokratiya gerçəkliklə sövdələşmədi. İnsani problemlər yalnız İdealdan qopan İşığın nuru ilə həll oluna bilər. Demokratiya Atasızlıqdı. Ögey Atanın zülmündən (despotiyadan) qaçıb sığınıblar demokratiyaya. Bəşərin, doğrudan da, ən amansız, ən praqmatik vaxtıdı.

Kitab gözəl, işıqlı, dərin fəlsəfi idrakçılıq nümunəsidi. Müəllif alimlik edəndə onunla razılaşmamaq olar, bəzi məsələlərdə etiraz etmək olar, lakin elə ki, filosofluq başlayır … mübahisə əbəsdir. Saflıqla, azadlıq eşqi ilə, alovlu insanpərvərliklə mübahisə günahdır. Filosofluqla bağlı elə bir məqam olmadı ki, ürəyimdə əks-səda doğurmasın.

Müəllifin gücü – fəlsəfi refleksiyadadır. Filosof aqibəti, fəlsəfə, məntiq barədə mülahizələr – dahiyanə.

*Metodologiya* cəfəngiyatının tənqidi necə orijinal, qəti və gözəldir!

«Tədqiqatçı alimdən daha çox oxuyur, daha çox savadlıdır». Dahiyanə ştrixdi! Bu cür ştrixlər o qədər çoxdur ki, yağış kimi üstünə səpələnir elə bil.

«Sənətkar və qətiyyət» mövzusu dəhşətli dərəcədə təzə və sarsıdıcı təsir bağışlayır. Məncə, burada uduzma yoxdur. Sənətkar dərin olduğu üçün iradəsi fəaliyyətsiz olur. O bilir ki, mütləq mənada bu Çayın qabağını almaq mümkün deyil. Bunu onun qədər duymaq çox çətindir. Cəngavərdə qətiyyət körpə sadəlövhlüyü hesabına yaşayır. Kşatri dünyanın mahiyyətinə qapıla bilsəydi, qılıncını atardı, brahman olardı, dağlara çəkilərdi (Budda kimi). Upanişadalarda, Mahabharatada bu hal tez-tez açılır. Bu, *müdriklik və fəallıq* mövzusudur. Sənətkar müdrik olmasa da, ona doğru gedən yoldur. Bu yolu təkcə Tolstoy, Taqor kimilər getsə də.

Hind ruhunun əsas ideyası: problemlər, ziddiyyətlər *mayya*nın ifadəsidir. Həqiqət ziddiyyətsizliyin dərkidir.

Problemlərin dərkindən də həqiqətə yüksəlmək olar, inkarından da. Əsas məsələ ziddiyyətsiz, problemsiz, mütləq, sonsuz, kamil təmələ təmas edə bilməkdir.

Hind materialına istinad yoxdur. Hərçənd ki, brahman (zadəgan), kşatri (cəngavər), vayşi (icmaçı, əkinçi), şudra (şəhərli) paraleli üzdədir. Şəhərli ruhu (praqmatik, dayaz) elə şudra ruhu kimi təqdim edilir. Demokratiya («gəda hakimiyyəti») elə şudra erasıdı. «Dünyanı zadəgan-cəngavər birliyi xilas edəcək» fikri hinddə vardır.

«Zadəgan mədəniyyətində insanın öz təbii təyinatına uyğun sosial məkandan kənarda qalması, başqa sözlə yazıqlıq qadağan olunur» - deyirsiniz. Tam anlamıram. Yazıqlıq məsələsi ilə tam razıyam. O biri təyini isə anlamıram. Zadəganlar – tacsız imperatorlardır. İsa kimi kasıb tələbələrin əhatəsində gəzəndə belə. Onlar sosial mühiti axtarmırlar, yaradırlar. Şahanə görkəmi və ruhi rəvanlığı onlara həqiqətin dərki gətirir. Buddaya şahlıq da gədalıq kimi gəldi. Tolstoy sərgərdanlığı qraflıqdan üstün saydı. Hansı *sosial mühit*dən gedir söhbət? Zadəganı yazıqlaşdırmırmı bu «*sosial mühit*» axtarışı?

Zadəgan-cəngavər fərqi. Zadəgan üstünlüyünün açılmasını istərdim. Bir az da geniş. Zadəganın nurdan başqa səlahiyyəti, imtiyazı, hökmü olmamalıdır, məncə.

Kitabda qoyulan məsələlərin bir çoxu mənim düşüncəm üçün yeni olduğundan onların mənalandırılması və mənim daxili dünyamla razılaşdırılması, yaxud inkarı üçün xeyli vaxt lazımdır. Bu fikirlər isə isti-isti ruhumda yaranmış həyəcanların yalnız ilkin ifadəsidir.

Həmişə dünyada iki tip adamlar olub, olacaq: Əsillər və Saxtalar, Sağlamlar və Şikəstlər, daxilində Xeyir daşıyanlar və Şərə xidmət edənlər. İkincilər minlərlə doğulur həmişə. Birincilər həmişə az olur. Əsillik libasına bürünməyən saxta tapmayacaqsınız, sağlamlıq libasına bürünməyən şikəstə rast gəlməyəcəksiniz. Elə Şər yoxdu ki, Xeyir paltarı geymək arzusunda olmasın. Bu onların qədim şakəridi. Problem bundadı.

Dünyanı saxtaların hakimiyyətindən qurtarmaq üçün gedən mübarizə əbədidir.

Uğur olsun!

**Müşfiq ŞÜKÜROV,**
**Azərbaycan Milli Elmlər Akademiyası Respublika Elmi Tədqiqatların Təşkili və Əlaqələndirilməsi Şurasının Fəlsəfə, Politologiya və Sosiologiya elmləri üzrə Problem Şurasının elmi katibi**

## MƏNBƏLƏR


**COLON.** Qanunlar
**LAO-TSZI**. Dao de szin
**KONFUSİ**. Lun Yuy
**MO-TSZI**. Mo-tszı
**PLATON**. Siyasətçi. Dövlət. Kritiy. Qanunlar
**ARİSTOTEL**. Politika
**HİND SİYASİ TRAKTATI**. Arthaşastr
**ŞAN YAN**. Şan vilayəti hökmdarının kitabı, b.e.ə. 350
**MEN-TSZI**. Men-tszı, b.e.ə. 332
**SYUN-TSZI**. Syun-tszı, b.e.ə. 258
**XAN-FEY-TSZI**. Xan-fey-tszı, b.e.ə. 240
**POLİBİ**. Ümumi tarix
**SİSERON**. Dövlət haqqında. Qanunlar haqqında
**LUKRETSİ KAR**. Şeylərin təbiəti haqqında
**STRABON**. Coğrafiya, b.e.ə. 24
**PLUTARX**. Müqayisəli bioqrafiyalar. Dövlət işləri haqqında nəsihətlər
**TASİT**. Tarix. Annallar
**XRİSTİANLIĞIN MÜQƏDDƏS KİTABI**. İncil
**İUDAİZMİN MÜQƏDDƏS KİTABI**. Talmud
**ULPİAN**. Vətəndaş hüququnun məcmusu, 228
**AVQUSTİN**. İlahi dövlət haqqında, 413-426
**MƏHƏMMƏD PEYĞƏMBƏR**. Hədislər
**ƏLİ**. Nəch əl-bəlağə
**FƏRABİ**. Fəzilətli şəhər əhlinin baxışları. Xoşbəxtliyin əldə edilməsi
**HƏLLAC**. Ədalət və tovhid. Siyasət, xəlifələr və əmirlər. Nurun nuru. Səmimiyyət və qurtuluş
**FİRDOVSİ**. Şahnamə
**İBN SİNA**. Ədalət kitabı
**OĞUZ EPOSU**. Kitabi-Dədə-Qorqud
**NİZAMÜLMÜLK**. Siyasətnamə
**KEYKAVUS**. Qabusnamə
**XAQANİ**. Mədain xərabələri. Həbsiyyə
**NİZAMİ**. Sirlər xəzinəsi, 1177
**NİZAMİ**. İsgəndərnamə, 1203
**SÜHRƏVƏRDİ**. İşığa dair traktat
**İBN-ƏL ƏRƏBİ**. Məkkə vəhyləri. Təfsir əl-Quran
**FRANSIZ XALQ QƏHRƏMANLIQ EPOSU**. Roland haqqında nəğmə, 1170
**İSPAN XALQ QƏHRƏMANLIQ EPOSU**. Mənim Sidim haqqında nəğmə, XII əsr
**ALMAN XALQ QƏHRƏMANLIQ EPOSU**. Nibelunq haqqında nəğmə, XII əsr
**NESTOR**. Ötən illərin dastanı, XII əsr
**ÇJU Sİ**. Dörd kanon məcmuəsinə şərh. *Dəyişikliklər kitabı*nın həqiqi mənası.
**RUMİ**. Məsnəvi
**SƏDİ**. Bustan, 1257. Gülüstan, 1258
**RƏŞADƏDDİN**. Cami ət-təhvarix, 1311
**DANTE**. Monarxiya haqqında, 1312
**MARSİY PADUAN**. Sülhün müdafiəçisi, 1324
**İBN XƏLDUN**. Müqəddimə, 1375
**HAFİZ**. Divan, 1390
**NƏİMİ**. Cavidannamə. Vəsiyyətnamə, 1393
**ƏMİR TEYMUR**. Vəsiyyət
**FORTESKYU**. Təbii hüququn təbiəti haqqında, 1440
**CAMİ**. İsgəndərin müdriklik kitabı, 1486.
**CAMİ**. Baharistan, 1487
**MOR**. Utopiya, 1516
**ERAZM**. Xristian hökmdarının tərbiyəsi
**LÜTER**. Alman millətinin xristian zadəganlarına. Xristianın azadlığı haqqında. Tezislər, 1517
**MÜNSER**. Knyazlar qarşısında moizə, 1524
**MAKİAVELLİ**. Hökmdar, 1532
**MOJEVSKİ**. Dövlətin islahı haqqında, 1551
**BRUT**. Hökmdarlardan müdafiə haqqında
**BOESİ**. Könüllü köləlik haqqında mühakimə, 1560
**BODEN**. Tarixin asan öyrənilməsi metodu, 1566.
**BODEN**. Respublika haqqında altı kitab, 1576
**MONTEN**. Esselər, 1580
**BEKON**. Siyasi və əxlaqi esselər, 1597
**SERVANTES**. Don Kixot, 1605-15
**KAMPANELLA**. Günəş şəhəri, 1623
**QROTSİ**. Müharibə və sülh hüququ barədə, 1623
**QRASİAN**. Siyasətçi, 1640
**RİŞELYE**. Siyasi vəsiyyət
**HOBBS**. Leviafan, 1651
**LAROŞFUKO**. Memuarlar, 1662
**PASKAL**. Fikirlər, 1669
**SPİNOZA**. Dini-siyasi traktat, 1670
**SPİNOZA**. Siyasi traktat, 1677
**BOSSYUE**. Ümumdünya tarixi haqqında düşüncə, 1681
**LABRÜYER**. Xarakterlər, və ya əsrimizin adətləri, 1688
**LOKK**. Dövlətin idarə olunması haqqında iki traktat, 1680
**LEYBNİTS**. Teodisiya, 1710
**VOLF**. Siyasət, və ya İnsanların ictimai həyatı haqqında ağlabatan fikirlər, 1721
**VİKO**. Millətlərin ümumi təbiəti haqqında yeni elmin əsasları, 1725
**BİRİNCİ PYOTR**. Vəsiyyət, 1725
**SVİFT**. Qulliverin səyahəti, 1726
**MELYE**. Vəsiyyət, 1729
**VOVENARQ**. İnsan zəkasının dərk olunmasına giriş, 1746
**KONSTAN**. Konstitusiya siyasəti kursu
**MONTESKYÖ**. Qanunların ruhu haqqında, 1748
**RUSSO**. Elmlər və sənətlər haqqında düşüncə, 1750
**DİDRO**. Tiran, 1753
**MORELLİ**. Təbiətin kodeksi, 1753
**RUSSO**. İnsanlar arasında bərabərsizliyin mənşəyi haqqında düşüncə, 1754.
**VOLTER**. Ümumi tarix, xalqların adətləri və ruhu haqqında, 1756
**BÖRK**. Təbii cəmiyyətin bəraətləndirilməsi, 1756
**RUSSO**. İctimai müqavilə, 1762
**BEKKERİA**. Cinayətlər və cəzalar haqqında, 1764.
**FRANKLİN**. Böyük imperiyanı necə kiçik dövlət etmək olar, 1773
**HOLBAX**. Təbii siyasət, 1774
**CEFFERSON**. Britaniya Amerikasının hüquqlarına ümumi baxış, 1774.
**CEFFERSON**. Virciniya haqqında qeydlər, 1787
**CEFFERSON.** İstiqlaliyyət bəyannaməsi, 1775.
**MABLİ**. Qanunvericilik haqqında, və ya Qanunların prinsipləri, 1776
**TÜRQO**. Sərvətlərin yaradılması və bölüşdürülməsi haqqında düşüncələr, 1776
**HERDER**. Bəşəriyyət tarixinin fəlsəfəsi ideyasına dair, 1784-91

**EYNZİDEL**. Aforizmlər
**RİVAROL**. Xalq və güruh, 1789
**MİRABO**. Despotizm haqqında esse, 1789
**SİYES**. İmtiyazlar haqqında esse, Üçüncü silk nə deməkdir, 1789.
**İnsan və Vətəndaş Hüquqları Bəyənnaməsi**. Böyük Fransa İnqilabının aktı, 1789
**RADİŞŞEV**. Peterburqdan Moskvaya səyahət, 1790
**BÖRK**. Fransada inqilab barədə düşüncələr, 1790
**ROBESPYER**. İnqilabi qanunçuluq və ədalət mühakiməsi, 1793
**PEYN**. Zəka əsri, 1794-95. Sağlam təfəkkür
**BABÖF**. Plebeylərin manifesti, 1795
**KONDORSE**. İnsan zəkası tərəqqisinin tarixi mənzərəsi, 1795
**MESTR**. Fransa haqqında düşüncələr, 1796
**FİXTE**. Təbii hüququn əsasları, 1796
**KANT**. Hüquq haqqında təlimin metafizik başlanğıcları, 1797
**ŞATOBRİAN**. İnqilablar haqqında esse, 1797
**LİXTENBERQ**. İngiltərədən məktublar, 1798
**ŞATOBRİAN**. Xristianlığın dühası, 1802
**MESTR**. İnsani təsisatların yaradıcı prinsipi barədə esse, 1810
**KLAUZEVİTS**. Müharibə haqqında
**HEGEL**. Hüququn fəlsəfəsi, 1821
**SEN-SİMON**. Yeni xristianlıq, 1825
**PESTEL**. Rus həqiqəti, 1825
**VİNYİ**. Sen-Mar, 1826
**TOKVİL**. Amerika demokratiyası haqqında, 1835
**RUQE**. Siyasət və fəlsəfə, 1840
**LAMENNE**. Fəlsəfənin eskizi, 1840-56
**KABE.** Mən necə kommunist oldum, 1840. İkariyaya səyahət, 1840
**KARLEYL**. Qəhrəmanlar, qəhrəmanlara ehtiram və tarixdə qəhrəmanlıq, 1841
**DÜMA**. Üç müşketyor, 1844
**ŞTİRNER**. Yeganə və onun mülkiyyəti, 1845
**BELİNSKİ**. Qoqola məktub, 1847
**MARKS**. Kommunist partiyasının manifesti, 1848
**MARKS**. Fransada sinfi mübarizə, 1850
**BAB**. Bəyan
**KİREYEVSKİ**. Avropa maarifçiliyinin xarakteri və onun Rusiya maarifçiliyinə münasibəti haqqında, 1852
**QOBİNO**. İnsan irqlərinin qeyri-bərabərliyi haqqında, 1853-55
**AXUNDOV**. Aldanmış kəvakib, 1857
**AXUNDOV**. Kəmalüddövlə məktubları
**ŞİRVANİ**. Şamaxı bəyləri. Köpəyə ehsan
**ÇERNIŞEVSKİ**. Nə etməli, 1863
**BAKUNİN**. Federalizm, sosializm və antiteologizm, 1867. Elm və xalq
**DANİLEVSKİ**. Rusiya və Avropa, 1869
**MARKS**. Fransada vətəndaş müharibəsi, 1871
**DOSTOYEVSKİ**. Şeytanlar, 1872
**BƏHAÜLLA**. Ən müqəddəs kitab, 1872
**SPENSER**. Sosiologiya tədqiqatı, 1873
**BAKUNİN**. Dövlətçilik və anarxiya, 1873
**MARKS**. Qota proqramının tənqidi, 1875
**ZƏRDABİ**. "Əkinçi", 1875-77
**RENAN**. Fəlsəfi dialoqlar və fraqmentlər, 1876
**NİTŞE**. İnsani, həddindən artıq insani, 1878
**LEBON**. Kütlələrin psixologiyası, 1886
**MOSKA**. Siyasi elmin elementləri, 1886
**NİTŞE**. Xeyir və şərin digər tərəfi, 1886
**RATSEL**. Siyasi coğrafiya, 1887
**TÖNNİS**. İcma və cəmiyyət, 1887
**QUMPLOVİÇ**. İrq və dövlət. İrqi mübarizə
**MÜLKÜMXAN**. Şeyx və vəzir, 1889
**BİSMARK**. Fikirlər və düşüncələr, 1890
**HAQVERDİYEV**. Dağılan tifaq, 1896
**VƏZİROV**. Müsibəti-Fəxrəddin, 1896
**NƏRİMANOV.** Nadir şah, 1899
**ÇEMBERLEN**. On doqquzuncu əsrin əsasları, 1899
**KLYUÇEVSİ**. Tarix haqqında aforizmlər və fikirlər
**VOLTMAN**. Germanlar və İtaliyada Renessans, 1905
**Maks VEBER**. Protestant etikası və kapitalizmin ruhu, 1905
**Mirzə Ələkbər SABİR**. Millət necə tarac olur, olsun, nə işim var? 1906
**Cəlil MƏMMƏDQULUZADƏ**. Qurbanəli bəy, 1907.
**Abdulla ŞAİQ**. Məktub yetişmədi, 1908
**HACIBƏYOV**. Şeyx Sənan, 1909
**Cəlil MƏMMƏDQULUZADƏ**. Ölülər, 1909
**SPENSER**. Sosiologiyanın əsasları, 1910
**HÜSEYNZADƏ**. Türklər kimdir və kimlərdən ibarətdir?
**PARETO**. Ümumi sosiologiya üzrə traktat, 1915-19
**ÇELLEN**. Dövlət həyat forması kimi, 1916
**LENİN**. İmperializm kapitalizmin yüksək mərhələsidir, 1917
**SOROKİN**. Sosial bərabərlik problemi, 1917
**BERDYAYEV**. Millətçilik və imperializm, 1917
**LENİN**. Dövlət və inqilab, 1917
**BERDYAYEV**. Rusiyanın taleyi, 1918
**CAVİD**. İblis, 1918
Tiflisdə dörd müsəlman partiyasının rəhbərlərinin və üzvlərinin iştirakı ilə keçirilən iclasda *Azərbaycan Milli Şurası*nın yaradılması haqqında qərar, 1918, 28 may
Azərbaycan Cümhuriyyətinin *İstiqlal bəyannaməsi*, 1918, 28 may
M.Ə.Rəsulzadə. Osmanlı Ordusunun hissələrinə müraciət, Batum 1918, 03 iyun
Nuru Paşanın komandanlığı altında Qafqaz İslam Ordusu Gəncəni azad edir, 1918, 16 iyun
Bakı Qafqaz İslam Ordusu tərəfindən azad edilir, 1918, 15 sentyabr
**ŞPENQLER**. Avropanın qürubu, 1918-22
**BUXARİN**. Kommunizmin əlifbası, 1919
**ŞELLİ**. Anarxiyanın maskaradı, 1819-32
**AĞAMALIOĞLU**. Azərbaycanın siyasi vəziyyəti, 1919
**TROTSKİ**. Terrorizm və kommunizm, 1920
**Mirzə Davud HÜSEYNOV**. Müsavat firqəsi keçmişdə və indi. Bakı – 1920
**Çingiz İLDİRIM.** Ultimatum, 1920 27 aprel
**Nəriman NƏRİMANOV**. Azərbaycan SSR Xalq Komissarları Sovetinin Sədri statusunda çıxışları, 1920-22
**Mirzə Davud HÜSEYNOV**. Azərbaycan Kommunist Partiyası Rəyasət Heyətinin sədri (28 aprel-23 iyul, 1920) statusunda çıxışları, 1920
**Ruhulla AXUNDOV**. Kənd füqarası, 1920
**Viktor NANEYŞVİLİ**. Azərbaycan Kommunist Partiyası Rəyasət Heyətinin sədri (23 iyul-09 sentyabr, 1920) statusunda çıxışları, 1920
**Elena STATOSA**. Azərbaycan Kommunist Partiyası Rəyasət Heyətinin sədri (09 sentyabr-15 sentyabr, 1920) statusunda çıxışları, 1920
**Vladimir DUMBADZE**. Azərbaycan Kommunist Partiyası Rəyasət Heyətinin sədri (15 sentyabr-24 notyabr, 1920) statusunda çıxışları, 1920

# Mənbələr


**Qriqori KAMİNSKİ**. Azərbaycan Kommunist Partiyasının birinci məsul katibi (24 oktyabr-24 iyul, 1921) statusunda çıxışları, 1921
**Sergey KİROV**. Azərbaycan Kommunist Partiyasının birinci katibi (24 iyul, 1921-yanvar, 1925) statusunda çıxışları, 1921-1925
**PRİOBRAJENSKİ**. Anarxizm və kommunizm, 1921
**BUXARİN**. Tarixi materializm nəzəriyyəsi, 1921
**KROPOTKİN**. Ədalət və əxlaq, 1921
**MİXELS**. Müasir demokratiya şəraitində siyasi partiyanın sosiologiyası, 1921
**RƏŞAD NURİ GÜLTƏKİN**. Çalı quşu, 1922
**Qəzənfər MUSABƏYOV**. Azərbaycan SSR Xalq Komissarları Sovetinin Sədri statusunda çıxışları, 1922-30
**CAVİD**. Peyğəmbər, 1922
**BUXARİN**. Kapitalizmin böhranı və kommunist hərəkatı, 1923.
**RƏSULZADƏ**. Azərbaycan cümhuriyyəti, 1923
**ŞVEYTSER**. Mədəniyyətin fəlsəfəsi, 1923
**BUXARİN**. Proletar inqilabı və mədəniyyət, 1923
**STALİN**. Leninizmin əsasları haqqında, 1924
**BERDYAYEV**. Yeni ortaəsrçilik, 1924
**BERDYAYEV**. Rus kommunizmi
**AĞAMALIOĞLU**. Türk aləmində mədəni məsələlər, 1924
**NƏRİMANOV**. Lenin və Şərq, 1925
**Ruhulla AXUNDOV.** Azərbaycan Kommunist Partiyasının birinci katibi (1925-1926) statusunda çıxışları, 1921-1925
**AĞAMALIOĞLU**. Türk-tatar xalqlarının təxirəsalınmaz mədəni ehtiyacları, 1925
**CAVİD**. Topal Teymur, 1925
**SOROKİN**. İnqilabın sosiologiyası, 1925
**HİTLER**. Mənim mübarizəm, 1925
**STALİN**. Leninizm məsələlərinə dair, 1926
**LASSAUELL**. Dünya müharibəsində texnikanın təbliği, 1927
**OSTROQORSKİ**. Demokratiya və siyasi partiyalar, 1927-30
**Cəfər CABBARLI**. Sevil, 1928
**AĞAMALIOĞLU**. İki mədəniyyət, 1928
**ŞOLOXOV**. Sakit Don, 1928-40
**Ruhulla AXUNDOV.** Rus – türk lüğəti, 1928-39
**AĞAMALIOĞLU**. Namus, 1929
**Levon MİRZOYAN**. Azərbaycan Kommunist Partiyasının birinci katibi (21 yanvar 1926-05 avqust, 1929) statusunda çıxışları, 1926-1929
**Nikolay GİKALO**. Azərbaycan Kommunist Partiyasının birinci katibi statusunda çıxışları, 1929-1930
**ORTEQA-İ-QASSET**. Kütlələrin üsyanı, 1930
**Vladimir POLONSKİ**. Azərbaycan Kommunist Partiyasının birinci katibi statusunda çıxışları, 1930-1933
**Dadaş BÜNYADZADƏ**. Azərbaycan SSR Xalq Komissarları Sovetinin Sədri statusunda çıxışları, 1930-32
**FREYD**. Mədəniyyətdən narazılıq, 1930
**Cəfər CABBARLI**. Almaz, 1931
**Mircəfər BAĞIROV**. Azərbaycan SSR Xalq Komissarları Sovetinin Sədri statusunda çıxışları, 1932-33
**OSTROVSKİ**. Polad necə bərkidi, 1932-34
**Ruben RUBENOV** - Azərbaycan Kommunist Partiyasının birinci katibi statusunda çıxışları, 1933
**Mircəfər BAĞIROV.** Azərbaycan Kommunist Partiyasının birinci katibi statusunda çıxışları, 1933—53
**YAN**. Çingiz xan, 1934
**ROLLAN**. İnqilab yolu və sülh, 1935
**DƏMİRÇİZADƏ**. Türk dili, 1936
**MÜŞFİQ**. Necə əl çəkim
**Üzeyir HACIBƏYOV**. Koroğlu, 1937
**FREYD**. Musa və monoteizm, 1939
**Əhməd bəy AĞAYEV**. Mən nəyəm? 1939
**Mir Cəlal PAŞAYEV**. Bir gəncin manifesti,1939
**BULQAKOV**. Ağ qvardiya. Master və Marqarita, 1940
**ŞIXLİNSKİ**. Xatirələrim, 1943
**POPPER**. Açıq cəmiyyət və onun düşmənləri, 1945
**ÇÖRÇİL**. Memuarlar
**YASPERS**. Alman günahı, 1946
**DƏMİRÇİZADƏ**. Azərbaycan dili tarixi, 1946
**LASSAUELL**. Siyasi davranışın analizi, 1947
**BMT. İnsan Hüquqları haqqnda Ümumi Bəyənnamə, 1948**
Avropa Şurasının Nizamnaməsi, 1949
**Heydər HÜSEYNOV**. XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən, 1949
Avropa Şurası. **İnsan Hüquqlarının və Əsas Azadlıqlarının müdafiəsi haqqnda** Avropa **Konvensiyası, 1950**
**KAMYU**. Buntçu, 1951
**VURĞUN**. Zamanın bayraqdarı, 1953
**Mir Teymur YAQUBOV**. Azərbaycan Kommunist Partiyasının birinci katibi statusunda çıxışları, 1953—54
**RƏSULZADƏ**. Stalinlə ixtilal xatirələri, 1954
**Bəxtiyar VAHABZADƏ**. Ana dili, 1954
**KUROSAVA**. Yeddi samuray, 1954
**Имам МУСТАФАЕВ.** Azərbaycan Kommunist Partiyasının birinci katibi statusunda çıxışları, 1954—59
**OSSOVSKAYA**. Burjua əxlaqı, 1956
**XRUŞŞOV**. Şəxsiyyətə pərəstiş... 1956
**PASTERNAK**. Doktor Jivaqo, 1957
**JUKOV**. Xatirələr və düşüncələr, 1957
**MİLLS**. Hakimiyyət sürən elita, 1957
**POPPER**. Tarixin yoxsulluğu, 1957
**Arif MƏLİKOV**. Nağıl, 1957
**İsmayıl ŞIXLI**. Dəli Kür, 1957-67
**Teymur BÜNYADOV**. Azərbaycanın uzaq keçmişinə səyahət, 1957
**YANQ**. Meritokratiyanın yüksəlməsi (1870-2033), 1958
**Mahatma QANDI**. Bütün insanlar qardaşdır, 1958
**DUVERJE**. Siyasi elmin metodları, 1959
**Bəxtiyar VAHABZADƏ**. Gülüstan, 1959
**Vəli AXUNDOV.** Azərbaycan Kommunist Partiyasının birinci katibi statusunda çıxışları, 1959—69
**Məşədixanım NEMƏTOVA.** XIV-XVI əsr Şirvan tarixinin öyrənilməsinə dair. (Epiqrafik abidələr əsasında) Bakı, "Elm", 1959
**ROSTOU**. İqtisadi artımın mərhələləri. Qeyri-kommunist manifesti, 1960f
**Oqtay ƏFƏNDİYEV**. XVI əsrin başlanğıcında Azərbaycan Səfəvi dövlətinin doğuluşu, 1961
**BJEZİNSKİ**. Sovet siyasətində ideologiya və hakimiyyət, 1962
**Nəsir İMANQULİYEV.** Böyük Vətən müharibəsi illərində (1941-1945) Azərbaycanda sənaye və nəqliyyat işçilərinin əmək fəallığının sürətləndirilməsi uğrunda mübarizədə "Kommunist" qəzetinin rolu, 1965
**Ziyəddin GÖYÜŞOV**. Əxlaqi sərvətlər, 1966
**KAMAL TAHİR**. Dövlət ana, 1967
**Mirzə İBRAHİMOV**. Pərvanə, 1967-70
**QUMİLYOV**. Etnogenez və landşaft, 1968
**Andrey SAXAROV**. Tərəqqi, dinc yanaşı yaşama və intellektual azadlıq barədə düşüncələr, 1968
**Karl YASPERS**. AFR hara gedir, 1969

**Heydər ƏLİYEV**. Məruzə, 1969
**BMT. İnsanın Vətəndaşlıq və Siyasi Hüquqları haqqnda Pakt, 1969**
**BMT. İnsanın İqtisadi, Sosial və Mədəni Hüquqları haqqnda Pakt, 1969**
**Nelson MANDELA.** *Mübarizə mənim həyatımdır*, 1978
**BMT. Dinə, yaxud əqidəyə görə dözümsüzlük və ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqnda Bəyənnamə, 1981**
**Heydər ƏLİYEV.** Azərbaycan Kommunist Partiyasının birinci katibi statusunda çıxışları, 1969—82
**Aida İMANQULİYEVA.** Şərq şairləri Lenin və Sovetlər ölkəsi haqqında, 1970
**Cahangir KƏRİMOV**. Hüququn fəlsəfi problemləri, 1972
**MEDOUZ**. Artımın hədləri, 1972
**BELL**. Yaxınlaşmaqda olan postindustrial cəmiyyət, 1973
**OSSOVSKAYA**. Cəngavər etosu və onun şəkildəyişmələri, 1973
**MESAROVİÇ, PESTEL**. Bəşəriyyət dönüş nöqtəsində, 1974
**Şahbaz MURADOV**. Azərbaycan SSR-də qadın əmək ehtiyatlarından istifadənin ictimai-siyasi problemləri, 1974
**ANAR**. Yaxşı padşahın nağılı
**Ömər ELDAROV**. Sapun dağı hücumu iştirakçıları olmuş 72 –ci diviziyanın əsgərləri "Azərbycanın qorxmaz oğul və qizlarına" həsr olunmuş memorial, 1974
**Azad NƏBİYEV**. Qəhrəmanlıq səhifələri, 1975
**Vəli ƏLİYEV**. Tarixin izləri ilə, 1975
**TİNBERGEN**. Beynəlxalq nizamın yenidən qurulması, 1976
**ZİNOVYEV**. Görünən yüksəkliklər, 1976
**Oljas SÜLEYMENOV**. Az-ya
**LASLO**. Bəşərin məqsədləri, 1977
**PEÇÇEİ**. İnsani keyfiyyətlər, 1977
**Şamil FƏTULLAYEV**. XIX əsrin sonu XX əsrin başlanğıcında Bakıda şəhərsalma, 1977
**BREJNEV**. Kiçik torpaq. Xam torpaq, 1977. Xatirələr
**Aida İMANQULİYEVA.** Böyük Oktyabr və Şərq xalqlarının milli azadlıq mübarizəsi, 1977
**Məsumə MƏLİKOVA**. Dövlət və hüquq nəzəriyyəsi, 1979
**Lev QUMİLYOV**. Etnogenez və Yerin biosferi, 1979
**Aida İMANQULİYEVA.** Sovet Azərbaycanı və xarici Şərq, 1980
**MŞVENİERADZE**. Müasir burjua siyasi şüuru, 1981
**Müəmmər QƏZZAFİ**. Yaşıl kitab
**Aida İMANQULİYEVA.** Yaxın Şərq xalqlarının müasir ədəbiyyatında tərəqqi və ictimai ədalət uğrunda mübarizə problemi, 1982
**Kamran BAĞIROV.** Azərbaycan Kommunist Partiyasının birinci katibi statusunda çıxışları, 1982—88
**Əliyar SƏFƏRLİ**, **YUSİFOV**. Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, 1983.
**Tofiq HACIYEV**. Azərbaycan dilinin tarixi, 1983.
**ANDROPOV**. Bəyanat, 1983.
**ANDROPOV**. Bəyanat, Karl Marksın təlimi və SSRİ-də sosializm quruculuğunun bəzi problemləri, 1983
**Manaf SÜLEYMANOV**. Eşitdiklərim, oxuduqlarım və gördüklərim, 1984
**İsa HÜSEYNOV**. İdeal, 1984.
**Aida İMANQULİYEVA.** Yaxın və Orta Şərqdə milli azadlıq hərəkatı məsələləri, 1985
**Yaqub MAHMUDOV**. Azərbaycanın Avropa ölkələri ilə əlaqələri, Ağqoyunlu dövrü (XV əsrin II yarısı), 1986
**RIBAKOV**. Arbat övladları, 1987
**İsa HÜSEYNOV**. Əbədiyyət
**Avropa Şurası**. İşgəncələrin və qeyri-insani, yaxud insan ləyaqətini alçaldan rəftarın və ya cəzalarin qarşısının alinmasi haqqinda Avropa konvensiyasi, 1987
**Fərda ƏSƏDOV.** Abbasilər xilafətinin sosial-iqtisadi sistemində ordu, 1987
**Aida İMANQULİYEVA.** Yaxın Şərq xalqları ədəbiyyatı imperializmə qarşı mübarizədə, 1987
**Fəridə MƏMMƏDOVA**. Azərbaycan siyasi tarixi və tarixi coğrafiyası, 1987
**QORBAÇOV**. Yenidənqurma və yeni təfəkkür, 1988
**Bəxtiyar VAHABZADƏ**. Müraciət, 1988
**Ziya BÜNYADOV**. Müraciət, 1988
**Aydın MƏMMƏDOV**. Gərək özümüzə dinclik verməyək, 1988
**Nemət PƏNAHOV**. "Öldü var, döndü yoxdur", 1988
**Sabir RÜSTƏMXANLI**. Ömür kitabı, 1988
**Əbülfəz ƏLİYEV**. "Vəziyyət ağırdır ", 1988
**XƏLİL RZA**. Məndən başlayır Vətən, 1988
**Əbdürrəhman VƏZİROV**. Azərbaycan Kommunist Partiyasının birinci katibi statusunda çıxışları, 1988—90
**İlham MƏMMƏDZADƏ**. Siyasət və əxlaq, 1988
**Asif ƏFƏNDİYEV**. İnam və şübhə, 1988
**Yaşar QARAYEV**. Meyar – şəxsiyyətdir, 1988
**Ömər ELDAROV**. akademik Zərifə xanım Əliyevanın xatirəsini əbədiləşdirən "Elegiya" abidəsi, 1989
**BJEZİNSKİ**. Böyük məğlubiyyət: XX əsrdə kommunizmin doğuluşu və ölümü, 1989
**Ziya BÜNYADOV**. Niyə Sumqayıt, 1989
**ELÇİN**. Ölüm hökmü, 1989
**Heydər ƏLİYEV**. Bəyanat, 1990
**Bəxtiyar VAHABZADƏ**. Müraciət, 1990
**Elmira QAFAROVA**. Bəyanat, 1990
**Ayaz MÜTƏLLİBOV**. Azərbaycan Kommunist Partiyasının birinci katibi statusunda çıxışları, 1990—91
**Nailə VƏLİXANLI**. 20 yanvar ağısı, 1990
**XƏLİL RZA**. Davam edir 37, 1990
**Bəxtiyar VAHABZADƏ**. Şəhidlər, 1990
**İsa QƏMBƏROV**. Müraciət, 1990
**Etibar MƏMMƏDOV**. Lefortovo gündəliyi, 1990
**Boris YELTSİN**. Verilmiş mövzuda etiraf, 1990
**Cəfər QİYASİ**. Xudafərin-Dərdi Dərin, 1990
**Corc SOROS**. Sovet sisteminin açılması, 1990
**İsa HƏBİBBƏYLİ**. Əsrin dörddə biri, 1991
**Fərda ƏSƏDOV.** Eski ərəb mənbələrinə görə Türklər, 1991
**Corc SOROS**. Demokratiyanın sığortası, 1991
**Kamal ABDULLAYEV**. Gizli Dədə Qorqud, 1991
Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Qanun, 1991
Şuşa ətrafında Kərkicahan kəndi işğal olundu, 1992, 19 yanvar
**Məmməd ARAZ**. Ayağa dur Azərbaycan, səninləyəm, 1992
Azərbaycan Ordusunun Müdafiə niziri Tacəddin Mehdiyevin rəhbərliyi ilə göstərdiyi ilk ciddi əməliyyat cəhdi Şuşanın Daşaltı kəndində uğursuzluğa düçar oldu, 1992, 26 yanvar
Ağdamdan Şuşaya ucan vertolyot ermənilər tərəfindən vuruldu, 1992, 28 yanvar
Praqada Avropada Əməkdaşlıq və Təhlükəsizlik Müşavirəsinin İşlər Nazirlərinin Toplantısında Azərbaycan ATƏM üzvlüyünə qəbul olundu, 1992, 30 yanvar

# Mənbələr


Avropada Əməkdaçlıq və Təhlükəsizlik Müşavirəsi. Dağlıq Qarabağ münaqişəsi ilə bağlı regiona missiya göndərmək barədə qərar, 1992, 30 yanvar

Ağdərənin Sırxavənd kəndi işğal olundu, 1992, 07 fevral

Şuşa ətrafında Malıbəyli kəndi işğal olundu, 1992, fevral

Şuşa ətrafında Quşçular kəndi işğal olundu, 1992, fevral

Xocavəndin Qaradağlı kəndi işğal olundu, 1992, 17 fevral

Müdafiə niziri Tacəddin Mehdiyev istefaya göndərildi, 1992, 17 fevral

Xocalı işğal olundu, 1992, 25-26 fevral

Azərbaycan Respublikası BMT-yə üzv oldu, 1992, 02 mart

Ali Sovetin sədri Elmira Qafarova istefa verdi, 1992, 6 mart

Yaqub Məmmədov Ali Sovetin sədri seçildi, 1992, 6 mart

ATƏM Nazirlər Şurasının Helsinkidə keçirilən toplantısında üzvləri Azərbaycan, Ermənistan, Rusiya, ABŞ, Fransa, Polşa, Almaniya, Türkiyə, Belarus, Funlandiya və İsveç olmaqla Minsk qrupunun yaradılması barədə qərar qəbul etdi, 24 mart

Ayaz Mütəllibov istefa verdi, 1992, aprel,

Yaqub Məmmədov Ali Sovetin sədri olaraq prezident səlahiyyətlərinin icraçısı təyin olundu

Şuşa işğal olundu, 1992, may

Yaqub Məmmədov. Şuşanın işğalı ilə bağlı xalqa müraciət, 1992

Milli Məclis Ayaz Mütəllibovun vəzifəyə qaytarılması barədə qərar qəbul etdi, 1992, 14 may

Ayaz Mütəllibov. Xahiş edirəm istefamı müzakirəsiz qəbul edəsiniz, 1992, 15 may

Ali Sovetin növbədənkənar iclasında Yaqub Məmmədov Ali Sovetin sədri vəzifəsindən, prezident səlahiyyətlərinin icraçısı vəzifələrindən istefa verdi, Ali Sovetin sədri vəzifəsinə Xalq Cəbhəsi sədrinin müavini İsa Qəmbərov seçildi

Laçın işğal oldundu, 1992,18 may

ATƏM Romada Azərbaycanın, Ermənistanın, Belarusun, Çexoslavakiyanın, Fransanın, Almaniyanın, İtaliyanın, Rusiyanın, Türkiyənin və ABŞ-ın iştirakı ilə ilk nizamlama görüşü keçirildi, 1992, 01 iyun

Əbüdfəz Elçibəy prezident seçildi, 1992, iyun

Barselona Yay Olimpiya oyunlarında Azərbaycan idmançısı Nazim Hüseynov qızıl medal qazandı dünya olimpiya hərəkatında ilk dəfə olaraq Azərbaycan bayrağı qaldırıldı və himni səsləndirildi, 1992, 25 iyin

Ağdərə rayonu Azərbaycan ordusu tərəfindən işğaldan azad edildi, 1992, yay

Azərbaycanın milli valyutası olan manat dövriyyəyə buraxıldı, 1992**,** 15 avqust

ABŞ Konqresində keçmiş sover resrublikalarına humanitar yardımı tənzimləyən qanuna "Azadlığa dəstək" aktına 907-ci düzəliş əlavə edildi, 1992, 24 oktyabr

Azərbaycanda ali məktəblərə qəbul imtahanlarının test üsulu ilə keçirilməsi barədə qərar verildi, 1992, 15 noyabr,

Heydər Əliyevin sədrliyi ilə Yeni Azərbaycan Partiyası yaradıldı, 1992, 21 noyabr

BMT TŞ Dağlıq Qarabağ üzrə 822 saylı qətnamə, 30 aprel, 1993

**Əbüdfəz ELÇİBƏY**. Əgər belə olacaqsa, biz dövlətimizi itirəcəyik, 1993

**Heydər ƏLİYEV**. Müraciət, 1993

BMT TŞ Dağlıq Qarabağ üzrə 853 saylı qətnamə, iyul, 1993

BMT TŞ Dağlıq Qarabağ üzrə 874 saylı qətnamə, 14 oktyabr, 1993

BMT TŞ Dağlıq Qarabağ üzrə 874 saylı qətnamə, noyabr, 11, 1993

Ermənistan silahlı birləşmələri Azərbaycanın Ağdam rayonunu işğal etdi, 23 iyul, 1993

Rusiya, ABŞ, Fransa ATƏT-ni Minsk qrupunun həmsədrləri təyin edildi, 1996 dekabr

**Akif MUSAYEV**. Bazar münasibətlərinə keçid şəraitində neft maşınqayırma müəssisələrinin idarə olunma problemləri, 1993

**Nelson MANDELA.** *Azadlığa doğru uzun yol (Cild I: 1918–1962),* 1994

**Boris YELTSİN**. Prezidentin qeydləri, 1994

**ZÜQANOV**. Derjava, 1994[2]

**Abdusalam QUSEYNOV**. Əxlaqi demoqogiya zorakılığın apologiyası kimi, 1995

**Aleksandr LEBED**. Vətənimə ürəyim yanır, 1995

**Nizami CƏFƏROV**. Azərbaycan türkcəsinin milliləşməsi tarixi, 1995

**Barak OBAMA.** Atamdan əxz etdiyim arzular: İrqin hekatəti və Miras, 1995

**Əfrand DAŞDƏMİROV**. Milli ideya və etnik xüsusiyyət, 1996

**Yaşar QARAYEV**. Tarix: yaxından və uzaqdan, 1996

**İlyas BABAYEV**. Atropaten və Alban dövlətləri, 1996

**Aslan MASXADOV**. Şərəf həyatdan daha əzizdir, 1997

**Həsən ŞİRƏLİYEV, Əli ƏHMƏDOV**. Politologiya, 1997

**Əli NURİYEV**. Anamın həyat fəlsəfəsi, 1997

**Arif MEHDİYEV**. Xəzər dənizinin ekoloji problemləri və onların həlli perspektivləri. Xəzəryanı regionun elmi, ətraf mühitin və siyasi məsələləri, 1997

**Ziyad SƏMƏDZADƏ**. Azərbaycan iqtisadiyyatı XX əsrdə: inkişaf mərhələləri, problemlər, XX əsrin birinci onilliyində iqtisadi inkişaf konsepsiyası haqqında düşüncələr, 1997

**Corc SOROS**. Qlobal kapitalizmin böhranı: Açıq cəmiyyətə təhlükə, 1998

**Zemfira VERDİYEVA**. Bağlı qapılar açılanda,

**Əli HƏSƏNOV**. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri,

**Araz AĞALAROV**. Rusiya: bazara doğtu yolda düşüncələr, 1998

Azərbaycanın və Dağıstanın böyük oğlu \Əliyev Əziz Məmmədkərim oğlu, haqqında., 1998

**Araz AĞALAROV**. İslahatlar dövrü Rusiyasına mənim baxışım, 1998

**Afat QURBANOV**. Ortaq türk ədəbi dili,

**Həsən QULİYEV**. Qorqud nəslinin arxetipləri (mentalitetin labirintlərində),

**Cəmil QULİYEV.** General Hüseyn Rəsulbəyov (film), 1998

**Vasim MƏMMƏDƏLİYEV**. "Vəhhabilik nədir?"

**Zemfira SƏFƏROVA**. Həmişəyaşar ənənələr,

**Fatma ABDULLAZADƏ**. Heydər Əliyev. Siyasi portret, 1998

**Misir MƏRDANOV**. Azərbaycan təhsilinin böyük qurucusu, 1999

**Teymur KƏRİMLİ**. Heydər Əliyev və Azərbaycan incəsənəti, 2000

**Ərəstun MEHDİYEV**. Azərbaycan-1993: anarxiyadan sabitliyə, 2000

**Vladimir PUTİN.** Rusiya minilliklər ayrıcında, 1999

**Boris YELTSİN**. Prezident marafonu, 2000

**Araz AĞALAROV**. Daha bir səy?... : İqtisadiyyat barədə 1996-1999-cu illərdə çap olunmuş məqalələr, 2000

BMT BA. Minilliyin dekalarasiyası (Minilliyin inkişaf məqsədləri), 2000

**Fatma ABDULLAZADƏ**. **Fuad ƏLƏSGƏROV**, **Əli ƏLİRZAYEV, Əli ƏSƏDOV.** Azərbaycan Respublikası 1991-2001, 2001

**Səlahəddin XƏLİLOV**. Lider. Dövlət. Cəmiyyət, 2001

**Rafael HÜSEYNOV**. Millətin zərrəsi, 2001

ABŞ Konqresi ABŞ Administrasiyasının müraciəti əsasında keçmiş sover resrublikalarına humanitar yardımı tənzimləyən qanuna "Azadlığa dəstək" aktına 907-ci düzəlişdən irəli gələn qadağanın qüvvəsini dayandırdı, 2001

**Nizami CƏFƏROV**. Azərbaycanlılar: etnokulturoloji birliyin siyasi-ideoloji üfüqləri, 2001.

**SINAV**. Qurdlar vadisi, 2001

**Sevda MƏMMƏDƏLİYEVA**. Azərbaycan Respublikasında mədəniyyət siyasəti (əsas faktlar və təmayüllər), 2002

**Rəna MƏMMƏDOVA**. Musiqi türkologiyası, 2002

**Bağır ƏSƏDOV** (red). Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin Kommentariyası, 2002

**Hacı Qadir QƏDİRZADƏ**. Ailə və məişətlə bağlı adətlər, inamlar, etnogenetik əlaqələr, 2003

**Şərafuddin ƏHMƏDOV.** Əziz Əliyev – Dağıstanda həyatı, dövlət və siyasi fəaliyyəti (1942-1948-ci illər), 2003

**Boris BEREZOVSKİ**. Mümkün olmayanı mümkün etmək sənəti, 1992-2003

**Novruz MƏMMƏDOV**. Xilaskar. (Film), 2003

**Hacıbala ABUTALIBOV**. Qurtuluş gününün 10 illiyi, 2003

**Fikrət MƏMMƏDOV**. Heydər Əliyev siyasi kursu Azərbaycan xalqının yeganə nicat yoludur, 2003

**Kamran ƏLİYEV**. Ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə aparılan islahatlar kursu prokurorluq orqanlarının işinin səmərəliliyini daha da artırmışdır, 2004

**Artur RASİ-ZADƏ**. Çıxış, 2003

